DİLARƏ AĞAMUSA NAĞIYEVA - MUXTAROVA

# HƏR ÖMÜR BİR TAMAŞA.,

## BAKI GECƏLƏRİ

*Ağa Musa Nağıyevin keçirdiyi məclislər*
*"Bakı gecələri" adlanıb*

Bakı – "Elm" – 2018

**Baş məsləhətçi:** **Asif Rüstəmli**
*Filologiya e.d., professor*
**Əsədulla Qurbanov**
*Bakı Dövlət Universitetinin professoru,*
*fəlsəfə e.d.*

**Redaktor:** **Nəzakət Qafqazlı**
*AMEA-nın aparıcı elmi işçisi,*
*filologiya ü.f.d.*
**Bahar Qasımova**
**Gülnarə Nağıyeva**

**Dizayn:** **Könül Muxtar qızı Muxtarova**

**Dilarə Ağamusa Nağıyeva - Muxtarova**
**HƏR ÖMÜR BİR TAMAŞA.,**
**(*Bakı gecələri)***
**BAKI, Elm, 2018, ...səh**

*“Elm” nəşriyyatı*

*XX yüzillikdə Şərqdə ilk dəfə bir Cümhuriyyət yarandı və tez də söndü. Yüzilliyin sonunda isə yenidən mərd oğullarımız Şərqin - Qərbin qapısında gələcəyi olan müstəqil Azərbaycanı qurdular ki, keçmişimizi, tariximizi və mesenatlarımızın taleyini öyrənməklə daha böyük uğurlar əldə edə bilək.*

*Məhz bu baxımdan Ağa Musa Nağıyev irsinin öyrənilməsini, təbliğ olunmasını vacib sayıram. Xalqının ehtiyaclarına bütün varlığı, qəlbi ilə səs verən, Bakının quruculuq işlərinə ömrünü damla-damla sərf edən, həyatının mənasını millətinə xidmətdə görən fədakarlıq simvolu, səmimiyyət rəmzi olan Ağa Musa Nağıyevin nurlu əməlləri ilə yaddaşlarda hər zaman yaşayacağına inanıram.*

*Millətin müstəqil dövləti olmadığı bir zamanda Ağa Musa bu dövlətin görəcəyi işləri həyata keçirib, neftdən əldə etdiyi gəliri millətinin tərəqqisinə sərf edib. Bakıda qısa müddət ərzində bütöv bir ziyalı nəslinin təşəkkül tapması da A.M.Nağıyevin və digər azərbaycan xeyriyyəçilərinin əməyi və vəsaiti sayəsində həyata keçib.*

*Xeyirxahlığa, insanlığa can atmaq Ağa Musa Nağıyevin həyat kredosuna çevrilir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 16 may 2017-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi haqqında imzaladığı Sərəncamı ilə 2018-ci ili "Azərbaycan Xalq Cümhuriyyəti ili"elan edilmişdir.*

*Hayıflar olsun ki, Cümhuriyyətin yaranmasını görən Ağa Musa Nağıyev də çox yaşamır. Və vəfatının 100 illiyi Cümhuriyyətin 100 illiyi ilə üst-üstə düşür.*

*Azərbaycan Respublikasının Prezidenti*
*Cənab İlham Əliyevə*

*Azərbaycan Respublikasının Birinci Vitse-prezidenti xanım Mehriban Əliyevaya*

*Heydər Əliyev Fondunun Vitse-prezidenti*
*Leyla xanım Əliyevaya*

*Göstərdikləri diqqət və qayğıya görə təşəkkürlərimi bildirirəm.*

*"İSMAİLİYYƏ" binasında Azərbaycan Milli Elmlər Akademiyası fəaliyyət göstərir.*

*AMEA-nın Prezidenti*
*Akademik Akif Əlizadəyə*

*Ağa Musa Nağıyev ilə bağlı fəaliyyətimə dəyər verdiyinə və "Hər ömür bir tamaşa.," kitabının çap edilməsində göstərdiyi xeyriyyəçiliyə görə təşəkkürlərimi və minnətdarlığımı bildirirəm.*



**Ağa Musa Hacı Nağı oğlu Nağıyev**
**(1849-1919)**

**Kitab neft kralı – milyonçu - ictimaiyyətçi - xeyriyyəçinin vəfatının 100 illiyinə həsr olunur**


NAĞIYEVLƏRİN NƏSİL ŞƏCƏRƏSİ
SAMİR (1964)
KÖNÜL (1979)
FƏRƏH (1973)
GÜLƏVŞƏN (1956)
ELŞƏN (1959)
ZƏHRA (1980)
GÜLŞƏN (1953)
RÖVŞƏN (1955)
NİGAR (1977)
DİLARƏ (1940)
GÜLNARƏ (1962)
SOLMAZ (1931)
GÜLARƏ (1957)
OFELYA (1941)
SAMİRƏ (1973)
RAUF (1930-1999)
ÇİNGİZ
AĞA ƏLİ
MURAD
DURSUN
ZEYNALABDİN
ABDULLA
AĞA TAĞI
HƏMİD
HACI NAĞI
NAĞIYEV
ULU BABA
TƏRTİB EDƏN:
HACIXANIM DİLARƏ NAĞIYEVA




Hambal şələsinin kənarlarında sünbül çələngləri, mərkəzində soykökü MH hərfləri həkk edilmiş daş kitabə - VENZEL Ağa Musanın keçmişini unutmadığına - hamballıq etdiyinə, atasının saman satan olduğuna bir işarədir.

Binalarının üzərinə vurulmuş bu VENZEL, milyonçunun daşlaşmış möhürünün təsirini bağışlayır. İş otağında başının üstündən asdığı VENZEli 2 kq. qızıldan sifariş etdirmişdi.

Bu gün bu EMBLEMi adını daşıdığı Təşkilatın möhürü ilə yaşadıram.

**Ağa Musa Nağıyev tədqiqatçısı olaraq, fəaliyyətim dövründə bir neçə insana borcluyam:**

Atama -məni dünyaya gətirdiyinə görə;
Anama- süd verdiyinə görə;
Ağa Musa babama -məni Azərbaycana tanıtdırdığına görə;

Arif Şəfaət oğlu Mehdiyevə – Akademik, Ali Attestasiya Komissiyasının sabiq sədrinə – məni elmə yönəltdiyinə görə;

Akif Əlizadəyə – AMEA-nın Prezidentinə - “Zamanın sorağında” kitabımın rus dilində çapının təşkilinə görə;

Yaqub Mahmudova – Akademik,Tarix İnstitutunun direktoruna - mənə alimlik dərəcəsini almaq yolunda dəstək olduğuna görə;

Əli Abbasova - Akademik, mənim və bacım Solmaz xanımın mənzil şəraitinin yaxşılaşdırılmasında göstərdiyi dəstəyə görə;

Şəmsəddin Hacıyevə – İqtisad Universitetinin sabiq rektoru, Millət vəkilinə;
Nazim İbrahimova – Diasporla iş üzrə Dövlət Komitəsinin sədrinə

A.M.Nağıyevin 100 il əvvəlki vəsiyyətinə əməl edərək, tikdirdiyi binalarda, hər iki təşkilatda guşəsini yaratdıqlarına görə.

## MÜƏLLİFDƏN

Ağa Musa Nağıyevin ziddiyyətli, sevincli, kədərli və faciəli həyatı bütövlükdə doğma xalqının tarixi və mədəniyyəti ilə bağlı olub.

XIX əsrin sonlarında, XX əsrin əvvəllərində neftə artan tələbat Azərbaycan milli burjuaziyasının təşəkkülünə səbəb olub.

Bakının 11 milyonçusunun malik olduqları var-dövlət, həmin dövrün bəzi hökmdarlarının xəzinələrində olduğundan daha çox idi.

A.M.Nağıyevin və digər mesenatların əməyi və milyonları sayəsində Azərbaycanda qısa müddət ərzində bütöv bir ziyalı nəsli təşəkkül tapır.

Tanrı hələ kiçik yaşlarından onu özündən böyük yükün altına yıxır. Zəhmətinin bəhrəsini – yalnız çörəyə və qəndə çatan pulunu qazanıb, ehtiyac duyan ailəsinə köməkdə görən Ağa Musa, sonradan xeyirxahlığı, ziyalı təfəkkürü ilə zəmanəsinin mesenatları arasında özünəməxsus yer tutanlardan olur.

Ziyalılığı, alicənablığı və təvazökarlığı özündə cəmləşdirə bilən neft milyonçusu A.M.Nağıyev, keçdiyi həyat yolunun məqamlarını özündə əks etdirməyi bacarıb.

A.M.Nağıyevin qazandığı sərvətin ölçüsü hesaba gəlməzdir. Onun sahibkarlıq və ictimai fəaliyyətini öyrəndikcə, xalq onu daha çox qiymətləndirir.

Tarixə əfsanəvi milyonçu kimi daxil olan A.M.Nağıyev kapitalını o dövrdə cəhalət girdabında boğulan xalqın maariflənməsinə, onun dünya görüşünün ümumi mədəni səviyyəsinin yüksəlməsi istiqamətinə sərf etməklə bərabər, bina tikintisinə yönəltmişdir.

Tikdirdiyi 98 binanın - yadigarlarının hər naxışında neft milyonçusunun saf əməlləri, vətənpərvərliyi, milli təəssübkeşliyi hiss olunur. Ağa Musa var dövlətini şəxsi mənafeyinin reallaşmasına deyil, vətəni və xalqının rifahı

naminə sərf etmişdir. Uşaq ölümü ilə mübarizə aparan "Bakı Cəmiyyəti"nə küllü miqdarda pul köçürən, xeyriyyəçilik məqsədilə bir sıra işlərə imza atan Ağa Musa Nağıyevin əməlləri mənə kiçik yaşlarımdan aşılanıb. Sovet dövründə yaşanan ictimai-siyasi böhran mənim də taleyimdən yan keçməyib. Nəslin davamçısı kimi uzun illər bu ağrı-acını mən də yaşadım.

Milyonçunun adını daşıyan "Milli Dəyərlərin Qorunması" İctimai Birliyini yaratmaqla, dəyərli nəslimin təbliğatına diqqət yetirərək, bir sıra işləri həyata keçirirəm.

Kitabı oxuyarkən neçə illərdir ki, haqqında yazdıqlarımla - Ağa Musa Nağıyevin sayagəlməz möhtəşəm tikililərinin, maariflənməyə və səhiyyənin inkişafına yönəltdiyi işlərin, hətta bolşeviklər tərəfindən oğurlanarkən pullarını göyə sovurmayan anların şahidi olub, imkansızlara əl tutmasından, vəfatının 40 günü tamam olmamış əmlakının qohumlar arasında bölüşdürməsi faktları ilə tanış olduqca, onun insani keyfiyyətlərini qiymətləndirərək, hər birinizin ürəyində Ağa Musa Nağıyevə xüsusi yer ayıracağınıza əminəm.

*Xüsusi olaraq kitabın bir heçə dəfə təkrarən redaktə edilməsində mənimlə birlikdə keçirdiyi yuxusuz gecələrə, diqqət və səbrinə görə - kitabın redaktoru, Respublika Qadınlar Cəmiyyətinin sədri, yaxın rəfiqəm, ürək dostum Bahar xanım Qasımovaya təşəkkürümü bildirərək, arzu edirəm ki, ömür mənə vəfa etsə, axarıncı kitabları daha dolğun işləyək.*

## FƏDAKAR TƏDQİQATÇI

Yaxın keçmişimizin milli tarixini diqqətlə nəzərdən keçirdikdə ağ buraxılan, kölgədə qalan nə qədər səhifələr var?! Sovet rejiminin, onun mənfur ideologiyasının milli mədəniyyətimizə, tarixi şəxsiyyətlərimizə qarşı apardığı 70 illik böhtan, qarayaxma kampaniyaları nəticədə xalqa istilanı istiqlal, işğalçını xilaskar, düşməni dost kimi təqdim etmiş, görkəmli, qüdrətli, xeyriyyəçi, mesenat, quruculuq işləri ilə sıx məşğul olan insanları, sərmayə sahiblərini gözdən salmağa çalışmışdılar... Antimilli tendensiya uzun onilliklər davam etmişdir...

Azərbaycan dövləti müstəqilliyini bərpa etdikdən sonra milli dəyərlərimizin, tarixi ədalətin bərpası prosesinə rəvac verildi, əsl həqiqətlərin üzə çıxarılması üçün geniş üfüqlər açıldı. Ümummilli mənafein müdafiəsi istiqamətində vətənpərvər, cəfakeş, milli ruhlu tədqiqatçılarımız sözün birbaşa mənasında qollarını çırmalayaraq arxivlərə üz tutdu. Tarixi həqiqətləri aşkara çıxarmaq üçün misilsiz zəhmətlərə qatlaşmalı olub, fədakarlıq nümayiş etdirdilər. Belə cəfakeş araşdırıcılardan biri də, tədqiqatları ilə yaxından tanış olduğum, ciddi elmi-publisistik əsərlərin müəllifi Dilarə xanım Ağamusadır. Onun tədqiqat

obyekti əsasən XIX əsrin ikinci yarısı, XX yüzilliyin əvvəlləridir.

Dilarə xanım Ağamusa Azərbaycan tarixində quruculuq işləri ilə iz qoymuş, bacarığı, fərasəti, təfəkkürü ilə həyatın dibindən cəmiyyətdə ən yüksək məqama qədər yüksəlmiş, zəhmətin əzəmətli simvoluna çevrilmiş, "İsmailiyyə" kimi möhtəşəm istiqlaliyyət ocağını yaratmış Ağa Musa Nağıyevin nəvəsidir. Dilarə xanımın bütün əsərlərinin mərkəzində Azərbaycan milyonçusu və mesenatı Ağa Musa Nağıyev dövrü, mühiti, epoxası, fəaliyyət sferası ilə bütöv halda dayanır.

Dilarə xanım Ağamusanın altıncı kitabı olan "Nurlu əməllərin sönməyən işığı" kitabının çapa hazırlanmasında və redaktə işi ilə əlaqədar faktları dəqiqləşdirmək, mühüm məqamlara aydınlıq gətirmək üçün müəlliflə işgüzar ünsiyyətdə, sıx təmaslarda bulunmaq mənə də qismət olmuşdur.

Doğrusunu deyim ki, Dilarə xanım Ağamusa çox təmkinli, kübar, mövzu müzakirəsinə hər zaman açıq, prinsipial mövqeyindən asanlıqla dönməyən, ziddiyyətli məqamlara elmi, məntiqi düşüncələrə əsaslanaraq aydınlıq gətirməyi bacaran ziyalı xanımdır. Bir daha iş prosesində onun araşdırdığı materiallara, tarixi faktlara nə qədər ciddi, məsuliyyətli yanaşdığının şahidi oldum.

Zəhmətsevərlik, çalışqanlıq, fədakarlıq özü də gendən, soydan, nəsil-nəcabətdən gələn bir irsi keyfiyyətdir. Ağa Musa Nağıyevin işgüzarlığı, dəqiqliyi, cəfakeşliyi sayəsində milyonlar qazanmaq bacarığı, cəmiyyətdə nüfuzlu şəxsə çevrilməsi, minlərlə insana rəhbərlik etməsi, onların taleyində mühüm rol oynaması sadalanan irsi keyfiyyətlərin bariz təzahürüdür. Eyni xüsusiyyətlərin daşıyıcısı olan Fərəc Nağıyevin isə qələmə aldıqığı bədii həqiqətlər, ədəbi əsərlər toplusu bu gün də dəyərli mənbə olaraq arxivlərdə mühafizə edilir.

Dilarə Ağamusanın vücuda gətirdiyi və oxuculara təqdim etdiyi “Hər ömür bir tamaşa” adlı kitabı mövzu genişliyi, faktların elmi yeniliyi ilə fərqlənir. O peşəkar tədqiqatçı kimi arxivlərdən sənədləri, materialları, faktları mövzuya uyğun olaraq seçməyi, sistemləşdirməyi, təhlil etməyi, dəyərləndirməyi və oxuculara ünvanlandırmağı böyük səriştə ilə bacarır. Təqdim olunan əsərdə müəllif Ümmül Banu - Banin, İsmayıl və Fərəc Nağıyevlər, M.Muxtarov, Züleyxa Əsədullayeva, Yelizaveta Qriqoryevna, Xədicə Əsədullayeva-Nağıyeva, Murad Nağıyev, Liza Muxtarova və digər şəxslər haqqında maraqlı materiallar, sənədlər, faktlar yer almışdır.

Kitabda dövrün hadisələrinə, mədəniyyət xəbərlərinə, insanlar arasındakı ictimai-sosial

münasibətlərə, maarif, xeyirxahlıq məsələlərinə xüsusi diqqət ayrılmışdır.

Kitabın əhəmiyyəti Azərbaycan gənclərinə, oxucularına vətənpərvərlik hissinin aşılanması, tədqiq olunmayan sahələrin üzə çıxarılması, görkəmli şəxslərin daha ətraflı tanıdılması, təbliği, milli duyğuların inkişaf etdirilməsi məramı ilə şərtlənir. Bu kitabı da tədqiqatçının "Zamanın sorağında", "Nurlu əməllərin sönməyən işığı" və b. əsərlərinin elmi yönümü, mənəvi davamı hesab etmək olar.

Fədakar tədqiqatçı, yorulmaz alim Dilarə xanım Ağamusanın "Hər ömür bir tamaşa" adlı yeni kitabını müəllifin böyük uğuru, növbəti nailiyyəti adlandırmaq olar və çağdaş oxucu auditoriyasının bu əsəri böyük sevgi və maraqla qarşılayacağına zərrəcə şübhə etmirəm.

**Asif Rüstəmli,**

***filologiya üzrə elmlər doktoru, professor***

# ÖN SÖZ

Dilçilik elmində elə terminlər vardır ki, onların kəsb etdiyi dərin məna, məzmun və mündəricələrinə görə - bəşəri mahiyyət daşıyırlar. Bunlar əsasən Azərbaycan dilinin qədimliyindən və zənginliyindən, əsasən də xəlqi səciyyə daşıdıqlarından irəli gəlir. Belə məfhumlardan, anlayışlardan: “yaxşılıq”, “xeyirxahlıq”, “xeyriyyəçilik” və s. terminlərini misal gətirmək olar.

Bu ifadələrin hər birində qədirbilən xalqımızın təfəkkür tərzi, milli – mənəvi dəyərləri, qəhrəmanlıq simfoniyası, uvertyurası,qəhrəmanlıq mübarizəsi tarixinin səlnaməsini biruzə verən, təzahür etdirən anlamlar duyulur.

Əsl mətləb: zəngin ümumbəşəri duyumları ilə səciyyələnən “xeyriyyəçilik” - qədirbilən xalqın xeyirxahlığı - bilavasitə özünəməxsus spesifik xüsusiyyətləri ilə yadda qalmasıdır.

Bu baxımdan Bakı milyonçusu Ağa Musa Nağıyevin oğul nəvəsi, tarix üzrə fəlsəfə doktoru Dilarə xanımın çoxsaylı oxucularla görüşünə gələn **“Hər ömür bir tamaşa”** adlı kitabı diqqət cəlb edir.

Dilarə xanımın babası haqqında yazdığı xatirə əsərlərindən biri olan – **“Zamanın sorağında”** kitabı da müasir-tələbkar oxucularda böyük maraq doğurmuşdu. Real, inandırıcı, tarixi faktlarla zəngin olan bu əsər də oxucuya ruh verir, parlaq gələcəyə ümidlərini daha da çoxaldır.

Müəllifin yeni kitabında oxucunun yaddaşına, əqidəsinə həkk olunan əsərin qəhrəmanı – Ağa Musa Nağıyev təkcə maddi cəhətdən deyil, eyni zamanda

mənəvi cəhətdən də çox zəngin, humanist, beynəlmiləl bir azərbaycanlı kimi qələmə verilib.

Müəllif Azərbaycanda XIX əsrin sonu və XX əsrin əvvəllərindəki tariximizi, konkret inandırıcı faktlar əsasında neft sahəsini və dövrün ən önəmli səhifələrini bu kitabında peşəkarlıqla səciyyələndirə bilmişdir.

Məhz bu illərdə Azərbaycanın mədəniyyət və sağlamlıq ocaqlarını inşa etdirməklə Ağa Musa Nağıyevin milli dirçəlişimizdə böyük rolu olmuşdur.

Dilarə xanım kitabda belə bir ifadə işlədir: "Həyatda elə yaşa ki, arxaya baxanda izlərini görə biləsən."

O, bu kitabı ilə öz izlərini qoymaqla bərabər, oxucunu tariximizin qoyduğu izlərilə də tanış edir, onları bir əsr əvvələ qaytarıb, o illəri yaşadır. Bilmədiklərimizin şahidinə çevirir, eşitmədiklərimizi eşitdirir, düşünməyə məcbur edir. Bir an düşündürür ki, xalqın belə oğullarını niyə və nəyə görə tanımağa imkan verməyiblər. Fəxr hissi duyursan "Əcdadlarımızla".

Kitab bir daha ona görə maraqlıdır ki, Ağa Musa haqqında indiyə qədər eşitmədiyimiz, heç bir yerdə rast gəlmədiyimiz yeni faktlarla üzləşirik.

Müəllif eləcə də digər milyonçuların da həyatında, fəaliyyətində, xeyriyyəçilik işlərindəki maraqlı faktları qələmə alıb bizlərə çatdırır.

Belə ki, o, – başqa millətin nümayəndələrinin milyonçu A.Ş.Əsədullayevin tabutunun əlləri üstündə uzaq ellərdən Vətənə yola salınması və Bakıda böyük izdihamla dəfn olunması, eləcə də cəsədinin mumiyalanması faktlarından xəbər verir.

Kitab həmçinin Ümmül Banu, İsmayıl və Fərəc Nağıyevlər, M.Muxtarov, Züleyxa Əsədullayeva, Yelizaveta Qriqoryevna, Xədicə Əsədullayeva-Nağıyeva, Murad Nağıyev, Liza Muxtarova və digər insanlar haqqında tarixi materiallarla zəngindir.

İnanıram ki, kitab böyük marağa səbəb olacaq. Bundan sonra da hələ də bilmədiyimiz, oxumadığımız faktları bizlərə açıqlayacaq Dilarə xanım?!

Bu da Dilarə xanımın tarixdə qoyduğu izlər olacaq.

Dilarə xanım A.M.Nağıyevin geniş fəaliyyəti dövründə Azərbaycanda maarifçiliyə, xüsusilə islam maarifçiliyinə əlahiddə diqqət yetirmişdir. Bu, heç də təsadüfi deyildir ki, Bakıda yaşayan və işləyən qeyri – millətlərin təmsilçiləri Ağa Musa Nağıyevin dəfn və hüzn mərasimində xüsusi fəallıq göstərmişlər.

Fikrimi akademik, mərhum Xudu Məmmədovun məşhur bayatısı ilə yekunlaşdırmaq istərdim.

Bu qala bizim qala,
Həmişə bizim qala,
Tikmədim özüm qalam,
Tikdim ki, izim qala.

Təsadüfi deyildir ki, babası kimi xeyirxahlıq simvoluna çevrilən **Dilarə Ağamusa** 2011-ci ildə BMT yanında Ümumdünya Sülh Federasiyasının "Sülh Səfiri" fəxri diplomuna layiq görülmüşdür.

Əziz və çox hörmətli Dilarə xanım! Sizin əsəriniz təkcə babanız **-** məşhur milyonçu, xeyriyyəçi Ağa Musa Nağıyev haqqında deyil, bu kitab – monoqrafiya, eyni zamanda qədim və zəngin tariximizin qeyd olunan dövrü üçün sənədli bir toplumdur.

**Kitabın Baş məsləhətçisi,**
*Bakı Dövlət Universitetinin professoru,*
*fəlsəfə e. d. Əsədulla Qurbanov*

## ÖVLAD QƏDRŞÜNASLIĞI

Qədrşünaslıq…. Keçmişi unutmaq… Xeyirxahlıq etmiş insanları bilərəkdən unutdurmaq…

Bunları söyləmək nə qədər də asandır. Amma..

Bu dünyada heç nə əvəzsiz qalmır, yaxşılıq da, yamanlıq da.

Haqqı nahaqqa verməyənin yolunda özünü sözün əsil mənasında fəda edən insanlardan biri də işgüzarlığına, zəhmətsevərliyinə, fədakarlığına böyük hörmət bəslədiyim əzizim Dilarə Fərəc qızı Nağıyevadır.

Ömrünün 25 ildən yuxarıdır ki, babası – Bakı milyonçusu Ağa Musa Nağıyevin həyat və fəaliyyətinin tədqiqinə həsr edən Dilarə xanım bu çətin yolda böyük uğurlar əldə etmişdir. Əvvəllər Dilarə Ağamusa “Azərbaycanfilm” Kinostudiyasında və Ticarət Nazirliyində şöbə müdiri vəzifəsində işləyərək, kadrların düzgün seçimində və onların ixtisaslarına uyğun yerləşdirilməsinə çalışmışdır.

Babasının fəaliyyətini və xeyriyyəçilik işlərini araşdırmağa başlayandan sanki Dilarə xanıma ikinci nəfəs gəldi. Həyatının mənası büsbütün dəyişdi. Əlbəttə ki, burada soykök genləri öz sözünü demişdir.

Adi hamballıqdan milyonçu səviyyəsinə yüksələn A.M.Nağıyevin damarlarında axan zəhmətkeş qan - nəvəsi Dilarə xanıma da sirayət etmişdir. O, gecəsini gündüzünə qatıb qapılar döydü, dövlət arxivlərindən faktları və sənədləri üzə çıxartdı, babasının tikdirdiyi 98 binadan 76-nın ünvanını müəyyənləşdirdi.

Nəvə Dilarə - babasının keçdiyi ömür yolunu addım-addım izləyərək , torpağına, millətinə bağlı olan Ağa Musa Nağıyevin həyat və fəaliyyətinə aid faktlar və xatirələr əsasında “Xalq üçün ömrünü şam kimi əridən...”, “Ömrün səhifələri”, iki dildə “Zamanın sorağında”, “Nurlu əməllərin

işığında” kitabları, “Xeyriyyəçilik və ictimai fəaliyyəti” mövzusunda elmi monoqrafiya, eləcə də bu mövzuda elmi dissertasiya yazıb, geniş oxucu kütləsinin ixtiyarına vermişdir.

Sovet dövründə xalqı üçün bu qədər xeyirxah işlər görmüş H.Z.Tağıyev, A.M.Nağıyev, M.Muxtarov, Ş.Əsədullayev və başqa Bakı milyonçularının adlarını çəkmək belə qadağan olunmuşdu. Ancaq gec-tez haqq öz yerini tapır.

Adları çəkilməsə də, tikdirdikləri binalar və xəstəxanalar, çəkdirdikləri Şollar suyu, qızların maariflənməsi üçün acdıqları məktəb, teatr, fabrik və zavodlar bu gün də öz ömrünü yaşayır və xalqa xidmət edir.

Ağa Musa Nağıyevin şah binası sayılan və mənim çalışdığım Azərbaycan Milli Elmlər Akademiyasının əsas binası - möhtəşəm “İsmailiyyə” öz parlaqlığını bu gün də itirməyib.

Bu xeyirxah işləri bir anda yox edib, xalqın yaddaşından silmək nə yaxşı ki, mümkün olmadı. Və alqış o kəslərə ki, milyonçuların gördüyü xeyirxah əməlləri üzə çıxardıb, unutmağa qoymadılar. Bu yaddaş xüsusilə gənclərimiz və gələcək nəsillər üçün çox lazımdır. Bu alqış Dilarə xanıma aiddir.

Biz valideynlərimizdən, böyüklərimizdən milyonçuların fəaliyyəti haqqında çox eşitmişik. Atam Hacıməmməd Qafqazlı - Respublikanın Əməkdar artisti, Dilarə xanımın atası Fərəc Nağıyevin qardaşlığı olub. İncəsənət aləmində birgə çalışıb, kino filmlərə çəkiliblər.

Gənc ikən atamla Bakının küçələrini gəzərkən o, həmişə köhnə tikililəri göstərib: “Bu bina dəyirmanlar sahibi Babayevin idi, Səadət Sarayını Murtuza Muxtarov tikdirib, Tarix muzeyi H.Z.Tağıyevin yaşayış evi olub. O, hər bayramda yaşadığı evinin eyvanına çıxar, camaatı qızıl pullarla salamlayardı.

O, eləcə də 28 May və Telefonnı küçələrində Ağa Musanın tikdirdiyi binalarını göstərib, əlavə izahatlar verirdi.

"İsmailiyyə" binasını Ağa Musa Nağıyevin gənc ikən dünyasını dəyişmiş oğlu İsmayılın şərəfinə tikdirdiyini xüsusi vurğulayardı. Bu gün bu binaların tarixini və onları ərsəyə gətirən milonçuların həyat və fəaliyyətini araşdıran Dilarə Nağıyeva kimi tədqiqatçılar gələcək nəsillər üçün çalışır.

**Kitabın redaktoru** – *Nəzakət Qafqazlı filologiya ü.f.d.*

## BAKI NEFTİ HAQQINDA ANLAYIŞ

Neft haqqında anlayış bəşəriyyətin mədəniyyət tarixinə çox qədim zamanlardan məlumdur. Neftdən istifadə etməyin sədası hələ eramızdan əvvəl Xəta (Çin) ölkəsindən gəlib. Babilistanda neft buruqları olub. **Misir fironlarını mumiyalamaq üçün neftdən əsas maddə kimi istifadə edilirdi.** Neftlə - "yanar su" ilə Makedoniyalı İsgəndər də çox maraqlanırmış.

Bakı nefti və müqəddəs əbədi alov mənbəyi - atəşpərəstliyin, Zülfəli Zərdüştün dinindən də qədimdir. Hüseyn Cavid yazır ki, "Zərdüştü düşün, fəlsəfəsi, fikri, dühası, həp atəşə vardırmaq üçün zümreyi hası."

Bakı nefti Rusiyada kapitalizmin, sənayenin, nəqliyyatın, kimya və bir çox elmlərin inkişafında böyük rol oynayıb. İnqilabdan əvvəl Bakının neft sənayesi imperiyada ağır sənayenin ən aparıcı və inkişaf etmiş sahəsi olub. Rusiyada belə nəhəng addımlar atan ikinci sənaye sahəsi olmayıb. Uzun müddət işlətdiyimiz "Azərbaycan iri addımlarla irəliləyir" şüarı da o dövrlərin neft sənayesini xarakterizə etmək üçün bir sübutdur.

1872-ci ildə dövlətə məxsus 332 desyatin neft sahəsinin hərraca çıxarılması neft hasilatının inkişafına daha bir təkan verir. Neft quyularında icbari əmək ləğv edilir, Abşeronun neft quyularının 80 faizi sahibkarların əlinə keçir.

Neft sənaye istehsalı - yun, kətan, kağız-karton, ərzaq, un, poliqrafiya, ağac emalı, metallurgiya, kimya və s. sahələrində tətbiq olunurdu.

Moskvanın Bakı nefti qarşısında böyük borcu var idi. Hələ ötən əsrin sonunda Moskva sənaye şəhəri Bakının neft məhsullarının istehlakı üzrə imperiyada birinci yeri tuturdu.

70-ci illərin sonunadək Bakı neftini yelkənli gəmilərdə daşıyırdılar. Bu isə həm itkilərə, həm də mənzil başına çatdırılacaq neftin qiymətinin artırılmasına səbəb olurdu.

Neftin Rusiyaya daşınmasına neftdoldurma gəmiləri təkan verir. 1874-cü ildə həştərxanlı tacir qardaşlar Nikolay və Dmitriy Artemyevlər dünyada ilk dəfə neftin birbaşa gəmilərə doldurma üsulunu tətbiq edirlər.

1879-cu ildə ilk vaqon sisterni Bakı –Balaxanı dəmir yolunda peyda olub. 1883-cü ildə artıq 462 vaqon - sisterni var idi. Bu vaqonlarla ildə 12 milyon pud neft daşınırdı. 1884-cü ildə hökumət sisternlərin sayını 750-yə çatdıqmağı qərara alır. 1880-cı ildə Zaqafqaziyanın dəmir yollarında 1.212 dövlət və 4.282 şəxsi vaqon-sisternləri işə düşür. Bunlardan 1.588 ədədi Nobel qardaşlarına məxsus idi. Əsrin sonunda vaqon - sisternlərin sayı 20.000-nə çatmışdı. Bu vaqonlardan bir neçəsi Ağa Musa Nağıyev və Hacı Zeynalabdin Tağıyevin icarəsində olub.

1879-cu ildə Bakı neft mədənlərində çalışan fəhlələrin sayı 1.800 idisə, əsrin sonunda onların sayı 27.000-ni keçmişdi.

1890-cı illərdə Bakıda neftin hasilatı Amerikanı ötüb keçir və XIX əsrin sonunda dünyada birinci yerə çıxır.

Əllə qazılan quyular baltaqazma üsulu ilə əvəz edilir. 1883-cü ildə quyuların dərinliyi 50-60 sajen (ölçü vahidi) idisə, əsrin sonunda onların dərinliyi 200-250 sajenə çatır. İstismarda buxar maşınları da tətbiq olunurdu.

Neft fontanları qiymətli mayeni buruğun zirvəsinə vurduqca, Rusiya iqtisadiyyatını da özü ilə yüksəklərə qaldırırdı.

1895-ci ildə Bakıda 426 milyon pud, Amerikada isə 400 milyon pud neft çıxarılmışdı. Əsrin sonunda isə dünya neft hasilatının 50 faizi Bakının payına düşürdü.

Tarixi, siyasi və ictimai şəraitinə görə XIX-XX əsrlərdə milli ənənələri, iqtisadiyyatı və o cümlədən yerli sahibkarların neftdən əldə etdikləri gəlir hesabına bu gün müstəqil Azərbaycanın bütün elm sahələrində fəaliyyət göstərən alimlərin, iqtisadçıların və digər mütəxəssislərin meydana gəlməsində milli burjuaziyanın böyük rolu olub.

Təəssüflə qeyd etmək lazımdır ki, Azərbaycan Demokratik Cümhuriyyətinin devrilməsindən sonra yaranmış (1920) sosialist sistemi dövrünün böyük və milli burjuaziyası sayılan H.Z.Tağıyevi, A.M.Nağıyevi, A.Ş.Əsədullayevi, M.Muxtarovu, İ.Hacınskini, Dadaşovları, Aşurbəyovları və başqalarını səhv və yanlış təhlillər nəticəsində unutdurmağa çalışmışdır.

Amma haqq nazilsə də, qırılmadı!

## ÖMÜR - TAMAŞADIR,
## TAMAŞA - ÖMÜR

İnsan həyatı yazılmamış bir kitabdır. Bu baxımdan kitabı “Hər ömür bir tamaşa” adlandırmağa qərar verdim. Ömür vəfa edərsə, davamlı kitabımı “Hər tamaşa isə, bir ömürdür!” adlandıraram.

Amma bu nida işarəsi son olmayacaq. Çünki yeni nailiyyətlər qazanacağıma ümidim sönmək bilmir. Həyat eşqilə yaşayıram, insanlara da bu həyat sevgisini aşılayıram.

2016-2017-ci illərdə övladlarımın hər ikisi – Samir və Könül “Sülh Səfiri” diplomları və eləcə də, “Əsilzadə Şəhadətnaməsi” ilə təltif ediliblər.

Bu Şəhadətnamələri Heydər Əliyev Fondunun Vitse Prezidenti Leyla xanım Əliyevanın təqdimatında aldığım günü - 4 sentyabr 2016-cı il tarixi mənim üçün unudulmazdır.

Bu hər bir kəsin arzusu ola bilər. Bəli, mən xoşbəxtlər sırasındayam. Çünki 2013-cü ildə Milli Akademiyanın “Humay” mükafatına layiq görülən “Zamanın sorağında” kitabımın rus dilində çap edilməsində də şəxsən AMEA-nın Rəyasət Heyətinin Prezidenti, Akademik Akif Əlizadə təşəbbüs göstərib.

2016-cı ildə həmin kitabın təqdimatı AMEA-nın binasında – Akademiyanın Həqiqi Üzvü, AMEA-nın Tarix İnstitutunun direktoru Yaqub Mahmudovun sədrliyi ilə keçirilməsi də hər yazıçıya qismət olmur.

Ümumiyyətlə bir kitab bir təltifə layiq görülər. Amma bu kitabım ikinci yüksək qiymətini də aldı.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin yazıçılara xüsusi təqaüdün verilməsi haqqında Fərmanına əsasən 2017-ci ildə birillik təqaüdə layiq görüldüm.

“Ağa Musa Nağıyevin sahibkarlıq, xeyriyyəçilik və ictimai fəaliyyəti” adlı dissertasiya üzərində 6 ildir ki, çalışıram. Bir az çətinliklər oldu.

2017-ci il iyunun 30-da AMEA-nın Tarix İnstitutunun qərarı ilə - tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunan dissertasiyam müzakirədən keçib, bitkin iş kimi Ali Attestasiya Komissiyasının qoyduğu tələblərə uyğun olaraq müdafiəyə buraxıldı. Bu sınaqdan da qələbə ilə çıxdım.

Bir uğurumu da “Hər ömür bir tamaşa.,” kitabımın işıq üzü görməsi ilə əldə edəcəyimə əminəm.

Planlarımı həyata keçirməkdə davam edərək, şeirdə səsləndiyi kimi - hər ömür bir tamaşa., hər tamaşa isə bir ömürdür!- deyirəm. Bu (!) nida işarəsini vurmaq üçün var qüvvəmi sərf edəcəyəm.

Ömrümün Ağa Musa Nağıyevin fəaliyyətinin tədqiqatına sərf etdiyim 25 ildən çoxunu yaşamaq çox çətin idi. Arxivlərdə çalışıb, çox qapılar döyməli oldum. Açılmayan qapılar arxasında nələr çəkdiyimi ömrümün səhifəsinə yazmadım. Əzildim, amma əyilmədim. Yıxılanda ağlamadım, ayağa qalxmağı bacardım.

Bu sahədə çəkdiyim əziyyətə böyük qiymət verən rəfiqəm Bahar xanım Qasımova çıxışlarında qeyd edir ki, vtvfh“Mədəniyyət -çox kitab oxumaqla deyil, anladığını kitablara görə qiymətləndirməkdədir. Dilarə xanımın yazdığı tarixi kitabları oxuyanda anladığımız kimi. Kitablarından birində rast gəldiyim Ağa Musa Nağıyevin (Əli və Nino) məclislərin birindəki çıxışından şərhi nəzərinizə çatdırmağı vacib bilirəm:

-“Nəyə lazımdır o məktəb ki, orada elmdən deyil, cəfəngiyyatdan danışırlar. Nəyimizə gərəkdir o xəstəxanalar ki, orada qəlbi yaddan çıxarıb, bədəni müalicə edirlər...”.

Keçmişimizin ocağından ovcunda gətirdiyi alovu gələcək nəsillərə ötürdüyünə görə Dilarə xanıma hər zaman təşəkkürümüzü bildiririk”.

Əzizlərim, əgər mən bu alovu sizlərə, gənc nəsillərə çatdıra bilirəmsə, deməli mənim ömrüm də səhnə həyatını yaşayır, deyə bilərəm. Ağa Musa Nağıyev həmin məclisdə belə bir dərin fəlsəfi fikir də irəli sürüb:

**-“Ruhumuz Allaha çatmağa çalışır. Çünki ondan yaranmışıq və ona da can atırıq. Hər bir xalq milliyyətindən asılı olaraq öz Allahını qəbul etsə də, İmamlarımızın dediyi kimi Allah təkdir. Rənglərin ağı - qarası yoxdur. Çünki ağda- qara, qarada isə ağ rəng cəmləşib. Biz çalışmalıyıq ki, heç birimizə ziyan dəyməsin. Çünki biz insanlığın bir parçasıyıq. Bu hisslər isə hər bir insanın varlığında cəmləşir.”** O zaman bütün məclisdəkilər göz yaşlarını saxlaya bilməyib...”.

**Ağa Musanın bu nitqini fantastik fəlsəfə adlandırardım.**

Deyilənlərə görə bir çox məqamlarda əcdadıma oxşayıb, soy kökümə istinad edirəm. Elə bu cəhətdən yaşadığım ömrün bir tamaşanın ssenarisi olduğuna əminəm.

Bəli, hər ömür bir tamaşa, hər tamaşa isə bir ömürdür!!!

Etiraf etməliyəm ki, Azərbaycanda ilk dəfə idi ki, Ağa Musa Nağıyevin həyatı ilə yaxından maraqlanan və eləcə də bu sahədə mənim fəaliyyətimi qiymətləndirən BMT yanında Ümümdünya Sülh Federasiyasının Azərbaycandakı nümayəndəsi, milliyyətcə Yapon olan Toru Nişivaki 2011-ci ildə Ağa Musanı - ölümündən sonra və məni “Sülh Səfiri” Diplomları ilə təltif etmişdi.

## ARZULU DİLƏYİM

Danılmaz xidmətləri ilə xalqın qəlbində özünə əbədiyyət abidəsindən taxt qurmuş tarixi şəxsiyyətlərin: - H.Z.Tağıyev, A.M.Nağıyev, A.Ş.Əsədullayev, M.Muxtarov, İ.Hacınski, Aşurbəyovlar və Dadaşovlar kimi milyonçuların etdiklərindən bu gün də qürur duyuruq. Xalq onun təəssübünü çəkən, ona ucalıq gətirən şəxsiyyətləri heç vaxt unutmur.

Bu gün elektron vasitələrində, mətbuat səhifələrində özlərinə mədhiyyələr yazdıranların tale yaşamı da ömürləri qədərdir. Bu fani dünyadan köç etdilərsə, vəssalam, bitdi hər şey. Çünki söylənənlər gerçəklik deyil.

Halal zəhməti və zəngin mənəviyyatı ilə həyatın özülündən xeyirxahlıq olimpinin bəyaz zirvəsinədək ucalanlardan, xalqı üçün qurub-yaratmaq eşqi tükənməyən, zəhmətsevərlik və müdrüklük simvolu, insanların pənah yeri, qaraçuxası olub Bakı milyonçusu Ağa Musa Nağıyev.

Təəccüblə doğuluruq, ümidlə yaşayırıq, həsrətlə ölürük – fəlsəfəsi ilə yaşayanlar üçün tale də ömür payı qədər olur.

Əcəldən macal tapanlar isə verilmiş ömür fürsətində min ömürlük iş görərlər. Bu işləri xalqın inkişafı, tərəqqisi yoluna yönəldənlər qüdrətli bir padşah, qəhrəman bir sərkərdə qədər Allahın dərgahında ucalarlar. O ucalıq ki, xalqın qəlbində möhtəşəm bir abidəyə çevrilər. Xalqın silinməz yaddaşına həkk olmuş əzəmətli abidə isə əbədiyyət deməkdir.

XIX əsrin sonu XX əsrin əvvəllərində qurub yaradan Azərbaycan milyonçusu, xeyriyyəçi, məşhur "Neft Kralı"[1] Ağa Musa Nağıyevin nəslindən olduğumla fəxr edirəm.

---

[1] "Neft Kralı"- Çar Nikolay onu belə adlandırıb.

Ağa Musa Nağıyevin mənalı ömür yoluna yenidən müraciət etməyim və yığcam zaman kəsiyində əldə etdiyim nailiyyətlər, millətin formalaşmasında xidmətləri olan soykökümə ehtiramımdan və məhəbbətimdən irəli gəlir.

Xalq üçün yaşanan bir ömrün davamçısı olaraq məsuliyyət və qətiyyət hissini gündəmə gətirə bildiyimlə fəxr edirəm.

Tanış olacağınız hər yeni fakt, sənəd tariximizin bir parçası, yaşanan illərin əks-sədasıdır.

Yüksək əxlaqi keyfiyyətləri ilə özünə əbədi iz qoymuş neft milyonçusu Ağa Musa Nağıyev Bakının 11 milyonçusundan birincisi olub.

Onun təkcə **98** rəqəmini bəzəyən binaları xalq üçün etdiklərinin bariz nümunəsidir. İlk mehmanxanalar və xəstəxanalar, məktəblər, məscid, poçt binası və yığıncaqların keçirilməsi məqsədilə ünvanlı binalar tikdirmək məhz Ağa Musa Nağıyevə mənsub olub.

Ən böyük arzum xaricdəki kapitalından azacıq da olsa vətənə gətirilərsə, xeyriyyəçinin ənənələrini davam edərək, Ağa Musa Nağıyevi 100 bina sahibi kimi **Ginnesin kitabında** görməkdir.

**Bu gün ictimaiyyət məni "98+2" formulunun müəllifi kimi qəbul edir.**

Mən hər zaman bəxt, tale, qismət deyilən anlamlara inanmayanlara Ağa Musa Nağıyevin həyat tarixçəsinə nəzər salmağı məsləhət görürəm.

Bu kitabda da babamın və atamın dövrün əzablarına üstün gəlməsindən, gördükləri işlərdən, xeyirxah əməllərindən söz açmışam.

Tarixi vərəqlədikcə açılan hər yeni səhifə mənə dünyaya gələn bir övlad sevincini bəxş edir.

Düşünürəm ki, kitab oxucular tərəfindən layiqli qiymətini alacaq və bu yaradıcılığımın daha da inkişafına səbəb olacaq.

## KEÇMİŞƏ SALAM

Ağa Musa Nağıyev 1849-cu ildə saman satan Hacı Nağının ailəsində dünyaya göz açıb. Tanrı onu kiçik yaşlarından özündən böyük yükün altına yıxır. Zəhmətinin bəhrəsini – yalnız çörəyə və qəndə çatan pulu qazanıb, ona möhtac olan ailəsinə köməkdə görür. Uşaqlığını unudur.

Yük daşımaqdan böyük firmanın sahibinə çatanadək ağır bir həyat yolu keçir. Su əldə etmək məqsədilə qazdığı quyudan çıxan neft, onun sonrakı həyatında böyük rol oynayır. Məhz bu səbəbdəndir ki, yüksək əxlaqi keyfiyyətlərilə həyatda yerini tutmuş, yaddaşlarda yaşamaqla özünə əbədi iz qoymuş Ağa Musa Nağıyev - neft milyonçusuna çevrilir.

Tikdirdiyi **98**[1] bina tariximizin daş yaddaşıdır. Bu yadigarların hər naxışında neft milyonçusunun saf əməlləri, vətənpərvərliyi, milli təəssübkeşliyi hiss olunur. Neçə əsrlik tariximiz də elə bu daş kitabələr vasitəsilə bizlərə ərz olunmaqdadır. Onun binaları memarlıq üslubu cəhətdən nadir tikililərdir.

Maarifçilik məqsədilə həyata keçirdiyi işlərin və bu yolda verdiyi ianələrin sayı hesaba gəlməzdir. Tikdirdiyi **Realnı məktəbin**[2] gənclərin savadlanmasında böyük rolu olub. Bakıya Şollar suyunun çəkilmə xərcinin çox hissəsini Ağa Musa Nağıyev ödəyib.

Onun ən ağrılı yerlərindən biri olub səhiyyə sahəsindəki problemlər. **Bunun sübutu (4) dörd xəstəxana tikdirməşidir.**

Sovet təbliğatının tədqiqi qadağan olunan mövzulardan biri də millətin görkəmli şəxsiyyətlərinin - neft milyonçularının həyat və fəaliyyətlərinin araşdırılması

[1] İlk milyonçudur ki, bu sayda bina tikdirib
[2] İndiki Dövlət İqtisad Universiteti

olmuşdur. Uzun illər boyunca onların üzərinə «burjua» damğası vurularaq, adlarını ləkələməyə çalışmışlar. Amma XX əsrin əvvəllərindən milli oyanışın artdığı şəraitdə neftxudalar - mesenatlar millətin yaddaşında dərin iz buraxıb. Onların xidmətləri ilə millət qarşısında qazandıqları şöhrəti və hörməti tarixdən silmək və ya ləkələmək sovet ideologiyasına nəsib olmadı.

Kərbəlada oğlu İsmayılın yanında dəfn olunmasını vəsiyyət edən Ağa Musanın arzusu yalnız 2011-ci ildə- vəfatının 93 -cü ildönümündə "gerçəkləşdi". Belə ki, qəbri üzərindən götürülən torpaq Kərbəla torpağına qatıldı. Kərbəlada dəfn olunan oğlu İsmayılın ruhu məcazi mənada atası ilə qovuşdu.

Kimdir Ağa Musa? Onun haqqında nə bilirik? Gələcək nəsil nə biləcək?

Bu vaxtadək onun şəxsi keyfiyyətlərindən çox az danışıb, gördüyü böyük işlər haqqında düşünməmişik.

1900-cü ildə Binəqədi mədənlərində hasil edilən 10 mln. pud neftin miqdarı 4-5 il ərzində 13 miln.puda çatdırılması və mədənlərində 800 fəhlənin çalışması da məhz Ağa Musaya nəsib olub.

49 yaşlı Ağa Musa igidlik, mərdlik səltənətinin məşhur milyonçusuna çevrilmişdi. Xalqın zəngin tarixi ilə maraqlanan, şərəfli keçmişimizə ehtiramla nəzər salan hər bir insanda maraq hissi oyadır onun adı.

Son 25 ildə əsas məqsədim: - Neçə əsrlik tariximizi "Daş kitabə"lər vasitəsilə Sizlərə çatdırmaqla bərabər A.M.Nağıyevin həyatı, xeyriyyəçilik və ictimai fəaliyyətini, eləcə də 22 illik acı sürgünlük taleyi yaşamış atam Fərəc Nağıyevin incəsənət sahəsindəki xidmətlərini araşdırmaqdır.

Apardığım tədqiqatlar əsasında -torpağına, millətinə bağlı olan Ağa Musa Nağıyevin həyat və fəaliyyətinə aid faktlar və xatirələr əsasında - "Xalq üçün ömrünü şam kimi

əridən...”, “Ömrün səhifələri”, “Zamanın sorağında” və “Nurlu əməllərin işığında” adlı kitablar, “Xeyriyyəçilik və ictimai fəaliyyəti”nə aid elmi monoqrafiya yazıb, adını daşıyan “Milli Dəyərlərin Qorunması” təşkilatını yaradıb, internet səhifələrində “musanaqiyev. Com” saytını açmışam.

Kitabların hər birində Azərbaycanın dövlətçilik prinsiplərini, onun coğrafiyasını, tarixini və eləcə də tanınmış simaların portret cizgilərini əsas xətt olaraq təqdim etməyə çalışmışam.

2016-cı ildə müəllifi olduğum “Zamanın sorağında” kitabı AMEA-nın Prezidenti, Akademik Akif Əlizadə cənablarının təşəbbüsü ilə rus dilində çap olunub, oxucu kütləsinə təqdim edilmişdir. Düşünmək olar ki, kitabın hər səhifəsi rus dilli oxucuların qarşısında yeni tarix canlandıracaq.

Rusiyada Heydər Əliyev Fondunun Vitse Prezidenti Leyla xanım Əliyevanın təsis etdiyi və baş redaktoru olduğu “Баку” jurnalının 2014-cü ilin birinci sayında “Milyonçu, samançı oğlu” başlığı altında yazılmış məqalənin “Bakılı", "İş və hissiyyat” bölmələrində Ağa Musa Nağıyev nəslinin taleyi haqqında geniş məlumat verilmişdir:

-“Əsrin dörddə bir hissəsidir ki, Dilarə Nağıyeva babası Ağa Musanın keçdiyi ömür yolunu, haqqı damla-damla bərpa edir. Tarix boyu Ağa Musanın həyat və fəaliyyətini faktlar əsasında deyil, söz-söhbətlər, şayiələr əsasında nəzərə çatdırmaqla insanları çaşdırmaq istəsələr də, Dilarə xanım babasının tarixini demək olar ki, bir detektiv kimi araşdırır.”

Düşünürəm ki, bunu bütövlükdə Ağa Musa Nağıyevin fəaliyyətinə verilən qiymət kimi qəbul etmək düzgün olar. O, millətin müstəqil dövləti olmadığı zamanda bir dövlətin görəcəyi işləri həyata keçirib.

Sonradan ona uğur gətirəcək kiçik torpaq sahəsi - əslində Allahın Ağa Musaya göndərdiyi hədiyyə idi. Çünki Ulu Yaradan bu yoxsul ailənin sədaqətini, namusunu, dolğunluğunu, qardaşların bir-birinə, övladların ata-anaya olan məhəbbətini görüb, bu halal ailəyə öz qismətini göndərmişdi.

XX əsrin əvvəllərində adı Azərbaycanın məşhur on bir milyonçular sırasına düşən və bu siyahıda öncül yerlərdən birini tutan Ağa Musanın sahibi olduğu neft firmasının vurduğu xam neft Azərbaycanın neft firmaları arasında ən yüksək göstərici hesab olunub.

Bakıda mədəni məişət obyektləri tikdirən, yüzlərlə yoxsul ailəni himayəyə götürən, 35 imkansız ailə başçısının vəsiyyətinə əməl edib, dəfnlərini Kərbəlada keçirən, şəxsi vəsaiti hesabına soydaşlarımızı oxutduran, Bakıya və eləcə də Qara şəhərə Şollar suyunun çəkilməsində böyük məbləğ sərf edən olub Ağa Musa.

1907-ci ildə İmperator Əlahəzrətlərinə etdiyi müraciətində "Realnı məktəb"in uzun müddət yarımçıq qalmış tikintisini başa çatdırmaq üçün 25.000 rubl vəsait ayırdığını və hər il təhsil haqqını ödəməklə, 25 qız uşağına himayədarlıq edəcəyini bildirmişdi.

Bu kimi xüsusiyyətlərini nəzərə alaraq, 1908-ci ildə İmperator Əlahəzrətləri Ağa Musa Nağıyevi «Золотая Шейная медаль на Андреевской Ленте»; 1910-cu ildə «Орден третей stepeni Св.Станислава» ödülləri ilə mükafatlandırıb.

Bu izlər tariximizin bir parçası sayılıb, onun yaşadığı illərinin əks-sədasıdır.

Ağa Musa Nağıyev bu günün sahibkarları üçün bir örnəkdir!

## PULDAN - PUL ETMƏK

***Çoxlu pul qazanmaq- igidlik;***
***onu əldə saxlamaq- bacarıq;***
***ondan düzgün istifadə etmək- istedaddır***

Bütün bu xüsusiyyətlər Ağa Musa Nağıyevin varlığında cəmlənmişdir.

Sayı hesaba gəlməyən möhtəşəm binalar tikdirən, Bakıya və Qaraşəhərə Şollar suyu çəkdirən, yarımçıq qalmış Realnı məktəbin tikintisini başa çatdıran, xəstəxana və mehmanxana binalarının ucaldılması üçün **"N"** qədər məbləğ xərcləyən bu İnsanın yalnız bir düşüncəsi olub – israfçılığa yol verməmək...

Ağa Musa Nağıyev orta boylu, bədəncə orta çəkili olub. Kiçik əllərinin nazik barmaqları onu sanki pianoçu olduğuna bənzədirdi. Məclisə daxil olarkən dövrünün ən varlı sahibkarı olduğundan və etdiyi xeyriyyəçiliyə görə hamı ayağa qalxardı.

Bir neft buruğunun fontan vurması ilə taleyi dəyişənlərin həyatı - qazandıqları məbləğin miqdarı ilə deyil, "Puldan-pul etmək; Pulu idarə etmək" – mədəniyyətinə nail olmaq qabiliyyəti Allahın hədiyyəsidir.

Puldan yerində istifadə edərək qazancı əldə saxlamaq qabiliyyəti də Ağa Musanın müdrikliyindən irəli gəlib.

O zamanlar bəxtinə neftin fontan vurması ilə adları neft-xuda kimi qorunub saxlananların sayı cəmi 11 nəfər ilə tarixləşib.

Sərmayəsini bina tikintisinə sərf edən Ağa Musa Bakını gözəlləşdirib.

Ağa Musa Nağıyev savadsız, lakin təcrübəli iqtisadçı kimi püxtələşib. O, 1893-cü ildə Sabunçuda və Ramanada, sonradan o zamanlar ən zəngin neft yatağı hesab edilən Bibiheybət – Naftalan körfəzi sahilində mədənlər salır. Burada qazılan quyuların hər biri güclü

fontan vurur. Çox keçmir ki, Suraxanıda saldığı mədəndə də güclü neft fontan vurur.

Qara şəhərdə tikdirdiyi xüsusi "Neftayırma Zavodu"nda başqa neftxudaların da neft təmizləmə sifarişlərini yerinə yetirməklə əlavə gəlir əldə edir.

Tikdirəcəyi xəstəxananın həyətyanı sahəsində əvvəlcə vərəmi yayan "Kox çöplərinin"[1] yayılmasının qarşısını almaq məqsədilə şam və küknar ağacları əkdirir.

Birinci Dünya Müharibəsi zamanı Anadoludan gələn qaçqınlara yardım edir.

Yazıçı Manaf Süleymanov "Eşitdiklərim, oxuduqlarım, gördüklərim..." kitabında Ağa Musa Nağıyevin ünvanına "miras" qoyub getdiyi – "xəsis" kəlməsi ilə onun bütün xeyirxah əməllərini bir müddət kölgədə qoymuşdu.

Uzun illər bizlərə xəsis kimi çatdırılmış Ağa Musanın qənaətcil olduğunu gördüyü işləri ilə sübuta yetirməyə çalışdım.

Arxiv sənədlərindən bəlli olur ki, Ağa Musanın gördüyü xeyirxah işlər və xalqının rifahı, xoşbəxtliyi uğrunda sərf etdiyi əmək, digərlərindən qat-qat çoxdur. Vəfatından sonra aşkar edilən siyahıda Ağa Musanın heç tanımadıqlarına böyük məbləğdə borc pul verdiyi, eləcə də xaricdə təhsil alan tələbələrə ayırdığı təqaüd haqda məlumatlar var.

Ağa Musa Nağıyevin qızı Ümmül Banu milyonçu Şəmsi Əsədullayevin oğlu Mirzə ilə ailə həyatı qurmuşdu.

Şəmsi Əsədullayev iflasa uğrayarkən, ona məhz Ağa Musa yardımçı olur. O, öz hesabından Şəmsi Əsədullayevin Rusiyadakı müştərilərinə neft göndərir və beləliklə onun mülklərinin satışının qarşısını alır.

Daha sonra Ağa Musanın maddi köməyi sayəsində Şəmsi Əsədullayevin Suraxanıdakı xırmanında salınan buruqdan elə bir fontan vurur ki, ətraf sanki "neft dənizinə" dönür.

---

[1] Alimin adı ilə adlanır vərəmi yayan çöplər

O zaman Suraxanı nefti keyfiyyətilə benzinə bərabər idi. Müştərilər belə nefti daha çox bəyənirdilər. Gündəlik hasilatı 16.000 tondan çox vuran bu quyular Bakı-neft qazma tarixinə daxil edilib və bu yerdə “Xatirə daşı” qoyulub[1].

[1] Daşın qalması haqda məlumatım yoxdur

## BƏHAYİ CƏMİYYƏTİ

Bəhayi Cəmiyyətinin məqsədi nədən ibarət idi? Cəmiyyətin Nizamnaməsi ilə tanışlıq bu suala cavab verir.

Nizamnamədə qeyd edilirdi: – "Cəmiyyətin məqsədi – Bakı şəhəri ərazisində yaşayıb, bəhayi təriqətinə mənsub olan əhali arasında savadın və ibtidai təhsilin yayılmasına nail olmaqdır."

Bununla əlaqədar olaraq Bəhayi Cəmiyyəti mövcud məktəblərə himayədarlıq edir və eləcə də öz vəsaiti hesabına yeni məktəblərin açılmasına təşəbbüs göstərir. Yerlərdə qiraətxanalar, kitabxanalar, pulsuz və azad satış üçün kitab mağazaları açır, rus və azərbaycan dillərində öz xəbərlərini, pedaqoji ədəbiyyatı çap edir. Nəhayət, xalq müəllimlərinin yetişdirilməsinə yardım göstərir.

Bəhayi təriqətinə mənsub olan kasıb uşaqların orta və ali təhsil müəssisələrinə qəbul olunub, orada oxumalarına himayədarlıq edir, habelə Bakı quberniyasında bu təriqətə qulluq edən bütün yetim və kasıb uşaqların ibtidai təhsil almaları üçün şərait yaradır."

Bəhayi təriqətinə xidmət edən Cankorova Yelizaveta Qriqoryevnanın kimsəsiz uşaqlara kömək etmək məqsədilə cəlb etdiyi Ağa Musanın sonradan bu Cəmiyyətin fəal üzvünə çevrilməsində və ardıcıl olaraq bu xeyriyyəçiliyini davam etməsində çox böyük rolu olub.

Bunun müqabilində Yelizaveta ilə Ağa Musanın kəbini də məhz bu Cəmiyyətdə kəsilib.

Təşkilata əvvəllər Şeyx Ələkbər Koçani, 1911-ci ildən isə Bala Kərimov sədr seçilir. Ağa Musa Nağıyev Cəmiyyətin Fəxri sədri seçilir

Bəhayi təriqəti Allaha, Qurana və müsəlman dininə inanan və itaət edən bir təriqətdir.

Gözəlliyi və açıq-saçıqlığı ilə Ağa Musanın ağlını başından çıxaran Amal[1],birgə yaşadıqlarından yalnız 10 il sonra, 1907-ci il martın 28-də Bəhayi təriqətilə kəbinlərinin kəsilməsinə nail olur. Övladları olmur.

Ağa Musanın müsəlman qadını Ümmə Səlmə - İsmayıl və Ümmül Banunun anası ilə 1873-cü ildən "Hacı Qasımbəy" məscidində kəsilmiş kəbini isə ömrünün sonuna qədər də qüvvədə qalır.

**P.S.** *Ağa Musa Nağıyevin Yelizaveta ilə böyük eşq macərası olub. Dörd qardaşın bir bacısı olan, 1882-ci il təvəllüdlü, milliyyətcə gürcü yəhudisi olan Yelizaveta, naməlum səbəbdən 1897-ci ildə Tiflisdən Bakıya gəlir və 48 yaşlı milyonçu Ağa Musa Nağıyev ilə müəmmalı şəkildə rastlaşır. Görünür ki, milyonlar bu gənc qızın gözlərini bağlayır və özündən 33 yaş böyük olan insan ilə bu zamandan başlayan məhəbbəti Ağa Musa dünyasını dəyişənədək, 22 il davam edir. Onlar Ağa Musanın Staropolitseyskaya küçəsi 14 – indiki S.Vurğun küçəsinin B.Səfəroğlu küçəsilə kəsişdiyi ünvanındakı evində yaşayırlar.*

---

[1] Ağa Musa onu belə çağırardı.

## VARİSLİK

A.M.Nağıyev dövrünün ən iri neft sahibkarlarından olub, "Qafqazın ən varlı şəxsiyyəti" titulunu qazanmışdır. 100 il yaşayacağına güclü inamı olduğundan heç bir vəsiyyətnamə yazmayıb. Ağa Musa Nağıyev vəfat edir.

Vəfatından sonra qohumları onun işini davam edir, neft mədənlərini və sənaye müəssisələrini işlətmək üçün "Musa Nağıyevin varisləri" adlı Səhmdar Cəmiyyətini yaradırlar. Cəmiyyəti əsasən Mirzə Əsədullayev (kürəkəni) və Tağı Nağıyev (qardaşı Ağa Əlinin oğlu)daxil olduğu qrup idarə edirdi. Cəmiyyətin fəaliyyətinə Bakıətrafı kəndlərdə: Binəqədi, Sabunçu, Zabrat, Bülbülə, Qala, Binə, Əmircan, Xırdalan, Digah, Masazır, Fatmayi, Biləcəri, Saray və Zığda olan neft mədənləri daxil idi.

A.M.Nağıyevin varisi – həyat yoldaşı Ümmə Səlmə Kərbəlayi Cəfər qızı vəfat edənin əmlakına vərəsəlik hüququnu təsdiqləmək məqsədilə həmin il martın 8-də məhkəməyə müraciət edir.

Müsəlman qanunlarına – İslam dininə əsasən vəfat edənin dul qalmış həyat yoldaşına bütün əmlakının 8-də 1 hissəsi, 8-də7 hissəsi bilavasitə varis hüququna malik olan digər çatırdı.

"Qafqazın ən varlı şəxsiyyəti" titulunu qazanmışdır. 100 il yaşayacağına güclü inamı olduğundan heç bir vəsiyyətnamə yazmayıb. Ağa Musa Nağıyev vəfat edir.

Ümmə Səlmə Kərbəlayi Cəfər qızının, başqa varislərin olmadığı haqda məhkəməyə təqdim etdiyi dəlillərə əsasən, varisliyi sübut olunur.

Lakin sonradan Yelizaveta Qriqoryevna Cankorova – Nağıyeva vərəsəlik hüququna malik olan ikinci şəxs qismində, yəni Ağa Musanın kəbinli arvadı olaraq hüquqlarının müdafiə olunması haqda məhkəməyə müra-

ciət edir. Təqdim etdiyi arayışa əsasən, 1907-ci il martın 28-də Bəhayi qanunu ilə molla Hacı Qulam Hüseyn Qələndar oğlunun kəsdiyi kəbin ona vəfat edənin qanuni arvadı sayılmağa haqq qazandırır.

Məhkəmə A.M.Nağıyev dünyasını dəyişənədək onun heç bir vəsiyyətnaməsi olmadığını da təsdiqləyir.

Məhkəmə prosesi zamanı Ümmə Səlmənin göstərdiyi bütün dəlillərə baxmayaraq, Yelizaveta Qriqoryevna da onunla eyni hüquq əsasında A.M.Nağıyevin əmlakına şərik çıxır.

Məhkəmə kəbin sənədlərinə əsasən Ümmə Səlmə Kərbəlayi Cəfər qızının və Yelizaveta Qriqoryevnanın həyat yoldaşı olaraq Ağa Musadan sonra vərəsəlik hüququna malik olduğu qərarını təsdiqləyir və vərəsəliyin hər birinə olmaqla 16-da bir hissənin payına düşdüyünə qərar verir.

Ağa Musanın qardaşı Ağa Əli Nağıyev də məhkəməyə müraciət edərək, qanuni haqqını almağa iddialı olduğunu bildirmişdi.

Ağa Musa hələ 1899-cu ildə vəfat edən qardaşı Ağa Yusifin iki övladını - Rüqiyyəni və Sadığı himayəsinə götürmüşdü. Bu baxımdan məhkəmənin qərarı ilə onlara da vərəsəlik payı düşmüşdü.

Ağa Musanın vəfatından sonra gedən "Əmlak bölgüsü" məhkəməsinin protokolları olan arxiv sənədləri maraqlı faktları üzə çıxartdı.

Belə ki, şəriət arayışlarından görünür ki, Ağa Musa cümə namazlarında və dini bayramlarda"Hacı Qasımbəy" məscidinə gedirdi.

Bir ildən artıq davam edən məhkəmə prosesi A.M.Nağıyevin Yelizavetanın xahişinə əsasən Bəhayi təriqətinə xeyriyyəçilik etdiyini, lakin dəfn mərasiminin "Hacı İmaməli" Məscidində keçirilməsi və 70-dək mollanın

iştirakı ilə cənazənin yerdən götürülməsi, onun Bəhayi təriqətindən olmadığının sübutudur.

**P.S.** *Vərəsəlik payını aldığından xəbər tutan Yelizavetanın qardaşları onun Bakıda qalmasının təhlükəli olduğunu bəhanə gətirərək, Tiflisə aparır, orada hiylə quraraq var-yoxunu əlindən alırlar. O, güvən yeri saydığı Bakıya qayıdır. Andrey Levanoviç Tumanov - kasıb bir yəhudi ilə ailə qurub, onun evində sığınacaq tapır. Uzun ömür sürür, 80 yaşında - 1968-ci ildə vəfat edir. 1966-cı ildə vəfat etmiş Andrey Tumanov Çəmbərəkənd qəbristanlığında yəhudilərə ayrılmş yerdə dəfn edilib. Yelizaveta da onun yanında dəfn olunub, hər ikisinə bir baş daşı qoyulub. Andrey Tumanov və Yelizaveta Nagıyeva-Tumanova yazılmış bu baş daşı ömrünü bu gün də yaşayır[1].*

*Yelizavetanı tanıyanlar onun nəzakətli və mədəni olduğundan söhbət açarkən, həm də gözəl olduğunu vurğulayırlar.*

[1] Qəbrin şəklinin kitabda görüntüsü var

## NÜFUZLU İNSANIN VƏFATI

*Ona adillikdən – alilliyə ucalmaq nəsib oldu.*

Qurani - Kərimdə yazır ki, ev tikənə əcəl yoxdur! Ağa Musa Nağıyev 100 bina tikib və 100 yaşayacağına çox inamlı idi. Oğlu İsmayılın ölümü onun əhdinə vəfasızlıq etməsinə səbəb olur.

Ağa Musa Nağıyev dünyasını dəyişərkən, bütün şəhər qəzetlərində yazılan nekroloqlarda – Bakının ən nüfuzlu şəxsiyyətinin vəfat etdiyi bildirilmişdi.

50-yə qədər çap edilmiş nekroloqun hər biri bu cümlələrlə bitirdi: "Ən orijinal adamlardan biri, təbiətən tükənməz enerjili, qabiliyyətli, mükəmməl formalaşmış bir insan həyatdan getmişdir. İri kapital sahibi olan Ağa Musa Nağıyev xalqının bütün tələblərinə rəğbətlə yanaşıb!"

Onun cənazəsi bu gün gül passajı kimi tanınan R.Rza küçəsi 39 ünvanındakı evində qoyulmuşdu. Mollalarla dolu olan salona qadınların girişi şəriətə görə qadağan olduğundan, qadınlar o biri otaqlarda mərsiyələr deyib, mərhumu ağlayırdılar.

Çox təm-təraqlı keçən dəfn mərasimində mafənin ardınca böyük insan axını gedirdi. Neftxudalar, sahibkarlar, Dumanın üzvləri, bankirlər cənazənin ardınca ön sıralarda idilər.

Həftə ərzində hər gün verilən ehsan – cücə plov yüzlərlə ehtiyacı olanlara paylanırdı.

Onun ölümü çox sarsıdıcı oldu. Ömrünü millətinin yolunda şam kimi əridən, vətənsevər Ağa Musanın həyatını ilmə ilə toxunan xalçaya bənzədirəm.

Düşünmək olar ki, o, dünyaya gəlməsəydi, bəlkə də bu gün Bakını bəzəyən o tarixi binaların izi də olmazdı.

## İSMAYIL BƏY NAĞIYEV
## 1875-1906

A.M.Nağıyevin yeganə oğlu İsmayıl xaricdə təhsil alıb. Neft işinə meyilli olduğundan buruqlara və zavodlara başçılıq edirdi. Savadlı olduğundan işin maliyyə tərəfini atası ona və mühəndis texnoloqu Fətulla Rüstəmbəyova tapşırardı.

Zövq ilə geyinən İsmayıl bəy mədəniyyəti və səxavəti ilə çoxlarının sevimlisinə çevrilmişdi. Səhər evdən çıxarkən qon-şular vaxtı təyin edirdilər. Geyindiyi kostyumun rəngi isə həftənin neçənci günü olduğunu bildirirdi.

Qəlbinin sadəliyi ilə bacarmayan İsmayıl bəy, çox vaxt var-dövlətdən sui - istifadə edib, ehtiyacı olanlara mükafat olaraq əlavə pul paylayardı.

Belə bir "səxavətin" əleyhinə olan Ağa Musa, oğlunun bu hərəkətini dəstəkləmirdi. Əlbəttə ki, bu xüsusiyyət onun var-dövlətə çox çətinliklə çatmasından və qənaətcilliyindən irəli gəlirdi. Məhz bu nöqteyi - nəzərdən milyonçuya "simic" damğası vursalar da, quru divarı mala tutmadığı kimi, gec də olsa, həqiqət üzə çıxdı. Milyonçunun gördüyü xeyriyyəçilik işləri böyük bir elmi işin -dissertasiyanın ya-ranmasına təməl oldu.

1906-cı il fevralın 16-da Vərəmin (çexotka) ağır formasından heç cürə yaxa qurtara bilməyən 31 yaşlı İsmayılın dünyasını dəyişməsi Ağa Musanı vaxtsız qocaltdı.

İsmayılın tutulduğu sağalmaz və müalicəsi o vaxtlar mümkün olmayan vərəm xəstəliyinə xaricdəki müalicələr də kömək edə bilmədi. İsmayıl xaricdən yazdığı məktublarının birində qeyd edirdi: " Qüruru heç vaxt

sınmayan atam dərd çəkməkdən yumağa dönüb." İsmayıl dünyasını dəyişdikdən sonra Ağa Musanı görən dostlar və qohumlar onu tanıya bilmədiklərini bir ağızdan vurğulayırdılar.

Ağır xəstəliyə düçar olan zamandan yerli və xarici həkimlərin dediklərinə əməl etsə də, xəstəliyin övladına yeddi il verdiyi əzaba Ağa Musa dözməli oldu.

İsveçrədə keçdiyi müalicə zamanı oğlu İsmayılı ziyarət edərkən, hər dəfə Qotik üslubda tikilmiş Palatso Kantarini sarayına həsrətlə baxır, tezliklə oğlunun sağalacağına ümidini üzmədən, onun şərəfinə Bakıda həmin binanın analoqunu tikdirəcəyinə özlüyündə qərar verir.

Lakin çox təəsüf ki, yalnız bu gün də əzəmətini itirməyən "İsmailiyyə" İsmayılın xatirəsindən yadigar qaldı.

## NƏVƏ ÜMMÜL BANU – BANİN
## (1900 - 1992)

***“Ədəbiyyat o mənada yaxşıdır ki, insanları öz ətrafında birləşdirir. Şəxsən mənim üzümə çox evlərin qapılarını açıb, müxtəlif yazıçılarla tanış olmağıma kömək edib”.***

Hər iki övladının dünyadan erkən köçməsi Ağa Musa Nağıyevin şəxsi həyatına böyük zərbə vurmuşdu.

Ağa Şəmsi Əsədullayevin oğlu Mirzə ADR-da Parlamentin (1919) üzvü olmuş, Ticarət və Sənaye Naziri vəzifəsində çalışmışdı. Həyat yoldaşı Ümmül Banu doğuş zamanı vəfat etdiyindən yeni doğulmuş uşağa anasının adını vermişdilər.

Balaca Ümmül Banu milyonlarla kapital sahibi olan neft sahibkarları A.M.Nağıyevin – qız, A.Ş.Əsədullayevin – oğul nəvəsi idi.

Hər iki milyonçu babalar nəvələrinə dərin məhəbbət bəsləyib. Milliyyətcə alman olan dayəsi Anna, ona ananı əvəz edə bilməsə də, yaxşı tərbiyə vermişdi. Ümmül Banunun bir neçə xarici dillərə yiyələnməsi, yaxşı təhsil alması babaların himayəsi altında başa gəlmişdi.

Ümmül Banunu özündən 20 yaş böyük və sevmədiyi Cəmilə ərə verirlər.

XX əsrin əvvəllərində Azərbaycanda baş vermis siyasi böhran bu ailəni təqib edir.

1920-ci ilin hadisələri - bolşeviklər tərəfindən Bakının mühasirəyə alınması, keçmiş nazir və iri sahibkar Mirzə Əsədullayevin həbs olunmaq təhlükəsi Ümmül Banunun gələcək həyatının dəyişməsinə böyük təsir göstərir. Dövlətli, nazir vəzifəli və həm də “Mürtəce” Partiyasının lideri olduğu üçün onun həbsdən qurtulmağa ümidi yox idi.

Atasının həbsdən azad edilməsinə və Azərbaycandan mühacirət olunmasına məhz Cəmil yardımçı olur.

Artıq Bakıda onu heç nə saxlamırdı. Hər iki baba dünyasını dəyişmiş, ailələr müflisləşmiş, ailə səadəti yox dərəcəsində idi.

Az müddət sonra Ümmül Banu Cəmilin vasitəsilə əvvəlcə Türkiyəyə, sonradan Fransaya mühacirət edir. Fransada analığı onu yola vermədiyindən, onlardan ayrılır. O,əvvəcə katibə, makinaçı, daha sonra isə tərcüməçi, müxbir işləyərək özünü dolandırır. Qazandığı fransız dostlarının məsləhəti ilə özünü ədəbiyyat sahəsində də sınayır. Adının tələffüzü cəmiyyətdə çətinlik yaratdığından ədəbiyyat aləmində Banin təxəllüsü ilə tanınır.

1943-cü ildə Baninin XX əsrin əvvəllərində Azərbaycanda cərəyan edən hadisələrdən, baş verən faciələrdən söhbəti gedən "Nəimi" ilk romanı işıq üzü görür.

1945-ci ildə çapdan çıxan "Qafqaz günləri" bioqrafik romanı Baninə çox uğur gətirir. Mühacir həyatından bəhs edən 2-ci povesti "Paris günləri" 1948-ci ildə işıq üzü görür. "Yunger ilə görüş" (1951), "Mən opiumu seçdim" (1959), "Sonra" (1961), "Xarici Fransa" (1968), "Axırıncı ümidin qışqırığı" (1971), "Ernest Yungerin portreti" (1971), "İvan Buninin axırıncı döyüşü" (1979), "Ernest Yunger başqalaşır" və "Mariyanın mənə söylədikləri" romanlarını 1989-cu ildə oxuculara təqdim edir.

Banin təkcə roman və povestlərin müəllifi olmayıb. O, F.Dostoyevskinin və L.N.Tolstoyun əsərlərini rus dilindən fransız dilinə, Ernest Yungeri isə alman dilindən rus dilinə tərcümə edib.

Banin xatirələrində yazır: "Ədəbiyyat o mənada yaxşıdır ki, insanları öz ətrafında birləşdirir. Şəxsən mənim

üzümə çox evlərin qapılarını açıb, müxtəlif yazıçılarla tanış olmağıma kömək edib".

İki görkəmli yazıçının- Ernest Yungerin və İvan Buninin - onun həyat və yaradıcılığına çox güclü təsiri olub. O,Yungerin dostlarının yaratdıqları "Fransız Assosiasiyası"na başçılıq edib. Banin 3 romanını İvan Buninə həsr etməklə bərabər, onun mə-qalələrini və məktublarını fransız dilinə tərcümə edib.

Sonradan Banin xatirələrində elə ilk tanışlığı zamanı ona vurulduğunu, 75 yaşlı bu insanın şux qaməti onaTolstoyun qəhrəmanını, 30-40 yaşlarında olan knyaz Balkonskini xatırlatdığını qeyd edir.

Buninin də Baninə qarşı münasibəti qeyri-adi olub və o, Banini Allahın bağça-bağındakı "qara qızılgülə" bənzətmişdi.

Banin Fransada rus, ingilis və alman dillərindən gözəl bədii tərcümələri ilə də tanınıb. O, məşhur rus yazıçıları Bunin və Dostayevskinin yaradıcılığının ən yaxşı bilicilərindən sayılıb.

Lakin Banin Parisin ədəbiyyat aləminin mühacir təbəqələrində mühüm yer tutduğuna baxmayaraq qeydlərində belə bir şərh də verir: "İftixar hissi ilə qanadlanıb uçurdum. Küçə-küçə qaçaraq kitablarım satılan bütün mağazalara çatmaq istəyirdim. Buna baxmayaraq, özümü yazıçı hesab etmirəm. Sadəcə hadi-sələri şərh edirəm."

O, islam cəmiyyətində böyüsə də, dindar olmayıb. Paris isə onu tamamilə ateistə çevirir. Amma bir vaxtlar "Paris üçün burnunun ucu göynədiyini" qeyd edən Banin, Parisdə olarkən özünü "yelkənsiz gəmiyə" bənzədirdi.

Ondan müsahibə alanlara anasız böyüdüyünü və övladının olmadığı üçün təəssüfləndiyini bildirirdi. Əldə etdiyi müvəffəqiyyətlərə baxmayaraq o, taleyindən şikayətlənirdi. Şəraitin, təsadüflərin, taleyin onu oyuncağa

çevirdiyini vurğulayırdı. Uzunömürlü olub maraqlı həyat keçirmiş və azadlıq əldə etmiş Banin həyatını tənhalıqda tərk edib.

Baninin qeydlərindən məlum olur ki, Vətənini dərin məhəbbətlə sevsə də, nədənsə həmyerliləri ilə görüşməkdən boyun qaçırırdı. Qohumları ilə əlaqə yaratmaq arzusunda olmayıb. Atasından incik düşən Banin hətta ömrünün sonunadək onun məktublarını belə oxumamışdı.

Ömrünün sonuna yaxın ayağından aldığı zədəyə görə oturaq həyat keçirən Banin qiraət etməkdən usanmırdı və gənc müəlliflərin əlyazmaları ilə tanış olurdu.

Fransız ədəbiyyatının axarına düşdüyünə baxmayaraq o, müsahibələrində hər zaman Azərbaycana sadiqliyini və azərbaycan qızı olduğunu fəxrlə vurğulayıb. Baninin "Azərbaycan Evi" Paris Assosiasiyasının fəxri üzvü olması bunu təsdiq edir.

Dünyaya göz yumarkən nəşinin "yandırılmasını" vəsiyyət edir. Buna səbəb ömrünün sonunadək özünü idarə etmək iqtidarında olmaqla bərabər hər zaman həyat kredosu hesab etdiyi azadlıq idi.

Banin hər zaman azadlığı hər şeydən üstün tutduğunu sübut etdi. İnqilab olmasaydı, o, Qafqazdan Parisə səyyah olmazdı.

Hər şey onun üçün üfüqsüz Sovet İttifaqına qovuşmuş Azərbaycanda, Xəzərin sahilində yerləşən Bakıda başladı. Sonradan Banin bunu öz əsərlərində belə təsvir edəcək: "Mən 1900-cü ildə Bakıda çox varlı və zəngin ailədə həyata göz açmışam. Həmin illərdə ermənilər ağına-bozuna baxmadan azərbaycanlıları qırır, azərbaycanlılar isə bu bəlanın qisasını Allaha tapşırırdılar".

1992-ci il oktyabrın 29-da Fransanın "Fiqaro" qəzeti ölkəni sarsıdacaq bir məlumat yaydı: "İlk fransız dilli azərbaycanlı yazıçı Banin vəfat edib..."

**P.S.** *1920-ci ilin aprel ayında bolşeviklər tərəfindən Azərbaycanın işğalından sonra bir çox istedadlı, dərrakəli və fərasətli insanları, o vaxtkı cəmiyyətin dayaqlarını, dövrünün ən zəngin varislərini müflis etdi.*

*Gözlənilmədən maddi problemlərlə yaşamağa məruz qalmış Ağa Musa, onun varisləri sovet repressiya maşınının sərt siyasətinin təsirindən "səfillər" kateqoriyasında sıralanaraq, cəmiyyətdə neqativ obrazda damğalanaraq, mənəvi sıxıntılara, Vətəndən uzaqlarda yaşamağa düçar olmuşdular.*

*Bu sırada Ağa Musa Nağıyevin oğulluğu Fərəc Nağıyev, nəvəsi Ümmül Banu maddi-mənəvi-psixoloji sıxıntılar yaşadıqlarına baxmayaraq, Azərbaycan ədəbiyyatına, mədəniyyətinə bir sıra töhfələr vermişlər.*

## İSMAYIL ƏVƏZİ FƏRƏC
## (1903-1973)

*Ata, ömür kitabımın hər səhifəsində Sən varsan!*

**Baladan pay olmaz, deyiblər. Amma Ağa Əli qardaşı Ağa Musanın dərdini az da olsa yüngülləşdirmək məqsədilə yenicə anadan olan beşinci övladını - Əliəsgəri ona "bağışlayır". Ağa Musa "pay" olaraq qardaşından məhz yenicə doğulmuş oğlunu götürməkdə məqsədi onu istədiyi kimi tərbiyələndirmək idi.**

O biri dörd qardaş qısqanclıq əlaməti olaraq Əliəsgəri aradan götürmək məqsədilə onun gicgahına iynə sancmağı fikirləşirlər. Bundan xəbər tutan Ağa Musa, Fərəci müəyyən müddət gizlətməli olur kı, o biri qardaşlar sadəcə uşaqlıq xəyallarından uzaqlaşsınlar.

Ağa Musa Əliəsgər adı verilmiş körpənin adını öz istəyinə görə Fərəc qoyur. Adın mənası- kədərdən sonra gələn sevinc deməkdir. Ağa Musa bu sevinc ilə 16 il ömür yaşayır.

Uşaqlıqdan ədəbiyyata maraq göstərən Fərəc, atalığı Ağa Musaya məxsus zəngin kitabxanada mütaliə edirdi. Ən çox xoşladığı əyləncə isə, H.Z.Tağıyevin teatrında tamaşalara baxmaq olub. Fərəc Nağıyev belə tamaşalardan sonra evə dönərkən müxtəlif epizodları təkrar edərək xatirələrində yaşadırdı.

1972-1973-cü illərdə ağır xəstəliyə düçar olan Fərəc sənədlərlə birlikdə əlyazmalarını, xatirə və 200-dən artıq

satirik şeirlərini təhvil verdiyi arxivdə 475 saylı fondda qorunmasında S.Mümtaz adına Dövlət Arxivinin İncəsənət şöbəsinin direktoru Maarif Teymurun müstəsna rolu danılmazdır.

Maarif Teymurun Fərəc haqqında belə qeydləri var:

"XX əsrin faciəli illəri Nağıyevlər nəslindən də yan keçməyib. 1972-ci ilin mart ayında Fərəc müəllimdən yaradıcılığına aid sənədləri qəbul edərkən üzündəki gizli kədər gözümdən qaçmamışdı. Soruşanda ki, niyə proqramların bəzilərində Fərəc, bəzilərində isə Əliəsgər adı ilə təqdim olunursuz?

Onun cavabı bu oldu: sənədlərimi arxivə təhvil verirəm, bura etibarlı mənbədir. Tarixdə xeyriyyəçiliyi ilə dərin iz qoymuş Ağa Musa Nağıyev mənim doğmam olub. Çox işlər görüb, ancaq gördüyü işlər barəsində çox az deyilib. Sənədlər belə suallara tarix boyu cavab verəcək."

... Bəlli olur ki, Ağa Musa qardaşı Ağa Əlidən oğulluğa götürdüyü Əliəsgərin adını dəyişib, Fərəc qoyub... Bu nağılabənzər danışıqdan o illərdə heç nə anlamadımsa da, bu gün atamın həyat və fəaliyyətini izləmək çox maraqlı və qiymətlidir.

Maarif Teymurun başqa qeydlərindən:

-"1993-cü ildə bir xanım arxivə gəlib özünü təqdim etdi. Bu xanım Dilarə Nağıyeva idi. O, atası Fərəc Nağıyevin sənədləri ilə maraqlandığını bildirdi. O zaman bildi ki, rejissor, aktyor, rəssam Fərəc Nağıyevin sənədləri arxivin 475 saylı şəxsi fondunda saxlanılır...

Bu kiçik xatirə dekabr ayında - Fərəc müəllimin anadan olmasının 90 illiyi ərəfəsində idi. Aysberqlərin görünməyən tərəflərini az qala yaddan çıxarmaq ərəfəsində sənədlər köməyimizə gəlir...

Fərəc müəllimin 50 il bundan əvvəl tərtib etdiyi albomunu, hələ açılmamış, araşdırılmamış sənədlərini,

satirik yazılarda şeirlərini vərəqləyərkən, keçmişə boylanırıq...”

Bu gün Maarif Teymur aramızda yoxdur, ancaq əməlləri ilə yaşayır.

Sonradan teatr sahəsində əldə etdiyi nailiyyətlər Fərəci hər zaman həm sevindirir, həm də düşündürürdü.

Sənət aləmində özünə geniş imkanlar yaradan Fərəc Nağıyevin sənətinin kölgədə qalmasıına səbəb məhz kapitalist nəslindən olduğu idi. İlk repressiya qurbanlarından oldu Fərəc Nağıyev. Məhz bu səbəbdən o, 1929-cu ildən 1952-ci ilədək Bakı üzünə həsrət qalmalı olur.

Fərəc Nağıyev, 1952-ci ilə qədər ailəsi ilə köçəri həyat keçirib. **Bunun nəticəsidir ki, o, İsveçrə Bankından gələn vərəsəlikdən də “imtina edib”.**

Fərəc Nağıyev ömrünü Orta Asiyada və Dağıstanda, sonradan Azərbaycanın ucqar rayonlarında teatrların təşkilinə, təbliğinə sərf etmişdir. Çətinliklərlə rastlaşsa da, Fərəc Nağıyev hər zaman soyadı və nəsli ilə fəxr etmişdir.

Fərəc Nağıyev illərlə üzərində çalışdığı 70 səhifəlik “Qaravəlli” ssenarisini Mərkəzi Komitəyə təqdim edərkən bir sıra çətinliklərlə üzləşsə də, 1970-ci ildə onun təsdiqlənməsinə nail olur.

Qaravəlli qədim oyun və mərasimlərin, məcazi mənada – teatrvari (alleqorik) tamaşaların məişətləşmiş bir formasıdır. Qaravəlli sözü “qara camaat”- kənd əhlinə daha yaxın mənasında işlədilirdi. Yaratdığı “Qaravəlli teatrı” xalqın yaşayış tərzindən, ictimai-mədəni məişətindən, ehtiyacından yaranıb inkişaf etmişdi. Ulu babalardan irs qalmış incəsənət arxivində, dastan və nağıllarda “Qaravəlli teatrı”nın əsası gözə çarpmaqla bərabər, nəzəri prinsipləri də mövcuddur. “Qaravəlli”- Azərbaycan xalqının milli meydan oyunları tamaşası deməkdir.

Teatrın repertuarına əxlaq və tərbiyəvi əhəmiyyəti olan xırda həcmli pyeslər daxil edilirdi. Tamaşa zamanı satira o qədər şiddətlənirdi ki, hətta bu acı bir kinayəyə çevrilib, ictimai əxlaq qüsurlarını qamçılayırdı.

Xalq tərəfindən sevilərək qəbul olunan tamaşalarla yanaşı, aşiqanə və qəhrəmanlıq dastanları təsvir edən məclislər də teatrın repertuarına daxil edilirdi. Bütün bunlar tamaşacılar tərəfindən böyük rəğbətlə qarşılanırdı.

Fərəcin aktyorluğa olan həvəsini istehza ilə Ağa Musaya çatdıranlara o, belə cavab verir ki, mən özüm samançı oğlu olub, hamballıq etmişəm. Hər nə olursa olsun, insan olsun.

Fərəc Ağa Musanın arzularını puç etmədi.

Ağa Musa İsmayılın ölümü ilə yarımçıq qalan atalıq sevgisini və qayğısını bütövlükdə Fərəcə yönəltmişdi. O vaxtlar Fərəcin heç ağlına da gəlməzdi ki, A.M.Nağıyevin milyonlarla ölçülən var-dövlətinin yeganə varisi olacaq, bu onu Sibirə sürgün olmaq qorxusu ilə üzləşdirəcək, NKVD-nin təzyiqlərinə məhz soyadına görə məruz qalacaq. Elə bunun nəticəsində o, Qazaxıstan,Türkmənistan və Dağıstan respublikalarında, daha sonra isə Azərbaycanın ən ucqar rayonlarında məskunlaşacaq.

Totalitar rejim Fərəci iki dəfə – 1938 və 1943-cü illərdə NKVD-nin zirzəmisində “məsləhət” görülərək, onun adına İsveçrə bankından vərəsə kimi gəlmiş pulları guya yetim-xanaların hesabına keçirilməsinə imza atmasına məcbur etmişdir.

Hər iki dəfə Fərəc Allaha şükr edəcək ki, onu ailəsindən ayırmadan – “ondan əl çəkəcəklər.”

1952-ci ildə Bakıya qayıdışı onun mülkünün müsadirə etmək təhlükəsi ilə əlaqəli idi. Vaxtı ilə onun şərəfinə Ağa Musanın tikdirdiyi mülkün (Verxniy Priyutski, sonradan Ketsxoveli, indi isə Ş.Əzizbəyov, 28) axırıncı otağı da müsadirə edilirdi. Fərəc uzun və gərgin danışıqlardan

sonra 7 nəfər ailə (Fərəcin artıq beş övladı var idi) üzvləri ilə birlikdə 18 kv.m. sahədə yaşamaq hüququnu əldə edir.

Məhz bu illərdə Fərəc qədim xalq bayramı olan “Qaravəlli” nin bərpası və yenidənqurma istiqamətində işə başlayır. Xalq bayramlarına ssenari yazmaq, afişalar tərtib etmək, geyim eskiz-lərini hazırlamaq və hətta aktyor geyimlərini biçib-tikmək Fərəcin əməyi sayəsində həyata keçirdi .

Sonradan “Satirikon” teatrının yaradılması ilə demək olar ki, Fərəcin aktyorluq fəaliyyətinin əsası qoyulur. O, Şərqdə ilk yaradılan təhsil ocağı, SSRİ xalq atristi Şövkət Məmmədovanın rəhbərlik etdiyi Teatr Texnikumunun aktyorluq və rejissorluq fakultələrini bitirir.

Fərəc də Ağa Musa kimi 100 yaş yaşayacağına inanıb, ölümü yaxına buraxmasa da, “ölümün qaş ilə göz arasında” olduğunu dəfələrlə təkrar edirdi.

Həyat yoldaşı Zəhra xanım sanki dözümlülük mücəssəməsi idi. Həkimin və Zəhra xanımın köməyi ilə Fərəcin xəstəliyi 2 il uzandı. Bu qayğıkeşlik onların 45 illik mehriban və hər zaman sevgi dolu ömür sürdüklərinin nəticəsi oldu.

1973-cü ildə yaşadığı illər ərzində ona miras qalan külli miqdarda var-dövlətə sahib ola bilməyən, ailəsinin fədakarcasına qayğısına qalan Fərəcin ömrü sona çatır.

Fərəc Nağıyev xatirələrini belə bir cümlə ilə başlamışdı:” İnsanın ömür yoluna “oldu - öldü” kəlmələri qərar verir. Ancaq insan əməlləri irs olaraq qalır. İnsan ölürsə də sözü qalır, lakin kimin sözü və necə...”

**Fərəcin yaradıcılığı da Ağa Musanın fəaliyyəti kimi bir neçə dissertasiyanın mövzusudur desəm, yanılmaram.**

## FƏRƏCİN HƏYAT TƏRZİ

Bakıda və eləcə də Respublikada Fərəc Nağı kimi tanınmış aktyor və rejissor - neft milyonçusu, iri neft sahibkarı Ağa Musa Nağıyevin yeganə vərəsəsi olub.

Teatr aləminin ilk səhifələrini vərəqləyərək, incəsənətin sahələrini pillə-pillə aşılayan Fərəc, dövrün təzyiqlərinə tuş gələrək, ailəsi ilə birlikdə uzun illər ölkədən kənarda və Azərbaycanın rayonlarında köçkün-qaçqın həyatı keçirib.

Həyat yoldaşı Zəhra xanım bu yolları onunla birlikdə addımlayıb. Zəhra xanım hər bir çətinliyə, şəraitsizliyə dözüb, beş övladı ilə birlikdə onun arxasınca getmişdir.

İndi bütün bunları, eləcə də atamın incəsənətdə və bütövlükdə teatr sənətində qoyduğu izləri nəzərdən keçirərkən, etdiklərinə ürək ağrısı ilə nəzər salıb – 50 ildən artıq ömrünü incəsənətə fəda verən bu insanın adının heç bir yerdə çəkilməməsi məni çox narahat edir.

Onun qarşısında bir məqsəd olub: - Orta Asiya və Dağıstanda, eləcə də Bakının ucqar rayonlarında mədəniyyətin, ələlxüsus incəsənətin inkişafı üçün əlindən gələni etmək!

Şəki, Səlyan, Quba, Əli Bayramlı, Neftçala, Sabirabad və başqa rayonlarda tamaşalar hazırlayarkən, rejissor, aktyor, bədii rəhbər, dekorator və afişa tərtibatçısı olub, kolxozlarda və sovxozlarda konsertlər də təşkil edirdi.

Atamı incəsənətin statisti adlandırırdılar. Mən isə onu incəsənətin fanatı adlandırardım.

Onun səhnə mədəniyyətində - danışıq janrının inkişafında böyük rolu olub.

1929-1952-ci illərdə - qarşısına çıxan bütün çətinliklərə sinə gərib, teatrın inkişafında əməyini əsirgəməyib.

Ağa Musa babamın və Fərəc atamın tale yükləri eyni olub. Ağa Musa hamballıq edib, milyonlara sahib olub və ehtiyacı olanlara çörək, savad verib, xeyriyyəçilik edib, amma bütün bunlar sonradan unudulub.

Fərəc isə 15 yaşından sənətdə fəhləlikdən fəaliyyətə başlayıb, sənət aləmində sənətkarlar yetişdirib, yazıb-yaradıb və bütün bunların müqabilində uzun müddət kölgədə qalıb.

Ona Fərəc adını verməklə Ağa Musa sanki onun tale xəttini cızmışdı. Kədərdən sonra gələn sevinc mənasını daşıyan Fərəc – adının mənası kimi özü də sanki Ağa Musaya İsmayılın dərdini azaltmağa, yüngülləşdirməyə gəlmişdi dünyaya.

Xeyir-dua vermək məqsədilə "Allah işinə fərəc versin" də deyirlər. Görünür sənət yolunda yeni cığırlar salmaqda onun adı və taleyi böyük rol oynayıb.

O vaxtlar Fərəcin heç ağlına da gəlməzdi ki, milyonlarla hesablanan var-dövlətin yeganə varisi olsa da, bu mirasdan ona bir qəpik də çatmayacaq. Sibirə sürgün edilmək təhlükəsi ilə üzləşməmək, keçmiş NKVD-nin gözündən yayınmaq üçün Türkmənistanda, Aşğabadda, Dağıstanda, daha sonralar isə Azərbaycanın ucqar rayonlarında məskunlaşmalı olacaq. 12 il nişanlı qaldığı mavi gözlü Zəhra xanımla evlənəndən az keçmiş həyatın bütün keşməkeşli yollarında onunla birlikdə addımlayacaq.

Totalitar rejim Fərəcin iki dəfə 1938 və 1943-cü illərdə NKVD-nin zirzəmisində adına gəlmiş vərəsəlik pullarının "yetimxanalara bağışlanması"nı məsləhət gördükdən sonra neçə onilliklər susmasına səbəb olacaq.

Hər iki dəfə Fərəc Allah -Taalaya şükr edəcək ki, ailəsindən ayırmadan ondan əl çəkiblər

Şamaxıda dəhşətli zəlzələdən sonra Aşğabada xeyli insan axını olmuşdu. Tale Fərəci də Aşğabada gətirib

çıxarır. Burada “Türkmən-Musiqili Komediya” teatrı yaratmaq ona nəsib olur.

Dənizin o tayına belə işləməyə getməyə can atan Fərəcin yalnız bir fikri var idi – Bakıdan nə qədər mümkünsə uzaq olmaq.

Hər yerdə olduğu kimi Aşğabadda da yeni işinə köhnə bir binada, demək olar ki, sıfırdan başlayır. Qısa bir zaman içərisində Fərəcin çalışdığı kollektiv Türkmən və Azərbaycan dillərini bilən tamaşaçı auditoriyasını teatra cəlb edə bilir.

Çox sonralar Nuxa (Şəki) Dram teatrında işləyərkən o, artıq yetkin, formalaşmış bir kollektiv yaradır.

1969-1970-ci illərdə Bakıda bir çox illər qədim xalq bayramı olan “Qaravəlli” meydan oyununun tam ortaya çıxmasına məhz **Fərəc Nağı*** nail olub. Bu meydan oyunları onun uşaqlıq xatirələrinin röyaları, yuxuları olub.

Novruz bayramına hazırlıq ssenarisinin yazılması, səhnə geyim- eskizlərinin və eləcə də afişaların hazırlanması, milli donların tikilişi də Fərəcin əməyi sayəsində ərsəyə gəlirdi.

Yazdığı 200-dək satirik şeirlərində dövrün və eləcə də hakimiyyətin onu narahat etdiyi satira formasında aydın hiss olunur.

Qaravəlli teatrını yaratdığı zaman Xalq yaradıcılıq evinin direktoru ona müraciətində yazır:

– “Yoldaş Nağıyev Fərəc, Sizi bu qələbə ilə ürəkdən təbrik edib, bu yönümdə işinizi daha da ciddiləşdirib, “Qaravəlli teatrı”nın inkişafına yönəltməyinizi tövsiyyə edirəm.

Azərbaycanın ilk Xalq artisti, pofessor Hacıağa Abbasov isə Xalq yaradıcılıq evinə – “Qaravəlli Xalq Teatrı” adının verilməsi münasibətilə təbrik məktubunda belə yazmışdı:

“Mənim dərs verdiyim ilk tələbələrimdən biri olan Fərəc Nağıyevin belə bir teatr yaratmasına sevinirəm. Hələ rejissorluq fakultəsində təhsil alarkən, F.Nağıyevin bacarığı məni heyran etmişdi. Onun fitri istedadı hamını heyrətə salırdı. Sevinirəm ki, o, məhz mənim tələbəm olub. Gələcək nəsil üçün nümunə olacağını arzulayıram”.

Fərəc Nağı “Tənqid- təbliğ” teatrında həvəskar aktyor kimi fəaliyyətə başlamış, 1928-ci ilədək bir sıra Xalq teatrlarında işləmiş, sonradan “Səyyar kəndli” teatrında baş rolların iştirakçısı olmuşdur.

O, Sabirabad Dram teatrının yaranmasında da böyük əmək sərf etmişdir.

1. Təxəllüs qəbul etmişdi

Orta Asiyada və Dağıstan Respublikasında, eləcə də Azərba

ycanın ucqar rayonlarında: Salyan, Nuxa, (indiki Şəki) vəSabirabadda teatrların təşkilində, aktyorların püxtələşməsində,
tamaşaların quruluşçu rejissoru və tərtibatçısı kimi də atamın böyük əməyi olub.

Nağıyev soyadı onu hər zaman təqib etdiyindən, Fərəcin yaradıcılığı kölgədə qalmışdı. Bütün bunların canlı şahidi, Quranın ilk tərcüməçisi, görkəmli alim Əli Fəhmi, böyük Şəhriyar kimi şəxsiyyətlərlə birgə döyüşən, məhz bu səbəbdən sonralar Vətəndən didərgin düşmüş - Məhəmməd Biriya, ona sözün əsl mənasında qardaşlıq edən Respublikanın Əməkdar Artistləri - Hacıməmməd Qafqazlı və Əlihüseyn Qafarlının adlarını çəkməmək qeyri-mümkündür.

Atam üzügülər, zarafatcıl, dostu qardaş qədər yaxın bilən olub. Azərbaycanda ilk qarmon və piano ifaçısı,

böyük bir nəslin nümayəndəsi olan Ruxsarə xanım Mirzəbəyova da onun dostlarından olub. Atam gözəl səsə də malik idi. O, ölüm yatağında ikən, Ruxsarə xanımdan pianoda "Leyli və Məcnun" əsərindən bir parça çalmasını xahiş etmiş və ayrılığı hiss edərək, ürək ağrısı ilə oxumuşdu.

İndi bu xatirələri yada saldıqca, düşünürəm ki, röyalarda yaşamışam. Əgər atam sağ olsaydı, onun çoxşaxəli keyfiyyətlərini qiymətləndirən mütləq tapılardı. Çünkü sözün əsl mənasında o, fitri istedada malik bir insan olub.

Bu gün incəsənətə, sənətkarlara Dövlətimiz tərəfindən verilən qiymət məni çox sevindirir.

Rejissor, aktyor, rəssam, bədii hissə müdiri, bədii rəhbər, gülüş ustası, bir sözlə teatr sahəsindəki bacarığını sadalamaqla bitməyən istedada malik olan atam, 246 toyda masabəyi olub, məclisi idarə edib. Bütün bunların işığı onun üzündə əksini tapırdı.

O, gözəl rəqs edirdi. Ziyafətlərdə "Qoçəli" rəqsini özünə məxsus bir məharətlə ifa edirdi. Üzünün cizgilərinə qədər rəqsə uyğun dəyişməsi onun rola girdiyinin sübutu idi. Onu Azərbaycanın Essenbayevi adlandırırdılar.

O zaman onun sənətinə mətbuat vasitəsilə belə qiymət verilmişdi:

"... Fərəc Nağının sevinməyə ixtiyarı var. Ssenari müəllifi, maskalar, məzhəkəli kupletlər - bütün bunlar onun qəlbidir, zəhmətinin bəhrəsidir, bilik və təcrübəsidir, bütövlükdə ürəyidir." ("Bakı" qəzeti 1969 il.)

Atam çox çətin bir dövrdə yaşasa da, yaradıcı dövrü nə qədər çətin olsa da, əqidəsindən heç vaxt dönməyib.

Sevinirəm ki, atamın yaradıcılığı ikinci ömrünü Dövlət Arxivində yaşayır.

İlbəil onun vətənpərvərlik hissləri artırdı. Buna onun şeirlərində və tərtib etdiyi afişalarda rast gəlmək olur.

Onun da arzusu 100[1] yaş yaşamaq olsa da, o da Ağa Musa ömrünü - 70 yaşı yaşadı.

Fərqləri bu oldu ki, Ağa Musa **98** bina tikdi, Fərəc isə **98** sənət əsəri yaratdı. Bir də ki, Fərəcin həyatda uduşu qeyrətli həyat yoldaşı və beş övladı, həmçinin gözəl dostlar qazanması oldu.

---

[1] Ağa Musa kimi o da bu yaş ömrünü arzulayıb

## “QARAVƏLLİ” ƏHVALATI

Fərəc Nağı 1969-cu ildə “Qaravəlli” xalq meydan oyunlarına-xalq folkloruna həsr etdiyi 75 səhifəlik ssenarisini çox çətinliklə də olsa Mərkəzi Komitənin Katibi Şıxəli Qurbanovun imzası ilə təsdiqlənməsinə nail olub.

O, qədim ayin və mərasimlərin teatrvari məcazi (alleqorik) tamaşaların məişətləşdirilmiş forması olan “Qaravəlli” milli meydan oyununun yenidən ortaya çıxmasına nail olub.

Həmin illərdə Xalq Yaradıcılıq Evinə “Qaravəlli Xalq Teatrı” adının verilməsi Fərəc Nağının nailiyyəti idi.

Bu tamaşalar onun uşaqlıq xatirələrinin röyaları, yuxuları olub.

1998-ci ildə Xətai rayonu “Qaravəlli Mədəniyyət Evi”ndə Fərəc Nağının anadan olmasının 95 illiyi münasibətilə təntənəli gecə keçirildi.

Gecənin keçirilməsinə mən də qatılmışdım. Deyilənlərə görə çox maraqlı Dəvətnamə çap etdirmişdim. Dəvətnamədə bacım Solmaz x.,qardaşım Raufun qızları, ictimaiyyətdən qadınlar və mən maraqlı xatirələr yazmışdıq.

## ATAMLA SÖHBƏTİM

### *Elegiya*

Ata, yeni nəfəs verib "Qaravəlli"[1]yə,
Dedin ki, bir meydan oyunudur bu,
Bilin ki, babalar keçib bu yolu.
Oynanan teatrvari mərasimləri,
Həyat, məişətin bir formasıdır.
Gülməli söz də deyəndə biri,
Yaxud da kimsə bəzən söyləyəndə hekayət,
Bu ki, Qaravəllidir, deyib adamlar.

Məlumat az idi, bilən azdı ki,
Xalqa məxsus olub bu Qaravəlli.
Yetmiş səhifədə yaratdıqlarınla sən,
Çatdırdın bizlərə keçmişimizi.
Xalqın yaşam tərzi, ehtiyacları,
Məzəli bir hekayət söyləyəndə də,
Bu da bir səhnədir- dedin, Qaravəllidə.

Gecələr yatmazdın, elə yazardın,
Yarı- yuxulu gözlərimlə baxardım sənə,
O vaxtlar anlaya bilmədiklərim,
O gülüş altında, axan göz yaşın,
Bu gün tək mənası bəllidir mənə.
Toylar Kralı sən oldun, neftinki Musa,
İki yüz qırx altı toya rəhbərliyin də,
Xeyirxah babamın davamı yoxsa?!

Dədə- babalardan bizlərə keçən,
Dastan, nağıllardan danışanda sən,
Dedin ki, kökdən gəlib əsası bilsən,

---

[1] qədim folklorumuz

Gülməli, məzəli Qaravəllimiz.
Başa düşən az idi sözün mənasın,
Çün gözü qapalıydı  o insanların.
Bilin məzhəkə tək deyilən sözlər,
Həyat faciəsinin bir parçasıdır.
Məişət- əməklə bağlı oyunlar,
Qara camaatın aqibətidir!
Qədim meydan oyunu "Qaravəlli"ni,
Xalqın məzhəkələrilə birləşdirib sən,
Guya komediyanın nümunəsi tək,
Ər-arvad münaqişəsin atdın ortaya.
Dedin ki, baxdınız tragik komediyaya siz.

Meydan oyunudur bu bir tamaşa,
Qışa hazırlıqdır Novruzla – Bahar,
Yığardı heybəsinə[1] libaslarıını,
Gəzərək kəndləri ulağın[2] üstə,
Keçəl və Kosa car çəkib, deyərdi:
- ehey...camaat... eşidin, bilin,
Tamaşa başlayır filan ünvanda, filan saatda.
Səhnələr qurulur, salınır döşək,
Kətillər düzlənir digər tərəfdə.
Qəh-qəhələr şiddətlənib artaraq bir an,
Qüsurlara göz yumanlar azalır.
Həqiqətin üzünə dik baxıb, düşünərək,
Ya Rəbbim! Deyir- acı həyatın  güzgüsüdür bu.
Ey İnsanlar, əksinizə baxıb, oyanın siz də!
Oyunbazların gülərək, dediklərini
Bir bardaq bal ilə udmaq olmazdı.

Sən yenidən nəfəs verib "Qaravəlli"yə
Dedin ki, bir meydan oyunudur bu,

---
[1] çanta mənasında, torba
[2] eşşək nəzərdə tutulur

Bilin ki, ata-babalarımız da keçib bu yolu.
Meydan babası olaraq, meydan suladın,
Yaddaşa qaytardın, yaşatdın Onu.
Ssenarini Mərkəzi Komitə təsdiqləyərkən,
Anam oldu şahidi çəkdiklərinin.
Bəlalar çox çəkdi o zaman başın,
Tərəzinin bir gözündə varislik, o birində biz,
Tarazlaya bilmirdin sən vəziyyəti.
Şıxali Qurbanov imzalayanda,
Unutdun hər şeyi, sevindin ki, sən,
Doğuldu yenidən folklorumuz.

Ata, “Qaravəlli teatrını” yaratmaqla sən!
Qaytardın bizləri keçmişimizə,
Yaşatdın Musanı, Ağəlini, İsmayılı da.
Verdin öz qüdrətindən mənə də irsən.
Sonbeşik olsam da, çıxdım meydana,
İndi yatmayıram gecələr mən də,
Hər kitab yazdıqca, sətirlərimdə,
Qarşımda görürəm, duyuram səni,
Sevinərək sevdirirəm babamla səni.

Bəlkə də röyadır, bilmirəm nədir,
İndi də duyuram əzablarını.
Anam söyləyəndə NKVD-dən qayıtdığını,
Neçə ay özündə, sözündə də olmadığını,
Uşaqdım, bəlkə Qaravəlli bilirdim bunu,
Demə həqiqətmiş söylənilənlər.
Onda uca dağ idin, mənsə bir uşaq.
Uca dağa uşaq çıxa bilərmi, soruram səndən?
İndi Nur dağına çıxıb, Sur dağından enirəm,
Dağ da yarıb, külüngün də vururam.
Sənindir, sənindir, sənindir bu güc,
Keçmiş illərimin röyaları da,

Yazıb- yaratmaq həvəsim də sən,
Şəcərə ağacın "əkmək"[1] həvəsim,
Toz basmış sənədlər çıxarıb üzə,
Babamın, sənin də xeyirxahlığın
Çatdırdım millətə tariximizdən!
Qazandığım hörmət, aldığım nəfəs
Bil ki, sənindir, sənindir, sənindir bunlar!

---

[1] Nəsil ağacının tərtibi

## MESENATLARIN XEYRİYYƏÇİLİYİ

Azərbaycanda fəaliyyət göstərən əksər xeyriyyə və maarifçilik cəmiyyətlərinin əsas büdcəsi üzvlük haqlarından və ianələrdən təşkil olunurdu. İanə toplanması üçün konsert və tamaşalar, xeyriyyə gecələri təşkil olunurdu. Bütün bunlara milyonçu H.Z.Tağıyev rəhbərlik edirdi.

Qaydaya görə keçiriləcək hər bir tədbir haqqında Cəmiyyətin sədri H.Z.Tağıyevin imzası ilə Bakı şəhər idarəsinə xüsusi məktub yazılır, gecənin proqramı da ona əlavə edilirdi. Belə halda Cəmiyyətin "Müsəlman gecələri" adı ilə keçirdiyi tədbirlər xüsusi yer tuturdu. Bu tədbirlərə Bakının ziyalıları, sahibkarları, zadəganları dəvət edilir və iştirak edənlər Cəmiyyətin xeyrinə ianələr verirdi.

Arxiv sənədlərindən bu tədbirlər zamanı toplanmış vəsait, orada iştirak edənlərin sayı, habelə verdikləri ianələrin miqdarı haqqında tam məlumat əldə etmək mümkün olmamışdır.

Məsələn, 1913-cü ildə keçirilən dörüncü müsəlman gecəsində H.Z.Tağıyevin 1000 rubl, İ.Lobovun 500 rubl; 1914-cü ildə keçirilən beşinci gecədə H.Z.Tağıyev və A.M.Nağıyev hərəsi 4000 rubl, Abdul Məçid Çermoyev 525 rubl, Əli Əsədullayev 100 rubl ianə vermişdir. Cəmiyyətin İdarə Heyətinin apardığı hesabata görə beşinci müsəlman gecəsindən ümumilikdə 14.909 rubl miqdarında ianə toplandığı qeyd edilir.

Fondda toplanan vəsait Cəmiyyətin himayəsində olan məktəblərin ehtiyaclarını təmin edərək şagirdlərə paltar, dərs ləvazimatları alınırdı. Ehtiyacı olan uşaqlara maddi yardım da göstərilirdi.

H.Zərdabinin "Nəşri-Maarif" Cəmiyyəti bir qayda olaraq hər il Novruz bayramı ərəfəsində əhali arasında tədbirlər keçirir və burada da ianələr toplayırdı.

Cəmiyyət Bakı və onun ətrafında yaşayan əhali arasında çox böyük xeyriyyəçilik işləri aparmaqla bərabər, ətrafına dövrün görkəmli mesenatlarını, ziyalılarını cəmləmişdi.

Belə ki, 1912-ci ildə Novruz bayramı ərəfəsində keçirilən tədbirdə 51 nəfərin iştirak etdiyi məclisdə ən çox ianə verən xeyriyyəçilərdən H.Z.Tağıyev və A.M.Nağıyevin adları siyahıda xüsusi qeyd edilib.

İanə verənlər siyahısında Bakıdakı Türkiyə konsulu Əli Kamal bəyin, Bakı qubernatoru Alışevskinin, Vitse-qubernator R.Bloxun, Bakı şəhər rəisi P.Martınovun da adları vardır.

1913-çü ildə toplanmış ianənin miqdarı 2268 rubl təşkil edən məbləğin 2125 rublu "Nəşri-Maarif" Cəmiyyətinin fonduna köçürülmüşdir.

Bakıda xeyriyyəçilik və maarifçilik ənənələri ilə məşqul olan Cəmiyyətlərdən biri də "Nicat" adlanırdı. 1906-cı ilin mart ayında yaradılmış "Nicat" Cəmiyyətinin Nizamnaməsi Bakı
qubernatoru Alışevski tərəfindən rəsmən təsdiq edilmişdir.

Nizamnamədə qeyd edilirdi ki, Cəmiyyətin məqsədi müsəlmanlar arasında **maarifçiliyi yaymaq,** müsəlman tələbələrin ali, orta və ibtidai təhsil muəssisələrində təhsil almalarına kömək etmək, ana dili və ədəbiyyatın inkişafına xidmət göstərməkdir. Cəmiyyət eləcə də müsəlman şair və yazıçıların əsərlərini çap etdirir, müəllim kadrlarının yetişdirilməsi üçün pedaqoji kurslar təşkil edir, qurultay çağırır və nəhayət quberniyanın digər müsəlman şəhərlərində Cəmiyyətin şöbələrini yaradır. Bakı milyonçuları öz aralarında yarışa girərdilər ki, il ərzində kim tədbirlərə daha çox aktyor və ya müğənni dəvət edib, tamaşalar təşkil edə bilər. Bu sırada A.M.Nağıyev birincilik qazanardı.

Bütün bunların əsasını əlbəttə ki, maliyyə təşkil edirdi. El arasında belə tədbirlərin ən fəal təşkilatçısı A.M.Nağıyev sayılırdı.

1896-cı ildə “Tağıyev teatrında” - indiki Musiqili Komediya teatrında, Ağa Musanın təşəbbüsü ilə “Dilin bəlası” və “Qırt-qırt” əsərlərinin səhnələşdirilmiş tamaşaları cəmiyyətin rəğbətini qazanmışdı. Bu dövrdə incəsənətin təbliğində Nəriman Nərimanovun da rolu böyük olub.

A.M.Nağıyev tamaşaların premyerasında N.Nərimanova yaxından iştirak etdiyinə görə qiymətli almaz qaşlı üzük, Ağasi Zeynalova isə qızıl qol saatı bağışlamışdı. Ümumilikdə 400 rubl təşkil edən ziynət əşyalarının hər birinə Ağa Musa 200 rubl məbləğində pul xərcləmişdi.

Ağa Musanın gələcək planları azərbaycanlı balalarının təhsil alması, Bakının su probleminin həll olunması və səhiyyə sistemində mövcud olan problemlərin aradan qaldırılması ilə bağlı olub.

## AVROPA NİYYƏTİNDƏ

Ölkənin malik olduğu yerüstü və yeraltı resursları istehsala cəlb olunmazsa, onlar ölkənin sərvəti hesab oluna bilməz. Hər bir ölkənin təbii sərvətləri xalqın ərsəyə gətirdiyi işgüzar milli burjuaziyanın fəaliyyəti sayəsində ölkəyə şöhrət gətirə bilər.

Müasir Bakının gözəllik tacı sayılan "İsmailiyyə" binası, ailə həyatımızın ilkin özüllərini qoyduğumuz "Səadət Sarayı"- ictimai, mədəni, səhiyyə, incəsənət, təhsil, elm ocaqlarını özündə təcəssüm etdirən yüzlərlə bu tipli binalar Azərbaycan xalqının tarixi və mənəvi irsinə çevrilmişdir. Bu tipli arxitektur nümunələr məhz milli burjuaziya nümayəndələri - H.Z.Tağıyev, A.M.Nağıyev, M.Muxtarov və İ.Hacınskinin yadigarlarıdır.

A.M.Nağıyev avropalaşmaq niyyətində olanlara "Qərbi Azərbaycana gətirəcəyəm" deyirdi.

Atasının tövsiyə etdiyi "Oğul, bacardığın qədər bina tikdir, ömrün uzanar" vəsiyyətinə əməl edərək **100** bina tikdirməyi qarşısına məqsəd qoyan və **100** yaşayacağına, hətta ölümsüzlüyə qovuşacağına inanan A.M.Nağıyev **70** yaşında ikən dünyasını dəyişdi. Onun gözlənilməz ölümü atasının vəsiyyətinə tam şəkildə əməl etməyə imkan verməsə də, Bakı milyonçuları arasında **98** bina tikdirmək yalnız ona nəsib oldu.

Hayıf ki, həyat itkisiz olmur. Amma şəxsi vəsaiti hesabına ucalan gözəl tikililər ona mənəvi ölümsüzlük qazandırdı.

Ağa Musa Nağıyevin Bakıya yaraşıq verən binaları Azərbaycan tarixinin şahidi, Azərbaycan xalqının milli kimliyinin nümunəsidir.

XIX əsrin sonu – XX əsrin əvvəllərində bir sıra Avropa şirkətlərinin Bakı neftinə göstərdikləri böyük marağı,

şübhəsiz ki, Azərbaycan neft sənayesinin inkişafına güclü təkan verdi.

Xarici neft şirkətləri Bakı neft sənayesinin inkişafına sərmayələr yatıraraq milyonlarla gəlir əldə etsələr də, ümumilikdə Azərbaycanın elm, təhsil, mədəniyyət sahələrinin inkişafına qazanclarının cüzi hissəsini sərf etmişdilər.

Xarici investorlardan fərqli olaraq Azərbaycan xalqının səxavətli, xeyriyyəçi, işgüzar milli burjuaziya nümayəndələri Azərbaycanda xeyriyyəçilik ənənələrini davam etdirərək, xalqın sosial, ictimai, mədəni həyatında səciyyəvi işlər görmüşlər.

XIX əsrin sonu, XX əsrin əvvəllərində Bakı nefti çoxlarını var-dövlət sahibi etsə də, onlardan yalnız bir neçəsi bu varidatı təkcə özünün deyil, həm də xalqın rifahına sərf edib ki, bu sırada da ilk yerlərdən birini qazanan məhz A.M.Nağıyev olmuşdur.

## MALİYYƏ- İQTİSADİ XƏRİTƏ

Sərvəti artdıqca Ağa Musanın arzuları da artırdı. 1893-cü ildə o, Sabunçuda, daha sonra Ramanada və Suraxanıda neft mədənləri salır.

Ağa Musa o zaman ən zəngin hesab edilən Bibiheybət dərəsindəki və Naftalan körfəzi sahilindəki mədənləri əldə edir. Qazılan quyuların hamısı güclü fontan vurur. Qaraşəhərdə xüsusi neftayırma zavodu tikdirir, burada öz mədənlərindən aldığı neftdən başqa, həm də kənar «neftxuda»lar üçün neft təmizlətdirib, gəlir mənbəyini artırırdı.

Bununla kifayətlənməyən A.M.Nağıyev mexaniki emalatxana , XIX əsrin sonlarında isə "Neftçıxarma firması"nı yaradır.

Ağa Musa elə xeyirxah işlər görüb ki, onu yaddaşlardan pozmaq mümkün deyil.

Təkcə xalqın balalarının maariflənməsi yolunda saysız vəsait sərf etməklə, başqa milyonçulardan fərqlənib. Bununla o, az bir zamanda savadlı müsəlman uşaqlarının sayının artmasına səbəb olur.

Yuxarı təbəqələrin məclislərində Ağa Musa Nağıyevin varına və nüfuzuna görə xüsusi oturacaq yeri olub.

Belə məclislərdə dəllallar üçün salonun dörd küncündə, yan tərəflərdə zavod sahibləri, ortada isə bankirlər, kiçik neftxudalar, maliyyə işlərini aparan iqtisadçılar əyləşirdilər. Mizin arxasındakı oturacaqların hər biri əhəmiyyət daşıyırdı. Salon bütövlükdə bir növ maliyyə- iqtisadi xəritəyə oxşayırdı. Malyyə cəhətdən sahibkarların nüfuzu artdıqca, oturacaqlarda yerdəyişmələr aparılırdı. Bəzən elə də olurdu ki, salonun küncündə əyləşənlərdən biri mənsubiyyətindən asılı olmayaraq, hətta bu şəxs əvvəllər dəllal olsa da gözlənilmədən varlanarsa, mərkəzdəki oturacaqlardan

birini tuta bilərdi. Belə hallar da olurdu ki, ən mötəbər yerdə əyləşənlərdən biri hətta yoxa da çıxırdı.

Öz yerlərində stabil oturanlar, mövqeləri heç vaxt dəyiş-məyənlər on-on beş nəfər idi. Belələrindən birincisi olub Ağa Musa Nağıyev.

Hər tərəfi güzgü olan salondakı dairəvi ziyafət mizinin dövrəsində ancaq nəhəng neftxudalar və bankirlər əyləşirdi.

Belə ziyafətlərdə istifadə ediləcək qab-qacaq gümüşdən, büllur və çinidən olurdu.

Ağa Musanın kazinolara getməsini kənardan başqa cürə başa düşənlər fikirlərində yanılırdılar. Onun məqsədi mənfəət əldə etmək olub. Belə hallarda qumarda uduzanlar dəryada batan saman çöpünə oxşayırdılar. Onlar Ağa Musaya yaxınlaşıb, satdığa qoyduqları əmlak və ya gəmilərini baha qiymətə təklif etsələr də, o, özünün təyin etdiyi qiymətdən dönməzdi.

Bəzən dövlət bankına veriləcək zəmanət vəsiqəsini Ağa Musaya imzalatdırmaq üçün məclis qurub dəvət edənlər də olub.

## ƏCNƏBİ ARXİTEKTORLAR...

A.M.Nağıyev inqilabaqədərki Bakının arxitekturasına, fenomen binalar tikdirməklə, gözəllik bəxş edənlərdən birincisi olub.

Bakının ən çox gözəgəlimli yerlərində bu gün də Azərbaycan memarlığının nümunələri kimi görünən tikililər – məhz A.M.Nağıyevin şəxsi vəsaiti və təklifləri əsasında inşa edilmişdir.

XIX-XX əsrlərin qovşağında Bakının memarlıq həyatında görkəmli və istedadlı memarlardan biri İosif Kasperoviç Ploşko (1866-1931) idi.

Qeyd etmək lazımdır ki, məşhur milyonçu-sifarişçi A.M.Nağıyev bu memara pərəstiş edirdi və o tikinti üzrə çox-saylı sifarişlərini məhz İ.Ploşkoya tapşırırdı.

1908-1910-cu illərdə A.M.Nağıyevin sifarişi ilə İ.Ploşkonun layihəsi əsasında Telefonnaya küçəsində eyni vaxtda həm memarlıq, həm də həcm-məkan kompozisiyasına görə tamamilə başqa planda dörd mərtəbəli (28 may№10) yaşayış binası tikilmişdir. İ.Ploşko özünün memarlıq fantaziyasından istifadə edərək, Torqovaya – indiki Nizami küçəsindəki A.M.Nağıyevin yaşayış evinin fonunda qırmızı kərpic və daşlardan bənzərsiz kompozisiya yaratmışdır. Memar A.M.Nağıyevin yaşayış evinin fasadının plastik işləmələri ilə yanaşı, binanın görünüşünə də xüsusi diqqət ayırmışdır ki, bu da binaya monumental -bitkin gözəllik vermişdir.

İ.Ploşko tikintilərində orijinallığı ilə fərqlənir, ümumi kompozisiyası ilə -yaradıcı təxəyyülü ilə seçilirdi.

Onun hər bir tikintisini daş üzərində "bədii memarlıq poeması" adlandırmaq düzgün olar. Bu xüsusiyyətlərinə görə bu tikililər Azərbaycan milli irsi siyahısına daxil edilmişlər.

## İSMAİLİYYƏ

*Bakıda, binaların hər bir daşının arxasında*
*Sizləri tarixin karvanı qarşılayır.*
*Final çox kədərli olsa da, göz yaşları*
*rekviyem olaraq axmağında davam edir...*

Venesiya qotikası üslubunda tikilmiş möhtəşəm "İsmailiyyə"[1] sarayı incə zövqlə işlənilmişdir. Bu bina insanda yüksək hisslər oyadır. Memarın ustalığına və daş ustalarının bacarığına heyranlıq yarada bilən əsl memarlıq simfoniyasıdır. Bina düşünülmüş həcm-məkan həllinə malikdir.

Birinci mərtəbədə korpusun çıxışında eni boyu uzunluqda dördbucaqlı formada vestibül yerləşir. Sonra qarşımıza iri ionik sütunları olan foye açılır, ondan sonra geniş mərkəzi üçmarşlı (düz, sağa və sola) giriş pilləkənləri görünür. Foyenin künclərində qapalı ikimarşlı pilləkənlər yerləşir. Giriş pilləkənlərinə paralel olaraq xidməti otaqlar yerləşir.

İkinci mərtəbəyə giriş pilləkənləri ilə çıxış plastik qaydada "şəkillərlə" müşahidə olunur.

"İsmailiyyə" binası Palazzo Kantarinyə oxşar yaradılıb. Memar Ploşkonun yaratdığı bu şedevr A.M.Nağıyevin arzusu ilə baş tutub. Qeyd etmək lazımdır ki, Palazzo Kantarini Böyük kanalda, İsmailiyyə isə şəhərin Baş magistralı Nikolayevski- indiki İstiqlaliyyət küçəsində yerləşir. Hər iki bina özlüyündə üstün mövqe tutur. Lakin güclü profil verilərək azacıq fasadın dərinliyinə bərkidilmiş ilk beş ədəd tağla birlikdə ucalan "İsmailiyyə" daha monumental tikili sayılır.

---

[1] A.M.Nağıyev bu sarayı oğlu İsmayılın xatirəsinə tikdirib

Fasadın hədsiz dərəcədə plastik işlənməsi ona xüsusi gözəllik və rövnəq qatmışdır. Çatma tağların üstünlük təşkil etməsi binanı yerli mühitə daha da yaxınlaşdırır.

Gözəl rəsmlərlə bəzədilmiş həcmli çatma tağlardan ibarət birinci mərtəbə, formaların monumentallığını yüngülləşdirərək, onlara yeni motivlər qatan dayaq tirləri vasitəsilə hissələrə bölünmüşdür. Sarayın əsas giriş qapısı - memarlıq üslub və detalların möhtəşəm kompozisiyasını təşkil edir.

Memar İ.Ploşko fasada plastik görkəm vermək məqsədilə daş üzərində dərin oymalardan istifadə etmişdir. O, bunu daş memarlığı sənətindən götürmüş və əsərlərində ondan bədii ifadəlik əldə etmək üçün məharətlə istifadə etmişdir.

İnqilaba qədərki dövrdə bütün memarlıq üslublarının çiçəkləndiyi bir vaxtda, Bakı məhəllələrində, tikinti prosesinin gedişatında onun yaradıcılığı şərq və qərb motivləri ilə müşahidə olunmuşdur. Memar çatma tağların ritmini ardıcıl struktura çevirməklə onu plastik elementlərlə möhkəmləndirməyi bacarmışdır.

Lakin Ağa Musaya elə gəlirdi ki, İsmayılın xatirəsi memarlıq nöqteyi-nəzərindən layiqincə yad olunmayıb. Buna görə də memar birinci mərtəbədə tağların arasında akand yarpağı heraldik emblemli və taclı çələng formasında relyef təsvir olunmuş iri dairəvi dekorativ motivlər yerləşdirmişdir.

A.M.Nağıyev əsilzadə ailəsindən olmasa da, sahibi olduğu milyonlar ona bu cür dəqiqlikləri tələb etməyə imkan verirdi. Oğlu İsmayılın xatirəsinə həsr etdiyi "İsmailiyyə" sarayında keçirilən xeyriyyə tədbirləri ilə bir növ İsmayılı əbədi yaşatmaqla, cüzi də olsa təsəlli tapırdı.

1918-ci ilin mart hadisələri zamanı qəddar ermənilər tərəfindən "İsmailiyyə" nin yandırılması A.M.Nağıyevin də həyatına son qoyur.

“İsmailiyyə” sarayının məhvindən sonra (1920-ci ildə restavrasiya olunur) mənəvi sarsıntılar keçirən Ağa Musa oğlunu sanki yenidən itirmiş hesab edir. O,1919-cu il martın 4-də dünyasını dəyişir.

**P.S.** *“İsmailiyyə” binasının üzərində belə bir yazı da olub:*

*“Dünyanın qarışıqlığı təəccüblü deyil, təəccüblü olan insanların bu qarışıqlıqdan necə baş çıxarmasıdır!”*

## “YENİ AVROPA” MEHMANXANASI
## “LUKOiL” şirkəti

A.M.Nağıyev 1913-cü ildə Qorçakovski - indiki H.Z.Tağıyev küçəsi №13-də memar İ.Ploşkonun layihəsi əsasında “Yeni Avropa” mehmanxana tipli bina tikdirmişdir.

**Bina 4 ədəd lift, sanitar-texniki avadanlıqlar, buxar qızdırıcıları, qapalı elektrik naqilləri ilə təchiz olunmuşdur.**

Binanın tikintisində daşıyıcı konstruksiyası qismində dəmir beton dayaqlardan və örtüklərdən istifadə olunmuşdur. **Binada bu gün Rusiyanın “LUKOiL” şirkəti fəaliyyət göstərir.**

**Ailə xatirəsindən bəlli olur ki, Ağa Musa məhz bu binanın 6-cı mərtəbəsindəki eyvanında Hacı Zeynalabdin ilə söhbət edərkən, 100 yaş yaşayacağına əmin olduğunu bildirmişdi.**

1993-cü ildən binada “LUKOiL” – neft şirkəti Rusiya Federasiyasının qərarı ilə fəaliyyətə başlayıb. Həmin ildən Vahid Ələkbərov “LUKOiL”a rəhbərlik edir. O,1950-ci ildə Bakıda anadan olub. Ali təhsillidir. Azərbaycan Neft-Kimya İnstitutunu bitirib.

2016-cı ildə “Lukoil”in səhmdarları illik toplantıda Vahid Ələkbərovun növbəti 5 il üçün şirkətin prezidenti vəzifəsinə seçilməsi haqqında qərar qəbul ediblər. O,şirkətin səhmlərinin 22,96%-ə sahibdir.

Qeyd edək ki, "LUKOiL" şirkəti Rusiya, MDB və dünyanın bir çox ölkələrində neft məhsullarının hasilatı, emalı, satışı və kəşfiyyatı ilə məşğul olur.

40 ilə qədər layihə üzrə məhsulun bölünməsi (SRP) və 12 ilə prolonqasiya mümkünü haqqında razılaşması 1996-cı ildən qüvvəyə girib, ticarət ehtiyatlarının açılışı 2001-ci

ildə qeyd edilmişdir. Sənaye çıxartması 2006-cı ildə başlanmışdır.

## MEMAR İ.PLOŞKONUN SƏNƏT ƏSƏRLƏRİ

A.M. Nağıyev memar İ.Ploşkonun iş qabiliyyətini yüksək qiymətləndirərək tikdirdiyi yaşayış və mülki binaların əksəriyyətinin inşasını ona sifariş edirdi.

Müəllifi olduğu İ.Ploşkonun zəngin memarlıq nümunəsi sayılan A.M.Nağıyevin tikdirdiyi binalarının siyahısından bəziləri:

- İsmailiyyə (1908-1913) Nikolayevski - indiki İstiqlaliyyət küçəsi № 10;
- 4 mərtəbəli Əkiz binalar (1908-1910) Telefonnaya - indiki 28 May küçəsi № 4 və 6;
- 4 mərtəbəli gəlir evləri (1908-1910) Telefonnaya - indiki 28 May küçəsi № 10;
- 4 mərtəbəli yaşayış binası (1908-1910)-Torqovaya - indiki Nizami küç. 91;
- 3 mərtəbəli yaşayış binaları (1909-1910) Mariinski c-indiki R.Rza küçəsi №4 və 6;
- Yeni Avropa mexmanxanası (1910-1913) Korçakovski -indiki H.Z.Tağıyev küçəsi № 13;
- Gəlir evi (1913) Krasnovodski - indiki S.Vurğun və Malakanski- indiki Xaqani küçələrinin kəsişdiyi tində;
- 4 mərtəbəli gəlir evi (1912) Malakanski küçəsi № 47.

28 May 4, 6 və 10, həmçinin Nizami küçəsi № 91 ünvanlarındakı binalar ümumilikdə bir yaşayış kompleksi yaratmışdır.

Belə ki, 28 May küçəsi 4 və 6 ünvanındakı binalar assimmetrik şəkildə yerləşib, perpendikulyar dalanlarla, biri o birisindən ayrılır. Gəlir gətirən bu binalar (kirayə verilən) özünün daxili planlaşmasına görə tam oxşardır. Məişət qrupundan başqa iki cərgə üzrə yerləşdirilmiş mənzillər qonşu mülklərə birləşdirilmişdir. Giriş qapısının pilləkənləri yuxarıda asılmış fənərlərlə işıqlandırılırdı.

Memarlığın diqqət obyekti olan digər 3-4 mərtəbəli binalar da öz həllini bu cür tapmışdır. Varlı kirayəçi sahibkarlar üçün nəzərdə tutulmuş belə binaların mənzilləri geniş dəhlizlərlə təchiz olunmuşdur.

Nizami 91 ünvanındakı binanın fasadı dalana tərəf yönəldilmişdir. Bununla memar tikinti sahəsindən istifadə etməklə bir çox məziyyətlərinə görə qonşuluqdakı mülklərdən fərqlənən üzvi planlaşdırma strukturunu yarada bilmişdir.

Sözü gedən hər üç bina yalnız şəhər miqyasında planlaşdırma baxımından deyil, həm də üslub incəliklərinə görə bir-birinə çox yaxındır.

Ehtimal olunur ki, sahibkarın Vaqzal rayonunda bütöv bir məhəllənin salınması haqqında 1900-cü ildə Peterburqun "Зодчий" (Memar) jurnalında dərc etdiyi elan həyata keçməmişdi.

Lakin ideya İ.Ploşko tərəfindən bəyənildiyindən A.M.Nağıyev bu variantı qəbul etmişdi.

Dəmiryol vaqzalının açılışından sonra şəhərin tarixi mərkəzi küçəsi və Telefonnı bu istiqamətdə daha da inkişaf etdirilir. Küçənin adı da Ağa Musanın yol boyu qoydurduğu telefon dirəklərindən - yarımstansiyadan götürülərək Telefonnaya adlandırılmışdı.

A.M.Nağıyev üçün buradakı boş sahələrdə genişmiqyaslı tikinti işlərinə başlamağa imkan yaranmışdı. Onun mülklərində bir sıra aparıcı şirkətlərin kontorları da yerləşirdi, məsələn:

- Birjevaya-Üzeyir Hacıbəyov küçəsində - «Биржа» neft-mədən kontoru,
- Qara şəhərdə - Neft zavodları kontoru ,
- Bolşaya morskaya - Bülbül prospektində - Gəmiçilik kontoru,
- Ramanada - Neft və boru kəməri stansiyaları kontoru,

- Balaxanski ilə Vorontsov – indiki Füzuli və İslam Səfərli küçələrinin kəsişdiyi yerdəki mülkündə - Mexaniki emalatxana kontoru yerləşib və s.

# İCTİMAİ YIĞINCAQLAR BİNASI

*(Народный Дом)*

Bina S.Vurğun küçəsi 30, Bəşir Səfəroğlu və Çingiz Mustafayev küçələrinin kəsişməsində yerləşir. Fasadı isə Malaya Morskaya küçəsinə baxır. Bina 1900-1901-ci ildə tikilib.

Bu binada kübarlar adlı-sanlı xanəndələrin, rəqqasələrin, musiqiçilərin iştirakı ilə mərasimlər keçirər, hər ilin axırıncı ayının əvvəllərində isə ənənəvi məclislər verərdilər.

"A.M.Nağıyev kompaniyaları"nın sahibləri, bankirlər, neftxudalar, tacirlər, zavod və fabrik sahiblərinin iştirakı ilə keçirdikləri belə məclislərdə onların həyat yoldaşları da iştirak edərdi.

Ağa Musa Nağıyevin Народный Дом - Xalq Evi adlanan bu ikimərtəbəli binasında məclislər çox təmtəraqlı keçirdi. Bənzərsiz arxitekturaya malik olan bina belə günlərdə daha da bərq vururdu. İştirakçılar da bina kimi gözəl görünürdülər.

Belə məclislərdə bəhsə girən qadınlar ləl-cavahirat içində üzürdü. Biri-birinə qarışan ətirlərin iyindən qonaqlar məst olurdu.

Hərbiçilərin və dənizçilərin səliqə ilə ütülənmiş mundirləri nəzərdən qaçmır, xüsusi maye ilə - təmizlənmiş orden və medallarının parıltısı göz qamaşdırırdı.

Ziyalılar isə son dəbdə tikilmiş smokinq, frak və kostyum geyinərdi.

Keçirilən tədbirlərdən əldə edilən gəlirin bir hissəsi xeyriyyə işlərinə istifadə üçün ayrılırdı.

Bu gün binada "Ağır Cinayətlər üzrə Məhkəmə" fəaliyyət göstərir.

# OĞURLANDIĞI EV

Bəşir Səfəroğlu №173, S.Vurğun küçəsilə kəsişdiyi tində 3 mərtəbəli arxitektur bina Ağa Musa Nağıyevin yaşadığı evlərdən biri olub.

Eşitdiklərimə dair bina xarici görkəmi kimi daxildən də çox yaraşıqlı və əzəmətli olduğundan Ağa Musa istirahət günlərini burada keçirirmiş. Amma qonaq-qaranı Rəsul Rza küçəsindəki evində qəbul edirmiş.

Binanın eyvanlarının bər-bəzəyi o zamankı kimi bu gün də küçədən keçənlərin diqqətini özünə cəlb etməkdədir.

Kontordan qayıdarkən, Ağa Musanın qazanc məqsədilə sifarişli oğurlanması məhz bu evin qapalı girəcəyində baş verib.

Bina bu gün də əzəmətini itirmədən, yaşayış üçün zəruridir.

## POÇT-TELEQRAF KONTORU

1899-cu ildə A.M.Nağıyev Merkuryev indiki Zərifə Əliyeva 36 ünvanında memar Kazimir Şkuryeviçin inşası ilə “Bakı şəhər Poçt-Teleqraf Kontoru” binasını tikdirir. Belə bir bina tikdirməkdə əsas məqsəd kənd və rayonları məktub və teleqram vasitəsi ilə şəhərlə qovuşdurmaq olub.

Nəqliyyat vasitələrinin məhdud olduğu bir dövrdə belə bir addımı atan məhz Ağa Musa olub .

Binadan bu gün də bu məqsədlə istifadə edilir.

**Hal-hazırda Nəqliyyat və Yüksək Texnologiyalar Nazirliyi - Kosmos elminin davamı hesab edilərək, bu binada fəaliyyət göstərir.**

**P.S**. *Yuxarıda sadalanmış bu binaların bir əsrdən çox yaşı olsa da, onların hər biri bu gün də öz təravətini itirməyib. Əzəməti., gözəlliyi və xarici bəzəyi ilə Bakını ziyarət edənləri valeh edir.*

## MƏRDƏKAN BAĞI

25 aprel 1896-cı il tarixli dairəvi məhkəmənin Bakı baş notariusunun "Krepostnoy Qala" kitabında apardığı qeydiyyata əsasən, I gildiyalı Bakı taciri Ağa Musa Nağıyevin Mərdəkanda aldığı 81 nömrəli bağın -daşınmaz əmlakın -torpaq sahəsi Mərdəkanın Şüvəlan ilə kəsişdiyi yerdədir.

A.M. Nağıyev bu torpaq sahəsini Babacan Melikovdan müqavilə əsasında 600 gümüş rubla almışdı.

Torpağın ümumi sahəsi 1/ 10.438 kv. sajen olub,[1] C-dən D-yə qədər Şimali qərbi; D-dən Y-yə qədər Şimali şərq istiqamətindədir.

Bu fakt həm də 1915-1917-ci ilin "Xüsusi torpaq sahibləri"nin Balaxanı-Sabunçu kitabında qeydiyyatda da öz əksini tapıb.

Müqavilədə göstərilən qeydiyyata əsasən torpaq sahəsinin Ağa Musa Nağıyevin nəslinə aidiyyatı olduğu xüsusi qeyd olunub.

A.M.Nağıyevin bağında bu gün "Abşeron Mədə - Bağırsaq Sanatoriyası" fəaliyyət göstərir.

Sahənin bəzi hissəsində qaçqınlar məskunlaşıb, bir hissəsi isə dağınıq halda, yararsız və istifadəsizdir. Həmin dağınıq yerdə Ağa Musanın hündürlükdə tikilmiş taxtadan 2 villası[2] dağıdılmış halda olsa da, çox fiqurlu şüşəbəndin qalan bir hissəsi gözəlliyini hələ də itirməyib .

2009-2010-cu ildə bacım Solmaz xanım Mərdəkanın ağbirçəyi Sitarə xanım ilə (hər ikisi dünyasını dəyişib) bağın sahəsini seyr edərkən video çəkiliş aparmışdım (disk arxivimdədir).

Bu sahədə sizləri gördüklərimlə tanış etmək istərdim.

---

[1] 1 sajen 2,3m., yaxud 3 arşına bərabərdir

[2] Kitabda fotoları var

Sanatoriyaya daxil olarkən sol tərəfdə hündürlüyü 7-8m. olan çarhovuz bərbad haldadır.

Dağıdılmış çarhovuzun mərkəzində olan "daş heykəldən" isə əsər-əlamət qalmayıb.

O zamanlar hovuzun kənarlarında tordan çəkilmiş pərdə arxasında Tovuz quşları var-gəl edirdi. Ağa Musa gələn qonaq

ları hovuzda kiçik qayıqda gəzdirərdi. Bu mənzərəni seyr etmək hamıya nəsib olmazdı.

Ağa Musadan yadigar qalan, amma "yadigardan" heç bir əsər-əlamət qalmayan bu bağın girəcəyində belə bir Xatirə lövhəsi var: - "Burada Böyük Vətən Müharibəsi illərində 1545.1547 N-li Təxliyə (evakuasiya) Hospitalı yerləşib". Vəssalam! Sanatoriyanın lövhəsi də yoxdur.

**P.S.** *Züleyxa Əsədullayeva –Veber, Şəmsi Əsədullayevin qız nəvəsi, Ağa Musanın torpaq sahəsində hovuza qalxan 40 pilləkənlərin birində əyləşərək dəfələrlə verdiyi müsahibələrində bu bağın Şəmsi Əsədullayevə mənsub olduğunu vurğulayardı.*

*Belə bir səhv məlumatı da bu olub ki, guya Şəmsi Əsədullayevin M.Muxtarov küçəsi №13-də yerləşən binasını da Bakı Prokurorluğuna o bağışlayıb.*

*Arxiv sənədlərinə və alqı-satqı müqaviləsinə istinad edərək diqqətə çatdırıram ki, "Abşeron Mədə- Bağırsaq Sanatoriyası"nın arxasındakı bitişik sahə-bağ, Şəmsi Əsədullayevə mənsub olub. Ş.Əsədullayevə məxsus həmin torpaq sahəsinin darvazasında bu gün də mil-yonçunun adı və bağın tarixi saxlanılır. Sadəcə bu gün hər iki sahənin arası açılaraq bir-birinin ardını təşkil edir;*

*Eləcə də arxiv sənədlərindən o da məlumdur ki, M.Muxtarov küçəsindəki 13 №-li bina isə Rotşildlərin binası olub və tarixdə "Rotşildlərin kontoru" kimi tanınıb.*

# MUSA NAĞIYEV XƏSTƏXANASI

Həyatını xalqın maariflənməsinə və mədəniyyətinin inkişafına həsr edən, XX əsr Azərbaycan memarlığı tarixində öz yeri və ənənələri olan Ağa Musa Nağıyevin fəaliyyətinin əsas istiqamətlərindən biri səhiyyənin inkişafı təşkil edib. Tikdirdiyi **98** binadan dördü xəstəxana olduğu bunun bariz nümunəsidir.

Oğlunun vaxtsız vəfatı ilə heç cürə barışa bilməyən Ağa Musa vaxtaşırı epidemiyanın tüğyan etdiyi doğma şəhərində böyük bir xəstəxana tikdirmək fikrinə düşür.

Bu məqsəd ilə o, uzun müddət xəstəxana tikintisi ilə məşğul olan milliyyətcə alman memarı Bayevə müraciət edir. Banka 300.000 rubl məbləğində vəsait keçirən Ağa Musaya maneçilik törədənlər olsa da, o bu planından əl çəkmir.

1908-1914-cü illər ərzində xəstəxananın tikintisi başa çatır.

1000 çarpayılıq nəzərdə tutulan xəstəxananın binası Ağa Musanın soyadının baş hərfi **«H»** görünüşündə inşa olunur. Xəstəxanada 400 yer daxili xəstəliklər, 250 yer cərrahiyyə, 150 yer müxtəlif xəstəliklər, 200 yer isə yoluxucu xəstəliklər üçün nəzərdə tutulur.

Çox yüksək məbləğ hesabına başa gələn Bakının ilk və nəhəng xəstəxanası, təəssüf ki, çox qısa bir müddət, yəni 1914-cü ildən 1920-ci ilə dək xeyriyyəçinin adını daşıyıb.

Yalnız 1992-ci ildə ədalət zəfər çalır və xəstəxananın əvvəlki adı bərpa edilir.

1983-cü ildən etibarən Cahangir Hüseynovu-xəstəxananın Baş həkimini nə üçün halal puluna tikdirdiyi xəstəxanaya Ağa Musanın adı verilməsin- sualı çox narahat edirdi. Və o, bu məqsəd ilə dövlət orqanlarına müraciət edir, nəhayət məqsədinə nail olur.

Nazirlər Kabinetinin 1992-ci il Sərəncamına əsasən 72 ildən sonra xəstəxanaya mesenat- xeyriyyəçi Ağa Musa Nağıyevin adı qaytarılır.

1992-ci il iyulun 16-da xəstəxanaya xeyriyyəçinin adını daşıyan lövhənin vurulmasına nail olan Baş həkim Cahangir Hüseynov bu sevinci bu gün də yaşayır.

İstefada olan polkovnik rütbəli Cahangir Hüseynov Leninqrad Tibb Akademiyasını bitirib. Macarıstanda 6 il hərbi cərrah, Gəncə Hərbi Hospitalında 10 il cərrahiyyə şöbəsinin müdiri vəzifəsində çalışmış, 1983-1993-cü ilədək Bakıda Musa Nağıyev xəstəxanasında baş həkim vəzifəsini icra etmişdir.

Çox maraqlı əmək fəaliyyəti olan bu insan xeyirxah bir iş görmüş olub.

**Bu gün vaxtı ilə adını daşıdığı xəstəxananın binasında Səhiyyə Nazirliyi fəaliyyət göstərərək insan sağlamlığına xidmət edir.**

Qeyd etməliyəm ki, 2006-cı ildən etibarən xeyriyyəçi-nin adı buradan götürülüb. Bir fikir də çox maraqlıdır ki, Ağa Musa Nağıyevin tikdirdiyi o biri xəstəxanaları səhiyyədə tanınmış müxtəlif insanların adlarını daşıyır.

**Ağa Musa Nağıyevin adı hardadır? Bu suala cavab axtarıram.**



# ШӘФА ОҸАҒЫ НАҒЫЈЕВИН АДЫНАДЫР



Фотомухбиримиз Һичран Бабајев бу шәкилләри Бакы шәһәр тә'чили тибб јардымы хәстәханасына Муса Нағыјевин адынын верилмәсинә һәср едилмиш тәнтәнәли мәрасимдә чәкмишдир.

Mən də Ağa Musaya «Xatirə lövhəsi»nin vurulacağını və adının Bakının küçələrindən birinə veriləcəyi ümidimi bu gün də üzmürəm.

Yaddan çıxarmaq olmaz ki, “Vərəmlə mübarizə” Cəmiyyətinin təsisçisi xəstəxanaların, çoxmərtəbəli mehmanxanaların, körpələr evinin və təhsil ocaqlarının tikilməsində milyonlarını əsirgəməyən Ağa Musanın adı birincilər siyahısında olub.

Azərbaycanda neft istehsalı sahəsində yüksək göstəricilər sahibi olan Ağa Musa adının əbədiləşdirilməsi məqsədi ilə 1995-ci ildən gördüyüm işləri sadalayaraq İcra Hakimiyyətinə dəfələrlə etdiyim müraciətimdə “İsmailiyyə”

binasının üzərində xatirə lövhəsinin vurulmasını xahiş etmişəm.

Düşünürəm ki, Ağa Musa kimi -millətin yolunda pullarını xərcləməkdən çəkinməyən qeyrətli sahibkarlarımızın itirilən haqlarını qaytarmasaq da, heç olmazsa, onların adlarını uca tutmaqla ruhlarını şad etməliyik.

1998-ci ildə «İsmailiyyə»nin qarşısında - akademik Yusif Məmmədəliyevin heykəlinin açılışı zamanı Ulu Öndərimiz Heydər Əliyev nitqində İstiqlaliyyət bayrağının məhz bu binanın üzərində sancıldığını qeyd etmişdi.

Məni hələ o zaman bir sual narahat edirdi ki, niyə belə bir heykəl Ağa Musa üçün ucaldılmasın? Bəlkə buna səbəb onun gələcəkdə professor və akademiklərin məskunlaşacağı binanın təməl daşını qoymasıdır?!



**AĞA MUSA NAĞIYEVİN (dördüncü) məzarı**
**1998-2016**

## ZABİTLƏR EVİNİN BİNASI

## (1887)

Keçmiş Malakanskaya-Xaqani, Krasnovodski – S.Vurğun, Birjevaya-Ü.Hacıbəyli və Bolşaya Morskaya-Bülbül küçələrinin dairəsində: Xaqani küçəsində "Astoriya" mehmanxanası-indiki "Məhkəmə Ekspertizası"; Bülbül prospekti ilə Ü.Hacıbəyov küçəsinin kəsiyində keçmişdə "Tikiş fabriki"- indiki göydələn, S.Vurğun küçəsində "Qış evi" – indiki "Mərkəzi Zabitlər evi" Ağa Musa Nağıyevin tikililərindən olub.

**S.**Vurğun və Xaqani küçələrinin kəsişdiyi yerdə, sahilə yaxın tikiləcək "Qış evi" və yaxud "Xalq evi" adlanan binanın bünövrəsi, sudan qorumaq məqsədilə, bir növ Parisdəki Eyfel Qülləsinin dayağını xatırladan körpüvari şəkildə qoyulmuşdur. **Ümumi yığıncaqlar keçirmək məqsədilə tikilən bu binada neçə onilliklərdir ki, "Mərkəzi Zabitlər evi" fəaliyyət göstərir.**

Mülki mühəndis A.Kondrikov tərəfindən hazırlanmış bu binanın - layihəsi 1887-ci il dekabrın 30-da təhvil verilmişdir.

Ətrafında baş vermiş yanğından sonra ziyan çəkmiş bu bina əsaslı təmir olunub. Demək olar ki, bina yenidən bərpa edilib.

Qeyd etməyi vacib sayıram ki, Hərb Muzeyində "Ağa Musa Nağıyev guşəsi"ndə bina haqqında tarixi sənədlər var.

Bina İctimai Yığıncaqlar keçirmək məqsədilə tikilib. Xeyriyyə xüsusiyyəti daşıyan məclislərdə ziyalılar və xeyriyyəçilər xanımları ilə iştirak edirdilər.

Qonaqlar binanın 1-ci mərtəbəsində yerləşən orkestrin ifa etdiyi klassik musiqi ahəngi altında qarşılanırdı.

1918-ci ilin arxiv sənədlərinə əsasən A.M.Nağıyevin bu binadan əldə etdiyi illik gəlir 31.350 rubl olub.

## TELEFONNAYA KÜÇƏSİNİN MACƏRASI

Ağa Musa binalarının ən çoxunu məhz Telefonnaya-indiki 28 May küçəsində tikdirmişdir. Şəhərdə telefonlar yalnız sahibkarlara aid olduğundan Ağa Musa ilk olaraq bu küçədə -əhalinin sıx olduğu yerdə 10-a qədər dirək qoydurub avtomat telefonlar çəkdirmişdi. Telefonla danışmaq üçün bu küçəyə gələn rusdilli əhali "gedirik zəng etməyə telefonlu küçəyə" dediklərindən, bu ad ilə də uzun zaman tanınır.

Sovet dönəmində də həmin yerdə Beynəlxalq danışıqlar telefon şəbəkəsi yaradılır.

***A.M.Nağıyevin gəlir evlərini "Qasımov qardaşları və K" şirkəti ucaldırdı. Bir binanın tikintisi qurtar-mamış başqa birisinin tikintisinə başlayırmış. Bu üsul ilə inşaat işlərini hətta Hacı Zeynalabdin Tağıyev də həyata keçirə bilməyib.***

Ağa Musa təkcə İsmailiyyə, Qış evi (Zabitlər evi), Novaya Yevropa (Yeni Avropa) və Astoriya binalarını tikdirməklə, sağlığında heykəlini ucaldıb, adını əbədiləşdirib. Binaların üzərindəki hər bir venzel isə daş kitabələri xatırladır, milyonçunun daşlaşmış möhürünün təsirini bağışlayır.

**Nadir hadisə:** 28 May küçəsindəki əkiz, yaxud "güzgü simmetriyalı" binada 1992-ci ildə mənzillərin birində yanğın baş vermişdi. Sakinlərin danışıqlarından:

- Səhər 9-dan başlayan yanğın 12 saat davam edir. Yanğın- söndürənlərin binaya vurduqları su sanki kiçik dənizi xatırladırdı. Yanğın söndürüləndə, döşəmədəki parketin olduğu kimi qalması hamını heyrətə salmışdı. İnanılası mümkün deyildi. 12 saat suyun altında qalmış parket döşəməyə heç bir ziyan dəyməmişdi. Əks mütənasib olan, taxta və suyun "dostluğunun" nəticəsinin

belə bitməsi ağlasığmaz idi. Bu parket döşəmənin yüksək keyfiyyətindən xəbər verirdi.

Müsahibim onu da əlavə etdi ki, eşitdiyinə görə Ağa Musa Nağıyev o zaman tikinti materiallarını Bakıda əldə etmək mümkün olmadığından, xaricdən gətizdirirmiş.

Düşündüm ki, 70 ildən sonra "yeni dünya" qurarkən, köhnəni yıxmaq, keçmişi yaddaşlardan silmək lazım gələndə, dağıdılan heykəllər heyif ki, dil aça bilmədi. Sanki bu heykəllər: söksələr də -keçmişi dəyişmək mümkün deyil – deyirlər.

## RAMANADA EVLƏRİ

Ramana kəndində Ağa Musanın tikililərindən bir ev tapdım. Əhvalat 2014-cü ildə baş verib.

Evin sakinlərindən biri efir vasitəsilə binanın uçulub, dağılmasından şikayətlənirdi. Bu, BVM-nin qəhrəmanı Həziyev Fərrux Nəcəf oğlunun gəlini Həziyeva Balacaxanım idi.

Onun danışdıqlarından aydın oldu ki, Ağa Musa Nağıyev İranın Sərab Mahalının Mehraban kəndindən (Ulu babasının yurdundan) Azərbaycana köç edənləri Ramanadakı buruqlara işə cəlb edib. İşçilər üçün həmin kənddə - Dadaş **Bunyadzadə** küçəsi 23-də tikdirdiyi 2 mərtəbəli, 32 mənzilli binada sığınacaq verib. Bina yataqxana tipli- kommunal şəraitli, mətbəxi ümumi olub.

BDU-nun dosenti Fərrux Həziyevin (Həyat yoldaşı Rubabə xanım olub) adı 1942-ci ildə müharibədə həlak olmuşlar sırasında olduğundan, övladı Aydın Fərrux oğluna anası və ailəsinə bu binada mənzil verilib. Balacaxanım ürək ağrısı ilə binanın bərpası uğrunda mübarizə aparır.

Onun danışıqlarından bəlli oldu ki, Balacaxanım orta tibb işçisi olsa da, sakinlər və qohumlar arasında göstərdiyi tibbi xidmətin keyfiyyətinə görə ona həkim qədər inanırdılar. 70 yaşlı əlil qadın yataq xəstəsi olsa da, tarixi binanın bərpası uğrunda apardığı mübarizəsini bu gün də davam etdirir.

Qaynanası Rubaba xanım Ağa Musa Nağıyevin gördüyü işlər haqqında ona çox danışıb. Tarixdən bildikləri və qaynanasının söhbətləri onda Ağa Musaya olan hörmətinin artmasına səbəb olub.

O, Ramanada və Sabunçuda Ağa Musanın binalarının çoxluğundan da söhbət açdı. Hətta Sabunçuda tikdirdiyi poliklinikanın – vaxtı ilə Ağa Musanın adını daşıdığı xəbərini də Balacaxanım söylədi.

## VENZEL HAQQINDA

Böyük ürək sahibi, aydın düşüncəli, savadsız, amma təcrübəli iqtisadçı olan bir şəxsə "xəsis" damğası vuranlar da sonradan etiraf etmişlər ki, Ağa Musa doğrudan da qərarlarında haqlı imiş.

**Onun "fontan vurmayan yerə maya qoymaram"- biznes proqramının məntiqi bəzilərinin düşündüyü kimi xəsislik olmayıb!**

Əcəl, 100 bina tikmək arzusunda olan Ağa Musaya 98-ni ucaltmağa imkan verdi. Bir ömür üçün məgər bu azdır?!

Həmin binaların hər birinin həyatda öz missiyası olub:- xəstəxanalar, poçt idarəsi, mehmanxanalar, məktəb, yığıncaqlar üçün tikdirdiyi binalardan - "İsmailiyyə" və zamanında adını daşıdığı xəstəxananın xüsusi təyinatı bu gün də öz əhəmiyyətini yaşayır.

Tikdirdiyi binaların əksəriyyətinin üzərində Emblem – daş kitabə mövcuddur.

**Hambal şələsinin kənarlarında sünbül çələngləri, mərkəzində soykökünü MH hərflərilə həkk etdirməklə yaratdığı daş kitabə - VENZEL, Ağa Musanın keçmişini unutmadığından nişanədir.**

**A**ğa Musa ancaq İsmailiyyə, Yığıncaqlar evi, Novaya Yevropa və Astoriya mehmanxanalarını tikdirməklə, sağlığında heykəlini ucaldıb, adını əbədiləşdirib – desək yanılmarıq. Binalarının üzərindəki venzel - sanki milyonçu-nun daşlaşmış möhürünün təsirini bağışlayır.

**A**ğa Musanın etdiklərinə rəğmən hesab etmək olar ki, yalnız 3 heykəli olub desəm, yanılmaram. Onlardan biri adını daşıdığı xəstəxanadakı 2006-cı ildə məhv edilən lövhə oldu. O biri 2-si isə "vəfalı" olub, "Ekspertiza məhkəməsi"nin eyvanlarındakı qrifli venzellər, eləcə də 28 May küçəsindəki 10 № li binanın divarlarında və eyvanlarındakı çoxlu saydakı venzelləri – təəccüb doğursa da, saxlanılıb.

Bakının füsünkar mərkəzini bizə yadigar qoymuş görkəmli şəxslərdən biri, düşüncə və işgüzarlığı ilə özünə "Ağa" dedirtməyi bacaran, Rus Çarının rəğbətini qazanan olub Ağa Musa Nağıyev. Sevindirici haldır ki, üzərində bəzəkli venzeli olan və hələ də vüqarını itirməyən saray tipli binaları bu gün də xalqın xidmətindədir.

... 2014-cü ildə baş verən bir hadisəni xatırlatmağı borc bilirəm. Mənə telefon açan qadın Bakıdan idi. İsveçrədən gəlmiş bir nəfərin Ağa Musa haqqında məlumat vermək istədiyini bildirdi. Danışan Vladimir Borisoviç adlı bir şəxs idi. Soykökünü nişan verərək, məqsədi vaxtı ilə Ağa Musanın onun atası Borisə etdiyi yaxşılıq haqda xatirələrini çatdırmaq oldu.

Vladimir Borisoviçin danışdıqlarından: - Atam İsveçrə mənşəli olub, Pyatiqorski şəhərində yaşayıb. Təxminən 1914-1915-ci illər idi. Atam tanışlarına iş axtardığı barədə müraciət edir. İşləmək üçün Bakıya gedə biləcəyi razılığını aldıqdan sonra ona Bakıda çox mötəbər və varlı bir şəxsiyyətin - Musa Nağıyevin etibarlı, savadlı və əcnəbi bir sürücü axtardığını bildirirlər.

Atam Bakıya gəlib, Gül passajı binasında yerləşən kontorunu (idarəni) tapıb, xozeyni xəbər alır. Onu Ağa Musanın yanına gətirəndə təəccübdən özünü itirir. Çünki o,varlı şəxsiyyətin ucaboylu, enlikürək olduğunu təsəvvür etdiyi halda, qarşısında arıq və təsəvvür etdiyinin tam əksi

olan bəstəboy bir insan görür. Sonradan atam deyirdi ki, əməllərini gördükdən sonra həmin cüssəsiz Ağa Musa onun gözündə əvvəlcədən təsəvvür etdiyi kimi uca görünürdü.

Tanışlıqdan sonra onu iş otağına dəvət edəndə atamın gözü Ağa Musanın iş otağında başı üstündə divardan asılmış qeyri-adi bir əşyaya sataşır. Ağa Musa bunun Venzel olduğunu- ailə rəmzi olaraq açıqlamasını izah edərək bildirir ki, milyonlara çatsa da heç zaman atasının saman satmaqla məşğul olduğunu və hamballıq etdiyini unutmayıb. O, bu venzeli 2 kq. çəkisində qızıldan sifariş etmişdi.

Atamı işə götürməyə razılıq verdikdən sonra onlar birlikdə maşın dayanacağına gəlirlər. Avtomobilin gözəlliyinə heyran olan atam söyləyirdi ki, motorun kapotunu açanda bərq vuran parıltıdan gözləri qamaşmışdı. Ağa Musanın Avropadan xüsusi sifariş etdiyi “Rols Roys” markalı avtomobilin motoru qiymətli metaldan – nikeldən hazırlanmışdı.

Bu gün mən də Ağa Musanın adını daşıyan Təşkilatın möhürünün mərkəzində babamın daş kitabəsini – Venzelini yaşadıram.

Saman satan atasının saman satmaqla məşğul olduğunu və hamballıq etdiyini unutmayıb. O, bu venzeli 2 kq. çəkisində qızıldan sifariş etmişdi.

Atamı işə götürməyə razılıq verdikdən sonra onlar birlikdə maşın dayanacağına gəlirlər. Avtomobilin gözəlliyinə heyran olan atam söyləyirdi ki, motorun kapotunu açanda bərq vuran parıltıdan gözləri qamaşmışdı. Ağa Musanın Avropadan xüsusi sifariş etdiyi “Rols Roys” markalı avtomobilin motoru qiymətli metaldan – nikeldən hazırlanmışdı.

Bu gün mən də Ağa Musanın adını daşıyan Təşkilatın möhürünün mərkəzində babamın daş kitabəsini – Venzelini yaşadıram.

## SƏN DÜNYAYA NAĞIL GƏLDİN...

Sən bir tufan olub gəldin dünyaya,
Nağıla çevrilib, həyatda qaldın.
Hamballıqdan - milyonçuya çevriləndə sən
Biri vardı, biri yox, dedilər- nağıldakıtək.

Belə deyirlər ki, əyilməz vicdanı böyük heykəlin,
Palan da əyəmmədi sənin zərif belini.
Əyilmədi qürurun, çatdın arzularına,
Çünki atan Nağı saman satandı.

Dünyaya tufantək gəlib, bir nağıla çevriləndə sən,
Biri vardı, biri yox, dedilər nağıldakıtək.
Yoxsulluqdan zənginliyə addımlayanda,
Zənginlikdən yol aldın unutqanlığa.

Unutdun bel ağrılarını, quraraq ucaltdın,
Yaratdıqlarınla çatdın haqq dünyasına.
Gəncləri təhsilə yönəldərək, dedin, Sən Musa,
“Avropanı gətirəcəyəm Azərbaycana!”

Biri vardı, biri yox, deyib nağıl söyləyənlərin:
“Təkcə unutqanlıq idi onun qorxduğu.
Əfsanətək zənginləşib, püxtələşərək,
Qəpiyin qədrin bilib, mesenata çevriləndə o,
“Oğluna- milyonçu oğludur deyəndə, mənsə samançı”,
Qazancını el üçün xərcləyəndə də,
Qorxduğu bu oldu –unudulmamaq!”

Tarixdə iz qoydun tikdiklərinlə,
Yaşatdın yaratdıqlarını embleminlə,
Möhür vurdun atanın nəsihətinə.
Qoşa xəstəxanalar tikdirdin ki, unutmasınlar,
Sonra mehmanxana tikmək oldu amalın.

Zənginləşdin, qorxa-qorxa unutqanlıqdan,
Hamballıq edib, nər oğlu nər oldun, Musa!
Biri vardı, biri yox, deyiblər nağıllarda da,
Amma usanmadın gecə-gündüz yol getməkdən sən,
Oxutmaq ,bir də ucaltmaq oldu amalın,
Boş amala uyanlar isə qaldı kölgədə.

Susuzlara su, kasıblara çörək verdin Sən.
Mehmanxanaların qəbul etdi xariciləri,
Yaratdın İlk Müsəlman Xeyriyyə Cəmiyyətini!
Alimlər yetişdirdi İsmailiyyən də,
Tikdirdiyin təhsil ocaqların –ancaq təhsilə,
Xəstəxanaların isə insan xeyrinə,
Azaltsan da məsafəni poçt binasıyla,
Qısaltdı ömrünü İsmayıl dərdi.
Hələ Ümmülü demirəm ki, dərdin yük olar,
Ümid yerin İsmayılın getdi əlindən.

Fərəc adı sən Musaya bəxş etdi sevinc,
Kədərin azaldı, sevinc dediyin zaman.
Sanki təzədən İsmayılın gəldi dünyaya,
Bu da qısa oldu, düz on altı il...
Nağıl söyləyəndə belə deyirlər,
Biri vardı, biri isə yox…

Ağa Musa, sevin ki, mən varam indi,
Qəbrinin ziyarəti,vəfat etdiyin günü anmaq,
Düşüb üzərimə, mən Dilarənin.
Etdiklərimdən qürur duyub, sevinirəm eşidəndə mən,
Ki, biri vardı, birisə yox, söyləyən anda,
Deyirlər bir Ağa Musa olub, indi Dilarə.
Göydən üç alma düşdü deyən zamanda,
Bilin ki, biri Ağanındır, ikincisi Fərəcin,

Üçüncü isə tarix yazan mən Dilarənin.

*07.08.2015 Nabran-Bakı*

## ƏFSANƏVİ SARAY
### *(Milyonçu Murtuza Muxtarov haqqında)*

Murtuza Muxtarovun Bakı şəhərində tikdirdiyi dəbdəbəli Səadət sarayı memarlıq tariximizin salnaməsi, daşların dil açdığı musiqi simfoniyası, məhəbbət əfsanəsidir. Ən əsası bu saray osetiyalı zadəgan xanım Liza Tuqanovaya olan ülvi məhəbbətin hekayəsidir.

Persidski, indiki M. Muxtarov küçəsində yerləşən bu saray qeyri-adiliyi və təkrarsızlığı ilə seçilir, insanda heyrət və rəğbət doğurur.

Zəmanəsinin görkəmli iş adamı, xeyriyyəçisi sayılan Murtuza Muxtarov 1859-cu ildə Bakının Əmircan kəndində kasıb ailədə anadan olub. 15 yaşında əmək fəaliyyətinə Balaxanı və Sabunçu neft mədənlərində başlayıb. Ağlasığmaz mühəndislik məharəti ona neft buruqlarının qazma texnologiyasını öyrənməsinə kömək edib.

Xatirələrdən məlum olur ki, Murtuza Muxtarovun neftə qarşı xüsusi marağı olub. O, aparılacaq qazma sahəsində müvəffəqiyyətinin miqyasını da öncədən dəyərləndirməyi bacarıb. Bütün bu xüsusiyyətlər, onun milyonlara doğru aparan yolda bələdçisi olub.

Ali təhsili olmayan mühəndisi təmizlənməmiş neft maraqlandırdığından, o, bu sahədə mühərriklərin hazırlanması və təmiri üzrə emalatxana açır. Qazma işləri üzrə ixtiraları ilə şöhrət qazanır, cəmiyyətdə dövrün istedadlı mühəndisi kimi qəbul olunur və nüfuz sahibinə çevrilir.

1910-cu ildə onun Sabunçu və Bibiheybət qəsəbələrində iki iri neft zavodları fəaliyyət göstərirdi. Bakıda gördüyü işlər artıq onu qane etmədiyindən, o, neft işi ilə Qroznı şəhərində də məşğul olur.

Şimali Qafqazda tez-tez görünməyi onun həyatının bütövlükdə dəyişməsinə səbəb olur. O, Vladiqafqazda pol-

kovnik Aslanbəy Tuqanovun dəvəti ilə iştirak etdiyi şam yeməyi zamanı ilk görüşdən gənc qızı Lizaya vurulur.

Murtuza Muxtarovun ilk evliliyi uğursuz olmuşdu. O zaman Aslanbəy Tuqanov müflüsləşsə də qarşısındakının milyonçu olduğuna baxmayaraq, yaş fərqinə görə bu izdivaca razılıq vermir.

Sadəliyi və təvazökarlığı ilə seçilən Murtuza bəy bu hadisədən az sonra Terek çayı sahilində iki minarəli bir məscid tikdirir. Bu Bakı neft sahibkarının məhəbbət bəslədiyi bir ölkəyə etdiyi bəxşiş idi. M.Muxtarovun bu xeyirxahlığı ölkədə xoş söz-söhbətlərin yayılmasına səbəb olur.

Bu hadisə Tuqanovun ailəsinə də xoş təsir bağışlayır və Tuqanov Lizanın Murtuza bəy ilə izdivacına razılıq verir.

Murtuza bəy Vladiqafqazda çox möhtəşəm toy məclisi keçirir. Lizanın Bakıya gəlin gətirilmə mərasimi isə daha böyük rezonansa səbəb olur. O zaman Lizanı Vladiqafqazdan Bakıyadək Murtuza bəyin İtaliyadan sifarişlə gətizdirdiyi faytonu 10 ağatlı carçı müşayiət edirdi.

İngilissayağı geyinib-keçinməyi sevən Murtuza bəy Lizadan yaşca çox böyük olsa da onun son dəbli geyimi və uca qaməti bu fərqı hiss etdirmirdi. Murtuza bəy rus və ingilis dillərində sərbəst danışırdı. Liza xanım da öz növbəsində savadı ilə seçilib, bir neçə xarici dil bilməkdən əlavə, musiqi elə bil onun həyatına, incəsənət isə qəlbinə hopmuşdu. Bu xüsusiyyətlər, onun cəmiyyətdə davranışını, böyük nüfuza malik olmasını təsdiqləyirdi. Murtuza bəy nə qədər səxavətli idisə, Liza xanım da bir o qədər qəlbiyumşaq idi. Sonradan Liza xanım xeyriyyəçiliyi ilə də başqalarından fərqlənirdi.

O, Qafqazın "Vərəmlə Mübarizə Cəmiyyəti"nin Bakı şöbəsinə rəhbərlik edirdi. Ən çox xeyriyyəçilik etdiyi: "Uşaq

Xəstəxanası Cəmiyyəti” və “Nicat Müsəlman Xeyriyyə Cəmiyyəti” idi.

## SƏADƏT SARAYI

İtaliyaya səfəri zamanı Liza xanımın gözəlliyinə valeh olduğu bir sarayın qarşısından ayrıla bilmədiyini görən Murtuza bəyə bir işarə kifayət idi. O, özlüyündə belə bir sarayın analoqunu Bakıda ucaldacağını qət edir.

Arxitektor İ.Ploşko bu sarayı ətrafdakı tikililərə ustalıqla uyğunlaşdırır. Saray ilə yanaşı hündürlüyi 87 metr olan beş qülləli Aleksandr Nevski kilsəsi ucalırdı. Sonradan bu kilsə bolşevik varvarları tərəfindən darmadağın edilmişdi.

Murtuza Muxtarovun tikdirdiyi saray şəhərin ansanblında inqilabdan əvvəlki Bakının renessansı kimi qəbul edilir. Saray iki ildən az bir müddətdə - rekord sayılacaq bir zamanda hazır olur.

Liza xanım üçün bu sürpriz gözlənilməz olur. Gəzintiyə çıxan Lizanın hazır sarayın qarşısında dayanaraq heyrətdən bir an susduğunu və sonradan dediyi: “Bu ki, nağıldır!” sözlərinə Murtuza bəy ancaq “Bu nağıl sənindir!”- deyə cavab verir.

Həyatın sonrakı yaddaqalan məhəbbət dolu, lakin qısa illərini Muxtarovlar məhz bu sarayda keçirir...

Murtuza Muxtarovun həyat yoldaşı Liza xanım hər məclisdə iki dəfə paltarını və cavahirat dəstini dəyişməklə məclisdəki xanımları heyran edirdi. Al qırmızı donunun daş-qaşlarla bəzədilmiş kəməri, sinəsində dörd cərgə iri brilliantlarla asılan boyunbağı və başqa ziynət əşyaları Liza xanıma xüsusi yaraşıq verirdi.

İkinci dəfə dəyişdirdiyi libasını badamvari zümrüd dənələ- rini iri brilliantlarla dövrələyən ziynət əşyaları göz qamaşdırırdı.

Buna baxmayaraq Ağa Musanın Yelizavetası geyimi və taxdığı ziynət əşyaları ilə Murtuzanın Lizasından öndə gedirdi. Bunun bir fərqi də onda idi ki, onun ləl-cavahiratı

əsasən zümrüd qaşından ibarət idi. Qızıldan hazırlanmış ayaqqabılarının (ayaqqabı hər iki tərəfdən cəftə ilə bərkidilirdi) parıltısı taxdığı daş-qaşın parıltısına qarışıb, hamının diqqətini cəlb edirdi. Onun sinəsini qızıl və zümrüddən incə zərgər ustalığı ilə işlənmiş cürbəcür böcəklər bəzəyirdi. Bu da onun hobbisi idi. Görünür, bu başqa xanımlardan fərqlənmək üçün düşünülmüş bir üsul idi. Onun hər-hansı bir məclisdə olması uzun müddətli söhbətin mövzusuna çevrilirdi.

## XEYRİYYƏ CƏMİYYƏTİ

1914-cü ildə Liza Muxtarova Bakıda ”İlk Müsəlman Qadın Xeyriyyə Cəmiyyəti” yaradır. Bu Cəmiyyətdə Azərbaycanın tanınmış ziyalıları və sahibkarların həyat yoldaşları fəaliyyət göstərir. Cəmiyyət xeyriyyə günlərində şam süfrəsi verir, yığıncaqlar keçirirdi. “Ağ Çobanyastığı Günləri” adlanan belə yığıncaqlar Muxtarovların məhəbbət sarayında keçirilirdi.

Yığılan ianələr imkansız ailələrə, himayəsiz və yetim uşaqlara paylanırdı.

Muxtarovların övladı olmadığından, onlar yetim uşaqlara daha çox diqqət yetirirdilər. Arxiv sənədlərinə əsasən Liza xanım Cəmiyyətin adından Qala qəsəbəsində iki yetimxananın tikintisi üçün sahəsi 5 hektara yaxın torpağın ayrılmasına imza atsa da, tikintiyə başlamağa I Dünya müharibəsi, sonralar isə Rusiya İmperiyasının çökməsi, vətəndaş müharibəsi, inqilabi hadisələr mane olur.

1920-ci ildə XI Qızıl Ordunun silahlıları at üstündə Muxtarovların məhəbbət sarayına daxil olarkən, Murtuza

Muxtarov "çağrılmayan qonaqları" güllə yağışına tutub, axırıncı gülləni gicgahına tuşlayır.

Beləcə məhəbbət əfsanəsi olan bu saray Qızıl Ordunun müvəqqəti qərargahına çevrilir.

Liza xanımı bu binanın zirzəmisində gizlədirlər. Deyilənlərə görə o, gərgin psixoloji sarsıntılar keçirir. Sonradan o, bir türk diplomatı ilə saxta kəbin kəsdirərək başqa soyad ilə Fransaya mühacirət edir. Lakin Liza xanım Bakıda yaşayan yaxınları ilə əlaqə saxlaya bilmədiyindən, onun sonrakı taleyi naməlum qalır. Bəzi məlumatlara görə o, 50-ci illərdə Fransada vəfat edib.

**P.S.** *Qotik üslubunda tikilmiş "Səadət sarayı" - Murtuza Muxtarovun yadigarı - yeni ailə quranların kəbin kəsilən məkanına çevrilərək bu* ***"Məhəbbət əfsanəsi"****ni bu gün də yaşadır.*

## MƏHƏBBƏT SARAYI

Sovet qanunlarının hökm sürdüyü bir dövrdə bu Sarayda gənclər nikah prosesində üzərində iki bayraq qoyulmuş masanın arxasında əyləşirdilər. Bu proses ciddiliyi ilə sonradan müasir dövrdə keçiriləcək mərasimlərdəki təm-təraqdan çox-çox uzaqda idi.

1960-1970-ci illərdə bu Saraya böyük axın var idi. Hamı çalışırdı ki, övladlarının nikahı məhz bu möhtəşəm sarayda kəsilsin.

Burada nikahı kəsilən cütlüklər inanırdılar ki, təntənə ilə başlanan belə ailə həyatının özülü –binanın beton sütunları kimi möhkəm olacaq.

Həyat yoldaşım Muxtarov Muxtar ilə nikahımız 1964-cü ildə möhtəşəm Səadət Sarayında kəsilib. Bu mərasim qurulacaq ailə həyatının ilk təməl daşı sayılır.

Lakin "Səadət Sarayı"nın o nəhəng divarlarının üzümüzə açılması və nikahı kəsən nümayəndənin otağa daxil olması, insana bir növ sanki qədim zamanlarda təntənəli bal mərasiminə daxil olacaq bir anı xatırladırdı.

Nikah mərasimləri çox ciddi və təm-təraqsız keçsə də, bu hadisə gənclərin qəlbində ən yadda qalan bir gün kimi həkk olunurdu.

Sonralar bir neçə dəfə yaxınlarımın nikah mərasimlərində iştirak edərkən bu sarayın divar və qapılarındakı cızma-qaralar diqqətimi cəlb etdi. Divarlarda və qapıların arxasında guya məhəbbətin dərinliyinə işarə edən ox, bərabər və müsbət işarələri, sevirəm, sevəcəyəm yazıları diqqətimi cəlb etdi.

Fikrimi daha aydın çatdırmaq üçün sizləri bir qədər geriyə, XIX əsrin əvvəllərinə aparacağam.

Bu bərbəzəkli, layihəsi italyan qotikası üzərində hazırlanan "Səadət Sarayı"nı Bakı milyonçusu Murtuza Muxtarov həyat yoldaşı Osetiyanın zadəgan nəslinin davamçılarından olan Liza xanım Tuqanovanın eşqinə tikdirmişdir.

Tarixdən bildiyimiz kimi "XI Qızıl Ordu" Bakıya daxil olub, bu binanı da zəbt edərkən, Liza xanım bu sarayın zirzəmisində gizlənmək məcburiyyətində qalır.

Binanın tikintisi ilə məşğul olan "Qasımov qardaşları" kompaniyasının memarı -bu binanın tikintisinə başçılıq edən İmran Qasımovun aqibəti də çox açınacaqlı olub. Hacı, Əli və İmran qardaşları o zaman Bakıda bir neçə mülkün tikilməsində memarlıq istedadlarını əsirgəməyiblər.

Yaraşıqlı daş bəzəklərlə gözə çarpan bu binanın hər daşı bir heykəli xatırladırdı. Həmin daş heykəllərdən birini bərkidərkən İmran Qasımovun ayağı sürüşür və o,

hündürlükdən yerə yıxılır. Bir neçə gündən sonra dünyasını dəyişən İmran Qasımovun 35 yaşı var idi.

İmran Qasımovun həyat yoldaşı Rubaba xanım, İtaliyanın məşhur geyim salonlarından gətizdirilmiş zövqlü və son dəbdə olan paltarlar ilə daha gözəl görünürdü.

Həyatın mənasız olduğunu dərk edən Rubaba xanım, İmranın ölümündən çox qısa müddət keçəndən sonra özünə qəsd edir. O zaman bu hadisə insanları heyrətə salmışdı.

Düşündüm ki, mənim kimilər, sarayın tarixini bilənlər də, divarlarına həkk edilmiş bu "cızma-qaraları" görəndə, narahat hisslər keçirir. Çünki Murtuza Muxtarov və İmran Qasımov cütlüyünün faciəli ölümü tarix boyu yaddan çıxmamalıdır.

Bu qeyri-adi saraya baxanda narahat hisslər keçirməmək mümkün deyil. Arka sayağı daşlardan sanki bir inilti gəlir, göz yaşı axır.

Keçmiş hakimiyyətin dövründə L.İ Brejnevin Bakıya gəlişi ilə əlaqədar tikdirilən Saray, 1988-ci ildən Ulu Öndər Heydər Əliyevin Sərəncamı ilə gənclərin andiçmə yerinə, nikah kəsmə yerinə çevrildi.

İndi bu iki saray arasında rəqabət gedirdi.

Biz də oğlumuz Samirin nikahını bu yeni sarayda kəsməyi arzulayanlardan biri olduq. İnsan axını çox olduğundan bir neçə gecə biz də növbəyə dayanıb, orada səhəri açdıq.

Həmin ildə Samirin nikahı bu möhtəşəm Sarayda baş tutdu. Büllur Saraya daxil olarkən özümüzü nağıllardakı kimi sanki buz bağlamış mağarada hiss etdik. Binanın gözəlliyi, rəsmi nikgahın təntənəli keçməsi əhvalımızı bir daha oxşadı. Gənclərimizin qohum və dostlarından ibarət düz 41iştirakçısı var idi.

Məhz binalardan söz açmağımın səbəbi vətənpərvərlik duyğularımdan irəli gəlir. Babam Ağa Musanın tikdirdiyi 98 binanın hər biri tərifə layiqdir. Beləki,:

"İsmailiyyə"nin IV mərtəbəsində ilk radio verilişləri efirdə səslənib.

Sevindirici haldır ki, bu gün Dünya Azərbaycanlılarını birləşdirən Komitə, Zabitlərin görüş məkanı, Yüksək Texnologiya və İnformasiyanı dünyada yayımlayan Nazirlik, sorğu və ekspertizaların düzgün aparılması nəticəsində insanlara sevinc bəxş edən "Məhkəmə Ekspertizası", Rusiyanın "Lukoyl" şirkətinin binası Ağa Musa Nağıyevin tikililərindəndir. Bundan qürur duymamaq olarmı?!

Ömrümü -həyatımı mübarizədə keçirmişəm.

Atam çox vaxt deyərdi ki, Dilarə gərək oğlan doğulaydı. Ailədə üç oğlu olub, amma deyilənlərə görə biz, iki bacı ona daha çox sevinc bəxş etmişik.

## RƏQABƏT

El arasında belə bir deyim var ki, "Ağa Musanın vurduğu mıxı qoparmaq hər adamın gücü çatan iş deyil."

Ağa Musanın Bibiheybətdə qazdırdığı quyulardan güclü fontan vurması Bibiheybətdəki zəngin neft təbəqələrinin körfəz suları altında da olduğunu sübut edirdi.

Bələdiyyə idarəsi bu səbəbdən su altındakı neftli torpaqları hərraca qoyduqca, milyonçular da qiymətləri artırırdı. Belə ki, neftin pudu 20 qəp. olduğu halda 1000.000 pud neft üçün xəzinəyə ildə 300. 000 manat verəcəkləri haqda əvvəlcədən zəmanət də imzalayırdılar.

Onların hər biri sərvət xərclərini birə min artıracaqlarına inamlı olub, çalışırdılar ki, qonşuluqda başqa rəqib olmasın.

Mədən sahibləri quyuları qonşu quyuların sərhəddində qazdırmaq üçün buruq ustalarına rüşvət verirdilər ki, yaxındakı qazma işlərini gecikdirsin. Onlar hətta pul gücünə quyuların hansı balta ilə qazıldığını, gil məhlulunun xüsusiyyətlərini, neftin neçə metrlik dərinlikdə olduğunu, bir sözlə qazmanın bütün sirrlərini -texnologiyasını öyrənirdilər.

Sahibkarlar neft torpaqlarını əldə saxlamaq üçün hətta xəzinəyə cərimə verməyə də razı olurdular.

Bibiheybətdəki Naftalan körfəzi başdan-başa neftlə zəngin olduğundan hər bir metrədən qaz püskürürdü.

İmkansızlar bundan istifadə edərək, körfəzdən nefti vedrə ilə daşıyıb satmaqla qaznc əldə edirdilər.

Novruz bayramı ərəfəsində qeyd olunan ”Çərşənbə axşamlarında” və adlı-sanlı qonaqların şərəfinə Naftalanda körfəzlərə od ataraq atəşfəşanlıq yaradırdılar.

XIX əsrin ortalarında Bakıya qonaq gəlmiş fransız yazıçısı Dyuma “Qafqaz səfəri” əsərində bu atəşfəşanlığı belə təsvir edir: “... Külək əsdikcə alov sanki qəribə rəqs edirdi. Bu rəqs sanki küləyin alovla oynadığını təsvir edirdi. Külək nə qədər cəhd edirdisə də, odu, alovu söndürə bilmirdi”.

## İLİÇ BUXTASI

*Çox təəssüflər olsun ki, bu olub!*

Ağa Musa Nağıyevin son nəfəsində: İsmayıl..., İsmailiyyə..., Naftalan..., Bibiheybət... – uzadaraq söylədiyi bu kəlmələr çox böyük məna daşıyırdı:

-Yeganə oğlu İsmayılı itirmək onun həyatında ən böyük faciə idi. Naftalan körfəzi və Bibiheybət kəlmələrini son nəfəsdə deməyi də səbəbsiz deyildi. Çünki bu

yataqlar Abşerondakı mədənlərin ən qədimi və ən çox gəlir gətirən idi.

Ağa Musa oğlu İsmayılı çox gənc yaşında itirməsilə hec cürə barışa bilmirdi. Onun vaxtsız qocalmasına da elə bu dərdi səbəb olub.

-İsmailiyyə binası 1918-ci il mart qırğınları zamanı ermənilər tərəfindən yandırıldığı hadisə Ağa Musanı yorğan-döşəyə salır. O, hər söhbətində sanki oğlunu ikinci dəfə itirdiyini söyləyirdi.

-Tarixdən bəllidir ki, ilk dayaz quyular Bibiheybət dərəsində yüz illər öncə qazılmışdı. Burada iri və xırda müxtəlif neft təbəqələri yerləşirdi. Naftalan körfəzi də neft yataqları ilə zəngin olduğu kimi ixrac olunan neftin keyfiyyəti də çox yüksək olub.

XX əsrin əvvəllərində neftxudalar Naftalan körfəzini qurutmaq və burada mədən salmaq üçün Peterburqa Çara ərizə ilə müraciət edirlər. Ərizənin cavabı müsbət həll olmadığından neftxudalar Senata şikayət edib istədiklərinə nail olurlar. Yaratdıqları şirkətə sədr, pay sahiblərindən ən mötəbəri sayılan neftxuda, **Ağa Musa Nağıyev təyin olunur.**

Naftalan körfəzini qurutmaq üçün elan edilmiş müsabiqəyə layihələr təqdim edilir. Müsabiqəyə Rusiya, Amerika, Almaniya, Fransa və başqa ölkələr də qoşulmaqla bərabər, Hollandiya, Şimal dənizi sahilində sədd ucaldan mühəndislərin işləri və 30-a qədər başqa layihələr də təqdim edilməkdə davam edirdi.

Bir müddət keçdikdən sonra Şirkət Naftalan körfəzini Xəzərdən ayırmaq və çuxurda qalan suyu nasosla dənizə axıdıb yerinə torpaq doldurmağa və mədən salmağa qərar verir.

Bir milyon kub.m. torpaq, daş - kəsək gəmilərə doldurulub daşınırdı. İşin 70 faizi yerinə yetiriləndə əməliyyat hansı səbəbdənsə dayandırılır.

1921-ci ildə əməliyyatın davam edilməsinə icazə veriləndə qurutma işlərinə milliyyətcə polyak olan mühəndis Pavel Pototski rəhbərlik edir. Pavel Pototski gözdənəlil (kor) olmasına baxmayaraq güclü hissiyyatı ilə "Körfəzqurutma" əməliyyatına bacarıqla başçılıq edirdi.

O zaman qurudulmuş əraziyə Leninin adını verərək "İliç Buxtası" adlandırırlar.

Aparılan əməliyyat nəticəsində qazılan quyuların çoxunun səmərəsiz olduğu aşkarlansa da, Ağa Musa Nağıyevin sahəsində qazılan quyular güclü fontan vururdu. Bədbəxt hadisələr də öz axını ilə baş verməkdə davam edirdi.

Belə ki, qəfildən qopan Bakı küləyi sahəni alova bürüyərkən, neftçilərə köməyə gələn şəhər əhalisi çoxlarını xilas edə bilmir.

Vəfat edənlərin siyahısında Pavel Pototskinin də adı var idi. Hörmət əlaməti olaraq Pavel Pototski "İliç Buxtası"nda dəniz sahilində dəfn edilir. Qəbrin ziyarətinə gələn neftçilər onu hər zaman hörmətlə yad edirdilər.

Bu gün bu ərazi "Bakı Buxtası" adlanır.

## ƏMİRCAN KƏNDİ

Əmircan Bakının qədim kəndlərindən sayılır. Nizaməddin məscidinin 1329-1330-cu illərə aid kitabəsində kəndin adını Əmir Xoca adlı şəxsin adı ilə bağlayıblar. Tədqiqatçılar bu fikrə istinad edərək Məkkə ziyarətinə gedən zəvvarlara başçı təyin edilənə "Əmir Hac" deyiblər. Bu ərəb sözü olub, "böyük, başçı, bəy" mənasını daşıyıb.

Yerli əhali kəndi Xilə adlandırıb. Xilə kəndinin ərəb xilafəti zamanı sahibi, böyük mülkədar Əmir Nizamətdin XIV əsrdə Bakı mahalında çox məşhur və hörmətli şəxs olub.

Üləmaların, ruhanilərin, məşhur söz-sənət ustalarının ana yurdu sayılan Əmircan öz abidələri, məscid və minarələri ilə də tanınıb. Kəndin adı sonradan dəyişdirilib, Əmircan qoyulub. Vaxtı ilə Əmircan xalçaları dünyada məşhur olub.

Rəvayətə görə, çox qədim zamanlarda burada Hillə qəbiləsi yaşayıb. Bəzi mənbələrdə onlara Xilə tayfaları da deyilib. Kəndin əvvəlki adı da buradan götürülüb.

Tarixşünas alim Sara Aşurbəyli "Şirvanşahlar dövləti" kitabında Xilənin qədim adının yaranması haqqında belə məlumat verir: "On üç əsr ərzində dəyişikliyə uğramadan dövrümüzədək qalmış Xilə adının tarixi Azərbaycanın ərəblər tərəfindən istilasına gedib çıxır. İraqda müstəqil əmirliyə malik olduqları Hillədən buraya köçüb gəlmiş ərəb tayfaları birləşmiş halda Bərdə, Şamaxı və Şirvanın digər yerlərində məskən salıblar. Ehtimal ki, Abşerondakı Xilə kəndi İraqdakı Hillənin adı ilə adlandırılıb. Belə ki, burada məhz həmin yerdən gəlmiş və sonradan türklərlə qaynayıb qarışmış ərəblər məskən salıb. Lakin ərəblər də bu yerin ilk sakinləri deyildi. Abşerondakı Xilənin qədim əhalisi

haqqında burada skiflərin yaşadıqlarını təsdiq edən arxeoloji tapıntılar xəbər verir".

Azərbaycanın bir çox bölgələrində "Xilə" adlı kənd var. Tarixçi Fəridə Bünyadova aşkar etmişdir ki, Abşerondakı Xilə kəndi digər bölgələrdəki Xilələrdən ən qədim olduğunu- kəndlərdə aparılan arxeoloji qazıntılar nəticəsində, eramızdan əvvəl V əsrə aid tapılmış kişi skeleti əsas verir. Kənddə qədim məscid, ovdan hamamlar, mavzoley və atəşgah var.

Yazıçı və diplomat Abbasqulu Ağa Bakıxanovun ata və babası Əmircanda Nizamətdin mülkündə yaşayıb. Mülkün bir hissəsi bu gün də qalır. Görünür bu nöqteyi-nəzərdən Abasqulu Ağa Bakıxanov “Gülüstani İrəm” adlı əsərində Əmircanın adını “Əmir hacan” kimi qeyd etmişdir.

Əmircan XX əsrin əvvəllərinədək burada yaşayan tayfaların adı ilə bağlı “Xilə-Əlişan”, “Xilə-Buta” və sair xalça çeşidlərilə məşhur olub. Abşeronun əksər kəndləri və Bakını birləşdirən ticarət yolları buradan keçdiyi üçün kəndə Dərxilə - yəni Xilə qapısı da deyirdilər.

Qədim Əmircanda atəşpərəstlik mövcud olub, oda sitayiş edilib. Yerli sakinlərin danışdıqları rəvayətə görə Makedoniyalı İsgəndərin Azərbaycana yürüşü zamanı Əmircan ərazisindəki Atəşgah dağıdılıb. İrandan qovulmuş atəşpərəstlər 636-cı ildə Atəşgahı bərpa ediblər. 7 il sonra ərəb xilafəti zamanı məbəd yenidən dağıdılıb. Sonralar yenə də atəşpərəst hind tacirləri Atəşgahı bərpa edib, orada ibadətlə məşğul olublar.

Memarlıq abidələrindən XIV əsrə aid olan Göyçək məscidi, 1908-ci ilə aid məscid və minarələri bu gün də ömrünü yaşayır. **Kənddə ilk ikiminarəli- əzəmətli məscidi Bakı milyonçusu Murtuza Muxtarov tikdirib.**

XIX əsrin ortalarında, hətta XVIII əsrdə də bu kəndin əhalisi çox olub. 1913-cü ildə Bakı kəndləri arasında mədən-zavod rayonu ərazisinə aid olan kəndlərdən olub.

XIX əsrin sonunda kənddə quruculuq abadlıq işlərinin aparılması məskunlaşmanı sürətləndirmişdir.

Neft-mədən ərazilərinin böyük hissəsi daimi yaşayış yerlərinə çevrilib. Qəsəbənin şərqində Rəng zavodu ərazisi və eləcə də Şor gölünün bir hissəsi qurudularaq, evlər tikilir.

Qəsəbədə mineral tərkibli sularla müalicə edən "Bərpa-Müalicə Mərkəzi", Səttar Bəhlulzadənin ev muzeyi, Atəşgah Qoruğ Muzeyi, poliklinika, internat, musiqi məktəbi, mədəniyyət və gənclər evi, kitabxana və idman kompleksi – stadion fəaliyyət göstərir.

İstehsalat müəssisələrindən Suraxanı Neft və Qazçıxarma İdarəsi, Suraxanı Neft Maşınqayırma, Neft-Mədən Avadanlığı zavodu fəaliyyət göstərir.

Əmircanda məhəllə sistemi əsasən XIX əsrdə formalaşmağa başlamışdır. Buradakı: -Naxır bulağı, Meydan yeri, Soltanabadlılar, Əsədli, Bünyadlılar adı ilə tanınan kiçik məhəllələr bu gün də bu adlarla tanınır.

Əmircan kəndində türbələrin və ovdanların da özünəməxsus rolu olub. "Əmirhac", "Şıx Nəcəfəli", "Göyçək", "Səkinə" türbələri etiqad olunan dini ocaq kimi əmircanlılar arasında məşhurdur.

XVII-XVIII əsrlərdə kənddə bir neçə məscid fəaliyyət göstərmişdir. Bunlardan:

- "Nizaməddin" məscidi (Moltan piri) - XIV əsrə aiddir. Məscid dəfələrlə müxtəlif dövrlərdə bərpa edilib. Məscidin qapısının üstündə ərəbcə yazılan: "Bu məscidi Əmir Nizamətdin – "Əmir həc" - böyük mülkədar Fəxrəddin Qutluqşah oğlu tikdirib" sözlər tarixi sübutdur.

-"Tutağacı" məscidi- XIX əsrin sonu, XX əsrin əvvəllərinə aid edilir.

- "Binyətdilər" məscidi 1904-cü ildə Binyətin tərəfindən şəxsi vəsaiti hesabına tikilib və məscid onların nəslinin adı ilə adlandırılıb;

- 1908-ci ildə milyonçu Murtuza Muxtarovun “İkiminarəli” məscidi;

- Şəmsi Əsədullayevin tikdirdiyi məscid naməlum səbəbdən sökülüb.

**Kənddə XIV əsrə aid "Göyçək pir"i və "Əmir-həc mavzoleyi" də tarixi abidə kimi mühafizə olunur.**

Əmircanın qədim tikililərindən - Xilə yolunun üstündə bir neçə ovdan olub. Ovdan yağış və yeraltı suları toplamaq üçün qədimlərdə tikilən su təchizatı qurğusudur. Bakıxanov dağı üstündə hal-hazırda dörd su ovdanı var. Əmircanın şərq hissəsində qədimdə içində yeraltı su ovdanları da olub.

Rəvayətə görə kəndin yuxarı hissəsində bir qız nişanlısının xatirəsini əbədiləşdirərək ilk dəfə görüşdükləri və ona su verdiyi yerdə ovdan tikdirir. Bu gün "Bakirə qız ovdanı" adı ilə tarixləşən bu su qovşağı məhəbbət əfsanəsi kimi ömrünü yaşayır.

1932-ci ildə kəndin mərkəzində qədim bir qəbristanlıq sökülərkən bəzi qəbirlərin yeddi qatdan ibarət olduğu aşkarlanıb. Qəbristanlığın dörd üst təbəqəsində islamaqədər dövrdə dəfn edilmişlərin, alt qatlarda isə atəşpərəstlik və ondan əvvəlki dövrdə dəfn edilmişlərin qalıqları tapılıb. Daha sonrakı qatlarda bir qəbirdə iki insan skeleti aşkarlanıb.

Əmircan kəndi ziyalıları ilə hər zaman fəxr edir. Bunlar tarixə düşənlərdir: tanınmışlardan_ Abbasqulu Ağa Bakıxanov, Murtuza Muxtarov və Ağa Şəmsi Əsədullayev - milyonçu-xeyriyyəçi, Səttar Bəhlulzadə -Xalq rəssamı, Nəbi Xəzri – Xalq şairi, Ağaxan Abdullayev –Xanəndə, ilk muğam ustalarından.

Əmrahov Əliağa Balaqardaş oğlu- Peterburqda ilk ali təhsil alan, Kazımov Səməd Hacı Əhməd oğlu şair və teatr xadimi,

Quliyev Balaəmi Əliqulu oğlu -aktyor.

## AĞA ŞƏMSİ ƏSƏDULLAYEV
## (1841 - 21.04. 1913)

Hər əsrdə şəhərlərin tarixində yadda qalan adlar olur ki, onlarsız nə şəhər, nə də ki, dövr sadəcə qəbuledilməzdir. Tarix boyu belə insanların adlarını yaddaşlardan silmək istəsələr də, buna nail ola bilməyiblər.

Belələrindən biri də neft milyonçusu, sahibkar, xeyriyyəçi Ağa Şəmsi Əsədullayev olub. Tarixdən bu ad bizlərə Ağa-sız bəllidir. Lakin arxiv sənədləri adının əvvəlində Ağa olduğunu təsdiq edir.

Ağa Şəmsi sahibkarlıq məharətilə Ağa Musadan, populyarlığı ilə isə Hacı Zeynalabdin Tağıyevdən geri qalmırdı.

Xarici görkəmindən zadəganlıq yağan bu insanın elitar zadəgan ailəsindən olduğunu təsəvvür etməmək olmazdı.

Lakin o biri milyonçular kimi o da Bakıda kasıb bir ailədə doğulub və bu dünyanın sirrli qapısından özünə yol aça bilib. Çətin, lakin uğurlu yol!

Tərcümeyi - halından bəlli olur ki, A.Ş. Əsədullayevin hər iki ulu babası arabaçı olub, Suraxanıda buğda və arpa əkərlərmiş. Biçin qurtardıqdan sonra arabada yük daşıyıb, qazanc əldə edərdilər.

O, 1841-ci ildə Bakının Əmircan kəndində dünyaya göz açıb. Alın yazısı belə olub: “Zəhmət çəkərsən, bəhrəsini görərsən. Əziyyətdən qorxmasan, milyonçu olarsan!”

Bu, belə də oldu!

Bütün bunları sanki əvvəldən duyaraq zəhmətə alışan Ağa Şəmsi arabaçılıq etməklə çörək pulu qazanırdı. Elə bu zəhmətin nəticəsi onun həyatını neft ilə bağlayır.

Əmək fəaliyyətinə iri neft sahibkarı Kokarevin Suraxanıdakı neft müəssisələrində başlayır. Əldə etdiyi

gəlirə tədricən bir neçə araba alır. İş qabiliyyətini görən Kokarev onu müəssisəsində podryatçı təyin edir.

Biznesin sirrlərini öyrənən A.Ş. Əsədullayev xüsusi iş yeri açmaq qərarına gəlir. 1874-cü ildə cüzi kapital ilə neft çıxaran və emal edən kontor açır.

Əvvəlcə şoran torpaqlara, 1889-1890-cı illərdə isə neftin gəlirinin insan taleyində böyük dəyişikliklər yarada biləcəyini qət edir. Neftin ecazkar qüdrəti və A.Ş.Əsədullayevin işgüzarlığı onu milyonçuya çevirir.

1880-ci ildə Volqa çayında və Xəzər dənizində gəmiçiliklə məşğul olan "Qafqaz və Merkuri"gəmiçilik şirkətinin qurduğu elektrik fənərlərini Bakıda sərnişin limanında quraşdırmışdı. Fənərlər tutqun rəngli işıqla axşamdan sübhə qədər yanırdı. Bu gözəllik şəhər əhalisi ilə yanaşı, Bakıya gələn qonaqlarda da heyrət doğurmaqla bərabər, limanda sərnişin reyslərinin çoxalmasına səbəb olurdu. Liman şəhər sakinlərinin sevimli gəzinti yerinə çevrilmişdi.

Bakı neft sənayesinin məşhur sahibkarı A.Ş.Əsədullayev limanın elektrikləşdirilməsinə də biganə qalmır. O, şəxsi elektrik stansiyasına sahib olur və bu sahəni genişləndirmək məqsədilə xaricdən mütəxəssislər dəvət edir.

Yaratdığı elektrik stansiyası Bakının mərkəzində yerləşən çoxmərtəbəli evinin işıqlandırılması üçün də xidmət göstərir.

Xarici sərmayə ilə yanaşı yerli sərmayənin də payı, A.Ş.Əsədullayev və onun kimi digər Bakı milyonçularının sayəsində artırdı.

1896-cı ildə Ağa Şəmsi Əsədullayev və Ağa Musa Nağıyev müştərək 242 desyatinlik torpaq sahəsini satın alıb, orada neft mədənləri qururlar.

1893-cü ildə o, "Şəmsi Əsədullayev" firmasını yaradır. Vaxtı ilə arabaçı kimi həyata atılan Ağa Şəmsi

Əsədullayevin 1910-cu ildə sayı 37-yə çatan neft çənlərindən 17-si fasiləsiz olaraq neft istehsal edirdi. Bu neft buruqlarında və müəssisələrdə 600 fəhlə çalışırdı. Əvvəllər firmada ildə 500.000 manat əldə edilən gəlirin miqdarı,1913-cü ildə 1.000.000 manata çatır.

Milyonçu ancaq neft istehsalı və satışı ilə kifayətlənməyib. Onun Suraxanı, Sabunçu və Ramanada 37 buruğu, şəhərdə bir neçə neftayırma zavodu, mexaniki emalatxanası, Xəzər dənizində məhsulları daşıyan donanması olub.

Bütün bunların arxasında 50 yaşlı Ağa Şəmsi Əsədullayevin çətin həyatı və sahibkarlıq təcrübəsi dayanırdı.

Xəzərdə Nobellərin dünyada ilk neftdaşıma "Zoroastra" tankerinin – gəmisinin görüntüsündən sonra məhz A.Ş.Əsədullayev "Üç" "A"- "Asiya", "Afrika"və "Amerika" - neftdaşıma gəmilərini dənizə çıxarmaqla, vaxtı ilə özü başladığı işə, neftin araba ilə daşınmasına son qoyur.

1904-cü ildə A.Ş.Əsədullayev və İbad bəy Tahirov Moskvada, Zakaspidə və İranda neft məhsulları satışı üzrə müqavilə bağlayır.

1907-ci ilə olan məlumatlara görə onun Ramanadakı mexaniki təmir və qazan emalatxanalarında, eləcə də elektrik stansiyasında 466 nəfər işləyirdi. Həmin ildə neftötürmə borularının uzunluğu ən iri ölçülü 17 verst ilə seçilən "Nobel qardaşlarının" kompaniyasını da ötüb keçir.

Neftin hasilatı və başqa ölkələrə göndərilməsi, eləcə də kirayə götürdüyü torpaq üçün vergi ödəyən hər bir sahibkar Sovetlər Qurultayında (Совет Съездов) səs hüququna malik idi. Bu hüquq firmanın böyüklüyündən və hasilatından asılı idi. Qurultayın Nizamnaməsinə əsasən belə səslər ildə 100 000-dən 500 000 puda qədər neft və

sürtkü yağları hasil edən firmalara verilirdi. Sonrakı səslər isə neftin hasilatını 2 mln. puda çatdıranlara verilirdi.

32-ci Sovetlər Qurultayında "Şəmsi Əsədullayev" firması 10 səs (!) toplamaqla, Bakı neft kompaniyalarının birinci onluğuna daxil edilmişdi. Dünya miqyasında iri firma kimi tanınmış "Nobel qardaşları" bu Qurultayda 18 səs toplamışdı. Onluğa Rotşildin, Ağa Musa Nağıyevin, Hacı Zeynalabdin Tağıyevin və Mantaşevin firmaları da daxil idi. A.M.Nağıyev və A.Ş.Əsədullayev firmaları dördüncü və beşinci yerləri tutmuşdu.

Bütün bu müvəffəqiyyətlərə Ağa Musa kimi Ağa Şəmsi də öz zəhməti sayəsində nail olmuşdu.

Heç bir təhsili olmayan Ağa Şəmsi Əsədullayev Tiflis Müəllimlər İnstitutunu himayəsinə götürməklə bərabər, adına iki təqaüd də təyin etmişdi. Bununla o, müsəlman tələbələri üçün ayrılmış kvotanın artırılmasına çalışırdı.

1901-ci ildə A.Ş.Əsədullayevin maliyyə dəstəyilə ilk azərbaycanlı Zivərbəy Əhmədbəyov Peterburq Mühəndislər İnstitutunu bitirir. Sonradan bacarıqlı arxitektor Zivərbəy- Təzə Pir, Əjdərbəy və M.Muxtarov məscidlərinin proyektlərinin və bir çox arxitektur heykəllərin müəllifi olur.

İri neft sahibkarı olan Ağa Şəmsi Əsədullayev Əmircan kəndində təsəvvürə gəlməz gözəllikdə məscid tikdirir. Lakin bu memarlıq abidəsi Sovetlər tərəfindən vəhşicəsinə dağıdılır. Kaluqa şəhərində də o, kilsə tikdirir.

Əlbəttə, bunlar onun xeyriyyəçiliyinin bütöv siyahısı deyil, yalnız kiçik bir hissəsidir. Xeyriyyəçilik fəaliyyətini genişləndirən Ağa Şəmsi Əsədullayev Moskva, Bağçasaray, Yalta və Povoljyedə də böyük hörmət qazanır.

Ağa Şəmsi Əsədullayev Moskvadakı mülklərindən birini Moskvada yaşayan müsəlmanların cəmiyyətinə

hədiyyə etmişdi. Amma çox sonralar bu binada Tatarıstanın mədəniyyət mərkəzi fəaliyyət göstərir?!

A.Ş.Əsədullayev xeyriyyəçiliyi ilə Bakı kəndlərindən Ramanada dərin iz qoyan, bu gün də kənd camaatı tərəfindən tez-tez yad edilən şəxslərdəndir.

Ramananın neftlə zəngin torpağına kapital qoyan yerli burjuaziyanın ilk nümayəndələrindən olan A.Ş.Əsədullayev vaxtı ilə bu kənddə böyük işlər görüb. Kənddə sərmayə qoyan milyonçu yerli əhalini işə cəlb etmiş, neft biznesi sahəsində işlər görməklə bərabər bu kənddə müxtəlif səpkili tikililər inşa etdirmişdir.

Onun bir zaman tikdirdiyi binalar bu gün də kənd camaatı arasında "Əsədullayevin evləri", "Əsədullayevin uşaqlarının evləri" kimi tanınır. Milyonçunun tikdirdiyi fəhlə yataqxanaları da Ramana qalasının arxasında mövcuddur. Onun kəndin neft yataqlarına qoyduğu investisiya və gördüyü işlər, neftlə zəngin olan ərazidə peşəkar neftçilərin yetişməsində az rol oynamayıb.

1903-cü ildə Ağa Şəmsi Əsədullayev Qoqol küçəsində 3 mərtəbəli əzəmətli bir mülk tikdirir. Bütün məhəlləni əhatə edən mülkün layihə müəllifi bacarıqlı Bakı memarı, alman əsilli Edel olub.

Sovetlər tərəfindən kirayənişinlərə verilən binanın fasadında kiril həriflərilə həkk olunmuş milyonçunun «Ш.А» venzeli bu gündə onun sanki ruhunun qoruyucusudur.

Bundan sonra o, daha bir neçə bina da tikdirib. Azərbaycanda Sovet Hakimiyyətinin qələbəsindən sonra 1924-cü ildə "Şəmsi Əsədullayev" firmasının mülkiyyəti və binaları da milliləşdirildi.

## MOSKVADAKI MÜLKÜN AQİBƏTİ

“Bakı milyonçusunun pullarına Moskvada tikilən mülkün Moskva tatar müsəlman icmasına verilməsi Azərbaycanın marağında deyil.”

«ЭХО» qəzeti,9.10.2003-cü il.

Milyonçu Ağa Şəmsi Əsədullayevin Moskvada müsəlman icmasına hədiyyə etdiyi mülkdə Tatar mədəniyyət mərkəzi yerləşib.

Tatarların yazdıqları elmi əsərlərdə də göstərilir ki, mülkün tikintisinə Azərbaycanın görkəmli neft sahibkarı, I gildiyalı tacir A.Ş.Əsədullayev 500 min rubl sərf etmişdir.

2003-cü ildə Azərbaycan Ümumrusiya Konqresi (AÜK) belə bir məsələnin həllini ortaya çıxarır ki, bina niyə milyonçunun qohumlarına və yaxud da ki, Azərbaycan mədəniyyət mərkəzinə verilməsin? Lakin AÜK- nin hüququ və səlahiyyəti olmadığından bu məsələ həllini tapmır.

Bu haqda 2003-cü ildə AÜK aparatının şöbə müdiri Elmira İsakova «ЭХО» qəzetinə verdiyi müsahibəsində bildirmişdir ki,“ Buna səbəb guya 1941-ci ilədək mülkdə Tatarıstan mədəniyyət mərkəzinin yerləşməsi olub. Hansı səbəbdənsə, mülkün milyonçu Ağa Şəmsi Əsədullayevin Moskvada müsəlman icmasına hədiyyə etdiyi yaddan çıxarılıb. Bu məsələyə qayıtmaq olar, niyə də olmasın? Bina Azərbaycanlı milyonçu tərəfindən inşa etdirilib. Moskva bu qərarı verdikdə nə səbəbə Şəmsi Əsədullayevin qohumlarının axtarışında olmayıb? Halbuki, o zaman fransız yazıçısı Baninin atası milyonçunun oğlu Mirzə Əsədullayev Azərbaycan Demokratik Partiyasının fəal nümayəndəsi olmuşdur.”

Diqqətə çatdırmaq vacibdir ki, Tatar milli – maarif mərkəzi fəaliyyətə 2002-ci il dekabrın 8-də başlayıb. Bu əlamətdar hadisə - Ş.Əsədullayevin mülkünə iddialı olmaları Moskva tatarlarını bir neçə nəsil maraqlandırıb.

Tatarların Moskvadakı icmasının verdiyi məlumata görə Ağa Şəmsi Əsədullayevin mülkünün onlara verilməsi Tatarların Ümumdünya Konqresinin 3-cü qurultayında iştirakından sonra həllini tapmışdır.

Tatar icması qeyd edir ki, "Mülkün tikintisi müsəlman icmasının iştirakı ilə aparılıb. Binanın xarici görünüşündə müsəlman milli ornamentlərindən istifadə edilmişdir. Sonradan mülk mədəni-tarixi abidələr siyahısına daxil edilmişdir. Mülkün ancaq təhsil üçün deyil, mədəniyyət mərkəzi kimi də fəaliyyəti əvvəldən nəzərdə tutulmuşdur."

Mülk haqqında:

Ağa Şəmsi Əsədullayev mülkü 1913-cü ildə tikdirmişdir. Sonra mülk rəsmi olaraq Moskva tatar müsəlman icmasına verilib. 1917-ci ildə milliləşdirilib, maarif və mədəniyyət orqanlarının büdcəsinə verilib.

Tarix elmləri doktoru Aydın Hacıyevin söylədiklərinə əsasən: - "Keçən əsrin əvvəllərində azərbaycanlılara millət kimi tatar və müsəlman deyilirdi. Hətta Leninin əsərlərində azərbaycanlılar "qafqaz tatarları" adlandırılıb. "Россия" adlanan ensiklopedik lüğətdə (cap1998 il. Sankt-Peterburq, müəllifləri Brokqauz və Yefron) Rusiya imperiyası bölümündə "Rusiya etnoqrafik münasibətdə" altay şəcərəsi üç qrupa - türk, monqol və tunquz qruplarına bölünüb. Azərbaycanlılar "azərbaycan tatarları –türklərin törəmələri, türk-monqol Çingiz xanın ordusu" kimi qələmə verilib. Bəzən də türkləşmiş iranlı – deyilib."

1920-ci illərdə A.Ş.Əsədullayevin həmin mülkündə yeddi illik məktəbdə 300-dək sırf "tatar" ailələrinin uşaqları təhsil alıb və təqribən 50 nəfərlik uşaq bağçası da **burada** fəaliyyət göstərib.

30-cu illərdə mülk maarif və mədəniyyət ocağına çevrilib. Burada onillik məktəb və Yamaşev adına Moskva mədəniyyət mərkəzi yerləşib.

Böyük Vətən müharibəsinin ilk həftələrində mülkdə hərbi hospital yerləşib. Cəbhə Moskvadan uzaqlaşdırıldıqdan sonra mülk SSSR-i Xarici İşlər Narkomuna verilir. Mülkə texniki avadanlıqlar daxil edilir və burada “Texniki Təlimkeçmə” kursları təşkil edilir. Kursları bitirənlər stenoqrafçı-katibə hüququna malik olublar.

Xüsusi qeyd edilir ki, o zaman azərbaycanlılar deyil, məhz tatarlar bu mülkün mübarizəsinə qalxır.

Tatar alimlərinin elmi əsərlərində belə yazıya da rast gəlmək olar: “Neçə-neçə onilliklər Moskva ictimaiyyəti on deyil, yüz dəfələrlə mülkün tatar icmasına verilməsi, burada məktəb və mədəni-maarif mərkəzinin açılması haqda məsələ qaldırıb. Bu məsələnin həlli üçün Moskvanın, Tatarıstan Respublikasının və Rusiya Federasiyasının birinci şəxsləri cəlb edilib, müxtəlif mübahisələr meydana çıxıb, Mintimer Şaymiyevə və Ölkənin meri Yuriy Lujkova müraciətlər edilib.

Bu məsələ yalnız Rusiyanın prezidenti Tatarıstanın 3-cü Ümumdünya Konqresinin nümayəndələri ilə Kazanda görüşdükdən sonra həllini tapır və Konqresin qərarına əsasən mülk tatar icmasına verilir. Bu səbəbdəndir ki, 8 dekabr 2002-ci il Moskva tatar icmasının tarixinə “qızıl hərflərlə” həkk olunub. Bu qələbə bütün yazışmalara, şikayətlərə, mitinqlərə, bir sözlə, dava-dalaşa son qoydu...”

Amma Azərbaycanın dövlət nümayəndələri və diasporası, eləcə də Rusiyanın diasporası inadkarlıqlarından əl çəkmirdi. “Bu hadisədən 10 il əvvəl (1991-1992) bir sıra ziyalılarımız Ağa Şəmsi Əsədullayevin nəvəsinin xahişi ilə Moskvanın səlahiyyətli nümayəndələri qarşısında həmin məsələni qaldırmışdı. Onlar məktublaşmış, sonra isə hər şey yaddan çıxmışdı…”.

Bu məlumatı Rusiyada «ЭXO»-nun Azərbaycandan mətbuat xəbərlərinin məsul şəxsi Fərhad Ağamalıyev vermişdir.

Azərbaycanın səfiri AÜK -nin məsləhətilə bu ünvana məktub göndərmək iqtidarındadırmı- sualına Fərhad Ağamalıyev belə cavab vermişdir: -"Heç bir söz deyə bilmərəm, amma bu məsələni AÜK, səfirlik həll etməlidir."

AÜK-in səlahiyyətli nümayəndəsi Elmira İsakova bildirib ki, " Bu məsələ çox müşkül olsa da, Rusiya dövləti qarşısında həll olunmasını tələb etmək olar. Rusiyada yaşayan soydaşlarımızın ehtiyacı və arzusu nəzərə alınmalıdır. Biz də öz tərəfimizdən nə lazımdırsa, etməyə hazırıq."

Nəticə olaraq düşünürəm ki, məsələ ilə əlaqədar Azərbaycanın Mosvadakı Səlahiyyətli Səfiri, ya da ki, Xarici işlər Nazirliyi və AÜK qatılarsa, məsələyə qayıtmaq yenə də geç deyil.

**P.S.** *Bu məsələ məni çox narahat edir. Düşünürəm ki, vətənpərvər insanlar bu məsələnin həllinə Dövlət səviyyəsində hər zaman qayıda bilərlər. Çünkü yazı pozulmayan kimi, tarix də pozulmur.*

*Ağa Musa Nağıyevin tikdirdiyi binaların aqibəti ilə 25 ildən artıqdır ki, məşğulam. Bu günədək 98 binadan 77-ni ünvanlarına və arxiv sənədlərinə əsasən təsdiqləmişəm. Sevindirici haldır ki, bu binaların 29-da ictimai idarələr fəaliyyət göstərərək təhsilə və insan sağlamlığına xidmət edir.*

*Atamın -Fərəc Nağıyevin öz dəsti -xətti ilə yazdığı xatirələr Dövlət Arxivinin "Ədəbiyyat və İncəsənət" bölməsində bu gün də ömrünü yaşayır: "E.Əfəndiyev xəstəxanası və Kislovodski-dəki "Xram Vozduxa" Ağa Musanın tikilisi olub."*

*Ömür vəfa etsə, bunların aqibətilə məşğul olacağam. Mütləq!*

## ONU AĞA MUSA XİLAS ETDİ

Ağa Şəmsi Əsədullayev Xəzər dənizi sahillərinə və Volqaboyu şəhərlərə gəmi vasitəsi ilə göndərdiyi neftdən böyük məbləğdə gəlir əldə edir.

Bu sahədə öndə getdiyinə görə camaat öz arasında Şəmsi Əsədullayevi Nobellərin qənimi adlandırıblar. Belə ki, o, Rusiyada, Türkiyə, İran və hətta Finlandiyada Nobellərin dükanları ilə üzbəüz dükan açır, nefti Nobellərdən fərqli olaraq ucuz qiymətlə satdırırdı.

A.Ş.Əsədullayev xeyriyyə işlərilə məşğul olub, kimsəsizlərə əl tutub.

Volqaboyu naviqasiya[1] bağlananda Bakıda neftin qiyməti çox ucuzlaşırdı. O zaman iri neft sahibləri kimi A.Ş.Əsədullayev də kiçik mədən sahiblərindən aldığı nefti rezervuar anbarlara vurub, yazda naviqasiya açılanda[2] Rusiyaya daşıtdırıb, satdırırdı.

A.Ş.Əsədullayev də çoxları kimi iki arvadlı idi. Meyransa xanımdan 5 övladı -Mirzə, Əli, Sara, Xədicə və Ağabacı olub. Mirzənin - atasının ikinci arvadı Mariya Petrovna ilə arası yox idi. O, atasının ikinci ailəsinin olması ilə heç cürə barışa bilmirdi.

A.Ş.Əsədullayev çox vaxt Moskvada yaşayırdı. Peterburqda və Moskvada bir neçə mülk tikdirmişdi.

Mariyanın atası çarın ailəsinə yaxın senator olduğundan, bütün bağlı qapılar onun üzünə açıq idi.

Bakıda onun neft işlərini oğlu Mirzə idarə edirdi. Bakıdakı ailəsi Qoqol küçəsindəki mülkdə yaşayırdı.

Boyca çox da hündür olmayan A.Ş.Əsədullayevin çəkisinin çox olmasına baxmayaraq, qadınlar arasında nüfuzu yüksək idi. Rusiyaya tez-tez səfər edirdi və bu ölkə ilə alış-veriş etmək məqsədi ilə rus qadını Mariya onun

---

[1] dəniz yolunun açılıb, bağlanması

[2] Buzlar dağılandan sonra neftdaşıma gəmilərinin hərəkəti.

üçün tapıntı sayılırdı. Onların birgə sürdüyü ömür 20 il davam edir.

Bakıda olarkən gününü Mərdəkandakı malikanəsində keçirib, qohumlarını və dostlarını başına toplayırdı. Burada yaşadığı müddətdə hər gün qonaq qəbul edirdi.

Belə vaxtlarda mülkün yuxarısında havalanan "ştandart"[1] ziyafətin davam etdiyini bidirirdi.

Ağa Şəmsi Əsədullayev Mariyanın eşqinə Peterburqda Neva sahilində Qış sarayının yaxınlığında təmtəraqlı bir bina ucaltmışdı. Moskvadakı hovuzlu və aranjereyalı binanı da ona hədiyyə etmişdi. O, Mariyanı hər il istirahət etmək üçün Avropaya və ətrafındakı yaylaqlara aparırdı.

Bu səbəbdən də Mirzə atası ilə yola getmirdi. Amma düşünmədən anasının acığını atasından çıxmaq, onlara çox baha başa gəlir.

Belə ki, Meyransa xanım ilə oğlu Mirzə, A.Ş.Əsədullayevin Moskvadan göndərdiyi teleqramı atasının işlər müdirindən gizlədirlər.

O, bu dəfə də vurduğu teleqramda işlər müdirinə ucuz qiymətə nefti alıb, anbarlara vurmasını tövsiyə etmişdi.

Arxayınlıqla Bakıya dönərkən, neft anbarlarını boş görən və çıxılmaz vəziyyətə düşən Ağa Şəmsi Meyransa xanım və Mirzə ilə dava-dalaş salır.

O, vəziyyətdən çıxmaq üçün neçə gəmi və Ramanadakı zavodunu satmalı olur. Baha qiymətlə aldığı nefti müqaviləyə əsasən Rusiyanın uzaq şəhərlərinə yola salır.

Bundan xəbərdar olan milyonçu Murtuza Muxtarov və kəndin ağsaqqalı Məcməli kişi ona baş çəkməyə gəlir. Şəmsi şikayətlənərək, arvadının və oğlunun onu müfliş etdiklərindən gileylənir.

---

[1] Ştandart- mayaksayağı işarə göstəricisi

Söhbətdən bir az keşmiş gəminin fiti eşidilir. Məcməli kişi Şəmsiyə işarə edib, deyəsən paraxodun səni haraylayır deyəndə, sanki bu sözə bənd olan Şəmsi hirslə cavab verir ki, başı batmış Mirzənin adına olan bu gəmi artıq mənim deyil. Borclu olduqlarımındır.

Ağa Şəmsi Əsədullayevin bir hobbisi də paraxodun fitlərinin müxtəlifliyi idi. Fitlərin dəyişkən səslərinin azarkeşi olub. Bütün gəmi və bazardakı sirenalar onun sifarişi ilə düzəldilirdi. Hətta bir dəfə gəmilərindən birini satarkən, müştəri onun köhnə olduğuna işarə edəndə, Şəmsi demişdi ki, sən onun bir "fitinə bax", yeddi diyardan səsi gəlir.

Kisənin boşaldığını görən Şəmsi, özünü öldürməyi qərara alarkən, məhz Ağa Musa Nağıyev onu bu vəziyyətdən çıxarıb, həyata qaytarır.

Şəmsi Əsədullayev dünyasını dəyişərkən övladlarına 10-12 mln.məbləğində vərəsəlik qoymuşdu. Oğlu Mirzə pula, ağıla və sakit həyata üstünlük verirdi. Əli isə tamam bunun əksi olaraq, sanki Zərdüştün odundan yaranmış, mübariz və risqə gedən olub.

Deyilənlərə görə o, Bakıda gedən qanlı hadisələrin iştirakçısı kimi yadda qalıb.

**P.S.** *"Şəmsi Əsədullayev" adına Xeyriyyə Cəmiyyətini yaradan Həsən Baba oğlu Məmmədov, Ş.Əsədullayevin Məmmədbəy əmisinin nəvəsidir.*

*Onunla tanışlığımdan sonra Ağa Musa Nağıyev fəaliyyəti ətrafında apardığım tədqiqatların şahidi olan Həsən Məmmədov, məni **"Qafqazın xanımı"** adlandırıb.*

*Həsən Məmmədovun təsis etdiyi Cəmiyyət Nizamnaməsinə əsasən milli məhsulların elektron bazasını yaratmaqla bərabər, sahibkarlar üçün elektron mətbuat xidməti layihələri də həyata keçirir.*

*Bu il Ağa Şəmsi Əsədullayevin vəfatının 105 ili tamam olur. Çox arzu edərdim ki,adını daşıdığı "Xeyriyyə Cəmiyyəti"- heç olmazsa onun ruhunu şad edib, fəaliyyətini işıqlandırmaqla, bir tədbir keçirsəydi...*

## QİYMƏTLƏNDİRİLMƏYƏN AD

“Kaspi” qəzetindəki nekroloqu diqqətə gətirməyi vacib bilirəm: “...Şəmsi Əsədullayev əliaçıqlığı ilə çoxlarından fərqlənirdi. Xeyriyyə işlərinə ayırdığı vəsaitdən əlavə, onun təqaüdünə layiq görülən tələbələrə və ehtiyacı olanlara ayrılıqda maddi köməklik göstərirdi. Ömrünün son illərinədək o, Moskvadakı müxtəlif müsəlman cəmiyyətlərinə ianə verirdi. A.Ş.Əsədullayev təbiətən çox ağıllı idi və həyata ilahi tərəfindən sanki kommersiya üçün “göndərilmişdi”.

Onun dəfni qəm-qüssə mərasiminə çevrildi. Belə ki,“Kaspi” qəzetində çap olunanları nəzərə çatdırıram:

“Yaltada yaşayan yerli əhali hörmət etdikləri mərhumun cənazəsini Sevastopolun vağzalınadək əlləri üstə gətirmiş və təşkil edilmiş qatarla yola salmışlar.”

Bundan çox məmnun olan Mirzə, atasının xatirəsini əziz tutaraq Krım tatarlarına mükafat olaraq məktəb və məscidin tikilməsi üçün10 min rubl göndərir.

***Ağa Şəmsi Əsədullayevin cənazəsini qarşılamağa gələn minlərlə insan axını da hörmət əlaməti olaraq onun tabutunu Bakı Dəmir yol vağzalından - evinə qədər əlləri üstündə piyada gətirir.***

Ertəsi gün dəfn mərasiminə toplanmış izdiham 10.000-i keçmişdi. Adını əziz tutub, o gün Ş.Əsədullayevin müəssisələrində işə çıxmayanların sayı 3 000-dən artıq idi.

Dəfn toplantısı İlk Müsəlman Xeyriyyə Cəmiyyəti binasının - “İsmailiyyə”nin önündə bir anlığa ayaq saxlayır, Dumanın üzvlərindən olan Mehdi bəy Hacınski hamını heyrətə gətirəcək bir nitq söyləyir:

“Üzərimə məsuliyyət götürərək Qurandan sizlərə bir ayə çatdırmaq istərdim. Ölümü hamı keçirməlidir. Amma

hər bir insan ölərkən özündən sonra ad qoymalıdır. Bu ad var-dövlət ilə qiymətləndirilmir! Çox varlılar dünyasını dəyişir və zaman keçdikcə unudulur. Amma Ağa Şəmsi Əsədullayev kimi insanlar dünya müsəlmanlarının qəlbində daima yaşayacaq. Bu ad ölməzdir. Rəhmətlik öz hesabından ehtiyacı olanlara, ələlxüsus maariflənməyə küllü miqdarda vəsait ayırıb.... ”

1913-cü ildə milyonçu- xeyriyyəçi Ağa Şəmsi Əsədullayev Bibiheybət qəbristanlığında dəfn olunur.

Lakin sonradan onun məzarı 2 dəfə yerini dəyişməli olacaq...[1]

Heyiflər olsun ki, inqilab Ağa Şəmsi Əsədullayevin də nəslinin nümayəndələrini “köçkünlər” siyahısında qeydə aldı.

**P.S.** *Çox maraqlıdır ki, dəfn toplantısı niyə məhz “İsmailiyyə”nin qarşısında ayaq saxlayıb? Bəlkə onu müflislikdən və intihardan qurtaran Ağa Musa olduğuna görə?!*

---

[1] Bu barədə açıqlama “Qəbr macərası”sərlövhəsində

## A.Ş.ƏSƏDULLAYEVİN QƏBR MACƏRASI

Əmircan sakini,1910-cu il təvəllüdlü, mərdəkanlı Leyla xala ahıl yaşlarında olarkən, Şəmsi Əsədullayevin qəbr macərasından çox maraqlı faktlar danışardı. Leyla xalanın söylədiklərindən:

– "Bir müddət keçdikdən sonra, yerli kənd əhalisi Şəmsi Əsədullayevin nəşini Bibiheybət yaxınlığındakı qəbristanlıqdan Əmircan kəndinin köhnə qəbristanlığına köçürülməsini qərara alır və qəbri açarkən qəribə bir mənzərənin şahidi olur. Şəmsi Əsədullayevin cəsədi dəyişilməz qalmışdı. Bu hamını heyrətə salmışdı."

Görünür ki, Ağa Şəmsinin cəsədi mumiyalandırılmışdı.

Bu günədək bu hadisə böyük sual altındadır. Kimin tərəfindən və nə məqsədlə bu işin görülməsinin şahidləri bəlli deyildi.

Güman etmək olardı ki, bu Yaltada yaşayan müsəlmanların işi olub.

2000 -ci ildə Ş.Əsədullayevin Ağabacı qızından olan nəvəsi Züleyxa Əsədullayeva – Veber[1] onun nəşini bu qəbristanlıqdan da çıxartdırıb, vaxtı ilə M.Muxtarovun Əmircanda tikdirdiyi İkiminarəli Məsciddən 80 m.aralı, üzü Şimala doğru olan qəbristanlığa köçürür və məzarın yanındakı yeri göstərərək vəsiyyət edir ki, Fransadan kənarda dünyamı dəyişərəmsə, məni burada, babamın yanında dəfn edərsiz.

Çox qəribədir ki, Türkiyədə uzun müddət yaşayan və oradan köçsə də, tez-tez bu dövlətdə olan Züleyxa xanım, orada uyuyan Ağabacı anasının yanında deyil, Bakıda, babasının yanında dəfn olunmasını vəsiyyət etmişdi...

---

[1] Züleyxa xanımın 2-ci həyat yoldaşının soyadıdır

2002-ci il iyulun 22-də Türkiyədə vəfat edən Züleyxa Əsədullayevanın vəsiyyətinə əməl olunaraq, Əmircan qəbristanlığında babasının yanında dəfn edilir.

Doğru deyiblər,"Gəzməyə qərib ölkə, ölməyə Vətən yaxşı." Əlavə etməliyəm ki, vaxtı ilə tikdirdiyi mülklərilə, xeyriyyəçiliyilə, böyük neft sahibkarı kimi dünyaya səs salan Ağa Şəmsi Əsədullayev nə yaxşı ki, son mənzilində tək qalmadı. Nəvə, babanın yanına qonaq gəldi. Özü də həmişəlik!

Züleyxa xanım o zaman Şəmsi Əsədullayevin məzarının sinə daşında sanki bir "xatirə lövhəsi" həkk etməklə - vəfat edən ailə üzvlərinin "uyuduqları ünvanı" göstərməklə, tarixə bir səhifə yazmış oldu:

– Mirzə - oğlu, Parisdə dəfn edilib.,

– Sürəyya - qızı, Əmircan kəndində dəfn edilib.,

– Xədicə - qızı, məzarı məlum deyil[1].,

– Ağabacı - qızı, (Züleyxanın anası) –Türkiyədə dəfn edilib.,

– Əli – oğlu, məzarı məlum deyil.

---

[1] Bu haqda açıqlama "Rekviyem-ağı" sərlövhəsində yazıda verilib.

## ZÜLEYXA XƏLƏF QIZI ƏSƏDULLAYEVA VEBER

***"Ölüm hamı üçün haqdır. Bir gün yaranan bu fani dünyanı tərk edərək, bir gün də əbədiyyətə qovuşacaq. Lakin bunun məkan və zaman baxımından necə baş verməsi xüsusi əhəmiyyət kəsb edir."***

Elə bu məntiqdə də əsrin əvvəllərində doğma vətənindən didərgin düşmək və ikinci vətəni hesab etdiyi Türkiyədə dünyasını dəyişmək kimi qəribə tale Züleyxa xanım Əsədullayeva – Veberin alnına yazılmışdı. Züleyxa xanım 2002-ci il iyulun 22-də, 96 yaşında Türkiyənin İstanbul şəhərində dünyasını dəyişib.

O, 1916-cı ildə adı xeyriyyəçi-miyonçular sırasında öndə gedən maarifpərvər Ağa Şəmsi Əsədullayevin ailəsində anadan olub, qız nəvəsidir.

Sovetlər İttifaqı yaranandan az sonra milyonçular silsiləsindən olanların çoxu ölkədən köç edən bir zamanda, 1922-ci ildə Züleyxanın ailəsi də vətəndən didərgin düşərək Türkiyənin İstanbul şəhərinə miqrasiya edir.

O, 1943-cü ildə İstanbulun Tarix və Ədəbiyyat Universitetini bitirir. Türkiyə Silahlı Qüvvələrin Baş Qərargahında tərcüməçi kimi çalışır.

1950-ci ildə Züleyxa xanım Amerika Birləşmiş Ştatlarının Virginiya şəhərinə köçür, orada ailə qurur. Orta məktəbdə tarix və coğrafiya fənnlərindən dərs verir.

Bir müddət bu işinə Braziliyada davam edən Züleyxa xanım, yenidən ABŞ-a qayıdır. İkinci dəfə ailə qurur. İki dəfə ailə qursa da övladı olmayıb. Hər iki həyat yoldaşı amerikalı olan Züleyxa xanım ikinci həyat yoldaşının

soyadını - Veber qəbul etsə də, Əsədullayev soyadından xüsusi fəxr duyurdu.

İntellektual bir ziyalı - azərbaycanlı olaraq 6 dildə - türk, ingilis, alman, fransız, rus və portuqal dillərində sərbəst danışan, müəllimlik və tərcüməçi kimi təcrübəsi olan Züleyxa xanım müxtəlif neft kompaniyalarında çalışıb.

O, 1995-1997-ci illərdə **"Mobiloyl", 1997-ci ildən isə ömrünün sonunadək "Benzoyl**" kompaniyasında işləyib.

Züleyxa xanımın ictimai fəaliyyəti Azərbaycan üçün daha önəmli olub. Belə ki, o, ABŞ-da yaşayan azərbaycanlılarla iş aparıb, onların tədbirlərində fəal iştirak edib. Erməni lobbisinin tüğyan etdiyi son on ildə okeanın o tayında düşmənin açdığı cəbhəyə qarşı fədakarlıqla mübarizə aparıb. Onun ən böyük nailiyyəti Azərbaycan haqqında dolğun və düzgün məlumatları Amerika başda olmaqla bütün dünya ictimaiyyətinə çatdırmaq idi.

Bütün bunlara baxmayaraq, ürəyi vətən eşqilə döyünən Züleyxa xanım üçün 70 il qəlbində gəzdirdiyi vətən həsrətini, vətən yanğısını səngitməmişdi.

1990-cı ildə o, Azərbaycana gələn ABŞ konqresinin üzvü Cima Mudinincməni müşayiət edir. O zamandan başlayaraq hər dəfə Azərbaycana gəlişi zaman Züleyxa xanım mütləq qaçqınların məskunlaşdığı yerləri, uşaq evlərini ziyarət edir, humanitar yardımlar göstərirdi.

Harada yaşadığından asılı olmayaraq Azərbaycanın qüdrətli olacağına, özünün tarixi sərhədlərini bərpa edəcəyinə, işğal olunmuş torpaqların azad olunacağına inanırdı.

Adam vətəndən dönər, vətən adamdan dönməz!

Soydaşlarımız dünyanın hər yerinə səpələnib. Hərə bir problemdən uzaqlaşmaq məqsədilə. Lakin onları hər zaman bu fəlsəfi sual düşündürməlidir – "Mən vətən üçün nə edə bilərəm?"

2002-ci ildə Züleyxa xanımın dəfn günündə - tabutu önündə Dünya Azərbaycanlıları Əlaqələndirmə Şurasının sədri, professor Qulamrza Təbrizinin söylədikləri ilə tanış olun:

“Vətənin əhəmiyyəti odur ki, cism gedəndən sonra ruh ora qayıdır. Biz vətəndən ayrılsaq da, vətən bizdən ayrılmır. Züleyxa xanım uzun müddət vətəndən ayrı düşsə də, vətən ondan ayrılmadı. Vətəndən uzaqlaşan insanların qarşısında bir sual dayanır: – Vətəndən nə apara bilərəm, nə verə bilərəm? Əsas fəlsəfə də ikinci məsələdir. Vətən anadır, ana isə vətən. Züleyxa xanım uzun müddət xaricdə yaşasa da, Azərbaycan həqiqətlərini amerikalılara çatdıran və ölkəmizin müstəqilliyi uğrunda əlindən gələni əsirgəməyən xeyriyyəçi azəri qızı, Azərbaycan diasporasının görkəmli nümayəndəsi idi. Biz soydaşlar, tamam vətəndən uzaq olanlar, Züleyxa xanımın ruhu qarşısında baş əyirik. Düşünürəm ki, onların hər biri Züleyxa xanım kimi öz vətəni ilə fəxrlə öyünən bir nümayəndə olmağı arzulayır.”

2002-ci il iyun ayında Bakıda keçiriləcək “Beynəlxalq Neft və Qaz sərgisi”ndə iştirak etmək üçün vətənə gələcək Züleyxa xanımın planında babasının qəbrini ziyarət etmək də var idi.

Həyatında çox çətinliklərlə üzləşən Züleyxa xanımın ömrünə xoş və kədərli illər yazılsa da, harada olmasından asılı olmayaraq, onun ürəyi vətən eşqilə alovlanıb. Azərbaycanın inkişafını daima izləyərək sevinənlərdən biri deyil, birincisi olmaq istəyirdi.

Azərbaycan müstəqillik əldə etdikdən sonra o, vətəni ilə əlaqələrini daha da möhkəmləndirməyə çalışırdı. Züleyxa xanım ömrünün axırına 10 il qalmış, sanki öləcəyini hiss edərək, Azərbaycan üçün nə isə etməyə daha çox çalışırdı.

Züleyxa xanım bütün həyatı boyu Azərbaycanın müstəqilliyi ideyasının daşıyıcısı olmuş və bu müqəddəs amal uğrunda mübarizədən çəkinməmişdi.

Türkiyədə pnevmoniya xəstəliyindən vəfat edən Züleyxa xanımın vəsiyyətinə əsasən cənazəsi Bakıya gətirilir.

Əmircan qəsəbəsindəki Səttar Bəhlulzadə adına mədəniyyət sarayında keçirilən dəfn mərasiminin təşkilatçıları: Xaricdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsi, Bakı Şəhər İcra Hakimiyyəti və Qadın Dövlət Komitəsi idi.[1]

Verilən baş sağlıqları:

– Züleyxa xanım Əsədullayevanın dünyasını dəyişməsi bizi çox sarsıtdı. Əzizimiz Züleyxa xanımın itkisi Əsədullayev nəslinin itkisidir. Allah rəhmət eləsin.
Paşayevlər ailəsi.

– Züleyxa xanımın itkisilə bizim kompaniya Azərbaycanın əziz dostunu, əsl insanı itirib. Vətən torpağı onun məkanı olsun.

Devon Kaspian Korpareyşn kompaniyası.

**P.S.** *Şəmsi Əsədullayevin məzarının 3-cü dəfə yerdəyişməsində mən və bacım Solmaz xanım da iştirak etmişdik.*

*Züleyxa xanımın dəfnində və cümə axşamlarında iştirakımız zamanı daha yaxından tanıdığımız Əmircan sakini - abidə ustası Şakir Əliyev oldu. Öz əmisinin məzarüstü daşını qoyduğu zamandan Əmircan əhalisi onun işindən razı qaldığına görə bu işin ustası kimi sifarişlərini ona verirdi. Şakir Əliyev ali savadlı xalçaçı rəssamdır. Abidə yaratmaq onun sevdiyi peşəsinə çevrilib.*

*O zaman onun bu sahədə iş qabiliyyətini görən Züleyxa Əsədullayeva da babası Şəmsi Əsədullayevin qəbir yerini*

[1] Komitələrin adları 2002-ci ildə olduğu kimidir

*dəyişdirərkən, məzarın tikilib bərpa olunmasını ona tapşırır. Züleyxa xanım qəbir daşını qara mərmərdən deyil, milli ağ daşdan - Daşkəsənin ağ mərmərindən sifariş edir və Şəmsi babasının sinə daşında sanki bir xatirə lövhəsi həkk edir. Belə ki, Züleyxa xanım daş üzərində anasının, dayılarının və bibilərinin vəfat etdikləri tarixləri və dəfn məkanlarını qeyd etməklə, Əsədullayevlər nəslinin abidəsini yaratmış oldu.*

*Züleyxa xanımın məzar abidəsi də Şakir Əliyevin əseridir.*

*Adətən hisslər çox qəribəliklər yaradır. Bəzən biz bunun varlığına uymuruq. Amma bir iş baş tutanda yada salırıq ki, bu nə vaxt isə beyinə proqram kimi göndərilmişdi. Bu misralar bütövlükdə Züleyxa xanıma aiddir. Allah onu rəhmət eləsin.*

*68 il (1922-1990) ildə vətəndən məcburən "uzaq düşən" Züleyxa xanım həyatının 90 ilini Türkiyə, Amerika Ştatlarında və Fransada keçirsə də, ölməyə Vətən yaxşıdır – dedi və bu onun vəsiyyətinə çevrildi.*

*Həyat eşqilə yanıb-yaxılan ürək onu 100-ə çatdırmadı. Babası ilə axirət dünyasında qovuşdu.*

*Şəmsi və Züleyxa Əsədullayevlər indi Əmircan kəndinin qəbristanlığında ağacın kölgəsində yayda sərinlənir, qışda isə baba nəvəsini nəfəsilə isidir.*

## BAŞ TUTMAYAN MÜSAHİBƏ

"İmpuls" qəzetinin Baş redaktoru Mətanət xanıma bildirmişdim ki, Züleyxa Əsədullayeva "Benzoil" neft şirkətinin sərgisində iştirak etmək üçün Azərbaycana gələcək. Bir yerdə görüşəcəyimizə söz vermişdim. Amma qismət olmadı.

Züleyxa xanımın gözlənilməz ölüm xəbəri buna mane oldu. Mətanət xanıma dünyanı gəzib dolaşan bu xeyriyyəçi qadının dəfn mərasimində iştirak etmək qismət oldu. Aldığı müsahibələri diqqətinizə çatdırmağı qərara aldım:

Züleyxa xanımım Əmircanda Səttar Bəhlulzadə adına Mədəniyyət Sarayında keçirilən dəfn mərasimində toplanmış insanların sayı hesaba gəlməz idi.

Həzin musiqi sədaları könüllərdən axıb gələn kədər hisslərinə qarışırdı. Züleyxa xanımın cənazəsi gül-çiçəklər arasında səhnədə sakitcə uyuyurdu.

Mətanət xanım ilk sualını səhnədən asılmış şəklinə verdi:

- Nə var, nə yox, Züleyxa xanım?

- Bir mən, bir də ətrafımda ruhuma dua oxuyanlar var, canım...

- Ürəyindəki arzularından hansı keçdi həyata, hansılar qaldı?

- Uzun illər dolaşdığım Amerika,Türkiyə məni yola saldı, amma Azərbaycanım ağuşuna aldı...

- Sənə dərindən bir lay-lay demək istərdim...

- Həyatda kədərli günlərim az olmayıb. De ki, 70 il vətən həsrətli olub, milyonçu nəslinin didərgin övladı, lay-lay ...

- Elindən, yurdundan didərgin salanları bağışlaya bildinmi?

- Nə etməli, axı azərbaycan qadınları mərhəmətli olur.

- O zərif aləmin tənhalığına necə dözəcəksən?

- Sərçələr cəm ilə, şahinsə tənha gəzər…

... Nura bəzənmiş aoranın içərisində əzəmətli bir vücudla olan müsahibə çox çəkəcəkdi, əgər göz yaşları mane olmasaydı...

Sonra Mətanət xanım məndən müsahibə götürdü:

Bakıya gəldiyi vaxtdan az sonra Züleyxa xanım ilə “Respublika” otelində Solmaz xanımın oğlu Elşən ilə birikdə görüşdük. İlk görünüşündən yaşına uyğun olmayan ağ kostyum geymiş xanımın al qırmızı dodaq boyası, arıq və damarlı barmaqlarındakı iri üzükləri gözümü aldı. Bu görüşümüz 1998-ci ilə təsadüf edirdi. Bizim qadınlardan tam fərqli geyimini mən bəyənməsəm də (o illərdə bizim qadınlar çox nadir hallarda şalvar geyərdi, onun yaşına uyğun olmayan dodaq boyası isə sevdiyi Azərbaycanındakı müharibədən xəbər vermirdi), susmalı oldum. Çünkü bu xanım “Avropadan” gəlmişdi. Axı nə qədər əndrəbadi geyinsə də, o azərbaycanlı qadınının simvolunu tərənnüm edirdi.

Səmimi görüşümüz zamanı babam haqqında - Ağa Musanın qardaşı Ağa Əlidən söhbət getdi. Züleyxa xanım onun (4) hamam işlətdiyindən və 1918-ci il Mart qırğınları zamanı ata-anasının bizim evdə gizləndiklərindən danışdı[1].

Əlbəttə ki, 6 yaşlı bir qızcığazın vətəni tərk etməsi onun yaddaş dəftərinin kasıb olduğundan xəbər verirdi.

Şəmsi Əsədullayevin oğlu, Züleyxa xanımın dayısı – Mirzə - Ağa Musanın qızı Ümmül Banu ilə ailə qurmuş və doğuş zamanı ana rəhmətə getdiyindən yeni doğulmuş uşağa anasının adını verdiyini də yada saldıq.

Ağa Musanın qız, Şəmsi Əsədullayevin oğul nəvəsi olan Ümmül Banunun alman dayələrinin himayəsində böyüdüyündən, 19 yaşında Fransaya mühacirət

---

[1] *Ş.Əzizbəyov 28-dəki binada*

etməsindən, sonradan yazar olaraq, Banin təxəllüsü ilə şöhrət tapdığından danışdıq.

Şəmsi Əsədullayevin oğlu Əlinin Hacı Zeynalabdin Tağıyevin qızı Leyla xanım ilə ailə həyatı qurduğunu da qeyd etdik.

Sevinirəm ki, Züleyxa xanım axirət dünyasını Azərbaycanda tapdı. İstərdim ki, Baninin də heç olmasa, axirəti Vətən olaydı. Amma... Çox təəssüflər olsun ki, Baninin axirəti acınacaqlı sonluqla bitdi. Vətənsiz və məzarsız.

Allah hər ikisinin - vətən həsrətli azərbaycan qadınlarının dünyalarını rahat etsin.

## REKVİYEM - AĞI

***Bu şərhi əmimqızı Ofelya xanıma həsr edirəm***

1910-cu ildə məşhur neft milyonçuları Ağa Musa Nağıyev və Ağa Şəmsi Əsədullayevin ailəsində bir oğlan uşağı gəlir dünyaya. Adını Murad qoydular.

Muradın şərəfinə babası Ağa Əlinin qardaşı milyonçu Ağa Musa "İsmailiyyə"də böyük ziyafət verir. Bu ziyafətdə Ağa Musanın körpənin anası Xədicə xanıma brilliant boyunbağı hədiyyə etdiyini görüb, qızının boynuna bir boyunbağını da Şəmsi babası asır. Dəbdəbəli ziyafətin söz-söhbəti uzun müddət davam edir.

Avropa mənşəli dayələrin əhatəsində böyüdüyündən fransız, alman və rus dillərini mükəmməl öyrənən Murad Nağıyev, əvvəlcə Azərbaycan Türk Pedaqoji Texnikumunu, sonradan isə Azərbaycan Neft Sənaye İnstitutunu mühəndis ixtisasına yiyələnməklə bitirir.

Xarici dilləri mükəmməl bildiyindən Murad bədii tərcümə sahəsində fəaliyyət göstərərək bir müddət Azərnəşrdə tərcüməçi və redaktor vəzifələrində çalışır. Bacarığı və işgüzarlığı ilə diqqəti cəlb edən Murad işləmək

üçün Maarif Nazirliyinə dəvət alır. Maarif Naziri Mirzə İbrahimovun göstərişi ilə Murad Nazirin referenti təyin edilir.

Murad öz səadətini də burada tapır. O, nazirliyin kadrlar şöbəsinin işçisi Dursun adlı gözəl qız ilə evlənməyə qərar verir.

Murad adının mənası kimi – muradına çatsa da, zaman ona naxələf çıxır. 1940-cı il noyabrın 7-də gənclər üçün toy-büsat qurulur.

Murad hələ Böyük Vətən Müharibəsinin (BVM) ilk günlərindən döyüş hazırlığına yola düşərkən özündən sonra dünyaya gələcək qız övladının alnına artıq "atasızlıq" möhürü vurulmuşdu.

Ailə səadətinin şirinliyini doyunca içməyən Murad Nağıyev 1943-cü ildə müharibədə itkin düşür.

Yaraşıqlı gəlin otağının sahibəsi Dursun xanım həyatın maneələrinə baxmayaraq, qızının xoşbəxt böyüməsinə var qüvvəsilə çalışır. Uzun illər Muradın kitablarının tozunu silib, paltarlarının səliqəsini pozmadan onun yolunu gözləyirdi.

Atasız dünyaya göz açan qız – Ofelyanı, o zaman başqa uşaqlardan fərqli olaraq, ürəyində niskillik qalmasın deyə, Dursun xanım naz-nemət içində böyüdürdü.

Xüsusən qeyd etmək vacibdir ki, uzun müddət sorağı Amerikadan və Fransadan gələn Züleyxa Əsədullayevanın xalası – Ofelyanın ata nənəsi olan Xədicə xanım vaxtı ilə Vətənini xarici ölkəyə di.

1943-cü ildə oğlu Muradın qara xəbəri və birinci nigahından olan qızı Rüqiyyənin vəfatı Əsədullayeva-Nağıyeva Xədicə xanımın huşunu başından alır və o, qısa zamanda dünyasını dəyişir.

Əsədullayeva-Nağıyeva Xədicə məşhur yazıçı Baninin bibisi olub.

Ofelya xanım boya-başa çatdı, ali savada yiyələndi. Qurduğu gözəl ailəsində övladlarının və nəvələrinin əhatəsində o, bu gün də xoşbəxt yaşam tərzinə davam edir. Ofelya Nağıyeva- İsmayılova AMEA-nın Nizami Cəncəvi adına Ədəbiyyat İnstitutunun elmi işçisidir.

Döyüş cəbhəsində itkin düşmüş Muradın – gənc ailəsindən doymamış, övladının dilindən “Ata” kəlməsini eşitməmiş insan haqqında ziyalı övladının qəlb çırpıntılarını BVM-dən 60 il keçdikdən sonra eşitmək çətin də olsa, bu baş verdi.

91 yaşında Dursun ananıın vəfatı Ofelya xanımı xəyalən keçmişlərə qaytardı:

Anası Dursun xanım ölüm ayağında ikən çətin can verirdi. Nisgilli idi o bu həyatda. Muradın şəklini anasının sinəsinə qoyarkən, artıq heç bir əzası işləməyən ananın gözlərindən yaş süzülür. Bu göz yaşları ürəyinin buludundan yağan dolu idi.

Ofelya Müqəddəs Quranı uca tutub, göz yaşlarını boğaraq Tanrıya yalvarır: “Allahım, anamın həyatda xoşbəxtliyi az, əzabı çox olub, nə olar onu son nəfəsdə sınağa çəkmə. Ruhunu azad burax!..”

Elə bil bu dualardan asılı imiş Dursun ananın həyatı, o, canını tapşırır.

**Ofelya xanımın alqışlara layiq bir hərəkətini xüsusi olaraq qeyd etməyi vacib sayıram. O, ata yasını da anasının yasına qatdı. Anasının məzarı önündə qəbri naməlum olan ata nənəsi Xədicə Əsədullayeva ilə atası Murad Nağıyevə Daş kitabədən “heykəl” qoydu.**

**Beləcə o, ananı bala ilə, anasını isə illərlə ayrı düşmüş atası ilə ruhən yaxınlaşdırdı.**

**Sağ olsun belə övlad!**

**P.S.** *Ofelya xanım doğmalarının, yaxınlarının onu tək qoymadığından bu gün də fərəhlə danışır.*

*Ofelya xanımın həyat yoldaşı Tağı müəllimdən qısaca da olsa, məlumat verməyi vacib sayıram.*

*Ziyalılığı və təfəkkürü ailədən gələn Tağı İsmayılov Ofelya xanım ilə ailə qurarakən, Yeyinti Sənayesi Nazirliyinin nazir müavini idi. Ofelya xanımın evində masanın üstündə büllur qablarda qoyulan iri şokolad parçaları bu gün də gözümün qarşısından getmir. O zaman bu nadir hal idi.*

*Bacım Solmaz onlara tez-tez gedərdi və evə qayıdarkən, Ofelya bu şokoladları ona pay verərdi. Mənsə, bu ailəyə və şokolada yaxşı mənada qibtə ilə baxardım.*

*Onların həyatı da bu günədək şokolad kimi şirin və xoşbəxt keçir.*

## A.M.NAĞIYEVİN VƏFATI

1919-cu il martın 4-də Bakı şəhərində baş vermiş iki hadisə bütün türk-müsəlman dünyasında əks-səda doğurdu. Şəhərdə sürətlə şayiələr yayılmağa başlamışdı. Həqiqəti yalandan ayırmaq, bəlkə də heç vaxt bu qədər çətin olmamışdı.

Qüdrətli sənətkar, istedadlı səhnə ustası Hüseyn Ərəblinskinin xaincəsinə qətlə yetirilməsi və Bakının neft kralı, milyonçu, xeyriyyəçi A.M.Nağıyevin vəfat etməsi gözlənilməz kədərli xəbər oldu.

Xalqın maddi və mənəvi ehtiyaclarının ödənilməsini təmin edən bu iki məşhur şəxsiyyətin dünyasını dəyişməsi Azərbaycan xalqının böyük itkisi kimi qiymətləndirildi.

Vaxtsız ölüm A.M.Nağıyevin gələcəyə köklənmiş planlarını yarımçıq qoydu. 11 yaşından zəhmətilə gündəlik dolanışıq üçün pul qazanan sadə bir kəndli balası A.M.Nağıyev, 49 yaşında milyonçu kimi tanınmış, yaratdığı zəngin irsi özündən sonrakı nəsillərə ərməğan etmişdi.

Ümmül Banu babasının vəfatı barədə belə yazır: "... Babam Ağa Musa öldü, bizə böyük sərvət qoyub getdi. On üç yaşından dövləti milyonlarla hesablanan bir varlıya döndüm...

Ağa Musa babamın- anamın atasının meyidini çarpayıya qoyub üstünü örtmüşdülər... Deyirdilər ki, o, ölümdən elə qorxurmuş ki, yanında kimsəni bu mövzuda söhbət etməyə belə qoymurmuş.

Qədim bir Şərq rəvayətində deyilir ki, ev tikdirən adamı əcəl aparmır. Babam da neftdən qazandığı milyonların hesabına bir-birinin ardınca çoxlu ev tikdirirdi. Belə ki, dünyasını dəyişən günə qədər 60-dan çox ev tikdirmişdi (pul ilə aldığı evlər bu saya daxil deyil). Amma

elin rəvayəti yalan oldu. Babam Ağa Musa istədiyi qədər ev tikdirib qurtarmamış ölüm onu yaxaladı...

Babam Ağa Musa Nağıyevin dəfn mərasimi çox təntənəli keçdi. Cənazəni aparan dəstənin ucu-bucağı görünmürdü. Başlarında buxara papaqlı (varlı olmağın nişanəsi) kişilər dəstə ilə cənazənin ardınca gedirdilər.

Bir həftə ərzində yüzlərlə kasıba ehsan olaraq cücə - plov verildi. Sonra sakitlik çökdü və mərhumun vərəsələrindən danışmağa başladılar...”

A.M.Nağıyevin vəfatı ilə bağlı Azərbaycan Xalq Cümhuriyyətinin bir nömrəli mətbuat orqanı sayılan “Azərbaycan” qəzeti 5 mart 1919-cu il tarixli sayının birinci səhifəsində verilən başsağlığında yazılırdı:

“Ən orijinal şəxsiyyətlərdən sayılan -Ağa Musa Nağıyev, intəhasız kapital sahibi olan neftxuda xalqının bütün tələblərinə rəğbətlə yanaşıb. Elə bir əhəmiyyətli ictimai məsələ olmayıb ki, orada Ağa Musanın əvəzsiz xidməti olmasın... Rəhmətliyin xidmətləri onun xalq arasında xatirəsini əbədi yaşadacaq.”

Sonra qəzetdə belə bir elan verilmişdi:

-“Ağa Musa Nağıyevin Baş Kontorunun məsul işçiləri kəmali-ehtiramla Ağa Musa Nağıyevin martın 4-də, gündüz saat 10-da vəfat etdiyini xəbər veriyor. Mərhumun cənazəsi Hacı İmaməli Məscidinə aparılacaq.”

Başsağlığı verənlərin siyahısında:

1. Ağa Əli Nağıyev uşaqları ilə- qardaşı
2. Tağı, Xədicə xanım, Sadıx və Murad Nağıyevlər- qardaşı oğlu və ailəsi
3. Ümmə Səlmə xanım Nağıyeva – həyat yoldaşı, övladları- Ümmül Banu və İsmayılın anası
4. Mirzə Əsədullayev öz övrəti və uşaqları ilə – keçmiş kürəkəni ikinci ailəsilə
5. Bakı Cəmiyyəti - Xeyriyyə İdarəsi.

6. Ağa Musa Nağıyevin “Ümdə” Kontorunun qulluqçuları

7. Şəmsi Əsədullayevin oğlanlarının “Ümdə” Kontoru

8. Neft mədənlərinin qulluqçuları

9. Səlim və Rüqiyyə (qardaşı qızı) xanım Sadığovlar

10. Yelizaveta Cankorova Nağıyeva – ikinci həyat yoldaşı

11. Neft mədənlərinin fəhlələri

12. Mirzə Məmməd və Kövsər xanım Həsənovlar

13. Fətullabəy Rüstəmbəyov – texnoloqu

14. Mahmud bəy Axundov

15. Evlər İdarəsinin qulluqçuları

16. Kerosin Zavodunun fəhlə və qulluqçuları

17. Bakı Ticarət Bankı İdarə Heyətinin sədri - H.Z.Tağıyev

18. Bakı Ticarət Bankı İdarə Heyəti və qulluqçuları

19. Bakı Lombardı Səhmdar Cəmiyyətinin İdarə Heyəti

20. Əli xanımı ilə- Ş.Əsədullayevin oğlu

21. Baxış bəy və Şahbaz bəy Rüstəmbəyovlar (Fətulla bəyin qardaşları)

22. Bakı Realnı Məktəbinin Pedaqoji Şurası

23. Nikolay Arxipoviç Koşkin həyat yoldaşı və qohumları.

24. Zinoviy Lvoviç Katsnelson həyat yoldaşı ilə və b.

Başsağlığı verənlər siyahısında neft mədənləri və kerosin zavodunun fəhlə və qulluqçularının, Evlər İdarəsinin qulluqçularının yer alması A.M.Nağıyevin bu təbəqədən olan insanların arasında böyük nüfuza malik olduğunu bir daha təsdiqləyərək, böyük mesenata qeyri-türk xalqlarının da rəğbət və ehtiramını bildirirdi.

A.M.Nağıyevin vəfatı ilə əlaqədar **“Kir”** imzası altında birinin rus dilində “Azərbaycan” qəzetində dərc etdirdiyi nekroloq böyük maraq kəsb edir:

-“Musa Nağıyev əzablı xəstəlikdən sonra ahıl yaşında vəfat etdi. Təbiət tərəfindən qeyri-adi enerji, əzm və qabiliyyətlə təltif edilmiş xəzinə, ən orijinal insanlardan biri səhnədən endi. Əgər rəhmətlik kimi, belə genişmiqyaslılığa malik insanlar normal həyat şəraitində dünyaya gəlib boya-başa çatsaydılar, onlar **xalqı** və əsrləri üçün qiymətli sərvət olardılar. Tanınmamış biri olaraq, bilik və hətta elementar savada sahib olmayan mərhum Ağa Musa öz gücü ilə həyatda özünə yol açdı. Geniş və mətin bir yol! Böyük kapital sahibi olan mərhum xalqının bütün ehtiyaclarına səs vermişdir. Elə bir xeyirxah ictimai təşəbbüs yox idi ki, mərhumun səxavətli payından orada təməl daşı olmasın.

Mərhumun xalqına sədaqətinin ən qiymətli abidəsi isə varvarlar tərəfindən dağıdılmış gözəl “İsmailiyyə” sarayıdır. Binanı mərhum oğlu İsmayılın xatirəsinə tikdirib, “Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti”nə hədiyyə etmişdi. Bu bina Azərbaycan türklərinin mədəni və ictimai həyatının mərkəzi oldu. Ümid etməliyik ki, mərhumun vərəsələri dağıdılmış “İsmailiyyə” binasını bərpa edəcək və bu Ağa Musanın xeyirxah əməllərinə ucaldılmış bir abidə olacaq.

Mərhum ancaq öz xalqının ehtiyaclarına deyil, onun doğma şəhərində baş verən bütün xeyirxah təşəbbüslərə qoşulub. Millət fərqi olmadan bütün ehtiyacı olan uşaqların sağlamlıq tapdığı Şəhər Uşaq Xəstəxanasını (el arasında OMD adı ilə tanınmış) tikdirdiyini xatırlatmaq yetərli olar.

Mərhumun vəsaiti hesabına “Realnoye Uçilişe” məktəbinin ikinci və üçüncü mərtəbələri tikilmişdir. Ümumiyyətlə mərhumun etdiyi bütün yaxşılıq və faydalı işlərini sadalayıb qurtarmaqla bitməz. Mərhum xalq arasında xatirəsinin unudulmamasına layiqdir.” [1]

---

[1] Belə qənaətə gəlmək olar ki, yazıçı Manaf Süleymanov yalnız “eşitdiklərinə” uyaraq “Eşitdiklərim, oxuduqlarım, gördüklərim...” kitabını yazarkən Ağa Musa Nağıyevin- bu insanın xeyriyyəçilik əməllərinin

müqabilində- onun ruhu qarşısnda heç olmasa mənəvi borcunun ödənilməsini vacib saymayıb.

# HƏQİQƏT İŞIĞI

Bakıda neft sənayesinin yaranması və formalaşması prosesinə milli əxlaqın mədəni-ictimai həyatında yeri və rolu zamana görə dəyişmiş, neft kapitalının ona etdiyi təsirin nəticəsində yeni münasibətlər sistemi dirçəlmişdi.

Bütün yaramazlıqlara rəğmən bu sistemin daxilində qara qızıl səltənətinin qəhqəhələri və axıdılan göz yaşlarından ətrafa vətənpərvərlik, xeyirxahlıq, millilik gözü ilə baxanlar da olmuşdur.

Xalqın yaddaşı sovet təbliğatının "burjua" damğası vurduğu həmin şəxsiyyətləri unutmayıb, bu gün də onları ehtiramla yad edir.

Həmin xatirələrdə xariqələri ilə yaşayanlar sırasında Ağa Musa Nağıyevin xüsusi yeri olub.

Bütün bunları nəzərə alaraq yazdığım kitablarda Ağa Musa Nağıyevin Azərbaycan neft sənayesinin inkişafındakı xidmətlərini, sahibkarlıq, habelə xeyriyyəçilik və ictimai fəaliyyətini tədqiq edib, Vətən tariximizin daha bir qaranlıq səhifəsinə həqiqət işığı salmaq baxımından, eləcə də bu insanın əməlləri müqabilində onun ruhu qarşısında heç olmasa mənəvi borcun ödənilməsini vacib vəzifə sayıram.

Bakının 11 milyonçusunun malik olduqları var-dövlət dövrün hökmdarlarının xəzinələrində olduğundan da artıq idi.

Ağa Musa Nağıyevin və digər mesenatların əməyi və milyonları sayəsində Azərbaycanda bütöv bir ziyalılar nəsli meydana gəlir.

1908-ci ildə Ağa Musa Nağıyevin neft mədənləri 12.328.300 pud xam neft hasil etməklə rekord səviyyəyə qalxmışdı. Beş il ərzində, yəni 1913-cü ildə onun müəssisələri artıq ən iri Azərbaycan şirkətlərinin ilk

onluğuna daxil olmuş, sonradan müxtəlif illərdə 6 və 7-ci yerləri tutmuşdur.

XX əsrin əvvəllərində Bakının daha çox ehtiyac duyduğu sahələrin dirçəlişi, xalqın tələbatını ödəmək baxımından məşhur mesenatın həyata keçirdiyi tədbirlər, bu gün də fövqəladə zəhmətin və xalqa bağlılığın təzahürü kimi diqqəti cəlb edir.

A.M.Nağıyevin əldə etdiyi sərvətin ölçüsü hesaba gəlməzdir. Onun ictimai fəaliyyətini şərh etdikcə, xalq onu daha çox qiymətləndirəcək.

Tarixə əfsanəvi milyonçu kimi daxil olan bu insanın varidatının ümumi miqdarı 413 mln. qızıl pulla (ADAİ 475 fond) məbləğində dəyərləndirilib.

A.M.Nağıyev kapitalını o dövrdə cəhalət girdabında boğulan xalqın maariflənməsinə, onun dünyagörüşünün ümumi mədəni səviyyəsinin yüksəldilməsi istiqamətinə sərf etməklə bərabər, əsasən bina tikintisinə yönəltmişdir.

... Neftin hesabına qısa müddətdə varlanan A.M.Nağıyev sərmayəni daşınmaz əmlaka yatırır.

**O, bu sahənin az gəlirli olduğunu bilsə da, etibarlı qaynaq sayıb.**

Tikintiyə olan meylini atasının vəsiyyəti ilə bağlayıb Ağa Musa Nağıyev. Tikdirdiyi 98 bina tariximizin daş yaddaşına çevrilib. Bu yadigarların hər naxışında neft milyonçusunun saf əməlləri, milli təəssübkeşliyi hiss olunur.

Keçmişimizə hörmətlə yanaşmaq, Azərbaycanın tarixini, onun dəyərli səhifələrini gələcək nəslə ötürmək hər birimizin borcudur.

## NUMEROLOGİYA – AĞA MUSANIN HƏYATINDA

Kamro Numerologiya elmindən bəhs edən, insanların taleyi və xoşbəxtliyindən söz açan "İnsan taleyi" kitabını 1922-ci ildə yazmışdır. Kitab 1973-cü ildə ingilis dilinə tərcümə olunub.

Çox maraqlıdır ki, bu mövzuda yazan insanın xasiyyətində taleyin hökmü izlərini qoymayıb. Əgər insan təbiətən xoşxasiyyətlidirsə, elə də qalacaq.

Kamro ləğəbi ilə tanınmış qraf Lyuis Xamon natiq, hərbi müxbir, Parisdə və Londonda qəzet müxbiri olmaqla bir daha dahiliyini sübut etmişdir.

O, Hermantiya adlanan elmini numerologiya və astrologiya vasitəsilə bizlərə təqdim edib. Qraf Lyuis Xamon 1866-1936 illərdə yaşayıb, yaratmışdır. O, öz dövrünün Peyğəmbəri sayılıb.

Belə ki, o, Kraliça Viktoriyanın ölüm tarixini, Kral Edvard YII-nin öləcəyi ayı və ilini, Rusiyanın axırıncı Çarının qəddar taleyini, İtaliya Kralı Xambertin oğurlanacağını, eləcə də Şahın devrilməsi barədə Parisdə hazırlanan sui-qəsdin əvvəlcədən proqnozlarını vermişdir.

Belə dəqiqliklə də o, müxtəlif insanların barəsində baş verəcək hadisələri əvvəlcədən bildirmişdir.

Bu elmə müraciət edərək Ağa Musa Nağyevin həyatından bəzi məqamları aydınlaşdırdım.

O, 1849-cu ildə anadan olub. Cəmi 22 olan bu rəqəm **4-ə** bərabərdir. Bu rəqəm Uran planetinin simvolu olub, Günəş ilə bağlılığı hesab edilir. Belə insanlar sosial məcələlərlə və müxtəlif reformalarla maraqlanır, həyata baxışları da bir qədər qəribə olur.

**Onlar pula laqeyd olur, amma əlinə pul düşəndə ondan düzgün və yerində istifadə etmələri ətrafdakıların təəccübünə səbəb olur.**

A.M.Nağıyev 1898-ci ildə milyonçu olub. Cəmi 26 edən bu rəqəm, **8-ə** bərabərdir. Həyatı boyu məhz **8** rəqəminin onun individual xasiyyətinə təsiri olduğu sübut olunur. Bu rəqəm onun həyat arenasında əsas rol oynayaraq, bir silaha çevrilib.

Həyat tərzi nöqteyi-nəzərindən başqaları üçün bu rəqəm çox da uğurlu hesab olunmur. **Belə insanlar tez-tez böyük itkilərlə, dərdlərlə qarşılaşır, alçaldılırlar.**

Tərtib etdiyim cədvəldən bəlli olur:

Anadan olub -1849-da, 9+4+9, bu bərabərdir 22-yə, cəmi isə, **4** edir;

1898-də milyonçu titulunu qazanıb, 9+9+8, bu bərabərdir 26-ya, 2+6 = cəmi edir-**8**;

1919-da vəfat edib (10+10), bu bərabərdir 2-yə;

1931-də ikinci "dəfni", 1-ci dəfnindən12 il sonra;

1938-də üçüncü "dəfni", 2-ci dəfnindən 7 il sonra;

1998-də dördüncü "dəfni", 3-cü dəfnindən 60 il sonra;

Bunların cəmi edir:12il. 3+7+(60) 6= 16; 1və 6 =7 rəqəmi- oyanışdır;

I ilə IV "dəfninin" arasındakı dövr 80 il edir, bu da bərabərdir 8-ə. 8 isə həmişəyaşar rəqəmdir;

2017-də beşinci "dəfni" (büstün qoyulması), I ilə V arası **98** (binalarının sayına təsadüf edir) il təşkil edir, bu =17: 1+7 bunun da cəmi **8** edir.

Vəfatının **98** ildönümü ərəfəsində büstünün qoyulması da –tikdirdiyi binalarının sayına – **98**-ə uyğun gəlir.

## İLK MONOQRAFİYA

Milli tariximizi sahibkarlıq və xeyriyyəçilik fəaliyyəti fonunda öyrənmək elmi ictimaiyyətin son zamanlar müraciət etdiyi maraqlı tədqiqat sahələrindən biridir.

AMEA-nın Tarix İnstitutunun Elmi Şurasının qərarı ilə çap olunan "Ağa Musa Nağıyevin xeyriyyəçilik və ictimai fəaliyyəti" monoqrafiyam və "Zamanın sorağında" adlı kitabım bu baxımdan maraqlıdır.

Monoqrafiyada göstərildiyi kimi Bakıda neft sənayesinin yaranması və formalaşması prosesinə milli əxlaqın mədəni-ictimai həyatda yeri və rolu zamana görə dəyişmiş, neft kapitalının ona təsiri nəticəsində yeni münasibətlər sistemi dirçəlmişdir.

Xalqın yaddaşı sovet təbliğatının "burjua" damğası vurduğu həmin şəxsiyyətləri unutmayıb, ehtiramla yad edir. Göstərilən faktlara əsasən həyata keçirdikləri ilə yaşayanlar sırasında Ağa Musa Nağıyevin xüsusi yeri vardır.

Bütün bunları nəzərə alaraq, Ağa Musa Nağıyevin Azərbaycanın neft sənayesinin inkişafındakı xidmətlərinin, sahibkarlıq, habelə xeyriyyəçilik və ictimai fəaliyyətinin tədqiq edilməsi, Vətən tariximizin daha bir qaranlıq səhifəsinə həqiqət işığı salmaq baxımından, eləcə də bu insanın əməlləri müqabilində onun ruhu qarşısında mənəvi borcun ödənilməsi baxımının vacibliyini qeyd etmişəm.

Onun həyatı xalqın yaşayışı və mədəniyyəti ilə bağlı olub.

XIX əsrin sonlarında, XX əsrin əvvəllərində neftə artan tələbat Azərbaycan milli burjuaziyasının təşəkkülünə səbəb olub.

XX əsrin əvvəllərində Bakının daha çox ehtiyac duyduğu sahələrin dirçəlişi, xalqın tələbatını ödəmək

baxımından məşhur mesenatın həyata keçirdiyi tədbirlər bu gün fövqəladə zəhmətin və xalqa bağlılığın təzahürü kimi diqqəti cəlb edir.

A.M.Nağıyevin ictimai fəaliyyətini öyrəndikcə,qarşımızda tarixin yeni səhifələri canlanır. O, milyonlarını gənclərin dünya görüşünün, ümumi mədəni səviyyəsinin yüksəldilməsi istiqamətinə sərf etmişdir.

Keçmişə hörmətlə yanaşmaq, Azərbaycanın tarixini, onun dəyərli səhifələrini övladlarımıza, gələcək nəslə ötürmək hər birimizin borcudur.

## ƏNƏNƏ DAVAM EDİR

Neft milyonçusu, xeyriyyəçi Ağa Musa Nağıyevin anadan olmasının 165, vəfatının 95 ilinə həsr olunmuş konfrans, 2014-cü il martın 4-də AMEA-nın Milli Tarix Muzeyində A.M.Nağıyev adına "Milli Dəyərlərin Qorunması" İctimai Birlriyinin və AMEA-nın Milli Tarix Muzeyinin birgə təşkilatçılığı ilə keçirilib.

Konfransda Dilarə xanımın A.M.Nağıyevin fəaliyyəti və həyatından bəhs edən məruzəsindən diqqət cəlb edən bəzi məqamlar:

"Arxiv sənədlərindən öyrəndim ki, o zaman Bakıda bir neçə xeyriyyə təşkilatı və maarifpərvər qüvvələr birləşərək "Bakı gecələri" adı ilə müxtəlif xeyriyyə tədbirləri keçiriblər. Bu məqsədlə Ağa Musa Nağıyevin fəaliyyətinə dair digər milli dəyərlərin təqdimetmə mərasimlərini keçirərkən, bu ənənəni davam etməyi qərara aldım. Keçirdiyim tədbirləri "Bakı gecələri"adı ilə adlandıracağımı qət etdim."

Ağa Musa Nağıyev dövrünün ən dövlətli adamı olduğuna görə, "Qafqazın ən varlı şəxsiyyəti" titulunu qazanıb.

Lakin milyonlar sahibi olan Ağa Musa Nağıyevi acınacaqlı tale hər zaman təqib edib. Hər iki övladını - qızı Ümmül Banunu və oğlu İsmayılı erkən yaşlarında itirib.

Varissiz qalan milyonçu qardaşı Ağa Əlinin yeni doğulan, sayca beşinci oğlunu övladlığa götürüb, adını "kədərdən sonra gələn sevinc" mənasını daşıyan Fərəc qoyub.

Fərəcin milyonçu vərəsəsi olması sonradan özünə və ailəmizə çox baha başa gəlir.

Fərəc Nağıyev istismarçı kapitalist övladı damğası adı altında uzun illər sürgün həyatı yaşamalı olur...

1919-cu il martın 4-də dünyasını dəyişən A.M.Nağıyevin heç bir vəsiyyətnaməsi olmayıb. Qarşısına qoyduğu məqsədi - 100 bina tikəcəyi, onda uzun ömürlü olmağa əminlik yaradıb.

Zəhmətkeş kəndli balasının, ağlasığmaz komersant bacarığı olan milyonçunun tikdirdiyi 98 bina bu gün də Bakının simasına xüsusi yaraşıq verir.

Milli tariximizi sahibkarlıq və xeyriyyəçilik fəaliyyəti fonunda öyrənmək elmi ictimaiyyətin son zamanlar müraciət etdiyi maraqlı tədqiqat sahələrindən biridir.

Konfransın sonunda torpağına, millətinə bağlı olan milyonçu Ağa Musa Nağıyevin həyat və fəaliyyətinə diqqət yetirib, onun xeyriyyəçilik əməllərinə və ictimai fəaliyyətinə dəyər verdiklərinə görə:- AMEA-nın Milli Tarix Muzeyinin Direktoru Nailə Vəlixanlı, Şərqşünas alim Şahin Fazil, "Dədə Qorqud" fondunun Prezidenti Eldar İsmayılov; "Səhiyyə və sağlam həyat" İB Sədri Lətafət Əlizadə, RQC-nin sədr müavini Gülbahar Məmmədova və həkim- şairə Azadə Taleh - A.M.Nağıyev adına "MDQ" İB-in təsis etdiyi "Bakı Gecələri" və "Vətənpərvər" diplomları ilə təltif edildilər.

MDQ İB-in sədri Dilarə Ağamusa Nağıyeva Dədə Qorqud fondunun "Mehriban Ana" medalı ilə təltif edildi.

## VƏFATINDAN 96 İL KEÇDİ

Ağa Musa Nağıyevin vəfatının 96-cı ildönümü adını daşıyan "Milli Dəyərlərin Qorunması" İctimai Birliyinin təşkilatçılığı ilə Təzə Pirdə qeyd olundu.

Tədbirdə Binəqədi və Biləcəri İcra Hakimiyyətinin nümayəndələri, Bələdiyyə sədri, Təşkilat sədrləri, Respublika Qadınlar Cəmiyyətinin nümayəndələri və bir sıra ziyalılar iştirak edirdi.

Çıxış edənlər Bakı neftinin istehsalının Azərbaycan və eləcə də Rusiyada iqtisadi rolundan, şəhərin ictimai həyatında olan nəzərə çarpacaq dəyişikliklərdən danışaraq, məhz o illərdə A.M.Nağıyevin Azərbaycanda mədəniyyət, maarif və sağlamlıq ocaqlarını inşa etdirməklə milli dirçəlişimizdə olan rolundan söz açdılar.

Ziyalılığı, alicənablığı və təvazökarlığı özündə cəmləşdirə bilən neft milyonçusu Ağa Musa Nağıyevin keçdiyi həyat yolunun məqamlarını özündə əks etmək bacarığı qeyd edilərək,bir daha yada salındı:

- "Ağırlığı bir pud (16 kq) olan hambal palanının üstünə bir o qədər də çəkidə yüklə ona-buna xidmət edən Musa, sanki qarşısında açılacaq səadət qapılarını əvvəlcədən görürmüş. Həyat onunla zarafat etmədi, üzünə bəxt qapılarını açdı.

Adı XX əsrin əvvəllərində Azərbaycanın məşhur 11 milyonçusu sırasına düşən və bu siyahıda öncül yerlərdən birincisi olan Ağa Musa Nağıyev, xalqın "Tikmədim özüm qalam, tikdim ki, izim qala" məşhur deyimini özünə sanki həyat devizi seçdi.

İnsanların rifahını yaxşılaşdırmaq məqsədilə tikdirdiyi ilk mehmanxana və xəstəxanalar məhz A.M.Nağıyevə mənsub olub.

Tariximizin kökü ilə tanış olduqca, bu müqəddəs, xeyirxah insanın əməlləri, qədim Bakının tarixi gözlərimiz

önündə canlanır. Bir anlığa o dar küçələrdə tikdirdiyi əzəmətli binalar bizi keçmişə qaytarır. Və düşünməyə məcbur edir...”

Konfransda Dilarə Ağamusanın Ağa Musa Nağıyevin vəfatının 96 illiyinə həsr etdiyi “Nurlu əməllərin işığında” kitabının təqdimatı da diqqətə çatdırıldı.

Çıxış edənlər bildirdilər ki, Dilarə Ağamusa bir neçə onilliklərdir ki, A.M.Nağıyevin halal haqqını özunə qaytarmağa çalışır. Nəsil şəcərəsinin yorulmaz yolçusu olan bu xanım bu gün də babasının sözlərinin və əməllərinin yaddan çıxan anlarını arxiv sənədlərinin işığında yorulmadan axtarır, araşdırır.

Ağa Musa Nağıyevin tikdirdiyi – İsmailiyyə binasında onu təntənə ilə yad edib, vəsiyyətinə əməl edərək binalarından biri olan İqtisad Universitetinin akt zalında Ağa Musanın və oğlu İsmayılın portretlərinin asılmasına nail olmuşdur. Babası haqqında xatirələr yazmaqla onu yaddaşlarda yaşadır.

Konfrans iştirakçıları belə bir müraciət qəbul etdilər ki, -“Tariximizi yaşatmaq baxımından bu kimi şəxsiyyətlərin fəaliyyətini daha dərindən öyrənib yaddaşlara köçürməyi günümüzün reallığı kimi qəbul etməliyik.”

## ANIM GÜNÜ QEYD OLUNDU

XIX əsrin 60-cı illərindən başlayaraq Bakı neftinin Azərbaycanda, eləcə də Rusiyada istehsalın iqtisadi rolu artdıqca, şəhərin iqtisadi həyatında da böyük dəyişikliklər baş verirdi.

Məhz bu illərdə Ağa Musa Nağıyevin mədəniyyətin, maariflənmənin inkişafına yönəltdiyi işləri diqqətə layiqdir.

Neft milyonçusu, xeyriyyəçi Ağa Musa Nağıyevin nəslindən olan Dilarə Ağamusa 1998-ci ildən babası Ağa Musa, atası Fərəc Nağıyevlərin fəaliyyətinin tədqiqatı ilə məşğul olur.

O, milyonçunun adını daşıdığı "Milli Dəyərlərin Qorunması" İB sədri olaraq Ağa Musa Nağıyevin sahibkarlıq fəaliyyətini öyrənməklə işini davam edir. Dissertasiyasının mövzusunu da "A.M.Nağıyevin sahibkarlıq, xeyriyyəçilik və ictimai fəaliyyəti"nə həsr etməklə nəvə olaraq mənəvi borcunu verməyə çalışır.

İctimai Birliyin təşkilatçılığı ilə Ağa Musa Nağıyevin vəfatının 96 ilinə həsr olunan tədbir Binəqədi Rayon İcra və Biləcəri Qəsəbə Hakimiyyətlərinin iştirakı ilə milyonçu-xeyriyyəçinin məzarı önündə keçirildi.

Tədbirdə RQC-i, müxtəlif İctimai Birliklər, ictimaiyyət üzvləri, şair və yazıçılar, kənd sakinləri də iştirak edirdi.

Dilarə Ağamusa - babası Ağa Musa Nağıyev haqqında verdiyi qısa, lakin lakonik məlumat hamının marağına səbəb oldu.

O, bir daha qeyd etdi ki, əlinin qabarının, ayaqlarının döyənəklərinin ağrısından heç vaxt şikayətlənməyən Ağa Musa, ağlına da gətirməzdi ki, əkin məqsədi ilə aldığı kiçik torpaq sahəsində qazdırdığı quyudan su əvəzinə çıxan neft, onu Bakının ən iri maqnatına çevirəcək.

Nefti vedrə ilə satmaqla başlayan Ağa Musa, sonradan 30 min işçiyə çörək verəcək, saysız-hesabsız

var- dövləti idarə etməklə savadın əsas şərt olmadığını, ən böyük universitetin həyatın özü olduğunu başa düşəcək.

Binəqədi Rayon İcra Hakimiyyətinin müavini Vüsar İsmayılov çıxışında –İcra Hakimiyyətinin başçısı Xaləddin İsgəndərovun təşkilatçılığı ilə Ağa Musa Nağıyevin uyuduğu məzarın tezliklə ziyarətgaha çevriləcəyini qeyd etdi.

İştirak edənlərin çıxışları Bakı milyonçuları H.Z.Tağıyev, A.M.Nağıyev, M.Muxtarov, Ş.Əsədullayev və İ.Hacınski kimi xeyriyyəçilərin hər zaman xalqın qəlbində yaşayacaqları, gördükləri əvəzsiz xidmətlərinin unudulmayacağı ətrafında oldu.

*"Respublika" və "Həkəri" qəzetləri,*
*4.03.2015*

## ÇOX İNAMLI İDİ Kİ, İZİ QALACAQ

Ötən əsrin sonlarından, Azərbaycan Dövləti müstəqilliyini bərpa etdiyi vaxtdan tarix elmi qarşısında böyük perspektivlər açılmış, uzun illər üzərinə kölgə salınan, qadağalar qoyulan mövzular, qiymətli sənədlər aşkar edilmişdir.

XX əsrin əvvəllərindən milli oyanışın dirçəlişi dövründə neftxudalar-mesenatlar, xeyriyyəçilər, xalqın taleyini düşünənlər millətin yaddaşında elə dərin iz salıb, xidmətləri ilə elə şöhrət qazanmışlar ki, onları tarixin səhifəsindən silmək qeyri-mümkün olmuşdur.

Belə görkəmli şəxsiyyətlərdən olub Azərbaycan miyonçusu Ağa Musa Nağıyev. 2015-ci il martın 4-də onun vəfatından 96 il keçir.

A.M.Nağıyevin ruhunu şad etmək, barəsində söz demək üçün daha çox haqqı çatanlardan biri də milyonçunun nəvəsi, A.M.Nağıyev adına "Milli Dəyərlərin Qorunması" İctimai Birliyinin sədri Dilarə xanımın söylədiklərini diqqətinizə çatdırmağı vacib sayırıq:

– "Xeyirxahlığı, ziyalı təfəkkürü ilə zəmanəsinin mesenatları arasında özünəməxsus yer tutan Ağa Musa haqqında danışmaq mənim üçün böyük xoşbəxtlikdir. Fəxr edirəm, qürur duyuram ki, bu nəslin nümayəndəsiyəm. Ziyalı, alicənab, təvazökar, xeyirxah insan kimi tanınan A.M.Nağıyevin keçdiyi həyat yoluna nəzər salsanız görərsiniz ki, o, milyonları asanlıqla əldə etməyib, milyonlara çatanadək çox ağır həyat yolu keçmişdir.

Bakıda yadigar qoyduğu binaları ən gözəl sənət əsərlərindəndir. Bunlardan ən çox seçilənlər siyahısına daxil olan: – "Ana və Uşaq Pediatriya İnstitutu", 28 May küçəsindəki Əkiz binalar, Nizami küçəsindəki bişmiş kərpiclə tikilmiş bina; keçmişdə "Qış evi"- kimi məşhur olan

“Zabitlər evi”; “Socar”ın “Realnı Məktəb” – hazırkı Dövlət İqtisad Universitetinin binalarııdır.

“Astoriya mehmanxanası” – hazırda “Məhkəmə ekspertizası”nın fəaliyyət göstərdiyi binanın eyvanlarında mifoloji heyvan qrifi və **“MH”** hərfləri olan “venzel” bu gün də qorunub saxlanılır. Bakının gözəllik tacı sayılan “İsmailiyyə” sarayı isə gözəlliyi və möhtəşəmliyi ilə fərqlənir.

Xalq arasında belə bir şəxsiyyətin xəsisliyi barədə şayiələr gəzirdi. Şükürlər olsun ki, faktlar əsasında A.M.Nağıyevin kapitalını xalqın maariflənməsinə, dünyagörüşünün, mədəni səviyyəsinin yüksəlməsinə sərf etdiyi aşkar edildi.

Sənədlərə əsaslanaraq, Bakıda ticarət məktəbinin inşası üçün pul köçürənlər siyahısında toplanmış 170 min rubl, xeyriyyəçilərdən - H.Z.Tağıyev, A.M.Nağıyev və Ş.Əsədullayevin adı ilə bağlı olub.”

Torpağına, millətinə bağlı olan Ağa Musa Nağıyevin haqqında faktlar və xatirələr əsasında Dilarə xanım yazdığı kitabları və monoqrafiyasını oxucu kütləsinə təqdim etməklə, onu bir daha yaddaşlarda yaşadır.

Yenicə işıq üzü görmüş “Nurlu əməllərin işığında” – adlı kitabını da A.M. Nağıyevin vəfatının 96 illiyinə həsr etmişdir.

İtirdiklərinin çoxunu ictimai fəaliyyətində, yazdıqlarında, ailə çərçivəsinin istisində tapdığını etiraf edən Dilarə Ağamusa bu kitabları yazmaqla nəslinin tələb etdiyi qətiyyət hissini gündəmə gətirib. Və doğru buyurur ki, hər birimiz keçmişimizə hörmətlə yanaşmalı, dəyərli şəxsiyyətlər haqqında çox yazmalı, onları bugünkü və gələcək nəsillərə daha yaxından tanıtmalıyıq.

Ən azından bu hər birimizin mənəvi haqqı, vətəndaşlıq borcudur!

*“Təhsil” jurnalı, mart 2015-ci il.*

## VARİSLİK HƏM DƏ SADİQLİKDİR

Varislik ənənələri irsi keçmə deyil, onu kökün budaqları əməlləri ilə nəsildən-nəslə ötürür.

Dilarə Nağıyeva

öz məsləkində varislik ənənəsi yaşadan və bu ənənəyə sadiqlik nümayiş etdirən cəfakeş xanımdır.

Xeyriyyəçi- milyonçu Ağa Musa Nağıyevin anadan olmasının 165 illiyinə həsr edilmiş konfransın Milli Tarix muzeyində keçirilməsi də təqdirə layiqdir.

Konfransda Dilarə xanımın Ağa Musa Nağıyev ictimai irsinə olan münasibətinin xüsusi olaraq vurğulanması heç də təsadüfi deyil.

A.M.Nağıyevin anım gününə həsr edilmiş video-çarx vasitəsilə tədbir iştirakçıları milyonçunun həyat və fəaliyyətinə ekskursiya etməklə bərabər, nəvənin varislik və sadiqlik ənənələri ilə də tanış oldu.

Çıxış edənlərin hər biri bu ənənənin yaddaşlarda dərin iz buraxacağından söhbət açdı.

Konfransın gedişatı zamanı Ağa Musa Nağıyevin enişli-yoxuşlu həyatından söhbət açıb, onun xalqın tarixi və mədəniyyəti ilə bağlı olduğunu konkret ifadələrlə dilə gətirərək, Azərbaycan ziyalılarının yetişməsində və təşəkkül tapmasında mesenatlığın önəmli rol oynadığı bir daha qeyd edildi.

"Dədə Qorqud" Milli Fondunun sədri Eldar İsmayılov varislik ənənələri barədə maraqlı fikir söyləyərək, Dilarə xanımın babasının fəaliyyəti ətrafında etdiklərini qiymətləndirərək, onu "Mehriban Ana" medalı ilə təltif etdi. Dilarə xanımın söylədiyi kimi, bu anda sanki vaxtı ilə babası Ağa Musa Nağıyevin Çar II Nikolayın onu "Andreyev lentalı Qızıl Medalı" ilə təltif edərkən keçirdiyi sevinci yaşadı.

Səmimi notlarla start götürən konfrans milyonçunun şərəfinə verilən ehsan süfrəsi ilə sona çatdı. Allah rəhmət eləsin.

*"Dövlət və Qanun" qəzeti,*
*Baş redaktor-Yasəmən Möhübbətqızı*

## VƏFATININ 97 İLİ ANILDI

Tarix zaman-zaman görkəmli şəxsiyyətlər yetişdirib. Ümumilikdə on bir Bakı milyonçusunun: - Hacı Zeynalabdin Tağıyev, Ağa Musa Nağıyev, Ağa Şəmsi Əsədullayev, Murtuza Muxtarov, Əjdərbəy Aşurbəyov, İsabəy Hacınski, Hacı Əhədulla Eldarov, Kərbəlayi Abdulla Zərbəliyev, Dadaşovlar, Teymurbəy Qulubəyovun üzərinə tarix sanki vacib bir vəzifə qoydu – xalqı maarifləndirmək.

Bu insanların hər birini eyni tale müşaiyət edib. Heç bir təhsil görməyən, sadə ailənin övladları, fəhləlikdən həyata atılanlar olub. Belələrindən birinin söhbəti gedəcək.

-Ağa Musa Nağıyev 1849-cu ildə Bakının Biləcəri kəndində yoxsul ailədə anadan olub. Atası saman satmaqla məşğul olub, dörd övlad böyüdüb.

Ailənin böyük oğlu Ağa Musa 11 yaşından hamballıq edərək əlinin qabarı ilə qazandığı pulun hesabına 49 yaşında milyonçuya çevrilir.

Bütövlükdə 100-ə yaxın bina tikdirən, dəyəri 33 milyon olan Şollar suyunun çəkilməsində xərcin 75 faizini -24mln. ödəyən, dörd xəstəxana və iki mehmanxana tikintisinə vəsait ayıran bu insanın yalnız bir düşüncəsi olub – tarixdə iz qoymaq. Hazırcavablığı, müdrikliyi ilə bağlı el arasında dolaşan rəvayətlərdə Ağa Musanın necə ağıl və idrak sahibi olduğu aydın görünür.

Hətta onu oğurlayanlara tələb olunan pulu verməyəcəyini bildirərək deyib, əgər öldürsəniz, heç nə almayacaqsız.

Onun sahibkarlıq fəaliyyəti bütövlükdə bir məktəb idi. Neftdən əldə etdiyi gəliri o, millətin tərəqqisinə sərf edib.

A.M.Nağıyev memarlıq üslubu ilə şəhərə xüsusi gözəllik verən binalarını - rabitəçilərə, alimlərə, zabit heyətinə, insan sağlamlığının keşiyinə və təhsilə ünvanladığını bir mesaj kimi qəbul etmək olar.

Gül passajı, Ekspertiziya məhkəməsi, "Sokar" və Lukoyl" neft şirkətləri, Elmlər Akademiyasının Rəyasət Heyətinin binası, Zabitlər evi, Diasporla iş üzrə Dövlət Komitəsi, "ÜNS" teatrı, "Azərittifaq"ın binası, Ağır Cinayətlər üzrə Məhkəmə, İqtisad Universiteti, Səhiyyə Nazirliyi, E.Əfəndiyev adına xəstəxana, Uşaq və Pediatriya İnstitutu, "Kirxa", Sinaqoqlar üçün nəzərdə tutulmuş, sonradan qəddar düşmənlərimiz tərəfindən naməlum yol ilə zəbt edilmiş Kilsə, R.Rza küçəsində -keçmiş İncəsənət İnstitutu yerləşən binalar, həmin küçədə "Xaqani Ticarət Evi"-nin yerində keçmişdə fəaliyyət göstərən Tibb Universiteti və "Tənqid -Təbliğ" teatrının binası, M.Ə.Rəsulzadə küç. - keçmiş Qastronom, İctimai Yığıncaqların keçirilməsi üçün nəzərdə tutulmuş – Xaqani 58, Mərdəkanda "Abşeron Mədə-Bağırsaq Sanatoriyası" və beləcə 98 bina onun tikililərindəndir.

1892-1893-cü illərdə Ağa Musa Nağıyev Bakıda ən "Varlı İnsan" titulunu qazanıb.

Ağa Musa Nağıyevin vəfatının 97-ci ilinə həsr olunmuş "Bakı Cecələri" adı ilə keçirilən tədbir Binəqədi İcra Hakimiyyətinin və A.M.Nağıyev adına "Milli Dəyərlərin Qorunmasi" (MDQ) təşkilatının təşəbbüsü ilə "Heydər Məscidində" baş tutdu.

Tədbirdə iştirak edən Binəqədi İcra Başçısının müavini Vüsar İsmayılov, iş adamı-xeyriyyəçi - Zülfüqar Muxtarzadə, tanınmış ziyalılar, Qeyri Hökumət Təşkilatlarının sədrləri, H.Z.Tağıyev nəslinin davamçısı – fəaliyyətinin araşdırıcısı Səidə Abdullayeva – Miriyeva,

RQC-nin sədri Bahar Qasımova və bir çoxları çıxışlarında A.M.Nağıyevin Azərbaycanda olduğu kimi, Rusiyada və xaricdə də iri neft sahibkarı olaraq başqalarından fərqləndiyini qeyd etdilər.

A.M.Nağıyev neftçıxarma sahələrini artırmaq məqsədilə neftlə zəngin torpaqlar alıb, neft məhsullarının bütün istiqamətlərə göndərilməsinə nail olub.

Xaricə göndərdiyi neftin miqdarı 5 milyon ton təşkil edib. Ən əsası şəhərdən kənar sayılan "Qara şəhərə" su çəkdirib, insanların qeydinə qalıb.

MDQ İB-nin sədri Dilarə Ağamusa A.M.Nağıyevin sahibkarlıq fəaliyyətindən xüsusi danışaraq tacirlərin müşavirəsində ilk olaraq - əl üsulunun domna ilə əvəz edilməsi - ideyasını irəli sürənin də A.M.Nağıyev olduğunu qeyd etdi.

O, eləcə də Ağa Musa Nağıyevin 1904-1913-cü illərdə Azərbaycanda ən iri neft sahibkarları sırasına qatıldığından, Ramanada hər bir buruqdan 31000 pud neft əldə etdiyindən söz açaraq, 1891-ci ildə Neft Sənayeçiləri Qurultay Şurasının Bakı "Ağ Neft Zavodları Cəmiyyəti"nin və Sərəncam Komitəsinin üzvü olduğunu vurğuladı.

Arxiv sənədlərinə əsaslanaraq bildirdi ki, 1898-ci ildə A.M.Nağıyevin daşınan və daşınmaz əmlakının dəyəri 334.560 rubl təşkil edib.

## A.M.NAĞIYEVİN “BEŞİNCİ MƏZARI”

Bakı şəhərinin inkişafında böyük işlər görmüş on bir Bakı milyonçularından olan xeyriyyəçi-mesenat Ağa Musa Nağıyev mürəkkəb tale yaşamışdır. Ölümündən sonra da bu tale onun ruhunu təqib etmiş, əbədiyyət evində kədərli nişanəsini qoymuşdur.

A.M.Nağıyevin məzarının yeri vəfatından sonra məcburi olaraq dörd dəfə dəyişdirilib:

1. Ağa Musa Nağıyev1919-cu ildə dünyasını dəyişərkən Kərbəlada oğlu İsmayılın yanında dəfn olunacağını vəsiyyət etsə də, qardaşı Ağa Əli onun cəsədini imkansızlıq ucbatından Bakının Çəmbərəkənd qəbristanlığında dəfn edir. Nə vaxt isə Kərbəlaya aparılacağı nəzərdə tutulduğundan “əmanət” qoyulan baş daşı çox yol gözləməli olur.

2. 1931-ci ildə bu yerdə Kirov adına park salınacağından, bu dəfə də imkansızlıq üzündən Ağa Əli onun nəşini ata yurdu Biləcəridə “Proparka” - Qayaaltı qəbristanlığına köçürməyə məcbur olur. Onunla köç edən “əmanət” baş daşı yenə yol gözləməli olur.

3. 1938-ci ildə “Proparka” qəbristanlığının yerində Vaqon Deposu salınacağından, Ağa Musanın nəşinin başqa yerə köçürülməsi məsləhət görülür.

1932-ci ildə qardaşı Ağa Əli dünyasını dəyişir. Sonradan Sovet quruluşu – totalitar rejim, bir tərəfdən isə Nağıyevlərin “Kapitalist ünsürləri” kimi təqibi və yenə də imkansızlıq, onun nəşini “əmanət”dən qurtarmağa imkan vermir.

Proparka qəbristanlığının sökülecəyi xəbəri oğlu Fərəcə çatanda Bakı onun üçün əlçatmaz olduğundan, həyat yoldaşı Zəhra xanım köməyinə çatır.

Zəhra xanım qaynı Zeynalabdin ilə gecə ikən, kəfən qıtlığından milyonçunun nəşini balış ağına yığıb,

Biləcəridə Dağüstü qəbristanlığında torpağa tapşıraraq vəfalı əmanət baş daşını da üzərinə qoyur.

4.1998-ci ildə Axund Hacı Əvəzin xeyriyyəçiliyi ilə Biləcəri qəbristanlığının girəcəyində Binəqədi İcra Hakimiyyətinin sabiq başçısı İnqilab Nadirovun göstərişinə əsasən ayrılmış yerdə üzərinə "İsmailiyyə" binasının maketi qoyulmaqla, Ağa Musa Nağıyevin nəşi nəhayət ki, 80 il ölümündən sonra rahatlıq tapır.

- Bir neçə il öncə Dilarə xanımın qəbrüstü "İsmailiyyə" maketinin dağılıb-söküldüyündən etdiyi şikayətinə əsasən, 2012-ci ildə Binəqədi İcra Hakimiyyətinin başçısı Xaləddin İsgəndərovun göstərişi ilə burada abadlıq işləri aparmaq nəzərdə tutulur.

5. 2016-cı ildə Binəqədi İcra Hakimiyyətinin qərarı ilə yenidən məzarüstü bərpa işləri sona çatdırılır. Bununla da milyonçu-xeyriyyəçi Ağa Musa Nağıyevin xalq qarşısında layiqli işləri bir daha qiymətləndirilir.

Vəfatının 98-ci ildönümü ərəfəsində milyonçu-xeyriyyəçi A.M.Nağıyevin qəbrinin yenidən bərpası tikdirdiyi 98 binanın sayı ilə üst-üstə düşməsi təsadüfi deyil, bu zərurətdən irəli gəlir.

O, dövrünün qabaqcıl şəxsiyyətlərindən birincisi olmuş, sərvətini millətin maariflənməsi yolunda sərf etmişdir. Onun adı bu gün də Bakının memarlığında, ictimai şüurlarda yaşamaqdadır.

Belə şəxsiyyətlərin irsinin öyrənilməsi onların xalqa olduğu kimi tanıdılması, milli mənəvi dəyərlərimizin dirçəldilməsi baxımından vacibdir.

Təkcə Bakı şəhərinin memarlığına verdiyi töhfələr milyonçunun fəaliyyətinin çoxşaxəli olduğunu sübut etsə də, o, millətinə canı yanan bir sahibkar kimi çoxsaylı xeyriyyə təşkilatlarının üzvü və himayədarı olmuşdur.

Paytaxtımızı bəzəyən binaların tikilməsində Şərq və Avropa memarlıq məktəblərinin nümunələrindən istifadə

etməklə bərabər, arxitektura və dizayn məsələsində Ağa Musanın özünün təklifləri, mülahizələri olmuşdur.

Yüksək zövqə malik olan Ağa Musanın təkliflərində simmetriyanın son dərəcə dəqiqliklə gözlənilməsi, binanın əzəmətli və fasadının cəlbedici olması üçün verdiyi məsləhətlər bu gün də memarları heyrətləndirməkdə davam edir. Xalq onun fitri istedadına böyük rəğbətlə yanaşır.

Çətin və şərəfli bir ömür yaşayan, taleyin hökmü ilə dəfələrlə sınaqlara məruz qalan bu insan üçün, onun əbədiliyini xatirə kimi yaşadan binaları xalqa bu gün də xidmət göstərir.

## QƏBRİN TARİXÇƏSİ
*(yaddaş)*

Vəsiyyətinə əsasən Kərbəlada oğlu İsmayılın yanında dəfn olunacaq ümüdi ilə Ağa Musa Nağıyevin məzarüstü "Əmanət" qoyulan baş daşı sonralar çox yol gözləməli olur.

Belə ki, müflisləşmiş nəslin nümayəndələrinin əlacsızlığı; Nəşinin 3-cü dəfə köçürülmə mərasiminin Zəhra xanımın vaxtı ilə Ağa Musanın hədiyyə etdiyi boyunbağısının "Torqsin" də (zərgərlikdə) satıldığı pulun hesabına başa gəlməsi; Sovet quruluşu və Sovet hakimiyyətinin mesenatın məzarı ətrafında yaratdığı problemlər; Daha sonra Böyük Vətən müharibəsi; Totalitar rejim və Nağıyevlərin "Kapitalist ünsürləri" kimi təqibi və bir çox davam edən səbəblərdən, yalnız 1998-ci ildə Ağa Musa Nağıyevin nəşi rahatlıq tapır.

1919-cu ildən 2016-cı ilədək baş verən prosesdən kiçik arayış:

- A.M.Nağıyev 1919-cu ildə Bakının Çəmbərəkənd qəbristanlığında dəfn edilib;
- 1931-ci ildə - vəfatından **12** il sonra ikinci dəfə qəbir yeri dəyişdirilib. **12** rəqəmi onun hamballıq etdiyi illərin cəminə təsadüf edir;
- 1938-ci ild - vəfatından **19** il sonra üçüncü dəfə qəbir yeri dəyişdirilib. Bu rəqəm onun **19** yaşında kiçik torpaq sahibi olduğuna işarədir;
- 1998-ci ildə - vəfatından **80** il sonra dördüncü dəfə qəbir yeri dəyişdirilib, **8** (80) rəqəmi onun liderliyini təsdiq edir. Bu rəqəm onun həyatında bir silaha çevrilib;
- 2016-cı ildə, vəfatından **98** il sonra məzarüstü büstünün qoyulma mərasimi həyata keçirilib. Bu rəqəm tikdirdiyi binaların sayına təsadüf edir.

## QƏBRÜSTÜ BÜSTÜN AÇILIŞI

***Axirət istərdin Kərbəlada sən,***
***dörd dəfə şəhid oldun yurdunda,***
***Sahib kişi, neft kralı Ağa Musa!***

25 ildən çoxdur ki, fəaliyyətimin əsasını təşkil edən Ağa Musanın həyatı və acı tale yaşayan atamın- Fərəc Nağıyevin incəsənət sahəsindəki xidmətlərini araşdırmaqla məşğulam. Əldə etdiyim faktlar və xatirələr əsasında yazdığım kitablarda, eləcə də elmi mövzuda bu aydın görünür.

Çox inamlı idim ki, təlatümlər olsa da, küləklər əssə də, qədirbilən xalqı gec də olsa, onun layiqli qiymətini verəcək.

2016-cı il dekabrın 14-də vəfatının 98-ci ili ərəfəsində A.M.Nağıyevin məzarüstü abidəsinin açılışı tarixdə iz qoyacaq bir gün oldu.

Arzusu 100 bina tikmək olsa da, 98-ni tikdi. Bu heç də təsadüf deyil.

Tarixin yaddaş səhifəsinə əbədi həkk olmuş xeyriyyəçi-mesenat Ağa Musa Nağıyevi ömrü boyu müşayiət edən faciəli taleyi ölümündən sonra da ruhunu təqib edib.

2011-ci il noyabr ayında Ağa Musanın Kərbəla həsrətini məcazi mənada yerinə yetirmək məqsədilə qəbri üstündən götürülən torpağını Kərbəlaya göndərərkən, bu ətrafda gördüyüm işlərin sonuncu olacağını düşündüm.

Lakin 2016-cı ildə Binəqədi İcra Hakimiyyətinin qərarı ilə məzarüstü yenidən bərpa işləri aparılaraq, milyonçu-xeyriyyəçi A.M.Nağıyevin xalq qarşısında xidmətləri rəsmi olaraq bir daha layiqincə qiymətləndirildi. Bu dəfə

milyonçu-xeyriyyəçinin məzarını “İsmailiyyə” maketinin əvəzi olaraq, büstü bəzədi.

**Tarixi əhəmiyyət daşıyan bu prosesi fəaliyyətimdə ən böyük uğur sayıram.**

Büstün açılışı zamanı olan çıxışlardan bəzi məqamları sizlərə çatdırmaqla, bu yolda fəaliyyətimə və əməyimə verilən qiyməti sizlərlə bölüşməyi vacib saydım.

Respublika Qadınlar Cəmiyyətinin sədri Bahar Qasımova:

- Tarix həm qanlı, həm də şanlı səhifələrilə yaddaşımızda həkk olunur. Tariximizin şanlı səhifələrini yazmış olan mesenat Ağa Musa Nağıyevin işığına, yenicə qurulmuş büstünün qarşısında onun ruhuna dualar etməyə toplaşmışıq. Bu böyük işin arxasında dayanan milyonçunun nəvəsinin ağıl və düşüncəsinə insan məəttəl qalır. O, zərif çiyinlərində 25 ildən artıqdır ki, bu yükü daşıyır, yorulmaq bilmədən bu günün işini sabaha qoymur. O, bizləri də düşündürür ki, əcdadlarınıza vaxtında qiymət verməyi bacarın. Bilin hansı kökdən su içirsiz. Soy kökünə, nəsil şəcərəsinə, bu ağacın kökündən su içmişlərə, ağacın budaqlarına və yarpaqlarına ehtiramla yanaşmağı öyrədir bizlərə Dilarə xanım.

Mesenat İsa bəy Hacınskinin nəticəsi Nuridə Ayxan:

O, XIX əsrin axırlarında, XX əsrin əvvəllərində xalqı üçün çox böyük işlər görmüş burjua nümayəndələri, əski milyonçular təzyiqlərə məruz qalsalar da, xalq üçün yananlardan olduqlarını qeyd etdi. Onlar binalar tikdirib, xeyriyyə işlərilə məşğul olmaqla tarixin səhifələrinə atdıqları imzaları ilə bu gün də tarixdə yaşayırlar. Xalq onları sevdi. Dilarə xanımın Ağa Musa Nağıyevin ətrafındakı fəaliyyəti danılmazdır.O, mesenatlarımızın nəsil şəcərəsini bizlərə çatdıran bayraqdarımızdır - öndə gedənimizdir.

Qızı- Könül Muxtarova anasının nəslinə, soy kökünə olan sevgisinə həsəd apardığını qeyd edərək, həyat eşqini sizlərlə bərabər övladlarına da çatdırmağı bacaran bu qadını enerji mənbəyi sandığını, ondan qaynaqlandığını, yuxusuz gecələrinin şahidi olduğunu vurğulayaraq uğurlarını təbrik etdi.

-Mənəvi övladı, Yeganə Mahmudbəyli çıxışında Dilarə xanımın Ağa Musa Nağıyevin fəaliyyətini bu dərəcədə işıqlandırdığından ömrünün üçdə bir hissəsini məhz bu yola sərf etdiyindən qürur duyduğunu, ondan mənən qidalandığını bildirərək, həqiqətən enerji mənbəyi olduğunu qeyd etdi. Dilarə xanım nəinki A.M.Nağıyevin etdiklərini aşkarlayır, hətta digər mesenatlar haqqında topladığı məlumatları da kitablarında dərc edib, minlərlə oxucu kütləsinə çatdırır. Babasının tikdirdiyi binaları bizlərə də sevdirməklə tarixin səhifələrini dərk etdirməyi bacarır. Bir sözlə bu xanım bizləri də "Musaman xəstəliyinə" düçar edib. Babasına dəyər verib, onu yenidən yaşadan və gələcək nəsillərə haqqında yazdığı dəyərli əsərləri yadigar qoyan Dilarə xanımı "Zöhrə Ulduzu" adlandıraraq, tutduğu bu yolu bundan sonra da davam etməsini arzuladı.

-Baytarlıq e.ü.f.d.Mehriban Bağırova qeyd etdi ki, bizim ailə də Dilarə xanımı Ağa Musa Nağıyev fəaliyyətinin tədqiqatçısı kimi çox sevdi. Bu xanım tarixi bizlərə sevdirə bilməkdə bir örnəkdir. Onunla qohumluq əlaqələrimizin baş tutmasına sevinirəm. Mən ona oxşamaq istəyirəm- bu sözüm həqiqətdir. O, müqayisə olunmaz nəvə olmaqla bərabər gözəl ana, misilsiz qaynana və nənədir. Bizlərə də ondan pay düşür. Əcdadlarına belə qiymət verən nəvə, bu gün soy kökünü, nəsil ağacını qoruyub saxlayır. "Ağamusa Zirvəsi" Diplomu ilə təltif olunmaq mənim üçün fəxrdir. Dilarə xanım bizləri keçmişlərə qaytarır və mesenatlarımızı bir daha bizlərə sevdirir. Ondan öyrənməyi, öyrənməyi və yenə də öyrənməyi hamınıza arzulayıram.

## XEYRİYYƏÇİNİN QƏBRÜSTÜ ABİDƏSİNİN AÇILIŞI

Azərbaycanda genişmiqyaslı xeyriyyəçilik fəaliyyəti ilə məşğul olmuş, cəmiyyətin inkişafına xidmət etmiş tarixi şəxsiyyətlərə Ulu Öndər Heydər Əliyev hakimiyyətə gəldikdən sonra yenidən diqqət artırılıb. Bu gün də milli-mənəvi dəyərlər və vətənpərvərlik hisslərinə söykənən ənənələr Ölkə Rəhbərliyinin diqqət mərkəzindədir. Azərbaycanın ən böyük xeyriyyəçilərinin, tarixi şəxsiyyətlərinin abidələri mütəmadi olaraq Prezident İlham Əliyevin müvafiq sərəncamlarına uyğun əsaslı şəkildə təmir edilməkdədir. Ölkə Rəhbərliyinin Azərbaycanın tarixi şəxsiyyətlərinə verdiyi dəyərlər fonunda yerlərdə də müəyyən işlər görülməkdədir.

Belə ki, Biləcəri qəsəbəsində dəfn edilən tanınmış azərbaycanlı milyonçu, neft hasilatçısı, xeyriyyəçi, Ağa Musa Nağıyevin qəbrüstü abidəsində bərpa işləri tamamlandıqdan sonra ziyarət üçün açıq elan olunub.

Binəqədi rayonu Biləcəri qəsəbəsində açıq havada təşkil olunan mərasimdə Rayon İcra Hakimiyyəti başçısının müavini, Aparatın ictimai və siyasi şöbəsinin müavini,YAP-ın Binəqədi rayon təşkilatının sədri, Biləcəri qəsəbəsinin nümayəndəsi və Bələdiyyə sədri, MDQ- İB sədri, məşhur milyonçu - xeyriyyəçinin nəvəsi, həmin təşkilatın bir sıra üzvləri, abidənin müəllifi –tanınmış heykəltəraş Azad Əliyev, abidənin yaradılmasında müstəsna rolu olan iş adamı Zülfüqar və atası İbrahim Muxtarzadələr,eləcə də qəsəbə sakinləri iştirak etdilər.

Tanınmış xeyriyyəçinin ruhuna dualar oxunması ilə başlanan mərasimi Rayon İcra Hakimiyyəti başçısının müavini Vüsar İsmayılov açıq elan edərək, iştirakçılara tədbirin mahiyyəti və mərhum Ağa Musa Nağıyevin Azərbaycan üçün dəyərindən məlumat verərək qeyd etdi

ki, xalqımız hər zaman millətinə, xalqına xidmət edən oğullarını yaşatmalı, onların faydalı əməllərini gənc nəsillərə təbliğ etməlidir.

Digər çıxış edən natiqlər də öz nitqlərində milyonçunun məzarının abadlaşdırılmasında əməyi olan şəxslərə minnətdarlıqlarını bildirdilər.

Tədbir zamanı müvafiq fəaliyyətlə bağlı əməyi olan şəxslər Ağa Musa Nağıyev adına "Milli Dəyərlərin Qorunması" təşkilatının təsis etdiyi "Ağamusa Zirvəsi" diplomları ilə təltif olundular.

Xatırladaq ki, Ağa Musa Nağıyev 1849-cu ildə Bakının Biləcəri kəndində anadan olub. 28 may küçəsindəki bir sıra və ən əsası əkiz binaları, Nizami küçəsində 93saylı - yaşayış evini, həmin küçədə qırmızı kərpicdən tikilmiş əzəmətli binanı, Zərifə Əliyeva küçəsində keçmiş mərkəzi poçtun binasını, Nigar Rəfibəyli və R.Rza küçələrinin kəsişdiyi yerdə əzəmətli yaşayış binasını (gül passajı), S.Vurgun küçəsindəki Mərkəzi Zabitlər evini, Məhkəmə ekspertizası və Lukoylun fəaliyyət göstərdiyi binaların müəlllifi Ağa Musa olub.

Məşhur milyonçu 1919-cu il martın 4-də vəfat edib. Vəsiyyəti Kərbəlada dəfn edilmək olsa da, ancaq 1931-ci ildə doğma yurdu Biləcəridə dəfn olunmaq nəsib olub.

*Kaspi.az.az*
*az.trend.az,16 Dekabr 2016.*

## A.M.NAĞIYEVƏ BÜST QOYULDU

... Bakı Müsəlman Xeyriyyə Cəmiyyətinin fəaliyyətində yaxından iştirak edən, çoxsaylı xeyriyyə təşkilatlarının üzvü və himayədarı olan Ağa Musanın vəfatından keçən 100 ilə yaxın müddət ərzində xalqa xidmət göstərən binaları onun ümidlərini hələ də yaşadır.

Ziyalılığı və alicənablığı öz şəxsiyyətində cəmləşdirə bilən iri neft sahibkarı Ağa Musa Nağıyevin keçdiyi həyat yolu xalqı və vətəni üçün ən gözəl nümunədir.

Ağa Musa tikmədi ki, özü qala, tikdi ki, izi qala. Bu deyim bütövlükdə onun xalqına göstərdiyi xidmətinin sübutudur.

Ümidvarıq ki, əfsanəvi Bakı milyonçusu Ağa Musa Nağıyevin irsi, onun təqdirəlayiq xidmətləri və xatirəsi hər bir azərbaycanlı tərəfindən daim əziz tutulacaq.

*Azərbaycan Respublikası Prezidenti yanında*
*QHT-na Dövlət Dəstəyi Şurasının jurnalı*
*“Vətəndaş cəmiyyəti” (3)*
*2017*

# TİKDİ Kİ, İZİ QALA

Məşhur neft milyonçusu Ağa Musa Nağıyevin vəfatının 98-ci ildönümü ərəfəsində məzarüstü abidəsinin açılışı - yazıçı, publisist, A.M.Nağıyev adına “Milli Dəyərlərin Qorunması” İB sədri Dilarə Ağamusanın növbəti uğurlarındandır. Açılışda iştirak edən Binəqədi İcra Hakimiyyətinin nümayəndələri, Millət vəkilləri, AMEA-nın əməkdaşları, A.M.Nağıyev nəslinin nümayəndələri ürək sözlərini və təbriklərini tədbir iştirakçılarına çatdırdıqca Dilarə xanımın qüruru daha da artırdı.

Dilarə xanım tədbir iştirakçılarını A.M.Nağıyevin faciəli həyatının xüsusi məqamlarına yönəldib, hətta vəfatından sonra da ruhunun təqib edilməsinə toxunaraq, 80 ildən sonra cəsədinin rahatlıq tapdığından söz açdı.

1998-ci ildə milyonçunun qəbri abadlaşdırılsa da, Dilarə xanımın arzusu babasının qəbrüstü büstünü görmək idi. Müəyyən səbəblərdən bu işin gedişatı uzansa da, amma alındı.

Dilarə xanım 2017-ci ildə,vəfatının 98-ci ildönümü günü-milyonçunun məzarı üstündə aparılan yenidənqurma işlərinə görə Binəqədi İcra Hakimiyyətinin başçısı Xaləddin İsgəndərova, Xeyriyyəçi-iş adamı Zülfüqar Muxtarzadəyə və onu bu işə yönəldən atası İbrahim Muxtarzadəyə təşəkkürünü bildirdi.

O, Ağa Musa Nağıyevin məzarının doğulduğu və boya-başa çatdığı Biləcəridə olduğuna sevindiyini bildirərək, milyonçunun məzarüstü büstünün müəllifi - heykəltəraş Azad Əliyevin işini də xüsusi qeyd etdi.

Çıxış edənlərin əksəriyyəti A.M.Nağıyevin sahibkarlığından söz açaraq, tikdirdiyi binaların əksəriyyətində bu gün inzibati idarələrin fəaliyyət göstərdiyinə qiqqət yetirdi .

1908-ci ildə məhz A.M.Nağıyevin şirkətinin rekord miqdarda - 12.328 300 pud xam neft istehsal edərək

Azərbaycanın neft şirkətləri arasında ən yüksək göstəriciyə malik olduğu da bir daha qeyd edildi.

Biz də öz növbəmizdə sözümüzü hər zamankı kimi qələmin dili ilə deyirik: - Xalqına, dövlətinə əvəzsiz xidmət göstərən, 100-ə yaxın möhtəşəm binalar tikdirən insanın - Ağa Musa Nağıyevin anım günlərində hər binadan iki nəfərin iştirak etməsi, 196 nəfərin iştirakı deməkdir.

Odur ki Ağa Musa Nağıyev irsinin tanıdılmasında əvəzsiz elmi axtarışları, xidmətləri olan Dilarə Ağamusaya çoxsaylı media işçiləri adından təşəkkürümüzü bildirib, tədqiqatlarının davamlı olmasını arzulayırıq.

*Yeni Tərəqqi Naminə qəzeti 5.04.2017*
*Jurnalist-publisist Elmira Nüsrətqızı*

## MƏZARIN MACƏRASI
*(qısa şərh)*

Zamanın barışmayan mövqelərindən ona güc gələn, mürəkkəb və faciəli tale yaşamış - adı qadağalar siyahısına düşsə də, tarixin yaddaş səhifəsinə əbədi həkk olmuşlardandır xeyriyyəçi-mesenat Ağa Musa Nağıyev.

Ölümündən sonra da bu tale onun ruhunu təqib etmiş, əbədiyyət evində kədərli nişanəsini qoymuşdur.

A.M.Nağıyev dünyasını dəyişərkən Kərbəlada oğlu İsmayılın yanında dəfn olunacağını vəsiyyət etsə də, zaman buna yol vermir.

1919-cu ildən1998-ci ilədək onun qəbir yeri 4 dəfə dəyişir.

2016-cı ildə Dilarə xanımın təşəbbüsü və səyi nəticəsində Binəqədi İcra Hakimiyyətinin qərarı ilə yenidən aparılan məzarüstü bərpa işləri, milyonçu-xeyriyyəçinin ruhunun rahatlıq tapmasına təkan verdi.

Bu gün məzarının üstündə Ağa Musa Nağıyevin büstü qurulub. Vəfatının 98-ci ildönümü ərəfəsində milyonçu-xeyriyyəçi Ağa Musa Nağıyevin qəbrinin yenidən bərpası sanki tikdirdiyi 98 binasının sayı ilə bərabərləşir. Bu təsadüfdən deyil, zərurətdən irəli gələn bir anlamdır.

Sərvətini millətin maariflənməsi yolunda sərf edən milyonçunun adı bu gün də Bakının memarlığında, ictimai fikrimizdə yaşamaqdadır. Belə şəxsiyyətlərin olduğu kimi xalqa tanıdılması, milli mənəvi dəyərlərimizin dirçəlişi baxımından vacibdir.

O, millətinə ürəyi yanan sahibkar kimi Bakı Müsəlman Xeyriyyə Cəmiyyətinin fəaliyyətində yaxından iştirak edərək, çoxsaylı xeyriyyə təşkilatlarının üzvü və himayəçisi də olmuşdur.

Paytaxtımızı bəzəyən binaların tikilməsində Şərq və Avropa memarlıq məktəblərinin nümunələrindən istifadə

etməklə bərabər, arxitektura və dizayn məsələsində Ağa Musanın özünün təklifləri, mülahizələri olub. Ağa Musanın vəfatından keçən 100 ilə yaxın müddət ərzində xalqa xidmət etdiyi binaları onun əbədiliyinə bir xatirədir.

Nəvəsi Dilarə xanımın yazdığı «В поисках прошлого» kitabında babasının və atasının dövrün əzablarına üstün gəlməsindən, onların gördükləri işlərdən, xeyirxah əməllərindən söhbət açılır.

Kitabı vərəqlədikcə açılan hər yeni səhifə Dilarə xanıma dünyaya gələn yeni övlad sevinci bəxş etdiyini hiss etdim.

Düşünürəm ki, kitab layiqli qiymətini alacaq və bu müəllifin yaradıcılığının daha da inkişaf etməsinə səbəb olacaq.

*Jurnalist - publisist Safurə Çərkəzqızı*

## ABİDƏNİN AÇILIŞI

Milyonçu-xeyriyyəçi Ağa Musa Nağıyev Kərbəlada dəfn olunmasını arzulasa da, Çəmbərəkənd qəbristanlığında dəfn edilir. Sonradan dövrün qəzavü-qədərinə görə 3 dəfə qəbr yerini dəyişsə də, yenə Kərbəla həsrəti yerinə yetirilməmiş qalır.

1998-ci ildə onun nəşi Biləcəri qəbristanlığının girəcəyində ayrılmış xüsusi yerə köçürülsə də, büstünün qoyulması məsələsi həllini tapmır.

Nəhayət 2016-cı ilin dekabr ayında tanınmış azərbaycanlı milyonçu, neft hasilatçısı, xeyriyyəçi Ağa Musa Nağıyevin qəbrüstü abidəsi ucaldı.

Nəvəsi Dilarə xanımın səyi nəticəsində Binəqədi İcra Hakimiyyətinin təşəbbüsü ilə həyata keçirilən bu təqdimatda iştirak edən hər bir vətəndaş qürur hissi duyurdu.

Tarix unudulmur. Haqq öz yerini tapır.

Abidənin yaradılmasında əməyi olan şəxslər A.M.Nağıyevin adını daşıyan "Milli Dəyərlərin Qorunması" İctimai Birliyinin təsis etdiyi "Ağamusa Zirvəsi" Diplomları ilə mükafatlandırıldı.

*"Səs" qəzeti. 18 yanvar 2017*
*Zümrüd.*

## HİSSLƏR

2016-cı il Dekabrın 14-də Ağa Musa Nağıyevin məzarüstü abidəsinin açılışında Dilarə xanımın təşkilatçılığı ilə keçirilən tədbirdə mən də iştirak edirdim. Aldığım təəssüratdan xəyala daldım ki, həqiqətən doğmalarının onun binalarına kənardan baxmaq çox çətindir. Bu xanımın içindən sanki bir fəryad qopur: - “Kaş imkanlarım geniş olaydı, babamın arzusunu yerinə yetirib, 2 bina tikdirib, kasıblarla paylaşaydım.”

El arasında belə bir deyim olub ki, bir işi görmək üçün qiymət razılaşması zamanı narazılığını bildirən fəhlə, - mən hambal Musa deyiləm ki, bir qarın çörək üçün bu qədər yükü daşıyam, deyib.

Dilarə xanımın babası haqda yazdıqlarını oxuduqca Ağa Musanın zamanında nələr çəkdiyinin şahidinə çevrilirsən. Bəli, bir qarın çörək qazanmaq məqsədilə ailəsinə kömək etmək üçün hambalçılıq edib. Yoxsulluq, aclıq, ağır zəhmət və qənaətcillik Ağa Musanın milyonlara sahib olmasına çığır açdı.

Deyirlər ki, zəhmət insanın cövhəridir. Bunu varlığı ilə Ağa Musa Nağıyev sübuta yetirdi.

Onu yaşadaraq, yaddaşlarda qoruyan Dilarə xanıma sağlam həyat yaşamağı arzulayıb, Allahdan möhlət diləyirəm ki, arzu-niyyətlərini həyata keçirə bilsin. Çünki, bu xanım xeyriyyə əməllərini təkcə “Ağamusa Zirvəsi” Diplomlarını təsis etməklə deyil, geniş auditoriyalarda keçirdiyi tədbirlərin və kitablarının təqdimatında babasının ictimai fəaliyyətini açıqlamaqla bərabər, 2 bina tikdirib, ehtiyacı olanlara paylamaqla davam etmək niyyətindədir.

*Dilarə sevər, Hacıxanım Həbibə Qüdrətli*
*RQC-nin üzvü*

## AĞA MUSANIN BÜSTÜ

Dilarəcan, işıqlısan, nurlusan,
Atan, baban ulduzlardan nurludur.
Azərbaycan varlığında günəşsən,
Ətrafın da dostlarınla doludur.

Saya gəlməz o gördüyün işlərin,
Heyran edir gözəlliyin, mərdliyin,
Hər bir dərdin məlhəmidir sözlərin,
Yaxşılığın çoxaldıqca, çoxalar.

Nağıyevin heykəlinə varanlar,
Sevinc dolu, göz yaşları çağlayar,
Hər kəs razı, ziyarətə gələnlər
Əmək sənin, qayğı sənin, ay bacım.

Parlayırsan ulduz kimi, ay kimi,
Ürəklərdə çağlayırsan çay kimi,
Çiçək oldun həm sevincə, kədərə
Mərcan deyir, əməllərin yaşayacaq qəlblərdə.

*Mərcan Şahbuzlu, şairə,*
*İctimaiyyətçi xanım*

## BABAMLA SÖHBƏTİM

### *Elegiya*

Getdim ziyarətə İsmailiyyəni,
Gözümdən yaş axdı, ürəyimdən qan.
Başımı qaldırdım, üzünü görüm,
Gördüm ki, bikefsən,
Nədən bu, soranda səndən?
Elə bil şikayətləndin vəfasızlıqdan,
Dedin, axtarıram İsmayılın bürünc heykəlin.

Axı komsomolcular futbol topuna
Döndərəndə bu heykəlin başını,
Alanda dövrəyə, vuranda qolu,
Sanki bu zərbələr enirdi başına sənin.
Dedin ki, İsmayıl dərdi yenə qayıtdı,
Yenə dərd, yenə qüssə - qəm.
Nə etmək, totalitar rejimin yaranmasıyla
Yıxıldı, dağıldı, məhv oldu yaratdıqlarım.
Düşündün, haranın daşını başıma salım?

Qaytara bilmədim oğul, qızımı,
İndi də binalar çıxır əlimdən.
Tikdim ki, qalsın, gedəndə mən də,
Tarixdə izlərim, bu da heç oldu.
Düz deyiblər ki, fələk sayan düz olar!
Gec də olsa haqqı axtarırsan, mənim Dilarəm,
Dayanma, sən durma yerində bir an,
Haqqa çatanadək irəlilə sən.
Sənsən mənim arzum, ümidim,
Səndədir mənim o vaxtkı gücüm.

Bilirsən ki, güc olanda,
Dağ da yarıb Fərhad Şirinçün.
Sənin axtarışınla tapıldı Lizanın qəbri[1],

Haqq səndədir, bir də zamanda.
Zamansa sənsən, mənim Dilarəm.
Etdiklərini halallıqla qəbul edirəm.
Yaşa, yarat hər zaman.

Eşitdim yeni qəbir evi tikirsən mənə,
Sən idin torpağımı Kərbəlaya göndərib,[2]
İsmayılın torpağına qatdıran.
Səndə olan gücə qibtə edirəm,
Mənim oğul nəvəm, Dilarəm mənim.

Dördüncü qəbrimi tikdirəndə sən,
Oldum rahat mən, dedim bəsimdir, sakitəm indi.
Yiyəsiz deyiləm, arxam var mənim,
Sənsə layiq bilmədin bunu da mənə,
Yox dedin, belə olmamalıdır Milyonçu qəbri!

Yeni düşüncələr, yeni fikirlər,
Rahat buraxmırdı bir an da səni,
Yalnız xəyallardan ayrılanda sən,
Qət etdin, heykəlini görməliyəm məzarın üstə!

Beşinci qəbridir deyib, düşünəndə sən,
Dedin, belə də zülm olar, nədəndir bu dərd?
Axı borc pul verən, fəhlələrə toy edən,
Xeyriyyəçiliyin sədası xaricdən gələn,
Müflis olanlara əl uzadıb, köməklik edən,
Budurmu layiqli, sonu babamın?

---

[1] Ağa Musanın - ikinci həyat yoldaşı
[2] Kərbəlada dəfn olunmasını vəsiyyət etdiyinə görə

Qəbrim üstə heykəlimi qucaqlayanda,
Mən də qəbirdən qucadım səni!
Görmədin, hiss etmədin, bilirəm.
Axı sən canlısan, mən isə ölü.
Yox-yox, ölü olsam da, görürəm, duyuram səni,
Mənim cəfakeş, ağıllı nəvəm.
Fərəcin çörəyin halal edirəm,
Etdiklərini sən də halal et!

Ay zavallı nəvəm, mən indi şadam,
Məkanındır çünkü Lukoyl, ÜNS-ün binası,
İqtisad məktəbində baxanda əksimizə sən,
İsmayılı göstərib deyirsən ki, əmimdir,
Məni isə göstərib, qürurla söyləyirsən,
Babamdır mənim!
Azərbaycanlıları birləşdirən Komitəyə gələndə[1],
Elə bil gülürəm üzünə portretimdən.

Nə edim, hayıf ki, duymursan məni,
Mən ölü olsam da, duyuram səni,
Mənim cəfakeş, ağıllı nəvəm.
Fərəcin çörəyin halal edirəm,
Etdiklərini sən də halal et!
İsmailiyyə[2] olmasın dərdin, az qalıb,
Bir az da çalışsan tutacaq bu da,
Çünki sən Dilarəsən, düzdür əqidən.

---

[1]Lukoyl,ÜNS, İğtisad İnstitutu, Diaspora – tikdirdiyi binalardır
[2] İsmailiyyə-oğlunun şərəfinə tikdirdiyi bina

## TARİXİMİZ YENİ NƏFƏSLƏ

Milli tariximizi sahibkarlıq və xeyriyyəçilik fəaliyyəti fonunda öyrənmək elmi ictimaiyyətin son zamanlar müraciət etdiyi maraqlı tədqiqat sahələrindən biridir.

Dilarə Nağıyevanın **"Zamanın sorağında"** kitabı bu baxımdan diqqət çəkir. Azərbaycanın tarixində tərəqqipərvərliyi, ziyalılığı və ən əsası - mesenat olaraq dərin iz qoymuş Ağa Musa Nağıyev, yaşadığı zaman məsafəsində dövrünün tanınan və seçilən simaları sırasında öz möhürünü vurub.

Aparılan araşdırmalardan bəlli olur ki, ötən əsrin əvvəllərində varidatına və çoxsaylı tikililərinə görə 11 Bakı milyonçu sırasında birincilik qazandığına baxmayaraq, yaşadığı imperiya dövründə o da "istismarçı kapitalist" damğası ilə damğalanıb.

Belə nümunələrdən faktlar göstərir Dilarə Ağamusa Nağıyeva "Zamanın sorağında" kitabında. Bu nəşrində müəllif Ağa Musa Nağıyevin fəaliyyətinə müxtəlif illərin məsafəsində kölgə salmış əsl ziyalının xidmətini göstərməyə çalışıb.

Ağa Musanın o biri tikililəri kimi İsmailiyyə və Realnı Məktəbin binaları da özünəməxsus gözəlliyini bu günədək qoruyub saxlaya bilmişdir.

Bakı milyonçuları arasında 100 bina tikmək ideyası yalnız Ağa Musa Nağıyevə məxsusdur- qeyd edir Dilarə xanım kitabında.

Kitabın redaktoru akademik Arif Həşimov giriş sözünü Ağa Musa Nağıyevin ziddiyyətli, sevincli-kədərli, faciəli həyatının xalqın taleyi və mədəniyyətilə sıx bağlılığından başlayıb. Qazandığı sərvətin ölçüyə gəlmədiyi zamanda, mesenat əldə etdiyi vəsaiti məhz elm, təhsil yolunda xərcləməyi özünə mənəvi borc hesab edib. Sovet

hakimiyyətinin qurulduğu ilk illərdə o da çoxları kimi damğalanıb, istismarçı kapitalist adını almışdı.

Müəllif həmçinin böyük əməllərilə daima yaddaşlarda yaşayan neft sahibkarlarından: – Hacı Zeynalabdin Tağıyevin, Ağa Şəmsi Əsədullayevin, Murtuza Muxtarovun, Alfred Nobelin, Əjdərbəy Kərbəlayinin, Abdulla Zərbəliyevin və başqalarının tərcümeyi-halına da nəzər salıb.

"Xeyriyyə Cəmiyyəti"nin həqiqi üzvü olan A.M.Nağıyevin məktəb və uşaq bağçası, ictimai yığıncaqlar keçirmək üçün ucaltdığı binalar haqqında məlumatlar kitabda geniş yer alıb. Təqdirə layiqdir ki, bu kitabda Nağıyevlərin nəsil şəcərəsi maraqlı şəkildə diqqətə çatdırılıb.

Şəcərədə xeyriyyəçinin kökündən şaxələnən budaqlar nəslinin ətrafında cəmləşdirilib, dünyasını dəyişmişlər xəzan olmuş yarpaqlarla, həyatda olanlar isə yaşıl yarpaqlarla göstərilib. Bu maraqlı ideyanı bir yenilik kimi qəbul edib, müəllifin tarixə verdiyi töhfəsi sanmaq olar.

Bakıda neft sənayesinin yaranması və formalaşması prosesinə milli əxlaqın mədəni-ictimai həyatda yeri və rolu zamana görə dəyişmiş, neft kapitalının ona təsiri nəticəsində yeni münasibətlər sistemi dirçəlmişdir. Bütün yaramazlıqlarına rəğmən bu sistemin daxilində qara qızıl səltənətinin qəhqəhələri və göz yaşları üzərindən ətrafa vətənpərvərlik, xeyirxahlıq, millilik gözü ilə baxanlar da olmuşdur.

Xalqın yaddaşı sovet təbliğatının "burjua" damğası vurduğu həmin şəxsiyyətlərin bir çoxunu unutmayıb, bu gün də onları ehtiramla yad edir. Həmin xatirələrdə xariqələrilə yaşayanlar sırasında A.M.Nağıyevin xüsusi yeri var.

Müəllif Ağa Musa Nağıyevin Azərbaycan neft sənayesinin inkişafındakı xidmətlərinin, sahibkarlıq,

habelə xeyriyyəçilik və ictimai fəaliyyətinin tədqiq edilməsini Vətən tariximizin daha bir qaranlıq səhifəsinə həqiqət işığı salmaq baxımından, eləcə də bu insanın əməlləri müqabilində onun ruhu qarşısında mənəvi borcun ödənilməsi baxımından vacib bir vəzifə sanır.

Ağa Musa obrazı **"puldan pul etmək, pulu idarə etmək"** bacarığına nail olmaq qabiliyyəti baxımından çox maraqlıdır.

Çünkü o vaxtlar bəxtınə neft fontan vuranlar çox olub, ancaq adını neftxuda kimi təsdiqləyib saxlayanlar cəmi 11 nəfər ilə tarixləşib.

Ehtiyacı olanlara kömək əlini uzadıb, yeni ailə quranlara və yaxud doğmasını dəfn etməyə imkanı olmayana, həyatın bu iki nöqtəsi arasında qalan bütün xeyir-şər məsələlərilə bağlı kömək üçün Ağa Musa Nağıyevə müraciət edənləri ümidsiz geri qaytarmayıb.

Müəllif tarixdən soraq verən binalarının görüntülərini də oxuculara təqdim edib. Köhnə Bakının şərqli çöhrəsinə bir az Avropa gözəlliyi qata biləcək tanınmış arxitektorların, həkimlərin, müəllimlərin, müğənnilərin, bəstəkarların, dirijorların Azərbaycana dəvət edilməsi, ümumiyyətlə mədəniyyətimizə təmənnasız xidmət etmək Ağa Musanın amalı olduğunu göstərə bilib.

Bir ömür üçün məgər bu azdır?!

Tikdirdiyi binaların hər birinin həyatda öz daşıyıcı missiyası olub. Belə ki, xəstəxanalar -müalicə ocaqlarına, poçt idarəsi –rabitəyə, məktəb isə təhsilə xidmətə yönəldilib. Maraqlı görünüşdə olan bu binaların hər biri Ağa Musa Nağıyevin şah əsəri sayılır.

Azərbaycanın övladı olaraq Dilarə xanım bizləri tariximizin müəmmalı, qaranlıq qalan olayları ilə tanış edir.

*"Vətəndaş Cəmiyyəti" jurnal*
*№3. 2014.*

**P.S.** *Bu kitab müəllif üçün çox düşərli oldu:*

*-2012-ci ildə azərbaycan variantına görə Dilarə xanım Milli Akademiyanın "Humay" mükafatına layiq görüldü;*

*-2015-ci ildə kitab AMEA-nın Prezidenti Akif Əlizadə cənablarının təşəbbüsü ilə rus dilində çap edildi və Diasporada yayımlandı;*

*-2017-ci ildə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Fərmanına əsasən kitabın müəllifi Dilarə xanım bir illik təqaüdlə mükafatlandırıldı.*

## BORC

### *Elegiya*

Min doqquz yüz qırxıncı ilin mayında dünyaya gəldim.
Vətəndən uzaq oldum!
Bakı Vətən olsa da,
Dünyaya göz açdığım Dərbənd oldu Vətənim.
Düz üç gün süd yemədim, anam dedi, öləcək,
Atam dedi, beşincidir, nə edək?
Fələk saydığın sayır, sən də saydığını say,
Allah sayan düz olar!
Üç günümdə bal sürtdülər dilimə,
Birdən ölsə, ac getməsin, dedilər.
Ağzıma dad, canıma həyat verdi,
Dadıma çatan Dağıstan balı.
Möcüzəyə inananlar az oldu,
Ölü dirildi, deyənlərsə çox.
Bal güc verdi,...
Böyüdüm...
Amma sevinənlər az oldu,
Dedilər, ayağı sayalı olmadı,

Müharibə başladı... Dəhşət!
İndi yeni dərdim var,
Hamı məni “qara” deyib, çağırır.
Yaxınlarım gülür, mən sızlayıram,
Yaşıdlarım qaçıb, məndən gen gəzir,
Gəzməyə çıxanda gözəl axtarırdılar,
Çirkindir, aparmırıq sözlərini eşidəndə mən,
Geyimim pis, özüm kifir,
Niyə ölmədim deyib, xısın-xısın ağladım.
İncidim, küsdüm, amma böyüdüm...
Oğlan kimi böyüyüb, laçın qıza çevrildim.
Böyüdükcə gözəlləşib, dəyişərək mən,
Qızlar bulağının suyun da içdim.
Hətta sevdim, sevildim də mən,
Ailə qurub, oğlumla, qızımla öncə fəxr etdim.
İndi mənə qibtə edənlərin artdıqca sayı,
Mənim elmim, savadım, hörmətim artır.
Zamanında kifirdir, çirkindir deyənlərisə,
Qınına girmiş çanaqlı bağaya oxşadıram mən.

Həyat çox qəribədir....
Ağlatsa ağlayır, gülsə -gülürsən.
Gülüb, güldürməyi də bacarıram mən,
İndi harda aş, orda baş sayırlar məni.
Güldürürəm- gülürlər, hətta ağladıram da,
Amma könül sındırmamaq atamdan qalıb.
Atam kimi insanları seçməyi də bacarıram mən,

Birdən elə bil göy gurladı, həyat dəyişdi.
Başımı qaldırıb, dayanın dedim.
Uzaq gəzib, qaçdığınız Dilarəyəm mən.
Artıq tək deyil, indi Ağamusayam mən!
Allahıma şükr edərək söylədim,
Axı min doqquz yüz qırxıncı ildə

Öldürüb dirildən də odur, yaradan, yaşadan məni!
Odur güc-qüvvə verən,yaradıb, öldürüb, hətta dirildən...
Deyirlər hissiyyat insanla birgə doğulur...
Ailədə mən beşinciyə düşmüşdü bu pay.

Düşündüm ki, 98 bina tikdirib,
35 cəsədi Karvan ilə Kərbəlaya göndərən,
Susuz yaşayanları su ilə təmin edib,
Yiyəsiz körpələrə isti məkan yaradıb,
Savadsızlara savad üçün yol açan,
Yeri gələndə qəpiyinin qədrin bilib:
O, milyonçu oğludur,mənsə saman satanam deyib,
Təhsil, şəfa ocaqları tikdirən olub babam.
Belə bir zərb məsəli də var ki,
Saxla samanı, gələr-zamanı!
Samanı Allah qorudu, zamansa məni,
İndi hamı deyir nə yaxşı ki, mən varam.
Mənsə deyirəm, şükür Allaha ki,
Zamanı mən yaşatdım, Allahsa məni!

## A.M.NAĞIYEV ƏTRAFINDA GÖRDÜYÜM İŞLƏR

Uşaqlıqdan qara deyib, çağırdılar məni. Orta məktəbi heç bir qayğı görmədən qurtardım. Ali məktəbi bitirəndə də sahibsiz gəmiyə bənzədirdim özümü. Həyata atılıb, sükanı özüm idarə etməli oldum. Dövr bunu tələb edirdi. Hərənin öz işi var idi. Valideynlərin də öz qayğıları.

Əmək fəaliyyətinə başlayanda "arxam-dayım" yox idi. Özüm təsdiqləyirdim həyatda gerçəkliyimi. Ailə qurdum, oğullu, qızlı oldum. Fəaliyyətim və "xeyriyyəçiliyim" də buradan başladı. Övladlarıma, qohumlarıma, yaxınlarıma, qardaş-bacı balalarına arxa oldum. Çünki vaxtı ilə buna çox ehtiyacım olub. Hətta qardaşım Çingizin səhvi üzündən "itirdiyi" qızlarını tapıb, onlara gec də olsa, bibilik etdim. Rauf qardaşımın qızlarını özümünkü bilib, atalıq da etdim.

Ağamusa kimi tanınmağım üçün çox - çox illər xırdaladım. 1992-ci ildən bu günədək yorulmadan, usanmaq bilmədən, yol getməyimdə davam edirəm. Deyilənlərə görə tarixdə tarix yaratmışam. Kitablar yazdım. Alimlik dərəcəsinə yüksəldim.

Nə yaxşı ki, mən varam, təvazökarlıqdan kənar da olsa, belə düşünürəm. Amma Dağıstan balının köməyimə çatması, məni həyata qaytarması həqiqətdir. Anadan olanda öləcəkdim, 3 gü-nümdə ağzıma bal sürtdülər ki, öləndə ac getməyim. Ölmədim. Çünki mən yaşamalı idim.

Ağa Musa Nağıyevin ətrafında gördüyüm işlər haqqında kitablarda ara-sıra məlumat vermişəm. Amma məni bir məsələ düşündürür ki, o biri kitabları əldə edə bilməyən oxucu bunlardan bixəbər ola bilər. Qərarım belə oldu ki, babam və atamın fəaliyyəti ətrafında gördüyüm işləri bir də nəzərinizə çatdırım.

Hər iki İnsanın faciəli, lakin maraqlı taleləri məni çox düşündürdüyündən bu barədə bildiklərimi yazıya çevirdim. Belə deyim də var ki, qələmlə yazılanı, balta da çapa bilməz. Yazının ömrü babam və atamın ömrü kimi -70 il deyil, uzunömürlü olub, ömürlük qalır!

Azərbaycanın müstəqilliyi bərpa olunduğu zamandan, 1992-ci il tarixindən bu ətrafda fəaliyyətə başlamışam. Dövri mətbuatda yazılarımla bərabər Ağa Musanın tikdirdiyi binaların izi ilə inzibati idarələrə üz tutaraq, açıqlamalar verdim:

-Bu gün Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin binasını məhz poçt üçün tikdirməkdə xeyriyyəçinin məqsədi məktub və teleqraf vasitəsilə şəhər əhalisinin istəyini tezləşdirmək olub. Bunu xeyriyyəçinin ixtirası saymaq olar.

Qeyd edim ki, sabiq Nazir, hörmətli akademik Əli Abbasov cənabları mənim baba yolunda əməyimi çox yüksək qiymətləndirib. Bacım Solmazın və mənim mənzil şəraitimizin yaxşılaşmasında bu insanın əməyi unudulmazdır;

- Atamın xatirələrindən və arxivdə qorunan əl yazmalarından, eləcə də arxivdən əldə etdiyim sənəddən – Realnı Məktəbin -indiki İqtisad Universitetinin binasının Ağa Musa tərəfindən tikildiyini bilirdim. Qubernatora ünvanladığı müraciətində yarımçıq qalmış Realnı məktəbin tikintisinə 25.000 rubl ayırdığını qeyd edərək, özünə məxsus bir xahişi bu olmuşdur: – "Mənim və nakam dünyasını dəyişmiş oğlum İsmayıl bəyin portretləri akt zalında asılsın."

Bu portretlərin yaşadığı qısa və acı taleyi haqqında əsas yada salacağım bunlardır:

2006-cı ildə yuxuda 92-40-04 telefon nömrəsini verənin Ağa Musa olduğunu sonradan bildim. Ertəsi günü bu nömrəyə zəng açanda eşitdiklərimdən bərk

həyəcanlandım. Bu, İqtisad Universiteti idi. Universitetin sabiq rektoru – Millət Vəkili, hörmətli Şəmsəddin Hacıyev yuxuda gördüklərimi çin etdi. Onun sifarişilə rəssam Arif Bektaşinin yağlı boyalarla işlədiyi Ağa Musa və İsmayıl Nağıyevlərin portretləri bu gün Universitetin akt zalını bəzəyir.

Amma Şəmsəddin Hacıyev cənablarından asılı olmayan "bəzi səbəblərə" görə bu arzumun həyata keçməsi üçün 4 il ayaq döyməli oldum;

- A.M.Nağıyevin fəaliyyətinin əsas istiqamətlərindən biri xalqın sağlamlığını qorumaq olub. Tikdirdiyi dörd xəstəxanadan: 1№li Şəhər xəstəxanası, OMD -indiki K. Fərəcova adına Elmi –Tədqiqat Uşaq və Pediatriya İnstitutu, E.Əfəndiyev adına 2 №-li şəhər xəstəxanası (keçmiş Şaumyan) və Sabunçudakı Poliklinikadan yalnız biri – 1№ li Şəhər xəstəxanası 1913-cü ildən 1920-ci ilədək, sonradan isə 1992-ci ildən 2006-cı ilədək Ağa Musa Nağıyevin adını daşıyıb.

2006-cı ilədək Dövlət müəssisələrilə yazışmalarım xəstəxananın divarlarına Xatirə lövhəsinin vurulmasına aid olsa da həmin ildə böyük zərbə aldım.

Nazirlər kabinetinin iyul 1992-ci il Sərəncamı qüvvəsini itirmədən xəstəxana ləğv olunaraq, Səhiyyə Nazirliyinin ixtiyarına verildi. Beləcə, xeyriyyəçinin adı mexaniki olaraq arxivdə yer aldı.

1971-ci ildə olan bir əhvalatı xatırlatmaq istərdim:

Yardım məqsədilə aparılacaq tibbi avadanlığın çatdırılacağı ünvandan bixəbər olan maşının sürücüsü ona veriləcək puldan razı qalmayıb, məbləğin artırılmasını tələb edir. Mənzil başına çatarkən, ünvanın Musa Nağıyev xəstəxanası olduğunu görən sürücü vicdan əzabı çəkərək, puldan tamamilə imtina edib, diz çökərək deyir:- "Allah mənim tağsırımdan keçsin. Bura ki, Pir qapısıdır. Bura daxil olanlar şəfa tapır. Kişi bu boyda iş görüb.";

-v

O gündən bu binaya daxil olanda özümü evimdəki kimi hiss edirəm. Fəxri qonaq kimi Komitənin Qurultaylarında da iştirak edirəm.

-“İsmailiyyə” binasında fəaliyyət göstərən AMEA-nın “Elm” nəşriyyatında 3 kitabım təmənnasız olaraq çap edilib;

- AMEA-nın Prezidenti, Akademik Akif Əlizadənin təşəbbüsü sayəsində rus dilində “Zamanın sorağında” kitabı çap olunub və AMEA-da təqdimatı keçirilib.

Yeni işıq üzü görəcək “Hər ömür bir tamaşa.,” kitabın da “Elm” nəşriyyatında çap edilməsi hörmətli Akademikin təşəbbüsüdür;

- Neftçilər prospekti 69 ünvanındakı - bu gün “ÜNS” teatrı fəaliyyət göstərən bina da A.M.Nağıyevə mənsub olub. Bina sökülərkən heç olmazsa fasadının qorunub-saxlanılmasında 2006-cı ildəki “fəaliyyətimi” açıqlamaq fikrində deyiləm, “sadəcə” olaraq binanın xarici əfsanəvi arxitekturasının qorunub saxlanmasında çəkdiyim əziyyətimin heç olmamasına sevinirəm;

- İqtisad Universitetinin sabiq rektoru Şəmsəddin Hacıyevin mənə hədiyyə etdiyi Ağa Musa və oğlu İsmayıl bəyin portretlərinin bir nüsxəsi bu gün İstiqlal muzeyinin bəzəyidir.

- N.Gəncəvi adına Ədəbiyyat muzeyində “Ağa Musa Guşəsi”nin yaradılmasındakı rolum və eləcə də konfransda -Milli mənəvi dəyərlərimiz olan milyonçularımızı təbliğ etmək mənə nəsib olub.;

- 1992-2006-cı ilədək Ağa Musanın adını daşıdığı xəstəxanadan təhvil aldığım portret Dövlət İncəsənət muzeyinin divarlarını bəzəyir.;

- Ağa Musadan yadigar qalmış əşya və qəbrüstü (1998-2016) qara mərmər üzərində həkk edilmiş iki barelyefini və eləcə də mənə hədiyyə edilən -Xanlar

Bəşirov ailəsinin sifarişilə rəssam Əziz Əzizovun çəkdiyi Ağa Musanın portretini Azərbaycan Dövlət Neft Şirkətinin muzeyinə təqdim etmişəm.;

- 2001-ci ildən "İsmailiyyə"də Ağa Musanın anım günlərini, Fərəc Nağıyevin 95 illik yubileyini, daha sonra akademik Səidə İmanzadə, şairə Nurəngiz Gün və diktor Eldost Bayramın yubileylərini qeyd etmişəm. "Xocalıya ədalət" kompaniyasına qoşularaq keçirdiyim konfranslar, kitablarımın təqdimatı və bir sıra tədbirlər də keçirmişəm.;

- 2009-cu ildə 2001-ci ildən "İsmailiyyə"də Ağa Musanın anım günlərini, Fərəc Nağıyevin 95 illik yubileyini, daha sonra akademik Səidə İmanzadə, şairə Nurəngiz Gün və diktor Eldost Bayramın yubileylərini qeyd etmişəm. "Xocalıya ədalət" kompaniyasına qoşularaq keçirdiyim konfranslar, kitablarımın təqdimatı və bir sıra tədbirlər də keçirmişəm.;itutun direktoru - Aytən Mustafayevanın səyi nəticəsində keçirilib. Qeyd edim ki, bu İnstitutun tarixində Ulu Öndər Heydər Əliyev və Mir Möhsün ağadan sonra keçirilən üçüncü konfrans idi. Bu gün institutun direktoru - millət vəkili Aytən Mustafayeva ilə dostluq münasibətlərimiz davam etməkdədir.;

- 2011-ci ildə A.M.Nağıyevin vəsiyyətini məcazi mənada yerinə yetirib, məzarı üstündən götürülən torpağını Hacı Azadə Talein müşayiəti ilə Kərbəlaya göndərmişəm. Azadə xanımın həmin ildə Həcc ziyarətinə göndərilməsində şəxsən rolum olub;

- Binəqədi Rayon İcra Hakmiyyətinə 5 il ayaq döyməyim 2016-cı ildə nəticəsini tapdı. Ağa Musanın heykəlini qəbri üzərində görmək idi arzum. İcra Başçısı Xaləddin İsgəndərovun və xeyriyyəçi- iş adamı Zülfüqar Muxtarzadənin- təşəbbüsü və səyi nəticəsində məzarın üstündə A.M.Nağıyevin büstü qoyuldu;

- 2003-cü ildən etibarən Ağa Musa Nağıyev adına təşkilat yaratmağa çalışırdım. Əvvəcə "Xeyriyyəçi", sonra

“Mesenat” adı ilə Cəmiyyət yaratmaq fikrində idim. Daha sonra “Milli Dəyərlərin Qorunması” İB yaratmaq məqsədilə Ədliyyə Nazirliyinə sənədlər təqdim etdim. Amma, “Ammaların” həyata keçməsinə yalnız 2013-cü ildə nail oldum;

- Təşkilatın möhürünün mərkəzində babamın daş kitabəsini –Venzelini yaşatdım. Ağa Musa milyonlara çatsa da o, heç zaman saman satanın oğlu olduğunu və hamballıq etdiyini unutmayıb. İş otağının divarından asılmış - ortada adının və soyadının baş hərifləri **MH -** (kirillə) həkk olunmuş Venzeli, 2 kq. qızıldan hazırlatdırmışdı.

Təşkilat vaxtı ilə Ağa Musanın “Bakı gecələri” adı ilə keçirdiyi yığıncaqları bu ad altında mütəmadi olaraq davam etdirir;

- Görüşümüz zamanı kitabımla tanış olub, məni AMEA-nın Tarix institutuna yönəldən AAK-nın sabiq sədri Arif Mehdiyevin məni elm aləminə sövq etdiyinə görə ruhuna dua edənlərdən birincisiyəm;

“A.M.Nağıyevin sahibkarlıq, xeyriyyəçilik və ictimai fəaliyyətinə həsr etdiyim elmi işimin müəyyən səbəbdən müzakirəsi bir qədər gecikirdi. 2017-ci il mayın 30-da gördüyüm yuxuda 7 rəqəmini verdilər mənə. Düz 7 günün tamamında – dissertasiya işimin müzakirəyə buraxılmasına Tarix İnstitutunun dissertasiya şurasının sədri, hörmətli Yaqub Mahmudov qərar verdi.

2018-ci il aprel ayında isə Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının Kollegiyası- nın qərarına əsasən-dissertasiya şurası, tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün – dissertasiya işimin müdafiəsinə müstəsna hal kimi, növbədən və limitdən kənar icazə verildi.

- Tikdirdiyi 98 binasından 76-nı aşkar edib siyahıya almışam. Bunlardan 31-də inzibati idarələr fəaliyyət göstərir.

Babamın ruhu mənə hər yerdə kömək olur. Allah onu rəhmət etsin.

## KEÇMİŞİN DAŞ ŞAHİDİ

Heydər Əliyev Fondunun Vitse-prezidenti Leyla xanım Əliyevanın təsis etdiyi və baş redaktoru olduğu "Баку" jurnalının 2014-cü ilin birinci sayında "Milyonçu, samançı oğlu" başlığı altında yazılmış məqalənin "Bakılı", "İş və hissiyyat" rubrikalarında Ağa Musa Nağıyev nəslinin taleyi haqqında geniş məlumat verilib.

Jurnalda yazılan bir fikri diqqətinizə çatdırıram: "Əsrin dörddə bir hissəsidir ki, Dilarə Nağıyeva babası Ağa Musanın keçdiyi ömür yolunu, haqqı damla-damla bərpa edir. Tarix boyu Ağa Musanın həyat və fəaliyyətini faktlar əsasında deyil, söz-söhbətlər, şaiyələr əsasında nəzərə çatdırmaqla insanları çaşdırmaq istəsələr də, Dilarə xanım babasının tarixini demək olar ki, bir detektiv kimi bütünlüklə araşdırır".

Gözəl atalar misalında da deyilir ki: - Haqq gec də olsa, yerini tapır.

2017-ci ildə Antaliyaya Buta Airveys uçağı ilə yola düşdük və həmişəki kimi böyük bir sürprizlə qarşılaşdım. Yenicə kreslonun kəmərini bərkitmişdim ki, jurnalı götürüb vərəqləməyə başladım.

"Buta Airveys" jurnalının üzərində yazılmışdı: - Sizin əlinizdə tutduğunuz jurnalın ilk nömrəsi- payız 2017, №1-dir. Buta, bir tarixin ünvanıdır...

Jurnalı sürətlə nəzərdən keçirdim və ilk gözümə dəyən Ağa Musa Nağıyevin oğlu İsmayılın xatirəsinə tikdirdiyi "İsmailiyyə" binasının tarixi haqqında yazılan "Keçmişin daş şahidi" məqaləsi oldu.

Qeyd etməliyəm ki, müsiqi sevənlər "Meloman" xəstəliyinə tutulduqları kimi mən də 25 ildən artıqdır ki, "Musaman" xəstəliyinə tutulduğumdan, Ağa Musa haqqında söz deyən və yaxud yazan hər bir insana minnətdaram.

Jurnalı vərəqlədikcə keçirdiyim həyəcanın şahidi yanımda əyləşənYeganə xanım oldu. Bütün sərnişinlərə bəyan etdim ki, oxuyun, babam haqqında jurnalın ilk sayında məqalə yazılıb. Bu mənim üçün böyük hədiyyə oldu. Allah məni çox sevir.

İllərlə çəkdiyim zəhmətə, yorulmadan arxivlərdəki axtarışlarıma, yazaraq püxtələşdiyimə, şərəfli Yazıçı və Jurnalistlər Birliyinin sıralarında olduğuma və insanların sevgisini qazandığıma görə Ağa Musanın ruhu qarşısında baş əyirəm. Hamı deyir ki, mən onu yenidən yaşatdım .

**“İsmailiyyə” nə barədə susur? –**başlığı ilə yazılan məqalə belə başlayır: – “İsmailiyyə” Bakı və onun sakinləri üçün tale yüklü hadisələr ərəfəsində ərsəyə gəlmiş öz görünüşünə görə təkrarsız memarlıq şedevridir.

...XX əsrin başlanğıcının ilk illəri bakılı neft milyonçusu A.M.Nağıyevin ailəsində acı itkilərin carçısı oldu. Qızı Ümmül Banu tibb elminin lazımı səviyyədə olmadığından doğuş zamanı dünyasını dəyişir. Sonradan nəvə Ümmül Banu –Banin məhz bu mövzuya qayıdaraq, “Qafqaz günləri” avtobioqrafik romanında yazacaq: “ ... mən bu dünyaya gəlişimlə anamın ölümünə səbəb oldum. O, gənclik dövründən zövq almadan gənc yaşında dünyadan köç etdi...”

Qızının ölümü ilə barışmağa macal tapmayan Ağa Musanı tale bir də imtahana çəkir. Oğlu İsmayıl o vaxtlar çarəsi tapılmayan vərəm xəstəliyindən dünyasını dəyişir. Bu itkidən mütəəssir olan ata, daş sarayda oğlunun xatirəsini əbədiləşdirmək fikrinə düşür. Neft sənayeçisi A.M.Nağıyev pula heyfi gəlmədən bu planı həyata keçirmək üçün o dövrün görkəmli memarı Yozef (İosif) Ploşkonu dəvət edir.

A.M.Nağıyevinn təklifinə əsasən, XV əsrin yadigarı olan Venesiya sarayının gözəlliyindən bəhrələnən memar, 5 il ərzində Bakıda bu möhtəşəm sarayın analoqunu

ucaldır. Kağız üzərində təsvir edilmiş layihə sözün əsl mənasında istedadlı memarın əllərilə canlanaraq gözəllik və təxəyyüllün təcəssümü kimi göz qabağında ucalır.

1913-cü ildə şəhər əhalisi Bakıda keçmiş Nikolayevski- indiki İstiqlaliyyət küçəsində əsl Venesiya sarayı olan "İsmailiyyə" sarayını gördükdə, təəccüb içində qalır. Azərbaycanlı daş ustalarının qızıl əlləri sərt Abşeron daşını "oyadaraq" onu qəribə naxışlarda, mürəkkəb ornamentlərdə, sarayın çox gözəl rənglərində canlandırır.

Burada qotik üsuluna əməl etməklə bir dəfəyə bir neçə üslub və istiqamət sintez edilib. Qotik elementlər- abidənin ənənəvi Azərbaycan ornamentləri ilə uyğunluq təşkil edir. Ağa Musa Nağıyev xeyriyyəçilik məqsədiləAğa Musa Nağıyev xeyriyyəçilik məqsədilə Ağa Musa Nağıyev xeyriyyəçilik məqsədilə "İsmailiyyə" sarayını Müsəlman Xeyriyyə Cəmiyyətinə hədiyyə verir.

Lakin tezliklə "İsmailiyyə" eləcə də bütövlükdə şəhər üçün hərc-mərclik dövrü gəlib çatır. 1918-ci il mart hadisələri zamanı erməni daşnaklarının törətdiyi qırğın, atəşətutma və yanğın nəticəsində Bakıya və bu nadir binaya xeyli ziyan dəyir. Saraya od vurulur. Onun damını taclandıran qızıl hərflər isə sökülüb, talan edilir. Digər binalara yayılan yanğını söndürməyə çalışan hər bir kəs ermənilər tərəfindən yerindəcə gülləyə tuş gəlir.

**Belə qəbul edilir ki, 1919-cu ildə Ağa Musa Nağıyevin vaxtsız vəfat etməsinin əsas səbəblərindən biri də "İsmailiyyə" sarayının dağıdılıb, yandırılması olub.**

Nə yaxşı ki, o, oğlunun şərəfinə tikdirdiyi İsmailiyyəyə Leninin adının verilməsindən, eləcə də ötən əsrin 20-ci illərin əvvəllərində binanın restavrasiyası zamanı fasadların üzərindəki yazıların bolşevik beşguşəli ulduzları ilə əvəz olunduğundan xəbəri olmadı.

O zaman hətta sarayı tamamilə sökməyə dair fikirlər də olub. Lakin nə zaman, nə də düşmənlər "İsmailiyyə" sarayının "ruhunu" sındırmağı bacarmadı!

İllər sonra "İsmailiyyə" yenə də paytaxtın mərkəzində, baş vermiş faciəvi hadisələrə səssiz-səmirsiz şahidlik edərək əvvəlki əzəmətilə ucalır.

Kərbəlada oğlu İsmayılın yanında dinclik tapmağı arzulayan Ağa Musanın nəşi, imkansızlıqdan Bakının Çəmbərəkənd qəbristanlığında dəfn edilir...

Ata və oğulun ruhu rəmzi mənada olsa da, yaxınlaşdırmaq məqsədilə, milyonçunun məcburən dörd dəfə dəyişdirilən məzarı üstündə "İsmailiyyə" sarayının formasında abidəsi qoyulub...

Taleyin hökmü ilə bir anda hər bir şeydən məhrum olan Ağa Musa Nağıyevin son sığınacağında, Biləcəri qəbristanlığında, məzarı üstündə daha bir "İsmailiyyə" binası olduğundan bəlkə də çoxları bixəbərdir.

... Əzəmətli ruhunu və sarsılmaz qüdrətini qoruyub saxlayan "İsmailiyyə" sarayı Bakı tarixinin bütöv bir səhifəsidir. Və indi də paytaxtın qonaqlarını dayanıqlığı və əzəməti ilə fəth edərək təkrarolunmaz gözəlliyi ilə məftun edir.

**P.S.** *"Buta Airveys" jurnalının redaksiya heyətinə, öncə Layihə rəhbəri Eldar Hacıyevə və Baş redaktor Paşa Kəsəmənskiyə sonsuz təşəkkürlərimi bidirərək, oxuduğum məqalənin dəyərini qiymətləndirmək məqsədilə yazdıqlarımı kitaba salmamışdan öncə qəzetdə çap etməyi qərara aldım (Cəmiyyət və Qadın qəzeti 2017).*

*Bu gün A.M.Nağıyevin məzarı üstündə büstü qoyulub.*

## “MARAFON” VERİLİŞİNDƏ

2001-ci ilin şəxsi arxivimin sənədlərini aradım, və:

Aprelin 26-da “ABA” televiziyası ilə “Marafon” verilişinin iştirakçısı olarkən çıxışımı nəzərinizə çatdırmağı vacib saydım.

Söhbəti Ağa Musanın sırf sahibkarlıq fəaliyyəti ətrafında başlayıb, 1913-cü ildə istehsal etdiyi neftin miqdarının rekord səviyyəyə -13mln. puda çatmasını nəzərə çatdırdım. Həmin ili Rusiyada neft işi ilə əlaqədar keçirilən Qurultayda Nobel qardaşları 18 səsə malik olduqları zaman, Azərbaycandan bu səviyyəyə çatan sahibkarın Ağa Musa Nağıyev olduğunu qeyd etdim və bəzi faktlardan misal də gətirdim. Belə ki,:

– 1912-ci ildə Qafqaz dəmir yolu ilə ağ neftin firmalara göndərilməsində 3-cü yeri tutan Ağa Musa, 5 mln. ton nefti Xəzər dənizi vasitəsilə Qafqaza, Rusiyaya, İrana və Həştərxana göndərib.

Azərbaycanda neft Firmaları arasında ən yüksək göstəricilərə nail olan A.M.Nağıyev Sabunçu, Ramana və Balaxanıdakı sayı 48-ə çatan neft çənlərinin vurduğu neftin müqabilində 600 fəhlənin ailəsini dolandırıb. Əldə edilən gəlirin bir hissəsini neft sahəsində mütəxəssislərin ixtisasını artırmaq üçün sərf edib.

Qeyd etdim ki, tarix unutqanlığı sevmir. Yaddan çıxarsaq, unudularıq. Belə deyirlər ki, xeyirxah əməllər də unudulmayır. Allah gec olsa da, güc edir.

Ağa Musa haqqında həqiqətlərin üzə çıxması üçün gec də olsa, Fərəcin üç övladı –Solmaz, Rauf və mən babamızın fəaliyyəti ətrafında haqqın axtarışına başladıq. Qeyd etdim ki, 98 bina tikdirən milyonçu-xetriyyəçi üçün dövlət səviyyəsində heç bir iş görülməyib.

Amma yaddan çıxarmaq olmaz ki, dünənə qədər soyğunçu burjua nümayəndələri kimi tanıdığımız

milyonçuların tərcümeyi - halı ilk növbədə vətənpərvərlikdən, xeyirxahlıqdan başlayır. Onların həyat fəaliyyətinin, pak əməllərinin üzərinə uzun illər acı ruzigar küləyi əssə də, nəhayət tufanlar və qasırğalar səngidi. İndi ədalətsizcəsinə yazılmış qısa ensiklopedik (Azərb. Ensiklopediyasının Sovet çapı - VII cild) sətirlərin həqiqi və geniş mənasına baş vurmaq məqamındayıq.

A.M.Nağıyevə həsr olunmuş mərasimlərin birində iştirak edən Biləcəri sakini, şairə Minayə Şirvanlı Ağa Musaya həsr etdiyi poemada onun doğumunu ilahi doğuma bənzətmiş, hələ uşaqlığından onun bəxt -taleyini görürmüş kimi yazır:

Mələyə bənzədi uşağın üzü,
Nurlu bir çıraqdı siması, üzü,
Musa Peyğəmbər adını qoyuram sənə,
Heç vaxt naxələflik etmə vətənə.

Bunun müqabilində Minayə xanıma dedim ki, Musa vətənə naxələf çıxmadı, vətən ona naxələflik etdi. Sonra Minayə Şirvanlı yazır ki,

Cavan balasına tapmadı çarə,
İtirdi İsmayılı, can parəsini!
Cəmiyyəti Xeriyyə üçün tikdirdi.,
Bu gün alimlər ocağı İsmailiyyəni!

Poemanın sətirləri iliyimə işlədi. “Xalq üçün ömrünü şam kimi əridən...” - ilk kitabımda poemanı bütövlükdə çap etmişəm. Çox istərdim ki, hər bir oxucu bu kitab ilə tanış olub, Ağa Musanı daha yaxından tanısın.

Verilişdə milyonçunun haqqında deyilən xəsis imici barədə çətin də olsa, söz açdım. Hər dəfə bu yersiz sözün babamın taleyinə saldığı kölgəni eşidəndə düşünürəm:

çox heyif ki, babam iki ömür yaşamadı, mütləq pisi – yaxşıdan seçərdi. Hərdən isə belə düşünürəm ki, imkanı olsaydı o, bu gün başını qaldırıb, hazıra nazır olanlara deyərdi: – "Yaxşılıq edin, kasıblara əl tutun, xeyriyyə üçün binalar tikin. Tikin ki, iziniz itməsin!"

"Simic" bir insanı zor ilə bu addımları atmağa vadar etmək olarmı? Mənim haqqım çatır ki,"Eşitdiklərim, oxuduqlarım, gördüklərim..." kitabının müəllifi, yazıçı Manaf Süleymanova sual edim ki, (o zaman sağ idi) Ağa Musanın yoxluğundan 70 il sonra, bir 70 il də davam edəcək bu damğanı vurmaqdansa, onun etdiyi xeyriyyəçiliyindən, gördüyü işlərdən niyə yan keçib?

Niyə A.M.Nağıyevin 35 yoxsul ailənin vəsiyyətinə əməl edərək, onların dəfnlərini o zaman əlçatmaz Kərbəlada həyata keçirildiyi haqda, savadsızlığın qarşısını almaq məqsədilə təhsilə yönəltdiyi vəsait haqqında, tələbələr üçün təyin etdiyi təqaüddən, vəfatından sonra tapılan siyahıda qeyd etdiyi xeyriyyəçilik haqqındakılar lazımı səviyyədə xalqa çatdırmayır?

XIX əsrin axırlarında, XX əsrin əvvəllərində Azərbaycanda Rusiya, Alman, Fransa və eləcə də Nobel qardaşlarının neftin istehsalından əldə etdikləri gəlir hesabına Azərbaycanı çapıb-talayırdılarsa, məhz bu dövrdə meydana çıxan H.Z.Tağıyev, A.M.Nağıyev, Ş.Əsədullayev, M.Muxtarov kimi əsilzadə mil-yonçularımız əldə etdikləri qazancı xalqın rifahına xərcləyib.

Mənim şüarım budur – gəlin, birlikdə Bakımız üçün yanaq, xeyriyyəçilərimizin atdıqları xeyriyyəçilik addımlarını üzə çıxaraq və davam etdirək.

Arzum budur ki, Ağa Musa Nağıyevin tikdirdiyi binalarından birinə xatirə lövhəsi vurularsa və bir küçəyə adı verilərsə, mən də rahatlıq taparam.

## NURLU ƏMƏLLƏRİN İŞIĞINDA

### Kitabın təqdimatı

2015-ci il iyun ayında Azərbaycan Yazıçılar Birliyində (AYB) xalqın fədakar oğlu, Bakıda tikililəri ilə dəyərli iz qoymuş Bakı milyonçusu Ağa Musa Nağıyevin fəaliyyətinə həsr etdiyim **“Nurlu əməllərin işığında”** kitabının təğdimatı keçirildi.

Tədbirdə elm və sənət adamları, ictimai qurumlar, media nümayəndələri iştirak edirdi. Tədbiri Filologiya elmləri doktoru, professor, kitabın elmi redaktoru Asif Rüstəmli idarə edirdi.

Açılışı ön sözü ilə AYB-nin müşaviri Rauf Aslanov və mətbuat katibi Xəyal Rza elan etdi.

Əməkdar müəllim, yazıçı Oqtay Rza mənə ithaf etdiyi şerini söylədi:

Xariqələr yaradan xeyirxah milyonçunun
Vəfalı nəvəsidir - Dilarə Ağamusa!
Yeni kitab güzgüsü vətəndaşlıq borcunun,
Şəcərədən bəhs edir, Dilarə Ağamusa!

Doğma evdə, obada neçə sönmüş ocağı,
Nəfəsiylə isidir Dilarə Ağamusa!
Babasıtək fədakar – onun sözü, sorağı,
Bu günün haqq səsidir Dilarə Ağamusa!

Səbail rayonu Mərkəzləşdirilmiş Kitabxananın müdiri Nüşabə xanım Ələkbərova çalışqan tədqiqatçı olduğumu, yazıçı və ən əsası Azərbaycanın görkəmli oğlu, xeyriyyəçi Ağa Musa Nağıyevin nəvəsi kimi məşhurlaşdığımı qeyd edərək, məni səmimi insan, mehriban rəfiqə və bacı kimi tanıdığından qürur duyduğunu söylədi. Kollektivinin

bütövlükdə mənə olan hörmətindən söz açaraq “Nurlu əməllərin işığı” kitabının işıq üzü gör məsinə və Ağa Musanı tarixdə yaşatdığıma görə təbrik edib, uğurlar arzuladı.

AMEA-nın Ədəbiyyat İnstitutunun elmi işçisi, A.M.Nağıyevin qardaşı Ağa Əlinin nəticəsi, Şəmsi Əsədullayevin nəvəsi – mənə doğma olan Ofelya Nağıyeva bu mövzuda kitab yazdığıma görə təşəkkürünü bildirib, keçmişlərdən - uşaqlıq illərimizin xatirələrini yada saldı.

Şairə Cığatel ilə görüşlərimizin birində yaddaşına heyran olduğumu bildirmişdim. Bu qədər şeri necə yadda saxlamaq olar sualıma, çıxışı ilə yaradıcılığıma nəzər salaraq apardığım tədqiqatların və etdiyim böyük əməllərin qarşısında baş əydiyini, mənə valeh olduğunu bildirərək, “Ana” şerilə təbrikini sona çatdırdı.

Respublikanın Əməkdar artisti Elnarə Xəlilova çıxışında - milyonçu olmağın və Allahın bəxş etdiyi var-dövləti paylaşmağın hər kəsə nəsib olmadığını, ziyalı olmağın, xeyriyyəçiliyin çətinliyini bildirərək, bunu ən ali zirvə adlandırdı. Allahın ona da bu zirvəni bəxş etdiyinə, ürəyinə, qəlbinə və ağlına görə heç nəyi əsirgəmədiyini vurğulayaraq, təbriklərini Füzulinin qəzəlini muğam üstündə oxuyaraq, gözəl-məlahətli səsilə iştirakçları valeh etdi.

## O, AĞA MUSANI YENİDƏN YAŞATDI...

Məşhur milyonçu Ağa Musa Nağıyev haqqında 25 ildən çoxdur ki, tədqiqat işləri aparan Dilarə Nağıyevanın babası haqqında qələmə aldığı “Nurlu əməllərin işığında”- növbəti kitabında əksini tapan faktlar və hadisələr arxiv materiallarına istinad edilib. Kitabı oxuduqca, insanın zəhmət və bacarığı ilə, biologiya termini ilə desək, ibtidaidən aliliyə necə ucaldığının şahidi olursan.

Müəllif milyonçunun tikdirdiyi binaları, məktəb, xəstəxana və mehmanxanaları, həyata keçirdiyi xeyriyyə işlərini, keşməkeşli taleyini, çəkdiyi övlad acısını aydın və təsirli şəkildə qələmə almışdır.

Onun məşhur tikililəri nə qədər təmir olunub yeniləşsə də, üzərindəki Venzeli – daş kitabəsi, sanki deyir – mən Musa Nağıyev yadigarıyam.

Kitabda qeyd edildiyi kimi Ağa Musa Nağıyev bunları etməklə, sağlığında öz heykəlini ucaldıb, adını əbədiyyətə həkk edib, desək, yanılmarıq.

“Nurlu əməllərin işığında” kitabını tarixi faktlarla, məlumatlarla işıqlandıran Dilarə Nağıyeva kimdir?

Xalqın qeyrətli, mərd, qəlbən həmişə cavan qızı, prezident təqaüdçüsü, YAP-ın üzvü, Əsilzadələr məclisinin nümayəndəsi, İctimai Birliyin sədri, Respublika Qadınlar Cəmiyyətiniin sədr müavini, BMT-yanında Ümumdünya Sülh Federasiyasının “Sülh Səfiri”, Dədə Qorqud Fondunun “Mehriban ana” medalına layiq görülmüş, etdiklərinə rəğmən nəsli tərəfindən – Nağıyevlər nəslinin “aslanı” və “Dəmir Ledi” titullarını qazanmış, sözün əsl mənasında həyatın bütün çətinliklərindən qalib çıxan qayğıkeş ana, təvazökar qaynana, nəslin Ağa Musa yadigarlarını öz nur çırağının ətrafında toplayan bibi, xala, sevilən və sevən nənə - Dilarə xanım bunlardan da artıq kəlamları haqq edir.

Onun bu yolda çəkdiyi çox illik zəhməti dövlət və eləcə də insanlar tərəfindən mükafatsız qalmayıb.

O, Ağa Musanı yenidən tarixdə yaşatdı. Ağa Musa isə Dilarə xanımı Azərbaycana tanıtdı. Əsl uğur budur!

Bu gün işığına toplaşdığımız, neçə insanın əməyi keçmiş məhz "Nurlu əməllərin işığında" kitabı məni mübariz, sanki xəmiri yumor ilə yoğrulmuş bu qadın ilə tanışlığıma səbəb oldu. Dilarə xanım ilə sıx əlaqələrimiz, uzaq yollarda yol yoldaşlığımız, xeyir və şərdə bir-birimizə arxa olmağımız, bizi ayrılmaz bir zirvəyə, ana- bala zirvəsinə çatdırıb.

Dilarə xanım el anası olduğu üçün, onun yaşı elə məlumdur. Bu il el anasının 75 yaşı tamam oldu. Bacısı Solmaz xanımın vəfatı ilə əlaqədar qeyd etmədiyi yubileyində "internet yağışı" öz işini gördü. Saysız-hesabsız təbriklərin – mesajların ardı kəsilmirdi.

Mən isə bu sözlərimi az bilirəm:

-Əziz Dilarə xanım! Siz ömrün elə bir pilləsindəsiz ki, çox şeylərə nail olmsuz. Bizdən sizə ancaq can sağlığı diləmək qalır. Heç zaman üzünüzdən təbəssüm, gülüş əskik olmasın.

Qəzetimizin redaksiyası adından tədqiqatçı alim, gözəl qələm sahibi, vətənpərvər xanımı, respublikanın mədəniyyət abidələrinin tarixi ilə bağlı bu cür qiymətli kitabı ərsəyə gətirməyiniz münasibətilə ürəkdən təbrik edir, yeni yaradıcılıq uğurları arzulayırıq.

Dilarə xanıma ithaf etdiyim şeri sizlərə təqdim edirəm:

Günəşin üzündən qara buludlar,
Çəkilsə sabaha şəfəq, nur yağar.
Zəngin bir xəzinə qalsa yer altda,
Üstünə göylərdən ildırım çaxar.
Nağıyev nəslinin cəsur övladı,
Hünərli bir qadın, zəhmətkeş insan.

Bir nəslin aslanı- çağrıldı adı,
Bu adı qazanmaq olmadı asan.
Tarix varaqlandı, keçmiş danışdı,
Önündə hər dəlil dil açdı sanki.
Baba məhəbbəti işə qarışdı,
Alim nəvəsinə yol açdı sanki.
Müdrik Ağa Musa-11 milyonçu,
Möhtəşəm binalar, xatırla dedi.
Atası Fərəc də bu yolda yolçu,
Ruhu balasına qol-qanad verdi.
Neçə milyonçunun dövlətin-varın,
Aradı, axtardı o, dönə-dönə.
Zəngin bir torpağın, mərd oğulların,
Saysız xidmətləri çəkildi önə.
Gör neçə talelər keçdi gözündən,
Vətənçün xərclənən minlər, milyonlar,
O, çəkdi buludu günəş üzündən,
Döndü, yada düşdü unudulanlar.
Doxsan səkkiz bina tikən babanın,
Yüzə çatdırmağı keçdi qəlbindən.
Dilarə nəbzini tutdu zamanın,
Vətən qürur duydu xoş əməlindən.

*“Cəmiyyət və Qadın” qəzetinin*
*Şöbə müdüri Yeganə Mahmudbəyli*

**P.S.** *Yubileyim münasibətilə AMEA-nın dosenti, b.e.d. Yeganə Mahmudbəylinin hazırladığı Buklet şəxsi arxivimdədir. 17 iyun 2015.*

## KİTABIN İZİ İLƏ

**A**zərbaycan tarixində ziyalılığı, vətəndaş qüruru, zəka və istedadı ilə tanınan və seçilən insanlar əsrlərin daş kitabələrində, milli düşüncəmizdə özünəməxsus yer tutaraq zaman-zaman öyrənilir, onların keçdiyi ömür yolu səhifələndikcə yaddaşlarda iz salır. Milli kimliyimiz, milli dəyərlərimiz, milli varlığımız yaşanılan zaman ölçüsündə özünü bir daha göstərir.

Azərbaycana xeyriyyəçilik əməlləri ilə iz qoyan vətənpərvər insanların da ömür yolu tariximizin müəyyən hissəsində yer almışdır.

Belə ziyalılardan biri də tariximizdə xeyriyyəçi kimi tanınan neft miyonçusu Ağa Musa Nağıyevdir.

Xeyriyyəçinin tikdirdiyi 98 bina bu böyük insanın xoş əməllərinin bir nümunəsidir. “Nurlu əməllərin işığında” adlı kitab da elə onun xeyirxahlıq missiyasının bir göstəricisidir.

A.M.Nağıyev adına “Milli Dəyərlərin Qorunması” İctimai Birliyinin sədri Dilarə Ağamusa “Nurlu əməllərin işığında” kitabını oxucu kütləsinə təqdim etməklə, keçmişimizə hörmətlə yanaşmağı və tarixin bu dəyərli səhifələrini vərəqləməyi məsləhət görür.

Müəllif A.M.Nağıyevin tikdirdiyi binalarına fikir yönəldərək, XX əsrin əvvəllərində Azərbaycanın milyonçuları sırasında adı siyahıda öncüllərdən biri olan babasının vətənə, millətə bağlı ömür yaşadığını bildirir. O, kitabda A.M.Nağıyevin çoxşaxəli fəaliyyəti ilə neft istehsalının təkmilləşdirilməsi məsələsini xüsusilə işıqlandırıb.

Dilarə xanım əvvəlki kitablarında da neft milyonçusunun fəaliyyətinə müxtəlif aspektlərdən yanaşıb.

Yeni nəşrdə A.M.Nağıyevin mesenatlıq məharətindən, oğlu Fərəcin incəsənətə meyilliliyi və fəaliyyət göstərdiyi teatrlar haqqında xatirələrinə və digər məqamlara da toxunub.

Müəllif igidliyin, müdrikliyin və istedadın həyatda ən vacib saydığı prinsiplərin – hər üç amalın həqiqətən A.M.Nağıyevin vücudunda cəmləşdiyi qənaətinə gəlib.

Ümumilikdə kitab Azərbaycanda mədəniyyət, maarif, sağlamlıq ocaqlarının inşa etdirənlər siyahısında birinci olan Ağa Musa Nağıyevin keçdiyi ömür yolu ilə tanış olmaq istəyənlər üçün qiymətli vəsait ola bilər.

*"Səs" qəzeti, 20 03.2015. Zümrüd*

## NURLU ƏMƏLLƏR

Tarix İnstitutunun dissertantı, qələm sahibi –yazıçı, jurnalist Dilarə Ağamusanın “Nurlu əməllərin işığında” kitabının təqdimatında iştirak edən ziyalı və elm adamları çıxışlarında müəllifin Bakı milyonçusu, Ağa Musa Nağıyevin danılmaz xidmətləri ilə xalqın qəlbində özünə əbədiyyət abidəsindən taxt ucaldan tarixi şəxsiyyət olduğunu göstərə bildiyini bir daha qeyd etdilər. Dilarə Ağamusanın kitabda Bakı milyonçuları H.Z.Tağıyev, A.Ş.Əsədullayev, M.Muxtarov, İ.Hacınski, Aşurbəyovlar və Dadaşovlar haqqında verdiyi məlumatı xüsusi vurğulayaraq qeyd etdilər ki, xalqına hər zaman ucalıq gətirən el oğullarının adlarını hər yerdə və hər zaman iftixarla çəkmək lazımdır.

Müəllifin qeyd etdiyi kimi A.M.Nağıyev halal zəhməti ilə müdriklik simvolu, insanların pənah yeri olub, hər kəsə xeyriyyəçi əlini uzadıb.

Kitab haqqında Əsədulla Qurbanov, BDU-nun professoru, şairə-publisist Gülara Munis çıxışlarında müəllifin milyonçularımızın tarixini, həyatını, xeyriyyəçi missiyalarını arayıb, üzə çıxarmasını qeyd etdilər. Xalqı tərəqqi yoluna yönəldənlər qüdrətli bir sərkərdə kimi Allahın dərgahında yer tutur. Belə bir ucalıq xalqın qəlbində möhtəşəm bir abidəyə çevrilmiş əbədiyyət deməkdir. Dilarə xanım yaşanan bir ömrün davamçısı olaraq məsuliyyət və qətiyyət hisslərini - əski tariximizi gündəmə gətirməyə çalışır..

Dilarə Ağamusanın Ağa Musa Nağıyevin xeyriyyəçilik və sahibkarlıq fəaliyyətinə yenidən müraciət etməsi soy-kökünə ehtiram və məhəbbətindən irəli gəlir, deyən Əməkdar müəllim, şair Oqtay Rza -müəllifə bu kitabın da o biri kitabları kimi çox dəyərli olduğunu bildirərək, onun zəhmətini bir tarixçi kimi yüksək qiymətləndirərək, kitabın

gələcək nəsl üçün dəyərli mənbə olacağına əmin olduğunu vurğuladı.

Təqdimat zamanı başqa çıxış edənlər də xeyriyyəçilik əməl-ləri ilə tanınan, çoxlarına mənəvi dayaq olan Dilarə xanımın babası ətrafındakı fəaliyyətindən söhbət açdılar.

Ofelya Nağıyeva – Dilarə xanımın əmisi qızı Ağa Musa Nağıyevin ev – muzeyinin açılması təklifini irəli sürərək əlavə etdi ki, əldə etdiyimiz materialları və əşyaları təqdim etsək, xalq da bilər ki, kim-kimdir?

Dilarə xanım "Nurlu əməllərin işığında" kitabı ilə bir daha Ağa Musa Nağıyevin xalqın gələcəyini düşünərək gördüyü işlərdən, onun həyat yolu ilə bağlılığından söz açaraq, ömür yoluna – taleyinə çətin həyat yazılan milyonçunun xalq üçün gördüyü əvəzsiz xidmətlərini təsdiqləyir.

*"Səs" qəzeti 13.06.2015*

## AZƏRBAYCANIN TARİXİNƏ TÖHFƏ

Özü atəş, qəlbi atəş, günəş, nur,
Hər addımı sevgi dolu bir uğur.
El anası, vətənpərvər bir alim,
Mən söyləyim, möhürünü sən də vur.

Müdrikliyi bir uca dağ zirvəsi,
Qiymətlidir tarixə hər töhfəsi.
Bir qanundur sevənlərə kəlməsi,
Xidmətləri, əməlləri bir qürur.

İnsan o zaman xoşbəxtdir ki, ömür səhifələrində layiqli iz qoyur, əməlləri ilə qəlbləri fəth edir. Ürəklərdə sevgi, ehtiram dolu bir yer tutur.

Ağa Musa Nağıyev irsinin intellektual tədqiqatçısı, ali insani keyfiyyətlərə malik olan Dilarə xanımın ömür salnaməsi hər kəsə bir örnəkdir.

Kitablarında digər Bakı milyonçularının xidmətlərini də yenidən daha dolğun şəkildə gündəmə gətirib. Ağa Musanı olduğu kimi xalqa tanıtdıran, biri-birindən qiymətli əsərlərin müəllifi olan Dilarə Ağamusa ömrünün ən dəyərli illərini, böyük sevgi bəslədiyi və xalqın fəxri olan babasına həsr edib.

Onun tarixi mövzuda qələmə aldığı kitabları və elmi işinin mövzusu Azərbaycan tarixinə təqdim edilmiş qiymətli töhfədir.

Dilarə Ağamusa yazar olaraq, arxiv materiallarına və tarixi faktlara əsaslanaraq milyonçunun həyatı və fəaliyyəti ilə bağlı bir sıra fikirlərə yenidən aydınlıq gətirmişdir.

A.M.Nağıyev adına “Milli Dəyərlərin Qorunması” İB-in sədri olaraq də bu yönümdə işini təqdirəlayiq şəkildə davam etdirən Dilarə xanım həyatının ən çətin və

keşməkeşli dövründə belə mərhəmət dolu ürəyinin atəşi ilə ətrafındakılardan qayğısını əsirgəməyir.

O, babası Ağa Musa və atası Fərəc Nağıyevlərin adına layiq fəaliyyəti ətrafında işini bu gün də davam etdirir.

Yaxın günlərdə Dilarə Ağamusanın doğum günü oldu. Bu münasibətlə bütün onu sevənlərin və redaksiya heyətinin adından təbrik edir, yaradıcılığında və fəaliyyətində yeni uğurlar arzulayırıq.

*"Qadın və Cəmiyyət" qəzeti. 2017il.*
*Baş redaktor Mirvari Xəlilzadə*

## OD VƏ BABAM

### *Elegiya*

***Ağa Musa Nağıyevin vəfatı "Od çərşənbəsinə" təsadüf etdiyindən onun etdiklərini od ilə əlaqələndirmək keçdi qəlbimdən***

Doğrulmayan ümidləri od yandırar,
Hərdən oda bağlayıram ümüdimi ki,
Bəlkə od səbəb olub, həyata keçirə bilmədiyini?
Mən sənə köklədim etdiklərimi,
Oddan qorudum ki, yandıra bilməsin yaratdığını.
Musa adın dilimdədir, ürəyimdədir,
Sən mənim odumsan, suyumsan inan.
Qurduqlarınla sanki qidalanıb, doyuram inan!

Səhər açılanda mehimsən mənim,
Damarımda axan qanımsan mənim.
Bəli, həyata şəxsiyyət vəsiqəm də sən,
İftixarım olub, yol göstərənim!
Yaradıb, qurduqların, dilləndirən də,
Bel sümüyündə iz qoymuş palan.

Möhürümü təsdiqləyib "Embleminlə",
Düşündüm hər zaman yaşadam səni.
Həyata keçirdiklərimi oddan qoruyub,
Yaratdıqca, yaşadıram arzularını,
Oxşadım yazıb- yaratmaqda atam Fərəcə.
Atam deyəndə ki, otur, qulaq as,
Hələ tezdir, zaman gələr qulaq verərəm, dedim.
İndi arxivlərdə tapanda bir iz,
Sevinirəm, şadlanıram lap uşaq kimi.

Çox istərdim, uşaq olum təzədən,
Saatlarla, günlərlə qulaq verim olub-keçənə.
Nahaq söyləyəndə ünvanına kimsə birisi,
Deyirəm borcu qalıbsa, milli manatla qaytarım sizə,
Görən siz də qaytara bilərsizmi, Musa borcunu?
Həyata keçirmək çətindir, söyləmək asan.
Vizit kartı oldun həyatımın sən!
Dinim- imanımsız, inan sən də, atam da,
Qürur duyuram yaradıb, yaşatdığından.

Satirik şerlərin oxuyanda atam Fərəcin,
Düşünürəm nə yaxşı ki, yaşatdı Qaravəllini.
Arzularım çoxaldıqca tükənmək bilmir,
Yaşsa deyir, səksənə çatırsan, bilirsən bunu?
Bilirəm, amma duya bilmirəm yaş həddimi mən,
Çünki döyünən ürəyim əksini deyir.
Deyir ki, həyata keçirəndə hər bir arzunu,
Çalışıram azaldım nəbzinin sürətini mən.

Amma sürət azalanda, sanki dillənib, deyir ,
Hələ xatirə lövhəsini vurmamısan sən,
Küçələr gözləyir Musa adını,
Qaravəlli də yaşamayıb səhnə həyatın.
Bax, bunları yerinə yetirəndə sən,
Onda haqqın çatar, dincliyə qərar verməyə!

*Aprel 2017*

## MİLLİ MƏTBUATIN YARANMA TARİXİ

Azərbaycanda Milli Mətbuatın binövrəsi 1875-ci il iyulun 22-də "Əkinçi” qəzetinin ilk nömrəsinin nəşri ilə qoyulub. Qəzetin redaktoru və korrektoru Azərbaycan milli maarifçilik hərəkatının banilərindən olan Həsən bəy Zərdabi olub.

Mütərəqqi ideyaların carçısı olan "Əkinçi" qəzetində elm, maarif, mədəniyyətin zəruriliyinə aid materiallar dərc edilirdi. Sonradan bu qəzet Gürcüstan, Dağıstan, Özbəkistan və başqa şəhərlərdə də yayılır.

1877-ci ildə "Əkinçi" qəzeti bağlandıqdan sonra ölkəmizdə bir müddət azərbaycan dilində “mətbu orqan” olmayıb. Bakıda 1871-ci ildə rus dilində ilk olaraq “Бакинский листок”, 1876-cı ildə isə “Бакинские известия” – qəzetləri nəşr olunub.

1903-cü ildə Tiflisdə Məmmədağa Şaxtaxtinskinin redaktorluğu ilə azərbaycan dilində çıxan "Şərqi -rus" qəzeti Cəlil İradəmaarifçiləri öz ətrafında birləşdirə bildi.

Cəlil Məmmədquluzadənin jurnalist kimi tanınmasında da məhz bu qəzetin xüsusi xidməti olub.

1906-cı il aprelin 7-də satirik "Molla Nəsrəddin" jurnalı Tiflisdə işıq üzü görür. 1922-1931 illərdə jurnal Bakıda da nəşr edilir.

1918-ci il mayın 28-də Azərbaycanın müstəqilliyini qazanmasında milli mətbuatın mühüm rolu olmuşdur.

Azərbaycanda Milli Mətbuat yarandığı 140 il ərzində çoxşaxəli bir inkişaf yolu keçmişdir.

1998-ci il avqust ayının 6-da Ulu Öndər Heydər Əliyevin imzaladığı xüsusi sərəncamla Azərbaycan mətbuatı üzə

dən senzura götürülür.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 31 iyul 2008-ci il tarixli Sərəncamı ilə Azərbaycanda Kütləvi İnformasiya Vasitələrinin (KİV) inkşafına Dövlət Dəstəyi Konsepsiyası kimi mühüm bir sənəd təsdiq edilir.

22 may 2009-cu ildə Azərbaycan Respublikası Prezidenti yanında KİV -in İnkişafına Dövlət Dəstəyi Fondu yaradılır.

Biz də Qeyri Hökümət Təşkilatı olaraq, belə bir möhtəşəm ənənəni davam etdirərək, Azərbaycan Milli Mətbuatının 140 illiyi münasibəti ilə konfransın keçirilməsinə start verdik.

## MİLLİ MƏTBUAT 140

Ölkə Prezidenti Cənab İlham Əliyevin Milli Mətbuatın 140 illiyinin keçirilməsi haqqında verdiyi Sərəncamına əsasən, 2015-ci ildə A.M.Nağıyev adına "Milli Dəyərlərin Qorunması" təşkilatının dəstəyilə Beynəlxalq Mətbuat Mərkəzində "Milli Mətbuat 140" başlığı altında konfrans keçirdik.

Konfransa aparıcılıq edən Respublikanın Əməkdar artisti, İncəsənət İnstitutunun baş müəllimi Azad Şükürov, diqqət cəlb edən diksiyası ilə iştirakçıların marağına səbəb oldu.

Konfransda professorlardan Asif Rüstəmli, Nadir Məmmədli, Əsədulla Qurbanov; AMEA-nın dosenti Yeganə Mahmudbəyli, Qafqaz Media İB sədri – Azadə Taleh, Yazıçı -publisist Flora Xəlilzadə, RQC-nin sədri Bahar Qasımova, Azərtac və Turan agentliyi, jurnalistlər və media işçiləri iştirak edirdi.

Konfransın təşkilatçısı olaraq, çıxışımda: 1875-ci ildə “Əkinçi” qəzeti ilə əsası qoyulmuş Azərbaycan Milli Mətbuatın xalqın maariflənməsində mühüm rolundan danışaraq, görkəmli maarifçi və publisist Həsənbəy Zərdabi tərəfindən nəşr olunan bu qəzetin mədəniyyətin tərəqqisinə, qabaqcıl ictimai fikrin, milli şüurun formalaşmasına böyük töhfələr verdiyini qeyd etdim. Azərbaycanda mətbuatın inkişafını - Ümummilli lider Heydər Əliyevin adı ilə bağlı olduğunu və Cənab İlham Əliyevin bu yolu davam etdiyini xüsusi vurğuladım.

Ölkəmizin xeyriyyəçilik hərəkatında mühüm yer tutmuş neft milyonçusu A.M.Nağıyevin xalqımızın böyük maarifpərvər oğlu Həsən bəy Zərdabinin xeyriyyəçilik ideyalarının reallaşmasında mühüm rolunu qeyd etdim.

Yada saldım ki, XX əsrin əvvəllərindən milli oyanışın artdığı şəraitdə mesenatlarımız millətin yaddaşında öz xidmətlərilə elə şöhrət qazanmışlar ki, onları tarixdən silmək və ya ləkələmək hətta sovet ideologiyasına da nəsib olmadı.

Vaxtı ilə Bakı xeyriyyəçilərinin maariflənməyə xüsusi diqqət yetirdiklərini, “Kaspi” qəzetinin rus dilində nəşrini bütövlükdə Hacı Zeynalabdin Tağıyevin üzərinə götürdüyünü, Ağa Musa Nağıyevin isə sahibkarlıqdan əldə etdiyi gəlirini millətin maariflənməsi yolunda sərf etməsini nəzərə çatdırdım.

A.M.Nağıyev Realnı Məktəbinin tikintisini başa çatdıraraq, məktəbəqədər siniflər açdığını, 25 müsəlman qızının hər il təhsil haqqını ödəməyi öhdəsinə götürdüyünü yada saldım.

Millət vəkili Jalə Əliyeva çıxışında müstəqil Respublikamızda azad mediyanın inkişafından və ölkə rəhbərinin Milli Mətbuata olan diqqətindən söz açaraq, Azərbaycanda kimsə-sizlərə, evsiz-eşiksizlərə, qocalara və xəstələrə arxa olmaq, imkanı olmayanların təhsil

almalarına maddi köməklik etmək kimi humanist ideyalara xidmət edən bir cəmiyyətin yaradılmasında xalqımızın ictimai fikir tarixində xüsusi yeri olan böyük maarifçi Həsən bəy Zərdabinin adı ilə bağlılığını qeyd etdi.

Milyonçu A.M.Nağıyevin həyat və fəaliyyətinə həsr olunmuş "Nurlu əməllərin işığında" kitabının ərsəyə gəlməsində dəstəyini əsirgəməyən, milyonçunun fəaliyyətinə dəyər verən yazıçı, Xətai rayon Yeni Azərbaycan Partiyasının sədri- **Hüseynbala Mirələmov "Ağamusa Zirvəsi"** diplomu ilə təltif edildi.

Daha sonra Milli Mətbuatın 140 illiyi münasibətilə: - "MDQ" İB-nin Şura sədri -Yeganə Mahmudbəyli və "Yeni Təfəkkür" qəzetinin baş redaktoru -Şəmsiyyə Kərimova; "Turan" xəbər agentliyinin müxbiri - Vüsalə Rüfət; "Azərbaycan" qəzetinin şöbə müdiri - Daşdəmir Əjdəroğlu; jurnalist - tənqidçi şair Hikmət Məlikzadə; "Təhsil" jurnalının xüsusi müxbiri- Kəmalə Rəhimova; "Məhsəti" şairlər məclisinin sədri-Fəridə Ləman; "Cəmiyyət və qadın" qəzetinin – bir sıra əməkdaşı:- baş redaktor Xəlilzadə Mirvari Cabbarqızı, redaktor - Ruksana Cəlalqızı, publisist – Elza Salahova, baş redaktor müavini Əfşan Məmmədova; "İctimai Fikif" jurnalının baş redaktoru - Nəzakət Ələkbərqızı və "Bayramoğlu" nəşriyyatının direktoru - Səbuhi Aslan – "MDQ" İB-nin təsis etdiyi "Fəxri Jurnalist" diplomları ilə təltif olundular.

## MİLLİ MƏTBUATIN BAYRAMI

Milli Mətbuatın 140 illiyi münasibətilə A.M.Nağıyev adına "Milli Dəyərlərin Qorunması" İB təşkilatçılığı ilə Beynəlxalq Mətbuat Mərkəzində keçirilən konfransda çıxış edən Millət vəkili, professor Jalə Əliyeva milli mətbuatın yaranma tarixindən məlumat verərək, əsasının 1875-ci ildə "Əkinçi" qəzeti ilə qoyulduğunu və hal-hazırda Respublikada əsl söz azadlığının hiss ediləcək dərəcədə olduğunu qeyd etdi.

Təşkilatçı və "MDQ" iB sədri -Dilarə Ağamusa çıxışında- milyonçu Ağa Musa Nağıyevin sahibkarlıqdan əldə etdiyi gəlirlərini millətinin maariflənməsi yolunda sərf edən mesenatlardan olub, uzun illər müxtəlif təhsil ocaqlarında azərbaycanlı tələbələrin biliyə yiyələnmələri üçün ildə 8 min rubl ayırdığını bildirdi.

Arxiv sənədlərinə istinadən V.Kovalevskinin Bakıda Kommersiya məktəbinin yaradılması təklifini Bakının milyonçuları bəyənir və qısa müddət ərzində tikinti üçün H.Z.Tağıyevin, A.M.Nağıyevin və Ş.Əsədullayevin yığılan 170 min rublun çox hissəsini A.M.Nağıyevin verdiyini qeyd etdi. Şamaxıda Realnı vPeşə məktəbləri üçün tikiləcək binanın inşasına vəsaitin toplanmasında da üstünlük qazanan xeyriyyəçilərdən Ağa Musa və Ş.Əsədullayev olmuşdur. A.M.Nağıyev uşaq ölümü ilə mübarizə aparan "Bakı Cəmiyyətinə", eləcə də Bakıda tikintisi yarımçıq qalan "Körpələr evi"nin tikintisinə küllü miqdarda pul köçürüb.

Vaxtı ilə milyonçular öz aralarında yarışa girərdilər ki, il ərzində tədbirlərə kim daha çox aktyor və müğənni dəvət edər. Tamaşa təşkil edənlər müsabiqəsində birincilik qazanan Ağa Musa olub. El arasında bu kimi savab işlər görən Ağa Musanın adı hər zaman hörmətlə çəkilirdi. Onu müsəlman balalarını savadlı görmək, Bakını su ilə təmin

etmək, səhiyyə sistemindəki problemləri aradan qaldırmaq məsələləri hər zaman düşündürüb.

*“Respublika” qəzeti 30.07.2015. Rauf İlyasoğlu*

## DİLARƏ AĞAMUSA 75

***Keçmişimizə hörmətlə yanaşmaq, Azərbaycanın tarixini, onun dəyərli səhifələrini gələcək nəsillərə ötürmək hər birimizin borcudur***

Dilarə Nağıyevanın milyonçu, mesenat, xeyriyyəçi Ağa Musa Nağıyevin mənalı ömür yoluna müraciət etməsi və yığcam zaman kəsiyində qazandığı nailiyyətləri onun vətənpərvərlik hisslərindən, humanizmindən, incə və nəcib duyğularından, millətin formalaşmasında xidmətləri olan soykökünə ehtiramından və məhəbbətindən irəli gəlir.

Onun ürək genişliyi, nəcibliyi, təşəbbüskarlığı, tariximizin qaranlıq səhifələrinə işıq salması təqdirəlayiqdir. O, fəaliyyətilə xalq üçün yaşanan bir ömrün davamçısı olaraq məsuliyyət və qətiyyət hissini gündəmə gətirib.

Yazdığı kitablarda mövzularının əsası yaşanılan illərin əks-sədasıdır desək, fikrimizdə yanılmarıq. Neçə əsrlik tariximizi “Daş kitabə”lər vasitəsilə bizlərə çatdırmaqdır Dilarə Ağamusanın məqsədi. Elmi mövzusunu da Ağa Musa Nağıyevin sahibkarlığına, xeyriyyəçiliyinə və ictimai fəaliyyətinə həsr edib.

Respublika Yazıçılar Birliyi və qələm dostları, BMT yanında Beynəlxalq Sülh Federasiyası - hər zaman çalışqanlığı, işgüzarlığı və uğurları ilə seçilən Dilarə Ağamusanin 75 illik yubileyi münasibətilə təbriklərinə qoşulub, ona yaradıçılq uğurları və xeyriyyəçilik əməlləri heç zaman tükənməsin diləyirlər.

Respublika Yazıçılar Birliyi, Sülh Federasiyasının Azərbaycandakı nümayəndəliyi və A.M.Nağıyev adına “MDQ” İB-nin təşkilatı dəstəyi ilə keçirilənYubiley gecəsi Yazıçılar Birliyinin “Natəvan klubunda” baş tutdu.

## BU MƏNƏM!

XIX əsrin sonu XX əsrin əvvəllərində qurub yaradan Azərbaycanın milyonçusu - xeyriyyəçi, məşhur neft kralı Ağa Musa Nağıyevin nəslindən olduğumla fəxr edirəm.

Ağa Musa Nağıyev 98 bina tikdi ki, izi qala...

Ağa Musa Nağıyevin fəaliyyətini gündəmə gətirməyi özümə borc bilib, uzun müddət kölgədə qalmış “kapitalist” damğası altında əzilən milyonçunun taleyini araşdırmağı qarşıma məqsəd qoydum və buna azacıq da olsa nail ola bildim.

Mənalı bir ömür yaşayaraq, yüksək əxlaqi keyfiyyətləri ilə həyatda öz yerini tutmaqla yaddaşlarda qalıb, özünə əbədi iz qoymuş Ağa Musa Bakının on bir milyonçusundan birincisi olub.

... Bəxt, tale, alın yazısı deyilən anlamlara inan-mayanlara neft milyonçusu Ağa Musa Nağıyevin həyat tarixçəsinə nəzər salmağı məsləhət görürəm.

Halal yol ilə qazandığı milyonlar onun başına gələn faciləli hadisələrin qarşısını ala bilmədi. Bu onun alın yazısı idi. Beləcə zamanla böyüyən Ağa Musa Bakının memarlıq simasına çevrildi.

Arxiv sənədlərini vərəqlədikcə, haqqında açdığım hər yeni səhifə mənə sanki dünyaya gələn bir övlad sevincini bəxş edirdi. Elmi mövzumu da Ağa Musa Nağıyevin sahibkarlığı, xeyriyyəçiliyi və ictimai fəaliyyətinə həsr etmişəm.

Həyata keçirdiklərimlə özümü bu zirvənin ən uca nöqtəsində hesab etmək hüququnu qazanmışam desəm, yanılmaram.

Ömrü mənalı yaşamaq, müqəddəs peşə sahibi olmaq doğrudan da böyük səadətdir. Elə bu səbəbdən babama, atama və ailəmə bağlanmaq payı ömrümə düşüb. Məni tanıyanlar zərif duyğulu olduğumu vurğulayıb, XXI əsrin rəmzi kimi parlayıb bu günə Ağa Musa işığı saçan bir xanıma bənzədirlər.

Babam Ağa Musa və atam Fərəc Nağıyevlər ilə bağlı tarixi həqiqətlərə həsr olunmuş Dövlət Radio və Televiziyasının "Qızıl fondu"nda qorunub saxlanılan çoxsaylı verilişlərin müəllifi və səsləndiricisi, eləcə də dövri mətbuatda bu mövzuya həsr olunmuş silsilə yazıların və elmi məqalələrin müəllifiyəm.

Məlum səbəbdən Azərbaycandan kənarda doğulduğuma baxmayaraq, milli ənənələri, azərbaycanlılıq meyillərini daxili dünyamda yaşadıb, babam və atam Nağıyevlərin qoyduqları amala, mənən də olsa onların həyat yolunun davamçısı olmağa çalışıram. Bu yolu tutmaq ailə tərbiyəmdən irəli gəlmiş və cəmiyyətdə nüfuz qazanmağıma səbəb olmuşdur.

İctimaiyyətçi xanım kimi tanınmağım da onların fəaliyyətinə göstərdiyim diqqətin nəticəsidir. Baba adına layiqli nəvə, ata adına layiqli övlad olduğumu təsdiqləyənədək bu yolun mübarizi olmaq qarşımda duran əsas məqsədimdir.

İki övladım, üç nəvəm və üç nəticəm ilə fəxr edirəm.

Əmək fəaliyyətinə 1959-cu ildən başlayıb, "Azərbaycanfilm" Kinostudiyasında kadr üzrə direktor müavini, 1977-dən 2003-cüilədək Respublika Ticarət Nazirliyində kadr üzrə şöbə müdiri vəzifələrini icra etmişəm. 43 yaşında SSRİ Ali Sovetinin Fərmanı ilə "Əmək veteranı" medalına layiq görülmüşəm. 2004-cü ildən Prezident təqaüdçüsüyəm.

Təsisçisi olduğum A.M.Nağıyev adına “Milli Dəyərlərin Qorunması” İctimai Birliyinin sədri olmaqla yanaşı, Azərbaycan Respublika Qadınlar Cəmiyyətinin sədr müaviniyəm. Keçirdiyim tədbirlərin əksəriyyəti xeyriyyəçilik xüsusiyyəti daşıyır.

“Qloballaşma şəraitində milli dəyərlərimizin qorunması və inkişaf etdirilməsi” ətrafında həyata keçirdiyim layihələrdə dövlət siyasətinin tənzimlənməsi məsələlərinin layiqincə həyata keçirilməsindən geniş bəhs edilir.

Arzu və qüvvəm hələ tükənmək bilmir. Babamın arzusu 100 bina tikmək olub, mənimsə arzum kitablarımın sayını artırmaqdır. Çünki bu tarix olacaq və babamı miras qoyub getdiyi “Daş kitabələr” yaşatdığı kimi məni də yazdıqlarım yaşadacaq. Soyadımla, nəslimlə fəxr edirəm, qürur duyuram.

# QEYDLƏR

2016-cı il  həyatımda və ictimai fəaliyyətimdə yadda qalan məqamlarla sizləri tanış etməyi vacib sayıram.

Övladlarım Samir və Könül Muxtarovlar bu ildə BMT yanında Ümumdünya Sülh Federasiyasının Azərbaycandakı nümayəndəliyinin Sədri Rəhim Hüseynovun təqdimatı ilə “Sülh səfiri” diplomlarına layiq görüldülər.

Həmin il sentyabrın 4-də onlara verilən - Əsilzadələr məclisinin Şəhadətnaməsini  Heydər Əliyev Fondunun Vitse-prezidenti Leyla xanım Əliyevanın təqdimatı ilə almaq mənə nəsib oldu. Bu görüşüm ən xoş məqamlarla yadda qalan oldu.

“Milli Dəyərlərin Qorunması” İctimai Birliyinin 29.09. 2016 il tarixində“MDQ” İB-nin təsisçiləri, Respublika Yazıçılar Birliyinin katibliyi və BMT yanında Ümumdünya Sülh Federasiyasının Azərbaycandakı nümayəndəliyinin iştirakı ilə keçirilən iclasda “MDQ” İB sədri və təsisçisi - Neft milyonçusu Ağa Musa Nağıyevin nəvəsi Nağıyeva-Muxtarova Dilarə Ağamusanın 75 illik yubileyi qeyd olunmasına start verən tədbirdə irəli sürülən təklifə əsasən qərara alındı:

– Milli dəyərlərimizi yaşadaraq, tariximizin, incəsənətimizin, mədəniyyətimizin  inkişafında və təbliğində əməyini əsirgəməyərək, gələcək nəsillər üçün əvəzsiz mirasın yaradılmasına çalışan Azərbaycanın  Birinci Xanımı, Heydər Əliyev Fondunun Prezidenti, YUNESKO və İSESKO -nun xoşməramlı səfiri **Mehriban xanım Əliyeva** “Milli Dəyərlərin Qorunması” İctimai Birliyinin təsis etdiyi **“Ağamusa Zirvəsi” diplomu** ilə təltif edilsin.

– Milli dəyərlərimizi yüksək qiymətləndirərək, müasir və müstəqil Azərbaycanın sosial məsələlərinin həllini tətbiq edən və mədəniyyətimizi zənginləşdirərək, dünyada

uğurla təbliğ edən Heydər Əliyev Fondunun Vitse-Prezidenti, Rusiyadakı nümayəndəsi **Leyla xanım Əliyeva** “Milli Dəyərlərin Qorunması” İctimai Birliyinin təsis etdiyi **“Ağamusa Zirvəsi” diplomu** ilə təltif edilsin.

Hər iki Diplomu və rus dilində yenicə çapdan çıxmış – A.M.Nağıyevin fəaliyyətinə həsr etdiyim “В поисках прошлого” kitabını da hədiyyə etdim.

– Sayca çox kiçik olan ailəmdə - gəlinim- Bakı Baş Səhiyyə İdarəsinin həkimi Muxtarova Gülnara və mənəvi övladım- AMEA-nın dosenti Yeganə Mahmudbəyli daxil olmaqla 5nəfər “Sülh Səfiri” diplomuna layiq görülüb. 4 nəfər isə Əsilzadələr məclisinin üzvüdir.

Mənə bu diplom 2009-cu ildə Koreyanın Azərbaycandakı nümayəndəliyi Mr. Toru Nişivakinin təqdimatı ilə verilib.

Etdiyim təqdimata əsasən ruhən mənə çox yaxın olan Mehriban xanım Bağırova – Baytarlıq üzrə elmlər doktoru, eləcə də 15 ildən artıq Danimarkada yaşayıb, orada azərbaycan diasporası ilə iş aparan Azərin (Anaxanım) Hüseynova da bu diplomlara layiq görülüb.

“Sülh Səfiri” diplomlarına layiq görülən hər iki xanım A.M.Nağıyev adına “Milll Dəyərlərin Qorunması” təşkilatının fəal üzvləri olmaqla ictimai işlərdə fəal çalışırlar.

Ömrüm boyu mənəviyyat üçün çalışaraq, maddiyyat güdmədən xeyriyyə işləri də görürəm.

Bunun müqabilində Allah da mənə nəfs zənginliyi verib. Mən özümü hamıdan varlı hesab edirəm. Lap babam Ağa Musa kimi.

## TƏBRİK MESAJLARI

**Sizi,** Azərbaycan Yazıçılar Birliyi adından doğum gününüz münasibətilə təbrik edir, can sağlığı arzulayırıq.

Azərbaycanda XIX əsrin sonu XX əsrin əvvəllərində qurub-yaradan milyonçu, xeyriyyəçi, məşhur neft kralı Ağa Musa Nağıyevin gördüyü işlərin bu gün yorulmadan xalqımıza çatdırılmasında Sizin əməyiniz danılmazdır. Bu sahədə gördüyünüz bütün işləri dəyərləndiririk.

Çoxşaxəli fəaliyyətinizi qiymətləndirərək Sizi zəhmətkeş insan, hünərli qadın adlandırıblar. Və həmçinin səmimi insani münasibətinizlə Sizi tanıyanların rəğbətini qazanmısınız.

Çox əmək sərf edərək A.M.Nağıyevin xalqımızın yaddaşına həkk olunması, gələcək nəsillərə örnək ola bilən bir şəxsiyyətin tanınması üçün böyük işlər görmüsüz. Ağa Musa Nağıyevin həyat və fəaliyyətinə həsr etdiyiniz kitablar insan taleyinə naxış salan illərin məcmusu kimi dəyərlidir.

75 yaşınızı –yubileyinizi təbrik edir, bu işlərin davam etdirilməsində yorulmamaq, ədəbi yaradıcılığınızda böyük uğurlar arzulayırıq.

Azərbaycan Yazıçılar Birliyi.

**Əzizimiz** Dilarə xanım! Siz fəaliyyətinizlə Azərbaycanın tarixində dərin iz qoymusuz. Mənə hər zaman dəstək olaraq, dəyər verən, işləməyə ruh və nəfəs verən gözəl xanım! Sizdən ilham alıb, biz də kiçik işlər görsək nə mutlu bizə! Ağıllı, hər hansı bir məsələyə

yerində və vaxtında reaksiya verən əziz bacım! İnanıram ki, hələ bundan sonra da yaradıcılığınızla gənclərimizə örnək olacaqsız!

*Respublika Qadınlar Cəmiyyətinin Sədri,*
*Bahar Qasımova*.

**Vakif** yönetimi adına Kurucu Başkan Əlikram Müzəffər -Dilarə Ağamusanı layiq görüldüyü Diplom "Beynəlxalq Sülh Elçisi" ilə təltif edərkən qeyd etdi ki, Siz mədəniyyətlər arası dialoq sahəsindəki çalışmalarınızla dünyaya sevgi toxumları səpərək, bəşəri etirafı qəbul etməzdən dolayı, ideal dünya barışına qatılmısız.

**Vətənpərvər** ziyalı xanım Dilarə Ağamusa-zəkasıyla, dühasıyla milli dəyərlərimizə öz töhfələrini verdiyinə görə, Azərbaycan xalqının fəxri simalarından olan Bakı milyonçusu Ağa Musa Nağıyev irsinin öyrənilməsində fədakarlıq göstərən, qiymətli kitablar müəllifi olaraq, "Cəmiyyət və Qadın" qəzetinin Diplomu ilə təltif edilir.

*Şöbə müdiri - Yeganə Mahmudbəyli*
*Baş redaktor - Mirvari Xəlilzadə.*

**C.Cabbarlı** adına İctimai Birliyi -Milli dəyərlərin qorunması sahəsindəki fəal mövqeyinə görə C.Cabbarlı adına "Xüsusi Diplom"la təltif edilir.

*Muzeyin direktoru - Qəmər Seyfəddinqızı.*

**Milli** Dövlətçiliyin və gənc nəslin hərbi vətənpərvərlik tərbiyəsində səmərəli fəaliyyətinə görə "Dünya" ana və uşaqlar İB-nin Diplomu ilə təltif edilir;

*İB sədri Dünya xanım.*

**Kübar** ailədə dünyaya göz açıb torpağa, elmə, millətə bağlı olub, vətənpərvərlik xüsusiyyətlərini özündə cəmləşdirməyi bacarığına və A.M.Nağıyevin fəaliyyətini gənc nəslə çatdıra bildiyinə görə - "Zirvə" ziyalılar İB-nin "Nəslin layiqli təmsilçisi" Diplomu ilə təltif edilir.

*İB sədri MinayəDəyanət qızı.*

Tural mənim mənəvi övladımdır. Artıq bu missiyanı 2009-cu ildən daşıyıram. Bu il onun ad günündə belə bir mesaj yazdım: – Tural, canım mənim. Sən mənim ən ağıllı balamsan, savadın və tərbiyən ilə fərqlənməyin məni çox sevindirir.

Sənin ailə qurmağını arzulayıb, sevinənlərdən birincisi olmaq istəyirəm. İnan ki, anan qədər səni istəyirəm. Səni bərk-bərk öpüb qucaqlayan mamoçkan (anasına mama deyə müraciət edir, mənə isə mamoçka).

Aldığım cavabı sizlərə çatdırmağı vacib sanıram:

Çox sağ ol, mamoçka. Mənə də çox xoşdur ki, Siz həyatımda əvəzedilməz bir varlıqsız. Hər şey üçün təşəkkür edirəm.

## TƏƏSSÜRATLAR

Respublika Qadınlar Cəmiyyətinin bir qrup üzvü ilə mən də A.M.Nağıyevin məzarüstü büstünün açılışında iştirak edirdim. Bu çox möhtəşəm tədbir idi. Əsas tədbirin təşkilatçısı Dilarə xanım haqqında demək istərdim ki,onun dahiliyinə heyranam.

O, həqiqətləri bizlərə çatdırmaq üçün böyük zəhmət çəkib və neçə illərdir ki, bu yolda çalışır. Bir an onu yaxşı mənada qısqandığımı duydum. Bəli, ona bu çətin yolda da qibtə olunasıdır.

Dilarə xanıma üz tutaraq deyirəm ki, sizin mütləq ardıcıllarınız olacaq. Yaddaşlara qaytardığınız

A.M.Nağıyev tariximizdə silinməz iz qoymuşdur. Onun abidəsinin əbədiləşdirilməsi tariximizin bərpası deməkdir. Bu sizin ardıcıl müvəffəqiyyətlərinizdən ən ümdəsidir.

*Sizə daha böyük uğurlar arzulayan*
*RQC-nin üzvü Lalə Süleymanova.*

Türkiyədən gələn mesaj:

Kalbi gözəl olanın Allah yolunu açıq edir. Sevgiler, salamlar olsun.

*Sədaqat Şirinova*

Mənim canım, Dilarə xanım! Sizə baxanda yaşamaq istəyirəm. Allah sizi qorusun!

*Sizi çox-çox istəyən Vəfa Abbasova,*
*PQC-nin sədr müavini*

Almaniyadan gələn mesaj:

Дорогая Диляpочка! Вы очеровательны! И еще очень интересный человек. Я рада, что с вами знакома и близка.

*Супруга художника Ашрафа*
*-Регина Красивская.*

Unudulmaz Bakı milyonçusu Ağa Musanın nəvəsi Dilarə xanım-Bakı elitasının kübar qadın nümayəndəsi! Əzəmət və gözəllik mücəssəməsi! Sevgilərimlə.

*Baba Cabbarov*

Gözəl qəlbli insan

*Ötərxan Eltac- Publisist*

Dilarə xanım həyatdır!

*Yeganə*
*Mahmudbəyli*

2016-cı il Dekabrın 14-də mən də Ağa Musa Nağıyevin məzarüstü abidəsinin açılışında iştirak etdim. Aldığım təəssüratdan bir-iki bənd şeir yarandı:

Ruhun şad olsun Ağa, məzarın abadlaşır,
Tikdirdiyin saraylar, xiyaban yaşıllaşır.
Dilarə nəvən haqq adını yaşatsın,
Ürəyi dolu xanımın, qəhər onu boğmasın,
Ağlamaqla, gülməklə ürəyini boşaltsın.
Göz açdığın qəsəbəyə görüm adın verilsin,
Azərbaycan tarixi zənginləşsin, tanınsın.

Qurani Kərimdə tövsiyyə olunduğu kimi qənaət və qənimətə üstünlük verməklə zənginliyə yol tapdı Ağa Musa Nağıyev. Ulu Tanrı uşaqlıqdan zəhmətə qatlaşan Ağa Musanın çalışqanlığını qiymətləndirmiş öz sərvəti ilə – təbii nefti ilə onu mükafatlandırıb, zənginləşdirdi.

Dilarə xanıma, zəngin nəslin layiqli davamçısı olan nəvəyə, bu kübar xanımın səbrinə həsəd aparanlar çoxdur. Ata - babadan qalan daşınar və daşınmaz əmlaka kənardan baxmaq çox çətindir.

Dilarə xanımın babası haqda yazdıqlarını oxuduqca Ağa Musanın zamanında çəkdiyi kasıbçılığın, aclığın, ağır zəhmətin şahidi olursan. Düz deyirlər ki, zəhmət insanın cövhəridir. Buna Ağa Musanın varlığında rast gəlirik. Onu yaşadaraq yaddaşlarda qoruyan Dilarə xanımı Allah qorusun ki, arzu-niyyətlərini həyata keçirə bilsin. O xeyriyyə əməllərini geniş auditoriyalarda keçirdiyi tədbirlərin və kitabların təqdimatında babasının ictimai fəaliyyətini açıqlamaqla bərabər, 2 bina tikdirib,ehtiyacı olanlara paylamaq niyyətindədir.

Sizə uğurlar Dilarə xanım, bir də səbr diləyirəm.

*RQC-nin üzvü:*
*Hacıxanım Həbibə Qüdrətli,*

## YUBİLEYİNİZ MÜBARƏK!

... 2006-cı ildə dekabrın 31-də yeni ili Kəbədə Allahu Əkbər sədaları altında birgə qarşılamışdıq. Artıq saatın əqrəbləri 00.15 göstərirdi. Azərbaycan zəvvarları təvvafdan sonra İbrahim məqamında iki rükət namazını qılırdı...

1 yanvar 2007-ci il saat 00.25-dir. Zəvvar yoldaşlarımdan biri mənə Kəbəyə yaxınlaşmaq, əl vurub niyyət etmək istəyirəm, dedi.

Məmnuniyyətlə, söyləyib, həmin xanım zəvvarla insan selinə qatılıb Əli qapısına yaxınlaşdıq, əllərimizi Kəbəyə toxunduraraq göz yaşları içərisində Allaha dualarımızı etdik.

Cənabi Haqq cəmi əməli saleh müsəlmanların dualarını qəbul etsin. Amin!

Bəli, söhbətimin əsası da mesenat, Bakının neft milyonçularından biri olan, tarixə 98 bina tikdirən xeyriyyəçi kimi daxil olan Ağa Musa Nağıyev və onun nəvəsi, mənimsə Həcc və Məşhəd yoldaşım Dilarə Ağamusadır.

Hacı xanım ilə ilk tanışlığım Allah evində beləcə baş tutdu.

Sonralar Məşhəddə İmam Rzanı ziyarət etdik birgə. Beləcə bu halal dostluğumuz ailəvi dostluğa çevrildi.

Dilarə xanımla görüşəndə hansısa bir ideya təklif edirəmsə, az müddətdə o reallaşır.

Mən özümü xöşbəxt sanıram ki, 2011-ci ildə Ağa Musa Nağıyevin Kərbəla arzusunu yerinə yetirmək mənə nəsib oldu. Dilarə xanımın təklifi ilə Ağa Musanın qəbri üstündən götürülən torpağı Kərbəlada “dəfn” etməklə atanı - oğlu ilə məcazi mənada görüşdürmək mənə nəsib oldu.

Bu xanım yorulmaq bilmədən arxivlərdə babası Ağa Musa Nağıyevin ruhu qarşısında nəvə borcunu yerinə yetirir desəm, yanılmaram.

Tədqiqatçı, tarixçi alim, Prezident təqaüdçüsü, xeyriyyəçi xanımın, özümə mənəvi ana saydığım Dilarə Ağamusanın bu günlərdə 75 illik yubileyi Azərbaycan Yazıçılar Birliyində qeyd edildi. Onun yubiley tədbirləri çox yerlərdə keçirildi.

Var olun Hacıxanım! Var olun Məşədixanım! Var olun sədaqətli nəvə missiyasını ləyaqətlə və yorulmaq bilmədən yerinə yetirən Dilarə Ağamusa! Var olun sədaqətli dost! Yubileyiniz mübarək!

"Qafqaz Media" İB-nin təsis etdiyi "El anası" Diplomunun ilk mükafatçısı Siz oldunuz.

*Borçalı qəzeti,*
*Həkim-jurnalist Hacı Azadə Taleh*

## ƏŞRƏF HEYBƏT

*Azərbaycanın Əməkdar Rəssamı*

Həmyerlimiz rəssam Əşrəf Heybət ilə 5 ilə yaxındır tanışlığım. Nə yaxşı ki, o, Vətəni tez-tez yada salır. Belə bir deyim də var ki, Vətən çağırır.

Bizlər onu çox sevirik. Çünki 30 ildən artıqdır ki, Vətəndən uzaq düşsə də, rəsm əsərləri və milli dəyərlərimizi yaşatmaqla həmişə bizimlədir Əşrəf Heybət. Onun əsərləri Bakının tarixindən, insanların səmimiyyətindən danışır.

Tariximizi, mədəniyyətimizi, incəsənətimizi Avropada təmsil edən rəsm əsərləri yaradır Əşrəf Heybət.

O, ildə iki dəfə Bakıya gəlsə də, Avropada Vətənimizin həyatı ilə yaşayır. Onun əsərlərini görən düşünür ki, sanki heç Bakıdan uzaqlaşmayıb. Bütün bunlar ondan irəli gəlir ki, onun Vətən eşqi ilə döyünən ürəiy var.

Qapını üzümüzə açarkən özündən də çox sevinən həyat yoldaşı Regina xanım olur. O, gələn qonağı azərilərə xas olan qayda ilə qarşılayır. Əşrəf Heybətin milli ev geyimləri insanı valeh edir. Bu geyimdə Əşrəf Heybət necə də füsünkar görünür. Yaxşı mənada adamın lap paxıllığı tutur, həsəd aparır. Bir an fikrə dalırsan ki, 20 illik Avropa həyatı ona milliliyini unutdura bilməyib. Hələ ayağındakı ucu buynuza bənzər şəp-şəpləri -qədim nəleyinləri demirəm. Bunu ancaq kinolarda görüb, folklorumuzda rast gəlmişik.

Əşrəf Heybəti bu görünüşdə görəndə qızımla gözlərimiz bir-birinə sataşanda, eyni fikirdə olduğumuzu başa düşdüm. Onların ailədə ər və arvad münasibətindən, mehirbançılığından o qədər danışmışdım ki, qızım sanki onları çoxdan tanıyırdı. Ümumiyyətlə bu evə düşərkən, insan özünü çox rahat hiss edir.

Otaqların təmirindən, zövqlə bəzədilməsindən, iş otağının qəribəliyindən, hamam otağının rəngarəngliyindən danışmaq üçün bir kitab yazılsa, bəs etməz. Hansı tərəfə baxsan qəribəlik, heyrət, qotika, bir sözlə hər şey insanın marağını artırır. Mən deyərdim ki, Əşrəf Heybətin evi özlüyündə bir böyük pannodur. Burada o, bütöv Azərbaycanı təmsil etməyə çalışıb.

Regina xanım da sadəliyi, biliyi və mədəniyyətilə seçilir. Məni özünə yaxın bilib rəfiqə adlandırır. Gülərüzlüyü, qonaqpərvərliyi ilə azəri xanımlardan geridə qalmır desəm, yanılmaram. Bu insanın milli mentalitetimizə meyilli olması diqqətə layiqdir. Düşünürəm ki, bu ər ilə arvadın qarşılıqlı məhəbbətinin nəticəsidir. Birinin vətəndən uzaq düşsə də dəyişmədiyi, o birisinin isə mentalitetimizə uyğunlaşması insanda fərəh hissi oyadır.

Yazar olduğumdan mənim üçün Əşrəf Heybət olduqca maraqlı, ruhən mənə yaxın olan yaradıcı bir insandır. Fərqimiz yalnız ondan ibarətdir ki, o, duyğularını rəsm əsərlərinə, mən isə kitablara çevirirəm.

Əşrəf Heybət monumental sənət ustası kimi də məşhurdur. Onun özünəməxsus yaradıcılığında Şərq üslubu ilə müasir Qərb plastikası üzvi surətdə bir-birini tamamlayır. Onun əsərləri həqiqət axtarışında olan insan qəlbinin rənglərlə ifadə edə biləcəyi bir poemadır. Bu həmin əsərlərdir ki, Əşrəf Heybətə Rusiya və Azərbaycanda olduğu kimi, Avropanın bir çox ölkələrində də uğur qazandırıb.

1995-ci ildə - 44 yaşında Əşrəf Heybət Azərbaycanı tərk edib, həyat yoldaşı ilə Almaniyanın Kablens şəhərinə köçüb.

Azadlığı şərbət kimi iç, ya canından keç, ya qanından!

Belə vətənpərvər duyğuların şərbətini 44 il içən Əşrəf Heybət indi vətəndən uzaq düşsə də, vətən eşqilə yaşayır.

Amma buna baxmayaraq, o, özünü hər zaman ruhən İçərişəhərin dar küçələrində görür və o vaxtlardakı kimi özünü xoşbəxt və qayğısız hiss edir. Hərdən qəribçiliyin onu sıxan qollarını -zənciri qırıb atmaq, parçalamaq istəyir. Belə hallardan çıxmağa ona fırçası, bir də ki, ömür- gün yoldaşı kömək edir.

Rənglərin sehrinə dalan Əşrəf Heybət hətta uzaq Almaniyada neçə illərdən bəri heç nəyin dəyişə bilmədiyi özünəməxsus bədii romantizm üslubunda sənət əsərləri yaradır. Belə anlarda onun vətənpərvərlik nümayiş etdirən və milliliyini qoruyan əsərlərində istifadə etdiyi rənglər və materiallar heç bir əhəmiyyət kəsb etmir.

Azərbaycanın Almaniyadakı səfirliyi ilə sıx əməkdaşlıq edən Əşrəf Heybət, Azərbaycan Mədəniyyət Fondunun rəsmi təmsilçisi kimi təkcə Kablensdə deyil, Almaniyanın bir sıra şəhər və qəsəbələrində rəngarəng tədbirlərin təşkilatçısı kimi yorulmadan fəaliyyət göstərir.

Kablens Şəhər Meriyasının sifarişi ilə Frankştrasse küçəsindəki uzunluğu 180 metr olan körpünün hər iki tərəfində, maraqlı rəsmlər kompozisiyasını daşlar üzərində həkk edən Əşrəf Heybət, sanki bütöv Azərbaycanı burada əks etdirib.

Bu kompozisiyanı görən şəhərin sakinləri və qonaqları ecazkar rənglərin möcüzəsilə ovsunlanaraq daşlara hopmuş rəsmlərin sehrindən ayrıla bilməyib, saatlarla baxmağa vaxtlarını sərf etməkdən çəkinmirlər. Hər kəs sanki Azərbaycana qiyabi olaraq səyahətə çıxır.

Almaniyaya köçdüyü qısa zaman ərzində, 1997-ci ildə Əşrəf Heybət Mayis şəhərində “Bakı Birliyi Cəmiyyəti”nin keçirdiyi təsis konfransının təşəbbüskarı və təşkilatçısı olur.

Həmin ildən də Əşrəf Heybətin təklifinə əsasən Almaniya ilə Azərbaycanın Bakı Kültür Mədəniyyəti - “Qardaş Azərbaycan Mədəni Birliyi” yaradılır. Bu Qurum

Azərbaycanın bütövlükdə mədəniyyətinin təbliği sahəsində mühüm addımlar atır.

Əşrəf Heybətin eskizləri əsasında Kablens şəhərində "Abdullah" Xalçaçılıq firmasında Avropada çox dəbdə olan "Qabi" xalıları toxunur. Onun rəsmləri bu şəhərdəki Yəhudi Sinaqoqunun divarlarını bəzəyir.

Ulu Öndər Heydər Əliyev Almaniyada olarkən Azərbaycanın səfirliyində Əşrəf Heybətin əsərləri ilə tanış olmuş, onun bu fəaliyyətini və yaradıcılığını yüksək qiymətləndirərək çıxışının sonunda ona Azərbaycanı unutmamasını tövsiyə etmişdi.

Əşrəf Nazir oğlu Heybətov 1951-ci il fevralın 18-də Bakıda anadan olub. Keçirdiyi uşaqlıq illərindən yadda qalanı bu olub ki, İçərişəhərin küçələrində səhər-axşam uşaqlarla top oynayar və yaxud güləşərdi.

O, 12 yaşında ikən ulduzları barışmadığından həyat yolları ayrılan valideynlərinin yaşayış yerləri də ayrılır. İçərişəhərin Qoşaqala qapısından daxil olarkən, bu gün Azərbaycan Ensiklopediyasının yüksəldiyi binanın yeri onların yaşayış yeri olub. Beləcə balaca Əşrəf İçərişəhər ilə vidalaşır.

Və onun üzünə yeni həyat qapıları açılır. O qapılar ki, onu şöhrətə qaldıracaq, Azərbaycanda olduğu kimi Avropada da məşhurlaşdıracaq. Balaca Əşrəfin Nərimanov prospektində yaşayışı onun bütün həyat trayektoriyasını dəyişəcək.

Anası Zərxanım həkim işlədiyi xəstəxanadan demək olar ki, çıxmırdı. Ailəsini dolandırmaq üçün üç növbə işləyirdi. Elə bu səbəbdən Əşrəfin də üzünü az görürdü.

Qonşuluqda yaşayan professor, tibb elmləri doktoru Surxay Axundov özü də hiss etmədən Əşrəfə yaxınlıq edir və ona bir ata məhəbbəti bəsləyir. Onlar biri - birinə elə isnişirlər ki, Zərxanım hətta övladını yaxşı mənada ona qısqanır da.

Bayaqdan başqalarının geyiminə həsəd aparan Əşrəfin üzünə həyat gülür. Alnına yeni tale qisməti yazılır. İçərişəhərdə yaşayarkən ayaqqabısının və yaxud köynəyinin ildə bir dəfə təzələndiyinə alışan Əşrəf, indi yeni dəb ilə geyinib qalstuk da taxırdı.

O zaman varlı valideynlərin uşaqları məktəbə çanta əvəzinə diplomat aparırdı, bu səadət Əşrəfə də nəsib olur. Ona paxıllıq edən uşaqlardan soruşanda hansı Əşrəf, cavab verirdilər ki, “diplomat Əşrəfi – deyirəm də...”.

Deyirlər ki, övlad həyata gətirən hər ana, ana deyil. Onu böyüdüb, boya-başa çatdıran anadır. Balaca Əşrəfin taleyində bu deyim ata ilə bağlı oldu.

Anasını 1970-ci ildə itirən Əşrəf indi bütövlükdə Surxay doktorun himayəsində idi. Anasının yoxluğu ilə barışmağa Surxay doktotun ona olan məhəbbəti böyük rol oynamışdı.

Surxay Axundov ona əsl ata oldu. O, bütün varlığı və məhəbbətilə onu sevdi, tərbiyələndirdi, Vətənə layiqli bir övlad böyütdü. Əşrəf Heybətin bu gün də mənəvi atası haqqında danışarkən gözləri biixtiyar yaşarır.

O, deyir:- “Məni ictimaiyyətə lazımlı və layiqli bir övlad kimi böyütdüyü üçün Surxay atama hər zaman borcluyam. Məni həyatda doğru yola yönəldən o, oldu. Belə olmasaydı, mən rəssam olmazdım.”

Onun mənəvi atası haqqında danışdıqlarından belə qənaətə gəldim ki, nə yaxşı ki, yer üzərində Surxay Axundov kimi kişilər olub!

Surxay doktorun təkidi ilə balaca Əşrəf güləşdən uzaqlaşır. Buna səbəb Əşrəfin çiyin sümüyünü sındırması olur. Sonralar Əşrəf dəfələrlə söhbət əsnasında Surxay doktora bəraət qazandıraraq deyəcək ki, əgər belə olmasaydı, mən rəssam olmazdım!

Özünə doğma saydığı Surxay doktorun aldığı rənglərlə cızma-qara edən Əşrəfin getdikcə incəsənətə

meyli artır. Artıq o, rəsm çəkmədiyi gün elə bil nə isə itirdiyini hiss edirdi. Geydiyi yarımqol köynəklərə uyğun boynuna bağladığı şərflərin rənglərinin uyğunluğuna uşaqlar kənardan qibtə ilə baxırdı. Əşrəf onda düşünmürdü ki, bu həm də rəssam zövqüdir.

Xatirələrini söyləyərkən - doğma atamdam görmədiklərimi mənəvi atamda tapdım, deyir Əşrəf Heybət. Bilmirdim ki, çiyinlərimə şahlıq quşu qonub. O, Surxay Axundovun tibb üzrə görkəmli alim Burdenkonun tələbəsi olduğunu qürur hissi ilə vurğulayır. Bu alim bütün ağır cərrahi əməliyyatları sinir cərrahı -Surxay Axundova həvalə edirdi. Çünki savadlı və təcrübəli həkim Surxay Axundov onun etimadını qazanmışdı.

Taleyimin nə olacağını bilmirdim. Mədəniyyətə və incəsənətə maraq hisslərini oyatmaq məqsədilə məni teatrların premyerasına, konsertlərə və sərgilərə aparan Surxay ata sanki qarşımda dünyaya pəncərə açırdı- deyir Əşrəf.

O zaman balaca, dəcəl Əşrəf heç düşünmürdü ki, yaddaş dəftərində iz saldığı İçərişəhərin məhəllələrini, yaşadığı evlərini nə vaxtsa panno üzərinə köçürəcək.

Və deyəcək ki, - "Qarşımda açılan sehirli bir dünyanın peyzajını görərək rəssam olacağıma qərar verdim! Bəli, mən seçimimdə yanılmadım, rənglərin sehrinə uydum. Bütün bunlar üçün Surxay atama ömrümün sonunadək rəhmət oxuyacağam."

Daha sonra Əşrəf Heybət qeyd edir:

- Mən məhz Surxay atamın vasitəsilə Azərbaycanın Xalq rəssamı Tahir Salahov, daha sonra Zurab Sereteli ilə tanış oldum. Hər iki böyük şəxsiyyət həyatımın kredosuna çevrildi. 1980-ci ildə Moskvada Olimpiadada iştirakıma görə mənəvi atama və bu iki insana hər zaman minnətdaram. Surxay atamın təkidi ilə Ə.Əzimzadə adına Rəssamlıq məktəbini bitirdim. 1974-cü ildə Dövlət planına

əsasən Azərbaycanda açılan fakultədə ayrılmış beş yerdən biri mənə qismət oldu. Sonradan Tiflis Rəssamlar Akademiyasını bitirdim.

Azərbaycanın nəhəng rəssamı Səttar Bəhlulzadə ilə tanışlığım sonradan dostluğumuza çevrildi. Yaş fərqimiz 40 il olsa da bir yerdə olanda özümü onunla həmyaş hiss edirdim. Görünür ruhən biri-birimizə çox yaxın idik. Bu hisslər səmimiyyətdən irəli gəlirdi. Vətəni, yurdu və təbiəti sevməyi o mənə aşıladı. Həyatın incəliklərini ondan öyrəndim. Mən onu yer üzərində ikinci Allahım sayıram.

Əşrəf Heybət yaradıcılığında Azərbaycanın Xalq rəssamı Toğrul Nərimanbəyovun rolunu vurğulayaraq, bu dahi rəssamla görüşdüyünə görə də Surxay atasına borclu olduğunu söyləyir.

Surxay Axundovun vəfatından danışarkən, o, kədərli hadisənin sanki bu gün baş verdiyini yaşayaraq deyir: – "Çox maraqlıdır ki, Surxay doktor bacarıqlı sinir cərrahı olaraq, neçə-neçə xəstələrə şəfa verdi, özünə isə əlac edən tapılmadı. Təcrübəli həkim-cərrah beynində bəd xassəli şişdən qurtula bilmədi. Çünki ikinci Surxay Axundov dünyaya gəlməmişdi."

Əşrəf Heybət həyatında çox hörmət etdiyi Çingiz adında iki insana rast gəldiyini də unutmayıb qeyd edir ki, onlar ancaq soyadları ilə fərqli olublar, Aytmatov və Hüseynov. Onlarsız özümü qanadsız quşa oxşadırdım.

Onun sərgilərində iştirak edən mötəbər şəxslərdən biri qeydiyyat kitabında yazmışdır:

– "Mən Əşrəf Heybətin "Yeddi Vadi" fəlsəfi mənzərə silsiləsini xüsusi qeyd etmək istərdim. Bu silsilə bütövlükdə insan qəlbidir. Onun yaradıcılığında müasir universallıq görürəm. Şərqin ənənələri və Qərbin müasir plastikası onun parlaq yaradıcılığında ülvü şəkildə çulğalaşıb."

"İçərişəhər," "Köhnə hamam", "Salam, baba yurdu", "Bakı haqqında xatirələr, "Bayram xonçası" kimi əsərləri

də bu silsilədəndir. Bu əsərlərilə Əşrəf Heybət sanki uşaqlığının, gəncliyinin hekayətini söyləyir. Və bunu dinindən, dərisinin rəngindən asılı olmayan tamaşaçı eyni cür qəbul edir.

YUNESKO-nun Beynəlxalq Rəssamlıq Federasiyasının, Rusiya Rəssamlar İttifaqının və Şərqşünaslıq Cəmiyyətinin üzvü, "Dünya xalqlarının incəsənəti" Assosiasiyasının laureatı, monumentalist, qrafik, dizayner üslublu Əşrəf Heybətin əsas məqsədi əsərlərilə dünya ictimaiyyətinin diqqətini Azərbaycana yönəltməkdir.

Bu gün əsərləri kimi onun həyatını bəzəyən ömür-gün yoldaşı Regina xanım hər zaman hər yerdə onun yanındadır. Onların 36 illik sevgi dolu həyatına yaxşı mənada həsəd aparmaq olar. Evliliklərinin 35 ilini Lüksenburqda qeyd edən Əşrəf Heybət bu gün də məhəbbətindən sevə-sevə danışır. Bəli belə cütlüklər hər bir ailə üçün nümunə olmalıdır. Onlar1981-ci ildə Moskvada tanış olub, ailə qurublar. Bəlkə də Əşrəf Heybətin Moskvada ilk sərgisinin açılışı bu sevginin uğuru idi.

Regina xanım elm adamıdır. Alim Regina Krasevskaya İqtisad elmləri üzrə fəlsəfə doktorudur. Sevgi dolu şeirlərilə Əşrəf Heybəti yeni əsərlər yaratmağa sövq edir. Skripkada və fortepianoda ifasını eşidən hər kəs onun professional musiqiçi olduğunu təsdiqləyər. Regina xanım ifa etdiyi romansları ilə Əşrəf Heybəti hər dəfə valeh edib sehirli aləmə aparır.

Uşaq olmayan evdə söz-söhbət olur deyirlər. Allah-Taala belə buyursa da, bu ailə bu baxımdan bir çoxlarına nümunə oldu.

Rəngkarlığın müxtəlif janrlarında özünü sınayan Əşrəf Heybətin yaradıcılığının əsas mövzusu Azərbaycanla sıx bağlıdır. Onun mənzərə, notryurmort, qrafika janrında

yaratdığı əsərləri, çoxsüjetli kompozisiyaları döğma təbiətin gözəlliklərinə, insanlarına həsr olunur.

"Abşeron rəsmləri", "Mənim ölkəmin təranələri", "Şərqin məhəbbət lirikası" və s.əsərlərinin personajları real adamlar olduğu kimi, həm də folklor və nağıl qəhrəmanlarıdır. Reallıqla rəssam fantaziyasının qovuşduğundan yaranan romantik üslub onun əsərlərini daha da cəlbedici edir.

Əşrəf Heybət həm də pannolar rəssamıdır. Onun böyük monumental əsərləri bu gün Almaniya, Rusiya və Bakının sərgilərini bəzəyir.

Nepalda rəssamın eskizləri əsasında xalça da toxunub. Yaradıcılığı ilə bağlı dörd televiziya filmi çəkilib. Almaniyada "Şərq dünyası" kitabında onun illüstrasiyaları nəşr edilib.

**2001-ci il 11 sentyabr** faciəsindən on gün sonra Əşrəf Heybət böyük bir panno işləyir. Həmin əsər bu gün Nyu-Yorkdakı faciə muzeyində saxlanılır. Müəllif dünyaya sülh arzusu ilə işlədiyi pannoda beynəlxalq terrorizmə qarşı mübarizəyə hər zaman dəstək verən Azərbaycanın mövqeyini açıqlayaraq cəsarətlə terrora "Yox!" deyir.

**"20 Yanvar Bakı"** pannosu Bakıda İstiqlal muzeyində qorunub saxlanılır.

Bütövlükdə rəssamın bu mövzuda 25-dən çox əsəri var. O, portret janrında da əsər yaradır.

Əşrəf Heybətin 60 illik yubileyinə həsr olunan sərgi Moskvada "Azərbaycan Mədəniyyət Mərkəzində" Heydər Əliyev Fondunun Vitse -prezidenti və Rusiyadakı nümayəndəsi Leyla Əliyevanın iştirakı ilə keçirilib.

O, əsərlərinin əksəriyyətini Bakıya həsr edib: "Qayıdış, Şəhərlilərin üzü, Çayxanada, Vida öpüşü, Gözlənilməz görüş, Keçmiş Sovetski küçəsi, Bakı gecəsi, Hacı Sultan Məscidi, Bakıda günəşli gün, Xan sarayı, Rəssam və ay, Şəhər üzərindəki quş, Tənhalıq, Köhnə İçərişəhər,

İçərişəhərdə köhnə hamam, Keçmişə baxış, Qırmızı qapı, Nar dənələri, Bakı payızı, Bakımın küçəsi, Bakı hekayələri, Köhnə Bakının motivləri, Köhnə hamam, Uşaqlığımın fəvvarəsi, Şəhər haqqında nağıl, Regina Bakıda, Bakılı qızı, Xatirələr, Babam haqqında xatirə" və s.

Bu əsərlərin daxil olduğu siyahı əsasında 2010-cu ildə Rusiya Federasiyasında Azərbaycanın Səfirliyi, Heydər Əliyev Fondunun Rusiyadakı nümayəndəliyi və Rusiyada Xarici Ədəbiyyat Kitabxanasının birgə istehsalı nəticəsində buraxılmış Kataloq "Bakı və Bakılılar-30 il sonra Əşrəf Heybət" adlanır.

Uzun müddətli ayrılıq Əşrəf Heybəti Vətəndən uzaqlaşdırmadı. Qəribçilik onu sıxanda o, fırçası ilə rənglərin sehrinə dalır. Heç cür dəyişməyən özünəməxsusluğu ilə bədii romantizm üslubunda yurdumuzun qədim tarixindən, milli adət və ənənələrindən danışan sənət əsərləri yaradır. O, belə əsərlərilə yaddaşında dərin kök salmış uşaqlıq və gənclik xatirələrini tamaşaçı ilə bölüşür.

Əşrəf Heybətin yaradıcılıq yolu çox çətin olub. Sərgilərdə iştirak etmək arzusunda olsam da, bu şans mənə qismət olmurdu- deyən Əşrəf Heybətin səsi sonradan Türkiyə, İsveçrə, Belçika, Malta, ABŞ, İsrail, Fransa və digər ölkələrdən gəlir.

O, Almaniyada Çingiz Aytmatov adına Beynəlxalq Fondun rəhbəridir. Çingiz Aytmatov onun haqqında belə yazmışdır:

-"Əşrəf Heybətin Rusiya və Azərbaycandan başqa Avropanın bir çox dövlətlərində təqdim olunan sənət əsərləri tamaşaçıda xüsusi zövq və maraq oyadır. Əşrəf Heybət fantaziyasını qarışıq rənglərlə kətan üzərinə köçürə bilən möcüzəli rəssamdır. Onun rəsmlərində mistika və modern bir araya gəlir.

İyirmi yaşında sənətə atılan bir rəssamın sərgi açmaq arzusu 30 yaşında həyata keçmişdi. Əşrəf Heybət üçün bu çox görünsə də, amma arzusuz, niyyətsiz heç bir iş ortaya çıxmır.

Bu anda Əşrəf Heybət qarşımda inam və dözümlülük mücəssəməsi kimi canlandı. İlk sərgisindən danışanda Əşrəf Heybətin gözlərindəki sevinci görmək mənə də qismət oldu."

1981-ci ildə Moskva Beynəlxalq Münasibətlər İnstitutunda açılan ilk sərgisi yadda qalandır. Sərginin təşkilatçısı, o zaman Azərbaycan Respublikasının gələcəkdə Prezidenti olacaq İlham Əliyev idi.

Əşrəf Heybətin sənətdə gələcək taleyinin cığırını təyin etməkdə bu insanın böyük rolu olub.

Mədəniyyətin beşiyi sayılan Vatikanda ilk müsəlman rəssamının yaradıcılığı ilə tələbkar tamaşaçı tanışlığı imkanını əldə etdiyi üçün Əşrəf Heybət özünü dünyanın xoşbəxti saya bilər. Hər bir sərgi rəssamın tamaşaçı qarçısında hesabatıdır.

Bu möhtəşəm sərgidə Roma Papasının kardinallarından biri iştirak edirdi. Əşrəf Heybətin söylədiyi kimi o, özünü böyük bir imtahan qarşısındakı kimi hiss edirdi. O günün uğuru onun qəlb dəftərinə qızıl hərflərlə həkk olundu.

Əşrəf Heybət qürbətdə yaşamağından asılı olmayaraq azərbaycanlı ol duğundan hər zaman qürur duyur.

Əlbəttə ki, Azərbaycanın da onunla fəxr etdiyi birmənalıdır.

Sonradan onun sərgisi BMT-nin Buxarest şəhərində Prezident Sarayının muzeyində nümayiş etdirilir. Sərgidəki əsərlərin əksəriyyəti Qarabağ mövzusuna həsr olunmuşdu. Əşrəf Heybət əsərlərilə dünya ictimaiyyətinin diqqətini Azərbaycana yönəltməklə, hadisələri bəşəriyyətin faciəsi kimi çatdırmağa nail olur. Əşrəf Heybət əsərlərilə

qaçqın- köçkün, yurdsuz-yuvasız soydaşlarının ahnaləsini, harayını içindən keçirərək etiraz səsini yüksəldir.

Onun 2006-cı ildə Cenevrədə BMT-nin Sarayında keçirilən sərgisinin uğuru da yadda qalandır. Belə bir Sarayda sərgisi keçirilən ilk azərbaycanlı Əşrəf Heybət olub. Qısa müddət ərzində bu sərgi böyük rezonansa səbəb olur.

Azəbaycanla döyünən ürək sahibi Əşrəf Heybətin məhəbbətdən yaranan sənət əsərləri əsl ilham mənbəyidir.

Görkəmli sənətkarımız Əşrəf Heybətin hər il ana yurduna gələrkən doğmaları və dostları ilə görüşü onun qürbət havası ilə çırpınan qəlbinin daima Azərbaycanla olduğunun sübutudur.

Ulu Öndərimiz Heydər Əliyevin dediyi – "Mən həmişə fəxr edirəm ki, mən Azərbaycanlıyam!" kəlmələri Azərbaycanı dünyaya əsərlərilə tanıtdıran Azərbaycanın Əməkdar rəssamı Əşrəf Heybətin də dilinin əzbəridir.

Onun arzusu Qarabağ torpaqlarının azad olunması pannosunu işləməkdir.

Əşrəf Heybətin belə bir kompozisiya yaradacağına əminliklə zəmanət verə bilərəm. Çünki vətənini sevən, heç vaxt onu unutmayan Əşrəf Heybət- əsl vətən oğludur!

2016-cı ildə Əşrəf Heybətin Bakıya gəlişi də səmərəli oldu. Oktyabrın 4-də Azərbaycanın Diplomatiya Akademiyasında (ADA) keçirilən rəsm sərgisi yadda qalan oldu. Rəngarəng rəsmləri ilə tamaşaçıları heyrətdə qoyan Əşrəf Heybət və həyat yoldaşı Regina xanım sadəliklərilə özlərini bizlərə bir daha sevdirdi. ADA-nın rektoru Hafiz Paşayevin təşəbbüsü sayəsində keçirilən tədbirdə iştirak edən ziyalılar və qohumlar sırasında mən və qızım Könül də dəvətli idi. Müəllifin sənət əsərləri Akademiyanın 2-3 salonunda yerləşdirilmişdi.

Qızım Könül xanım bu sərgidən əli dolu getdi. Salona daxil olandan onun gözü Əşrəf Heybətin "Yatmış Gözəl"

rəsm əsərini tutmuşdu. Ana-bala zövqümüz eyni olduğu kimi burada da eyniləşdi. Bu sənət əsərini – Əşrəf Heybətin hədiyyəsini qəbul edərkən qızımın sevincini gözlərindən duydum. Əsər insanı sevindirən, dilləndirən və düşündürəndir. Yatmış gözəlin üstünə qonmuş şahlıq quşuna və dimdiyində tutduğu gülə baxıb, bu rəsmin qızıma xöşbəxtlik gətirəcəyinə inamlı oldum.

Sərgidə nümayiş etdirilən rəsmləri nəzərdən keçirən iştirakçılara baxaraq düşündüm, hayıf ki, vətən oğlu Əşrəf Heybət bizlərdən uzaq düşüb. İnanıram ki, bir vaxt gələcək və O, Azərbaycana dönəcək. O tərəflərdə nə qədər yaxşı olsa da, Vətən - Vətəndir, Vətən -çağırışdır.

Bunlar mənim içimdən gəlir. Bilmirəm, amma belə arzuladım. Bəlkə bu ondan irəli gəlir ki, mənim də atam uzun müddət vətəndən uzaqlarda yaşayıb, yaradıb.

**P.S.** *2018-ci il may ayında Ölkə Prezidenti İlham Əliyev Cənablarının Sərəncamı ilə Əşrəf Heybət - Azərbaycanın Xalq Rəssamı Fəxri adına layiq görüldü.*

# PEŞƏKARLIQ YAŞA BAXMIR

Bəli, hər bir rəssam kimi onun da öz arzuları, öz dəsti - xətti vardır. Bu sözlər peşəkar rəssam Nihad Əliyevə aiddir.

O, deyir ki, yüksək nailiyyətlər əldə etmək üçün rəssam əsərlərini işləyərkən ona texniki cəhətdən düzgün yanaşmalıdır.
O zaman onun əsərləri maraqla izləniləcək. Buna çalışır gənc rəssam Nihad.

Onun rəsmlərində qeyri-adilik hiss olunur. Nihad bu sahədə təhsil almasa da, rəsmlər üzərində işləməkdən zövq alır. Söylədiklərinə görə bunu peşəkarlıq hissləri tələb edir ondan.

Onun çəkdiyi portret, uzun müddət Fransada yaşayıb-yaradan məşhur azərbaycanlı yazıçı - Baninin portreti diqqətimi cəlb etdi.

Gənc peşəkar rəssamın keçmişlərə qayıdış edərək məşhurların portretlərini şəkməyi çox maraqlıdır. Bu cəhətdən kitabdakı portretdən göründüyü kimi- Azərbaycanın milyonçu- xeyriyyəçiləri Ağa Musa Nağıyev və Ağa Şəmsi Əsədullayevin nəvəsi- Ümmül Banu-Baninin portreti diqqəti çəlb edir. Yaratdığı kompozisiyada portretin kənarlarında Baninin hər iki babasının şəkilləri ilə bərabər binalarını da yaşatmaqla, ağ saçlı Baninin azərbaycanlı olduğunu və Vətənə həsrətini əks etdirə bilib. Baninin (fotoda Bunin ilə birlikdədir) düşünən simasının arxasında məşhur Eyfel Qülləsini verməklə o, yazıçının uzun müddət Fransada yaşayıb-yaratdığından xəbər verir.

Tarixi mövzulara müraciət etmək, məşhurların portretlərini kompozisiya formasında yaratmaq - rəssam Nihad Əliyevin yaradıcılığında xüsusi yer tutur.

O, məşhur rəssamların yaradıcılığı ilə maraqlandığını qeyd edərkən əlavə edir ki, rəssamın peşəkarlığı – çəkdiyi

rəsm əsərinin yüksək qabiliyyətə malik olduğunu hiss etdirə bilməsidir. Nihad buna çalışır!

Çəkilən zəhmətin mütləq dəyəri olur. Azərbaycanın görkəmli rəssamlarından zövq alan Nihadı Avropa və rus rəssamlarının əsərləri də maraqlandırır. O, Azərbaycanın məşhur rəssamlarından: Səttar Bəhlulzadə, Tahir Salahov, Maral Rəhmanzadə və Toğrul Nərimanbəyovun yaradıcılığından bəhrələnərək, ilham aldığı işinə daha məsuliyyətlə yanaşır.

Nihadın çox maraqlı tərcümeyi-halı var. 4 yaşından rəsm çəkməyə meyilli olduğunu hiss edən valideynləri, onu bu yoldan döndərə bilmirlər.

Nihad 9 yaşında bədahətən portret çəkməyə başlayır. Bu sahədə püxtələşdikcə, Nihad qarşısına dünyaşöhrətli rəssam olacağını məqsəd qoyur və buna bu gün də var qüvvəsilə çalı şır.

Verdiyi müsahibələrdən hiss olunur ki, o, dünyaşöhrətli rəssamların – Şeyn Qoffoq, Sakali Abderrəhman, Mikelancelo və b. əsərlərilə çox maraqlanır.

Nihadın müsahibələrindən aydın olur ki, çəkdiyi rəsm və portretlərini Azərbaycanın rəssamları kimi xarici rəssamlar da bəyənir. Bütün bunlar Nihadın daha böyük ruh yüksəkliyi ilə işləməsinə səbəb olur.

Nihad daha çox tarixi mövzularda işləmək həvəsindədir. Əsas məqsədi yeni-gənc nəsli keçmişimizlə tanış etməkdir.

Nihad Əmirəli oğlu 1986-cı ildə əsasən kənd təsərrüfatı məhsulları ilə xüsusi şöhrət tapan Azərbaycanın Göyçay şəhərində anadan olub. Ali təhsilli iqtisadçıdır. İncəsənət sahəsində təhsili olmasa da, rəssamlığından əl çəkməyir.

32 yaşlı Nihadın kolleksiyasında 60-dan çox rəsm əsəri var. Bu sahədə mövzuları artdıqca Nihadın

dünyaşöhrətli rəssam olmaq arzusuna çatacağına inamı daha da artır. Belə ki,o,:-

"Sevimli Göyçayın narı və nar bağına açılan pəncərə" kompozisiyası rəsm əsərində, Birinci Vitse-prezident xanım Mehriban Əliyevanı Göyçay şəhərinə kiminsə evinə qonaq gəlmiş kimi təsvir etmişdir. Göyçay narın vətənidir. Masanın üstündəki qabda Göyçayın ən dadlı növ narları olmaqla, sayıının mənası - övladlarının rəmzidir. Divardan asılan Azərbaycanın xəritəsi, nar dənələrindən hazırlanmış əl işidir. Açıq pəncərədən görünən nar bağı sanki xanım Mehriban Əliyevanın qonaq gəldiyi evin pəncərəsindən görünən mənzərənin təsviridir. Ağaclardakı narların mənası isə xanım Mehriban Əliyevanın milyonlarla pərəstişkarı olduğuna bir işarədir.

Rafiq Əliyevin portreti -"Mənim həyat düşüncələrim" adlı kompozisiyasında Azərbaycanın bayrağı və xəritəsini göstərməklə Nihad – onun dünya-şöhrətli azərbaycanlı alim olduğunu təsdiqidir. Kitablar isə Rafiq Əliyevin elm sahəsində ən yüksək zirvəyə ucalıb və dünya-şöhrətli alim olduğuna, tələbə şəklində süjet formasının mənası – dünyanın tanınmış Universitetlərinin professoru olduğuna işarədir. Kitab oxuyan oğlan uşağının simasında – onun Novruzlu kəndində keçmiş uşaqlıq illərində yaz aylarında təbiətdə kitab oxuduğu bildirilir.

Memar və dizayner Zaha Hədidə həsr etdiyi əsərini "Mənim ən sevimli layihələrim" adlandırıb. Masanın üstündəki Bakı şəhərində yerləşən Heydər Əliyev Mərkəzinin gecə vaxtı olan görünüşdə çəkdiyi maketidir. Nihad bu maketi Bakı gecələrinin işıqlarında qeyri adi gözəl görünməsinə çalışıb və buna nail olub.

2012 – ci ildə Bakıda ucalmış möhtəşəm "Heydər Əliyev Mərkəzi"nin dizaynı Zaha Hədidə məxsusdur. O, bu işinə görə 2012-cü ildə xüsusi olaraq London muzeyinin "İlin Dizaynı" mükafatına layiq görülüb. Zaha

Hədidin Bu əsəri Şərqin ən gözəl memarlıq incilərindən biri sayılır.

Bu da Nihadın bir qələbəsidir. Düşünürəm ki, onun çəkdiyi Baninin portretinin tarixi kitabda sərgilənməsi özü də bir qələbənin başlanğıcıdır. Minlərlə oxucu bu tarixi kitabı oxuyaraq, Nihad haqqında məlumatı başqalarına da ötürəcək.

Kim bilir, bəlkə elə bu kitabın da rolu olacaq onun vaxtı ilə dünyaşöhrətli rəssam kimi tanınacağına. Bir də onu bilirəm ki, uğurlarının bol olması Nihadı çaşdırmayacaq, əksinə onun daha mətinli olmasına kömək edəcək.

## В ПОИСКАХ ПРОШЛОГО

### Kitab haqqında rəy

"В поисках прошлого" kitabında sahibkarlığı və fəaliyyəti işıqlandırılan Ağa Musa Nağıyevin tərəqqipərvər ziyalı, yaşadığı zaman məsafəsində dövrünün tanınıb seçilən simaları sırasında öz möhürünü vurduğu aydın görünür.

Ziyalılığı, alicənablığı və təvazökarlığı özündə cəmləşdirməyi bacaran Ağa Musa Nağıyevin keçdiyi həyat yolunun məqamlarını əks edən nəşrlər müasirlərimizlə tanışlığa imkan yaradır.

Kitabda Bakını qurub-yaradan neftxudaların bəziləri haqda da məlumat verilməklə zaman-zaman fəaliyyətinə kölgə salınmış A.M.Nağıyevin göstərdiyi xidmətə rast gəlirik.

Ötən əsrin əvvəllərində varidatına görə məşhurlaşan on bir Bakı milyonçusu sırasında birincilik qazanan Ağa Musa Nağıyevə sovet hakimiyyəti illərində "istismarçı kapitalist" damğası vurmaqla bərabər, hətta ünvanına "xəsis" deməkdən də çəkinmədilər.

Amma arxiv sənədlərindən və xatirələrdən onun gördüyü xeyirxah işlərindən, tikdirdiyi binaları və digər qeyri-adi savab əməllərindən xəbərdar olduqca, oxucu başqa cür düşünür. Tarix elmi sovet dövründə ideoloji çərçivədə saxlanılan, "ön planda" olan ideoloji bir sahə idi ki, tədqiq edilən mövzu "müxtəlif göstərişlər" əsasında həyata keçirilirdi. Böyük Oktyabr İnqilabı Azərbaycan xalqının əsrlər boyu formalaşmış milli mentalitetini əks etdirən adət-ənənələri, cəmiyyətdə mövcud olan dəyərləri kökündən dəyişərək "yeni həyat" tərzi yaratdı.

Xalqın tarixi saxtalaşdırılaraq onun ziyalı nümayəndələri ilə bərabər sahibkarları da unutqanlığa

düçar oldu. Kitabda eləcə də tarix elmində unudulmuş tarixi səhifələrin mövcud olması da yer alıb. A.M.Nağıyev xalqına, millətinə mümkün qədər xidmət etməyi bacarıb. Əgər o, taleyin qəzavü-qədərinə düçar olmasaydı, daha nələr yaradacaqdı. Onun təkcə Bakı şəhərində tikdirdiyi 98 bina tarixin daş yaddaşıdır. Bu binaların hər naxışında neft milyonçusunun saf əməlləri, vətənpərvərliyi təsvir olunur.

Ağa Musa Nağıyev iri neft maqnatları arasında Nobel qardaşlarından sonra ən varlı və ən mötəbər milyonçu kimi tanınıb. 11 yaşından hamballıq edən, saman satan Hacı Nağı oğlu əlinin qabarı ilə 49 yaşında milyonçu titutunu qazanıb.

“Elm” nəşriyyatında rus dilində çap olunmuş “В поисках прошлого” kitabın ərsəyə gəlməsində AMEA-nın Prezidenti, Akademik Akif Əlizadənin əməyi diqqətəlayiqdir.

Müəllif - Dilarə Nağıyeva bu nəşrdə də Ağa Musa Nağıyevin uzun müddət kölgədə qalmış fəaliyyətini və xalqına göstərdiyi xidmətini ön planda göstərə bilib.

XX əsrin əvvəllərində Azərbaycanın “On bir məşhur milyonçular” sırasında adı çəkilən Ağa Musa Nağıyev uşaq yaşlarından çalışqanlığı ilə seçilib, əziyyətli yollar keçdiyinin şahidi oluruq.

Kitabın redaktoru akademik Arif Həşimov fikrini “Zamanla böyüyən insan” başlığı altında, Ağa Musa Nağıyevin çətin və faciəli həyatının xalqın taleyilə sıx bağlı olduğu ilə tamamlayır. Maarifçilik missiyasını həyata keçirən ziyalı, bu məfhumun dəyərini dərk edərək, təhsilin inkişafına qayğı göstərib, vəsait ayırdığını, qısa bir zaman kəsiyində Azərbaycanda belə insanların əməyi və milyonları sayəsində ziyalılar nəslinin təşəkkül tapdığını qeyd edir.

Arif Həşimov qeyd edir ki,: “Keçmişə hörmətlə yanaşmaq, Azərbaycan tarixini, onun dəyərli səhifələrini övladlarımıza, gələcək nəslə ötürmək hər birimizin borcudur. Dilarə xanımın bu mövzuya müraciət etməsi və zaman məsafəsində qazandığı nailiyyətləri onun vətənpərvərlik hisslərindən, humanizmindən, incə, nəcib duyğularından irəli gəlir. Xeyriyyəçilik prinsipləri ilə tanınan, insanlara maddi və mənəvi dayaq olan bu xanımın ürək genişliyi onun ətrafında olan insanlara sevgi payı aşılayır... Taleyin hökmünə - qismət deyilən anlamlara inanmayanlara bir məsləhətim var: - neft milyonçusu A.M.Nağıyevin həyat tarixçəsinə nəzər salsınlar...”

Müəllif A.M.Nağıyevin əməllərini dolğun əks etdirmək məqsədilə “Gördüyü xeyirxah işlərin siyahısı”nı da kitaba əlavə edib. Siyahıdakı bilgilərdən heyrətə gəlməmək qeyri-mümkündür.

Ağa Musa Nağıyevi olduğu kimi xalqa çatdırmaq özü də bina tikməyə bərabərdir.

Ağa Musa Nağıyevin inşa etdirdiyi arxitektur binaları gözəlliyi kimi möhtəşəmliyi ilə də seçilir. O, fəhlələrinə toy edən, incəsənətə fikir yönəldən, imkansızların vəsiyyətlərinə əməl edib, dəfnlərini Kərbəlada öz hesabına keçirən, xəstəxanalar və mehmanxanalar tikdirənlər sırasında birincilik qazanan olub.

O, ictimai həyatda da fəallıq göstərib, “Maarif Cəmiyyəti”ni yaradıb, şikəst uşaqlara yardım edən “Uşaq Bağçası Xeyriyyə Cəmiyyəti”nin həqiqi üzvü olub, ictimai yığıncaqlar keçirmək məqsədilə xüsusi binalar inşa etdirib.

Bu gün onun memarlıq üslubu ilə seçilən binalarında fəaliyyət göstərən Komitə və Nazirliklərin sayı 29-a çatıb. 28 may küçəsində yol boyu sıra ilə düzülmüş binaların əksəriyyəti A.M.Nağıyevin təşəbbüsü ilə inşa olunmuşdur. O binalar ki, bizə tarixdən soraq verir. Azərbaycanın belə

övladları bizləri tariximizin müəmmalı, qaranlıq qalan olayları ilə tanış edir.

Kitabda Ağa Musa Nağıyevin nəsil şəcərəsi də maraqlı şəkildə diqqətə çatdırılır. Xeyriyyəçinin kökündən şaxələnən budaqları Nağıyevlər nəslini ağacın ətrafında cəmləşdirir.

XIX əsrin axırlarından etibarən təhsilin və səhiyyənin inkişafına kömək məqsədilə Azərbaycanda ziyalılarının və sahibkarların səyi nəticəsində xeyriyyə cəmiyyətləri yaradılır.

Azərbaycan mədəniyyətinin, incəsənətinin və memarlığının inkişafında fədakarcasına fəaliyyət göstərən belə bir insan haqqında kitablar yazmaq, araşdırmalar aparmaq, üstünü toz basmış sənədləri toplamaq, xeyirxah işlərin bəhrəsi olan binaların siyahısını tərtib etmək özü də böyük qüvvə tələb edir.

25 ildən artıq bu işlərin həyata keçməsində müəllif çox əmək sərf edib. Bu kitabı Ağa Musa Nağıyevi xalqın yaddaş tarixçəsində əbədi bir cığıra yönəldən vacib məqam sanmaq olar.

## KİTABIN TƏQDİMATI

Azərbaycan Milli Elmlər Akademiyası Rəyasət Heyətinin Prezidenti – Akademik Akif Əlizadənin məsləhəti və dəstəyilə rus dilində çap edilən bu kitabın təqdimatı 2017-ci il yanvarın 18-də AMEA-nın binasında keçirildi.

XIX-XX əsr Azərbaycanda milli burjuaziyanın formalaşması, ölkənin sosial və mədəni inkişafı 11 Bakı milyonçusunun adı ilə bağlıdır. Millətini, xalqını sevən, ölkəsinin tərəqqisi naminə dövlətinin xeyli hissəsini bu müqəddəs işə həsr edən Bakı milyonçusu Ağa Musa Nağıyevin fəaliyyəti ilə bağlı araşdırmalar aparan yazıçı-

nəvənin- A.M.Nağıyev adına “Milli Dəyərlərin Qorunması” İctimai Birliyin sədri, Tarix üzrə fəlsəfə doktoru Dilarə Ağamusanın fəaliyyəti, onun bir sıra elmi-populyar əsərləri ictimaiyyət və elm adamları tərəfindən maraqla izlənilir.

Dilarə xanım “В поисках прошлого” kitabını vətənpərvər- xeyriyyəçi, Bakı milyonçularından ən öndə gedən siması Ağa Musa Nağıyevin tikdirdiyi məşhur “İsmailiyyə” binasının 100 illiyinə həsr edib. O, sevərək qələmə aldığı bu kitabı ilə oxucuların qəlbinə yenidən yol taparaq, mənəvi borcunu yerinə yetirməklə, Ağa Musa Nağıyevi olduğu kimi xalqa tanıtmağa çalışıb.

Millət vəkilləri, alimlər, ziyalılar, mətbuat orqanlarının iştirak etdiyi bu tədbirin aparıcısı A.A.Bakıxanov adına Tarix İnstitutunun direktoru, Akademiyanın Həqiqi üzvü, millət vəkili Yaqub Mahmudov idi.

Çıxışını XIX-XX əsr Azərbaycan, Avropa ölkələrinin ölkəmizə baxışı və Azərbaycanda haqsızlığa qarşı milli oyanışın başlanmasından başlayan Y.Mahmudov Akademiyanın Tarix İnstitutunda bu məsələlərlə bağlı əhəmiyyətli araşdırmaların aparıldığını da qeyd etdi.

O, müəllifin Ağa Musa Nağıyev ilə bağlı araşdırmalarına önəm verərək kitabı elmi əsər kimi dəyərləndirdi. Şollar suyunun çəkilişində əməyi olan Ağa Musanın tikdirdiyi möhtəşəm binalarla, ən əsası, məşhur “İsmailiyyə” binası ilə tarixdə öz möhürünü vurduğunu bildirdi.

Tədbirin təşkilatçısı AMEA-nın İctimai elmlər bölməsinin akademik katibi, AMEA-nın müxbir üzvü Nərgiz xanım Axundova çıxışında XIX əsrin ortalarından - XX əsrin əvvəllərinədək Azərbaycanda milli burjuaziyanın ölkənin sosial-mədəni fəaliyyətinə olan təsirindən söz açdı.

Tarix keçmiş olmaqla, eyni zamanda gələcəkdir – deyən millət vəkili Qənirə Paşayeva, tarixi şəxsiyyətlər haqqında yazılan kitabların gələcək nəsillərə örnək

olduğunu qeyd etdi. Dilarə xanımın kitabın ərsəyə gəlməsində çəkdiyi zəhməti qiymətləndirərək təbriklərini çatdırdı.

Millət vəkilləri Jalə Əliyeva, Dilarə Cəbrayılova da Ağa Musa Nağıyevin millətin tərəqqisi naminə xidmətlərindən danışaraq, müəllifin kitabda milyonçu ilə bağlı bəzi gizli məqamlara aydınlıq gətirdiyini, həqiqətin aşkara çıxarılmasında əməyini qiymətləndirdilər. Şairə, publisist Nurəngiz Gün ilə Dilarə xanımın uşaqlıq xatirələrini yada salmağı Jalə xanım vacib saydı.

Tarix İnstitutunun şöbə müdiri, tarix üzrə fəlsəfə doktoru Hacı Həsənov XIX əsrin ortalarından - XX əsrin əvvəllərinədək Bakı nefti və onun tarixi ilə bağlı aparılan araşdırmalardan söz açaraq, o dövr üçün neft hasilatı ilə bağlı statistik məlumatlar verdi.

İnstitutun aparıcı elmi işçisi, tarix üzrə fəlsəfə doktoru Sevinc Mustafayeva "Ağa Musa Nağıyev Azərbaycanın böyük sənayeçisi" mövzusunda məruzə edib kitab haqqında fikir söylədi. Dilarə Ağamusanın tədqiqatçılıq fəaliyyətini dəyərləndirib, bu müqəddəs işində ona uğurlar arzuladı.

Dilarə Ağamusa tədbirdən aldığı təəssürata görə iştirakçılara təşəkkürünü bildirərək, AMEA-nın Zoologiya İnstitutunun dosenti Yeganə Mahmudbəyliyə kitabın tərcüməsində göstərdiyi köməyini xüsusi vurğuladı.

Sonda - Akademik Akif Əlizadə, Tarix İnstitutunun direktoru Yaqub Mahmudov və AMEA-nın müxbir üzvü Nərgiz Axundova "Milli Dəyərlərin Qorunması" İB-in təsis etdiyi -"**AĞAMUSA ZİRVƏSİ"** diplomları ilə təltif olundular.

*"Cəmiyyət və qadın" qəzetinin şöbə müdiri,*
*"MDQ" İB-nin Şura Sədri -Yeganə Mahmudbəyli.*

# KİTAB HAQQINDA TƏƏSSÜRAT

*A.A.Bakıxanov adına Tarix İnstitutunun*
*a.e.i, t.ü.f.d.*
*S.M.Mustafayeva*

Tariximizdə elə şəxsiyyətlər olub ki, onları sözün əsl mənasında milli-mənəvi dəyərlərimiz-sərvətimiz hesab etmək olar.

Qeyd etmək lazımdır ki, milli şüurun oyanışı və milli təfəkkürün inkişafında XIX əsrin sonları -XX əsrin əvvəllərində ziyalılarımızla yanaşı yaranmaqda olan milli burjuaziya nümayəndələrimizin rolu böyük olmuşdur.

Lakin təəssüflər olsun ki, uzun onilliklər boyu onların millət yolunda, xalq yolunda etdiklərinin üzərinə kölgə salınmış, fəaliyyətlərini əks etdirən qiymətli arxiv sənədləri araşdırılmamış qalmışdı.

Sovet təbliğat aparatının üzərlərinə "burjua" damğası vuraraq nəinki ləkələməyə, hətta tarixdən və xalqın yaddaşından silməyə çalışsalar da, H.Z.Tağıyev, A.M.Nağıyev, M.Muxtarov, Ş.Əsədullayev, Ə.Aşurbəyov, İ.Hacınski və digər mesenatlar xalqın və millətin yaddaşında o qədər dərin izlər buraxmış və şöhrət qazanmışlar ki, onların xidmətlərini ört-basdır etmək sovet ideologiyasına nəsib olmadı.

Çağdaş dövrümüzdə azərbaycançılıq ideologiyasının formalaşdığı bir şəraitdə xalqın inkişafı və tərəqqisi yolunda fədakarcasına çalışan, millət təəssübkeşləri olan bu görkəmli şəxsiyyətlərin dəyəri verildi. Tarixşünaslığımızda onların adları ilə bağlı bir sıra əsərlər yarandı.

Bu mənada millətin görkəmli şəxsiyyətlərindən olan A.M.Nağıyevin həyat və fəaliyyətini əks etdirən əsərlərin yaranması da təqdirəlayiqdir.

Milyonçunun qədirbilən nəvəsi Dilarə xanım uzun illər irsinin yorulmaz tədqiqatçısı olaraq bu sahədə nailiyyətlər qazanmaqla (nəşr etdirdiyi əsərlər nəzərdə tutulur) - tariximizin daha bir qaranlıq səhifəsinə işıq sala bildi.

Azərbaycan milli burjuaziyasının görkəmli şəxsiyyətlərin dən biri olan A.M.Nağıyevin keşməkeşli həyat yolunda "Nicat", "Səfa" və "Səadət" Cəmiyyətlərində gördüyü işlər də əsas yer tutur.

Xalqın ictimai fikir tarixində xüsusi yeri olan böyük maarifçi Həsən bəy Zərdabinin yaratdığı Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti (BMXC) A.M.Nağıyevin nakam övladı İsmayılın xatirəsinə inşa etdirdiyi- Bakının nadir memarlıq incilərindən sayılan "İsmailiyyə" binasında yerləşirdi.

Qeyd etmək lazımdır ki, Azərbaycanın ictimai-siyasi və mədəni həyatında əhəmiyyətli rol oynamış BMXC Bakı milyonçularından H.Z.Tağıyevin, A.M.Nağıyevin və digər şəxslərin vəsaiti hesabına maliyyələşdirilirdi.

"Nicat", "Səfa" və "Səadət" Cəmiyyətlərinin fəaliyyət göstərdiyi "İsmailiyyə" binası tarixə müstəqillik uğrunda mübarizənin əsas qərargahlarından biri, milli məfkurənin formalaşdığı mərkəz kimi daxil olmuşdur.

1918-ci ilin qanlı mart günlərində erməni daşnaklarının "İsmailiyyə"ni talan edərək yandırmaqla, şəhər memarlığına ən böyük qəsd adlandırmaq olar.

Hal-hazırda bu möhtəşəm binada Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyəti fəaliyyət göstərir.

A.M.Nağıyev o dövrdə fəaliyyət göstərən bir sıra mədəni-maarif və Xeyriyyə Cəmiyyətlərinin tədbirlərində və ənənəvi "Bakı gecələri" məclislərinin keçirilməsində yaxından iştirak etmişdir.

“Nəşri-maarif” və “Səadət” Cəmiyyətlərinin 1914-cü ildə keçirdiyi gecələrin birində iştirakçılardan yığılmış ianə cəmi 525 rubl olduğu halda H.Z.Tağıyevin və A.M.Nağıyevin hər birinin verdiyi ianə 4000 rubl təşkil edib.

Ağa Musa Nağıyevin ictimai fəaliyyəti də bilavasitə xalqın rifahının yüksəldilməsinə, səhiyyənin inkişafına yönəlmişdir. O, vərəmlə mübarizə üçün yaradılan “Qafqaz Cəmiyyətinin” sədri olmuş, uşaq ölümü ilə mübarizə aparan “Bakı cəmiyyəti”nə küllü miqdarda pul köçürməklə, bu cəmiyyətin xeyriyyəçilik məqsədi daşıyan bir sıra işlərinə də öz imzasını atmışdır. 20 ildən artıq bir müddətdə Bakı Şəhər Dumasının qlasnısı olmuşdur.

Kimsəsiz uşaqlardan qayğısını əsirgəməyən, inşasına hələ 1898-ci ildə başlanmış, lakin vəsaitin azlığı səbəbindən yarımçıq qalmış “Yetimlər Evi”nin tikintisinin başa çatdırılması üçün iri məbləğdə ianə verən bu böyük şəxsiyyət olub.

Bu və digər fəaliyyətinə görə o, III dərəcəli “Müqəddəs Stanislav” ordeni, 1910-cu ildə isə çar II Hikolay tərəfindən “Zolotaya şeynaya medal na Andreyevskoy lente” döş nişanı ilə təltif olunmuşdur.

**Onun inşa etdirdiyi Realnı məktəbdə - Dövlət İqtisad Universitetində təhsildə fərqlənən tələbələrə bu gün də “Musa Nağıyev” adına xüsusi təqaüd verilir.**

1907-ci ildə mesenatın qubernatora etdiyi müraciətinə əməl edilərək 2007-ci ildən etibarən bu Universitetin akt zalını onun və nakam oğlu İsmayılın portretləri bəzəyir. Bu iş Dilarə xanımın təşəbbüsü və keçmiş rektor Şəmsəddin Hacıyevin səyi nəticəsində həyata keçib.

Yaşadığı cəmiyyətin hərtərəfli inkişafına çalışan bu böyük şəxsiyyət həmişə xalqın yanında olmaqla onun hər bir işində yaxından iştirak etmişdir. Belə ki, fəhlələrinə toy edən, dünyasını dəyişmiş 35 yoxsul ailənin vəsiyyətinə əməl edərək onları Kərbəlada dəfn etdirən Ağa Musa olub.

Xalqın içindən çıxmış bu böyük insan milyonlara sahib olsa da, özünəməxsus şəxsi keyfiyyətləri ilə də seçilirdi. 1904-cü ildəki məlumatına görə onun qızıl pul ilə 70 milyona yaxın məbləği olub, ümumiyyətlə isə onun varidatı 413 mln., bəzi məlumatlara görə isə 690 milyon təşkil etsə də, qənaətcilliyi özünün həyat kredosu seçərək deyirdi ki, qənaətcillik yoxsulluqdan zənginliyə aparan yoldur.

Bu yolu seçən A.M.Nağıyev hətta şəxsi mühafizə xidmətini də israfçılıq hesab edərək ondan nadir hallarda istifadə edirdi. Bunu bilən şəhər qoçuları onu girov götürərək əvəzində 200 min rubl tələb etdikdə belə o, ölümlə hədələndiyinə baxmayaraq təmkinini pozmadan, yalnız 10 min verəcəyini, öldürüləcəyi təqdirdə isə heç bunu da ala bilməyəcəklərini bildirmişdir.

Belə maraqlı həyat yolu keçən və xalqımızın xeyriyyəçilik hərəkatında öz sözünü demiş olan bu görkəmli şəxsiyyətin həyat və fəaliyyətinə həsr olunmuş "Zamanın sorağında" kitabının iki dildə, azərbaycan və rus dilində, yayımlanması bir çox müəmmalı məqamlara aydınlıq gətirəcəyinə əminlik var.

Nəslin layiqli davamçısı Dilarə xanım geniş oxucu kütləsi üçün böyük töhfə ola biləcək bu və digər əsərləriə qəlblərdə və düşüncələrdə milyonçunun nurlu simasının əbədi heykəlini yarada bilib.

## YUXULARIM

2015-ci il avqust ayının 3-ü, 4-nə keçən gecə yuxuda Mira Pavlovnanı (xeyirxah bir qadın) gördüm. O, 1 manatlıq pulu büküb, mənə verir. Qadın çox kasıb olduğundan təkid etdim ki, lazım deyil. Mən neçə illər idi ki, ona maddi köməklik göstərirdim. Ürəyi çox təmiz, xoş xasiyyətli və Allaha inanan bir qadın olub. Mənim babam ətrafında fəaliyyətimi izləyib, uğurlarıma sevinən, həm də fəaliyyətimin azarkeşi idi. Yuxuma gəldiyindən bir il öncə dünyasını dəyişmişdi.

Bir də yuxuda kimsə mənə 17 rəqəmini verdi. Bu 17-rəqəmi elə bil qulaqlarıma sancıldl. Yaddaşıma yazdım bunları və gözlədim...

Avqustun 17-də səhər QHT Şurasından zəng gəldi ki, layihəm müsabiqədə uğur qazanıb. Sevindim və düşündüm ki, yuxum çin oldu.

Günorta saat 4 olardı. Nə etdiyimi özüm də anlamırdım. Biixtiyar televizorun kanalını ATV-dən başqa kanala çevirərkən, otağa keçən qızım Könül özündən asılı olmayan bir səslə qışqırdı ki, mama, tez kanalı ATV-yə döndər, qardaşımın xəstəliyindən danışırlar.

Televizorun ekranında həkimin Parkinson xəstəliyindən danışdığını eşidəndə özümü bir anlığa itirdim.

Ailəmizdə bir il idi ki, bu söhbət gedirdi. Mənəvi qızım Yeganə məhz bu həkim – Parkinson üzrə uzman-cərrah Əli Zırh haqqında danışmışdı. Cərrahi əməliiyyata tələb olunacaq məbləğin yüksək olduğundan, pulu əldə edən kimi Türkiyədə mütləq Z

Amma nə etmək, xəyal da olsa, elə bil nə isə gözləyirdim. Ümüdüm ancaq möcüzənin baş verəcəyinə idi...

Samir balam 7-8 il idi ki, bu xəstəlikdən əziyyət çəkirdi. Onu bir gün görməyəndə darıxırdım. Amma indi iki gün görməyəndə darıxsam da, sevinirdim ki, heç olmazsa həyəcanlı iki günü ötürdüm. Onun çəkdiyi əzabı görəndə şam kimi əriyirdim, sönməməyimə özüm məəttəl qalırdım.

Allah deyir ki, nəzərdən qorxun.

Tam sağlam, xoşbəxt, gözəl ailə sahibi olan oğluma sözün əsl mənasında göz dəydi. İndi mənim yalnız bir dərdim vardı. Desəm ki, yemirdim, içmirdim, düşünmək olar ki, yalandır. Sadəcə yaşayırdım. Amma belə yaşamağı heç bir valideynə arzu etməzdim. Yaşamağa Allah-Taala mənə güc verirdi.

Özüm-özümdən xəcalət çəkirdim, "niyə ölmürəm" sualı başımdan çıxmırdı. Bircə onu bilirdim ki, ölməyə haqqım yoxdur, mən balamı xilas etməliyəm! Əlacı yalnız Allahdan gözləyirdim. Bir ildə 7 qurbanlıq qoyun kəsdim, Pirləri gəzdirdim balamı, o gözəgörünməyəndən ona şəfa dilədim!

Özümü sakitləşdirərək – bu bir sınaqdır, deyirdim və gözləyirdim...

Ensiklopediyada bu xəstəlik haqqında oxuyarkən, bu axıradək belə də olacaq cümləsini başa vura bilmədim. Bu geniş və işıqlı dünya mənə indi daha dar və daha qaranlıq görünürdü. Amma daxilimdəki həyəcan və təşvişi biruza vermirdim.

Mənim kumirim Rəhim Hüseynov ikinci onillikdir ki, BMT yanında Ümumdünya Sülh Federasiyasının Azərbaycandakı nümayəndəliyinin Sədridir. Bu böyük İnsan ilə tanışlığım da buradan başlayıb.

Ağa Musa Nağıyevin tədqiqatçısı və nəvəsi kimi mənə olan hörməti qarşılıqlı idi.

Tale məni onunla görüşdürərkən, sanki qulağıma bir səs gəldi: "Bu gözəl insan ilə tanışlığının nəticəsi xeyirlə müşahidə olunacaq!"

Ailəmdə çox ağır gərginlik var idi. Yediyimi –içdiyimi özümə haram bilirdim. Yaşadığıma özüm məəttəl qalırdım. Oğlumun səhhəti günü-gündən pisləşirdi. Amma ümidimi üzmədən oğluma deyirdim mən səni sağaldacağam.

Cərrahi əməliyyatdan sonra oğlum mənə dedi, mama sən həmişə deyirdin ki, mən səni sağaldacağam. Bu belə də olub. Amma bunu daxilimdəki inamdan və ana sevgisindən deyirdim.

Aparılan "müalicə" heç bir nəticə vermir, ümidim isə sönmürdi. Beləcə düz 8-ci il keçirdi. Oğluma baxıb, sözün əsl mənasında şam kimi əriyirdim, amma mən də Rəhim Hüseynov kimi möhkəm iradəli olduğumdan, sınmırdım.

Yaxşı adamlar yer üzündə olub və var. Belələrindən biri də mənəvi övlad saydığım AMEA-nın dosenti Yeganə Mahmudbəylidir. Bu məsələdə ilk qaranquş saydığım Yeganəm.

Yenə düşüncələr, axtarışlar məni dinc qoymayır. Tələb ediləcək məbləğin yarısını əldə etmişdim, qalan hissəsinin axtarışında idim. Əlçatmaz saydığım bir işə əl atmalıyam. Əlimi uzadıram, amma...

Bu işdə mənə dəstək olan insanlardan biri də neçə illərdir ki, Rəhim Hüseynov ilə birlikdə Azərbaycanın Sülh Federasiyasında külüng vuran, Federasiyanın katibi Elmira xanım Məhəddinovadır. Deyirlər ki, "Ot kökü üstə bitər". Mən bu atalar misalını soy-kökündən xəbərim olduğuna görə, Elmira xanıma şamil edirəm. Elmira xanımın vasitəsilə Rəhim Hüseynovdan əlim çatmayan bir yerə zəng vurmağı xahiş etdim.

Səkkiz illik əzablarıma "bir telefon zəngi" son qoydu. Təmənnasız! Bu da bir sübutdur ki, Rəhim Hüseynov zəmanəyə görə bənzəri olmayan insandır.

Bu işdə mənə dəstək olan insanların hər üçünə təşəkkürümü bildirib, deyirəm ki, xeyirxahlıq bizim menta-

litetimizdən irəli gəlir. Çünki xəmirimizin mayası milli mentalitetimizdən yoğrulub.

Bunları yazmaqda məqsədim odur ki, Rəhim Hüseynov nəinki o zaman, bu gün də millətin dərdini-yükünü çəkir. Onun bu gün də hörməti hər yerdə var. Bunun üçün atalar deyib: “Yaxşılığını et, at dəryaya. Balıq bilməsə, Xalıq bilər”!

Rəhim Hüseynov bu gün də dövlətinə, millətinə o zamankı sevgisi və məhəbbətilə xidmət göstərən böyük şəxsiyyətdir.

Kitabda Rəhim Əli Hüseyn oğlu Hüseynovun fəaliyyətinə xüsusi yer ayırmışam. **“Varlığından nur saçan”** esseni oxuyun, onu daha yaxından tanıyın.

**Bu gün Allahıma çox şükürlər edirəm ki, oğlumu bu əzabdan xilas edə bildim. Bacısı Könül onun üçün nəzir dediyi 7 İsmayıl qurbanı kəsdi.**

## VARLIĞINDAN NUR SAÇAN

*Mənəviyyat zənginliyi - əsl İnsan kredosu,*
*Vətənə - xalqa olan tükənməz sevgi!*

Bu esse xalqın yaddaşına böyük insan və şəxsiyyət kimi daxil olmuş ölkənin sabiq Baş naziri, artıq ikinci onillikdir ki, BMT yanında Ümumdünya Sülh Federasiyasının Azərbaycandakı nümayəndəliyinin Sədri Rəhim Əli Hüseyn oğlu Hüseynov haqqındadır.

Söhbət elə bir insandan gedəcək ki, o, əməksevərliyi sayəsində fəhləlikdən mərtəbə-mərtəbə yüksələrək, Azərbaycanın Baş naziri zirvəsinə ucalmışdır.

Rəhim Hüseynovun ensiklopedik biliyə malik olması ilə bərabər təcrübəli iqtisadçı və təchizatçı olduğuna, dərin və

məzmunlu mülahizəsinə heyran qalanların sayı hesaba gəlməzdir. O, bir məktəbdir Azərbaycan üçün. Azərbaycanın elə bir rayonu tapılmaz ki, Rəhim Hüseynovun orada gördüyü işlər nəzərə çarpmasın. Bərdənin "Xam torpaq" ərazisində apardığı tikinti və abadlaşdırma işləri, yüz min tondan çox pambıq tədarük edilməsi, beş mərtəbəli yaşayış evlərinin, xalça fabrikinin, doğum evinin, pambıq zavodunun, eləcə də kolxoz bazarının tikintisindəki köməyini bərdəlilər bu gün də unutmurlar.

Qəbələdə dağlıq və dağətəyi ərazidəki turbaza, pioner düşərgəsi, tütün zavodu, süd-əmtəə ferması, məktəblər, uşaq bağçası və yaşayış evlərinin tikintisindəki əməyi danılmazdır.

Bakı, Sumqayıt, Əli Bayramlı, Gəncə, Naxçıvan və Dağlıq Qarabağda, eləcə də bir sıra başqa rayon və kəndlərdə mühüm sənaye obyektlərinin, təhsil,səhiyyə və mədəniyyət ocaqlarının, sanatoriya və istirahət evlərinin, kənd təsərrüfatı tikililərinin tikintisi ilə bərabər, bu yerlərdə sənayenin inkişafı sahəsində də Rəhim Hüseynovun əməyi böyükdür.

Quba, Qusar və Dəvəçi rayonlarında aparılan xeyli sosial- mədəni obyektlərin inşası, habelə Xaçmazda konserv zavodu, 40-60 mənzilli yaşayış evləri, məktəblər və uşaq bağcasının tikintisi də şəxsən Rəhim Hüseynovun nəzarəti altında ucalıb.

Meliorasiya və Su Təsərrüfatı Komitəsinin sədr müavini M.Mirzəyev demişdir: "Babalarımız pəncərə saydığı dünyaya mənasız baxıb, getmir. Şimşək olsa da, havayı yerə çaxmır, su kimi axıb getmir.

Rəhim Hüseynov elə şəxsiyyətdir ki, o, ömrünün mənalı keçməsi üçün biliyinə, zəhmətinə güvənir, xalqdan ilham alır, qurub yaradır. Ondan mənəviyyatı, iqtisadiyyatı, planlaşdırmanı, təchizatı və insani xüsusiyyətləri

öyrənənlərin sayı çoxdur. Qabiliyyəti, bacarığı, sadəliyi, prinsipiallığı çoxlarına örnəkdir”.

Bu insan həyatını bütövlükdə yaşayanlara – yaradanlara həsr edib. Bu, ona Tanrıdan verilən bir qismət- alın yazısıdır.

Onun hafizəsinə, bilik və bacarığına heyran olanlar çoxdur. O, mətbuat işçilərinə də xüsusi diqqət və rəğbət bəsləyib.

Qədim yunanlar “İnsanın özünü dərketmə” yarışları keçiriblər. Özünü dərk etmiş insan dünyanı da dərk edib, yeri, göyü, suyu, küləyi idarə edən Allahı da dərk edib.

Böyük hikmət sahibləri İnsan kəlməsini də Allah kəlməsi kimi böyük həriflə yazmağı təklif etmişlər. Bu səbəbdən insan sözü qürurla səslənir. Kiminsə qarşısında əyilmək Allaha xəyanət etməyə bərabərdir. Əsl insan oğlu öz vəzifə borcunu belə başa düşür. Rəhim Hüseynov belələrindəndir, heç vaxt qulluq nökərinə çevrilməyib, əyilməyib, sınmayıb. O, vəzifəni axtarmayıb, vəzifə onu tapıb.

Yalnız özünü dərk etmiş insan, kamillik zirvəsinə çatmış olur. Amma Rəhim Hüseynovun özündən soruşanda, bu zirvəni nə zaman fəth etdiyini deməkdə çətinlik çəkir.

Sovetlər zamanı yüksək vəzifənin heç kəsə miras verilmədiyi bir dövrdə, 29 yaşlı Rəhim Hüseynov nazir müavinliyinə bərabər bir vəzifəni icra edib. Arzusu Azərbaycanı dünyanın ən azad və abad ölkəsi, millətini isə xoşbəxt görmək olub. O, Ali təhsilini Moskvada alsa da, başqa oğullar kimi rahat həyat eşqilə böyük şəhərlərdə qalmayıb, vətənə dönüb.

Allah insanı bütün yaradılmışlardan sonra yaratsa da, özünəbənzər insanı yaradarkən ona sahibi-iqtidar ixtiyarı vermiş və demişdir: ”Get, bu gündən bütün yaratdıqlarımın sahibi sən olmalısan!”

Hər yeni vəzifə onu daha geniş bir xidmət sahəsinə çevirirdi. Amma vəzifəsindən asılı olmayaraq o, ümidləri doğruldurdu. Respublikanın inkişafı, doğma xalqın rifahı naminə bütün bacarıq və enerjisini sərf etmiş Rəhim Hüseynov beyninin hüceyrələrinədək vətənpərvər olub.

Yetmiş ildən də çox nəhəng rəmzi olan SSRİ-nin dağılacağı artıq şübhəsiz idi. Bu nəhəngin dalğaları altında qırılmamaq, respublikanı yeni dövrə salamat çıxarmaq hər bir uzaqgörən qeyrətli ziyalı kimi, Rəhim Hüseynovu da narahat edir, düşündürürdü. Dağlıq Qarabağda erməni separatçılarının baş qaldırdıqlarının da necə təhlükəli olduğunu o hiss edir, bunun həm Kremldən, həm də xaricdən idarə olunduğunu açıq söyləyirdi.

İqtisadi "islahatlar"ın necə qorxulu oyun oynadıqlarını Qorbaçovun üzünə deyənlərdən yeganəsi olub Rəhim Hüseynov.

Rəhim Hüseynov mərdliyi, cəsarəti, qeyrəti ilə bir çox vəzifə sahiblərindən fərqlənirdi. Azərbaycan Xalq Cəbhəsi rəhbərlik edəndə, Respublika Nazirlər Sovetinin sədri olaraq Rəhim Hüseynov başçıları ilə kompromissiz şərtlərlə razılığa gələrək bildirmişdi ki, hökumətə başçılıq edəcək, sosial-iqtisadi problemlərlə məşğul olacaq, siyasətə qarışmayacaq. O, bilirdi ki, dövlət idarəçiliyində şansı olanlar xalqı fəlakətə sürükləyə bilər. Aralarındakı razılığa baxmayaraq AXC-nin dövlət işlərinə qarışdığını görən Rəhim Hüseynov onlara əyilmədən ərizə yazıb, işdən gedir.

Belə deyirlər ki, müdrik insanlar üç cürdir: ağa təbiətli, nökər və yaltaq. Rəhim Hüseynov burada da birincilərdəndir. Onun üçün təmiz vicdan ən müqəddəs amal olub. Elə bu səbəbdən istedadının, bilik və bacarığının güçü ilə üzünə daha uğurlu qapılar açılıb hər zaman.

Gənc yaşlarından nəşriyyat orqanlarında işləyən atası Əli Hüseyn Hüseynov da vaxtı ilə vəzifə pillələrindəki sıçrayışı ilə başqalarından fərqlənib. “Azərnəşr”in direktoru, sonradan “Kommunist” qəzetinin redaktoru vəzifəsindən də daha yüksəklərə qalxan Əli Hüseyn Hüseynov Respublika Ali Sovetinin deputatı olmuşdur. Tibb İnstitutunu bitirdikdən sonra mətbuatdan uzaqlaşan və səhiyyədə fəaliyyətə başlayan Əlihüseyn doktor, Bakıda xəstəxana müdiri, müharibənin başlanğıcından axıradək Lənkəranda Hərbi hospitalın rəisi vəzifəsində çalışıb. Sonradan o, Səhiyyə Naziri, daha sonra isə həyatının sonunadək Kirov adına Kurortologiya İnstitutunun direktoru olub.

Anası Balacaxanım da həkim olub. Belə bir ailədə dünyaya göz açan Rəhim Əli Hüseyn oğlu tam fərqli olaraq, hələ kiçik yaşlarından kimyaçı olmaq arzusu ilə böyüyür. Bu arzu ilə Moskvada ali təhsil alan Rəhim Əlihüseyn oğlu, Bakıda Boru Prokat zavodunda usta, sonradan isə baş texnoloq vəzifələrini icra edərkən, Dövlət Plan Komitəsinin sədri olacağını heç ağlına da gətirmirdi.

Gənc mütəxəssis üçün nazir müavini vəzifəsi çox uca bir zirvə idi. Respublikanın bütün sahələri üzrə yeni tikintilərin, o cümlədən təhsil ocaqlarının, elm, incəsənət və mədəniyyət müəssisələrinin tikilib başa çatdırılmasında Rəhim Hüseynovun komandasının 24 il müddətində böyük rolu olmuşdur.

Rəhim Hüseynov Baş Nazir işlədiyi 15 ildə iqtisadiyyatın daha da möhkəmləndirilməsi uğrunda gördüyü işlər də danılmazdır. Apardığı düzgün kadr siyasətinin nəticəsində o, tabeçiliyində olan işçilərin əməyini yerində qiymətləndirə bilib.

Rəhim Hüseynov Respublika Dövlət Plan Komitəsinin sədri, Baş nazirin birinci müavini vəzifələrində də özünü sınayıb. 1989-cu il idi. Respublikada ictimai-siyasi

vəziyyətin qane edici olmadığı bir dövrdə də o, bu sınaqdan məharətlə çıxaraq uzun illər əldə etdiyi potensialı – çoxillik iş təcrübəsini qoruyub, saxlaya bilmişdir.

Ölkədə ziddiyyətlər yaşandığı bir dövrdə "bazar iqtisadiyyatı"nı qurmaq təkliflərinə çətinlik yaratsalar da, Rəhim Hüseynov bu maneələrə qalib gələ bildi. Zəngin təcrübəyə malik olan Rəhim Hüseynovun Respublika rəhbərliyinin üç dəfə dəyişildiyi bir vaxtda iqtisadiyyatımızın qorunub saxlanılmasındakı iş təcrübəsi onun köməyinə gəlir.

1990-cı ildən etibarən Rəhim Hüseynov Azərbaycan Respublikası Alimlər və Mühəndislər Birliyinin sədri, sonradan Vitse –prezidenti, daha sonra isə bu sahədə Konfederasiyanın və Beynəlxalq Ekoenerji Akademiyasının həqiqi üzvü seçilmişdir. Bu Akademiyanın əsas nailiyyətləri keçmiş Sovetlər ölkəsindəki elmi texniki birlikləri, konfederasiya isə 84 ölkənin birliklərini cəlb etməsi ilə başa gəldi.

O,1994-cü ildə yaradılmış Beynəlxalq "Xəzər fondu"nun ilk prezidenti seçilib. Vəzifədə yüksəldikcə, Rəhim Hüseynovun sadəliyi, böyüklüyü daha qabarıq şəkildə nəzərə çarpırdı. O, təşkilatçılıq məharəti, bacarıqlı iş təcrübəsi olanları xatirəsində saxlayır, yeri gəldikcə heç bir təmənna güdmədən onları işə cəlb edirdi. Onun haqqında bir neçə vəzifəli şəxsin fikrini çatdırmağı vacib sayıram:

Texniki elmlər namizədi Ələmşah Səfərov onun haqqında belə deyir: – "Doğru deyirlər ki, göz baxmaq üçündür. Onu bilirəm ki, nüfuzunu, adını, sanını qorumağı bacaran insan, xalq arasında sevilir, hörmət qazanır. Rəhim Hüseynov bu kateqoriyalı insanlara aiddir. Məhz pak, təmiz, öz peşəsinin vurğunu olanlar bu cürə ola bilər. Direktoru olduğum "Ev tikmə Kom- binatı"nın əldə etdiyi

uğurlar Rəhim Hüseynovun adı ilə bağlıdır. Rusiyadan, Ukraynadan gətirilən metalın, meşə materiallarının vaxtında çatdırılmasında və kombinatın məhsuldar işləməsində onun əvəzsiz xidmətləri olub.”

“Azərsu Tikinti” Səhmdar Cəmiyyətinin sədr müavini Saday Quliyev: – “Bərdə, Yevlax, Ağcabədi, İmişli, Cəbrayıl, Zəngilan, Tərtər rayonlarındakı sosial-mədəni obyektlərin tikintisində Rəhim Hüseynovun “əl izləri” var,” deyir.

Azərneft zavodu Təmir -Tikinti Trestinin müdiri Tofiq Hacıyev isə Rəhim Hüseynovun dövlətin və xalqın malını göz bəbəyi kimi qoruduğunu, Şəhərsalma proqramının, maşınqayırma və neftayırma müəssisələrinin yenidən qurulmasında və genişlənməsində əvəzsiz xidmətlərinin şahidi olduğunu vurğulayır.

1991-1993-cü illərdə Rəhim Hüseynovun təkidi ilə yaranmış “BANS” Azərbaycan-Türkiyə müştərək müəssisəsinin hesabına təminatlı ailələrin sayı 120-yə çatmışdı. Əlbəttə bu ailələrin etdiyi duaların hər biri Rəhim Hüseynova düşür.

Rəhim Hüseynovun Azərbaycan xalqının xoşbəxt gələcəyi naminə gördüyü işlər saya-hesaba gəlməzdir. O, mənalı ömrünü tək ailəsi üçün deyil, xalqın, millətin yolunda xərcləyib və bu gün də bu prinsipini davam edir. Yüksək intellektual təfəkkürə malik olan iqtisadçılarımızı barmaqla saymaq olduğu bir zamanda dövlət Rəhim Hüseynov kimi mütəxəssislərin potensialından bəhrələnib.

İstedadlı təşkilatçı, milli qürur hissi yüksək olan, geniş dünyagörüşlü bu insanı sevməyən tapılmaz. O, bir azərbaycanlı olaraq adət-ənənələrimizi qoruyub saxlayan, duz-çörəyə, əhdi-peymana hörmət edən dəyərli insandır. Azərbaycanın taleyüklü problemlərinin həlli üçün çarpışmalarda onu riqqətə gətirən də Azərbaycana bağlılığı olub.

Azərbaycanın azadlığı və müstəqilliyi ideyalarının qalib gəlməsi uğrunda Rəhim Hüseynovun öncüllər sırasında olduğu müqayisə olunmazdır. Böyük hiss və məhəbbətlə xalqının arzu və istəklərinin müdafiəçisi olub Rəhim Hüseynov.

Ziyalı ailəsində dünyaya gəlmiş, təhsilini rus dilində almış bu İnsanın, millətin adət-ənənələrini dərindən bilməsi çox maraqlıdır. Belə bir insanın bu cür kökə bağlılığı çox az təsadüf olunan haldır. Bu millilik onun ailə tərbiyəsindən irəli gəlir. Milləti yaşadan da belə insanların varlığıdır.

Rəhim Hüseynov müdrik dövlət xadimi olsa da, həyatda çox sadə insandır. Onun ümumən dövləti təfəkkürü var. Şəxsi maraqlarını güdməyən, xalqın maraqlarını dərk edən olub. Elə bu cəhətidir onu həm respublikada, həm də dünyada tanıtdıran.

Dəfələrlə başqa qitələrdə keçirilən beynəlxalq konqreslərdə və konfranslarda çıxış edərək öz sözünü deyən olub Rəhim Hüseynov. Buna bariz misal ABŞ-da "Qlobal zorakılıq, böhran və ümid" mövzusu ətrafında keçirilən Assambleyada söylədiyi nitqindən bir sitat:

– "...Azərbaycan Respublikası antiterror əməliyyatında dünya koalisiyasına qoşulan ilk dövlətlərdəndir. Dünyada baş verən 42 terror hadisəsi sizi heç də silkələmirdi. Amma 43-cü terror hadisəsi Nyu-Yorkda baş verəndə, sillə sizə dəyəndə, dediniz ki, gəlin birləşək..."

Rəhim Hüseynov ədəbiyyatı və şeriyyatı da çox sevir. Azərbaycan və dünya klassiklərini dərindən dərk edir. Səməd Vurğunun tərcüməsində A.S.Puşkinin "Yevgeni Onegin" əsərini əzbərdən bilir. Gözəl musiqi duyumu var. Tarın simlərini professional ifaçı kimi dilləndirərkən, Azərbaycanın milli müsiqisini, müğam sənətini dərindən bildiyi hiss olunur. Bir sözlə, o, hər sahənin professionalıdır!

Bütün bu keyfiyyətlər onun şəxsiyyətini xarakterizə edən amillərdir. Rəhim Hüseynovun başqalarından bir fərqi də -inamdır. Daxili inam və qətiyyət, paklıq və təmizlik, halallıq və düzgünlük bir sistem halında onun vücudunda cəmlənmişdir. Respublikamızın gələcəyinə hər zaman ümidlə baxıb.

O, xalqın dar günündə ona dayaq oldu. Baş nazir vəzifəsini icra etdiyi dövrdə suverenliyimizin, hüquqlarımızın bərpası üçün siyasi və demokratik yol ilə mübarizənin davam etdirilməsində çox işlər gördü. Çətin imtahanlardan "asanlıqla" çıxmağı bacardı.

İnsanlara sağlığında qiymət vermək bacarığı onun vücudunda cəmlənib.

**Onun varlığından nur saçır.** Onu tanıyanlar arasında hörməti istənilən qədərdir, belə bir dağ əzəmətli insanı sevməyən tapılarmı?

Rəhim Hüseynovun doğma diyarımızın hər bir bölgəsində xətri əzizdir. Onu əqidəsindən döndərmək mümkün deyil. Onun vasitəsilə əli çörəyə çatanların, onu axtarmayan insanları zəmanəyə oxşadır.

Eşq olsun bu torpağa ki, belə oğullar yetişdirib. Vətən kimi biz də belə oğullarımızla fəxr edib, qürur duyuruq.

Kimə isə kömək əli uzatmaq, qayğı göstərmək, dərdinə şərik çıxmaq arzusu və amalı ilə yaşayan bu insana – Rəhim Əliyeviçə (biz ona belə müraciət edirik) mən də bu prizmadan yanaşmağı qət etdim. Keçmişilə, etdiklərilə maraqlandım və bu xatirələri yada salmaq qərarına gəldim.

Çünki mən də, Rəhim Əliyeviç demişkən, zəmanəyə oxşayanlardan deyiləm. Xeyriyyəçi-milyonçu Ağa Musa Nağıyevin nəslindən olub, insanlara düzgün qiymət verənlərdənəm.

Dünya şöhrətli alim Arif Ərdəbili demişdir: – "Əmək bütün arzuların açarı, həyatın rəmzidir!" Mən isə əlavə

edərdim ki, Rəhim Hüseynov bu açarın ilk sahiblərindəndir.

**Mənim kumirim Rəhim Hüseynov ikinci onillikdir ki, BMT yanında Ymumdünya Sülh Federasiyasının Azərbaycandakı nümayəndəliyinin Sədridir.**

Rəhim Əliyeviç bu gün də dövlətinə, millətinə o zamankı sevgi və məhəbbəti ilə xidmət göstərən böyük şəxsiyyətdir.

Oğlumun cərrahi əməliyyətına maddi köməklik göstərə biləcək bir insana, əlim çatmadığı bir yerə zəng vurmağı ondan xahiş etdim.

Səkkiz illik əzablarıma bu insanın "bir telefon zəngi" son qoydu. Təmənnasız! Bu da bir sübut.

Rəhim Hüseynovun bu cür xeyirxah işlərini, insanlara olan sevgisini, məhəbbətini açıqlamaq üçün yazdıqlarımı az bilirəm.

Bircə onu bilirəm ki, bu kitabı oxuyacaq on minlərlə oxucu Rəhim Hüseynov ilə yeni prizmadan tanış olacaq, onu sevəcək və bu sevgini sysız-hesabsız insanlarla paylaşacaq.

## ARZU- AİLƏMİZƏ XOŞ GƏLDİN!

Şəkillər mənim iç dünyamdır. Uşaqlıq illəri, qayğısız və kədərsiz. Dünya heç vecinə də gəlmir. Sonralar şəkillərdən boylanan hər kəs bir xatirəyə çevrilir. Məhz bu xatirələr insanın əhval-ruhiyyəsini gah yüksəldir, gah da qəmginliyə yönəldir, ömür kitabının ən yadda qalan və unudulmaz səhifələrinə çevrilir.

Mən də qayğısız keçən günləri yad edib, itirdiklərimin təsəllisini ailəmdə və qardaş balalarında, yaradıcılığımda, həm də ictimai fəaliyyətimdə tapıram.

İnsanları heç bir haqsızlıq və biganəlik soy-kökündən uzaq sala bilməz. Hərə öz nəslinin yolunu və əməllərini davam etdirir. Məhz belə nəslin davamçılarından olaraq, Neft Kralı - Ağa Musa Nağıyevin fəaliyyətinin tədqiqatçısıyam.

Deyilənlərə görə ən üstün cəhətim insanlarla ünsiyyət qurmaq bacarığıdır. Babamın və atamın həyatına həsr etdiyim "Bakı gecələri" tədbirlərində hər kəsə diqqət yetirib, nəzərimdən qaçırmamağa çalışıram.

Belə deyirlər ki, bu mənim yüksək mədəniyyət və əxlaq sahibi olmağımdan irəli gəlir.

Yurd,vətən sevgisini qəlbimdə uca tutaraq, ailəmə ürəyimdə xüsusi bir yer ayırmışam.

Ailədə beş övlad olmuşuq- Rauf, Solmaz, Ağa Əli, Çingiz və mən. Məhəbbətimiz ailə üzvləri arasında bölündüyündən, Çingiz qardaşım mənim payıma düşmüşdü.

Uşaqlıqdan məni ən çox sevən də, çox incidən də Çingiz olub. Oxşar cəhətlərimiz çox olsa da, fərqimiz o idi ki, Allah-Taala ondan heç nəyi əsirgəməmişdi. Mənim nakam qardaşım uca boylu, gözəl qamətli, savadlı, kül rəngli saçları qıvrım, ağbəniz, mavi gözlü idi. Ona lap qibtə

edirdim. Xoşbəxt doğulub dünyasını bədbəxtlər sırasında dəyişdi qardaşım.

Nərgiz ilə qurduğu ailə həyatından Çingizin yalnız bir nişanəsi qaldı - Arzu qızı. Həyat yoldaşı Nərgiz ağır təbiətli, mədəni, zəkalı və savadlı bir xanım idi. Sonradan Çingiz səhvini başa düşəndə artıq gec idi. Çünki Nərgiz arxa çevirdiyi evə bir də qayıtmazdı. Altı yaşlı Arzudan belə ayrıldıq...

İndi Çingiz təsəllisini məclislərdə sifariş etdiyi "Arzu qızım" mahnısında tapırdı.

Həyatının narahatçılığı tez bir zamanda öz işini gördü. 50 yaşında onu iflic edib, yatağa saldı. Həsrətli olduğunu bilirdim.

Dünyasını dəyişərkən çox əziyyət çəkdiyini görüb, üzüntülərinə son qoymaq məqsədilə əlinə Arzu və Fərəhin adlarını çəkərək şəkillərini ovcuna qoyan kimi, iflic vuran qolunu sinəsinə sıxıb həyata əlvida dedi.

Keçmişləri yada salıb Çingizim üçün yanıram. Məzarı üstünə gəlirəm ki, dərdimi yüngülləşdirəm. Amma onun hədər keçirdiyi həyatını yada saldıqca gücüm ancaq sel kimi axan göz yaşlarıma çatır.

Cingizlə mənim alın yazımız fərqli olub. Tale ona 2 övladını doyunca görməməyi, mənə isə onları arayıb, tapmağı qismət etdi. Məni onun hər iki qızının taleyi çox narahat edirdi.

İkinci evliliyindən olan qızı Fərəh qoçaqlıq göstərib, 2005-ci ildə milyonçulardan bəhs edən "Mesenat" tamaşasının premyerasında olacağımızdan xəbərdar olduğundan teatra gəlir. Rəhmətlik bacım Solmaz xanımla birgə Fərəh ilə o günki görüşümüzdən çox həyəcan keçirdik.

Bu görüş qəlb dəftərimə heç vaxt pozulmayacaq qələm ilə yazıldı. Telefonda Fərəh ilə yada saldığımız

xatirələrlə göz yaşları içərisində səhərin dan şəfəqlərini birlikdə qarşıladıq.

Arzunu da çox aradım və 42 il ayrılıqdan sonra, ad günündə, 2015-ci il 3 iyulda onu tapdım və görüşdüm.

Həddi-hüdudu olmayan sevincimin şahidi, mənə hər zaman həmdəm olan mənəvi övladım - Yeganəm oldu.

Deyirlər ki, kədərlə sevinc bacı-qardaşdır.

Uzun ayrılıqdan sonra yaxınlarımla Arzunu görüşdürmək üçün məclis təşkil etdim. Hamı sevinirdi. Çingizin ruhunun şad olduğuna və bu gözəl məkanda - "Sürmə" restoranında pərvaz etdiyinə heç şübhəm yox idi. Sevinirdim ki, indi Fərəh bacısına, Raufun qızları əmisi qızına, övladlarım isə dayısı qızına qovuşdu.

Ruhların hər şeydən agah olduqlarına inanıram. Çingiz, bil və agah ol ki, Arzu qızının övladları Samira, İlham və Eldar ilə; Fərəh qızının isə Orxan və Zauru hər zaman bizimlə olacaq.

Həyat davam edir. Nərgizə şəfa diləyib,deyirik:

Arzu, ailəmizə xoş gəldin!

(Görüşə aid hazırladığım video-çarx şəxsi arxivimdədir)

**P.S.** *Kitab çap olunmamışdan bir az əvvəl Nərgiz xanım dünyasını dəyişdi.* ***25*** *dekabr 2017-ci il tarixi Arzu ilə bərabər bizlərin də yaddaşında kədərli gün kimi qalacaq. Çünkü bu tarixdə biz dəyərli bir xanım itirdik. Allahdan Nərgiz xanımın məkanının cənnət olmasını arzulayırıq.*

## ÖMRÜN QIZIL PİLLƏLƏRİ

Yeganə xanım daima nəslini, soy kökünü araşdıran bir tədqiqatçıya çevrilib. Ulu babasının, soy kökünün bəy nəslindən olduğunu təsdiqləyən arxiv sənədlərini əldə edənYeganə xanım, Maqsud İbrahimbəyovun təsis etdiyi Cəmiyyətin "Zadəganlıq Şəhadətnaməsi" –sənədi ilə təltif olunub.

Bütün bunlar təsadüfdən doğulmur. Mavi qan gec-tez öz axarını tapır.

Bunların önündə isə övladlarını dəlicəsinə sevən bir qadın dayanır.

Onun adı- Anadır! O, övladlarının böyüyüb boya başa çatmasını, uğurlara atdıqları bütün imzaları – Allahın hədiyyəsi sayır. Qızı Fidanın xaricdən gələn xoş sədalarını eşidən hər kəs bu qadına yaxşı mənada qibtə edə bilər.

"Ömrün qızıl pillələri" kitabı ilə kamil insanlar haqqında portret yaratmaq da ona nəsib olub.Yaddan çıxarmaq olmaz ki, bu yol daşlı-kəsəkli olmaqla bərabər böyük fədakarlıq tələb edir.

Yeganə xanım həyata keçmədiyi arzularını Ulu Tanrının xeyirxah məsləhətlərində görür.

... Telefon zəng çaldı. Danışan Yeganə xanım idi. Dilarə xanım hazır olun, ardınızca sürücü gəlir, Əli balamın nişanıdır.

Çaşıb qaldım. Belə dəvəti heç olmasa 1-2 gün irəlidən xəbərdarlıq edərlər. Həm də ki, mənim onlarla qohumluq əlaqəm yoxdur axı. Sadəcə yaş fərqimiz "çox az" da olsa, həmyaş kimi artıq biri-birimizə çox isnişmişik. Hər ikimiz hiss etmədən ana-bala olmuşuq. Qarşılıqlı isti münasibətdən.

Yola çıxdığın insan ilə dostluq etmək olur. Belə deyirlər. Bu səhv fikirdir. Yol getdiyin hər biri dosta çevrilə

bilməz. Dost -yaxına, ailəyə buraxıla bilən insan ola bilər. Amma biz dost olmadıq...

Ailəmlə birlikdə Yeganə xanım ilə uzun və çox ağır bir yol getdim və o bu "yol imtahanından" əla qiymət aldı. Xaricdə ailəvi bir ay bir yerdə yaşadıq. Ailəmin üzvünə çevrildi Yeganə xanım. İndi mənim 3 övladım var.

"Bu dünyada hər birimiz qonağıq. Yaşam dövrümüzlə həyatın mübarizəsinə çevrilir, xidmətlərimiz, əbədiyaşar əməllərimiz həyat səhifələrində yer alır..." – yazır Yeganə xanım Mahmudbəyli kitabında. Bəzən arzular uğrunda mübarizə aparır, keçdiyimiz hər bir çətinlik bizi daha da mətinləşdirir. Xatirələrə çevrilən xəyallar öz aləmindən bizə boylanır.

Zaman keçdikcə yaşadığımızın mənasının axtarışına üz tuturuq. Məhz cəmiyyət üçün nə qədər yararlı olduğumuz haqda düşünürük. Hiss etmədən bəyazlaşan saçlar isə öz axarı ilə gedən həyatın dərinliyindən xəbər verir.

"Ömrün qızıl pillələri" kitabını valideynləri Əzizə xanımın və Əbülhəsən müəllimin xatirəsinə, qardaşı cərrah-alim Hacı Hafizin şərəfli adına ithaf edib. Onun valideynlərinə olan sevgisi ağ vərəqlər üzərində sanki qızıl üzərinə incə naxış salan zərgər işini xatırladır.

Mükəmməl əxlaq sahibləri – əsl mənəviyyat sahibləridir. İnsanlar kimi talelər də müxtəlif olur-deyir Yeganə xanım Mahmudbəyli. Düşünür ki, bu fani dünyanın pəncərəsindən kimlər baxıb-keçib? Həyatı dərk edənlər isə müxtəlifdir. Amma həyatı lazımınca dərk etməyə bilik, bacarıq, istedad və ən əsası ağıl lazımdır.

Deyirlər ki, alimlər Tanrıya çox yaxındır. Yeganə xanımın da məqsədi məhz belə şəxsiyyətlərin həyat durumunu gələcək nəsillərə çatdırmaq oldu. Onun düşüncələri ilə:

-“Çox vaxt həyatda nə üçün və kimin üçün yaşamın fərqinə varmadan, arzular uğrunda mübarizə aparırıq. Karvana bənzər zəhmət dolu illərimiz zaman keçdikcə bizi mətinləşdirir. Qara saçlarımız ağardıqca həyatın mənasını daha dərindən dərk edirik. Taleyin daşlı-kəsəkli yolları nələrlə qarşılaşdırmır bizi? Yaşayaraq taleyimiz uğrunda mübarizə aparırıq. Amma düşünmürük ki, hər birimiz qonağıq bu dünyada.”

Onun şəxsiyyətinə pərəstiş etdiyi insanların yer aldığı kitabı 2014- cü ildə işıq üzü gördü. Bu insanların hər birinin ömür yolu da qeyri-adiliyi ilə diqqət cəlb edir. Bu insanlar mükəmməl əxlaqa sahib olmaqla, həm də mənəviyyat və məhəbbət sahibidirlər. Kitabı oxuyarkən elm adamlarının keçdikləri ömür yolu və fəaliyyətlərilə bərabər doğmaları haqda xatirələr insanda kövrək düyğular oyadır.

Sayılıb-seçilən bir nəslin nümayəndəsi olub, müəllim ailəsində boya-başa çatmış Yeganə xanım valideynlərinin:- “Çalışın halallıqla yaşayın. Böyüklərdən əta, kiçiklərdən xəta!” nəsihətinə bu gün də riayət edir.

Qəlbi hər zaman Allaha məhəbbət hissilə döyünən bu xanıma elm çox şey öyrətdi. Məhz bunun nəticəsidir ki, o, böyük elmi işçi pilləsinə yüksəlib, dosent elmi adına da layiq görülüb. Bunun üçün o, hər zaman müəllimlərinə minnətdar olduğunu bildirməyi unutmur.

Biologiya elmləri Doktoru Yeganə xanım elmi fəaliyyəti ilə yanaşı ictimai işlərdə də fəaliyyətini dayandırmır. O,Yeni Azərbaycan Partiyasının və Əsilzadələr Məclisinin üzvüdür. BMT yanında Ümumdünya Beynəlxalq Sülh Federasiyası onu “Sülh Səfiri” adına layiq görüb.

Jurnalistlər Birliyinin üzvü olaraq dövri mətbuatda yazıları ilə də tanınıb. “Cəmiyyət və Qadın” qəzetinin baş redaktor müavini və şöbə müdiri, Ağa Musa Nağıyev adına

“Milli Dəyərlərin Qorunması” İB-nin sədr müavini, Respublika Qadınlar Cəmiyyətinin Səbail rayon sədridir.

Bu sahədə gördüyü işlərə görə Yeganə Mahmudbəyli bir sıra diplomlara layiq görülüb.

... Elm aləmində işləmək mənə çox şey öyrədib. Zəhmətin, çalışqanlığın bəhrəsini görmüşəm. Artıq 25 ildir ki, bu sahədə fəaliyyət göstərirəm. Bu yolun necə şərəfli olduğunu son illərdə daha çox başa düşürəm- deyir Yeganə xanım.

Bizi yazdığımız kitablar birləşdirdi: “Nurlu əməllərin işığında” mən “Ömrün qızıl pillələri”ni tapdım.

2014-cü il iyunun14-də “Elm və Təhsil” nəşriyyatında rastlaşdıq və o gündən doğmalaşdıq. Yeganə xanımın kitabı çapa tam hazır idi. Amma dayandırdı! Səbəbini açıqlayıram:

-Yeganə xanım Ağa Musa Nağıyevin fəaliyyəti ətrafında apardığım işlərlə tanış olub, qərara aldı ki, kitabında mütləq bu haqda yazı yer almalıdır. Və kitabda soykökm haqqında 8 səhifəlik yazı çap etdi.

Beynəlxalq Mətbuat Mərkəzində (BMM) keçirilən həmin kitabın təqdimatının aparıcısı oldum. Allahdan mənə sanki güc gəldi və mən də bu “imtahandan” əla qiymət aldım.

Hiss etməyi bacarmaq və bu hissləri başqalarına paylamaq insanın bacarığından irəli gəlir. Bunun əsası isə sevgidir. Mən Mahmudovlar ailəsini kökdən sevdim, sevgi toxumlarımı da təqdimatda iştirak edənlərin hər birinin qəlbinə səpə bildiy

imə əminəm. Çünki iştirakçıların hər biri bu fikri söylədi:-

“Kitab haqqında, elm adamları haqqında və ələlxüsus Yeganə xanımın ailəsi haqqında deyilənlər qısa bir zaman kəsiyindəki tanışlığın nəticəsinə oxşamır.”

İndi bizi hamı ayrılmaz ana və bala kimi tanıyır. Bunu mən Allahın əmri kimi qəbul edirəm.

## ALİM XEYRİYYƏÇİ

Bu esseni alim, xeyriyyəçi, iş adamı, kommersant, bir sözlə vətən oğlu Hafiz Mahmudovun 60 illik (1958) yubileyinə həsr edirəm.

...1999-cu ildə Mahmudovlar ailəsinə böyük itki üz verdi. Dünyasını dəyişən anaya olan məhəbbətini tərəzinin bir gözündə ilki- Hafiz bəy, o biri gözündə isə qızları Ofelya və Yeganə, bir də sonbeşiyi Elçin bəy tarazlıq təşkil edirdi.

Çünkü Hafiz bəy həkim olaraq anasının köməyinə çata bilmədiyini özünə heç cürə bağışlaya bilmirdi. O, elmin bu cür inkişaf etdiyi bu dövrdə "bəzi" xəstəliklərin əlində hətta həkimlər belə əlacsızdırdeyə, düşünürdü.

44 il bir həyat yaşayıb, ətrafdakılara məhəbbətin əfsanəsini paylaya bilən cütlüyün biri dünyanı tərk edərkən, hayıf ki, o birisinin nələr çəkdiyindən bixəbər olur. Məcnun obrazının həyatda timsalı sayılan Əbülhəsən kişinin Əzizə xanımdan sonra həyatı tərk etməsi bir il çəkdi.

41 yaşında Hafiz bəy ana itkisilə barışa bilmədiyindən təskinliyi bir qədər Həcc ziyarətində tapır. Məkkədə ilk namazını qılarkən Əzizə ananın ruhuna dualar edir...

Hafiz bəy o biri uşaqlardan hər cəhətdən seçilirdi. Ailədə ikinci övladı oğlan doğulanda, Əbülhəsən kişinin uçmağa qanadı yox idi. İlk sözü Əzizə xanıma bu olmuşdu ki, mən bilirdim də kimin arxasınca 5 il düşmüşdüm, bircə "hə" kəlməsini almaq üçün.

O zaman hər ikisinin təhsil aldıqları Pedaqoji İnstitutun dil və ədəbiyyat fakultəsinin tələbələrinin çoxu bu məhəbbətin şahidi olmuşlar. Bu cütlüyün saf məhəbbəti çoxları üçün örnək və həyat məktəbi oldu.

Valideynlərinin Əbülhəsənə ailə qurması üçün çox təklifləri olmuşdu. Ancaq ürəyindəkini onlara deyə bilməyən

Əbülhəsən, Bakının İçərişəhər “Ağşalvarlılar” nəslindən olan Əzizəsinin ürəyini əvvəl-axır ovlaya biləcəyinə tam inamlı deyildi. Şəhər qızının Sabirabada gəlin gəlib, ailə yuvasını quracağına inamı az olsa da, o, istəyinə nail oldu.

Bəlkə də ədəbiyyatımızın qədim tarixi onların sevgisinin təməli oldu? Onlar Bəxtiyar Vahabzadə, Nəbi Xəzri, Süleyman Rüstəm, Nigar Rəfibəylinin əsərlərini və şeirlərini oxuyaraq saf sevginin şahidinə çevrilmişdilər.

Məgər bunlar “həyat məktəbi” deyildimi? Nigar Rəfibəyli və Rəsul Rza sevgisi, onların ülvi məhəbbəti - həyat məktəbi deyildimi?

Belə bir məhəbbətli və ziyalı ailədə 1958-ci ildə Hafiz adında bir xoşbəxt oğlan dünyaya göz açdı. O, orta məktəbi qızıl medal ilə bitirib, 7 illik musiqi təhsilini də başa vurdu.

1974-cü ildə 16 yaşında Hafizin əlçatmaz Azərbaycan Dövlət Tibb İnstitutuna daxil olması valideynləri Əzizə xanımın və Əbülhəsən müəllimin nəslinə ən böyük hədiyyə oldu. Ailənin oğul övladı Hafiz onların ümidlərini doğrultdu.

Vətən – anadır. Bunu şüar tutaraq Hafiz vətənini ana kimi sevdi.

Onun ailə tərbiyəsindən irəli gələn həyat tarixçəsi insanı bu gün də düşündürür.

Çoxlarından fərqlənən Hafiz Mahmudov vətəndən kənarda – qürbətdə də hörmət qazandı. Tanrı onu sanki insanlara dəstək olub, kömək etmək, arxasızlara dayaq olmaq üçün yaratmışdı. Azərbaycana bağlı olan vətən övladı Hafiz Mahmudova bitib -tükənməyən həyat eşqilə döyünən ürək vermişdi.

Təcrübəli cərrah Hafiz Mahmudov Moskvada da şöhrət tapdı. Onu təyinatla Moskvaya gətirən qismət nə qazanc, nə yaxşı yaşam istəyi, nə də ki, romantik arzular oldu. Onun arzusu-diləyi bir idi - dünyaşöhrətli cərrah olmaq!

Elmi işini N.N.Bloxin adına Rusiya Onkologiya Elmi Mərkəzində davam edən Hafiz Mahmudov, 30 yaşında - 1989-cu ildə namizədlik dissertasiyasını müdafiə etdi.

Həyatda karyera pillələrinin 2-3-nü birdən addımlayan Hafiz Mahmudov özünü “İş adamı” kimi də sınadı.

Belə ki, o, 1988-ci ildə Moskvada ilk ticarət kooperativlərindən birini yaradıb, dünyaya yenicə göz açmış bacısı qızının adını qoydu “Fidan”. Deyilənlərə görə uşağın adı bu işdə ona müvəffəqiyyət gətirib.

Binövrəsi hələ 1996-cı ildə qoyulmuş “Zyablikovo” ticarət kompleksinin tam istifadəyə verilməsində Hafiz bəyin maddi köməkliyi danılmazdır. Zyablikovo rayonunun dövlət orqanları Moskvanın 850 illik yubileyinə bu ticarət kompleksini Hafiz Mahmudovun hədiyyəsi sayaraq, rayonunun bələdiyyəsi N.N.Çernov layihənin həyata keçməsində həmyerlimizin göstərdiyi maddi və mənəvi köməyini çıxışında xüsusi qeyd edərək, rayonda aparılan abadlıq işlərində və bir çox sosial məsələlərin həllindəki rolunu vurğulamışdı.Rayonun ən böyük koMmersantı sayılan Hafiz Mahmudovun xeyriyyəçilik əməlləri xüsusi qeyd edilmişdi.

Bu baxımdan Hafiz Mahmudov gördüyü xeyriyyə işlərinə görə dövlət tərəfindən “Xatirə medalı”na layiq görülmüşdür.

Hafiz Mahmudov 1992-93-cü illərdə Moskvada AMON-lar tərəfindən azərbaycanlıların təzyiqlərə məruz qaldıqları bir zamanda həmyerlilərinin mənafelərinin qorunması ətrafında işlər görmüşdür. O, mətbuat orqanlarını bu işə cəlb edərək öz mövqeyini bildirib, hadisə yerində aparılan video çəkilişinin televiziya ilə nümayiş etdirilməsinə də nail olur.

Bunların nəticəsində yerli dairələr Qafqaz millətinə qarşı mənfi münasibəti yaradan qrupları cəzalandırmışdı.

Hafiz Mahmudovun tükənmək bilməyən arzularını müsahibələrində belə bitirirdi: “Arzusuz yaşamaq, işləmək olmaz. İnsan öz əməllərindən həzz almalı, həyata keçirdiklərindən qürur duymalıdır.”

2016-cı ildə “Fidan” kooperativinin yaranmasından 28 il keçəndən sonra, bacısı qızı Fidan da dünyaya göz açan oğluna Hafiz dayısının adını verdi.

Deyirlər bu dünyanınkı borca-borcdur. Amma Fidan xanımın “borcu” nu belə ödəməyinin qiyməti hesaba gəlməzdir. Gec də olsa, güc oldu!

“Ad qoyduda”-Yeganə nənəsinin Hafiz nəvəsinə tövsiyyəsi belə oldu:

“Qoy bu ad balaca Hafizə xeyir gətirsin. Ulu nənə-babalarından miras qalan paklıq, qeyrət, xeyriyyəçilik, mərd əməllərin davamçısı olan Hafiz dayısı kimi ayağı sayalı olsun, elmə xidmət etsin, xeyriyyəçiliyi ilə şöhrət qazansın. Böyüyəndə çarəsi tapılmayan xəstəliklərin müalicəsini tapıb, tibb elminə yenilik gətirsin!”

Yeganə xanımın tövsiyyəsinə əlavə etmək istərdim: - Atalar da deyib ki, ot kökü üstə bitər. Övladlarınız Fidan və Əli ali təhsilə yiyələnib. Balaca Hafizin başqa yolu ola da bilməz. O, mütləq tibb aləminə yeniliklər gətirəcək.

**P.S.** *Yazını bitirdiyim gün Qurban bayramına -1.09.2017-ci ilə təsadüf etdi. Bu da bir zərurətdir.*

*Həm də bu gün günorta üstü yerə yaxınlaşacaq Böyük Asteroidi görmək Azərbaycan xalqına nəsib oldu. Allah-Taala bizi sevir. Bütövlükdə Azərbaycanı sevir. Sevir ki, Londonda yaşayan Fidan, Fərəh və balaca Hafiz də Bakıda ikən bu möcüzənin şahidi oldular onlara nəsib oldu.*

*Qurban –yaxınlaşmaq deməkdir. Birlik deməkdir. Bilirik ki, Həzrəti İbrahim 90 il yolunu gözlədiyi övladının olmasını Allahdan diləyib, onu qurban kəsəcəyinə söz verir. Vaxt gəlir, ətrindən doymadığı, doyunca əzizləmədiyi İsmayılını Həzrəti*

*İbrahimə qurban kəsməyə aparır. Amma bıçaq kəsmir. Çünki ona kəsmək qabiliyyətini verən Allahdır.*

*1999-cu ildə- 18 il bundan əvvəl, Hafiz bəy Qurban bayramını əlçatmaz Məkkədə qarşılayıb, İsmayıl qurbanı kəsib.*

*Hafiz bəy! Allahdan diləyim balaca Hafizin sənin üçün hər il qurban kəsəcəyi, ailənin isə arzularının çin olmasıdır!*

# RESPUBLİKA QADINLAR CƏMİYYƏTİNİN YARANMA TARİXİ

1920-ci ildə görkəmli ictimai-siyasi xadim Ayna Sultanova tərəfindən təməli qoyulmuş Azərbaycan Respublikası Qadınlar Cəmiyyətinin əsas məramı qadınlar arasında savadsızlığın ləğv edilməsi, çadradan azad olunması, hüquqlarının müdafiəsi və bu kimi başqa məsələlərin həll edilməsi olub.

Artıq 98 illik tarixi olan bu Cəmiyyətin məramı və məqsədi Dövlətin və Dövlətçiliyimizin qorunması, torpaqlarımızın azad edilməsi, qaçqın və məcburi köçkünlərə, müharibə veteranlarına, şəhid ailələrinə maddi və mənəvi dəstək olmaq, xeyriyyəçilik işləri ilə məşğul olmaq və Ölkəmizin haqq səsini dünyaya çatdırmaqdır.

Cəmiyyət 1990-cı ildə Ölkəmiz müstəqillik əldə etdiyi vaxtdan ilk Qeyri Hökumət Təşkilatlarından biri kimi təsdiq edilmiş və Bakı Sovetinin Sərəncamı ilə İçərişəhərdə Böyük Qala küçəsi 6 ünvanında yerləşən ikimərtəbəli bina Cəmiyyətə verilmişdir.

Cəmiyyətə uzun illər tanınmış ziyalı xanımlar: Ayna Sultanova, Hökümə Sultanova, Əzizə Cəfərzadə və 20 ildən çox Zemfira Verdiyeva sədrlik etmişlər.

Zemfira Verdiyevanın vəfatından sonra, 2010-cu ildən Cəmiyyətin birinci müavini Bahar Qasımova sədr seçilib. Cəmiyyətdə yeni struktur təsdiq olunub. Cəmiyyətin Nizamnaməsi Yeni Qanunlara uyğun dəyişdirilib.

Bu gün 75 min üzvü olan Cəmiyyətin dünyanın 64 ölkəsi ilə əlaqələri vardır. Yeni seçilən İdarə Heyəti və sayca genişləndirilən şöbələrə rəhbərlər təyin edilib. Cəmiyyətdə Gənclər təşkilatı və Dini qurum da fəaliyyət göstərir.

Cəmiyyətdəki qadınların fəaliyyəti durmadan artır. Belə ki, onlar 5 saylı gözdənəlil internat uşaqların müa-

yinə və müalicəsini himayəsinə götürüb. Ulu Öndər Heydər Əliyevin, eləcə də Oftalmoloq Akademik Zərifə Əliyevanın 90 illik yubileyinə həsr olunmuş tədbirlər həyata keçirib.

Böyük Vətən Müharibəsinin 65 illik yubileyini - Qələbə gününü bayram edən Ukrayna Respublikasına RQC-dən sədr müavinləri Bahar Qasımova və Zemfira Zeynalova dəvət olunmuşlar sırasında idi. Məhz onların müraciətinə əsasən Böyük Vətən Müharibəsi ərəfəsində itkin düşmüş 17 yaşlı azərbaycanlı naməlum əsgərin məzarı tapılmış və Ukrayna Resublikasının Prezidenti əsgəri "İgidliyə görə" medalı ilə təltif etmişdi. Medalı Azərbaycana gətirib, ailəsinə təqdim etmək hər iki xanma nəsib oldu.

İçərişəhər Qoruğu tərəfindən yenidən bərpa edilən "Bəylər məscidi"nin açılışı münasibətilə təşkil olunmuş Quran sərgisində nümayiş edilən 100-dən artıq qədim Quran kitablarının, Əmanətlərin toplanmasında Cəmiyyətin üzvlərinin əməyi böyükdür.

**Ağa Musa Nağıyevin əski parçadan milli naxışlarla tikilmiş namaz dəsgahı nəvəsi Dilarə xanım tərəfindən "Bəylər Məscidi"nə hədiyyə edilməsi diqqətə layiqdir.**

2016-cı ilin dekabr ayında Respublikanın Prezidenti cənab İlham Əliyev ad günündə xanımı - Birinci Vitse-prezident Mehriban Əliyeva ilə Quran sərgisinin açılışında iştirak etmiş və sərginin təşkil edilməsinə yüksək qiymət vermişdir.

# MƏRDLƏR MƏKANI

Mərdəkan Abşeron yarımadasının ən qədim və səfalı kəndidir. “Mərdlər Məkanı” mənasını daşıyan bu kəndin keçmişdə qəbilə olduğu sübut olunur.Onun adı “Mərdlər məkanı” kimi tərcümə olunur, bu da yaşayış məskəninin qədim mard tayfaları tərəfindən salınmasına işarədir. Mardların adına isə ilk dəfə Qafqaz Albaniyasında yaşayan tayfaların sırasında rast gəlmək olur.

Arxeoloqların araşdırmalarına görə, Mərdəkanda albanlara məxsus daş kitabələr və əşyaların tapılması isə albanların da bu ərazidə yaşadıqlarının sübutudur.

Qədim tarixçilər Heradot və Strabonun yazdıqlarına əsasən, mərdlər hələ eramızdan əvvəl 331-ci ildə “Qavqamel döyüşü”ndə İran ordusunun sıralarında qəhrəmancasına vuruşmuş, böyük şücaətlər göstərmişlər.

Mərdəkan sakini, “Qala Dövlət Tarix-Etnoqrafiya Qoruğu”nun mühafizəçisi Vidadi Əmirulla oğlunun araşdırmalarına görə, Mərdəkanı tərkibi türklər və iranlılardan ibarət olan 7 tayfadan ibarət böyük bir icma yaradıb: “Bunlar Ocaqqulu, Nəzərli, Subhanlı, Rəhimli, Cəlilli, Bürcülü, Şahsəvənd tayfaları olub. Hazırda bu tayfaların nəsillərindən olan insanlar kənddə yaşayır.

Hələ qədimdən Mərdəkan xalq memarlığının mərkəzi sayılıb. Qəsəbədəki bir sıra qədim abidələr indiyədək qorunub saxlanılır. Kənddə Qumluq, Qala, Xərmən, Qoyunbulağı, Seyidlər məhəlləsi var. “Uzundərə” adlanan yerdə əvvəllər taxıl anbarları olub. Vaxtilə Mərdəkan əhalisinin əsas məşğuliyyəti heyvandarlıq və əkinçilik olub. İndi boş ərazilər qalmadığından bu məşğuliyyət növləri unudulub.

Bəzi həyətlərdə aparılan qazıntılar zamanı qədim insanlara məxsus alətlər də aşkar edilib.

Xalq memarlığının mərkəzi sayılan Mərdəkanda başqa kəndlərdən fərqli olaraq iki qala var. Orta əsrlərdə Mərdəkan mühüm strateji əhəmiyyətli məntəqələri ilə seçilib. Hazırda kənddə orta əsrlər nümunəsi olan 10 tarixi abidə daş ömrünü yaşayır.

1187-ci ildə orta əsrlərə aid tikilən "Dördkünc Qala" bu gün də Mərdəkanın qədimliyindən soraq verir. Qalanın inşasında balıqqulağı, əhəng, yumurta sarısı, keçi və dəvə yunundan istifadə edilib. Hündürlüyü 22 metr olan 76 pilləli qalanın içərisində 6 otaq var. Böyük müharibələri nəzərə alaraq, ərzaq anbarı kimi istifadə etmək üçün qalanın içərisində 108 quyu qazılıb. Yeraltı yol vasitəsilə digər qalalarla əlaqə yaradılıb.

Mərdəkandakı "Heydər məscidi" 1893-cü ildə yerli sakin Heydər Almazov tərəfindən tikdirilib. Deyilənə görə onun arvadı rus olduğu üçün kənddə ona rus Heydər deyirmişlər. Bir gün Heydər Axund Ələkbərdən soruşur: "Nə edim ki, mənə "rus" deməsinlər?" Axund Ələkbər buyurur: "Get, məscid tikdir".

Mərdəkanda baxımsız vəziyyətdə olan qədim hamamlar da az deyil:

"Xanbaba hamamı" - Şirvanşahların dövrünə aid olub, təxminən 1482-1483-cü illərdə yerli sakin tərəfindən tikilib.

XIX əsrin əvvəllərində kənd sakini xeyirxah bir qadın tərəfindən məhz qadınlar üçün "Ziley hamamı" tikilib.

**31 mart 1918-ci il Bakı Genosidinin başladığı dövr bu kənddən də yan keçməyib. 12-18 min silahsız və günahsız insanın, hamilə qadınların və körpələrin erməni süngürləri ilə dəlik-deşik edilməsi, yandırılması, qocaların qılıncla doğranması hallarını Mərdəkan əhalisi də yaşayıb.**

Bakıda başlanan soyqırım Şamaxı, Quba, Kürdəmir, Lənkəran və Göyçayda davam edib. Burada yaşayış məntəqələri yandırılmış, əhali qətlə yetirilmişdir.

Şaumyanın başçılığı ilə başlanan genosiddə erməni əsgərləri pulemyotların atəşi altında əhalini qılıncla doğrayıb, uşaqları süngürün ucuna keçirmişlər. İşgəncə verilmiş 57 müsəlman qadınının eybəcər hala salınmış meyidləri aşkar olunmuşdur.

Türk qoşunları Bakıya gələnədək ermənilər vəhşi işgəncələrini davam ediblər. Belə qətllər Mərdəkanda da öz izini qoyub. Şəhərdən qaçmağa imkan tapıb canlarını qurtarmaq məqsədilə bu kəndə pənah gətirən arvad-uşaqlar burada da təhlükə ilə qaşılaşıblar.

Daşnaklardan ibarət dəstənin biri Maştağaya tərəf, o birisi isə Mərdəkana tərəf irəliləyərkən, onların məqsədi bu kəndləri tutmaq və Bakıda törətdikləri vəhşilikləri burada davam etmək idi. Silahlı əhali kəndlərini erməni təcavüzündən qorumaq üçün şəhərə tərəf irəliləyərkən Bülbülə yolunun kənarında düşmənlə üzləşir.

Vətən uğrunda şəhid olmağı üstün tutan 6 nəfər mərdəkanlı sona qədər vuruşur. Şəhidlik zirvəsinə yüksələn bu gənclər Mərdəkan qəbristanlığının ən uca yerində dəfn olunublar.

Kənddəki 1918-ci il erməni qəsbkarlarına qarşı döyüşdə şəhid olmuş Mərdəkan sakinlərinin uyuduğu “Şəhidlər Xiyabanı”nın yerində V-VI əsrdə də qəbristanlıq olub.

1890-cı illərdə Bakı neft milyonçusu Murtuza Muxtarovun bağı bu gün Mərdəkanın ən məşhur yerlərindən biri olaraq “Mərdəkan Dendrarisi” (Dendrologiya botanikanın bir bölməsidir) adlanır. Hazırda burada 1800-ə yaxın bitki növü, 28 növ heyvan və əylənmək üçün katamaranlar və istirahət guşələri var. “Mərdəkan Dendrarisi”ndə bir əsr yaşı olan İtaliyanın Qotik üslubunda tikilmiş qədim bir bina və ecazkar su quyusu var. Dendrari parkında bir sıra obyektlər: qonaq

otaqları, müxtəlif elmi laboratoriyalar, süni şəlalə və qeyri-adi qayıqla gəzinti üçün göl mövcuddur.

1885-1924-cü illərdə xeyriyyəçi -milyonçu Hacı Zeynalabdin Tağıyevin yaşadığı bağı da Mərdəkandadır.

1907-ci ildə Murtuza Muxtarovun tikdirdiyi “Pir Həsən” ziyarətgahı kənd sakini Pir Həsənin adını daşıyır. Axund Abu Turab, H.Z.Tağıyev və qızı Sara xanım ilə kürəkəni Zeynal Səlimxanovun qəbrləri də bu ziyarətgahdadlr.

Tarixdən bəllidir ki, Hacı Zeynalabdin Tağıyev binalarını göstərərək, Axund Abu Turaba deyir: Hacı, görürsən nələr yaratmışam? Hacı cavabında deyir ki, verən Allah bir gündə hər şeyi əlindən ala bilər. Hacı Zeynalabdin cavab verir ki, evlərimi alsa, fabriklərim var. Fabriklərimi alsa, mədənlərim var...

Bolşeviklər tərəfindən bir gündə bütün əmlakı müsadirə olunan H.Z.Tağıyev vəsiyyət edir ki, mən öləndə Axundun ayağı altında dəfn edərsiz, çünki onun ayağı biləni mənim başım bilmirmiş. Bu belə də yerinə yetirilir.

Deyilənlərə görə vaxtilə Mərdəkanda mövcud olmuş adət-ənənələr unudulub. Mərdəkan sakinləri şikayət edirlər ki, onlara ən çox təsir edən neft yataqlarının əhatəsində yaşamalarına baxmayaraq təbii yanacağa, elektrik enerjisinə həsrət qalmalarıdır. Təbii qaza isə Mərdəkanın bəzi yerlərində hələ də ehtiyac duyanlar var.

Abşeron yaşayış məntəqələri içərisində istər ərazisinə, istərsə də əhalisinin sayına görə kiçik qəsəbələrdən olmasına baxmayaraq Mərdəkandan Respublikanın ictimai, siyasi, mədəni həyatında kifayət qədər əhəmiyyətli rol oynayan bir çox şəxsiyyətlər meydana çıxmışdır. Bunlardan bəzilərini göstərmək vacibdir:

Hacı Zeynalabdin Tağıyev- Bakı milyonçusu-xeyriyyəçi;

Məmmədyusif Cəfərov – Rusiya VI Dövlət Dumasının üzvü; Heybətqulu Məmmədbəyli – keçmiş Müsavat

hökumətinin parlament üzvü; Hacıbəy Sultanov – akademik, Şamaxı Astrofizika Rəsədxanasının fəxri direktoru; Qəmər Almaszadə – SSRİ xalq artisti; Bəbir Məmmədzadə – şair; Adil Gəray – bəstəkar, əməkdar incəsənət xadimi; Rəşid Məmmədbəyov – Azərbaycanın ilk olimpiya çempionu; Hamlet Xanızadə – Respublikanın əməkdar artisti; Bəxtiyar Xanızadə – Əməkdar incəsənət xadimi; Təvəkkül Səlimov – tarixçi etnoqraf; Bəhruz Zeynalov –Xalq artisti; Zaur Zeynalov – Azərbaycan Ortodontlar Cəmiyyətinin sədri; Hacımurad Pənahov- gəmi kapitanı.SSRİ ali sovetinin deputatı; Bahadır Eyvazov(Sübhan)- şair,publisist; Fuad Qasımzadə - Akademik; İsa Fərmanov- gəmi kapitanı; Yarməmməd Əsədullayev, Tofiq Nəbiyev və Akif Cəbrayılov - Təyyarəçilər və digərləri.

## BAHAR TƏRAVƏTLİ PAYIZIMIZ

Bu yazı ziyalı bir xanımdan, adı kimi özü də hər zaman bahar ətrini hər fəsildə ətrafa yayan Bahar xanımdan gedəcək.

Məhz bu məqsəd ilə onun nəsil ağacı ilə maraqlandım.

... Hələ gənc yaşlarından, ağıllı söhbətləri ilə başqalarından fərqlənən Baharın babası Şəkərəli kişi bədahətən şeir deyər, tar çalar, lətifələr söyləyər, hərdən bir velosiped sürməyi də xoşlayardı.

Nadir halda təsadüf edilən telefon çəkilmiş evlərdən birincisi də Şəkərəlinin evi olub. Mərdəkanda hörmətlilər cərgəsində olduğundan, tez-tez milyonçu-xeyriyyəçi Hacı Zeynalabdin Tağıyev ilə həmsöhbət olub. Bir növ onun əlindən su içdiyinə görə Şəkərəli kişi də xeyriyyəçilik əməlləri ilə məşğul olub.

Şəkərəlinin məclislərində Habil Əliyev, Hacı Məmmədov kimi tanınmış musiqiçilər tar çalıb, Əlibaba Məmmədovun muğamlarından qonaqlar feyziyab olublar.

Şəhərdən gələn qonaq belə məclislərin birində iştirak edərkən, Şəkərəli kişinin musiqi duyumunu görüb, gülümsəyərək deyir: - “Kənd arısı, bal halvası.”

İstehza ilə deyilən bu sözün mənasını və ona ünvanlandığını başa düşən Şəkərəli kişi, nökərinə çay dəsgahı hazırlamağı tapşırır. Süfrəyə qoyulan bir qab turş, bir qab şirin, o biri qabda isə meyxoş mürəbbəni göstərib, qonağa bildirir ki, hansı mürəbbədən başlayacağını düzgün taparsa, hər zaman onun qonağıdır. Əgər əksinə olarsa, burada bu gün iştirak edənlər onun qonağı olacaq.

Uduzacağını duyan şəhər adamı, təslim olur.

“Pul olanda xərmən, olmayanda dərman; Qiyamət – ölümdür. Qəbir - əli boş deməkdir- kimi atalar misalını Şəkərəli kişi müsahibi ilə söhbətlərində çox işlədərdi.

Bir gün bağ qonşusu Şəkərəli kişiyə şikayət edir ki, qonşu kişi bağda qısa tumanda gəzir, mən onu necə başa salım ki, evdə arvad-uşaq var, ayıbdır axı?

Şəkərəli kişi düşünmədən cavab verir ki, “bağda ədəb saqidir.”

Beləcə ədəb-ərkanlı nəsihətlərilə Şəkərəli kişinin qazandığı hörmət bu gün də Mərdəkan əhlinin dilindən düşmür. Bu gün də Mərdəkan əhli çəkdikləri atalar misallarını Şəkərəli kişinin adı ilə bağlayır.

Bahar xanımın anası Məryəm xanım “İçərişəhərin ağşalvarlılar” nəslindən olub. İsmayıl kişi 7 yaşında anadan yetim qalmış qızı - Məryəmi Mərdəkanın kəndxudası - dostu Şəkərəli kişiyə verərkən -bu qızı sənə etibar edib, əmanət verirəm, demişdi. Deyirlər ki, niyyətin harda mənzilin də ordadır.

Sonradan Bahar xanımın babası olacaq Şəkərəli Abasovun həyat yoldaşı bəy-xan qızı, Bakıxanovlar nəslindən olan Səkinə xanım ona səkkiz övlad bəxş edir. Onlardan dördü qız və dördü oğlan olur. Məryəmi övladlarından ayırmır.

Şəkərəli kişi kimi xanımı da ağıllı söhbətləri və məsləhətlərilə başqa qadınlardan fərqlənirdi. Əgər Mərdəkanda kimsə hər hansı qapıya elçi gedərdisə, bu elçilikdə Səkinə xanımın özü iştirak etməsəydi də, onun məsləhəti ilə gedən elçilər əliboş geriyə qayıtmazdılar. Boşanmaların qarşısını alan, ailə münaqişələrini sülh yolu ilə həll edən Səkinə xanım kəndin ağbirçəyi sayılıb.

Səkinə xanım gənclərin maariflənməsilə də məşğul olub. O, öz qızlarını məktəbə göndərməklə kənd əhlinə örnək olub.

Şəkərəli kişi qızı Həliməni həyat yoldaşını erkən itirən dostu İsmayıla ərə verir. İçərişəhərli – Çəmbərəkəndli İsmayıl o zaman tacir idi.

İsmayıl kişi repressiya qurbanlarından olub, sonradan bəraət qazanıb, indiki Nizami bağınnın yanında karvansarası olub, gəmilərini İrana yönəldərək tacirliyinə davam edib.

Beləcə balaca Məryəmin qisməti olacaq bu ev ona uğur gətirir. O, atası İsmayıl ilə analığı Həlimənin yanında qalıb, boya-başa çatır.

Ondan 5 yaş böyük olan Şəkərəlinin kiçik oğlu Kamandar evlərinə gələn qonaqların cinsiyyətindən asılı olmayaraq Məryəmə göz –qaş edərdi ki, baş örtüyü bağlasın. Məryəm bunun mənasını çox-çox sonralar başa düşəndə qürurla danışardı ki, mənə elçi düşməsinlər deyə o bunu edirmiş. Məryəmin 14-15 yaşı olanda Kamandar ondan xoşu gəldiyini bildirir.

Sonralar Məryəm bir-bir olub keçənləri yadına saldıqca, Kamandarın ona çoxdan göz qoyduğunu başa düşür. Məryəm analığı Həlimə xanım ilə hara gedərdisə, Kamandar onların arxasınca hiss edilmədən qarabaqara gedər, mənzil başına çatanda arxayınlıqla qayıdardı.

Kamandar Məryəmlə evdə söhbət edəndə, Şəkərəli kişi ona acıqlanıb deyərdi ki, Kamandarın oğlanlar ilə həmsöhbət olmağı məsləhətdir.

Böyük Vətən Müharibəsi zamanı onun adı sənədlərdə Kamandar əvəzinə Komandir yazılsa da, bütün kənd əhli ona Kamal deyə müraciət edərdi.

Məryəm boya-başa çatanda, qızın bu ailədə qalmasına qərar verən Şəkərəli kişi onu oğlu Kamandara alır.

Hələ uşaqlıqdan həkim olmaq arzusunda olan Məryəm, gəlinciklərinə iynə vurar, guya hərarəti qalxdığına görə onlara qulluq edər, keçirdiyi həyəcandan gecə öz hərarəti kəllə-çarxa qalxardı.

Arzusuna az da olsa çatmaq məqsədilə 16 yaşlı Məryəm Tibb Texnikumuna qəbul olur. Bu müharibə illərinə təsadüf etdiyindən tibb bacısı kimi onun ön cəbhəyə göndəriləcəyindən ehtiyat edən Həlimə xanım, qızı təhsildən uzaqlaşdırır.

Müharibədən sonra Məryəm xanım artıq həkim olmaq arzusundan vaz keçməli olduğunu başa düşərək, sənədlərini Bakı Dövlət Universitetinə verir. Filologiya fakultəsində təhsil alan Məryəm xanıma gələcəyin Xalq şairi Bəxtiyar Vahabzadə ilə bir qrupda oxumaq qismət olur. Zamanında Məryəm müəllimi Mir Cəlal Paşayevdən dərs aldığından danışarkən, bundan qürur duyurdu. Tələbələr Mir Cəlal Paşayevi çox istədiklərindən öz aralarında onun haqqında danışanda "Can-Can" müəllim deyərdilər.

Kamandar da atası Şəkərəli kişi kimi bədahətən şeir deyər, tarixlə çox maraqlanardı.

Kamandar hələ gənc yaşlarından geyimi və səliqəsilə çoxlarından fərqlənirdi. Günaşırı ağ köynəklərini yumaqdan təngə gəlmiş Məryəm xanım ona istehza ilə deyirdi: - ay kişi, deyəsən kimsə sənə deyib ki, ağ rəng

sənə yaraşır. Onda Kamandar kişi ona deyərdi, arvad, deyəsən qısqanırsan məni?

Çox hörmətli və sözü bütöv olan bu qadın da bir həyat məktəbi idi. Qohum-əqrəbanın məsləhəti ancaq Məryəm xanım ilə olub. Öz aralarında hətta belə bir deyim də işlədilərdi ki, əyər Məryəm xanımın imzası varsa, deməli bu iş baş tutacaq və yaxud da işə başlamaq olar.

Müəllimlikdən direktor müavini, qısa müddətdən sonra isə ömrünün sonunadək məktəb direktoru vəzifəsində çalışıb Məryəm xanım.

1974-cü ildə ilk tikilən kooperativ evlərdən birinə köçən Məryəm xanım hər il Aşura günündə evlərə Fatimeyi Zəhranın hədiyindən paylayacağını əhd edir. Bu əhdinə 34 il sadiq qalan Məryəm xanım 2009-cu ildə dünyasını dəyişir.

Hələ gənc yaşlarından ictimaiyyətdə fəallığı ilə seçilən qızı Bahar xanım - hal-hazırda Respublika “Qadınlar Cəmiyyəti”-nin (RQC) sədridir.

O, uzun illər öncə, hələ Mərkəzi Komitədə işləyərkən, Cəmiyyətin sabiq sədri Zemfira xanım Verdiyevanın yanında olub, ictimai işlərdə kömək əlini uzadıb. 2005-ci ildə RQC-nin yaranmasının 85 illik yubileyinin keçirilməsində Bahar xanımın təşkilatçılıq məharətini görən Zemfira xanım onu bir daha yanından buraxmır. Həmin ildən etibarən Bahar xanım Cəmiyyətdə sədrin birinci müavini, 2010-cu ildən isə sədr vəzifəsini icra edir.

Bu gün Bahar xanım Qasımova təməli 1920-ci ildə qoyulmuş 75.000 qadın ordusunu körpüdən asanlıqla keçirə bilir. Çünki Bahar xanımın həyatı bütövlükdə ictimaiyyətdəki işləri ilə hər zaman mütənasib olub.

1971-ci ildə orta məktəbi medal ilə başa vuraraq, o zamanlar əlçatmaz Ali Məktəb sayılan Dövlət Politexnik İnstitutunu bitirən Bahar xanım, işləmək üçün təyinatlaYüngül Sənaye Nazirliyinin Volodarski adına Tikiş

Fabrikinə mühəndis- texnoloq vəzifəsinə göndərilir. Tez bir zamanda şöbə müdiri kimi də işinin öhdəsindən gəlir.

1979-cu ildə Ulu Öndərin göstərişi ilə gənc qızların partiya və sovet orqanlarına işə cəlb edilməsilə əlaqədar, bu axına düşən və ən əsası artıq iş qabiliyyətini nümayiş etdirə bilən Bahar xanım Nəsimi Rayon Partiya Komitəsinə təlimatçı təyin olunur.

Adətən uşaq anadan olanda onun alın yazısı olur. Bahar xanımın alın yazısı belə olub: “Qeyrət sahibi olmaq, yaxınlarının və başqalarının cəfasını çəkmək, hamıya kömək əlini uzatmaq, ana-bacı dərdini özününküləşdirmək!” Bu qədər yükü zərif qadın çiynində daşıyan bu xanımın bu günədək özü haqqında düşünmə-diyinin şahidləri çoxdur.

Quş kimi dimdiyində gəzdirdiyi yeganə övladının həyata gətirdiyi nəvə payına necə çatdığını, övladının ölümlə-qalım arasındakı məsafəni necə dəf etdiyini təşvişlə danışan Bahar xanımın gözlərimin önündə necə ucalıb, əlçatmaz olduğunun canlı şahidiyəm.

Söhbət əsnasında o, övladının həyatının təhlükə qarşısında olduğu anları söylədikcə, sanki onun keçirdiyi həyəcanlı anları mən də keçirirdim.

O, söyləyirdi ki, son anda həkimin üzümə baxıb sual və həyəcan dolu simasını görəndə, inadımdan dönmədən razılığımı verdim və artıq heç nə görmədim, heç nə eşitmədim.

**Özümə gələrkən, qızınız salamatdır sözlərini eşidəndə birdən yuxudan ayılmış kimi qucağıma götürdüyüm nəvəmin səsi sanki dünyanı mənə bağışladı. Bakıdan çox-çox uzaq ölkədə, Almaniyada nələr çəkdiyimi bir Allahım bildi, bir də ki,özüm.**

**Bahar xanımın vəziyyətinə mən də düşmüşdüm. Özümü dəryada boğulan kimi hiss edəndə, artıq gec idi. Oğlum Samiri ağır, nəticəsi bəlli olmayan bir**

**cərrahi əməliyyat gözləyirdi. Mən də razılıq verdim, sonrası yadımda deyil. Onu bilirəm ki, əməliyyatdan sonra mənə gələn zənglərdən birincisi Bahar xanım-dan oldu. Ünvanıma dediyi sözlər elə özünə də aiddir:**

"Dilarə xanım, bundan sonra Siz ayağınızı basdığınız yerə mən başımı qoyaram!"

Sonradan bu sözləri təhlil edərkən, mən də bu qadını qəhrəman adlandırdım.

Bahar xanımın çoxşaxəli xüsusiyyətləri məni bu yazıya sövq etdi. Bu xanıma birə- min hörmətim artdı.

Ana və bacı üçün etdiklərinin yüzdə bir faizini danışan Bahar xanımın keçirdiyi qürur hissləri bir an məni düşündürdü ki, axı elə insanlar da var ki, onlar heç nəyin fərqinə varmayaraq, hər hansı bir məsələnin həllini heç yaxına da buraxmırlar. Bəlkə də belə olmaq lazımdır sualı məni bu gün çox düşündürür.

Bəlkə, bəlkə, bəlkə... Elə Bahar xanımın başqalarından fərqi də, bu bəlkələrdir.

Bacının həyatını xilas etmək, heç olmasa bir neçə il onun ömrünü uzatmaq ümidi Bahar xanımı müflüsləşdirsə də, bu məsələ onun həyatının kredosu oldu.

Mərkəzi Komitədə işləyərkən, 1990-cı ilin yanvarında baş vermiş hadisələri "yumşaltmaq" məqsədilə Rusiyadan Bakıya göndərilmiş nümayəndələrdən Primakov və Girenkonun çıxışın- dan sonra suallarla ilk iştirak edən Bahar xanım olub.

O zaman söylədiklərini yaddaş dəftərinə yazan Bahar xanımın həyəcanı bu gün də keçmir –"Onların çıxışlarından belə çıxdı ki, günahkar olduqlarını qəbul etmirlər, hələ bir özlərinə bəraət də qazandırırlar. Katiblərə sülh yolu ilə söhbətlər aparmalarını məsləhət görəndə, ayağa qalxıb soruşdum ki, niyə "Vremya" proqramında Qarabağa uçan təyyarənizi ermənilər yerə enməyə qoymadıqları haqda heç bir məlumat verməmisiz?

Görünür Siz belə hallarda “istəmədiyiniz məlumatları qayçılayırsız”, hə? Sual dolu baxışlarımdan narazı qalan “rus qardaşlarımızın elçiləri” çox əsəbi halda soruşanda ki, sən hansı işin sahibisən? Əlimdəki qeydiyyat apardığım dəftəri hirslə oturacağa çırpıb,“sadəcə günahkar təlimatçıyam” – deyərək, özümdən asılı olmayaraq salondakılara üzümü tutub – qalxın, şəhidləri son mənzilə yola salmağa getməliyik- komandasını verdim.”

Nəsimi Rayon Partiya Komitəsində Katib, daha sonra isə Nəsimi Rayon İcra Hakimiyyətinin birinci müavini vəzifələrində işləyən Bahar xanım hər zaman sözünün ağası olub, vətənpərvərlik hisslərini öndə saxlayıb.

Ümumiyyətlə, belə bacarıq irsən gəlir, deyirlər. Həqiqətən yaşamaq - yaratmaq, yeniliklər axtarmaq bu nəslə hakim kəsilib.

2009-cu ildə anası Məryəm xanım dünyasını dəyişdiyi ildən “Hədiy bişirmə” ənənəsini Bahar xanım qızı Kəmalə ilə davam edir.

Bir il ailə vəziyyəti ilə əlaqədar bu ənənəni pozan Bahar xanım, yuxusunda anası Məryəmi görür və kiminsə - “Beşkimsənə, beşkimsənə” dediyi sözlər qulağına çatır.

Ertəsi günü anasının onun hədiy bişirmədiyindən narazı qaldığını başa düşən Bahar xanım, yuxuda gördüklərini yadına saldıqca sanki yenidən yuxudan ayılmış kimi olur.

Qurandan bəllidir ki, Beşkimsəyə Xanım Fatimeyi Zəhra da daxildir. Öz-özünə düşünən Bahar xanım bir daha nə olursa olsun bu ənənəni pozmayacağına söz verir.

2016-cı ilin başlanğıcından Bahar xanım Cəmiyyətə aid mühüm bir məsələsinin həlli üçün çox çalışır və əgər bu iş alınarsa, hədiy paylayacağını ürəyində niyyət edir.

Ürəyi niyyətlərlə dolu olan, gecəni gündüzünə qatan bu xanım yenə bir qəribə yuxu görür:

– “Cəmiyyətdə “Dini Qurumlar” şöbəsində Quran dərsi verən Nəhayət adlı Məşədi xanım Bahar xanıma deyir ki, başla, hədiyi bişir. Qarşısındakı iri mis qazana baxan Bahar ona sual edir- nədən başlayım? Xırda paxlalardan başla, deyir ona Nəhayət xanım. Onun su tökdün -sualına, Bahar xanımın cavabı belə olur: – deyəsən gülab çox tökmüşəm üstündən götürüm? Yox yaxşıdır, qalsın – kəlmələrini eşidir.”

Ertəsi günü yuxusunu özlüyündə yozan Bahar xanım, bunu gözlədiyi işin nəhayət həll edildiyini və niyyətinin qəbulu kimi dərk edib, hədiy bişirməyi qərara alır.

Bu tarix 2016-cı il mayın 10-a təsadüf edir. Gözlədiyi işin nəticəsi də elə həmin tarixdə – Ulu Öndər Heydər Əliyevin doğum günündə bəlli olur.

Hər zaman Dövlət İdarəsində qulluq edən Bahar xanım Cəmiyyətdə ehsan paylayarkən Cəmiyyətin qadınları tərəfindən Ulu Öndər Heydər Əliyevin ruhuna dualar oxuyur.

Ürəyi Azərbaycanın bütövlüyü uğrunda döyünən Bahar xanımın bu qələbəsini mən məhz onun dövlətçiliyə bağlı olduğu ilə əlaqələndirirəm.

Bir dəfə də yuxusunda İmam ehsanı verməyə hazırlaşdığını görür. Gözünün önünə gələn “Sevdiklərimiz”dən biri ona sözləri uzadaraq, belə deyir:

“Biz...dən... çat... dı... rar... sız.., sa...lam...la...rı...mı...zı!”

Cəmiyyətdə verdiyi süfrə arxasında bu sözlərin mənasını axtaran Bahar xanıma mübtəda ilə xəbərin yer dəyişikliyini –onların bu sözləri Quran dili ilə çatdırdıqlarını açıqlayanda, bir də əlavə etdim ki, “Onların” bu kəlmələri niyyətinizin artıq baş tutduğuna bir işarədir. Bahar xanımdan ünvanıma “Əhsən sizə, Dilarə xanım!” - kəlməsini qazandım.

Süfrə arxasında bu söhbətdən sanki hamı donub qalmışdı. Süfrədə iştirak edənlərin hamısı - gözə görünməyənlərin salamını qəbul edib dualar etdi.

Hədiy paylanarkən Bahar xanım bu tarixin anasının vəfat etdiyi günə təsadüf etdiyi yadına düşdü.

Bu da bur fakt idi ki, başçılıq etdiyi Cəmiyyət ona hərdən əzizlərini də unutdururdu.

Bahar xanımın mənə dəfələrlə danışdığı yuxularını onun ürəyinin təmizliyi və saflığı ilə əlaqələndirirəm. Bu xeyirxah xanım hamıya kömək əlini uzadır, gümana gəlməyən məsələlərin həllində iştirakını əsirgəmir.

Əlbəttə bunların hamısı soy kökdən irəli gəlir. Mən mərhəmətli Bahar xanımın bu əməllərini görüb, ona "Cənnət" adı vermişəm. Çünki o xeyirxah əməllərilə "Cənnəti" bu dünyada qazanıb.

1989-cu il idi. Bahar xanım Mərkəzi Komitədə işləyərkən istirahət etmək üçün Azərbaycanın cənnət guşəsi sayılan - Göy Gölə getmişdi. Təsadüfən telefon qovşağında telefonçu qızın və oradakı su anbarında işləyənin erməni olduqlarını görən Bahar xanımı bu iki mühüm obyektdə "onların" fəaliyyəti çox narahat edir. Strateji əhəmiyyət daşıyan bu obyektlərdə iş başında erməni?

İstirahətini yarımçıq qoyub, Bakıya dönən Bahar xanım təcili olaraq lazımı yerlərə məlumat verir. Narahatçılığının nəticəsi onu qane edir. Hər iki erməni işdən uzaqlaşdırılır.

Mən bütün bunları Bahar xanımın anadan olduğu il ilə əlaqələndirirəm.

Öküz ili və tərəzi bürcü öz işini görür. Hər şeyi sözün əsl mənasında tərəzidə min ölçüb, bir biçən Bahar xanım, iri buynuzlu heyvanın gücündə olan işlərin həllinin də öhdəsindən mərdi-mərdanə gəlir.

1949-cu il oktyabr ayının 22-də işıqlı dünyaya göz açan bu qızın adını Kamandar kişi elə-belə Bahar qoymayıb.

Oğlan həsrəti ilə yaşasa da, Kamandar kişi ikinci qızının dünyaya gəlməsinə heç də heyfsilənmir. Əksinə, xəstəxanaya xəbər göndərir ki, Məryəm xanıma desinlər: - "Gözləri aydın olsun mənə ruzu bəxş etdiyinə görə."

O, ruzu deyəndə ailədə qız uşağının artımlı oduğunu nəzərdə tuturdu.

Uşağı Kamandar kişiyə göstərəndə soyuq bir gündə parlayan günəş onun gözünü qamaşdırarkən, bir payız günündə evimə günəş və istilik gətirən uşağın adını Bahar qoyuram,
demişdi. Sonradan Kamandar kişi elə ki, bir işi alınanda o, bunu Baharın ayağının düşərli və ruzulu olduğu ilə əlaqələndirirdi.

Bahar Politexnik İnstitutuna daxil olanda da o, demişdi ki, kişi qeyrətli balam elə gərək kişi institutunda oxusun. Kamandar kişi onun Vətənə layiqli bir övlad olacağına inanırdı.

Bəlkə də bu istəklər, ata-anasının duaları idi ki, Bahar xanım ali məktəbi bitirəndə onun yolunu Volodarski adına Tikiş Fabrikinə salmışdı. Gənc mütəxəssis –mühəndis-texnoloq, qısa müddətdə, yaxşı mənada, fabrikdə dönüş yaradıb, fabrikin iş metodunu kökündən dəyişir.

Hələ fəal komsomolçu ikən qəlbində yaşatdığı bütün arzularını o, burada həyata keçirir.

Qabaqcıllıq, iş prosesində dəyişikliklər, fəxri siyahılar, bir sözlə çox şey çıxır ortaya. Gənc Bahar bunları həyata keçirərkən yorulmaq bilmir.

Bütün bunları eşidib-görən, cəldliyinə və fəallığına göz qoyan Nəsimi Rayon Partiya Komitəsinin birinci katibi Lida Xudat qızı Rəsulova Bahar xanımı işlədiyi Nəsimi Rayon Partiya Komitəsində sənaye şöbəsinə təlimatçı təyin edir.

Buradan da işgüzarlığı Bahar xanımın vəzifə cığırını Mərkəzi Komitəyə aparır.

İşini çox sevən Bahar xanım ictimai işlərlə də məşğul olmağı unutmur. Amma bütün bu işlərlə bərabər ailəsi onun üçün ön planda olaraq qalırdı. Atası Kamandar kişi 1918-ci ildə anadan olmuş, Böyük Vətən Müharibəsindən birinci qrup əlil kimi qayıtmışdı. Uzun illər tarix müəllimi işləyib, YAP-ın ilk qurucularından olub. 2003-cü ildə 85 yaşında vəfat etmişdir.

Kamandar Abasova verilən Böyük Vətən Müharibəsi iştirakçısı ödülünü Ulu Öndər Heydər Əliyevin əlindən alarkən Bahar xanım özünü dünyanın xoşbəxti sanmışdı. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev cənabları ilə görüşmək ona belə qismət olmuşdu.

Ümumiyyətlə Ulu Öndərimizin gənc və istedadlı kadrlara münasibəti bir mənalı idi. Heç bir "arxası" olmayan bu xanımın taleyinə Mərkəzi Komitədə işləmək də yazılmışdı. Bəlkə də Kamandar kişi uşağın üzü günəş kimi nur saçarkən bunu görübmüş?

Bahar xanımın çöhrəsindəki nur-gözəlliyi mənim kimi çoxlarını valeh etdiyinə əminəm. Onun baxışı, duruşu - yerişi, qüruru, səmimiyyəti içdən gəlir. Çünki onun soy kökü xan və bəylərdən – Bakıxanovlardan xəbər verir.

Çox vaxt Bahar xanım ilə yol yoldaşı olmuşam. Hər dəfə özlüyümdə təsdiq etmişəm ki, düzgünlük, mülayimlik onun genlərindədir. Onun damarlarında "mavi qan" – qaynayır. Çünki O, Kamandar və Məryəmin oğul-qızı olub, ictimaiyyətdə qaynayıb, cəmiyyətdə bişib.

Bahar xanım bu vaxta qədər gördüyü işlərini bu gün də Respublika Qadınlar Cəmiyyətinin sədri olaraq davam etdirir.

2016-cı ildə yeganə qızından olan yeganə nəvəsi Kornelia Fidan, iki millət bir dövlət saydığımız Türkiyənin 5 şəhərində: –Antaliya, Trabzon, Mərsin, Adana və Ankara

şəhərlərinin ali məktəbinə qəbul olunanda o, iki seçim arasında qalmışdı: Beynəlxalq əlaqələr, yaxud Memarlıq?

Kornelia Fidan balam, seçimində yanılma. Əgər memarlığı seçsən Ağa Musa Nağıyevin arzusunu yerinə yetirəcəyinə, yəni yüzə çatmağa qalmış iki binanın tikilməsində iştirak edəcəyinə inamlıyam. Çünki sən Baharın bahar təravətli nəvəsisən.

Əgər Antaliyanın Ak Dəniz Universitetinin Beynəlxalq Əlaqələr fakultəsini seçsən, nənən Bahar xanımın yolunu gedəcəyinə, siyasətçi-ictimaiyyətçi bir xanım kimi ölkəmizə xeyir gətirəcəyinə tam əminəm.

Bahar xanımın gözünün ağı-qarası saydığımız Kəmalə qızı bu gün də əlçatmaz sayılan 2 ali məktəbi - Tibb Akademiyasını və İqtisad Universitetini bitirib, gözəl həkim olmaqla bərabər bu gün Respublikada, eləcə də xaricdə bəstəkar, şair, ssenarist kimi tanınır. Ssenarilərində günün ən aktual məsələlərini ortaya çıxaran Kəmalə -həkim, ürəyini qoyduğu musiqini mahnılara çevir-məklə bir pleyada mahnı qalereyası yaradır.

Mahnılarının ilkin ifaçılarından ölməz müğənnilər – Xalq artistləri - Mirzə Babayev və İlhamə Quliyeva olub. İlk xeyir-duasını da onlardan alıb müəllif. Bu gün isə Nisə Qasımova, Aygün Kazımova və Brilyant xanım kimi Xalq artistlərimizlə bərabər Zülfiyyə və Röya kimi təkrarsız müğənnilərimiz də Kəmalə xanımın mahnılarından qaynaqlanır. Kəmalə xanımın mahnılarını dinləyərkən sanki hündürlüyü bitməyən bir nərdivanla səmalara çatmağa çalışırsan.

Türkiyənin seçilən müğənniləri –Mustafa Cecelə və Petek Dinçöz Kəmalə xanımın axarıncı mahnılarının ifaçılarıdır.

Amma Kəmalə xanımın ilk “xəstəsi” də, şeir və ssenarilərinin ilk dinləyicisi də, mahnılarının sədası altında

xumarlanan da, anası, anası, yenə də anası-müsiqi duyumu həssas olan Bahar xanımdır.

Bu yaxınlarda sevgi şairi Vahid Əzizin sözlərinə yazılmış Kəmalə xanımın "Bəhanə gəzirəm" adlı yeni mahnısına Xalq artisti Nisə xanım Qasımovanın ifasında qulaq asdım. Həzin musiqinin və təkrarsız ifanın sədaları altında sanki nəfəsim kəsildi, ürəyim dondu.

Musiqi, oranjeman və ifaçı – bütün bunlara ürəyini qoyan Kəmalə xanıma bir sualım var – "Böylə cahan necə sığır bir bədəndə?"

Bir sözlə sualımı özüm cavablandırdım:- Bu Bahar xanımın yuxusu ərşə çəkilən, əzablı-keşməkeşli illərinin - Kəmaləsinin Cahanıdır!

Bütün bunlara görə, ən əsası Kəmalə xanımın ürəyinə və tərbiyəsinə görə Bahar xanıma təşəkkür edirəm. Gün o gün olsun ki, Kornelia Fidanın səsi bir tək Türkiyədən deyil, Avropadan gəlsin. Axı,"Ot kökü üstə bitər!"

Yaxşı insan olmaq, yaxşı övlad yetişdirmək, yaxşı nəvə ortaya çıxarmaq hər kişinin işi deyil. Bu nər kişinin – yalnız Bahar xanımın işidir.

Qızım Könülün ad günündə göndərdiyi təbriki sizlərə çatdırmağı vacib sayıram:

"Könül, ad gününü, xoş gününü təbrik edirəm. Sabahın xeyirə açılsın. Sən ən gözəl bir ailədə həyata göz açmısan. Bu artıq özü bir xoşbəxtlikdir. Övlad valideyni seçməyir. Sənin anan Dilarə xanım Allahın göndərdiyi bir nemətdir. İnanıram ki, sənin o gözəl ürəyinə, saf və təmiz qəlbinə görə Allah digər hədiyyələrini də göndərəcək. Sənin məhəbbətin nəinki anaya, qardaşa və qohumlara, hətta heyvanlara da çatır. Belə hisslər hər adama deyil, yalnız "seçilmişlərə" qismət olur. Ağıllı insanlar hər bir məsələyə seçimlə yanaşırlar. İnanıram ki, gələcək həyat yolunu da düzgün seçəcəksən."

Sənə dəyər verən, xoşbəxtlik arzulayan, Dilarə xanımın arkadaşı Bahar xanım.

Bəli, Bahar xanım – Allah-Taala bizləri sevdiyinə görə biz də onun "seçilmişlərindənik".

**P.S.** *Essenin əlyazmasını Bahar xanıma oxumağa vermişdim. Təvazökar xanım dırnaq arası belə bir cümlə yazıb, onu Sizlərə çatdırmağı vacib sayıram:*

*"Çox sağ olun, Dilarə xanım. Əladır.Lap utandım."*

# HİPPOKRAT ANDI

***Bir həkim, bir hakim səhv edə bilməz. Çünki hər ikisi insan həyatının müqəddəratını həll edir.***

Azərbaycanın Birinci Vitse-prezidenti xanım Mehriban Əliyeva deyir:

"Mənim arzum odur ki, Azərbaycanda hər bir uşaq xoşbəxt olsun. Ona görə də biz balalarımızı məhəbbətlə, nəvazişlə, mərhəmətlə, diqqətlə böyütməliyik... Biz onlara elə tərbiyə vermək istəyirik ki, sabah əsl insan, əsl vətəndaş, əsl şəxsiyyət olsunlar."

Mehriban Əliyeva öz fəaliyyəti ilə bir tarix yazır. Onun yazdığı tarixin hər səhifəsi insanlara sevgi ilə doludur. Həyat düsturu –öz sözləri ilə desək, belə ifadə oluna bilər: **"Xoş söz, xoş niyyət, xeyirxah əməl."**

İnsan üçün çox qiymətli olan, lakin çox vaxt qayğısına qalmadığımız ən böyük sərvət- can sağlığıdır.

Həkimlik yüksək insani keyfiyyətlər tələb edən bir peşədir. Yaxşı həkim olmaq üçün ilk növbədə yaxşı insan olmaq lazımdır. Xəstənin sıxıntılarını duymaq vacib şərtdir. Bunu duymadan əsl həkim olmaq çətin məsələdir. Həkimin işi yalnız müraciət edən xəstələrə xidmət etmək deyil, həm də cəmiyyəti dəhşətli xəstəliklərdən qorumaq üçün bəşəriyyəti məlumatlandırmaqdır.

Başqa ixtisaslardan fərqli olaraq, yalnız həkim ixtisasına yiyələnən mütəxəssis Hippokrat andını içir. Çünki həkimlik fərqli bir ixtisas olmaqla, tam da fərqli sahədir. Həkim daha çox mükəmməl biliyə və yüksək mənəviyyata malik olmalıdır.

Dünyada tibb elmi çox sürətlə inkişaf edir. Vaxtı ilə çarəsi tapılmayan bir çox xəstəliklərin müalicəsi bu gün mümkün sayılır.

Essemin qəhrəmanı - sağlamlığın keşiyində duran gözəl insan, mehriban ailə başçısı, istək və məhəbbətini hər kəsə paylamağa çalışan həkim-ictimaiyyətçi xanım-İradə Hacıyeva Gülmalı qızı bu düstura istinad edir.

İradə xanım – Ali dərəcəli həkim, "Vertebra" Onurğa Tibbi Mərkəzinin təsisçisi və Baş həkimi, "Avantaj" Tədris Mərkəzinin rəhbəri, Respublika Qadınlar Cəmiyyətinin Binəqədi rayon sədridir.

O, bütün həyatını və əmək fəaliyyətini "Osteoporoz" xəstəliyindən əziyyət çəkən anası Məryavərd xanımın xatirəsinə həsr edib.

Həyat yoldaşı Lütfiyar bəy İradə xanım haqqında belə deyir: Ağıllı qadın ailə başçısının arxasında bir ordu deməkdir. O, bütün xüsusiyyətlərinə görə bir çox qadına örnək olunasıdır.qadın ailə başçısının arxasında bir ordu deməkdir. O, bütün xüsusiyyətlərinə görə bir çox qadına örnək olunasıdır. İradə xanım ictimai işlərdə də fəaldır. O, Respublika Qadınlar Cəmiyyətinin Binəqədi rayon şöbəsinin sədri olaraq, bu ərazidə yaşayan aztəminatlı ailələrə, eləcə də Uşaq Evlərinə həm sağlamlıqları baxımından, həm də mənəvi cəhətdən hər zaman dəstək olur. Mən də onun hər bir işində ona dəstək olub, köməyimi əsirgəmirəm. Bu işlərlə yanaşı o, misli ölçülə bilməyən anadır."

İradə xanım Şəmkir rayonunda ziyalı müəllim ailəsində dünyaya göz açıb. Ata-anası bir sinifdə oxuyub, ali məktəbdə də yolları ayrılmayıb, tale qisməti onları yaxşı mənada təqib edib. Məryavərd xanım dörd oğul və bir qız övladını dünyaya gətirməklə, Gülmalı kişinin evinin çırağının daha güclü bərq vurmasına səbəb olub.

Zəhmətlə yaşamağı, insanlara əl tutmağı valideynlərindən öyrənib İradə xanım. Orta məktəbi, eləcə də ali məktəbi fərqlənmə ilə bitirdiyinə görə o, hər zaman

valideynlərinə minnətdarlığını bildirir. Allah da valideyninin qədrini bilənə yol açır.

Tibb İnstitutunda oxuyarkən Olimpiadalarda yüksək yer tutması – onun nə dərəcədə savadlı olduğunun təsdiqidir. Qırmızı diplom sanki onun gələcək həyat yolunun xəritəsini çəkmişdi.

Atası Gülmalı kişi həmişə deyərdi ki, əsl insan odur ki, elmi mənimsəyə bilib, ona təsir edən amilləri əvvəlcədən duyub, ani cavab verə bilsin. O, ata - ananın zəhmətini, əziyyətini yüksək qiymətləndirdiklərinə görə övladlarından çox razı idi. Sevinirdi ki, beş övladının üçü həkim olaraq, insan sağlamlığının keşiyində dayanır. Bu gün Gülmalı atanın İradə xanım kimi o biri övladlarının da yaşam siyahısında olmasa da, onların uğurlarına ruhən sevindiyinə inanırlar.

Həyatın hər hansı çətinliklərinə qalib gələn İradə xanım bu amillərdən bəhrələnib, valideynlərinin öyüd-nəsihətlərinə söykənərək, xalqına, dövlətinə xidmət edir.

Öz sahəsinin bacarıqlı mütəxəssisidir İradə xanım. Peşəsini sevdiyinin nəticəsidir uğurları. Almaniya, Türkiyə, İspaniya, İran, Avstriyada keçirilən “Beynəlxalq Onurğa Konfransı”nın nümayəndəsi olub. Tibb aləmində hər zaman axtarışda olan qayğıkeş ana-nənə İradə xanım hər zaman çalışır ki, əhatəsində olan insanlar, qohumlar həyatda öz yerini tuta bilsinlər. Çətinliklər onu qorxutmur.

İradə xanım biliyini, savadını ətrafdakılara ərməğan etməkdən zövq alan, peşəsinin vurğunu olan kateqoriyaya aiddir. Onurğa xəstəliklərinin artmasının ciddi təhlükə yaratması onu narahat etdiyindən, bunun qarşısını almağı maarifləndirmədə görür İradə xanım. Bu işi ümumtəhsil məktəblərində və məktəbəqədər müəssisələrdə tədbirlərin aparılmasına şəraitin yaradılmasından başlamağı məsləhət görür.

“Vertebra” Onurğa Mərkəzindəki diaqnostika cihazları, kompyuter tomoqrafları, MRİ və müasir rentgen - imkan verir ki, xəstəliyin ilkin mərhələsi aşkarlanaraq, düzgün müalicə aparılsın. Buradakı tibbi avadanlıqlar Almaniyadan gətirilib.

Təmənnasız olaraq, onurğa xəstəliyindən müalicə olunan insanlardan əməyini və biliyini əsirgəməyən bu xanımın bircə “sağ ol həkim”, kəlməsinə ehtiyacı olur.

İradə xanım alicənab bir nəslin nümayəndəsi olub,çevik təfəkkürə malikdir. Bu xanımda olan yüksək mənəvi keyfiyyətləri heçnə ilə almaq olmur. Bunlar candan-gendən irəli gəlir. Onun ilk baxışdan sadə, mehriban siması, xəstələrlə xoş rəftarı heç bir kəsin gözündən yayınmır.

Hər birimiz həyatda xoşbəxtlik axtarışında olub, onun nə demək olduğunu anlamağa çalışırıq. İradə xanım isə tam fərqli olaraq, uzun müddət bel ağrıları və onurğa xəstəliyinə düçar olan insanların müayinə və müalicəsindən sonra əldə etdiyi nəticəni-ən böyük və şərəfli xoşbəxtlik sanır həyatında.

Etiraf etmək lazımdır ki, İradə xanım və onun başçılıq etdiyi kollektivin məsuliyyətlə yanaşdıqları xəstələrin müayinəsi və müalicəsi yüksək nəticələrlə sona yetir.

Dünya Azərbaycanlıları Konqresinin Moskva Nümayəndəliyinin sədri, Tibb e.ü.f.d. İlqar Əliyev - bacısı İradə xanıma hər zaman uğurlarının artmasını, elmdə daha da yüksəlməsini, həyatda isə sağlam olmasını arzulayır.

Kliniki Tibbi Mərkəzin şöbə müdiri Azər Maqsudov-peşəkar mütəxəssis İradə xanımın tələbkarlığına inanaraq, nailiyyətlərinin çoxalmasını diləyir.

İsmayıl Əfəndiyev, Tibb e.ü. f.d. onun haqqında fikrini belə söyləyir: “İradə xanım ilə tanışlığımız həyat yoldaşının xəstəliyi ilə bizə müraciətindən başladı. Onun necə

qayğıkeş həyat yoldaşı olduğuna heyran qaldıq. Ömür-gün yoldaşının müalicəsini apardığımız zaman bu qadın yorğunluğunu biruzə vermədən, onun vaxtında və tam sağalmasına fədakarcasına nail oldu. Bütün bunların amalı ondakı səbr və xəstənin qəlbinə yol tapmaq bacarığıdır."

Həyatda tam sərbəst işləmək, kollektivə rəhbərlik etmək İradə xanıma mənsubdur. O, davranışı, təfəkkürü, dünyagörüşü və insanlarla münasibətində bir çoxlarından fərqlidir. Onurğadan əziyyət çəkən xəstələrin guman yeridir.

O, deyir ki, xəstədə həkimə qarşı inam hissi yaranmazsa, müalicə səmərəsiz olar.

Dəfələrlə kollektivi ilə birlikdə məktəblərdə keçirdiyi maarifləndirici tədbirlərdə şagirdlərə onurğa xəstəlikləri haqqında məsləhətlər verir və müayinələr aparır.

Həkimlik çox nəcib bir peşədir. İnsanların keşiyində dayanmaq şərəfli olduğu qədər də məsuliyyətlidir.

Buna bariz misal olaraq- I dərəcəli travmotoloq-ortoped Ələkbər Həmidovun dedikləri kifayət edər: "İradə xanım çox təvazökar qadındır. Qəbuluna göndərdiyim xəstələrin müalicəsi yaxşı nəticə ilə başa çatır. Bu sahədə onun qədər ikinci vertebroloq çətin ki, tapılsın."

Həkim -İradə xanım yaradıcı təfəkkürü ilə seçilən, dövrün tələbləri səviyyəsində olmağı bacaran, xeyirxah və işgüzar xarakterə malik bir insandır. Bir psixoloq bacarığı ilə xəstənin düşdüyü ruhi sarsıntıların səbəblərini asanlıqla aşkar edir.

Ümumiyyətlə əxlaqlı insan cəmiyyətə təmənnasız xidmət edir. Rüşvətxorluqdan, pis hərəkətlərdən uzaq olur. Bu kimi xüsusiyyətlər də onun amalıdır.

İradə xanımın peşəsinə vurğunluğu onun qeyri-adiliyini göstərir. O, insanlıq vəzifəsini hər şeydən üstün tutaraq, imkansız xəstələrin müalicəsinə köməklik edir, onların

sağlamlığa qovuşmasına dəstək olanda mənəvi rahatlıq tapır.

Hələ 1990-cı illərin əvvəllərində ailə vəziyyətilə əlaqədar İradə xanım Moskvaya köç edərkən, pediator Sahib Səfərov demişdir ki, Azərbaycan cəmiyyəti layiqli bir peşəkar pediatorunu “itirdi”.

İradə xanım Bakıya qayıdarkən ilk sevinənlərdən o, oldu. Uzun illər sonra Vertebrologiya elminin təkmilləşmiş həkimini – Vertebroloji Onurğa Mərkəzinin təsisçisini qarşısında görərkən, S.Səfərov bu elmin sükanı arxasında İradə xanımın möh-kəm dayanacağına inanaraq, sevinənlərdən də o, oldu.

İradə xanımın mülahizələrindən ən əsası odur ki, insan yaranandan son gününədək fiziki cəhətdən sağlam olmalıdır. Çünkü bu mənəvi sağlamlığın özülüdür. Əgər onurğa xəstəliyinə görə korset geyinsən, illərlə ağrılara görə ağrıkəsici içsən, sinir sistemini və daxili orqanları dərmanlarla zədələsən, tezliklə əlillik qazana bilərsən. Normal qamət isə gözəl görüntü deyil, ilk növbədə sağlamlıqdır. Onurğa Mərkəzini yaratmaqda məqsəd-ahıllarımızın müəyyən vaxt keçdikdən sonra qalan ömrünü yataqda keçirməməsidir.

İradə xanım ömrünü elm yolunda xərcləməkdən bu gün də usanmır. Günün ən aktual problemi sayılan - Skolioz və Onurğa Sütununun Patalogiyası ilə məşğul olub, xəstələrə kömək etmək, onun ciddi problemlərlə məşğul olduğunun bir daha sübutudur. Məhz onurğa patologiyası xəstənin iş qabiliyyətini itirməsinə və əlilliyə gətirib çıxarır. O, tibbin müasir müalicə üsullarından istifadə edib, belə xəstələrə kömək edir.

İradə xanım mehriban həyat yoldaşı, qayğıkeş ana və istəkli nənə kimi sevgisini paylaşaraq, müsbət keyfiyyətləri ilə hər birinin qəlbində təməli heç vaxt silkələnməyəcək bir ailə körpüsü qura bilib.

Bu körpünün davamlı olmasını arzulayanlardan biri də mənəm.

2016-2017-ci ildə 3 dekabr “Əlillər günü” ilə əlaqədar “Sağlam gələcək uğrunda” adlı layihənin həyata keçirilməsinə Respublika Qadınlar Cəmiyyəti ilə birlikdə “Vertebra” Onurğa Mərkəzinin Bakının 45 ümumtəhsil məktəbində təşkil etdiyi maarifləndirici seminarlardan minlərlə gənc faydalandı.

Bu seminarların nəticəsindən bəhrələnən Binəqədi İcra Hakimiyyətinin müavini Aygün Əliyevanın qeydləri diqqətə layiqdir:

“Təbii ki, bir həkimin bu qədər təəssübkeş və xeyirxah olması onun şəxsi keyfiyyətlərindən xəbər verir. Bu tədbirlərin təmənnasız olaraq həyata keçirilməsi gənclərin vaxtlı-vaxtında müayinədən keçmələrinə, eləcə də mövcud problemlərdən məlumatı olmayanlar üçün şərait yaradır.”

RQC-nin sədr müavini olaraq mən də İradə xanımın sevincinin də, kədərinin də şahidi olmuşam. Qardaşı oğlunun toyuna hazırlaşırdılar.

“Təbii ki, bir həkimin bu qədər təəssübkeş və xeyirxah olması onun şəxsi keyfiyyətlərindən xəbər verir. Bu tədbirlərin təmənnasız olaraq həyata keçirilməsi gənclərin vaxtlı-vaxtında müayinədən keçmələrinə, eləcə də mövcud problemlərdən məlumatı olmayanlar üçün şərait yaradır.”

Nə etmək, həyatın aksiomasıdır bir gün yaranan, bir gün də həyatı tərk etməlidir. Amma bu atanın ölümü tam başqa idi. Çünki 50 il biologiya elminin fənnini tədris etmiş, fəxri və pedaqoji adlar, orden və medallar mükafatçısı olan Gülmalı kişinin hazırladığı proqramlar bütövlükdə təhsil sisteminin inkişafına – formalaşmasına yönəlmişdi.

Bunların önündə isə Ata titulu gedirdi. İradə xanım Ata- arxa itirmişdi.

İradə xanım! Atanın bütün arzularını doğrultmusuz. Onun bir arzusunun da həyata keçməsini sizin kimi bütün sizi sevərlər də gözləyir.

Yaxşı övlad olaraq valideynlərinin ümidlərini həyata keçirmisiz. Həyat yoldaşı olaraq ailənin xidmətində dayanmısız, ana kimi layiqli övladlarınızı qanadınızın altında bəsləmisiz,yaxşı qaynanasız, nənə kimi məhəbbətinizi nəvələr arasında bölüşdürə bilirsiz, xəstələrə həkim kimi – ananın balaya olan məhəbbəti qədər sevgi verə bilirsiz.

Şəxsi həyatında və müqəddəs peşəsində bol-bol uğurlar, müvəffəqiyyətlər arzulayıb deyirəm:

- Hər zaman insani dəyərlərinin daha da artmasını, insanlara əl uzatmaq eşqinin onu heç vaxt tərk etməməsini diləyirəm.

Gün o gün olsun ki, layiqli həkim-mütəxəssis kimi etdikləriniz dövlətimiz tərəfindən qiymətləndirilsin.

Bax, onda atanın da arzusu yerinə yetər, ruhu şad olar.

## İLK DİKTOR

**Dünyada çox sənət var.**
**Sənət seçən insanlar da çoxdur.Amma...**

Azərbaycan Dövlət Televiziyasının 60 illik yubileyinə həsr etdiyi "Televiziya dünənim, bu günüm və sabahımdır" kitabının Beynəlxalq Mətbuat Mərkəzində keçiriləcək

təqdimatına mən də dəvətli idim. Sevinə-sevinə iştirak edərəm, amma öncədən kitabla tanış olmaq istərdim, dedim.

Qulaqlarıma inanmadım. Təqdimata 10 gün qalıb, kitab hələ çapdan çıxmayıb. Soruşanda ki, çatdıra biləcəklərmi, xanım qətiyyətlə bildirdi ki, mən hər bir məsələyə çox ciddi yanaşıram.

Söhbət Azərbaycan Dövlət Televiziyasının ekranından 56 il ərzində hər gün görüşümüzə gəlib, bizlərə xoş əhval-ruhiyyə bəxş edən Prezident təqaüdçüsi, Respublikanın Əməkdar artisti Natəvan xanım Hacıyevadan gedəcək.

Kitabın üz qabığında gənc Natəvanı və bu günkü xanım Natəvanı görəndə nostalji hisslərə qatıldım...

1960-cı ildə televizorun hamının evində olması qeyri - mümkün olan bir zamanda, qonşular televizor olan evə doluşur (bilərəkdən bu kəlməni işlətdim), maraqla "möcüzənin" baş verəcəyini gözləyirdilər.

Saat 18-00-da üzündən hər zamankı kimi gülüş əskik olmayan, qarasaç, qaraqaş, iri qara gözlü, tamamilə makiyajsız diktor-əsl azərbaycanlı qızı Natəvan Hacıyevanın dediyi: "Salam, əziz tamaşaçılar!" – kəlmələrindən sonra onun sehirli səsi sanki bizləri xəyallara aparırdı...

Bəli, Azərbaycan Dövlət Televiziyası Natəvan Hacıyevanın dünəni, bu günü, sabahıdır. Elə bu ad ilə kitab yazmaqda əsas məqsədi də televiziyaya olan dərin məhəbbətini gənc nəslə çatdırmaqdır.

Dünyada çox sənət var. Sənət seçən insanlar da çoxdur. Amma sevib-seçdiyi peşənin əsl vurğunu, cəfakeşi, bilicisi olmaq hamıya nəsib olmur. **Bax, buna nail olanlar "xoşbəxtlər" sırasındadırlar.**

Belə xoşbəxtlərdəndir Azərbaycan Dövlət Televiziyasının ilk rəsmi diktoru Natəvan Hacıyeva. Min bir zəhmətin sonunda bu zirvəyə çatan diktor. O, sənətinin

vurğunu və əsl sahibidir. Aparıcılıq etdiyi verilişlərin mahiyyətindən, məzmunundan asılı olmayaraq, hər zaman tamaşaçı diqqətini özünə yönəldə bilən xüsusiyyət ancaq bu insana xasdır. Şair Vahid Əzizin dediyi kimi:

"İyirminci yüzilliyin ortalarında elmin inkişafı Azərbaycana mavi ekran gətirdi. Azərbaycan isə bu qəribə güzgüyə Natəvan adında gözəl bir qız töhfə etdi. Bu güzgünün qarşısından yüz minlərlə tamaşaçı gəlib-keçdi. Özünəməxsus danışıq tərzi ilə insanlara özünü sevdirə bildi Natəvan Hacıyeva. Hələ bu güzgüdən baxmağı yüzlərlə diktorlara da öyrətdi. İlk məhəbbət kimi Natəvan Hacıyeva efirdə 56 il öz yerində qaldı.

Bu gün də o, televiziya verilişlərinə qonaq gələndə, bizləri nostalji hisslərə qaytarır . O zaman çoxları Natəvan Hacıyevanı ekrandan bizə baxan aya bənzədirdi...".

Həyatının təsadüflərlə yoğrulduğunu söyləyən Natəvan xanım etiraf edir ki, ömrüm deyəndə sənətimi, sənətim deyəndə ömrümü düşünürəm.

Atası Əsgər Hacıyev 60-cı illərin tanınmış hüquqşünaslarından olub. Anası Şölə xanım savadlı olsa da, Əsgər kişi onun işləməyinə razılıq verməyib.

Ailəyə ilk övlad sevincini Natəvan gətirsə də, ilk uşağının oğlan olmadığından bikef olan Əsgərin tez bir zamanda məhəbbətini qazanır bu qız.

Məktəb illərini yada salan Natəvan nənəsi Xədicə xanım ilə bağlı hadisələri belə xatırlayır:

- Məktəbdə "hüsnüxətt" fənnindən həmişə əla qiymət alan Natəvan, bu dəfə dörd aldığını atasından necə gizlətməyi fikirləşir. Hadisədən xəbər tutan ata, yerə səpdiyi noxudların üstündə diz çökməklə qızını cəzalandırır. Ağrıya dözə bilməyib, göz yaşları içərisində boğulan Natəvanın dadına Xədicə nənəsi çatsa da, atanın ikinci cəzası "hüsnxətt"dəftərini səliqəli xətlə yenidən köçürmək olur.

Ali məktəbə yenicə qəbul olan Natəvan rejissor Kamil Rüstəmbəyovun təklifi ilə “Aygün” bədii filmində epizodik rola çəkilir.

17 yaşlı Natəvanın 170 nəfərin içindən seçilib Azərbaycan Dövlət Televiziyasına diktor qəbul edilməsinə bəlkə də bu debütün təsiri olmuşdu.

Natəvan işə qəbul olarkən ilk anda atasının ciddi simasını gözünün önünə gətirmiş, sanki “noxud əhvalatı”nın ağrısından bədəni ürpəşmişdi. Amma Əsgər kişi ziyalı olduğundan qızının bu seçimini alqışlayıb, bu yolda ona uğur arzulamışdı.

Azərbaycan Dövlət Televiziyası Natəvan Hacıyevanı çox məşhurlarla qarşılaşdırsa da, Natəvan xanım dünya miqyasında tanınmış şair Nazim Hikmət ilə efir görüşünü heç vaxt yaddan çıxarmır. Veriliş zamanı Nazim Hikmətin birdən efiri tərk etməsi gənc diktoru çaşdırsa da, o, çox çətinliklə özünü ələ alıb, heç bir hadisə baş verməmiş kimi aparıcılığını davam edir. Nazim Hikmətin yenidən verilişə qatıldığına sevinən Natəvan sonradan bunun səbəbini onun qan təzyiqinin yüksəldiyini bilmişdi.

Diktorun özünü itirməyərək vəziyyətdən çıxması Televiziya Sədrinin nəzərindən qaçmır, hətta o, bu hadisəni “diqqət dəftərində” də qeyd edir.

1962-ci il yanvar ayında Bakıda 100 ildə bir yağan ilk qar, Natəvanın artıq sənətə necə bağlı olduğunun bir daha sübutu oldu.

Natəvan səhər erkən güclü qarın yağdığını görüb düşündüyü yalnız bu olur ki, işə necə gedəcəyəm? Şekspirin “olum ya ölüm” monoloqu arasında qalaraq telestudiyaya etdiyi zəngə telefonun dəstəyini sədrin qaldırdığı Natəvana sanki güc verir. Və o, qət edir ki, mütləq işə getməliyəm!

Amma onu səbirsizliklə ekran qarşısında gözləyən tamaşaçıların Natəvanın hətta traktorun üstündə işə

gəlməsindən xəbərləri də olmayır. O gün Natəvanın evlərdə hər gün olduğu kimi yenə də "Salam,sabahınız xeyir olsun!" deməyi bəs deyil, hətta hava ilə əlaqədar telestudiyada geçələyib, "Gecəniz xeyrə qalsın, hörmətli tamaşaçılar!"da deyərək, proqramı sona çatdırır.

Ömrünü sənətində görən, həyatının təsadüflərlə yoğrulduğunu təsdiqləyən Natəvan xanım hər zaman deyir ki, Dövlət Televiziyası azərbaycanın görən gözü, eşidən qulağı, döyünən ürəyidir.

Ailənin dostu, elmlər doktoru Şükufə xanım Mirzəyeva bu qızın adını qoyarkən, Xürşud Banu Natəvan kimi ağıllı, savadlı, xalqını sevən ziyalı olacağını arzulamışdı. Gənc Natəvan bunu varlığlı ilə təsdiqləmişdi. Ailədə ilk övlad olduğundan, beş qardaşın bir bacısı olan Natəvanın dediyi söz qanun idi. Çünki o, hər bir işi əvvəlcədən yüz ölçüb, bir biçəndir.

Natəvan xanım televiziyada ilk müəlliminin Fatma xanım Cabbarova olduğundan bu gün də qürur duyur. Diktorluq sənətinin sirrlərini ondan öyrəndim, deyir: "Bu xanım sənətkar məni efir üçün yüksək səviyyədə hazırladı. Əsl ustad dərsləri aldım ondan. Fatma xanım mənim idealıma çevrildi."

Sənət yolunda ilk addımlarını ən çox ehtiyat etdiyi atasından aldığı xeyir-duasını heç vaxt unutmur: – "Əyər səni seçiblərsə, deməli bacaracaqsan. Çiyninə böyük yük götürdüyünü unutma. Hamının gözü səndə olacaq. Allah köməyin olsun!"

Elə bil bu sözlərə, xeyir-duaya bənd idi Natəvan. Bəlkə də bu onun 56 il sevdiyi işində çalışmasına səbəb oldu?!

Bəli, televiziyada uzun ömürlü işləmək ancaq Natəvan xanıma nəsib oldu. Çünki o, atasının alqışını ilahi bir alqış kimi qəbul edirdi. Ailədə gördüyü düzgünlük, tərbiyə və məhəbbətin də az köməyi olmadı Natəvan xanımın yolunun yaşıl işıqlı olmasına.

Tamaşaçı gözündə efir bəlkə də asan görünür. Bunu yalnız bu işin dərinliklərindən bixəbər olanlar belə düşünə bilər. Natəvan xanım ekran-efiri böyük auditoriya hesab edərək deyir ki, diktor tamaşaçının ürəyinə yol tapmalıdır. Hər birinin qəlbində öz imicini yaratmalıdır. Mətni laqeydsiz oxuyan diktor tamaşaçı sevgisi qazana bilməz. Soyuqqanlı, laqeyd olsan tamaşaçı gözündən düşə bilərsən.

Elə bu xüsusiyyətləri Natəvan xanımı sevdirdi milyonlarla tamaşaçıya. Evdar qadınlar axşam saat 6 tamamda hər işini kənara qoyur, işdən evə qayıdanlar isə tələsərək ekran qarşısında əyləşirdilər ki, Natəvanın gözəlliyinə tamaşa edəcək, məlahətli, həzin səsinə qulaq asıb, dincələcəklər.

"Natəvan, sən çox məsuliyyətli bir sənətə vəsiqə almısan. Sən mənim bütün efir sirrlərimi mənimsəmisən"- bu sözlər təcrübəli diktor Fatma xanım Cabbarovanın etirafı idi.

Fatma xanım Xalq artisi adına, Natəvan xanım isə Əməkdar artist adına eyni ildə layiq görülmüşdü. Natəvan xanımın bu fəxri adın ona çox gec verildiyinə görə inciməyə haqqı olsa da, bu xoşbəxtliyi ustadı ilə bir vaxtda bayram etdiyinə sevinirdi.

İncə qəlb sahibi Natəvan xanım incikliyi tez unudur, incitməyi sevməyir. 56 ildə keçdiyi mərhəmətli, lakin çətin yolda onun başı nələr çəkməyib?

Hər şey efirdə göründüyü kimi deyil. Səhvlər olanda ağla-yıb da, danlanıb da bu xanım. Amma nail olduğu təltiflər zamanı həddini aşmayıb. Özünə düşmən deyil, çoxlu dost qazanıb. Bilmədiyini sormağı ayıb sanmayıb.

1961-ci il 12 aprel tarixi Natəvanın yaddaş dəftərinə qızıl hərflərlə həkk olub. Tarixdə baş verən sevincli xəbəri planetdəki heç bir xəbərlə müqayisə etmək olmazdı. Yuriy Qaqarinin kosmosa uçuşunu rus dilində diktor Natəvan

xəbər vermişdi. O, bu xoş xəbəri o qədər müsbət emosiyalarla tamaşaçılara çatdırmışdı ki, ertəsi günü Televiziyanın Sədri Teymur Elçin ondan: xoş xəbər müjdəçisinin keyfi necədir, deyə müraciət etmişdi.

Natəvan xanımın gözəl xüsusiyyətlərindən biri də efirə çıxmamışdan əvvəl mətnlə başdan ayağa tanış olması idi. Ekranın təsir gücü çox qüvvəlidir. 1961-ci il avqustun 26-nı isə Natəvan Hacıyeva belə xatırlayır:

-SSRİ Xalq artisti Bülbülü ilk dəfə idi ki, oğlu Polad müşayiət edəcəkdi. Konsertin aparıcısı olduğumdan çox həyəcanlı idim.

Bundan qısa müddət keçmişdi ki, hələ də bu konsertin təəssüratı altından çıxmayan Natəvan Hacıyevanın payına tamaşaçılara Bülbülün vəfatını çatdırmaq düşmüşdü.

Bu gün Azərbaycanın Rusiyadakı Səlahiyyətli Səfiri - Polad Bülbüloğlunun Natəvan Hacıyeva haqqında söylədiyi fikirlər də çox önəmlidir:

"...Televiziya sehirli bir aləmdir. Tamaşaçını bu sehirli aləmə aparmaq xüsusi istedad tələb edir. Natəvan xanım belə istedad sahibidir. Onun qazandığı tamaşaçı sevgisi hər kəsə qismət olmayır. Keçən zaman bizdən çox şeyi alsa da, dəyişməz bircə münasibətlərimizdir. Natəvan xanım bu gün də əvvəlki təbəssümlə gülür..."

Diktor efirdə böyük simadır. Tamaşaçının qəbul etdiyi diktorun səviyyəsinə hörməti böyükdür. Bu xüsusiyyət bütövlükdə Azərbaycan Dövlət Televiziyasının ilk rəsmi diktoru Natəvan xanım Hacıyevaya aiddir. O, verilişləri obrazlı təqdim edərək, hər bir xırda detalı güdərək, sanki sahibləri ilə görüşür, onlarla həmsöhbət olurdu.

Çıxışlarının birində Əməkdar jurnalist Mailə Muradxanlı qeyd etmişdi ki, bəxt ulduzumun ilk carçılarından olan bu insanın mənə verdiyi ekran xeyir-duası sayəsində insanların taleyinə işıq salan "Ötənlərdən,

keçənlərdən” verilişinin aparıcısı kimi  illərin sınağından mətinliklə çıxa bildım.

Rejissor Azər Paşa Nemət deyir: – “Natəvan xanım tez bir zamanda hər bir evin döğmasına çevrildi. Efirdə onun müsahibi olarkən, bütün bunların canlı şahidi olub, bir daha bu insana məhəbbətin artır. Həyatdakı səmimiliyi, xoş xasiyyəti onu hər yerdə müşayiət edir. Düşünürəm ki, başqa peşəkarlar da onun kimi gənclərə bu sənətin sirrlərini öyrətsələr nə mutlu olar!”.

İllər keçsə də, Natəvan xanımın səsi əvvəlki kimi cavan və rəvandır. Bu Allah tərəfindən verilən vergidir.

Natəvan Hacıyeva “Rus dili”adlı televiziya verilişinin də müəllifi olub. Bu yolda müəllimləri Ümumittifaq radiosunun diktoru Olqa Vısotskaya və Rusiyanın Mərkəzi televiziyasının diktoru Nina Vladimirovna Kondratova olub. 1970-ci ildə Natəvan Hacıyevaya verilən “Ali dərəcəli diktor” statusunu da Moskva təsdiqləyib.

Televiziya ona nə verib sualına Natəvan xanım bir mənalı cavab verir:

- Televiziya geri qaytara bilmədiyim illərimi alsa da, hörmət, məşhurluq və ən əsası çoxlu dostlar qazandığımdan qürur duyuram.

Essemi professor Aqşin Babayevin sözləri ilə bitirirəm:

- Natəvan xanım! Allah bu gözəlliyinizi çox görməsin, təravətinizi itirməyəsiz, həmişə səsiniz gəlsin!”

## RÜTBƏ VƏ DİN

Həyəcan təbili - Polis polkovnik Leytenantı Gülbahar Məmmədova General rütbəsindən imtina etdi.O, rütbəni ailəsinə qurban verdi! Çoxları bundan təsirləndi...

Həyat yoldaşı Sabir müəllim əvvəllər Gülbahar xanımın tabeçiliyində işləyib. Sonradan vəzifədə pillə-pillə irəliləyən Sabir müəllim rütbədə də həyat yoldaşı ilə bərabərləşəndə rəqabət aparırdılar. Amma siyahıda adının birinci olduğunu görən Gülbahar xanım, General rütbəsinin ona verilməsindən vaz keçir.

O, milli mentalitetə riayət edərək, ailə naminə, "Generallıqdan" imtina etməyə qərar verir. Bu gün də o, bu qərarından çox məmnundur.

Çox ailəcanlı olan bu xanım, bu gün mehriban ailəsinin xidmətində dayanmağı hər şeydən üstün tutur. Gülbahar xanım həyatının yar-yoldaşı Sabir müəllimin və övladı Orxanının qulluğunda dayanmaqdan xüsusi zövq alır. Bu kiçik ailə çoxlarına nümunə olaraq, soylu-köklü ailə, sevgi, məhəbbət və birlik cəhətdən sayca seçilənlər sırasındadır.

Bu həyat hekayəsini belə başlamaqda məqsədim ər-arvadın rütbə rəqabəti aparması deyil. Xeyr, sadəcə olaraq bir “paqonlu ailə” ilə sizləri tanış etməkdir.

Naxçıvanın Şərur rayonunun Püsyan kəndində yaşayan Hüseyn kişiyə bütün kənd əhli xüsusi hörmətlə yanaşırdı. Savadsızlığın hökm sürdüyü bir dövrdə bu kişinin bildiklərilə hamı razılaşırdı.

Hüseyn kişi Böyük Vətən müharibəsi Veteranı olduğundan, vətənə bağlılığından və layiqincə xidmət etdiyindən hər dəfə xatirələrilə bölüşərkən, sanki yedikcə doymayan bir insana bənzəyirdi. Bəlkə bu sədaqət və inamdan irəli gəlirdi ki, o, övladının birinə Sadiq, o birisinə isə Şərəf adını verib?!

“... Canlı ensiklopediya idi atam, ona qulaq asanlar, ondan söz toplayıb o birilərinə ötürürdülər. Elə bu sözlərimin təsdiqi Abdulla Qurbanidir. O, sözün əsl mənasında atamın tələbəsi olub, həyat məktəbini keçib, deyir Gülbahar qızı. O zaman çoxları üçün ən çətin sayılan “Kapital” əsərini atam əzbərdən bilirdi.”

1951-ci ilin qarlı-boranlı bir qış günü idi. Hüseyn kişi ailəsində dördüncü övladının işıq üzü görəcəyini həsrətlə gözləyirdi. Həyat yoldaşı Seyid qızı Mirəstə xanım dünyaya oğlan gətirəcəyinə çox inamlı idi. Ailədə artıq bir oğlan, iki qız övladının olması əli Quranlı Hüseyn kişini heç də qorxutmurdu. O, zarafatca deyirdi ki, uşaqların sayının artması heç də ziyan deyil, sadəcə qazandakı küftələrin ölçüsü bir az kiçildilir. Bir də ki, o, övladlarının xalqa layiqli övlad olacaqlarını sanki duyurdu. Sonradan doqquz övlad atası olan Hüseyn kişi onların ali təhsilli, hətta bəzilərinin iki ali təhsilə yiyələnmələri ilə fəxr edirdi. Rəhbər işçi, baş mühasib və bizneslə məşğul olan övladları Hüseyn kişinin arzularını belə doğrultdular.

Gülbahar xanım, nədəndir sizdə Allaha bu qədər inam? Çiyninizdə - ulduz daşıyıcısı paqon, arxanızda –

vəzifə yükü, qəlbinizdə - Allaha sevgi. Böylə “Yük” sığarmı bir zərif vücuda? Gülbahar xanım işıqlı dünyaya göz açdığı zamandan atası Axund Hüseynin əli Quranlı, dəstəmazlı, dizləri namazda olduğunu söyləyir.

Bax, budur Gülbahar xanıma Allaha sevgisini aşılayan, süd ilə, şəcərə ilə gələn genlər danılmazdır, müzakirə edilməzdir!

1952-ci il dekabrın 27 idi. Məsciddə azan üstə olan Axund Hüseynə xəbər verirlər ki, qızın dünyaya gəldi, gözlərin aydın. Onun özündən asılı olmayaraq -“Verdiyinə Şükür, İlahi”-dediyi sözlər azanın ardı kimi, məscidin divarlarında əks-səda verir. Bəlkə də Gülbahar xanımın vəzifəyə qalxmasına, rütbəyə çatmasına bu səbəb oldu?

Beş dəfə Həcc ziyarətində olan çiyni paqonlu Gülbahar xanım, Respublika Qadınlar Cəmiyyətinin (RQC) yolu ilə Suriyaya gedərkən ümdə arzusu Xanım Zeynəbin qəbrini ziyarət etmək idi. O, yoluna Naxçıvanda dünyada analoqu olmayan “Əshabi Kəf” ziyarətindən başlamışdı. O zamandan bu yolda onunla yol yoldaşı olub, dostluq əlaqələrini bu günədək davam edən RQC-nin sədri Bahar xanım Qasımova, Gülbahar xanımın Allaha və İmamlara olan sevgisindən danışmaqdan yorulmur.

Gülbahar xanım Böyük torpağın Şərur rayonunda polis rəisi vəzifəsini əvəz edir, sonra isə Ulu Öndər Heydər Əliyev ilə görüşü onun “Pasport qeydiyyatı” şöbəsinin rəisi vəzifəsidnə işləməsinə səbəb olur. Onun Bakıya gəlişi də Ulu Öndərin adı ilə bağlıdır. Vətənə bağlılığını, təmizliyini, savad və tərbiyəsini hiss edən Ulu Öndərin ümidlərini Gülbahar xanım işdə olduğu kimi, həyatda da hər zaman qoruyub doğrultmağa çalışır.

Gülbahar xanım hələ Sovetlər dövründə qapısını bağlayıb, iş otağında gizlicə namazını qılmasaydı rahat ola bilmirdi. Bu hal onu bu gün də müşayiət edir. Harada olmasından asılı olmayaraq, qıldığı namazın savabını

ətrafındakılara da paylayır. Allaha müraciətilə etdiyi dualar ətrafındakıların əhval-ruhiyyəsini dəyişir.

Ümumiyyətlə Gülbahar xanım sirli bir xəzinədir. Onun nəyi bacarmadığını sadalamaq daha asandır. Dostluqda sadiqdir.

2016-cı ildə Respublika Qadınlar Cəmiyyətinin yolu ilə mənə də “Əshabi Kəf”i ziyarət etmək nəsib oldu. Bu ziyarət tam başqa bir aləm idi. Çünki orada Gülbahar xanım vardı. Onun duaları, Allaha yalvarışları özü bir imana çağırış idi. Bəli, bunu başa düşmək, anlamaq özü də bir şərqşünaslıq diplomuna nail olmaq şərəfi qədər qiymətlidir. Dualarını həzin səsilə başlayan Gülbahar xanım, sanki bütün Hacıxanımların əks-sədasını bizlərə çatdırır.

Gülbahar xanım Ulu Öndərin göstərişi ilə daxil olduğu Ali Partiya Məktəbini bu böyük dahinin ümidlərini doğruldaraq, “Qırmızı Diplom”la bitirir.

Onun vergili olduğunu desəm, inanın. Allaha müraciətləri adi insanlıqdan fərqlidir. O, kişi qeyrətli, öz sözünü deyən, insana arxa olandır. Elə bunların təsdiqidir ki, görkəmli alim Zemfira Verdiyevanın vəfatından sonra Respublika Qadınlar Cəmiyyətinin Sədri olmağa məhz Bahar Qasımovanın layiqli namizədliyini sübuta yetirərək, bu yönümdə sözünü mərdi-mərdanə deyən Gülbahar xanım oldu.

Gülbahar xanım ilə ilk tanışlığım zamanı onu Şərqşünas alim bildim. Bəli, əgər üçüncü təhsil almağa cəhd göstərsəydi, bu gün o, bu sahənin diplomlu alimi ola bilərdi.

Hüseyn kişinin adı İmam Hüseynin adı kimi ailəsinə Quranla bərabər düzgünlük və şəffaflıq gətirdi. Övladlarını sağlam ruhda böyüdüb, tərbiyə edən Hüseyn kişi Axund kimi alimlik şöhrətini qazandı. Bu da onun “Həyat Diplomu” oldu. Axund Hüseynin qapısına gələn, onun

məsləhətlərinə qulaq asaraq ümidlə qayıdanların duaları onu hər zaman qoruyub. Uşaqlarının çoxluğuna istinad edənlərə Hüseyn kişi belə cavab verirdi ki, 12 İmam eşqinə yaratdıqlarım xalqa xələl gətirməz. Görünür elə bu səbəbdəndir ki, o biri övladlarına Xədicə, Həsən, Məhəmməd adlarını verib.

Qışın oğlan çağında anadan olan dördüncü övladına verdiyi ad, qış-gül və bahartək dərin məna daşıyır. İqlim və təbiətdən doğulan ad bu qızcığazın özü kimi qışın oğlan çağında əllərinin və ürəyinin hərarətilə hamıya bir istilik, bahara yaxın isə bahar ətirli bir sevgi gətirdi. Axı Hüseyn kişi demişdi ki, qar içində tər çiçək gəlib ailəmə.

Polis Polkovnik-leytenantı, tərbiyəli övlad, qüdrətli qadın, vəfalı həyat yoldaşı, mehriban ana. 9 iqlimli Bakının beş iqliminin Gülbahar xanımın varlığında cəmlənməsi zərurətdən gələn bir təsadüfdür. Quranın sədaları altında lay-lay deyən Mirəstə ananın halallığıdır.

Bu qədər Allaha yaxın olan Gülbahar xanımı hamı sevir. Din, rütbə, qadın, vəzifə və ana, bunların hər biri ayrı-ayrılıqda bir elmdir. İnsanda təəccüb və maraq oyadan bu xüsusiyyətlər Hacıxanım Gülbahara aiddir. Amma bu əfsanə deyil, bu həyatdır, bu bir zərif məxluqun tarixidir.

Bu gün bu xanımın ailəsi 3 nəfərdən ibarətdir və onların hər biri də polis rütbəlidir.

Əli Quranlı, ürəyi hər zaman Allah sevgisiylə dolub-daşan və bu sevgisini ətrafındakılarla paylaşa bilən Gülbahar xanıma tək bircə balası Orxanının xeyir işinə başlamasını arzulayaraq, tezliklə onu və həyat yoldaşı polkovnik Sabir müəllimi yuxudan nəvə səsinin oyatmasını Allahdan diləyirəm.

Belə deyim də var ki, övlad toyu-adətdirsə, nəvə toyu səadətdir. Analoqu olmayan bu sevinci "Qışın Tər Çiçəyi"-Gülbahar xanıma yaşamağı arzulayıram!

Esseni Gülbahar xanımın 65 illik yubileyinə həsr etmişəm. Mənim çox xoşuma gəldi. Sizlərin də bu həyat hekayəsinə olan isti münasibətinizə inanıram. Çünki ürəkdən gələn bütün cümlələr üzərində əvvəlcə düşünüb, sonra dilimə, daha sonra isə vərəqlərə köçürəndə hər birinizin ürəyinə yol tapmağa çalışmışam.

## ATA HƏSRƏTLİ

***Həyatı boyu ata həsrətilə böyüyən uşaq, başqasının atasının ölümünə ağlaya bilərmi?***

Həyatı dərk edəndən, çox gənc yaşlarından atası Qutqaşen (indiki Qəbələ) rayonunun I katibi "Vətən xaini"

damğasıyla damğalanmış Gülməmməd Qarayevi həbs edərkən, evlərində nə varsa, müsadirə edilir və həyat yoldaşı Mənsurə iki uşaqla- Sabir və Minirə ilə sürgün həyaına məhkum olur.

Belə bir şəraitdə həyata göz açan Minirə xanım intiqam eşqilə yaşadı. Özü də hiss etmədən haqqı bayram edəcəyini qarşısına məqsəd qoyan Minirə xanım, qəddar Stalinin ölümünə insanların hönkür-hönkür ağladıqlarını görəndə nə qədər cəhd göstərsə də, gözündən yaş çıxmadı.

Çox sonralar Minirə xanım: – "Həyatı boyu ata həsrətilə böyüyən uşaq, başqasının atasının ölümünə ağlaya bilərmi?" deyə, verdiyi sualı xatirə dəftərində oxuyarkən – özünü intiqam almış qəhrəmana bənzətmişdi.

Sonradan repressiya qurbanı olan atasının bəraət alması Minirə xanımı atalı günlərə qovuşdura bilməsə də, bu gün Qəbələnin Pastar məhəlləsində küçə adları sırasında Gülməmməd Qarayevin adını görəndə, az da olsa,rahatlıq tapır.

Sözü gedəcək fədakar qadın iki müharibənin şahidi olub. Balaca Minirə Böyük Vətən Müharibəsi illərində poçtalyona kömək məqsədilə ürək parçalayan "qara xəbəri" ünvanına çatdırmaqla bilməyərəkdən ailələrə vurduğu zərbədən xəbərsiz idi.

Qarabağ müharibəsi başlayandan cəbhədə döyüşçülərə ərzaq və digər yardımlar göstərməklə yanaşı torpağa, yurda məhəbbətlə bağlı söhbət aparan vətənpərvər qadınlardan söhbət açanda – professor Minirə xanımın adını çəkməmək qeyri mümkündür.

Minirə xanım 1991-1993-cü illərdə Respublika Qadınlar Cəmiyyətinin bir qrup fəal qadınları ilə tez-tez cəbhə bölgələrində olmuş, həmçinin Cəmiyyət tərəfindən

himayəyə götürülmüş Cərrahiyyə xəstəxanasında müalicə olunan əsgər və zabitlərə də lazımı yardımlar göstərmişdir.

Minirə xanımın sinəsində qayğılı bir ürək döyünür. O ürək ki, onun vətənpərvər ruhda köklənməsinə təkan verib. Minirə xanımın dediyi bu sözlər hər birimizə bir örnəkdir: - "Əyər mən cəmiyyət üçün işləməsəm, onda özümü gərəksiz bir insan sanaram. Mən insanlara gərəkli olanda özümü rahat və xoşbəxt hiss edirəm!"

Belə mərd qadını bir sual hər dəfə çox narahat edir. Mənim kimi nə qədər uşaqlıqdan məhrum olub, atasızlar siyahısına düşüb? Belə ailələrin necə çətinliklərlə rastlaşmasından, ələlxüsus atasızlıqdan əziyyət çəkdiklərindən bixəbər olanlar çoxdur desəm, yanılmaram.

1937-ci ildə- ölkəni qanunlar deyil, güc strukturları idarə etdiyi bir zamanda düşünməyi bacaran, susmağı bacarmayan dillər bir anda kəsilirdi. Heç bir günahı olmayan birinin adını "vətən xaini" qoyaraq nəslini məhv edir, bununla da ellər atası adlandırılan Stalinin şəxsiyyətinə kütlə arasında pərəstiş yaradılırdı. Minirə xanımın atası Gülməmməd Qarayev də belə bir dövrün qurbanı oldu.

Minirə xanım xatirələrində yazır:

"Anam Mənsurə xanım danışırdı ki, atanız hər gün həbs ediləcəyini gözlədiyindən evdən çıxarkən sənin və qardaşının üzündən öpərək, sanki vidalaşırdı. Amma səni lap çox əzizləyirdi. Sanki ümid yerini dəqiq bilirdi.

Nə yaxşı ki, o zaman Süleyman baba qardaşımın və mənim köməyinə çatır, bizi qaçıraraq məhkumluqdan azad edir. Sonrakı taleyimizdə, böyüməyimizdə, ali təhsil almağımızda da Süleyman babanın rolu danılmazdır.

Hər ikimiz nəhəng Bakıda xalamızın yarızirzəmi mənzilində sığınacaq taparaq, Süleyman babanın ümidlərini doğrultmağa çalışırdıq.”

Orta məktəb müəllimlərim Əliyar Qarabağlı, Əhməd Seyidov, Əziz Əfəndizadə deyirdilər ki, Minirənin böyük gələcəyi var.

İlk qələbəsini Minirə Gülməmməd qızı Qarayeva Xarici Dillər İstitutunun tələbəsi ikən “İngilis dilində ən gözəl tələffüzlü tələbə” müsabiqəsinin qalibi olduğunu sanır.

Ali məktəbə daxil olmaq üçün şəhərə gələn gənc Minirə Bakını böyük bir dənizə bənzədirdi. Bu dənizdə üzməyi bacarmaq lazımdır, deyə düşünən Minirə bilirdi ki, üzə bilməzsə məhv olacaq. O zaman Bakıda yaşamaq üçün güclü ağıl, möhkəm iradə tələb olunduğu onu düşündürsə də, nə vaxtsa Avropa ölkələrində və Amerikanın Corctaun, Vaşinqton, Filadelfiya, Boston və Harvard Universitetlərində mühazirə oxuyacağı ağlına da gətirməmişdi.

Belə deyirlər ki, ürəkdən ürəyə yollar var…

Minirə xanım orta məktəbi bitirdiyi ili Qəbələ rayonunun Katibi “Son zəngi” bütün məktəblərin bir yerdə keçirməsinə qərar vermişdi. İmran Minirəni bu son zəngdə gözaltı etmişdi.

O zaman həyat qurmaq haqqında heç düşünməyən Minirə xanım təsəvvürünə də gətirə bilməzdi ki, bir neçə əcnəbi dillərin dərinliyinə baş vurub, bilgisi və bacarığı nəticəsində dünyanın bir çox ölkələrini fəth edəcək. Gələcək həyat yoldaşı İmran müəllim isə türk folkloru üzrə alim kimi xaricdə ali məktəblərdə dərs deməyə vəsiqə alacaq.

Çox maraqlıdır ki, Minirə xanımın elçiliyinə İmranın uşaq ikən dünyasını dəyişdiyi anası gəlmişdi. Bu belə olub.

Minirə xanım orta məktəbi bitirdikdən bir müddət sonra, hələ İmran ilə tanışlığından əvvəl  yuxuda bir cavan, bir də yaşlı qadın görür. Cavan qadın giley-güzar edərək, ondan İmranı incitməməyi xahiş edəndə, Minirənin "sən kimsən" sualına – "anasıyam" deyə cavab vermişdi. Əgər sağ olsaydım, səni çoxdan nişanlamışdım oğluma, deyir. Sonradao biri qadının isə İmranın nənəsi olduğunu başa düşəcək.

Yuxunun təəssüratından hələ də ayılmayan Minirə, İmranın 3 yaşında anadan  yetim qaldığını, atasının isə vətən xaini adı ilə həbs edildiyini eşidəndə, özlüyündə qət edir ki, bu həqiqətən ilahinin əmridir ki, onlar evlənsinlər. Görünür onların birləşmələrinə talelərindəki oxşarlığın da rolu olub.

Minirə xanım harada olmasından asılı olmayaraq doğulduğu Qəbələ elə bil onu çağırırdı. O, bunu atasının ruhu ilə əlaqələndirirdi.

Qismət onun yolunu Əmrə Simpoziumu keçiriləcək Ərzurumdan salarkən, buranın dağlıq və soyuq iqlimi sanki doğma Qəbələsi kimi ağışuna alır.

Bəlkə də, bu səbəbdən idi ki, Ərzurumda o özünü Qəbələdəki kimi  sanırdı.

Tansu Çillərin Baş Nazir olduğu zaman Minirə xanım həyat yoldaşı ilə Türkiyədə dərs demək təklifi alır. Sivaş Universitetində Minirə xanım əcnəbi dillərdən, həyat yoldaşı İmran müəllim isə türk xalqlarının folklorundan mühazirələr oxuyurdu. Beləcə 1994-cü ildən onların Türkiyə həyatı başlayır.

Sivaş Universitetinin kafedra müdiri təyin edilən Minirə xanım ikinci dəfə professor adına layiq görülür.

Həyat yoldaşı İmran müəllim xəstələnərkən həkimlərin qayğısını görən Minirə xanım bir an düşünür ki, bəlkə də Allah onların yolunu bilərəkdən Türkiyəyə salıb.

Minirə xanım “Sivaşda bitən ömür” kitabını 40 il bir yerdə ömür sürdüyü İmrana, saf məhəbbətli həyat tarixinə həsr edir.

Üç övlad sahibi olan bu ailə xoşbəxt idi. Bu xoşbəxtliyə kədər qatan 10 yaşlı qızlarının vəfatı olsa da, 2 oğul sevinci onları yaşatdı. Ağdərə döyüşlərində hərbi jurnalist kimi fəaliyyət göstərən oğlu, leytenant rütbəli Eldəniz Abbasov cəbhədən əlil qayıtdı. Bu da ailənin bir fədakarlığı.

Türkiyədə fəaliyyəti zamanı tələbələri Minirə xanımı “Dünyanın ən yaxşı hocası, ən mələk anası” adlandırıblar. Müəllim üçün bundan artıq şöhrət ola bilərmi?

Minirə xanım hər zaman mənəviyyatı maddiyyatdan üstün tutub. Hacı Bektaşinin “Əlinə, belinə, dilinə sahib cıx!” - əxlaq düsturuna hər zaman riayət edərək, Minirə xanım - əlinə qüvvələnərək elmə sahib oldu, belində ailə qüruru daşıdı, dili ilə minlərlə tələbəni təhsil almağa həvəsləndirdi.

Əmək fəaliyyətinə Azərbaycanda Xarici Dillər İnstitutunda kafedra müdiri vəzifəsindən başlayıb. Gənc yaşlarından ictimai işlərdə iştirak edib. O, İnstitutun Qadınlar Şurasının sədri, M.F.Axundov adına kitabxananın xarici ədəbiyyat şöbəsinin baş məsləhətçisi olub.

1989-cu ildə İnstitutun Rektoru -professor Zemfira Verdiyeva Azərbaycan Qadınlar Cəmiyyətinə sədr seçiləndə Minirə xanım da bu cəmiyyətə üzv olur. Qısa müddətdə Zemfira Verdiyeva Minirə xanımı xarici əlaqələr üzrə müavin təyin edir. v Liviyada “Sülh şəraitində təhsil” mövzusunda keçirilən konfransda iştirak edərkən, dünyadakı mövcud 20 münaqişə ocağının olduğu qeyd edilən siyahıda Azərbaycanın adının olmaması Minirə xanımın diqqətini çəkir. Və onun təkidi ilə konfrans təşkilatçı-

larına Ermənistan tərəfindən Azərbaycana qarşı törədilmiş vəhşiliklər barədə ətraflı yazılı məlumatın təqdim edilməsinə nail olur.

Ümumiyyətlə xaricdə olduğu zaman Azərbaycanın mənafeyini qorumaq Minirə xanımın ümdə vəzifəsinə çevrilmişdi. Harada olmasından asılı olmayaraq o, Heydər Əliyev məktəbini keçdiyini qürurla vurğulayıb.

İctimaiyyətdə və elm sahəsində gördüyü işlərə rəğmən Minirə xanım Azərbaycanda sayılıb-seçilən insanlardan biridir. XX əsrin qabaqcıl elm adamı kimi "Şərəf diplomuna", "Ən Yaxşı Pedaqoq" adına və Ümumdünya Sülh Federasiyasının "Sülh Səfiri"diplomuna layiq görülüb.

Pedaqoji fəaliyyətini bitirib, təqaüdə çıxdıqdan sonra da kompyuter və ingilis təmayüllü bağça açmaqla işini davam edir.

Minirə xanım 80 yaşını başa vursa da, qəlbi gənclik həvəsilə döyünür. O, Respublikanın ictimai həyatında fəal iştirak edib, xeyriyyəçilik missiyasını bu gün də yaratdığı "Xoş Niyyət" İctimai Birliyinin sədri olaraq Qəbələdə davam etdirir.

Bəli, ana torpaq hər şeydən əzizdir. Gəzməyə qərib ölkə, yaşamağa Vətən yaxşıdır! Uğurlar olsun Sizə Minirə xanım!

# ZABİT GƏNCƏLİ

## ESSE

Nərmin nəvəm ailə həyatını qurarkən düşünməzdim ki, bu qohumluq oğlumun ailəsilə bərabər mənim də onlarla can bir qəlbdə olacağıma səbəb olacaq. Qarşılıqlı isti münasibət – mehribançılıq biz nənə və babaları da doğmalaşdırdı.

Sözügedəcək baba Zabit neçə-neçə kitabların müəllifidir.

Şeirlərini dostlarına, sevdiyi peşəsinə, övlad, nəvə və nəticələrinə həsr edən Zabit Gəncəli, həyat yoldaşı Svetlana xanım ilə birlikdə Vasif nəvələrinin ailə qurmasını necə arzuladığını hiss etdim.

Zaman bizi elə nəvələrimizin toy ərəfəsində birləşdirdi. Bu gün bizim ailə tellərimizi bir daha möhkəmləndirən Cəmilimiz var. Mən bu qohumluğu Svetlana xanım və Zabit müəllimsiz təsəvvür etmirəm.

Zabit Gəncəli və Svetlana xanımın, bu “gənc” cütlüyün, məhəbbətli ailəsi hamıya bir örnəkdir, gənclərə bir nümunədir.

Zabit Gəncəlinin kitabını oxudum və yazdığım esseni 2015-ci ildə avqustun 29-da “Göy Göl” məkanında ailə və dostlar əhatəsində növbəti ad gününü qeyd edərkən təqdim etdim.

“Hörmətli Zabit müəllim! Şeirlərinizi oxumadan Sizi daha yaxından tanımaq qeyri-mümkündür. Sizin xoş rəftarınız, gülər üzünüz, insanlara yanaşma qabiliyyətiniz, müsbət emosiyalarınız və əqidəniz şeirlərinizdə əks olunub.

Bütün bu xüsusiyyətlərlə bərabər, yazdıqlarınızı bir daha şəxsiyyətiniz tamamlayır. Əsas odur ki, Sizinlə həmsöhbət olarkən səmimiyyət hiss olunur.

Satira və yumor bir vəhdət yaradıb, Sizin daxili aləminizin xüsusiyyətlərini davam edir.

Şeirlərindən: **“Səmalarda gəzdiyin”** ə baxmayaraq, hər zaman **“Biz birgə olmalıyıq” -** deyərək, hər zaman ailənin keşiyində olduğun bəlli olur. Amma **“Keçən günə gün çatmaz”** yazsan da, **“Yetmiş yaşı haqladın”**. Həyatının nəticəsi- ilk nəticən **Elifində** gördün.

100 yaşında şeir toplularını **“Yana-yana qalın, a...”** adlandırmağını və hər zaman **“Yenə axtarışdayam”** – olmağını arzulayırıq.”

**Ömrün** bir günün də vermədin bada,
Fikrini sel aparanda, imdad deyib, haray qopardın,
Bu fani dünyanı gördün röyada.
Olsa da erməni **rusun** aləti, **“Millətin dərdi”**,
Qarabağ xalqımın dərdidir, dedin.
Deyirsən ki, adət-ənənələrdən geri qalmayın,
Gələcək ümidləri doğrultmaqçın sən,
Məsləhət verdin **“Çərşənbə axşamı axar suya bax!”**
**“Zamanın gözləri yəqin çaş imiş”,**
Kiprik çəpər olub, göz bağlayanda,
Bu dərdə dözməyib, ürək ağladan,
**“Qələm sirdaşın”** olub yaman vərdişin.
Qocalıqdan şikayət etməyib,
Yetmişi haqlamışdın, bilirsən bunu?
At oynatdığını yadına sal bir, başın bəla çəksə də,
Amma arzuna çatdın, sirdaşın qələminlə sən!
**Pislikdən**, xəbislikdən uzaq olmuşam deyib,
Şimşək kimi çaxdın, tufan tək qopdun.
Şair kimi coşub,yazdım, deyirsən,
Görüm hər zaman yazıb, yaradasan sən.
Səkkizinci onluq nədir, yüzü başa vurasan!
**Qarlı** qışı yola salıb, 80 yaz-yay qarşıladın sən,
Haqqın dərgahında kəsdin qurbanlar.

Altı nəvə, bir cüt nəticə gördün sən,
Yaraşdırmadan onluqları, iyirmilərə.
**Subaylığın** daşın atdı nəvən Vasif də,
Sənə ümid verib, evləndi bu il,
Bu da oldu sənin ali hədiyyən.
Nərmini evinin tacı adlandırıb sən,
Elifinə canım deyib, şöhrətin sandın.
Onu nübarın sandın, ay canım mənim,
Görüm nübarların sayı çoxalsın, ay Cəncəli Zabit!

**2012 –ci** il əjdahadır, dediyin zaman,
Bu bürcdən olduğum yadıma düşdü.
İndi adam yeməyəndir əjdaha,
Qorxumuz yox, gümanımız yalnız Allahadır -Allaha.
**Nərminin** həkimdir, kökü milyonçu,

Soy köküm xeyriyyəçi, qəlbi milyonçuyam mən,
Bir nəticən də bizdən gəlir, bilirsən bunu.
Həyatın mənası bax, budur, canım **Zabit Gəncəli!**

**P.S.** *Nəvəm Nərminin həyatını bəzəyən Vasif kürəkənimiz Zabit Gəncəlinin nəvəsidir. Zabit Gəncəli bu cütlükdən də bir nəticə gördü. 2015-ci ildə Cəmil Namazov həyata xoş qədəmlərini qoydu. Zabit Gəncəli demişkən, həyatının nəticəsidir nəticələri. Hələlik Elif və Cəmil. Ardı var...*

*Nərminimiz də bu il Tibb elminin ən yüksək pilləsi sayılan "Rezidentura"ya qəbul oldu. Gözləriniz aydın olsun Namazovlar nəsli.*

*Samirimə və Gülümə göz aydınlığı verib, deyirəm: - Əhsən Sizə övladlarınıza verdiyiniz tərbiyəyə və yönəltdiyiniz savada görə.*

## AMANSIZ XƏSTƏLİK OLMAYAYDI KAŞ...

Gözləriniz aydın, oğlunuz oldu..., Gözləriniz aydın, qızınız oldu... Əkiz övladınız gəldi dünyaya!

40 ildən artıq bu şad kəlmələri ailələrə bəxş etdi Svetlana xanım- ginekoloq.

İşindən, peşəsindən xüsusi zövq alırdı Svetlana xanım. Amma həyat ona naxələf çıxdı. Xəstəlik ona qalib gəldi. Övladları onu xilas edə bilmədilər. Çox çalışsalar da, amma dərdinə çarə tapılmadı. Bu da bir alın yazısıdır!

Svetlana xanım cəmi cümlətanı əsrin 3 hissəsini yaşadı. Həyatdan doymadı. Məgər həyatdan doymaq olarmı?

Ümumiyyətlə yol yoldaşı olduqlarımla daha yaxın oluram. Axı yol insanları yaxınlaşdırır. Svetlana xanım ilə cəmi 1 gün yol getdik, Qubaya "Alma bayramına". Amma aldığım təəssüratlar mənə onunla sanki illərlə bir yerdə olduğumu anlatdı. Yüksək mədəniyyət, tərbiyə. səviyyə və özü demişkən-səbr, bizi daha da yaxınlaşdırdı.

Arzular tükənmək bilmir. Uşaqlıqdan tez böyümək arzusunda olursan, sonra gəncliyinin fikrinə dalırsan. Sonra sevgi-məhəbbət, ailə, uşaq və daha sonra isə nəvə-nəticə arzusunda olursan. Arzular çoxaldıqca tükənmək bilmir.

Svetlana xanım da bütün bu mərhələləri keçdi. Zabit Namazov ilə qurduğu ailədə David, Mehriban və Sevinc kimi gözəl övlad sahibi oldular. **55** illik birgə yaşadıqları dövrdə can deyib, can eşitdilər biri-birindən. Oğlu David-həkim, qızı Mehriban xanım alimlik dərəcəsinə yüksəldi, sonbeşiyi Sevinc xanım isə mədəniyyət sahəsində- musiqi aləmində özünəməxsus yer tutdu.

Svetlana xanım övladlarının müvəffəqiyyətlərindən fərəh hissilə, öyünərək danışırdı. O, övladları kimi kürəkənləri və gəlini ilə də fəxr edirdi hər zaman. Sevgisini

hamı ilə bölüşə bilirdi. 6 nəvə, 2 nəticə gördü, vəssalam. Ömür qısadır...

Biz hər ikimiz sadəcə nənəyik. Deyirlər ki, övlad toyu adətdir, nəvə toyu səadət. Allah-Taala hər ikimizə bu səadəti yaşamağı qismət etdi. İstəkli nəvəm Nərminim, Svetlana xanımın ən istəkli nəvəsi Vasif ilə qurduqları ailədən Cəmil nəticəmiz dünyaya göz açdı. Svetlana xanım nəvələri arasında fərq qoymasa da, nəvəsi Vasif - ömrünün səhifəsində nömrə 1 idi. Vasifin adının arxasında bolluca məhəbbət, qayğı və hər zaman narahatçılıq duyurdu Svetlana xanım.

Xasiyyətlərimizdə oxşarlıq çox olduğundan biri-birimizə çox isindik. Bu qohumluq biz nənələrin məhəbbətinə çevrildi. Amansız xəstəliyi olmayaydı kaş...

2017-ci il 14 dekabr Svetlana xanımın həyatına son tarix yazdı. O, dünyasını dəyişdi, amma bizləri dərdə saldı. Bu dərd sağalmazdır. Övladlarının çarpışmalarına, Zabit müəllimin həyəcanına, nəvələrin yalvarışlarına heç nə kömək edə bilmədi. Svetlana xanım dünyaya birdəfəlik göz yumdu. Düşünmədi ki, nə qədər qohum və yaxınlarını həsrətdə qoydu.

Lap bu yaxınlarda Asif nəvəsinin nişanlandığına həyat eşqilə baxan gözlərilə razılığını və sevindiyini bildirdi. O gözləri ki, sanki yaşamaq istəyirəm, kömək edin, deyirdi.

Gəncədə bu nişanda iştirak etmək mənə də nəsib oldu. Üzümüz gülür, fikirlərimiz isə Svetlana xanımın yanında idi. Qonaq- qaralı evindən yetimlik yağırdı, anasız qalmış övlad kimi. Elə bil daş da, divar da soruşurdu, hanı evin xanımı?Axı sən nə qədər qonaqlar qarşılayıb yola saldın bu evdən, deyirdi.

Qismət..., Tale... Bu iki kəlmə olmasaydı, bəlkə insan ömrü sonsuz olardı, bilmirəm. Bircə onu bilirəm ki, ölüm amansızdır. Əcəl gələndə heç nəyə baxmır.

Svetlana xanım! Əzizimiz, hər zaman xatirəmizdə qazandığın hörmətlə, sevgilə qalacaqsan. Ruhun getsə də, cismin həmişə yaşar olacaq həyat yoldaşının, övladlarının, nəvə-nəticələrinin və bir də ki, bizlərin xatirində.

## YAŞADIĞINI OBRAZA ÇEVİRƏN

1971-1977-ci illərdə “Azərbaycanfilm” Kinostudiyasının unudulmaz Direktoru, professor Adil İsgəndərovun kadr üzrə müavini vəzifəsində çalışarkən Ramiz Əzizbəyli ilə görüşlərimiz çox olub.

Çox fərqli diksiyası və səs diapazonu ilə başqa aktyorlardan tamamilə fərqlənən Ramiz Əzizbəyli hamının sevimlisinə çevrilmişdi.

Qıvrım saçları, gözlərindəki parlaqlıq, bəzən şıltaq hərəkətləri gənc qızların diqqətini cəlb edirdi. O, bunu hiss edir, onlarla məzələnirdi. O zamanlar heç kəs təsəvvür etməzdi ki, bu gənc aktyor sonradan Azərbaycan incəsənətinin güzgüsü sayılan kino sənətində sayılıb seçilən rejissor olacaq.

Adi aktyorlar sırasında şıltaqlığı ilə seçilən Ramiz Əzizbəyli, istedadlı aktyor və rejissor Adil İsgəndərovun nəzərindən qaçmadı və məhz onun təkidi ilə sınaq çəkilişlərinə təsdiq edildi.

Ramiz Əzizbəyli qısa müddətdə dayanmadan inkişaf edərək, sənətdə yüksəldi. Yüksələrək də minlərlə insanın sevimlisinə çevrildi.

Xalq artisti Ramiz Əzizbəyli yaşadıqlarını obraza çevirməyə qadirdir. Əmək fəaliyyətilə yaşı arasındakı kiçik fərq bunun sübutudur.

Sanki onun taleyinə yazılmışdı: – öncə təcrübə, sonra təhsil.

O,1948-ci ildə Bakıda anadan olub. **10** yaşından radio və televiziya uşaq verilişlərində artıq məşhurlaşan Ramiz Əzizbəyli əmək fəaliyyəti dövründə özünü aktyor kimi, sonradan rejissor kimi təsdiq edə bildi. O, Xalq Artisti - Fəxri adına layiq görülüb. Həyata keçirdikləri ilə kifayətlənməyərək o, özünü pedaqoji fəaliyyətdə də sınayır və sınaqdan məharətlə çıxa bilir.

Ramiz Əzizbəylinin səsi bu gün Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetindən gəlir. O, "Rejissor sənəti" fakultəsinin müəllimi, "Estrada və musiqili teatr rejissoru" kafedrasının Professoru və müdiri vəzifələrində çalışır. Beləcə o, pedaqoji istedadını da nümayiş etdirə bilir.

1987-ci ildə, 39 yaşında Ramiz Əzizbəylinin ilk rejissor işi "Pirverdinin xoruzu" adlı filmi böyük rezonansa səbəb oldu.

O,"Bəxt üzüyü" filmi ilə daha da məşhurlaşıb, xalqın istəklisinə çevrildi. Film bütün epizodları ilə dillər əzbəri oldu. Sevindirici haldır ki, "İtmiş Üzük" filmin çəkilişinin 20 illiyi münasibətilə keçirilən tədbir zamanı Bakı İcra Hakimiyyəti tərəfindən "tapıldı" – simvolik olaraq ona qızıl üzük hədiyyə edildi.

Ramiz Əzizbəylinin çəkildiyi, səsləndirdiyi, rejissoru olduğu "Filmoqrafiyasına" 105 film daxildir. Belə göstərici ancaq ona aid ola bilər.

Ramiz Əzizbəyli özünü yazar kimi də sınadı və o, bu sınaqdan da əla qiymətlə çıxa bildi. "Cızma- Qara"adlanan toplusundakı hekayələri ibrətamizdir. Təkcə "Mıx" hekayəsini götürsək, oxucu bir mıxın ayaqlar altında qalıb sınmadığının, əzilmədiyinin, lakin nələr çəkdiyinin şahidi olur.

Qarabağ müharibəsi və Qarabağda tökülən qanlar da Ramiz Əzizbəylidən də yan keçməyib. "Yalan" filmində ifa etdiyi rolu ilə Qarabağ hadisələrinə necə can yandırdığı ekranda açıq-aydın görünür. Filmdə göstərə bildiyi həqiqətlər ona çox baha başa gəldi. O, can sağlığını itirdi.

Onun məlahətli səsi ekran arxasından sanki deyir:-bu mənəm də, sizin istədiyiniz Ramiz Əzizbəyli. İfa etdiyi mahnılarda ürəyə bir məlhəmlik gətirən pozitiv enerji hiss olunur.

Bu böyük sənətkar haqqında yazdığım kiçik xatirəni - filmlərilə təkraredilməz rejissor, səsinin məharəti və diksiyası ilə tamaşaçıları düşündürə bilən aktyor, hörmətli professor - Ramiz Əzizbəylinin Heydər Əliyev sarayında keçirilən 65 illik yubileyinə həsr etmişəm.

Səni təbrik edən və can sağlığı arzulayan, vaxtı ilə “Azərbaycanfilm” Kinostudiyasında kadr üzrə direktor müavini vəzifəsində çalışan Dilarə Ağamusa Nağıyevadır.
09.02.2014 il

# İKİNCİ DƏFƏ ANA İTİRDİM

Ailədə beş uşaq olmuşuq. Kasıb, lakin xoşbəxt ailədə böyüdüyümüzi inkar edə bilmərəm.

Valideynlərimizin biri-birinə olan hörmət və sevgisi, mehriban münasibətləri bizim üçün həyat məktəbi oldu. Atam evə gələndə ayağa qalxaraq, onunla görüşərdik, ancaq bundan sonra anam qazanın qapağını açardı.

Teatrda mədəniyyət paltar asılqanından başlandığı kimi, bizim ailənin də mədəniyyəti və tərbiyəvi xüsusiyyətləri masa arxasından başlayıb.

Atamız altı qardaşın beşincisi olub. Allah-Taala bacı payını onlardan əsirgədiyindən idi ki, Rauf qardaşımız dünyaya göz açanda anamızın dünyaya oğul gətirdiyi üçün sevincinin həddi-hüdudu olmayıb. Amma qaynanasının onun başına vurduğu zərbənin -qapazın ağrısını və “gəlin ocağa çəkər”, sözlərinin mənasını anam çox sonralar başa düşür.

Məhz bu səbəbdən ailəmizdə 1931-ci ildə ikinci övlad-Solmaz anadan olanda 40 günlüyünə Ağa Əli babamız şadyanalıq məqsədilə onun adına “Şəppəxeyir hamamı”[1] tikdirib ki, Fərəcin qızı olub.

Yaşınadək Solmazın hər ayı bayram kimi keçirilmiş, bir yaşı isə həyatına qızıl hərflərlə həkk edilmişdi.

Atam incəsənət fədaisi olduğundan, növbəti qastrol səfərinə gedəcəyini bilən Solmaz, gəlinciyini gizlincə onun yol çantasına qoyur. Atam yenicə gəldiyi rayondan həmin günü geri qayıdır. Solmazın həyatında belə hallar çox baş verib.

Atamızın ona olan məhəbbəti tam başqa bir aləm idi. Onun sevgisi atamın ürəyində böyük yer tuturdu. Solmaz xoş rəftarı və şirin dili ilə hamının ürəyinə yol tapırdı. Onu övladlığa götürən Zeynal əminin başına açdığı “oyunlar” o

---

[1] Bunu çox imkanlı insanlar tikdirirdi.

zaman əmimizin qəzəbinə səbəb olsa da, 10 il davam edən belə məhəbbət sonradan gülməli bir əhvalata çevrilmişdi. Solmazın dəcəlliyi ilə gözəlliyi də bir vəhdət təşkil edirdi.

Solmaz böyüdü, xoşbəxt ailə qurdu, arzuları tükənmək bilmirdi. Övladları naminə həyatını qurban verməyə hazır idi. 8 nəvə toyu görən, 16 nəticə sahibi olan bu xanım, ən çox sevdiyi nəvəsindən aldığı bəhrəsinin - ilk nəticəsinin toyunu görməyi arzulayırdı.

Yaşının 80-i keçməsinə baxmayaraq, gəlişi ilə toylara və məclislərə şənlik, şuxluq gətirən Solmaz xanım 84 yaşının tamamına 6 ay qalmış doymadığı dünyaya gözlərini qapadı.

Həyat gözəl nemətdir. Amma bir ayrılıq, bir də ölüm olmayaydı kaş. Həqiqətən hər bir işin həllinə çarə tapmaq asandır, tək bir ölümdən başqa.

Həyatın bütün şirin şərbətini içsə də, Solmaz xanımın yaşamaq arzusu tükənmək bilmirdi. Axıdılan göz yaşları, haqqında deyilən qiymətli sözlər hamının yadında uzun illər qalacaq. Dəfələrlə Solmaz xanımın xəstəliyi ilə apardığımız mübarizə bu dəfə belə bitdi. 2015-ci il 17 may onun son yaşadığı tarix oldu.

Həyatın qanunu belədir -sonda haqqın dərgahına qovuşmaq. Bu bir aksiomadır.

Nağıllarda deyildiyi kimi, biri var idi, biri yox idi. Mavi gözlü, qeyrətli bir xanım gəlmişdi dünyaya. Onun adı Solmaz idi...

Amma Solmaz xanımın hekayəsi bitməyəcək. Hər zaman olduğu kimi oğlanlarının, nəvə-nəticələrinin və bizim xatirimizdə qalacaq. Çünki o, xoş əməllərilə dərin iz qoyub həyatda. Ən əsası odur ki, gözlərini həyata qapayarkən ömrünü həsr etdiyi ilk nəvələrinin ikisinin də "biz, ana itirdik"- dedikləri kəlmələri Solmaz xanımın bu

yolda sərf etdiyi həyatının qiyməti idi. Nəvələrin nənə üçün yanması yaşanmış ömrün mənası deyilmi?

Mənsə ikinci dəfə - ana itirdim.

## AYRILIQ

Neft milyonçusu Ağa Musa Nağıyevin nəvəsi Solmaz xanım 2015-ci il mayın 17-də haqq dünyasına qovuşdu. Solmaz xanımın vəfatının birinci ildönümü "Heydər Məscidində" keçirildi. Mərasimdə Solmaz xanımın yaxınları, qohum və qonşuları iştirak edirdi.

Tarixdən bəllidir ki, Neft maqnatı Ağa Musa Nağıyev, Bakının arxitekturasına tikililəri ilə gözəllik verən milyonçulardan birincisi olub. Özlərini dırnaq arası Ağa Musa Nağıyevin nəvəsi kimi qələmə verən şəxslərin yazılarını təhqir kimi qəbul edən Solmaz xanımın Ağa Musa fəaliyyətinin tədqiq edilməsində rolu danılmazdır.

Məşhəd ziyarətində olan Solmaz xanım - Prezident təqaüdçüsü, Əsilzadələr məclisinin üzvü və Sülh Səfiri olaraq, ictimaiyyətdə də hər zaman fəal olub.

Saflığı və qeyrətilə seçilən Solmaz xanımın övladları həyatda layiqli yer tutublar. Hər birinin ali təhsilə yiyələnməsində sərf etdiyi illər isə ona ilham verirdi.

Solmaz nənəyə nəvələrinin toyunda qol-qanad açmaq nəsib oldu. Qucağına 16 nəticə aldı. Bütün bunlar Solmaz xanımın ömür payına düşdü.

Arzuları tükənməyən, daima yaşamaq- yaratmaq fikri ilə yaşayan Solmaz xanım 100 yaşına çatacağına çox inamlı idi. Hətta ölüm yatağında onun ürəyindən sanki bu sözlər keçirdi:- "ölmək istəmirəm, yaşamaq istəyirəm." Amma...

Vəfatının birinci ildönümü onun 85 illik yubileyi ilə üst-üstə düşdü.

"Heydər Məscidində" keçirilən ildönümü məclisində onun keçdiyi ömür yoluna nəzər salaraq, olub-keçənləri onunla birgə yaşadığımdan, söylədiyim bu sözlərim hamını riqqətə gətirdi:

- “Solmaz bacım, dünyanı dəyişsən də, səni sevənlərin qəlbində hər zaman yaşayacaqsan. Çünki sən əməllərinlə çox şey qazandın. Ehtiyacı olanlara əl tutdun, xeyriyyəçilik etdin, Həcc və Məşhəd ziyarətinə gedənlərə maddi köməkliyini əsirgəmədin. Sən bir cənnət quşu idin, cənnətə düşdüyünə də heç şübhəm yoxdur. Çünkü sən hələ sağ ikən irsdən keçən əməllərinlə cənnəti qazanmışdın. Allah sənə rəhmət eləsin!”

**P.S.** *2017-ci ildə Naxçıvanda “ Duzdağda”oldum. Buranın abu - havasının tam dəyişdiyini görəndə həm sevindim, həm də kədərləndim. Bacım Solmazın əziyyətləri yadıma düşdü. Hər iki nəvəsinə ömürlük şəfa bağışladı, özü isə “Duz xəstəliyi”ndən həyatının sonunadək əziyyət çəkdi.*

*İldönümü mərasimində haqqında çəkdirdiyim video çarx şəxsi arxivimdədir.*

## ÖMRÜN SON AKKORDLARI

**Bir bacı köç etdi ana əvəzi,**
**Yumdu gözlərini, əbədi getdi.**
**Yandırdı ölümün közü, alovu,**
**Ötən dərdləri də közərtdi, getdi...**

Dilarə Ağamusanın bacısı Solmaz xanım haqqında söylədiyi məhəbbət dolu xatirələrə qulaq asdıqca bir anlıq keçmiş günlərin xəyal dünyasının qonağına çevrilirsən. İçindəki doğmalıq hissləri baş qaldırır. Təmiz, saf, incə qəlbli bir bacının həyat hekayəsi gözlərin önündə canlanır. Gənc yaşından işləyərək ailəyə, ataya kömək edən Solmaz xanımın analıq qayğısından, əfsanəvi gözəlliyindən danışır. Ailəyə göstərdiyi diqqəti və qayğını bu gün də yaddan çıxarmayan Dilarə xanım, bacısı Solmaz xanımın o zaman çəkdiyi əziyyətlərindən söhbət açır. Onun zəhmət dolu ömür yollarını "qeyrət təcəssümü" kimi qiymətləndirən Dilarə Ağamusanın kövrək hisslərlə qələmə aldığı həmin xatirədən bəzi sətirləri sizlərə təqdim edirəm:

"Solmaz xanım əzabkeş olub, ailəmizin cəfasını çox şəkib. Bu başqa cürə ola da bilməzdi. Çünkü onun damarlarından Nağıyevlər nəslinin mavi qanı axırdı.

Dünya malına qalib gələn məhəbbət! Doğmalıq məhəbbəti. Olumlu, sonu isə ölümlü dünyanın əbədi qonağı kim olub ki? Əsas odur ki, insanlar, doğmaların səni məhəbbətlə yad etsin."

"Cəmiyyət və Qadın" ictimai-siyasi qəzetinin redaksiyasının üzvləri, ürək sızıldadan xatirəni yazan əzizimiz, şəxsiyyətinə dərin hörmət bəslədiyimiz fəal ictimaiyyətçi, qeyrətli, vətənpərvər, alim-ziyalı xanım, Dilarə Ağamusanın kədərinə dərindən şərik olub, bacısı Solmaz xanımın vəfatından kədərləndiklərini bildirərək dərin

hüznlə baş sağlığı verir. Allahdan səbr diləyib, rəhmət deyirik.

*"Cəmiyyət və qadın" qəzeti. 17 may 2015.*
*Şöbə müdiri Yeganə Mahmudbəyli*

## TƏVAZÖKAR OPERATOR

***İnsan üçün ömrün səhifələri***
***- ağı və qarası ilə də əzizdir***

*Esseni nakam dünyasını dəyişmiş qaynım –*
*Zakir Muxtarova həsr edirəm.*

O, "sadəcə" operator idi Azərbaycan Dövlət Televiziyasında. Sadəliyi və təvazökarlığı ilə sevildi və 40 il efir ömrünü sürdü. Televiziya onun ailəsinə çevrildi. Mənəm- mənəm deyənlərdən olmadı, hərçənd ki, buna onun biliyi və bacarığı yol verirdi.

Bəlkə də işini çox sevdiyindən ailə qurmaq haqqında düşünmədi. Ata-ananın, bacı və qardaşın tapdığı qızı görmədən etirazını bildirdi. Yaxşı mənada qəribəliyi çox idi.

Bəlkə də dərindən düşündüyündən hər işə əl atmırdı. Qardaşının iki balasına bağladı məhəbbətini ömrünün sonunadək.

Yaranmış bir ömrün səhifələri - ağı və qarası ilə əzizdir insan üçün. Uzun müddət Azərbaycan Dövlət Televiziyasının sayılıb-seçilən operatoru oldu Zakir Nəcəf oğlu Muxtarov. Qismətinə yazılan 74 rəqəmli ömrünə sahib duran ziyalılardan oldu o.

O,1944-cü ildə Bakıda ziyalı bir ailədə dünyaya göz açmışdı.

Atası- Nəcəf Muxtar oğlu – vəzifə sahibi olub, müharibə illərində Naxçıvanda "OBKOM"da", uzun müddət isə Bakıda "Dəri-gön" zavodunda direktor vəzifəsində

çalışıb. Çox illik əmək fəaliyyətindən sonra, o zaman təsadüf hal sayılan, “Fərdi təqaüdçü” olub.

Anası – Hökümə Sədi qızı uzun müddət ədəbiyyat müəllimsi işləyib. Gözəl ev xanımı olub. Dörd övlad böyüyən bu ailədə təlim-tərbiyə əsas yer tuturdu: - böyüyə hörmət, insanlara qiymət vermək, kiçiklərlə necə rəftar etmək, bir sözlə - hər nə yaxşı vardısa öyrənmək olardı. Mənim super qaynana olmağımın əsası da onun “məktəbini” bitirməyimdir.

Belə bir xoşbəxt ailədə dünyaya göz açmışdı Zakir-sayca dördüncü övlad.

Daxilən çox bilici idi. İstər klassik ədəbiyyatdan, istərsə də müasir ədəbiyyatdan sözlü olub, öz sözünü deməyi bacarırdı. Nizami Gəncəvini, Məhəmməd Füzulini, M.Ələkbər Sabiri, Əliağa Vahidi və başqalarını öz görümündə yarada bilməyən operator, onu tamaşaçıya çatdıra bilməzdi. Ona uşaqlıqdan- ana laylasından sonra, ədəbiyyata marağı da anası sevdirmişdi.

Zakir Muxtarovun telekameradan öncə yaşadığı öz görüm baxışları müstəsna olduğundan, şahidinə çevrildiyi hadisələri kameranın gözünə etibar edirdi. İxtisasca tam başqa sahənin mütəxəssisi olsa da, dərin düşüncələrinə görə dövlət vəzifələrində çalışmış atası Nəcəf kişiyə o, hər zaman minnətdarlığını bildirirdi. Nəcəf kişi də bu dünyaya gördüyünü götürmək üçün gəlmişdi.

Televiziyaya onda maraq oyadan və onu bu yola yönümləyən qardaşım Çingiz Nağıyev olmuşdu.

Zakir deyirdi: – Azərbaycan Televiziyası böyük məktəbdir. Onun həyatında 40 ilə yaxın müddət efirdə işləmək qəhrəmanlıq sayılırdı. Zakirin dili ilə desək, doğrudur bu müqəddəs məktəbin efirinə son illərdə (2000-2005nəzərdə tuturdu) dodaqbüzənlər də tapılırdı.

Amma Zakir Muxtarovun simasında bir operatorun iş təcrübəsi, görümü bu səviyyədə idisə, bu məbədin

rejissorları və qələm sahiblərinin necə yüksək səviyyədə olduğu aydındır.

Vaxtı ilə Zakir Muxtarov bu dövlət məktəbində şagirdlik etdisə də, sonradan özü məktəbə çevrildi, neçə-neçə televiziya operatorunun yetişməsinə səbəb oldu. O, kollektivdə olduğu kimi, verilişə dəvət alan məsul vəzifə sahiblərindən tutmuş müğənnilərədək hamının hörmət və sevgisini qazanmışdı.

Zakir Muxtarovun dövlət tədbirlərində, kütləvi verilişlərdə, hətta kiçik süjetlərdə apardığı çəkilişlərin hər bir görüntüsündə öz görümü olub.

O, mənən ona daha çox yaxın olan ədəbi- bədii verilişlərə meyilli idi. Belə verilişlərə o, içindən gələn "təsvirləri" də lentə aldığı kadrlara əlavə edirdi. Onun çəkdiklərində artıq olan heç bir təsvirə rast gəlmək olmazdı. Çünki o, televiziya dili ilə desək, daxilən dolu adam idi.

Qarabağ müharibəsi ondan yan keçməmişdi. Sərhəd zonalarında çəkilişlər aparmaq üçün ezamiyyə olunanlar sırasında birinci olub. Dəfələrlə könüllü olaraq Zakir Muxtarov sinəsini irəli verib: mənim ailəm yoxdur, itirməyə bir canım var, gedirəm -deyirdi. Vətən yolunda onun haqqı çoxdur.

O, Müharibə Veteranı kimi təqaüdə çıxsa da, canı, fikri televiziyada idi. Onun amalı-doğması kamera idi. Həsrətlə Qələbə gününü gözləyirdi...

Xeyir, o, "sadəcə" operator deyil, işini mükəmməl bilən və sevən peşəkar operator idi. Çəkilişlərdə rejissorluq edir, bədahətən ssenari qurmağı da bacarırdı.

Yeganə səhlənkarlığı bu oldu ki, ailə qurmadı, yadigarı qalmadı.

Xasiyyətcə çox tünd idi. Amma baxır qarşısında kim dayanırdı.

Ölüm haqdır. Yaşa baxmır, cavanı da, qocanı da öz əmrilə aparır. Adəti üzrə toya hazırlıq görür insan. Ölüm isə qəfildən gəldiyindən, çox vaxt heç haqqında düşünmürsən. Zakirin həyatı tərk etməsi də belə oldu.

Xəstələnən kimi oğul əvəzi – qardaşının balası Samiri başının üstünü kəsdirib, qulluğunda dayanırdı. 2013-cü ildə ürək xəstəliyindən ağır cərrahi əməliyyat keçirən Zakir özünə gələndə ilk təşəkkürlərini də Samirə bildirmişdi.

Bu dəfə ayağını bərk zədələmişdi. Yenə də Samirin köməyi və həkimlərin xidməti sayəsində bir az özünə gəlsə də, o, ölümü yaxına buraxmırdı. Bəlkə də bu onun optimist olduğundan irəli gəlirdi?

Heç bir vəsiyyət etmədən 2018-ci il yanvarın 15-də Zakir Nəcəf oğlu dünyaya birdəfəlik göz yumdu. Və həyatı bununla bitdi.

İrəlidə qeyd etdiyim kimi özü də bilməyərəkdən "ömrünü bəxtəvər başa vuranlar" siyahısına düşdü. O, bu gün Yasamal qəbristanlığında anasının və qardaşının məzarının lap yaxınlığında, dayısı Əhmədin ağuşunda isinir. "Qayısız" ömür sürən Zakirin buna çox ehtiyacı var idi.

Zakir buna layiq idi. Ailə səadətini yaşamasa da, övlad sevgisini duymasa da, Samir balası onu yaxınlarının, əzizlərinin yanında torpağa tapşırdı.

Deməli insan yaşayarkən həyata keçirdiyi xoş əməllər hədər getmir. Keçmişlərdə deyildiyi kimi – deməli, Zakir – əməli salehlərdən olub.

Dəfn mərasimində iştirak edən qohumları, yaxınları və Azərbaycan Dövlət Televiziyasının əməkdaşları, ən əsası həmkarları - operatorlar bir ağızdan dedilər: – Heyif Zakirdən, çox yaxşı insan idi. Allah rəhmət eləsin! Yeri cənnət olsun!

Bəli, bu belə də olmalıdır, çünki o, heç kimin qəlbinə dəyməyib.

**P.S.** *Bu vaxta qədər dünyasını dəyişmiş heç bir yaxınlarımıza belə tezliklə məzar daşı qoyulmayıb. Zakir üçün ölümünün 3 ayının tamamında bunu edən oğul əvəzi Samir oldu.*

## VƏTƏN, SƏNDƏN KEÇMƏK OLMAZ!

***Q, geri çəkilməyi ağlına belə sığışdıra bilmirdi...***

Jurnalist Əntiqə xanım Qarabağda gedən müharibələrdə 1988-1993-cü illərdə silahı olan qələmi ilə iştirak edib. O, gördüyü dəhşətli görüntülər haqqında gündəlik qeydiyyatlar aparır, heç nəyi nəzərindən qaçırmırdı. Atılan top atəşi, yaralılar, dünyasını dəyişənlər, bütün bunlar Əntiqə xanımı nəinki qorxutmur, əksinə vətənpərvərlik hisslərinin aşıb-coşmasına səbəb olurdu.

O, əqidəsinə heç cürə sığışdıra bilmirdi ki, geriyə çəkilsin. Yenicə rayondan gəlib dincəlmək bilməyən Əntiqə xanım, qələmini növbəti rayonda görəcəklərini qeydə almaq üçün itiləyirdi.

Tale Əntiqə xanımı o zaman Zemfira Verdiyevanın başçılıq etdiyi Respublika Qadınlar Cəmiyyətinə (RQC) gətirib çıxarır.

Əslində onu buraya döyüş nöqtələrində Cəmiyyətin fəal qadınları ilə tanışlığı gətirir. Zemfira Verdiyeva artıq

Əntiqə xanımın jurnalist qabiliyyətindən xəbərdar olduğuna görə məmnunluqla Cəmiyyətə üzv qəbul edir. Qısa müddət ərzində Əntiqə xanım Cəmiyyətin mətbuat katibi təyin edilir.

Cəmiyyətə müraciət edən şikayətçilərin, ümid gözləyənlərin sayı durmadan artırdı. Burada fəaliyyət göstərən qadınlar qruplara bölünüb, bölmələr izrə iş aparırdı. Ayda iki dəfə Cəmiyyətin bir qrup fəal qadınları ilə jurnalist Əntiqə xanım da Qarabağın qaynar nöqtələrinə ezamiyyə olunurdu. Qrupun əsas məqsədi yardım üçün xanımların gətirdikləri ərzaq və geyimləri paylamaqla vətənin keşiyində dayanan əsgərlərə maddi və mənəvi dayaq olmaq idi.

Əntiqə xanımın birinci səfəri Ağdam və Xocalı oldu. Sonra bu siyahıya Şuşa, Laçın, Kəlbəcər və Ağdərə də əlavə olundu. Səfər zamanı hadisələrin gedişatına jurnalist gözü ilə baxan Əntiqə xanım Qarabağda müxtəlif problemlərlə üzləşərək maraqlı məlumatlar toplayırdı.

Səfər haqqında ilk yazısını da o, Cəmiyyətin bir neçə fəal üzvlərinin Qarabağdan qayıdışına həsr edərək, onların göstərdikləri şücaətlərə  həsr edir. Şahidi olduğu hadisələri –yaxın keçmişimizin tarixini sonradan kitaba çevirən Əntiqə xanım, qanlı döyüş səhnələrini də sətirlərdə təsvir etməyi unutmur.

Beləcə onun “Vətən, səndən  keçmək olmaz” kitabı işıq üzü görür. Və o, kitabın ilk səhifəsini idealı saydığı Zemfira xanım Verdiyevaya həsr edir.

Kitabında qəhrəmanlarının Qarabağın qaynar nöqtəsində xidmət edən əsgərlərə göstərdikləri maddi və mənəvi borclarını necə yerinə yetirdiklərindən bəhs edərək, Əntiqə xanım döyüşçülərin ailələrilə görüşlərindən də maraqlı faktları qeyd edir.

Kitabı oxuyarkən qadınlarımızın məharəti ilə tanış olduqca, onların sırasında olmadığımdan təəssüfləndim.

O, ailəsini və eləcə də zərif cinsdən olduğunu unudaraq ölümlə üz-üzə gəlməkdən qorxmadan, Vətən uğrunda vuruşan əsgərlərimizə azacıq da olsa mənəvi dayaq olan xanımlarımız haqqında kitabda yazdı.

Bu kitab mənə ilham verdi ki, Əntiqə xanımın qəhrəmanları haqqında başqa prizmadan mən də yazım.

## QADIN ANCAQ ANA DEYİL

Qadın ancaq ana deyil – başlığı ilə yazısında Əntiqə Qonaq – Zemfira Verdiyevanı Azərbaycanı ölkəmizdən çox-çox uzaqlarda təmsil edən dilçi-alim, professor, Xarici Dillər İnstitutunun rektoru, ictimai xadim, professor və həmçinin Respublika Qadınlar Cəmiyyətinin sədri kimi qələmə alıb.

Hələ Dillər institutunun rektoru vəzifəsində ikən ictimai əsaslarla bu Cəmiyyətə sədrlik etmək Zemfira xanıma həvalə olunmuşdu.

Zemfira Verdiyevanı narahat edən əsas məsələlərdən birincisi 20 illik fasilədən sonra çağırılacaq Respublika Qadınlarının növbəti – V qurultayı idi. 1971-ci ildən sonra Qadınlar Qurultayı çağrılmamışdı.

Zemfira xanım iki il idi ki, RQC-nin sədri vəzifəsini (1989-cu ildən) icra edirdi. Bu illərdə qarşılaşdığı ciddi problemlərdən- həyatdakı ziddiyyətlərdən, dövrün qarışıq əhval-ruhiyyəsindən çox narahat idi Zemfira xanım. Bu problemlərin kompleks şəklində həlli işinə ümumi qərarların qəbul ediləcəyini qurultayın gedişatından gözləyirdi. Çox inamlı idi ki, növbəti qurultayda Respublikada qadınların ictimai həyatında və ailədəki mövqeyinin və iş şəraitinin yaxşılaşdırılması, eləcə də başqa mühüm məsələlər barədə qərar qəbul ediləcək. Ötən Qurultay materiallarının dəbdəbəli sözlərlə bəzədilməsi onu çox narahat etdiyindən, yalnız reallıq şəraitində V Qadınlar Qurultayının çağırışının mütləq olması fikrini irəli sürən Zemfira xanım, artıq çoxdandır ki, xanımların kişilərlə bərabər çalışmalarını hər yerdə vurğulayırdı.

Bu sahədə Respublika Qadınlar Cəmiyyətinin fəallıq göstərdiyini xüsusi qeyd edərək, Zemfira Verdiyeva Qarabağın dağlıq hissəsindəki problemlərlə əlaqədar qadınların Moskvaya olan birinci səfərini yada salır.

Respublikamız haqqında düzgün ictimai rəyin yaranmasında məhz Cəmiyyətin qadınlarının xidmətlərini xüsusi vurğulayır.

O, eləcə də xalqımızın milli xüsusiyyətlərinin, mənəvi məziyyətlərinin ilk növbədə azərbaycanlı qadınlarında, analarında təcəssüm olunduğunu fəxrlə söyləyir.

"İstərdim ki, Azərbaycanımız tezliklə tarixin keşmə-keşlərindən qalibiyyətlə çıxsın. Analarımız övladlarının, vətənin sabahı üçün narahat hisslər keçirməsinlər. Təkcə üzümüz yox, könlümüz də gülsün"–bu idi Zemfira xanımın arzuları.

**P.S.** *Əntiqə Qonağın qələminə qüvvət verərək, mən də Zemfira xanım haqqında yazmağa qərar verdim.*

## ALİM və İCTİMAİ XADİM

*"Biz heç kəsin düşməni deyilik. Yalnız insanların düşməni olanların düşməniyik. Arxada bizi düşmən, irəlidə Vətən gözləyir."*

***Mustafa Kamal Atatürk***

Zemfira xanım Verdiyevanın dilinin əzbəri idi: – "Min dost azdır, bir düşmən isə çox. İçimizdə şəxsiqərəzlik toxumu səpməyə, düşmən obrazları yaratmağa yol verməyək. Nikbinlik ən gözəl məsləhətçidir. Əgər mənəvi gücümüz sarsılarsa, xalqımız öz gələcəyindən məhrum olar. Deyirlər sonuncu ölən ümiddir. Hər doğulan səhərimiz sevinc ilə açılmalıdır. Analar hər zaman övladlarının keşiyindədir. Azadlığa gedən yollarımız nə qədər çətin və mürəkkəb olsa da, gözəl və şərəfli yoldur. Həyat bizi yaşamağa və yaratmağa səsləyir. Respublika Qadınlar Cəmiyyətinin (RQC) ən böyük, müqəddəs məramı budur.

Hələ ki, dərdlərimizin, ağrılarımızın dəyişməyən niskilli bir ünvanı var – Qarabağ! Azğın erməni işğalçıları unudurlar ki, torpaqdan pay olmaz. Öz doğma torpağına sahiblikdən gen düşən, başqalarının mənafeyinə xidmət edən, özgə dəyirmanına su tökən naşı rəhbərlərimiz xalqına bir çox başıbəlalı miraslar qoymuşlar. Azərbaycanın tarixini olduğu kimi yenidən yazmaq üçün ata-anasız qalmış saysız-hesabsız yetimləri, ocağı, torpağı talanmış didərginləri dindirmək kifayətdir. Arzuların acı meyvəsini dadanlar deyə bilərlər ki, hərb meydanlarımızda əsl vəziyyət necədir."

Maddi imkanları olmayan bir ictimai birliyin öz bacarığını, imkanlarını səfərbər edərək, xalqın bu ağır

günundə ona yardım və şəfqət əlini uzatmaq asan ola bilərmi?

Zemfira xanımın qayğıkeş analığı, çalışqan alimliyi, zəhmətkeş müəllimliyi və tələbkar rektorluğu onun ictimai işlərdə də çalışmasına mane olmadı.

İşgüzar görüşlər, tələbə-gənclərlə aparılan ictimai işlər onun ana qəlbindən, ana mərhəmətindən doğan bir xüsusiyyət idi. O başladığı bir işi sona yetirdikdə, sanki öz-özünə hesabat verirdi ki, həyatımı hədər yaşamadım. Başqasını özündən çox sevən insanlar –qəhrəmanlığa, fədakarlığa qadirdirlər, deyirdi .

1991-ci ildə Zemfira xanım Verdiyeva Respublika qadınlarının V qurultayını keçirmək haqqında məsələni qaldırsa da, Ermənistanın Azərbaycan xalqına qarşı apardığı elan olunmamış müharibəsi bu təşəbbüsün həyata keçməsinə mane oldu.

Zemfira xanımın Nəsimi rayonunun ali məktəblərində keçirdiyi xeyriyyə gecələri diqqətə layiq tədbirlərdən oldu. Yazıçı, alim və incəsənət ustaları iştirak edən bu tədbirdə yığılmış məbləğ Qaçqınlar Cəmiyyətinə, Əfqanıstan müharibəsində iştirak edən döyüşçülərə və uşaq evlərinə köçürülürdü.

RQC-nin üzərinə çox ağır, məsuliyyətli bir vəzifə düşürdü. Qadınlar Cəmiyyətinin həyata keçirdikləri tədbirlər artıq İçərişəhərdə iki darısqal otağa yerləşmirdi.

1991-ci ildə Zemfira xanım Verdiyevanın işgüzarlığı sayəsində Qadınlar Cəmiyyətinə İçərişəhərdə yeni bina verilir.

Zemfira Verdiyeva başqalarını düşünən çoxuşaqlı anaya bənzəyirdi. Azərbaycanı "şirin sözə", hiyləgər vədlərə qurban vermişik deyirdi. Keçmiş Sovet İttifaqının heç bir şəhəri Bakı kimi "Beynəlmiləl şəhərə xoş gəlmisiz" şüarı ilə qonaqları qarşılamadığını vurğulayırdı.

O, tədbirlərdə fikirlərini açıq söyləyərək deyirdi: -20 yanvar faciəsi zamanı rus əsgərlərinin əsas məqsədi azadlığımızı qanımızla boğmaq idi. Onların bizə miras qoyduğu “Şəhidlər xiyabanı”nda mərd oğullarımız uyuyur. Güllər içərisində ən çox sevdiyimiz qərənfillərimiz yas gülünə çevrildi. Heç cürə inana bilmirdik ki, “xilaskarımız” saydığımız rus əsgərləri dinc əhalini belə vəhşicəsinə qıra bilər.

Vətənpərvər ziyalı – alim Zemfira xanım, xaricdən gələn qonaqlarının səyahətini məhz “Şəhidlər xiyabanı” nın ziyarəti ilə başlayırdı.

Kimsəsiz qocalara qulluq və yardım etmək, uşaq evlərinə getmək, didərginlərimizin ehtiyaclarına qayğı göstərmək – bütün bunlar Zemfira xanımın amalı oldu.

**Məhz 20 yanvar faciəsindən başlayaraq, hər həftənin cümə günü saat 16-da Zemfira Verdiyeva Respublika Qadınlar Cəmiyyətinin qərargahında toplantı keçirirdi.**

Cəmiyyətə qədəm qoyan qadınlarımız öz talelərini xalqın taleyindən ayırmırdı. Bu Cəmiyyət qadınlarımız üçün əsl həyat məktəbi oldu, Qarabağ dərdi sülhsevər anaları burada birləşdirdi. O, çox inamlı idi ki, Azərbaycanın bayrağı tezliklə Qarabağda ucalacaq.

Amansız ölüm alim-ictimaiyyətçi xanım Zemfira Verdiyevanı bizdən ayırdığı kimi, ümidlərini də qırdı. Düşüncələri və həyata keçirdiklərilə təkrarolunmaz alim Zemfira Verdiyeva, 2010-cu il noyabrın 6-da haqq dünyasına qovuşdu.

## ŞƏHİD ANASI FİRƏNGİZ XANIM

### *Elegiya*

Şəhidlər xiyabanını ziyarət edərkən, bir ağac dəydi gözümə. Maraqlı idi. Burada meyvə ağacı olmayıb, bəs bu nə deməkdir? Geriyə dönərkən məzarın önündə ağlayan ananın fəryadını eşitdim. Bu ağaca su verən ananın fəryadı idi. O, deyirdi: – "Ay bala, yandırdın məni, arzularımı puç etdin. Belə idimi şərtimiz? Bəs ali məktəb, bəs toy-büsat, doğma yurda qayıdış? İndi yurdumuzun göyçə alçasına, gülövşə narına baxa bilmirəm, dadını unutmuşam sən gedəndən. Qayıt bala, bəsdir məni nigaran qoydun. Axı sən ölə bilməzsən, bilirəm. Sənin kimi körpə balalara ölüm qıya bilməz. Yandırdın məni ay işıqlı balam..."

Anaya yaxınlaşaraq qucaqlayıb göz yaşlarına şərik olsam da, sakit edə bilmədim onu. Ana daha da coşdu. Dərdli ananı heç cürə ovundura bilmədim.

Eşitdiyim hadisəni olduğu kimi sizlərə çardırmağı vacib saydım.

Sirac uşaqlıqdan heyvan oyuncaqlarının üstündə təcrübə aparıb, onlara iynə vurur, müalicə edirdi. Atası Həsən kişi ona deyəndə ki, deyəsən sən mal həkimi olacaqsan, Sirac cavab verirdi ki, xeyir mən insanları müalicə edib, xəstələrə şəfa verəcəyəm. Axı mən qız deyiləm ki, təcrübəni gəlincik üzərində aparam. Görərsiz, böyüyüb həkim olanda, mənimlə öyünüb, fəxr edəcəksiz. Mütləq həkim olacağam!

6 yaşı tamam olmamış Sirac birinci sinfə gedib, 16 yaşına çatmamış ali məktəbə daxil olmaq üçün Naxçıvanın Şərur rayonunun Qıvraq kəndindən Bakıya gəlir. Seçimində çox inamlı idi, qərarını dəyişən deyidi.

Ailədə üçüncü uşaq idi. Digərlərindən fərqli olaraq, Sirac anadan olanda düz bir ay adsız qalmışdı. Həsən kişi ilə Firəngiz xanım elə bil uşağın adını qoymaqda çətinlik çəkirdilər. Ana dediyi adlara ata, ata dediyi adlara isə ana narazılığını bildirirdi. Nə isə qeyri-adi bir ad axtarışında ikən, bacısı dedi ki, bəlkə adını Allahverdi qoyaq? Səbəbini soruşanda belə izah etdi ki, axı onu bizə Allah verib.

Son sözü – adını Sirac qoyuram deyərək, qoy hər zaman aydınlıq gətirsin, adının mənası kimi işıq saçsın, dedi, atası.

Sonradan baş verəcək hadisələr zamanı ata-ananın bu əhvalat yadına düşəndə, bir səslə dedilər ki, elə Allah belə məsləhət gördü.

Naxçıvanda hər il olduğu kimi bütün adət-ənənələrə riayət edərək keçirilən Novruz şənliyinə xüsusi hazırlıq aparılır.

Sirac da bu bayramı çox sevirdi. Amma Siracdan sonra heç bir şənliyə qoşulmayan Firəngiz ana bu gün də bu bayrama xüsusi hazırlıq görür. O, bununla sanki Siracını yaşadır, yanında olduğunu hiss edir.

Sirac hələ 6-cı sinifdə oxuyarkən, bir qıza vurulmuşdu. Düz deyirlər ki, məhəbbət yaşa baxmır. Elə bu ərəfədə, bayram axşamında Sirac vurulduğu qızın qapısına atdığı papağın içərisinə – “Mən səni çox istəyirəm. Sirac” sözlərini yazıb, atmışdı. Ləman bu gün də o vərəqi əzizləyib, saxlayır.

Əhvalatdan xəbər tutan Firəngiz ana oğluna bu məsələyə çox erkən  başladığını anlatsa da, o demişdi- ana, sonra da geç olar.

Bu gün Ləman hər yerdə Siracı axtarır, yoxluğunu bilsə də qayıdacağına çox inamlıdır. Ləman ədəbiyyata meyilli olduğuna baxmayaraq, Siracın arzuladığı Tibb Universitetinə daxil oldu. Hal-hazırda elmini artırmaq məqsədilə doktorluq dissertasiyası üzərində işləyir. Ləmanın yadındadır, Sirac hər zaman deyirdi ki, çarəsi olmayan xəstəlikərin müalicəsini mən tapacağam.

...Siracın tabutunun arxasınca gedərkən, xəyallara dalan Ləmanın yadına məzəli bir əhvalat düşür. O, gülümsəyib, təbəssümünü gizlətmək üçün qara örpəyini gözünün üstünə salır. Xəyal onu 5-ci sinifdə oxuduqları zamana aparır...

...Siracın boyu bəstə olsa da, özünü böyük kimi aparıb, istinin cırhacırında köynəyinin qollarını da çırmalamayırdı ki, guya az da olsa,boyu uca görünər. Ləmanın yanında gedəndə qamətini o qədər şax saxlayar, qızın əlindəki məktəb çantasını da özününkünün üstündən çiyninə salıb, ağır da olsa aparar, axşam isə onun əziyyətini çəkərdi. Bunu görən uşaqlar onlara baxıb, gülüşürdülər. Sirac onları hərdən daş-qalaq da edirdi.

Birdən Ləman sanki çəkdiyi ağrıdan diksindi. Lap elə o zamankı ağrını hiss edirmiş kimi ufuldadı da. Sanki Siracın arı zəhərini onun qolundan sovurduğunu hiss etdi. Yayın cırhacırında bədənini bir üşütmə tutdu. Amma o vaxtlar bu hissiyyatı keçirmədiyi də yadına düşdü Ləmanın.

Bir dəfə də Sirac  Ləmanın ayağına dəyən daşı yerə elə çırpmışdı ki, daş zərbədən iki parça olmuşdu. Siracın onda  dediklərini sanki təkrar eşitdi: – “Ləman, mən sənin qəlbinə dəyənləri belə əzəcəyəm...”

Bir anda ona elə gəldi ki, Sirac tabutdan ona əl edib, gülür. Ləmanın pıçıltı ilə dediyi “Mən səni hər zaman gözləyəcəyəm, Sirac. Sənsiz  mənim üçün həyat yoxdur”- sözlərini yaxındakılar da eşidib, çox mütəəssir  oldular.

Firəngiz ana indi Ləman ilə görüşəndə, sanki Siracın ətrini  ondan alır.

Hər il mart ayı gələndə Firənğiz ananı kədər bürüsə də bayrama hazırlıqdan zövq alıb, deyir ki, Siracım bunları görür, sevinir. Axı ruhlar heç zaman ölmür.

....Yenə xəyallar, yenə düşüncələr....Yenə Şəhidlər xiyabanında Firəngiz ana ağı deyir: – “Mən səni dənizdə çimməyə qoymurdum ki, dəniz səni uda bilər. Yağışda islanacağından, istidə sanki əriyəcəyindən qorxurdum. Elə bil hər zaman səni nə isə bir təhlükə gözlədiyini hiss edirdim. Anadan olanda ağır  çəkili idin. Hamı sənə tamaşa etməyə gəlirdi. Dedilər ki, uşağın yanında hər zaman gözmuncuğu saxla. Belə də etdim. Amma böyüyəndə dedin, Allah qoruyanı heç kəs əlindən ala bilməz, belə röyalara çox uyma. Siracım mənim, bəlkə sənə göz dəydi?

Mən səni büllur qab kimi qoruyub, pambıq arasında saxlayırdım ki, sınmayasan. Bəs sən necə qıydın mənim xiyabanda gecələməyimə? Yorğan – döşəyim od tutur. Qırdın atanın da, mənim də belimi. Belimizə çox ağır bir yük qoydun, bala yükü. Ağırdır bala mənim üçün bu yükü daşımaq. Ay Siracım, mən necə də yaşayıram sənsiz? Amma Allah mənə güc verir bu dərdi çəkməyə. Axı deyirlər ki, şəhid olmaq – ölmək deyil.

Hərdən öz-özümə sual edirəm ki, bəlkə əsgər getsəydin, ya da başqa bir ölkədə yaşasaydın, məni sənsizliyə hazırlamış olardın? Bu bəlkələr çox yorur məni.

Sakitləşib, olanlarla barışa bilmirəm. Atan dözmür bu dərdə. Yanında ağlaya bilmirəm. Axı o kişidir, içində çəkməyi bacarır. Şəhidlər ölmür, bəs mən səni harada axtarıb -arayım, ay mənim gül balam? Qızıl gülün ömrü az olan kimi, sən də tez açılıb, tez də soldun. Mənim solğun çiçəyim.

Adını qoyanda atan dedi, bu uşaq evimizi işıqlandıracaq, adı kimi parlayacaq. Deyirlər ki, niyyətin haradadırsa, mənzilin də oradadır. Bəs bizim mənzilimiz niyə "Şəhidlər xiyabanı" oldu? Bəlkə bu sənin alın yazın olub?

Ay bala, suallarım cavabsız qalır. Sən ki, çox hazırcavab idin. Məktəbdə keçirilən neçə-neçə müsabiqələrdə hazırcavablığına görə mükafat almışdın. İndi həmin təltiflərin evimizin divarlarını bəzəyir. Amma bu mənə təskinlik vermir. Hərdən hirslənib, onları qoparmaq istəyəndə, şəklinə baxıb əl saxlayıram. Elə bil mənə: - "Ana, əl vurma onlara, mən onları qazanmışam"- deyirsən".

Ananın xatirələrindən:

"Sirac uşaq ikən o qədər ağıllı idi ki, onunla böyüklər danışanda ona siz, deyə müraciət edib, sanki qarşılarında böyük bir kişinin dayandığını təsəvvür edirdilər. Hələ lap balaca idi. Əlindən tutub, bağçaya aparırdım. Birdən əlimdən ilan vurmuş kimi ildırım sürətilə çıxaraq arxaya qaçdığını gördüm. Qoca bir qadının maşın yolunu keçə bilmədiyini görən Sirac bapbalaca əlini yuxarı qaldırıb yolu keçməyə ona kömək etdi. O zaman qadın ona : -"Görüm sinəndə ağ tüklər bitsin, bala" demişdi." Bu deyimin mənası uzun ömürlü olmaq deməkdir. Bəs nə oldu? 16 yaşında da ölüm rəva bilərmi qapını döysün?"

... Sirac Bakıya oxumağa gəlir. İmtahan verməyə gedərkən, Maşınqayırma Zavodunun yanından yolu düşür, nə yolla isə içəri daxil olub, burada döyüş üçün silahların

hazırlanması prosesinə baxır. Qəti qərara gəlir ki, döyüşə getməlidir və bu silahlardan biri onun olmalıdır.

Qəbul imtahanlarının cavablarını öyrənmədən zavodda çilingərlik edir. Sonra isə vətənpərvərlik hissləri üstün gəlir və o, könüllü olaraq vətən uğrunda mübarizəyə qoşulur. Bəlkə də bütün bunlar onun kiçik yaşlarından müharibələrdən yazılan tarixi kitabları oxuması və çəkilən filmlərə baxmasından irəli gəlirdi?

...Könüllü dəstə ilə torpaqlarımızın bir hissəsinin düşmənlərdən qoruyub, saxlamağa kiçik yaşlı Sirac belə qoşulur.

Dostu Elçinin söylədiklərindən: – "Sirac düşmənə atəş açanda o, balaca əllərilə qumbaraları elə sürətlə atırdı ki, çox guman ki, bir deyil, bir neçə düşmənin qırılacağı mütləq idi. Komandir onun şücaətindən xüsusi zövq alır və hər dəfə onun adını xüsusi vurğulayıb, tərifləyirdi. Düşmənlərin Kür çayı sahilinə çıxmasının qarşısını almaqda Siracın xüsusi xidmətləri olmuşdur. O, yaralananda xəyalən anasına yazdığı məktubu mənə oxumuşdu. Məktub belə başlayırdı:

- "Ana, məni bağışla demirəm, mən belə də etməli idim. Vətən uğrunda o getməsə, mən getməsəm, bəs kim vuruşacaq? Seçimi özüm etdiyim üçün məni günahkar sanma. Əgər müharibədən qələbə ilə qayıdaramsa, məni istədiyin qədər danlayarsan, lap kiçik yaşlarımda etdiyin kimi.

Sən mənimlə fəxr edəcəksən. Vətənə bir az da olsa kömək edənə ana südü halaldır. Südünün halallığını ver ana, hər şey yaxşı olacaq. İstəsən Ləmana bir üzük də ver. Çünki qərarım qətidir. Mən Tibb Universitetinə daxil olmuşam. İnşaallah müharibədən qayıdanda oxuyub, doğma yurduma həkim kimi qayıdacağam. Amma qayıtmasam məzarım üstündə bir Göyçə alça ağacı

əkərsən. Səni çox-çox istəyən işığın. Axı mən aydınlıq gətirənəm."

Yaralansa da döyüşü davam edib, qəhrəmancasına şəhid olan Sirac - Ölkə Prezidentinin Qərarı ilə **"Milli Qəhrəman"** adına layiq görülərək, bu gün qəhrəmanlar sırasındadır. Sirac şücaətinə görə "Azərbaycan bayrağı" ordeni ilə də təltif olunub.

İndi Firəngiz ana kədərini göz yaşları ilə ovudur. Hərdən özünə sual verir – bu göz yaşları qürurdandır, yoxsa kədərdən?

Məzar üstündəki ağac isə böyüyüb hər il bar verməyində davam edir.

*Avqust, 2014*

## HƏYATDA İZİ QALIB

***Şərqşünas alim Malik Qarazadənin həyatda izi qaldı***

Sevda Əlibəylinin “Bilsəm ki, həyatda izim qalıbdır...” kitabının təqdimatına dəvətli idim.

Sevda Əlibəyli kitab yazmaqda xeyli təcrübəlidir desəm, yanılmaram. Sözün qədrini bilən Sevda xanım onun müqəddəsliyini də duyur. O, bu kitabı vasitəsilə Malik Qarazadənin əsl obrazını yarada bildi. Kitabı oxuduqca, sanki Sevda xanımla həmsöhbət olaraq suallara cavab tapırsan.

Axı kitablar da insanlar kimi sevilib düşündürə bilir.

Mən də ilk şərqşünas alim Malik Qarazadənin məhəbbət dolu duyğuları ilə tanış olduqca, sanki onu 16-17 yaşlarındakı kimi görürdüm.

Sevgi sözünün ilk hecası, məhəbbət sözünün isə kökünün mənasını daşıyan – Malik Qarazadənin həyatını bəzəyən Sevbət xanımını ən xoşbəxt qadınlardan sanmaq olar. Üç oğul və bir qız övladı bəxş edib, Malikin ürəyində atalıq hissləri oyadan onun Sevbəti oldu.

Tədbirin gedişatı zamanı bu iki insanın gənc ikən sevgi macəralarının şahidi olduqca, sevgi-məhəbbətin qədrini daha cox başa düşürsən.

Saf ürək, yüksək amal sahibi olan Malik Qarazadə sanki bu kitab ilə yenidən dünyaya gəldi. Kitab Sevda Əlibəylinin sayca 7-ci övladıdır.

Bəli, kitab – övlad deməkdir. Ürəyinin məhəbbətini, hərarətini səhifələrə köçürür və bunları oxucuya ötürə bilirsən.

Malik Qarazadənin fəaliyyətinə həsr olunmuş video-çarxa baxanda, sanki məni ilan çaldı. İndi tanıdım onu. Bakıdakı 199 №-li məktəbin əlaçı şagirdi Malik Qarayev.

Mən 57 il öncə bir parta arxasında oturduğum Malikin haqqında keçirilən tədbirdə iştirak etdiyimi indi dərk etdim.

**Düz deyiblər ki, hər bir təsadüf zərurətdən doğur. Hər bir zərurətdə ə isə bir təsadüf var.**

Bəli, Sevda xanım ilə münasibətimiz olmasaydı, bəlkə də mən bu tədbirdə iştirak etməzdim.

Sevda xanımın Baş redaktoru olduğu “Söz” jurnalında bizim təşkilat haqqında yazılar dərc olunmuş və neft milyonçusu Ağa Musa Nağıyevin fəaliyyəti dəfələrlə işıqlandırılmışdır. Sevda xanım Ağa Musa Nağıyevin xalq üçün etdiklərinə böyük dəyər verdiyinə görə təkrarən minnətdarlığımı bildirib, qeyd etdim ki, bəlkə də bu qarşılıqlı münasibətdən əlavə Malikin ruhu məni bura gətirib çıxarmışdı.

Bu fikir və düşüncələrlə çıxışıma başlayaraq Malik Qarazadənin hələ 16-17 yaşlarında möhkəm iradəyə və savada malik olduğunu vurğuladım. Hələ o zaman zəkası və vətənpərvər hisslərilə başqalarından çox-çox fərqlənirdi Malik Qarazadə.

Hələ uşaq yaşlarından ərəb-fars əlifbasını öyrənməsi orta məktəbi əla qiymətlərlə bitirən Malikin köməyinə çatır. O, Bakı Dövlət Universitetinin ilk dəfə açılan Şərqşünaslıq fakultəsinə qəbul olunanlardan birincisi idi. IV kurs tələbəsi olarkən rektorluq tərəfindən Malik Universitetdə yarımştat müəllim kimi təsdiq edilir. Tələbənin müəllim ştatına keçirilməsi bu günün özündə də nadir hadisədir. Universiteti vaxtından əvvəl fərqlənmə diplomu ilə başa vuran Malik ərəb ölkəsində təhsil alan iki tələbədən biri idi. O, Moskvada aspirantura təhsili almaq üçün sənədlərinin hazırlanması tapşırığını Universitetin rektoru akademik Şəfaət Mehdiyevdən alır.

O zaman SSRİ Dövlət Təhlükəsizlik Komitəsindən iki general ərəb ölkələrində işləmək üçün kəşfiyyatçı hazırlığına Azərbaycana gəlmişdi. Dilin mükəmməl bilicisi

olan Maliki onlara təqdim edərkən o, məndən kəşfiyyatçı olmaz desə də, generallar ondan əl çəkmirlər. Kəşfiyyatçının öz işini kənar yerdə yerinə yetirərkən ailəsindən və uşaqlarından uzaqda olmalı olduğundan xəbərdar olan Malik özünü odla su arasında qalmış kimi hiss edir. Və yalan deməyə məcbur olur ki, guya o, gündüz etdiklərini yatarkən yuxuda danışır. Bu sözləri elə inandırıcı deyir ki, onu bu işdən azad edirlər.

Malikin Bağdada iki illik müəllim işləməyə göndərilməsinə ən çox sevinən həyat yoldaşı Sevbət olmuşdu. Kərbəla sözünün qadağan olunduğu illərdə onlar Kərbəla şəhidlərini ziyarət edəcəklərinə görə idi bu sevinc.

Malik Qarazadə üçün elmi dərəcələr, fəxri adlar yox, həqiqətin özü αϖτοριτετ ιδι.

Ο,□Μ⎥ασιρ ΨρΨβ διλινδΨ σ⎥ζ σ⎨ρασ⎨□ αδλ⎬ δισσερτ ασιψα ι≡ινι ρυσ διλινδΨ ψαζ⎨ρ. Ρυσδιλλι μ⎥τΨξΨσσισ ον υν ι≡ινι ταμ οξυμαμ⎨≡ ιμζαλαψ⎨ρ. Ο, ΨρΨβ–φαρσ διλλΨρ ινι βιλμΨκλΨ ψανα≡⎨, ρυσ διλινι δΨ ανα διλι θΨδΨρ μ⎥κ ΨμμΨλ βιλιρδι. ⇑νγιλισ διλινδΨ σΨρβΨστ δαν⎨≡⎨ρδ⎨.

Δισσερτασιψασ⎨ν⎬ ΤιφλισδΨ μ⎥δαφιΨ εδιρ. Βυραδα ο να ψ⎥κσΨκ ΨμΨκ ηαθθ⎬ ιλΨ ι≡λΨμΨσινι ϖΨ μΨνζιλλΨ τ Ψμιν εδΨχΨκλΨρινι ϖΨδ ετσΨλΨρ δΨ ο, Βακ⎨ψα θαψ⎨δ⎬ ρ. Universitetdə dosent yerini tutur. Az sonra elmi şuranın qərarı ilə professor vəzifəsinə yüksəlir.

Malk müəllimi xalqa sevdirən onun Azərbaycan tarixini, çalışdığı hər hansı xarici ölkədə Azərbaycanın adını yüksək tutması olub.

Bu gün Malik Qarazadənin böyük və qiymətli elmi irsindən gənc alimlər, tələbələr zaman-zaman faydalanırlar. Çünkü o, hər bir sahədə öz sözünü deməyi bacaran dəyərli məsləhətləri, yüksək elmi səviyyəsi, geniş erudisiyası ilə ətrafdakıların rəğbətini qazana bilən olub.

Heyif ki, Malik Qarazadə çox erkən əbədiyyətə qovuşdu. Amma deyirlər ki, dahilər ölmür. Düşündüm ki,

əgər Malik Qarazadə 68 yaşınadək elmə bu qədər töhfələr veribsə, gənc istedadlar hazırlayıb, kitab toplusu yaradıbsa, yaşasaydı gör daha nələr edə bilərdi.

Allahın təmiz adını qoruyan alim, ləyaqət simvolu - Malik Qarazadə tarixin yaddaşında etdiyi əməllərilə dərin iz qoyub.

Mirzə Cəlilin sözlərilə Sevda xanıma demək istərdim ki, qələmin müqəddəs vəzifəsi millətin xoşbəxtliyi yolunda xidmət göstərənləri əbədiləşdirməkdir. Bu, Sevda xanıma nəsib oldu.

Bu tədbirdə -Torpağına, millətinə bağlı olan milyonçu Ağa Musa Nağıyevin həyat və fəaliyyətinə diqqət yetirib, xeyriyyəçilik əməllərinə və ictimai fəaliyyətinə dəyər verən; "Bilsəm ki, həyatda izim qalıbdır..." kitabının müəllifi, "Qızıl Qələm" mükafatçısı Sevda Bəhram qızı Əlibəyliyə "Ağa Musa Nağıyev" Diplomunu təqdim etməkdən şərəf duydum.

## BİTMƏYƏN DÜŞÜNCƏLƏR...

Təsisçisi olduğum Ağa Musa Nağıyev adına "Milli Dəyərlərin Qorunması" təşkilatının ilk tədbirini kövrək qəlbli Nurəngiz Günə həsr etdiyimdən bu gün də qürur duyuram. O zaman onun dərin məna daşıyan gözlərindən nələr oxumadım...

Nurəngiz Gün əsil nəcabətli bir nəslin ocağında dünyaya göz açıb.

Nurəngiz Gün Azərbaycan Dövlət Televiziyasının diktoru olaraq səsinin məlahətilə dinləyici marağına səbəb oldu. Azərbaycan Onu sevdi.

Nurəngiz Gün sonradan sanki nəğməkar şairəyə çevrildi. Fərqli olan təfəkkürünə görə ədəbiyyat aləmində

öz yerini tuta bildi. Nurlu xanım bu gün də obrazları ilə qəlbimizdə yaşayır.

Əsrarəngiz səsi ilahi ona pay vermişdi. Onu tanımayanlara, yerişindən, duruşundan bixəbər olanlara mən yanğı verirdim ki, bəli, mən onun yaxın rəfiqəsiyəm. Mənə Diloş deyə müraciət edirdi. Biri-birimizin xatirini çox istərdik. Hörmətimiz isə öz yerində. Münasibətdə qohumdan artıq idik. Mən onunla fəxr etdiyim kimi, o da mənim müvəffəqiyyətlərimdən qürurlanırdı.

Ağa Musa Nağıyevi həyatda “canlandırdıqca”, Nurəngiz xanımın mənə məhəbbəti artırdı. Mənə cəfakeş nəvə deyə, müraciət edirdi. Bu yönümdə uğurlarımı özününkü kimi qəbul edirdi.

12-13 yaşından bir yerdə olmuşuq, ələlxüsus 3 ay yayı Bakı bağlarında. Sonralar böyüyəndə “söhbətimiz” daha çox tuturdu, babalarımızın taleyi oxşar olduğundan. Əvvəllər qəh-qəhələr içində, yaşa dolduqca isə göz yaşları ilə müşahidə olunan söhbətlərimiz bitmək bilmirdi...

2014-cü il dekabrın 20-də ədəbiyyatımızın görkəmli xadimi -Nurəngiz xanımın həyatı gözlənilmədən tərk etməsindən çox təsirləndim.

O gözəl səs birdən susdu, buludlara qoşulub, səmalara qalxdı. Çünki o, səmadan gəlmişdi. Deyirlər ki, belə insanlar döğulmur, onlar yaranmışlardandır.

Nurəngiz xanıma etiraflarım yarımçıq qaldığından, deyə bilmədiklərimi yazıya çevirdim:

- Müjgan nəvənin xınasında Jalə xanımı – sənin oğul - qızını yenidən sevdim. Xəstəliyin şiddətlənmişdi. Məclisə 3 saat gecikirdin. Həkimlərin köməyilə zala daxil olan zaman Jalə xanım mikrafonu əlinə alıb belə bir çıxış etdi:

– “Allah Taala insanı yaradanda onu qarşılayacaq maneələr və hadisələrlə tanış edir. Amma onu qarşılayacaq əsas insanın – təqdimatını tam ayrı cürə

verir. O, deyir ki, səni işıqlı dünyaya bir insan çıxaracaq və o yuxusuz gecələr keçirəcək, ağlayanda – sənə can bala, deyəcək, gecələr onu yuxusuz qoyanda – sənə acıqlanmayacaq, öpərək-əzizləyəcək. O, sənin həyat yolunu işıqlandıracaq. Bu insanın adı “Anadır!”.”

Jalə xanım sevgi dolu çıxışı ilə anasını təqdim edərək bildirdi ki, indi məclisi başlamaq olar. Anam məclisə gəldi! Ana, gözlərin aydın olsun! Yeganə nəvənin toyudur, sevin, dedi!

O səhnə gözümün önündən keçmir. Bir an düşündüm ki, ana-bala sevgisi belə olanda, ana dünyaya arxayın göz yuma bilər.

Nurəngiz xanımın cümə axşamlarını poeziya gecəsinə çevirdi qızı Jalə. Onu yada salanlardan hər biri Nurəngiz xanımın yazdığı, ya da ona ithaf etdiyi şeirdən parçalar oxuyurdu.

Jalə xanım isə anasının şeirlərini o qədər gözəl oxuyurdu ki, rəhmətlik sağ olsaydı həmişəki kimi deyərdi ki, qızım şeirlərimi sanki özününkü kimi oxuyur, bir an unudaraq düşünürəm ki, bu mənəm?

Günümüzün Nuru, Çırağı! Nəğmə kimi oxunub, yadda qalan yazdıqların, səadətə həsrət ürəyinə, titrək dodaqlarının, yorğun ayaqlarının şərəfinə yenə də oxunur! Amma bircə sən yoxsan.

Yox, yox, Sən həmişə bisimləsən, bizim çılğın Kozettamız.

Bir vaxt sənə demişdim ki, kağız üzərinə səpəcəyin toxumlar hələ çoxdur, ata və babalarımızın ruhunu şad edib, onları yaşatmaq dayanır qarşımızda...

İndi Jalə qızın- kişi qeyrətli yeganə övladın, ağlı və zəkası ilə sənin səpdiyin toxumları becərir.

İlk nəticəni – həyata keçirdiklərinin nəticəsini görməsən də, sevin ki, bu gün Jalə qızın nənə sevincini yaşayır.

Həyat davam edir. Bu bir aksiomadır.

Sevin ki, sən doğmalarından əlavə, elin yadından çıxmırsan. Bundan yüksək qiymət, hörmət və ehtiram ola bilərmi?!

Dünyanı dəyişəndən sonra Jalənin sənə yazdığı "məktubları" oxuyub, pərişan oldum. O, yoxluğuna hələ də inanmır. Ssenarilər qurur, rəsmlərini böyütdürüb hər otağına qoyub ki, sənsizliyi hiss etməsin. Əvvəllərdə olduğu kimi hər səhər səninlə salamlaşıb, "gün aydın", deyir. Axşamı da sanki səninlə sona çatdırır.

Məktubda yazır ki: "...Gülləri çox sevirdin. Bu səbəbdən sənə təqdim edilən güllərə həyat vermək üçün uclarını kəsib ılıq suya qoyur, dibinə şəkər atırdın. Gülün ömrünü qırmağa hər zaman üsyan etdiyindən, 8 mart gününü "güllərin soyqırımı" adlandırmışdın.

... Doğmaların sırası azaldıqca atam, dayılarım, bibim bir-bir bizi tərk etdikcə, gözlərində artan qüssəni bir neçə anlığa da olsa yox etmək məqsədilə nələrə əl atmırdım. Görünür sənə "analıq" etmək missiyam da elə o zamandan başlayıb. Sən mənim böyük qızım oldun. Səndən xəbər tutmaq istəyəndə, sorurdular "Qızların necədir?".

Sənə yaxşı "Ana" olmaq üçün kiçik Müjganımın maraqlarını çox vaxt qurban verirdim. Mənim üçün sən birinci idin. Atdığım bütün addımları səninlə hesablaşırdım. Səni incidəcək heç bir xəbəri sənə çatdırmırdım. Çətinə düşəndə yuxusuz gecələrdə yüz ölçüb, bir biçib, vəziyyətdən çıxmağa çalışırdım. Beləcə "dar küçələri" tək dolaşırdım içimdə. Üzümdən gülüş təbəssümünü sənə görə əskik etmirdim. Bu da mənim səni qorumağımın bir üsulu idi. Düşünürəm ki, sənin üçün nələr etmişəmsə, azdır. Ana, əgər ikinci ömür yaşasaydın, daha nələr edərdim...

Dünyanı dəyişməyinin 3 ilinə az qalıb. Amma mənim üçün bu 100 ilə bərabərdir. Sənsizlik üzür məni. Nəvələrimə olan məhəbbətimi özümə qısqanıram, axı bu balalar sənin törəmələrindir –nəticələrindir.

Sənin mənə dediklərini indi sənə qaytarıram, mənim bitməyən düşüncəm, qu quşum!... Bu kəlmələri mənə 12 yaşımda həsr etmişdin.

Amma ana, düşünürəm ki, biz biri-birimizin bitməyən düşüncəsi olmuşuq. Kiminlə və nə haqda danışıramsa, sənin sözlərinə istinad etdiyimi hiss edirəm ...

Yadındadır, çox vaxt yanında susub, dinmirdim? Yox, bu acizlik deyil, sənin sözünün yüksəkliyindən irəli gəlirdi. Qorxurdum ki, ifadənin qarşısında deyəcəklərim boş və mənasız ola bilər.

Ana itkisinin dərdini azaltmaq üçün bizi sevənlər gözümün yaşını silib, başımı tumarladılar. Amma kədərim azalmadı. Axı onlar hiss edə bilməzlər ki, mən müstəsna poeziya, qələm, məntiq, düşüncə, həmfikrimi, əsl insan və ən əsası ana itirmişəm. Mən belə ana üçün ağlayırdım, üsyan edirdim."

Nurəngiz xanım, sən rahat yata bilərsən çünki yerində oğul əvəzi Jalə qızın var. İndi mən sənə sual edirəm:

-Həyatının mənası olan Jalənin "yoxdur" sözünə etiyac duymadan xoşbəxt böyüməsi üçün vaxtsız qocaltdığın ürəyin, gözəl tərbiyə, ali təhsil verib alimlik dərəcəsinə çatmasına və nəhayət dövlətdə yüksək pilləyə - Millət Vəkili olmasına xərclədiyin ömrünün nəticəsi deyilmi?

İndi Jalən, təbiətə üz tutub yalvarır:- küləyini güclü etməsin, yağışını leysan tökməsin, qarını çox yağdırmasın ki, sən narahat olmayasan öz dünyanda.

Bu etirafımı Nurəngiz Günün ad gününə həsr etdim. Ad günün mübarək! Yaxşı insanları hər zaman yad etmək, onları yaşatmaq deməkdir. Sən unudulmayan insanlardansan. Ruhun şad olsun!

İndi Jalənin bitməyən düşüncəsisən, ömrünün əzəli və sonusan. O, etiraf etdiyi kimi sənin üçün çox darıxdığını bildirir. Ömrünün bitməyən düşüncəsindən sanki hər gün yenidən ayrılır.

Jalə xanım, qələm sahibi olaraq sənin surətində bütün azəri qızlarına ananı belə sevməyi, hörmətini qoruyub saxlamaq bacarığını diləyirəm.

Həyat davam edir. Övlad toyu etdin. Səni qarşıda gözləyən nəvə toyunu – bu səadəti görməyi arzulayan ananın arkadaşı Dilarə Ağamusa.

*21.09.2017.*
*Məqalə -esse “525”və “Cəmiyyət və qadın”qəzetlərində çap edilib.*

## ÜÇ İL AYRILIQ...

*"Şöhrətdən qaçanam. Şeirlərim oxunursa, o, mənim səsimdir. Yaxşıya yaxşı toxunarsa, bəsimdir."*

Şöhrət adamı deyiləm,
Şöhrət səs-küyündən bezar qalmışam,
Zorla heç bir mükafat –filan da almamışam,
Mən də belə,bu cürə adammışam.
İstəmirəm nə qışqırıq, nə səda,
İstəmirəm bircə qırıq şöhrət payım olsa da,
İstəmirəm! Qalansın
Şan – şövkət qalaqlarına.
Təkcə şeirlərim oxunarsa,
Bu mənim səsimdir.
Pisə-pis, yaxşıya-yaxşı toxunarsa,
Daha heç nə istəmirəm, vallah bəsimdir.

Bu misraların müəllifi olan Nurəngiz Gün ilə uşaqlıqdan dost olmuşuq.

Soyadının sürgünü olan, kapitalist damğası altında əzilən, amma sarsılmayan Nağıyevlərə XXI əsrdə yeni nəfəs verdiyimi hər zaman dəstəkləyən birincilərdən olub Nurəngiz Gün.

1960-cı illərdə Azərbaycan Dövlət Televiziyasının ilk qaranquş diktorlarından sayılan Nurəngiz xanım "Salam, hörmətli tamaşaçılar, verilişlərimizə başlayırıq" – deyən ecazkar səsilə, səlist diksiyası və ən əsası gözəlliyi ilə sevildi. Onun həzin səsinin həyəcanından sözləri lazımınca qavraya bilməyən, yaxud da səsinə qulaq verərkən, o zaman gözəlliyini izləyə bilməyən bir çox tamaşaçı çaş qalırdı.

Jaləsinin dünyaya gəldiyi gündən - ana Nurəngizi övlad böyüdüb- tərbiyə etmək, ailənin xidmətində

dayanmaqla yanaşı, ilham pərisi rahat buraxmayırdı. Ancaq onun analıq hissləri illərlə içində saxladığı istedadın, ədəbi və bədii düşüncələrin gerçəkləşməsinə səbəb oldu.

Tez bir zaman kəsiyində qəlblərə yol tapan şairə müasir Azərbaycan poeziyasının dəyərli nümayəndəsinə çevrildi. Sevimlimiz oldu. Elimizin, obamızın, hər birimizin məhəbbətinə çevrildi Nurəngiz Gün. Bəli, o, nurdan saçan bir işıq oldu mədəniyyətimizdə, ədəbiyyatımızda.

Nurəngiz Gün Prezident təqaüdünə, "Humay" mükafatına layiq görüldü. Şeirləri Türkiyədə nəşr olundu. Eskişehirdə Yunus Emre konqresinin (1990), Ankarada Türksoyun keçirdiyi qurultayının ilk iştirakçılarından oldu. Publisist yazılarına görə Azəri-Türk Qadınlar Birliyinin "Sara Xatun" fəxri diplomuna layiq görüldü.

Əsrarəngiz silsilə sonetləri, yüzlərlə şeirləri, sayı hesaba gəlməyən povest və hekayələri, eləcə də publisist yazıları ilə 30 ildən artıq oxucuların qarşısında hesabat verməklə bərabər, Nurəngiz Gün yaradıcılığı Türkiyə, Estoniya, Özbəkistan, İran, İraq oxucuları tərəfindən də sevildi.

Nurəngiz xanımın içində qeyri-adi bir istedad var idi. O, qeyri-adi ifadə tərzilə, təfəkkür biçimilə fərqlənərək bir işıq daşıyıcısı oldu.

Beləcə çox-çox illər cəsarətlə sözünü deyə bilən bir mələkdən Allah -Taala heç nəyi əsirgəmədi.

Müəllifi olduğum "Xalq üçün ömrünü şam kimi əridən" kitabımda "Nağıyevlərin gülümsünən çırpıntıları..." başlığı altında Nurəngiz Günün essesi yer alıb. O, belə yazılara qəribə başlanğıc verirdi:

– "Ağa Musa Ağanın ildönümünə sahmanladığım səhifələri savab bildim. Şöhrətli mesenat Ağa Musa Nağıyevin nəvəsi Dilarəni uşaqlıqdan tanıdığım anları yaşadım. Ümdəsi, ömür çırpıntılarına bələd olduğum nəcib

bir xanım, babası haqqında kitab yazacağını bildirdi və məndən məqalə istədi.

Dilarəm! – dedim. Səsin titrəməsin. Mütləq yaddaşımı qazaram. Yazıya əyildim...

Ağa Musa! Ağayana Ağa Musa ...

Vay, Səxavətli Burjuylar! Vay sizi, istiqanlı Millətbazlar! Nədən bu? Hanı bizim ağayana tərpənişimiz?

... Və Dilarəm! Vuruşlarına, titrəyişlərinə bələd olduğum çiçək! Babasının yorğun yavrusu! Sən isə gülümsünən çırpıntılarınla salamat qal. Və başını yastığa atanda, daha yuxunda "bobovun" jandarmalarını, onun könlünü sındırmış olan o bəni-həmzatları deyil, elə birbaşa ağa kişini - Ağa Musa ağanın özünü gör!

Gör ki... Tikdiyi binaların üzəriylə gəzən o Müstərib Kölgə ağ dünyasında... necə bəxtiyar gülümsəyir... Eynən Fərəc təbəssümü kimi, sənin kimi, qalib və ixtiyarsız..."

Bu duyğulu cümlələrin arxasında gizlənən mətləb - siyasi rejimlərin amansız burulğanından keçən, taleyinə acınacaqlı repressiya payı düşən hər kəsi, hər bir ailəni dərindən təsirləndirmək qüvvəsinə malikdir...

Azərbaycan bütün dövrlərdə qadın şairələri ilə fəxr edib. Nurəngiz Gün fəlsəfi fikrin və şürealizmin yaradıcılarından biridir desək, yanılmarıq. Onun dərin düşüncələri hər bir oxucunun gündəlik yaşantıları, sevinci, kədəridir.

Böyük ədəbiyyata gəldiyi "Tanrı bəşər övladıdır" povestinin proloqunda Nurəngiz xanım oxucularına belə bir mesaj göndərib:

"Bu kitabı sizə həsr edirəm, mənim Fatimələrim, Kozettalarım, Zoluşkalarım! Ruhunuza aramsız bir nəğmə oxuyuram bu gün. Bu nəğmənin öz ahəngi, öz büsatı var. Mənim susqun, naçar balalarım! Bu nəğmə uşaqlıqdan məhrum dünyanızın, səadətə həsrət ürəklərinizin, titrək

dodaqlarınızın, yorğun ayaqlarınızın şərəfinə oxunur, mənim qanadsız göyərçinlərim.”

Yazıları ilə sanki bəstəkara çevrilən, kövrək qəlbli Nurəngiz Gün! Bəs hələ həyata keçməyən arzuların, bəs yazıya çevirə bilmədiklərin? Bunları yarımçıq qoymağa ixtiyarın vardımı?

Bu düşüncələr məni məzarının üstünə gətirib çıxardı. Jalə qızın ilə sənin – Kərbəlayi Nurəngizin ziyarətinə gəlmişdik. Sabah, sentyabrın 21-də “Dünya Televiziyası” ilə sənin ad gününü sənsiz qeyd edəcəyik. Məzarının üstündə və ətrafında əkilmiş güllər günəşdən yanmışdı. Amma sinən üstündə tər bənövşələr uzaqdan diqqət çəkirdi. Sanki çiçəklərin arxasından boylanaraq, bu mənəm, mən sizləri görürəm, eşidirəm - deyirdin.

Bağban bizə yaxınlaşaraq: – Vallah Jalə xanım, əkdiyiniz güllərə, çiçəklərə hər gün su verirdim, nə edim ki, günəşin istisi gülləri məhv edir, təkcə gördüyünüz bu bənövşələr solmayır, günü-gündən böyüyürlər. Bu bənövşələr sizin əkdiyiniz çiçəklər arasında yox idi. Düzü mən bundan çox təəccüb keçirirəm- deyib, çiyinlərini çəkdi.

Hamı kimi çəkiliş qrupu da təəccüb içində idi. Bu bir möcüzə idi. Birdən “Bir gün günəş doğarkən” yazdığın şerini Jalən göz yaşları içərisində söyləməyə başladı:

Bu gördüyüm dağlar, bu vadilər, bu çaylar.
Gözlərimin pərdəsində şəfəq dolu tellərini
Birdən birə bitirəcək,
Hər gün Günəşdən su içən bu qızılı qayalar.
Bir gün qara torpaq gözlərimi, məni
Ömrümü, sənələrimi birdən-birə çəkəcək,
Sinəmdə şehli-şehli **bənövşələr** bitəcək.
Bir gün hündür köpülü torpağım üstdən
Bir igid yüksələcək, qara söyüd hönkürəcək,

Bu fəryad mənə yetəcək.
Bir gün... Günəş doğarkən əzalarımın ən gec öləni
Uzun-uzun tellərim torpaq altdan yavaş-yavaş ürpəşəcək...

.... Nurəngiz, əzizim, səni bizdən ayıran o kədərli gecədən düz 30 il əvvəl,1983-cü ildə sanki bu günü görmüş və özün sağlığında əbədi laylanı yazmışdın...

"Bizdən uca nəsə var", deyən inamlı bacım. Əlbəttə ki, var! Və o gözəgörünməz sənin son arzunu gerçək edib. Bu **bənövşələr** əlbəttə ki, bizdən ucada olanın qüdrətiylə bitib sinən üstündə.

Nurəngiz, əzizim, dərdlərinlə çox uzun, sevinclərinlə çox qısa bir yol getdin. Ürəyinin pıçıltısıyla özünə həmdəm oldun, qəlbinin nuruyla işığın, yaxşılığın, mərdliyin carçısına çevrildin.

Nə yaxşı ki, sən var idin! Nə yaxşı ki, biz dost olduq.

Allah səni rəhmət etsin! Tanrımız o dünyanı da bu dünyan kimi saf etsin.

*20.12.2017.*

## “ZÜMRÜDÜN” FÜRÜZƏSİ

Belə deyirlər ki, dövlətli kasıblasa da, 50 il ondan dövlət iyi gəlir.

Onun qulaqlarındakı sırğaların göz qamaşdırıcı parıltısı hələ kiçik yaşlarımdan məni cəlb edirdi.

Brilliant qaşı kimi özü də hər zaman bərq vuran bu gözəl insan- Fürüzə xanım, atamın (Fərəcin) xalası – Hökümə xalanın baldızı idi. Hökümə xalanın bacısı – Məşədi Balacaxanım mənim nənəm olub.

Hələ uşaq yaşlarımdan yadımdadır ki, atam, anam və bacım günaşırı Hökümə xalagildə yığışar, danışıb-gülməkdən yorulmazdıq. Xəyallara çevrilən belə “məclislər” bu gün də gözümün önündən bir kino lenti kimi ötüb -keçir.

Belə görüşlər zamanı Fürüzə xanım hərdən birinə və yaxud ikisinə qızıl əşya hədiyyə edərdi. O, çox əliaçıq və xeyirxah qadın idi. Qardaşının övladlarını özününkilərdən ayırmırdı.

Torqovı deyilən - indiki Nizami küçəsində “Zümrüd” adlanan qızıl mağazasının (Yuvelirtorq deyirdilər) müdiri idi Fürüzə xanım. Qardaşı arvadı Hökümə xala kiməsə tanışlıq verəndə qürurla deyərdi ki, baldızım qızıl mağazasının “zambağıdır”.

Hökümə xalanın övladları atama xalaoğlu, deyə müraciət edirdilər. Fürüzə xanım da atama belə müraciət edirdi.

Atam yumorlu, şirin söhbətləri ilə hər yerdə olduğu kimi, qohumlar arasında da böyük hörmət qazanmışdı. Harada olursa-olsun, onun gəlişinin səbirsizliklə gözlənildiyi hiss olunurdu. O, məzəli-qaravəlli söhbətləri ilə hər bir kəsi heyran edirdi.

Atam Fürüzə xanımın qardaşı Mürsəl əmi ilə qohumluqdan çox yaxın, ayrılmaz dost idilər. Onların bu

münasibətləri ölənədək davam etdi. İkisi də çox zarafat sevən idi.

Fürüzə xanım atama olan hörmət və ehtiramını ancaq söz ilə deyil, yadigar verdiyi qızıl əşyalarla da qiymətləndirirdi. Atam buna etiraz edəndə, Fürüzə xanım deyirdi, deməli hər zaman məni qızın kimi istədiyini vurğuladığın yalandır?

Hökümə xalanın dediyi kimi Fürüzə xanım özünü "zambağ" kimi deyil, sadə bir insan kimi aparırdı. O, qardaşı qızı Rəfiqə və bacım Solmaz ilə rəfiqəlik edirdi.

Bibisi Fürüzə və Solmaz haqqında söhbət gedəndə, Rəfiqə deyirdi ki, mən onların nəinki xarici, eləcə də daxili gözəlliklərilə bir görürəm. Fürüzə bibim gözəllikdə su pərisi kimi, Solmaz isə ağ dərisi və mavi gözləri ilə hamını heyrətdə qoyurdu.

Fürüzə xanım işdə nə qədər ciddi, sərt və tələbkar idisə, qohumlar arasında bir uşağa çevrilirdi.

Fürüzə xanımın "əlinin təmiz"[1] olduğunu və iş qabiliyyətini görüb, onu Olqinski -indiki Məmmədəmin Rəsulzadə küçəsində yerləşən "Firuzə" qızıl mağazasına müdir təyin edirlər. Amma bu da Fürüzə xanımın sadəliyini əlindən ala bilmir, insanlara olan münasibətində dəyişilmir.

Toy-nişan edən qohumlar qızıl əşyalarını yalnız bu mağazadan alırdı. Burada qiymətlər münasib, təmiz mal və ən əsası pulun hissə-hissə verilməsi onları qane edirdi.

Belə şəraiti Fürüzə xanım öz pulunun hesabına yaradırdı. Belə hallarda o, toy yiyəsinə də köməklik edərdı. Belə ki, hədiyyəsi öz yerində, verdiyi borc pulun qaytarılmasına vaxt da qoymazdı.

Atamın Hökümə xalagilə gələcəyini biləndə onu istəyən qohumlar bir yerə yığışardı. Əlbəttə ki, Fürüzə xanım başda olmaqla. Atam danışacağı nağılları bir

---

[1] Ticarətdə bu nadir hadisə hesab edilirdi

əfsanəyə çevirib, onlara çatdırardı. Nağılları bir növ özəlləşdirərdi. Zarafatları da ki, öz yerində.

Ən maraqlısı o idi ki, Fərəc kişi süfrədə əncil mürəbbəsinin, qoz ləpəsi və kökün olmasını xoşlayardı. Fürüzə xanım belə məclislərin tez qurtarmasından şikayətlənib, günün qısa olmasından narazı qalardı. Atamın danışdıqları ibrətamiz olduğundan, bunu hərə özü üçün dəsrlik kimi qəbul edirdi.

Fürüzə xanım həyat yoldaşından ayrılanda ailədə bu bir faciə kimi qarşılanmışdı.

Atam gəlin gedən qızlara duvaqla[1] getdiyi evdən yalnız kəfənlə qəbr evinə getməyi nəsihət edərdi.

Yəni gəlin gedən qızların evlərdə bərqərar olmalarını arzulayırdı.

## ƏSL İNSAN-ALİM HAQQINDA

Bu xatirəmi Arif Mehdiyevin sağlığında yazmağı arzulayırdım. Heç vaxt düşünməzdim ki, vaxtsız ölüm onu belə tezliklə ağuşuna alacaq. Ona vaxtaşırı ünvanladığım sözləri indi çox az bilirəm. Çox heyiflər olsun ki, ölüm gələndə bizimlə məsləhətləşmir.

Artıq həyatda olmayan, özünəməxsusluğu ilə seçilən bir şəxsiyyət haqqında söz açmadan, atası Şəfaət Mehdiyev haqqında məlumat verməyi borc bilirəm.

Şəfaət Mehdiyev – bu ad alimlikdən, pedaqoji fəaliyyətdən, ictimaiyyətdən, müharibədən, yüksək tribunadan, qazandığı orden və medallardan xəbər verir.

O, insanlarla çox rahat dildə danışıb, ünsiyyət qura bilənlər sırasında özünə daimi yer qazandı. Onun yaşadığı həyat yolu çoxlarına nümunə ola bilər.

---

[1] gəlin gedən qızın başına salınan qırmızı ipək

Şəfaət Mehdiyevin amalını maaddiyyətlə əlaqələndirmək mümkün deyil. Həyatda qazandığı nailiyyətlər buna bariz misaldır. Alimin öz dili ilə dediyi sözlər də bunu təsdiqləyir:

– "Təminatlı insan istədiklərinə çatmaq üçün bəzən mənən çətinlik çəkir".

Düz deyiblər ki, "ot kökü üstündə bitər". Bu misal ümumilikdə Arif Şəfaət oğlu Mehdiyevə aiddir. Allah-Taala 2009-cu ildə mənə bu insanla tanış olmağı nəsib etdi.

İllərlə haqqında topladığım materiallara və sənədlərə əsasən Ağa Musa Nağıyevin fəaliyyətinə həsr etdiyim "Xalq üçün ömrünü şam kimi əridən..." kitabımı Ali Attestasiya Komissiyasının sədri Arif Mehdiyevə təqdim etməyi qərara aldım və görüşümüz gözlədiyimdən də çox möhtəşəm oldu.

Ümumiyyətlə bu kitab oxucu kütləsinə bir mesaj idi-Ağa Musa Nağıyev pulunun qədrini bilən, ən əsası isə ondan yerində və düzgün istifadə etməyi bacaran olub.

Qapını məhz bu məqsədlə döydüyüm gün həyatımda silinməz iz buraxdı. Bu görüş məni babam Ağa Musa Nağıyevin fəaliyyəti haqqında dissertasiya yazmağa yol açdı...

...Ali Attestasiya Komissiyasının sədri Arif Mehdiyevin dəvət etdiyi otağa daxil olanda dəyirmi masa arxasında Şura üzvləri ilə üzləşdim.

Qayda normalarından bixəbər olduğumdan mən bu gözəl insan ilə tək görüşəcəyimi nəzərdə tutduğumdan həyəcan keçirdiyimi gizlətməyəcəyəm. Elə bil imtahan qarşısında idim. Özümü ələ alıb, kitabı təqdim etdim və məqsədimi bildirdim.

Akademik Arif Mehdiyev sadə və xoş rəftarı ilə məni heyrətləndirdi. Yerini dəyişərək, mənimlə üzbəüz əyləşib, kitabda yazılanlar ətrafında sualları bir-birinin ardınca sanki yağış kimi yağdırdı.

Bəlkə bir saat vaxt sərf etdi mənimlə söhbətinə Arif Mehdiyev. Verdiyi sualları cavablandırdıqca "imtahandan" əla qiymətlə çıxacağıma ümidim artırdı.

Gözlənilmədən Arif müəllimin verdiyi sualdan diksindim: – Dilarə xanım, kitabınızda Ağa Musa haqqında o qədər sənəd və material var ki, demək olar dissertasiyanız hazırdır. Niyə bu vaxtadək mövzu götürməyibsiz?

Həyəcandan özümü ələ ala bilmirdim. Mənə qarşı belə münasibətin yaranacağını heç ağlıma da gətirməzdim. Fikrimi cəmləşdirərək, dedim: - tez deyil? Axı mən belə məsuliyyətli işə başlamağa hazır deyiləm.

Yeri gəlmişkən özüm bilirəm ki, çox məsuliyyətliyəm və bəzən qarşı tərəfin məsuliyyətsizliyi məni incitdiyindən zarafatca deyirəm ki, çoxlu pul toplayan kimi sənə "məsuliyyət" alacağam. Mən hətta bu sözün kökündən çəkinirəm. Qəti sözüm odur ki, məsuliyyət olmazsa, hər hansı bir işə başlamaq düzgün deyil.

Hörmətli sədrin mənə etdiyi təklifi buna görə qəbul etməkdə çətinlik çəkdim. Qorxdum ki, məsuliyyətim buna çatmaz.

Arif müəllim mənə AMEA-nın Tarix İnstitutunun direktoru Yaqub Mahmudovun yanına getməyi tövsiyyə etdi.

Hər zaman yaxşı insanlar ilə məni rastlaşdırıb, mərdi-məzardan isə uzaqlaşdırdığı üçün Allahımdan çox razıyam. Sözün əsl mənasında yaxşı insanlardan biri Arif Mehdiyev, digəri Yaqub Mahmudov oldu.

Belə məsuliyyətli işi bacara bilərəmmi- qüvvəm çatarmı? Bu haqda tamamilə düşünmədiyim, buna hazır olmadığım haqda etirafımı mənə yaxın olan dostlarım dəfələrlə eşidiblər.

Hər zaman məqsədim Ağa Musa Nağıyev haqqında apardığım tədqiqatlarla onun etdiklərini xalqa çatdırmaq

olub. Və bütün bunları, artıq 25 ilə yaxındır ki, bu ətrafda etdiklərimdən həzz alıb, onu başa düşənlərin, qəbul edənlərin sayı artdıqca, özümü dünyanın yeddinci qatında hiss edirəm. Bununla da kifayətlənirdim.

Arif Mehdiyev özü də hiss etmədən çiyinlərimə çox ağır və məsuliyyətli bir yük qoymuş oldu. Çox düşünüb, daşındım, yüz ölçüb, bir biçdim və qərara aldım ki, bu da mənim alın yazım imiş, bunu da sınaqdan çıxarmalıyam.

Görüşümüzdən düz üç gün keçdikdən sonra hörmətli AMEA-nın Tarix İnstitutunun direktoru, Akademik Yaqub Mahmudovun qəbuluna gələrkən,- Dilarə xanım, biz Sizi Arif müəllim deyən gündən gözləyirik, ifadəsini eşitdim.

Allahım, məsuliyyətin ən yüksək zirvəsində Arif müəllim dayanırmış! Bir qədər çəkinib, özümü toplayaraq sözə başlamaq istəyirdim ki, Akademik Yaqub Mahmudov "A.M.Nağıyevin sahibkarlıq, xeyriyyəçilik və ictimai fəaliyyəti" – mövzusunda dissertasiya yazmağı məsləhət gördüyünü bildirdi.

Üç gün əvvəl Arif müəllim ilə görüşümdən keçirdiyim həyəcandan çıxmadığım halda, bu gözlənilməz qərar məni yenidən həyəcanlandırdı.

Gecikdiyimə görə üzr istədim, sevincimdən göz yaşlarımı güclə saxlaya bildim.

Ümumiyyətlə Ağa Musa Nağıyev ətrafında ilk dəfə fəaliyyətə başlayarkən, özlüyümdə məsuliyyətli olacağıma söz vermişdim. İndi isə "sadəcə" olaraq, məsuliyyətimi birə-yüz artıracağımı qət etdim.

Çünki bu yük, Ağa Musanın 11 yaşında daşıdığı yükdən də ağır yük idi. Arif Mehdiyev vəYaqub Mahmudov kimi prinsipial insanların etimadını doğrultmaqla, həm də A.M.Nağıyevin fəaliyyətini insanlara elmi işimlə çatdırmalıyam.

Sonradan Arif müəllim ilə görüşlərimiz çox oldu. Çətin məqamlarda onun dəstəyinə ehtiyacım olanda, hər dəfə

köməyimə çatırdı. Hətta minimum imtahanlarından birində çəkdiyim çətinlik haqqında bu gözəl insan ilə məsləhətləşərkən, bir telefon zəngi ilə bu işi həll etmişdi.

Arif Mehdiyevin dünyasını dəyişdiyi xəbəri məni bəlkə də çoxlarından artıq sarsıtdı. Çünkü onun arzusunu indi mən onsuz yerinə yetirməliyəm. Çox istərdim ki, müdafiə zamanı Arif Mehdiyev öz sözünü deyəydi.

Nə etməli, ölüm gələndə, heç kəslə məsləhətləşmir.

Ömrümün sonunadək bu insanı – böyük alimi heç vaxt unutmayacağam. Çünkü bu nəhəg işi görməyə O məni yönəltdi.

Arif Mehdiyevin atası Şəfaət Mehdiyev dekabrın 19-da anadan olub və həmin tarixdə də dünyasını dəyişib.

Deyirlər ki, Arif Mehdiyev də son vaxtlar doğum ilə ölüm tarixinin üst-üstə düşəcəyini hiss edirmiş. Bu belə də oldu. 2016-cı il dekabrın 15-də, anadan olduğu tarixdə də dünyasını dəyişdi. Düz deyiblər ki, hissiyyat ilə ruh vəhdət təşkil edir.

Allahdan bu böyük insana rəhmət diləyib, behişt arzulayıram.

## İKİ DÖVLƏT, TƏK MİLLƏT

Yeddi ölkədə davam edən Uluslararası proyektlərdən olan "İki Dövlət, Tək millət" layihəsi Azərbaycanda baş tutdu.

Türkiyə Cümhuriyyətinin banisi böyük Atatürkün "Azərbaycanın sevinci sevincimiz, kədəri kədərimizdir" – fikrinin məntiqli davamını Ulu Öndər Heydər Əliyev – "Biz bir millət, iki dövlətik" – sözləri ilə Azərbaycan - Türkiyə münasibətlərinin həlledici təməl faktorunu müəyyənləşdirdi.

Türkiyə və Azərbaycan əlaqələrinin genişlənməsi hər zaman Azərbaycan xalqının diqqət mərkəzində olub. Elə bu baxımdan xalqımız Türkiyə yazarları ilə daima əlaqədə olub, xalqlar arası körpülərin təməlini qoyurlar.

Yeddi ölkədə gerçəkləşən Uluslararası layihələrdən olan "Yeşil Bayraq ve İki Devlət,Tək Millet" projesi Azərbaycanda Sultan Özatəşin rəhbərliyi ilə baş tutdu.

2015-ci il avqustun 20-də Azərbaycan Yazıçılar Birliyində keçirilən tədbirin başlanğıcına start verən Xalq şairi Fikrət Qoca- AYB-nin Katibi -çıxışına Xalq yazıçısı Anarın salamlarını yetirməklə başladı.

Aparıçı Yazıçılar Birliyinin "Cənub ədəbiyyatı" şöbəsinin müdiri Sayman Aruz tədbir iştirakçılarını Sultan Özateş haqqında məlumatlandırdı. O, bildirdi ki, projenin rəhbəri - Ankara Qazi Universitetinin məzunu olan S.Özateş həm də rəssamdır. O,Türk Hava Kurumu Universitetinin Sosial Bilemler İnstitutu "Su Yönetim" və "Orqanizasyon" bölümlərindən yüksek Lisansını bitirib. "Sənət tarixi" mövzusunda Doktorluq Egitemik üzrə iş aparır.

Azərbaycanda layihənin təmsilçisi olan Qalibə xanım "Azərbaycan - Məmləkətim mənim" şeir toplusu ilə – İki Dövlət, Tək Millət – olduğumuzu vurğulayaraq projeni

kültür, sənət və təhsil üçün Ankara- Bakı qardaşlıq körpüsü adlandırdı.

Sonda AYB-nin Sədri Anar və Xalq şairi Fikrət Qoca, eləcə də AYB-nin müşaviri Rauf Aslanov, Mətbuat xidmətinin rəhbəri Xəyal Rza, müğənni Nurlan Əzizbəyli, Azərbaycanda bu layihənin mətbuat xidmətinin rəhbəri - Fuad Rəsul, şairlərdən Sevgi Dayandur, Aləmzər xanım "Onur Ödülü" ilə mükafatlandırıldı.

S.Özateş – "Qafqaz Media" təşkilatının sədri Azadə Talehin fəaliyyətindən və bu projenin Azərbaycandakı rolundan söz açaraq, onu "Onur Ödülü" ilə təltif etdi.

A.M.Nağıyev adına "Milli Dəyərlərin Qorunması" təşkilatının sədri olaraq mən də çıxışımı Ulu Öndərimiz Heydər Əliyevin – "İki Dövlət, Bir Millət" sözləri ilə başladım.

Sultan Özatəşə iki qardaş xalqın elmini, mədəniyyətini və təhsilini yüksək səviyyədə təmsil etdiyinə görə – "Ağamusa Zirvəsi" Diplomunu təqdim edib, projenin hər iki təmsilçisinə Ağa Musanın fəaliyyətinə həsr etdiyim "Nurlu əməllərin işığında" kitabını da hədiyyə etdim.

"MDQ" təşkilatının Şura sədri Mahmudbəyli Yeganə Azərbaycan və Türkiyə xalqları arasında elmin və mədəniyyətin davamı sayılan bu projenin vacibliyini vurğulayaraq, Qalibə Cəfərovaya "Ağamusa Zirvəsi" Diplomunu təqdim etdi və projenin hər iki təmsilçisinə – "Ömrün Qızıl Pillələri" kitabını hədiyyə etdi.

Hüquq elmləri üzrə fəlsəfə doktoru Ofeliya Mahmudova hər iki ölkənin hüquq qanunvericiliyinin təkmilləşməsinə yönəlmiş bir sıra təklifləri irəli sürdüyü "Türkiyə-Azərbaycan münasibətlərinin beynəlxalq xüsusi hüquqi tənzimlənməsi" kitabını projenin hər iki təmsilçisinə hədiyyə etdi.

Sonda biz üçümüz də Türkiye 2015 Sanat Platformu "Onur Ödülü" ilə təltif edildik.

**P.S.** *"MDQ" təşkilatının Şura sədri Yeganə Mahmudbəyli ilə birlikdə bu layihənin gedişatını reportaj şəklində dinləyicilərin ixtiyarına verməyi vacib bildik.*

*Video çarx arxiv sənədlərimin siyahisinə daxil edilib.*

## “AzKEF” TÜRKİYƏDƏ

Türkiyənin Antaliya şəhərində 2017-ci il oktyabrın 2-dən -5-dək “Dil bayramı və Uluslararası Türkmən Elləri Şairləri və Sanatçıları Buluşması” devizi altında keçiriləcək konfransa Azərbaycandan 13 nəfər şair-yazar, sənətçi, jurnalist və türk dili sevərlər dəvətli idilər. Azərbaycandan Yazıçılar Birliyinin Güney Azərbaycan şöbəsinin müdiri - şair Sayman Aruzun başçılıq etdiyi konfransa Sənət, Kültür və Ədəbiyyat Federasiyasının (AzKEF) üzvlərindən: Yeganə Mahmudbəyli-alim-jurnalist, şairlərdən: Sona Abbasəliqızı, Şöhrət Əfşar, Fərqanə Mehdiyeva, Narıngül Babayeva, Aləm Kəngərli, sənətçi Samir Arifoğlu və mən də dəvətlilər sırasında idik.

Konfrans Antaliyanın Kəpəz Bələdiyyəsi Hakan Tütünçü, Antaliya Valisi Hemdulla Sübhi, Kültür müdiri Eldar Çelik, ASKEF-in Genel Başqanı Savaş Ünal və Yəhya Azəroğlunun təşkilatçılığı ilə keçirilirdi.

Konfrans iştirakçılarını Bələdiyyənin başçısı Hakan Tütünçü qəbul edib, şeirləri ilə hamının alqışını qazandı.

Dil bayramında Kərkükdən gələn nümayəndələrin alovlu çıxışları, şeirləri, rəqs və ifaları yaddaşımızda dərin iz buraxdı.

Ankarada yaşayan dəyərli ziyalımız-tarixçi, Doktorant Barış Cavidin Qarabağ savaşı ətrafında çıxışı həyəcanla dinlənildi.

“Az.KEF”-in Gənclər təşkilatının sədri - sənətçi Samir Arif oğlu muğamımızın yaranması tarixindən, beşik başında analarımızın oxuduğu laylaların da muğam üstündə yaranmasından söz açaraq, xalq mahnılarımızı oxumaqla iştirakçılara şən əhval-ruhiyyə bağışladı.

Çıxışımı Ağa Musa Nağıyevin simasında XIX əsrin ortalarından və XX əsrin əvvəllərində neftdən gələn gəlirin hesabına milyonçu-xeyriyyəçilərimizin Bakının

çiçəklənməsindəki rolundan, tikdirdikləri binalardan və eləcə də gəncləri maarifləndirməyə yönəltdikləri məsələlər ətrafında cəmlədim. Tariximizin keçmişini müəllifi olduğum kitablarda müasir dövrümüzə çatdıraraq, neftxudaların adlarının yaşaması üçün bu yolda var-qüvvəmi əsirgəmədiyimi diqqətə yetirməyə çalışdım.

Kəpəz Bələdiyyəsi Hakan Tütünçü və ASKEF-in Başqanı Savaş Ünalın imzası ilə "Türk dünyası ədəbiyyatında göstərdiyi xidmətlərə görə" – ilk Diplom AYB-nin sədri, Xalq yazıçısı Anara ünvanlandı.

"AzKEF"in mətbuat katibi Sona Abbasəli qızının konfransın gedişatını canlı yayımla paylaşması bizi bir daha ruhlandırdı.

Konfransa qatıldığımıza və Türk dünyasının kültür və sənətinə qiymət verdiyimizə görə Antaliyanın Kepez Belediyyesinin Belediyye Başkanı Hakan Tütünçü və "ASKEF" Genel Başkanı Savaş Ünalın imzası ilə "Təşəkkür Belgisi" və Diplomlarla təltif edildik.

Biz də Türk dünyasının yazarlarının ədəbiyyat sahəsindəki xidmətlərini dəyərləndirərək, nümayəndələrdən bir neçəsini A.M.Nağıyevin "Bakı Gecələri" Diplomu; eləcə də AYB-nin "Fəxri Fərmanı" ilə təltif etdik.

Səfər zamanı səyahət etdiyimiz Türkiyənin möhtəşəm "Anadolu oyuncaq möcüzəsi" muzeyində bir uşaq sevinci yaşadıq. 1875-ci ildən 2000-ci ilədək olan oyuncaqlar kolleksiyasını – Türkiyənin uşaq aləmi-tarixini əyani surətdə görmək bizə nəsib oldu.

Bu haqda xüsusi yazını sizlərə çatdırmağı vacib sayıram.

# ANADOLU OYUNCAQ MUZEYİ

***“Bir yerdə çocuq varsa, deməli oyun da var, oyuncaq da var.”***

Belə bir şüar ilə xalqına xidmət göstərərək Antaliyada Toxuculuq Fabrikinin bağçasının sahəsində bir Muzey yaradılıb.

Burada dünyanın hər yerindən uşaqlar və böyüklər üçün keçmişdən bu günədək olan oyuncaqları toplayıb, sərgi təşkil edilib.

Muzeydə uşaqların dünyasında olan məişət əşyalarına, heyvanların oyuncaqlarına, cürbəcür oyuncaq maşınlara rast gəlmək olur.

Eramızdan əvvəl mağaralarda ağac budaqları və daşlarla oynayan uşaqlar bu gün robotlarla əvəz olunan oyuncaqlarla oynayır. Burada hər yaşadığımız əsrdə oyuncaqlar adətlərə uyğun toplanmışdır.

Məsələn keçmişdə taxta maşınlarla indiki batareyalı maşınlar arasında heç bir fərq yoxdur.

Əsas məqsəd odur ki, oyuncaqlar uşaqları gələcəyə aparır. Muzey minillərlə Anadolu uşaq tarixindən seçilmiş oyuncaqları minlərlə insanlara tanıtdırır.

“Anadolu Oyuncaq Muzeyi” oyuncaqların tarixini öyrən-mək, əylənmək, eləcə də oyuncaqlarla tanış olmaq - keçmişi unutmamaq deməkdir.

Muzeyin keçidləri də keçmiş və indiki üsulda bəzədilib. 10 vitrində 10 ayrı-ayrı məzmunda oyuncaqlar sərgilənmişdi. Vitrinlərdə Teddi Tyu Biarden keramik kuklalardan tutmuş mətbəx əşyalarınadək, robot oyuncaqlar və Qaragöz obrazlarına görə çox sayda fərqli oyuncaqlar vardır.

Muzeydə məşhur Türk şairlərinin – “Seçmə uşaq və oyuncaqlar” Muzeyinin keçidlərinin sürprizlərlə dolu olması haqda çox yazılar var.

Muzeyin kafesi də hər kəsdə maraq oyadan əşyalarla bəzədilmişdir. Burada yeyib-içmək, söhbət zamanı dincəlmək, məclislər təşkil etmək üçün hər şey nəzərdə tutulub.

Təxminən 4.000kv.m. iki sahədən ibarət olub, muzeyin 750.kv.m. iki bağlı bölgəsində 800 min ədəd oyuncaq toplanıb.

Muzeyin içində təşkil olunmuş dərs poqramları və digər maraqlı proqramlarla bərabər görüş bölgəsi də fəaliyyət göstərir.

Ziyarətçilər burada uşaqları ilə birlikdə vaxtlarını səmərəli keçirirlər.

**P.S.** *Belə bir muzeyin hər bir ölkədə yaradılması önəmli olar. Düşünürəm ki, bu növ muzeylər ölkəni necə sevməyin və tərənnüm etməyin bir növüdür.*

*Axı uşaqların silahı oyuncaqdır. Vətənə, anaya sevgi də buradan başlayır.*

*Gəlin, biz də çocuq olan yerdə oyuncaqları bol edək.*

## BİR HƏYAT HEKAYƏSİ

***Dənizin ləpələri qaytarsın mənə sənlə keçən illəri***
***Aparsın bu illəri, sənsiz keçən illəri***
***Sən olmasan yanımda mənim,***
***Bu həyatı, ömrü neylərəm...***

Bir həyat hekayəsi də belə sona çatdı.

– Hə, səninləyəm əzizim, niyə razılıq vermirsən ki, toyumuzu yanvar ayında edək?

Bilmirəm, amma nədənsə içimdə bir təlaş var. Ehtiyat edirəm. Sanki daxilimdən gələn bir səs deyir ki, bu ay evliliyimizə uğur gətirməyəcək.

Aydın gülümsəyərək nişanlısına deyir: "Allah-Taala hər ikimizi bu ayda dünyaya gətirib, bu qismət deyilmi? Qorxma, Allah bizimlədir. Əgər mən sənin sevgini qazana bilmişəmsə, deməli hər şey yaxşı olacaq. Hərdən yadıma düşür uşaq kimi sənə yalvarmağım. İlk gündən qəlbimə girdin, aldın ağlımı ürəyinin gözəlliyi ilə".

.... İndi Gülarə xanım bunları yada saldıqca sızlayır. Düşünür ki, hissiyyatına qulaq versəydi, bəlkə də belə olmazdı?

Toy günü Gülarəni eyni qorxu və həyəcan bürümüşdi. Anası elə hey yanından keçib soruşurdu ay qızım, niyə sevinməyirsən? Allah qoysa uşaqların olacaq, ailə sevincini yaşayacaqsan. Vallah mən ərə gedəndə sevindiyimdən uçurdum. Bax, düz də etdim. Sizin kimi fəxr edəcək övladlarım var. Ailə qurmaq hər bir qızın

arzusudur, bunun nəyi pisdir ki? Bəsdir qaş-qabağını salladın. Aydın kimi oğlanı gündüz çıraqla tapmaq olmaz. İnşaallah hər şey yaxşı olacaq.

Amma bu qorxu hissi Gülarənin vücuduna hopmuşdu. Düşünürdü ki, niyə məhz yanvar ayı onu qorxudur? Məgər yanvar pis aydır? Bu ay ilə yeni ilə qədəm qoyuruq, bir yaş böyüyürük. Qışın əsl təravətini bizə bu ay gətirir. Aydın da ki, adı kimi aydınlıq, şəffaflıq deməkdir. Daha nədəndir bu qorxu, bu təşviş?

O zaman Gülarə heç ağlına da gətirməzdi ki, sonralar bu qorxu hissi onu ömrünün axırınadək müşayiət edəcək. Evlilikdən sonra hər il sağ-salamat yanvar ayını başa vuranda Gülarə sanki ağır yükün altından çıxmış kimi bir yüngüllük hiss edəcək. Beləcə onların evlilikləri 6 il çəkdi.

Onların həyat hekayəsini izləyənləri çox intizarda qoymayacağam.

1984-cü il yanvarın 5-də toy-büsat quruldu. Yeni bir ailənin təməlini də Aydın və Gülarə çütlüyü qoydu.

Aydının sevincinin həddi-hüdudu yox idi. Atasını çox erkən yaşlarında, anasını isə 16 yaşında,10 -cu sinifdə oxuyarkən itirən Aydının indi atası da var idi, anası da. Gülarənin ata-anası belə demişdilər Aydına ilk görüşdə: - Biz sənə isti valideyn münasibətimizlə bütün ağrılarını unutduracağıq.

Gülarə gənc ikən ictimai işlərdə həyata keçirdiklərindən qürurla danışır: – O zamanlar komsomolçular sırasında ictimaiyyətdə fəal gənclərdən idim. Tədbirlərdən biri - döyüş bölgələrində keçirilirdi. Bir gəncin söylədiyi “Vətəni sev” -şeiri qəlbimi sızıldatdı. Özümdən asılı olmayaraq ağladım. Ürəyimin incə siminə toxunan bu oğlan (adını sonradan bildim) – Aydın, ürəyimi beləcə ovladı.

Həyat qəribəliklərlə əhatədədir. Kim-kiminsə qəhrəmanlığına, hər-hansı bir şücaətinə, ya da ki, atdığı

hər-hansı bir yadda qalan addımına vurulur. Aydın isə mənim yaş axıtdığım gözlərimə deyil, qəlbimin incəliyinə vuruldu.

Hələ çox kiçik yaşlarımda dəcəllik edib qaçarkən yıxılanda, anam məni danlayardı. Amma o zaman bir qadının dediyi sözlər indi də yadımdadır: – “Ay Allah, belə də ağlamaq olar, bu qız nə kövrəkdir?” Sonralar başa düşdüm ki, ürəkdən ağladığımı nəzərdə tuturmüş o qadın...

...Toy ərəfəsində Aydın ata-analı bir oğul kimi qanad açmışdı. Toydan bir-iki ay keçmiş, onu bir sual maraqlandırırdı - ata olarsa, valideyn nəvazişinin şirinliyini çoxdan unutmuş Aydın, bu məsuliyyətli vəzifənin öhdəsindən gələ biləcəkmi?

Çox sonralar Aydının xatirələrində belə bir yazıya rast gələcəyik: “Tənhalıqdan yayda da üşüyürdüm, qışda da. Çox vaxt qaranlıq düşəndə yatağımda uzanıb səhərədək Allaha dualar edirdim ki, məni tək qoymasın. Şükürlər olsun ki, dualarım qəbul olundu. Tanrı qarşıma pak bir insan çıxartdı. Taleyimdən çox razıyam. Həyat yoldaşımın mehribançılığı mənə tənhalı günlərimi unutdurdu”.

Aydın çox gözəl bilirdi ki, uşaq dünyaya gələrkən valideynləri düşünmədən obraza daxil olurlar. Övladına süd verən ana, ona bütün varlığını bəxş edir. Ata isə öz sevgisini hərəkətləri və nəvazişi ilə bildirir. Aydın övladlarına bütün sevgisini, ata duyğularını verəcəyini artıq qət etmişdi.

1986-cı ilin dekabr ayının 3-də onların sevinci Günelin, 1987 dekabr ayının 31-də isə Mansurun dünyaya göz açmaları oldu. Hər ikisi dil açıb ona ata, deyə müraciət edəndə Aydının sevinci yerə-göyə sığmırdı. Öz-özünə qüşünürdü ki, niyə Allah mənə ata-ana kəlmələrini deməyi çox gördü? Sualın cavabını axtararkən, ata-anadan

doyunca görmədiyi istəyə və məhəbbətə ehtiyac duyduğunu yada saldıqca sanki uşaqlaşırdı.

1990-cı il 20 yanvar hadisələrində Aydın Neft daşlarında növbədə idi. Vətən qan ağlayırdı. İtkilərin sayı çoxaldıqca Aydın sanki vəhşiləşirdi. Yox, yox mən nə isə etməliyəm. Şəhidlərimizin qanı yerdə qalmamalıdır. Bu hər birimizin vətəndaşlıq borcudur deyib, düşünən Aydın növbəsini başa vurub, evə gələrkən artıq cəbhəyə gedəcəyini qət etmişdi. Yanvarın 23-də - ilk qurbanlarımızın dəfn mərasimindən qayıdarkən o, qərarını Güləresinə bildirəndə, nələr yaşandı...

Ataların gözəl bir məsəli var ki, "Sən saydığını say, gör fələk nə sayır". Dünya bir pəncərədir, hər gələn baxar, gedər. Amma düşünməyirik ki, bu həyatı necə yaşayırıq.1991- ci ilin yanvarında Aydın "Könüllülər dəstəsi"nə qoşularaq cəbhəyə yol aldı.

Xəstə ürəyinin döyüntüsünə qulaq verməyən Aydına "Vətən, biz olmazdıq, sən olmasaydın" – deyib, əlinə aldığı silah güc verdi. Vətən eşqi,vətən sevgisi sanki bir anlığa ona canından çox sevdiyi Gülarəsini və övladlarını unutdurdu.

Bir neçə dəfə yaralanan Aydın döyüş meydanından əl çəkməyərək müalicə alıb, yenidən bölüyə qayıdırdı. Belə vaxtlarda Gülarəsinin surəti dayanırdı gözü önündə. Ondan güc, ilham alırdı Aydın. Vətən, vətən deyib, yenidən döyüş meydanına atılırdı. "Qarabağ bizimdir!"– onun yalnız bu idi şüarı.

Aydın döyüş zamanı hər dəfə yaralananda Gülarə bunu duyurdu. Özündən asılı olmayaraq o, əllərini Aydınına uzadıb, uf-uf deməklə elə bil ağrılarına şərik olmaq istəyirdi.

Uzanan əlləri boşa çıxanda, sanki Aydının uzaqlaşan səsini eşidirdi: da ... rıx... ma... az....qa...lıb...

Sonra elə bil Aydın yaralı qollarını ona uzadır,Gülarə onun əlindən tutub, özünə sarı çəkəndə, Aydın çırpınıb ondan uzaqlaşırdı. Belə anlarda o, hövlanək yuxudan oyanarkən təsəllini yanında şirin-şirin yatmış körpələrində tapırdı.

...Fəxri xiyabanda məzarlardan kənarda dayanan bir qadının oxşayıb - ağladığını gördüm, çox təəccübləndim. O, yerə əyilib nə isə deyib ağlayır, sonra isə Allaha dualar edirdi.

Yaxınlaşıb soruşdum, kimsən? Əlini uzadıb,boş yeri göstərərək - şəhidin həyat yoldaşıyam dedi. Qaranlıq çökürdü, gördüklərim məni sarsıtdı, məni bir vahimə bürüdü. Qadın göz yaşlarını axıtmaqda davam edirdi. Ondan bir az aralı dayanan azyaşlı qız və oğlan uşağı məni görüb, elə bil ürəkləndilər.

Xala, deyə mənə müraciət edib, analarının hər gün buraya gəlib ağladığından şikayətləndilər. Axşam evə gələndə də atamızı deyib ağlayır. Axı bizim atamız sağdır. O, cəbhədədir. Düşmənlərimizi qırıb məhv etdikdən sonra evimizə qayıdacaq.

Bir qədər bu qadını sakitləşdirdikdən sonra bildim ki, o, şəhid olmuş Aydın Manerovun həyat yoldaşı Gülarə xanımdır. Ürək-dirək verib, uşaqları yormamasını ondan xahiş etdim.

Bəs mən nə etməliyəm, ürəyimi necə boşaltmalıyam deyən Gülarə, mənə sıxılaraq, dərdini danışdı: – Bədəninin bir tikəsi belə ərsəyə gəlmədi, kəfənə tutulmadı. Nəşi yox, məzarı yox, bəs dərdimi necə bölüşüm? Aydınımı necə anım? Deyirlər ki, kədəri paylaşırsan ki, qəmin azalsın, sevinci paylaşırsan ki, sevinənlərin artsın. Mənim dərdim azalan dərd deyil. Bəzən mənə elə gəlir ki, Aydınım sağdır, ölməyib. Deyirlər ki, şəhidlər ölmür.

Vahiməm getdikcə daha da artırdı. Gülarə xanımla evlərinə gəldik, söhbətimiz uzun çəkdi. Verdiyim suallar

onu həyəcanlandırsa da, hər sualdan-yeni bir sual doğurdu.

Onunla sonrakı görüşlərimdə daha nələrin, nələrin şahidi oldum: – "...Aydın tez-tez cəbhədən məktub yazırdı. Mansuruna yaxşı oxumağı, vətənə layiqli övlad olmağı tövsiyyə edirdi. Məndən uşaqlara acıqlamamağımı xahiş edirdi. Atasız böyüməyin necə ağır olduğunun acılığını heç cürə unuda bilmirdi.

Kiçik leytenant rütbəli Aydın Mahmud oğlu Manerov xidməti dövründə Ağdam, Laçın, Füzuli, Marquşevan və digər yaşayış məntəqələrinin düşmənlərdən təmizlənməsində, döyüş bölgələrində qrup komandiri kimi xüsusi fərqlənərək düşmənə sarsıdıcı zərbələr endirməklə yanaşı, düşmənin 20 nəfərə yaxın canlı qüvvəsini məhv edib.

O, Ağdərə istiqamətində gedən döyüşlərdə qolundan, Laçının Sarıbaba yüksəkliyi uğrunda gedən döyüşlərdə ürək nahiyəsindən yaralanaraq əlillik dərəcəsi alsa da, hərbi hissəyə qayıdaraq xidmətini davam etmişdi.

1993-cü ilin iyununda hərbi hissədə xidməti zamanın komandanlığın etimadını qazanan Aydın Manerov bölük komandirinin müavini vəzifəsinə təyin edilmişdi. O, dəfələrlə komandanlığın əmri ilə təltiflərə layiq görülmüşdir. Aydın Manerov Ağdərə, Ağdam, Laçın, Şuşa və Goranboy rayonlarının ərazisində - arxa cəbhədə kəşfiyyat qrupuna rəhbərlik edərək, qiymətli materiallar əldə etmişdir".

O zaman Kərimdayı ona: – "Aydın, sən kifayət qədər döyüş yolu keçmisən. Qayıt balalarının yanına, sağlamlığın da bunu tələb edir, demişdisə də, o, inadından dönməmişdi."

Sonralar Kərimdayı danışırdı ki, Aydının dedikləri indi də qulaqlarımda əks-səda verir: – "Düşmənin meydan suladığı bir zamanda evdə oturmaq olarmı? Heç vaxt

inadımdan əl çəkmərəm. Nə vaxta qədər əllərim silah tuta bilirsə, məni döyüş meydanında görəcəksiz!"

Deyirlər ki, Qarabağın sirrli yerləri çoxdur. Hələ o zamanlar Rzaqulu bəy Mirzə Camal yazmışdı ki, Qarabağ vilayəti hər cəhətdən yer üzünün cənnətidir.

Aydın Manerovun gündəliyindən:

"1994-cü ilin yanvar ayının 28 idi. Maşın karvanı Mahmudlu kəndindən irəli hərəkət edirdi. Harada qərar tutacağımız məlum deyildi. Podpolkovnik Eldar Ağayev zabitləri bir yerə yığıb, Tərtərin təhlükədə olduğunu, ermənilərin hücuma hazırlıqlı olduqlarını elan etdi. Son sözü bu oldu – Hazır olun! Amansız döyüşə buradan qatılacağıq! Vəziyyətin bizdən hazırlıq və dözümlülük tələb etdiyini anladıq. Ertəsi günü Leytenant Abdulla Rəhimov yuxusunda ulduzlara sarı uçduğunu söyləyərkən, mən ona hissiyyatlara qapılmamasını məsləhət gördüm".

Amma Abdulla Rəhimova ulduzların gələcəkdə səadətdən xəbər verdiyini söyləsəm də...

O gecə gördüyüm yuxumdan çox narahat idim. Övladlarımın qolundan tutub Azərbaycanı səyahətə çıxdığımı və Peyğəmbərə salam göndərdiyimi dostlarıma söyləyərkən, məni bir üşütmə tutsa da, ürəyimin sərinləşdiyini və rahatlıq tapdığını hiss etdim".

Sən demə, bu yuxu onun uşaqları ilə vidalaşması idi. Ürəyinə nə isə dammışdı. Amma optimist olduğundan belə hissləri yaxın buraxmırdı.

Gülarə xanımın söylədiklərindən:

"Aydın sabahın xeyrinə çox inanan idi. Hər dəfə döyüşə qatılarkən Allaha dualar edirdi. Yanvarın 29-u idi. Aydın şəhid olmamışdan iki gün əvvəl ürəyim çox narahat idi. Düşünürdüm ki, heç bir yerim ağrımasa da, narahatçılığım azalmırdı. Artıq 15 gündən çox idi ki, ondan məktub almırdım. Mansur hələ yazı yazmağı örənməmişdi. Amma ağ vərəqləri qələm ilə çızırdı ki, sanki

məktub yazır. Sonra isə guya yazdıqlarını mənə oxuyurdu: – “Ata, mən səni çoxlu istəyirəm. Sənin çiyinlərinə qalxıb dünyanı görmək istəyirəm. İstəyirəm sənin vuruşduğun yerləri görüm. Mən də böyüyəndə sənə oxşayacağam. Sənin kimi qoçaq olub düşmənlərə güllə atacağam. Ata gələndə mənə tapanca, bir də tank alarsan. Sənin igid oğlun Qartal Mansur”. Aydın ona 3 yaşında olarkən hərbi paltar geyindirmiş və onun hərbiçi olacağını arzulamışdı.

Sonralar bildim ki, elə bu günlərdə Aydının bölüyü mühasirədə imiş. Döyüş dostları söhbət əsnasında danışırdılar ki, əsgərləri bir-bir itirdikcə, Aydın sanki vəhşiləşirdi. Hətta o, döyüşə gedərkən öz zirehli geyimini Aslan adında sıravi əsgərə veribmiş ki, zirehsiz əsgər onun haqqında pis düşünməsin. Onlar necə, mən də elə olmalıyam deyib. Bilsinlər ki, komandirləri canını qorumayıb, torpaqları qoruyub.

Aydın Allahı çağırıb, döyüşə getdi. Tabeçiliyində olan döyüşçülər qorxu bilmədən güllə yağışı altında irəli sürünürdülər. Əhsən balalar! – deyən Aydın sevinirdi ki, aylarla gecəni gündüzə qataraq hazırladığı döyüşçülər nəyə qadir olduqlarını göstərirdilər. Sanki onlara ilahidən bir qüvvə gəlmişdi. Döyüşçülər qəhrəmanlıq nümunələrini göstərdikcə Aydının fərəhi artırdı.

Düşmənin səngərləri lap yaxında idi. Birdən rabitə radiosundan sevinc dolu bir səs eşidildi: - Koldun, mən Qartalam! 190.20.15 – yəni yüksəklik əlimizdədir, bütün postlar məhv edildi.

Onun bu sevinci çox çəkmədi. 10 dəqiqə keçməmiş Aydın Manerovun səsi təkrarən eşidildi:

Koldun, mən Qartalam! Bizi üç tərəfdən atəşə tutublar. Sağdan düşmənin BMR-2 zirehli texnikası başımızı qaldırmağa imkan vermir. Yaralılarımız getdikcə çoxalır. Çıxış yolu axtarmağa vaxt yoxdur. Düşmənin qabağı niyə

kəsilməyib sualına cavab tapa bilməyən Aydını indi bir məsələ maraqlandırırdı - döyüşçüləri xilas etmək, əldə edilən qələbəni qorumaq!

Taqıma - sola çəkilin! – komandasını verəndə Aydın son damla qanınadək geriyə çəkilməyəcəyini qətiyyətlə bildirdi.

Briqada ilə əlaqəyə girən Polkovnik-leytenant vəziyyətin çətinləşdiyini öyrənib, geri çəkilməyə əmr verəndə, artıq yaralanmış Aydın Manerov yaralı əsgərləri xilas etməyə - onları qorumağa çalışırdı.

Elə bu zaman leytenant Vaqif Salehovun mərkəzə göndərdiyi acı xəbər rabitə radiosunda eşidildi: – Koldun, mən Şahinəm! Qartal həlak oldu!

“Gödəkburun” yüksəkliyi uğrunda gedən bu döyüş belə sona çatdı. Aydın vətən uğrunda döyüşə getdi... Amma geri qayıtmadı...

Onun haqqında çox deyildi. Hamı bir ağızdan Aydın Manerovun şücaətindən, qəhrəmanlığından, düşmənin əsgərlərini necə qırdığından, son həddə də zirvəni tərk etmədiyindən danışdı”.

Ağlamaqdan, dözümsüzlükdən yorulmuş Gülarə gözlərini bir an yumanda, gözünün qabağına cənnətdəki quşlar gəlirdi. O, bağda Aydının quşlara bənzər pərvaz etdiyini görür, quşların ardınca qanad açıb uçmaq istəyəndə sanki qanadları yanına düşür.

Diksinərək yuxudan ayılanda nə gördüyünü dərk edə bilmirdi. Sevinci ancaq bu olurdu ki, Aydının simasını aydın görürdü. Bu, Aydının son döyüş günündə Gülarənin gördüyü yuxu oldu.

Aydının şəhid olduğu xəbərini eşidəndə - mənim qəhrəmanım ölə bilməz - sözlərini söyləyərkən huşunu itirib, özündən gedən Gülarə, ayılanda ətrafındakıları nəzərdən keçirib, söylədi:

-Vətənpərvər oğul ölə bilməz! Onun buna ixtiyarı yoxdur. İnamla müharibəyə gedən, zəfərlə qayıtmalıdır. Yox! Yox! İnanmaq belə istəmirəm onun yoxluğuna. Onun döyüşdüyü yerləri görməsəm, heç vaxt inanmaram.

Gülarə getdi və o yerləri qarış-qarış gəzdi. Eşitdiklərinə və gördüklərinə rəğmən qürur hissi ilə qayıdarkən dərk etdi: - Bəli, ancaq mənim Aydınım belə vuruşa bilərdi. Mənim qəhrəmanım!

-Aydınım, sən ki, hər şeyi əvvəlcədən fikirləşən idin - deyə düşünən Gülarə, indi bu xəbəri uşaqlarına necə çatdıracağı haqda fikirləşirdi. Axı Günel sənin ona vəd etdiyin gəlinciklə qayıdışını gözləyirdi hər gün. Hər səhər yuxudan ayılanda - atam bu gün mütləq gələcək, hə? Mən isə hər günü sabahla əvəz edəndə, Günel ağlayaraq deyirdi - bu sabahlar nə qədər olacaq axı?...

**1995 il yanvarın 15-də Ulu Öndər Heydər Əliyevin Sərəncamı ilə qəhrəmancasına həlak olmuş Aydın Mahmud oğlu Manerov “Azərbaycanın Bayrağı” Ordeni ilə təltif edildi.**

Təqdimat mərasimindən qayıdarkən Orden əlində mürgüləyən Gülarənin gözləri önündə birdən Aydının vuruşduğu döyüş meydanı canlandı. Aydın, Aydın, deyib nə qədər onu cağırsa da, güllə səsindən heç nə eşidilmirdi. Gülarə onun ardınca qaçdıqca, Aydın bir o qədər də ondan uzaqlaşırdı. Birdən Gülarə Aydını yaşıl çəmənlikdə gördü. Quşlar cəh-cəh vururdu. Mələklərin müşayiətilə gələn Aydını görən Gülarə ordeni onun sinəsinə taxıb, şükür ilahi, səni sevindirə bildim, deyən anda, Aydın yox olur...

Gülarə yuxudan ayılanda bunun bir röya olduğunu anlasa da, Aydını cənnətdə gördüyünə sevinirdi. Bəli, Aydın bir cənnət quşu idi, cənnətdə də olmalı idi. Belə düşünürdü Gülarə.

... Bölüyün üç tərəfdən düşmən atəşinə tutulması Aydını çox narahat edirdi. Deməli ermənininin qarşısı hələ alınmayıb.

Yuxusunu danışdığı yuxuyozanın cavabı onu qane etsə də ürəyində bir təlaş var idi.

O,- qızım, bir az möhkəm ol. İnşaallah Aydın qələbə ilə qayıdar, desə də, yaxınlarına Aydının salamat qayıtmasının böyük sual altında olduğunu söyləmişdi.

Bu, əhvalat Aydın Manerovun həlak olacağı ərəfəyə təsadüf edirdi.

Gülarə xanım bu gün də 776 saylı hərbi hissənin komandiri H.Əsədovun təşəkkür məktubunu təkrar-təkrar oxumaqdan usanmayır, elə bil dərdi azacıq da olsa yüngülləşirdi:

“Azərbaycanın igid oğlu Aydın Manerov ilk gündən bacarıqlı və səriştəli bir zabit kimi tanınaraq, bütün tapşırıqları canla-başla yerinə yetirmişdir. O, ən çətin bir vəzifənin öhdəsindən gələ bilən kəşfiyyatçı idi. Dəfələrlə kəşfiyyatdan lazımı məlumatlarla geri qayıtmışdı. Döyüşçülər arasında nümunəvi döyüşçü, vətənpərvər, cəsur, qorxmaz komandir kimi hörmət qazanıb, Vaqauz, Zarışlı, Qozlu, Marquşevan yaşayış məntəqələrinin yağı tapdağı altından azad olunmasında göstərdiyi qəhrəmanlıqla Vətənin əsl oğlu olduğunu sübuta yetirə bilmişdi.

1994-cü il yanvarın 29-da Ağdərənin Gödəkburun yüksəkliyi uğrunda gedən döyüşlərdə ön cərgədə olan Qartal – Aydın Manerov düşmənə göz açmağa imkan vermirdi. O komandirlik səriştəsini bir daha nümayiş etdirərək yaralı əsgərləri mühasirədən uzaqlaşdırıb, təkbətək düşmənlə üz-üzə dayanmışdı. Yenidən aparıcılıq məharətini yerinə yetirərkən, çox təəssüflər olsun ki, düşmən gülləsinə tuş gəldi. Bu onun sonuncu əməliyyatı oldu.”

Gülarə xanım- mərd qadın, Aydının döyüşdüyü yerləri gəzərkən nələr çəkdiyini təsəvvür etmək çətin olsa da, barəsində eşitdiklərindən yorulmur, bütün bunların şahidi olan Kərim kişidən Aydın haqqında hər şeyi eşidib,bilmək istəyirdi.

Kərimdayı kimi tanınan döyüş yoldaşı Aydınla ilk görüşünü belə xatırlayır:

"İlk gündən sakit təbiətli, dinləməyi daha çox sevən Aydın Manerov, işgüzarlığı ilə məni özünə cəlb etdi. Güclü təşkilatçılıq qabiliyyətinə malik idi. Şirin zarafatları bir an döyüşdə olduğumuzu bizə unutdururdu. İşinə çox məsuliyyətlə yanaşırdı. Hər hansı bir məsələni müzakirə etməmişdən əvvəl onu beyninin süzgəcindən keçirib, hər incəliklərinə qədər ölçüb-biçirdi. Onda vətənə bağlılıq, milli hisslər çox güclü idi. Qəlbi vətən eşqi ilə alovlanırdı, ürəyində vətənin dərd yükünü daşıyırdı. O, vətənə bağlılıqdan danışarkən deyirdi ki, qoyma xaldan xal olmadığı kimi, sözlə də vətənə məhəbbəti bildirmək mümkün deyil. Yığıncaqlarda hələ çox-çox illər öncə Azərbaycanın tarixinin təhrif olunması haqda çıxışlar edir, xalqımızın qədim mədəniyyətindən, adət-ənənələrindən məlumatları ürək yanğısı ilə danışırdı.

O, deyirdi ki, yeraltı və yerüstü sərvətlərimiz talan olundu. Kommunistlər dövründə xalqımız ruslaşma siyasətilə üzləşdi. Müqəddəs yerlər dağıdıldı, Məscidlər bağlandı. Əli Quranlı din xadimləri güllələndi. Moskvanın dirijorluğu ilə tariximiz kiçik bir kitabçaya yerləşdirildi.

Kommunist diktaturası darmadağın edildikdən sonra yenidən müstəqilliyimizi əldə etdik, üçrəngli bayrağımız dalğalandı. M.Rəsulzadənin ölməz kəlamı öz yerini tapdı: "Bir kərə yüksələn bayraq bir daha enməz"! Çünki Azərbaycan ulu Tanrının nəzarəti altındadır. Əsas məsələ cihaddır. Biz heç kimə təcavüz etmirik, doğma torpaqlarımızı işğaldan azad etmək uğrunda mübarizə

aparırıq. Peyğəmbərimiz Məhəmməd (s.ə.v.) də buyurub ki, vətəni sevmək imandandır."

Kərimdayı Aydının şücaətindən danışdıqca Gülarənin qüruru artır və düşünürdü ki, Aydının dərdi -vətənə olan eşq idi. O, inanırdı ki, onun Aydını məhz belə də olmalı idi.

**Qartal- Aydın Manerovun göstərdiyi bu şücaət və igidlik Azərbaycanın bütün oğulları üçün örnək idi.**

İlahi insana verdiyi ömrü istədiyi zamanda da alır. Bu həqiqəti dərk edən heç vaxt ölümdən qorxmaz deyə, düşünən Aydın – "İgid oğullar- haydı, irəli!"- komandasını verəndə Gülarə xanım belə bir yuxu görmüşdü:

"...Aydın köməyin gecikdiyini görür, sürsatlardan qənaətlə istifadə edirdi. Onun başçılıq etdiyi döyüş bölüyü nərə çəkərək düşmən üzərinə yeriyirdi. Tərtərin uğrunda gedən Gödəkburun döyüşündə Aydının komandası tək qalıb. Müdafiə postlarının boşaldığını gördükcə onlarla bir yerdə yürüşə qoşulur."

Gülarə sonradan biləcək ki, düşmənin gücü çoxaldıqca, onlar köməksiz qalır.

Gülarə xanım Aydının döyüş nöqtələrini qarış-qarış gəzdi, ayağı dəyən yerlərə ləpirlərini saldı. Ağı deyib ağladı, sızladı. Amma Aydınının nə bir nişanəsi, nə də cəsədi tapılmadı.

Deyirlər ki, döyüşlərdə həlak olan döyüşçülərin gözləri açıq qalır. Düşüncələrdən ayrılan Gülarəni də bu sual maraqlandırırdı – həyatdan doymayan Aydın şəhid olarkən, gözləri qapanmışdımı?

İndi Gülarə xanım həyat yoldaşı haqqında danışılanların çoxunu eşitmirdi. Çünki qulaqları kar olmuş, ağlamaqdan gözləri tutulmuşdu. Amma onun qarşısında çətin bir məsələ dayanırdı. O, uşaqları Aydınsız böyütməli olacaq.

Hərbi hissənin komandiri polkovnik -leytenant E.Ağayev, Hərbi hissənin birinci müavini -polkun bölük komandir müavini Aydın Mahmud oğlu Manerova "Milli Qəhrəman" adının verilməsi üçün belə bir təqdimat imzalamışdı:

"Kiçik leytenant Aydın Mahmud oğlu Manerov, Azərbaycan ordusunun yarandığı ilk gündən 1994-cü il yanvarın 29-dək ordu sıralarında mənalı döyüş yolu keçmişdir. Xidməti dövründə Ağdam, Laçın, Füzuli, Marquşevan və digər yaşayış məntəqələrinin düşmənlərdən təmizlənməsində döyüş bölgələrində qrup komandiri kimi xüsusi fərqlənərək, düşmənə sarsıdıcı zərbələr endirməklə yanaşı onun canlı qüvvəsini də məhv etmişdir.

1994-cü il yanvarın 29-da Aydın Manerov "Gödəkburun" yüksəkliyi uğrunda döyüşlərdə düşmənə zərbələr endirərkən yaralandığına baxmayaraq, yaralı əsgərləri mühasirədən çıxarıb, düşmənlə üz-üzə qalarkən qəhrəmancasına həlak olub".

**Vətənin bütövlüyü uğrunda canını əsirgəməyən Aydın Manerov- yurd sevərlərin qəlbində hər zaman qəhrəman bir komandir kimi yaşayır və yaşayacaq!**

Onunla çiyin-çiyinə döyüşən gizir Rasim Əliyevin söylədiklərindən:

– "Biz dörd post dağıtmışdıq. Amma bu uğuru əldə çox saxlaya bilmədik. Düşmən bizi üç tərəfdən gözlənilmədən mühasirəyə almışdı. Geri çəkilməyə əmr gəlməsinə baxmayaraq, biz Manerovun qərarına əsasən sol tərəfə çəkilirdik. Amma təəssüf ki, 26 yaralı əsgəri xilas etsək də, Aydının cəsədini götürə bilmədik. Sıravi Məstalı Əliyev ağlaya-ağlaya onun cəsədini aşağı endirməyə çalışsa da, sağ tərəfdən bizi düşmənin aramsız atəşə tutduğu zirehli texnikası 5 döyüşçü əsgərin və cəsur Aydın Manerovun cəsədini götürməyə imkan vermədi".

Hə, indi müraciətim oxucuyadır!

Yadınızdadırsa, Aydın oğlunun hərbiçi olacağını arzulamışdı.

Mansur Ali Aviasiya Akademiyasını əla qiymətlərlə bitirəndə ana sevincinin həddi-hüdudu yox idi. Bu gün Mansur Aydın oğlu Manerov Prezidentin Xüsusi Dövlət Mühafizə Xidmətində qulluq edir.

Axı hər hansı bir arzu həyata keçəndə deyirlər ki, niyyət çin oldu. Mən də deyirəm: -Aydın, arzun çin oldu.

Bu şərhi də nəzərinizə çatdırmağı borc bilirəm:

1965-ci il Yanvarın 20-də Aydın, ondan bir-iki il öncə Yanvarın 2-də Gülarə anadan olub. 1984-cü il Yanvarın 5-də Aydın və Gülarə ailə həyatı qurub, Yanvar ayında Aydın döyüşə gedib, Yanvarın 29-da 1994-ci ildə şəhid olub. 1995-ci il Yanvarın 15-də Aydın Manerov "Azərbaycan Bayrağı" Ordeni ilə təltif olunub.

Gülarə xanım hər iki övladını boya başa çatdırdı. Ali təhsilli Günel qızı xoşbəxt ailə həyatı qurdu, gələcəyin üç zabit anasıdır.

İnanıram ki, bu müvəffəqiyyətlərə, sevinclərə Aydın da qoşulur. Gülarə xanım, yanvar ayı səni bir daha qorxutmasın!

**P.S.** *2015-ci ildə Bakının 245 saylı orta məktəbində Aydın Manerovun qəhrəmanlığına həsr edilmiş tədbirdə Gülarə xanımın övladları və nəvələrilə görüşdüm. Çıxış edən Gülarə xanımın titrək səsilə yada saldığı xatirələr məni bu yazıya yönəltdi.*

*Gülarə xanım başını uca tut! Dərs verdiyin ali məktəb tələbələri bu tarixi daha yaxşı bilməlidirlər. Çünki onlar Aydın Manerovun canlı əfsanəsini, Aydını daima qəlblərdə yaşadan Gülarə xanımı görür və eşidirlər.*

*Gülarə xanım,Vətən sağ olsun! Başın sağ olsun!*

*Ölüm sonsuz dinclik, misilsiz sükut, dərin bir yuxudur. Yaşamağa son qoyan, həyatın atəşini və susuzluğunu söndürən* ***bulaqdır.*** *Şəhidlər xiyabanı fəryad çəkən ruhların cəmləşdiyi*

*yerdir. Ziyarətçilər onların məzarını qırmızı qərənfillərlə bəzəyir, dinməzçə ötüb, keçirlər. Amma şəhidlərin bu fəryadını heç birimiz eşitmirik. Onlar sanki deyir:*

*- "Ey insanlar, bizləri döyüş meydanlarında axtarın! Bədənimizin param-parça olan hər bir tikəsi Kəlbəcərdə, Şuşada, Laçında, Xocalıda, Ağdamda, Füzulidə, Cəbrayılda, Qubadlıda, Zəngilandadır. Düşmənləri məhv edin ki, ruhumuzu tapdalamasınlar..."*

*Bu esseni yazarkən, sanki bütün olub-keçənləri mən də yaşadım. Gülarə xanıma tövsiyyəm bu olacaq:*

*-Bilin ki, Aydın bütün Azərbaycanın  övladıdır. Sizin dərdinizə şərik oluruq. İnanırıq ki, ərazi bütövlüyümüz hökmən bərpa olunacaq! Şəhidlər heç vaxt ölmür! Onlar bizlərdən çox –çox uca zirvədədirlər! Onların ruhları qarşısında baş əyirik.*

***Döyüşqabağı  Azərbaycanı səyahətə çıxan Aydın Manerovun da yuxusu çin olmuşdu. O, çoxlarına nəsib olmayan zirvədən keçdiyi döyüş yollarına baxır. Həsrətlə Şuşanı, Laçını, Kəlbəcəri seyr edir. Onun da qəlbi narahatdır. Son sözündə: - Komandir, toyuma gələcəksənmi? - deyən, bu dünya ilə vidalaşan sıravi Elman Cəfərov da küskün dayanmışdır. Sanki bildirmək istəyir ki, Şəhid qardaşlarının ruhları səksəkədə, torpaqlarımız tapdaq altında ikən, toy haqqında fikirləşməkmi olar?...***

*Hər gün bu fəryadı yaşayan Gülarə xanıma bütün qadınlar adından təşəkkür edib, torpaq uğrunda şəhid olanlara deyirəm:**-***

***yaxın Qələbəyədək!!!***

*Yazını tamamlayarkən Türkiyədə idim. Oğlum Samiri çox ciddi və çətin cərrahi əməliyyat gözləyirdi. Ətrafımdakıları Aydın və Gülarə cütlüyü tarixi ilə tanış etdikcə, Aydın Manerov haqqında düşüncələrim sanki mənə güc veirirdi. Sanki mənə dikilmiş mənalı baxışlardan duydum ki, ürəyimdən keçənləri oxucuya da çatdıra biləcəyəm.*

*Bu gün sevincimin həddi-hüdudu yoxdur. Oğlum Samirimi həyata qaytara bildim. Çəkdiyim iztirablara son qoydum. Bu gücü Aydın və Gülarə cütlüyündən aldım.*

*Bakı-Türkiyə-Bakı. Fevral 2016*

## RƏSMİ ABDULLAYEV

Xalq üçün xeyirxah işlər görmüş mesenat, həqiqi mülki müşavir Hacı Zeynalabdin Tağıyev Bakı, Naxçıvan və Lənkəran qəzalarında müsəlman qızları üçün Şərq məktəbinin açılmasına küllü miqdarda vəsait xərcləmişdir.

H.Z.Tağıyevin təsisçiliyilə yaranmış Bakı Mexaniki və Texniki-İnşaat Peşə Məktəbi o zamanlar əlamətdar bir hadisə kimi qarşılanmışdı. Sonradan məhz bu məktəbin bazasında Azərbaycan Neft və Kimya İnstitutu- indiki Neft Akademiyası yaradılıb.

H.Z.Tağıyev ikinci nigahını Sofya xanım ilə bağlamışdı.

Bu nigahdan onların beş övladı- Məmmədtağı, Məmmədkazım, Züleyxa, Sara və Sürəyya olur.

Sofyanın atası bir neçə müharibənin iştirakçısı olmuş Zadəgan əsilli General rütbəli Balakişi bəy Ərəblinski olub.

H.Z.Tağıyevin qızı Sürəyya xanım 1917-ci ildə qız rus-müsəlman məktəbini bitirərək mükəmməl təhsil almışdı. Taleyi çox keşməkeşli olub. Musiqiyə və həkimliyə çox həvəsli idi. Lakin repressiya illərində atası və həyat yoldaşı “xalq düşməni” hesab edildiyindən,Sürəyya xanım Tibb İnstitutuna və eləcə də Konservatoriyaya ancaq kənardan həsrətlə baxıb.

Sürəyya xanımın Əsədulla bəy ilə evliliklərindən iki övladı - Dilarə və Rəsmi dünyaya gəlir. Əsədulla bəy Hacıbala oğlu Abdullayev 1914-cü ildə Peterburq Memarlıq Mühəndislər İnstitutunu bitirmiş, Dərbənd və Kislovodski şəhərlərində İnşaatçı - mühəndis vəzifələrində çalışmışdır.

İki uşaq anası olan Sürəyya xanım Tağıyeva – Abdullayeva 1940-cı illərin əvvəllərində həkimlik oxumaq arzusuna çatır.

Dilarə də anası kimi Tibb İnstitutunu bitirir və uzun müddət Mərkəzi Dənizçilər xəstəxanasında işləyir.

1937-ci ildə repressiya qurbanı olmuş Əsədulla bəy Abdullayev Rusiyanın Voljski şəhərinə sürgün olunur. Varidatı, evi müsadirə olunmuş ailə kiçik bir otaqda məskunlaşmağa məcbur olur.

Rəsmi Əsədulla bəy oğlu Abdullayev 7.11.1924-cü ildə dünyaya göz açıb. H.Z.Tağıyev bu sevinci vəfatına 1 ay qalmış yaşayıb. Rəsmi 1944-cü ildə Azərbaycan Sənaye İnstitutunun geoloji-kəşfiyyat fakultəsində təhsil alarkən, müstəqil olaraq "Əks qodoqlarına görə orta sürətin hesablanmasının yeni üsulu"nu hazırlayır və bu sahədə diplom işini də əla qiymətlə müdafiə edir.

Atasının repressiya qurbanı olduğuna baxmayaraq Rəsmi Abdullayev təhsildə yüksək nəticələrinə görə Stalin təqaüdü alıb.

1949-cu ildə Qubkin adına Moskva Neft İnstitutunun geofiziki -kəşfiyyat metodları kafedrasının aspirantı olduğu müddətdə o, İ.S.Berzon, N.N.Puzizyov, İ.İ. Qurviş kimi məşhur geofizika alimlərilə ünsiyyətdə olub.

1950-ci illərin əvvəllərində Azərbaycanda geofizika elmi ən nüfuzlu bir elm sahəsinə çevrilir.

1954-cü ildə Moskvada Rəsmi Abdullayev geofizika ixtisası üzrə geologiya- minerologiya elmləri namizədi adına yiyələnir. Bakıda institutda baş müəllim, sonra isə dosent işləyir. Onun 70-dən artıq elmi məqalələri olub.

Rəsmi Abdullayevin geoloji-geofiziki materiallarının təhlili əsasında "Azərbaycanın Xəzəryanı neft-qaz rayonlarının geoloji-geofiziki xarakteristikası" adlı monoqrafiyası həyata vəsiqə alır.

1973-cü ildə doktorluq dissertasiyasını müdafiə edir. 1975-ci ildə ona "Geofiziki-kəşfiyyat metodları" kafedrasının professoru adı verilir. Onun çoxsaylı tələbə

və aspirantları isə öz növbəsində elmin inkişafı üçün bu işləri davam edirdilər.

O, nəinki mühəndis-geofiziklər, eyni zamanda seysmik kəşfiyyat sahəsində elmi kadrlar hazırlayıb. Onun rəhbərliyi altında Banqladeş, Vyetnam, Konqo vətəndaşları olan 16 aspirant elmlər namizədi olmaq üçün dissertasiya müdafiə etmiş və eyni zamanda Fransadan, Çindən olan mühəndis-geofiziklər təcrübə keçmişlər.

Bütün ömrünü elmin bu çətin sahəsinə yönəldən Rəsmi Abdullayev - mesenat-xeyriyyəçi H.Z.Tağıyevin nəvəsi, qarşısına çıxan bütün çətinlikləri dəf edərək, tarixdə sirrli neftin alimi kimi iz qoyub. Onun yaratdığı məktəb bu gün də yaşayır.

Rəsmi Abdullayevin tələbələrindən biri olan Tel-Əviv professoru Lev Ennelbaum xatirələrində yazır:

-“Rəsmi Abdullayevin çox fotogenik görünüşü var idi. Görünüşündən alimlik və zadəganlıq yağan bu insanı hər dəfə görəndə, o, mənə Amerikanın “Arxaya, gələcəyə” filmindəki professor-kəşfiyyatçı rolunu oynayan aktyoru – rusiyalı Aleksey Batalovu xatırladırdı.

Bu insanın simasında sanki “elmin yaradıcısı” möhürü vurulmuşdur. Yadımdadır, biz tələbə ikən hələ çox gənc olan Rəsmi Abdullayevin iş yoldaşları portfelinə ümumi çəkisi 3-4 kq. olan bir neçə seysqəbuledici qoyur və nəticəni izləyirlər. Sözün əsl mənasında –elmin içində olan gənc alim portfelində heş bir ağırlıq hiss etmədən, əhvalatdan təxminən 2 həftədən sonra bu zarafatdan xəbər tutur. Rəsmi Abdullayev görkəmli şəxsiyyətlərin nəslindən olmasına baxmayaraq, seysmik kəşfiyyatın müasir klassiki sayılan B.Y.Qelşinski – Tel-Əviv Universitetinin professoru, keçmişdə fərqlənən “ən yaxşı seysmik” onluğun siyahısında Rəsmi Abdullayevin adını çəkib.”

Onun haqqında deyilənlər: “O, saf su tək ziyalı idi... İnsan qəlbini oxuya bilən olub... Nə qədər tələbkar olsa da, bir o qədər də hövsələli idi... Onun Azərbaycandan olduğunu bilib deyirəm ki, bir ölkədə ki, torpaq belə insanlar yetişdirir, mütləq yağı düşmənlərə qalib gələcəksiz... Siz Azərbaycan geofizikasının patriarxısız ...”

**P.S.** *Alim-kəşfiyyatçı Rəsmi Əsədulla oğlu Abdullayev haqqında bu həqiqətləri nəzərə çatdırmağı vacib bildim.*

*Rəsmi Abdullayevin 90 illiyi münasibətilə: 2014-cü ildə həyat yoldaşı Səidə xanım Mirizadə-Abdullayeva “Alimin həyat yolu, Ailə, İrs və Xatirələr” başlığı altında buklet çap etdirib. Bukletdə ailə fotoları, akademik və professorlarla görüşü, buraxılış venetkası, xarici tələbələrilə görüşləri diqqət cəlb etdiyi üçün haqqındakı yazıları sizlərlə bölüşməyə qərar verdim.*

*Bukletdə yaranan nəsl ağacı- H.Z.Tağıyev ilə həyat yoldaşı Sona xanımın, qızları Süreyya xanımın, oğlu və nəhayət gəlini Səidə xanımın həyat yoldışının elmdə qazandığı çətin yolu işıqlandırması neçə-neçə ruhların şad olmasına səbəb oldu.*

*Gəlin olduğu ocağın sönmüş işığını yandırıb, şəffaflığını ətrafa yaya bilən, qaynanası Sürəyya xanımın həyatından kiçik şərhlər verərək onun böyüklüyünü, gücünü və mübarizliyini yaddaşlara salan Səidə xanıma eşq olsun!*

***Səidə xanımım gözünün ağı-qarası saydığı övladı Nazim Rəsmi oğlu Abdullayev xaricdə yaşayır və çalışır. O, hər il sentyabrın 1-də Bakıya gəlib, ulu babası H.Z.Tağıyevin doğum gününün qeyd olunması tədbirinə qatılır.***

***Səidə xanım fəlsəfə elmləri doktoru bu gün AMEA-nın Geoloji axtarışlar institutunda elmi işçi kimi fəaliyyətini davam etdirir.***

## ADİL BABAYEV

***Ölüm! Ondan uzaq dolan! Axı o, çox cavandır***

Allah-Taala insanları yer üzünə göndərəndə iki şərti əsas götürüb: Allaha ibadəti və insanlara xidməti. Əslində vəfasızlığı elə insanlar özləri edir.

Adil Qafar oğlu Babayev dünyanın ən böyük səadətini içi azad insanlarla ünsiyyətdə tapdı.

Şair, nə incədir rubabın sənin,
Uçurdu ruhumu çaldığın bu saz.

Xalq şairi S. Vurğunun Adil Babayevə həsr etdiyi bu şeir çoxlarını heyrətə salmışdı. Atası repressiya qurbanı olmuş bir oğula şeir həsr etmək böyük hünər tələb edirdi.

Bəlkə də S.Vurğun hiss edirdi ki, qısa ömür sürəcək Adil Babayev Azərbaycan ədəbiyyatında özünəməxsus

yer tutacaq. Heç kəs bilməyəcək ki, vaxtsız ölümünün səbəbi həyatdan aldığı zərbələr oldu.

Şair, dramaturq, teatrşünas, tərcüməçi, mətbuat xadimi – lap Nəsiminin şerinin yeridir deyə, məndə sığar iki çahan, mən bu cahana sığmazam. Böylə cahan bir vücudda?!

Adil Babayev həqiqətən bu cahana sığa bilmədi. Onun şeirlərinə bəstələnmiş mahnılar, efirdə səslənən şeirləri, televiziyada apardığı veriliş - "Poeziya axşamları", bütün bunlar onun yaradıcılığında bir pleyada yaratdı, çox ürəklərə yol tapdı. Onun sənət yaradıcılarından yazdığı monoqrafiyaları elmi ədəbiyyatın yaranmasının təməli oldu.

Hüseyn Abbaszadə, Turan Cavid, İsaq İbrahimov kimi məşhurlarla bir yerdə təhsil almış Adil Babayev, dünyanın ən böyük səadətini içi azad insanlarla ünsiyyətdə tapırdı.

**O, dostlarından birinə ürəyini açaraq demişdi: Deyirlər ki, mən təpərsiz görünürəm. Guya zahirim daxili cəsarətimi üstələyib. Niyə biz dövlətliləri, qüvvətli və zabitəli insanları "Sahibi-Zaman" bilirik. Əslində insanın gücü və qüdrəti nədədir? Bunu biz düşünməyirik.**

Adil Babayev mühakimə olunmayıb, həbs edilməyib. Amma ömür payının yarıdan çoxunu, uşaqlığını bütövlükdə məhrumiyyətlər içində keçirib. İki aylıq ikən atasını itirib, o zaman dəbdə olan, dəhşətli bir kabus kimi qapıları bağlayan "xalq düşməni" damğası ilə. Çox sonralar Adil Babayev atasına həsr etdiyi şerində yazacaq:

Anam nağıl deyən zaman
Gözlərimə atam gəlib,
Şeir yazıb, söz qoşmuşam,
Sözlərimə atam gəlib.

Adil Babayev deyirdi ki, şairlik təkcə şeir yazmaq deyil. Sənət o zaman sənət olur ki, onun estetik və mənəvi problemləri poetik təfəkkürlə dərk edilsin. Şair, psixologiyasında və təsəvvüründə südəmər körpəyə bənzəyən insandır. Yüz il yaşayanda belə, nə böyüklükdə körpəliyi, nə də körpəlikdə böyüklüyü duymaq olmayır. Sənətkar qadınların üstünlüyü ondadır ki, onlar qəlbin bolluğunu yaratmaq üçün çırpınırlar, amma biz kişilər özümüzü təsdiq etmək üçün vurnuxuruq.

Bəxtiyar Vahabzadə yazdığı məqalədə onun tarixi hadisələrə müasir gözlə baxdığını vurğulayıb. O zaman ədəbi gənclik içərisində Adil Babayev zəngin mütaliəsilə seçilirdi. Rus dilini yaxşı bildiyindən qərb ədəbiyyatı ilə yaxından tanış idi. Bu mütaliə onun dünyagörüşünü zənginləşdirərək, dünya ədəbiyyatının gözəl incilərini dilimizə çevirməsinə böyük köməyi olmuşdur.

Adil Babayevi "Məhəbbətin nəğməkarı" adlandırıblar. O, ömrünün keşməkeşli yollarında dayandığı nurlu zirvədən çox aydın görünüb. Şeirlərində yetim qalması, acılara, yad və qəribə baxışlara dözməsi, alçaqlara nifrəti duyulur.

Ayrı-ayrı mövzularda yazdığı şeirlərində şairin qəlbinə hakim olan bir duyğu, bir iradə, ilham hiss edilir. Amma sonet formasında yazdığı şeirlərində isə şair daxili hiss və həyəcan-larını ön plana çəkir.

Adil Babayevin gənclik illərində yazdığı şeirlərində həyat yolunda çəkdiyi əzablar,işkəncələr və arzular hiss edilir. Görünür onu gəncliyin mənasını baharla yanaşı yazmağa məcbur edən də bu olub.

O, 21 yaşında Azərbaycan Yazıçılar İttifaqına üzv qəbul edilib.

Şair bir axşamüstü parkda bir dəstə solmuş yasəmən görür və düşünür ki, sahibinin məhəbbəti daşa dəyib. Çiçəklərin sahibinin məhəbbətinin daşa dəydiyini təsəvvür

edir, ürəyi sıxılır. Şerin məzmununu asanlıqla yazıya çevirir və sonda “Biri küsür, biri sevir. Bəs gülün günahı nədir?”- misralarını yazır.

Adil Babayev 1925-ci ildə Naxçıvanda anadan olub, orta və ali məktəbdə Tiflis şəhərində təhsil alıb. Ədəbiyyat sahəsində aldığı təhsili davam etmək məqsədilə Bakıda davam eedib, Teatrşünas ixtisasına yiyələnir. Elmlər Akademiyasının İncəsənət İnstitutunun aspiranturasında ixtisasını bir daha təkmilləşdirir.

O, mətbuat orqanlarında redaktor, ədəbi işçi, tənqid şöbəsinin müdiri, tərcüməçi və Azərbaycan Dövlət nəşriyyatında bədii ədəbiyyat şöbəsinin redaktoru, Azərbaycan Dövlət Dram Teatrında ədəbi hissə müdiri kimi çalışıb.

1971-ci ildən qısa ömrünün sonunadək Azərbaycan Yazıçılar İttifaqında bədii tərcümə üzrə məsləhətçi olub.

Şair bütün ömrünü şeirə həsr etmiş, ədəbiyyatla yaşamışdır. O, qırılmaz tellərlə torpağına bağlı, yurduna heyran olub. Çox sonetlərində - Mən torpaq övladıyam - misraları elə belə yaranmayıb. Sonetlərinin çoxunda onun milli ədəbi inkişafında özünə məxsusluğu hiss edilir.O, hər zaman insanın Vətən məhəbbətini, xeyirxah arzularını, xalqa layiqli olmaq niyyətini ictimai ideallarla vəhdətdə tərənnüm etməyi ustalıqla bacarıb.

Həsrətində olduğu ata-ana məhəbbəti, övlad sevinci, ata narahatlığı və intizar notlara çevrilərək onun şeirlərində yer tutur. Düşünmək olar ki, o, bu yolla insanlara həyatın mahiyyəti haqqında düşünməyə mesaj göndərib.

İncəsənət istedadları haqqında monoqrafiyalarını oxuyarkən qarşında sanki hadisəni canlı görürsən. Bütün bu tədqiqat obyektinin hərtərəfli açılması üçün illərlə müşahidələr aparmışdır Adil Babayev.

Onun yaradıcılığı ancaq ədəbiyyat və səhnə ilə deyil, zəhmətin tərənnümü ilə də bağlı olub. Təzə biçilib-

döyülmüş taxılın yığıldığı anbarların yanından hər kəs keçibsə, yəqin ki, onun xoş ətrindən bihuş olub, taxıl döyülən zaman hər kəs xırmanda olubsa, qızmar yay günəşinin yandırdığı sifətlərdəki fərəh və qürur ifadəsi yadda qalır.

Bunları təsəvvür edən, təbiəti sevən hər bir oxucu Adil Babayevin yaradıcılığına bu gün də baş əyir.

Adil Babayevin həyatının keşməkeşli, narahat olması uşaqlıqdan gələn streslərin nəticəsidir.

Şairin rəssam Bəhruz Kəngərliyə həsr etdiyi şeiri ilə sizlərə müraciət edərək, deyirəm:

-"Ölüm! Ondan uzaq dolan! Axı o, çox cavandır."

Yaradıcılığı ilə yaddaşlarda "Daş kitabələr" yaratmış Adil Babayev, 1977-ci ildə - 52 yaşında haqq dünyasına qovuşub.

Həyatdan tez getməsinə baxmayaraq, onun bir insan ömrünə yaraşıq verə biləcək ədəbi irsi bu gün də yaşamaqdadır.

Adil Babayevin oğlu Etibar Babayev mədəni davranışı, xüsusi tərbiyəsi və ədəbiyyata meyilliyilə diqqətimi çoxdan cəlb edib. Onun çıxışlarını hər zaman çox həvəslə dinləyirəm. Düşünürəm ki, çoxları da bu fikrimlə razılaşacaq.

Onun ata adını yüksək tutaraq, bu gün sənət aləmindən, efirlərdən və xüsusi tədbirlərdən gələn səsi də atasının davamçısıdır – deməyə haqq verir.

## LƏNKƏRANLI İLK MÜHƏNDİS

O zaman azərbaycanlının respublikadan kənarda savad alması nadir hadisə sayıldığı bir vaxtda Lənkəranda

fərdi evlərin əksəriyyətinin layihəsini işləyən yerli sakin Qüdrət Səmədzadə ilk olaraq mühəndis ixtisasına yiyələnib.

Çətin vaxtlar idi. Atası Muxtar kişi savadsız olsa da, hər zaman onun qulağına “oxuyurdu” ki, Qurani- Kərimdə də deyilir- oxumaq üçün lazım gələrsə, Çinə də getmək olar. Görünür bu hisslər Muxtar kişinin ömrü boyu savadsızlığın yükünü daşıdığından irəli gəlirdi. Övladlarını savadlı, təhsilli görmək üçün çox əziyyət çəkib. Muxtar kişi dövrünün uzaqgörən, mütərəqqi fikirli tacirlərindən olub. Məktəblərin yay tətilində oğlanlarının rus dilini yaxşı bilmələri üçün xüsusi müəllim tutardı. Belə bir dövrdə oxumaq çətin də olsa, sovetin qanunlarına əsasən hər bir gənc təhsilə yiyələnməli idi. Bu şüar sanki proqram şəklini almışdı.

Qəhrəman Səmədzadə tarixi hadisələrin şahidi olan atasını canlı arxiv adlandırırdı. Atasının söylədiklərindən yadında qalmışdı ki, xeyriyyəçi Hacı Zeynalabdin Tağıyevin böyük oğlunun Lənkəranlılar tərəfindən öldürülməsi faktı uydurmadır. Sonradan bu haqda televiziya verilişinə baxarkən Qəhrəman atasının haqlı olduğunu bir daha təsdiqləyərək deyir ki, Hacının oğlu bəxtini sınamaq üçün tapançanı gicgahına dirəyib, təsadüfən açılan atəşin sonu ölümlə nəticələnib.

Lənkəran şəhərində fərdi evlərin əksəriyyətinin layihəsini işləmiş peşəkar mühəndis, mənəviyyatı maddiyyatdan üstün tutan Qüdrət Səmədzadənin adı bu gün də hörmətlə çəkilir. O, heç vaxt haram çörəyə əl uzatmayıb, tikəsini bölən olub. Evə gələndə əgər xörəyin iyi onu vururdusa, qonşu payı göndərməmiş, masa arxasına keçməzdi. Həyat yoldaşı Zümrüd xanım narazı olsa da,ailədə Qüdrət kişinin dediyi qanun idi. Zümrüd xanım giley edəndə ki, qonşular da çox şey yeyir, biz bilirik ki?

Onda Qüdrət kişi başını bulayaraq deyərdi:- Arvadağa, bu gün kimin qazanı qaynayırsa, ən xoşbəxt adamdır. Payladıqca, sevinc kimi, ruzu da şoxalır. Hə, atalar bunu nahaqdan deməyiblər. Birdə ki, ay mənim evimin ağası ürəyin geniş olsun, sabah iki qat artacaq ruzun.

23 yaşlı Qüdrət Tikinti Texnikumunu bitirməklə kifayətlənməyib, 1933-cü ildə Moskvanın Bauman adına Ali məktəbinə qəbul olanda, bütün Lənkəran əhalisi sevinirdi. Vaxtında ona kafi qiymət yazan müəllimi isə bu dəfə sevincindən şoka düşmüşdü.O zaman təhsil almaq üçün Azərbaycandan kənara çıxan hər bir gənc rəhbərlik səviyyəsində diqqətdə saxlanılır və qayğı ilə əhatə olunurdu. Maddi və mənəvi dəstək alan hər bir gənc də Vətənə lazımlı mütəxəssis kimi yetişmək üçün çalışır, məsuliyyətlə təhsilini başa vururdu.

1934-cü ildə Azərbaycanın Birinci Katibi Mircəfər Bağırov Moskvada təhsil alan üç gənc ilə görüşüb, söhbət əsnasında Qüdrətin soyadının axırını vurğulayıb, niyə məhz “zadəsən”, deyə soruşur? Qüdrət bu sualın qarşısında aciz qalıb, susur. Bu vaxtadək Səmədzadə soyadı ilə fəxr edən Qüdrətin “zadə” sonluğu başına bəla açır, ona tələbə təqaüdünün verilməsinə son qoyur.

1939-cu ildə SSRİ-Finlandiya müharibəsinə qatılan Qüdrət orduda körpülər üzrə mina axtaran kimi xidmət edir. Qolundan ağır yaralanan Qüdrət ordudan təxis edilib, Vətənə qayıdır. Amma o, belə qayıtmaq istəmirdi. Sona qədər vuruşda iştirak etmək, qələbə marşını dostları ilə birgə oxumaq idi arzusu.

Qüdrət Səmədzadə ömrünün axırınadək Lənkəran, Masallı, Astara, Cəlilabad rayonlarına xidmət edən “Su tikinti” idarəsində mühəndis və baş mühəndis vəzifələrində çalışır. Səksən yaşına qədər işləyərək, dövlətə qulluq edir, amma təqaüd almağı özünə ar bilir. Söhbər əsnasında Qüdrət kişi deyirdi ki, təqaüd dinclikdir, əldən-ayaqdan

düşmüşlərə aiddir. Beyni, ayaqları işləyənə dinclik yaraşmaz!

Qüdrət “Xanbulançay su hövzəsi” tikintisinin fəal iştirakçısı olub. Bu layihəni demək olar ki, bütövlükdə özü işləyib. Gecəsini- gündüzünə qatan Qüdrət layihənin hər bir xırda detallarınadək, hər nöqtə və vergülünə diqqət yetirib, onun başlanğıcını sanki yeni övladın həyata gələcəyi sevinc kimi gözləyib. Layihənin həyata keçdiyi günü isə o, nəzir halvası çaldırıb, hamıya pay göndərmişdi.

Allaha çox inamlı idi. Deyirdi ki, Allahdır mənim şanslı olmağımın səbəbkarı. Onun duaları ilə mən vəzifədən-vəzifəyə addamlamışam. Övladlarına da tövsiyyəsi bu olub ki, başınızın üstündəkinə hər zaman şükr edin. Belə olan yerdə ruzu-bərəkət bol olar. Onun həyatda bir məqsədi olub, insanlara yaxşılıq etmək. Lazımınca yiyələndiyi peşəsi onu Lənkəranın qeyri – rəsmi memarına çevirir. Fərdi ev tikdirənlərin əksəriyyəti ondan məsləhət alır, çox vaxt isə hazır layihələri təmənnasız kiməsə bağışlayırdı. Onun memarlıq fantaziyası bu gün də Lənkəranın fərdi tikililərində özünü göstərir.

Dövlət əmlakına bir ata məhəbbəti bəsləyən Qüdrət, bir dəfə tikintidən qənaət etdiyi iki kiloqram mıxı evinə gətirmişdi. Səhərədək gözlərini yuma bilməyən Qüdrət, yuxusunun ərşəyə çəkildiyinin səbəbini bilərək, ertəsi günü hamıdan tez işə gəlmişdi. Ondan işə erkən gəldiyinin səbəbini soruşanlara Qüdrət- heç kəsin başa düşmədiyi, lakin özünə günah saydığı cümlə ilə cavab vermişdi: -sağ olsun Mıx qardaş!

20 yanvar faciəsi baş verən zaman o demişdi: -Bütün bunların qarşısını almaq üçün bizə Heydər Əliyev lazımdır! Qüdrət bu fikrini heç kimdən qorxmadan və çəkinmədən hər yerdə səsləndirirdi. Sonradan oğlu Qəhrəman atasının

müdrikcəsinə səsləndirdiyi bu fikirləri yadına saldıqca, onun uzaqgörənliyini özlüyündə bir daha sübut etmişdi.

Zümrüd xanım ilə ailə qurarkən, toylarında sözün əsl mənasında söz xiridarı olan Əliağa Vahidin iştirakı önun ömür dəftərinə qızıl həriflərlə yazılmışdı. Bu toyda bir gözəl qıza da vurulduğu hisslərini və Bakıya əliboş qayıtdığını bədahətən qəzəl ilə söyləyən Əliağa Vahidin bütün qəzəllərini əzbər bildiyindən, Qüdrət məhz bu qəzəli o zaman yazıya köçürməmişdi.

Tanrının möcüzələrinə çox inanırdı. Beyni və qəlbi Allah sevgisilə aşıb-daşırdı. İnsan hər zaman rəhimli olmalıdır, deyirdi. O, müharibə illərində dənizdən ləpələrin sahilə atdığı saysız-hesabsız balıqları aclıqdan əzab çəkən insanlara Allahın göndərdiyi möcüzə -ruzu adlandırırdı.

Qüdrət Səmədzadənin övladlarının səsi də uca zirvələrdən gəldi. Onların hər üçü ali savada yiyələnərək, ölkəyə layiqli övlad oldular. İlk övladı Fikrət mühəndis ixtisaslı olub, Lənkəranda daş karxanasında müdir işləyib. Naidə qızı ali savada yiyələnsə də, tələbata əsasən evdar qadın olmağa üstünlük verib.

Həmsöhbətim Qüdrət Səmədzadənin gəlini – oğlu Qəhrəmanın həyat yoldaşı Lalə müəllimə idi. Müəllim və həkim- ixtisasların şahıdır desəm,yanılmaram. Çünki müəllim – gənclərin həyat cığırlarını cızır, həkim isə sağlamlıq rəmzi olub, insanın can sağlığının qoruyucusu olur. Lalə xanım birincilərə aiddir. Lənkəran əhli ona bu gün də Lalə müəllimə deyə, müraciət edir.

O, Xarici Dillər İnstitutunun məzunudur. Uzun illər Lənkəranın 1 saylı opta məktəbində ingilis dilindən dərs verdiyi tələbələrinin sorağı xarici ölkələrdən gəldiyinə bu gün də sevinir. Lalə xanımın bu çətin yolda 30 ili keçib,indi qazandığı istirahətdə, təqaüddədir. Amma düşünməyin ki, o, bu gün oturaq həyat keçirir. Əsla!

Əgər ona zəng edərkən telefonda eşidilirsə, “zənglər çatmayır”, bu isə ildə 5-6 ay davam edir, bilin ki, Lalə xanım xarici ölkələrdə-övladlarının yanındadır. Bundan böyük xoşbəxtlik ola bilərmi? O, vaxtsız dünyasını dəyişmiş həyat yoldaşı Qəhrəmanın yanında olmadığından heyifslənərək deyir ki, yaşamaq şirin olsa da, sanki qanadsız quşam. Bu yaşda həyat yoldaşının yanında olması arxanda uca dağı xatırladır.

Lalə xanım Respublika Qadınlar Cəmiyyətinin fəal üzvüdür. Bakıda olarkən günlərini bizimlə keçirir, şirin və mənalı söhbətlərilə bizi də faydalandırır. Qaynatasından danışarkən ciddiyyət, həyat yoldaşından danışarkən qətiyyət hiss etdirən bu xanım övladlarından danışarkən üzündən təbəssüm əskik olmur.

Nəvələrindən danışanda üzündən sanki sevinc-şadyanalıq yağışı yağır. Bu yağış onu islatmayır. Çünkü bu 3 layiqli övlad, 9 nəvə yağışıdır. Bu yağış insanı nə isladır, nə də ki, ləkə qoymayır. Lalə xanıma həyat yoldaşının (2011) dünyasını dəyişdikdən sonra ağartdığı və heç zaman boya qoymadığı ağ saçlar çox yaraşır. Uca dağları qar bəzədiyi kimi, Lalə xanımı da məhz bu ağartı gözəlləşdirir.

Onun mülayim xasiyyəti, qonaqpərvərliyi də görünür cənub tərəfdən gəlmədir. Azərbaycanın cənnət guşəsi sayılan və doqquz iqlimi özündə cəmləşdirən Lənkərandandır bizim Lalə xanımımız. Onun gözəl və cəlb edici qələmi də var. Fantastik mövzuda yazdığı oçerklər insanı düşünməyə vadar edir. Bakıda yaşadığına baxmayaraq, hər dəfə Lənkəranın milli xörəklərilə ağzımızı dada gətirir. Bişirdiyi xörəklərin ləzzətindən, keyfiyyətindən danışarkən Lalə müəllimə sanki təcrübəli bir aşbaza çevrilir.

O, söhbət əsnasında bildirdi ki, həyat yoldaşı Qəhrəman, anasının ruhunu şad etmək üçün qızımıza

Zümrüd adını verib. Zümrüd hüquqşünasdır. Bu gün onun sorağı Belçikadan gəlir. Ailəsilə orada yaşayan Zümrüdün gözəl həyat yoldaşı və 4 övladı var. Övladlarının adları da bu nəslin şəcərəsi kimi çox maraqlıdır. Həyat yoldaşı ilk oğluna öz atasının adını verib, – Zasir. İkinciyə, vəfat etmiş bacısından övladlığa götürdüyü qızına Elaza-Könül adını verib. Məhz buna görə Allah –Taala bu ailəyə əkiz qız övladını hədiyyə edir, Ədibə-Nur və Nur –Cahan!

Lalə xanımın oğlu Rəşad Şərqi Vaşinqton Universitetini kompyuter elmi üzrə mühəndislik fakultəsini bitirib. Qızına anasının adını verib. Amma oradakı adətlərə görə adı Lalə-Şaneldir. Bu qız nənəsi Lalə müəlliməni çəkdiyi və sərgilərdə nümayiş olunan rəsmlərilə sevindirir-yaşadır.

Bəli, Lalə müəlliməni tanımaq üçün yazdıqlarım kifayət etməz. Onun hər bir övladından, xaricdə onların analarına “yapdıqları” sürprizlərdən danışdıqca, söhbəti bitmir.

Qəhrəman müəllim ilə birgə ömür sürdüyü xoşbəxt ailəsindən danışanda onun gözlərindən süzülən yaş sanki xoş xatirələrin xəritəsini çəkir, nəslindən etdiyi söhbətlər zamanı gözlərinin önündə sanki şəcərə ağacı cücərir. Xaricdəki sərgüzəştlərindən danışarkən sanki dünyaya açılan pəncərənin önündə görürsən bu xanımı. Bundan artıq xoşbəxtlik ola bilməz!

Ancaq onu daha yaxından tanımaq üçün bir stəkan çayını içib, dadından doymaq olmayan balıqla ləvəngisindən yeyərək, söhbətlərinə qulaq asmaq çox xoşdur. Çünki yalnız belə masa arxasında bu xanımın xatirə dəftərini səliqə və aramla vərəqləmək olar.

## HƏR ÖMÜR BİR TAMAŞA.,

*Hər ömür bir tamaşa.,*
*Hər tamaşa isə bir ömürdür!*

Arzulu dünyamı heç nəyə dəyişmərəm, heç nə ilə də müqayisə etmərəm.

Mən hər zaman Dilarə olmuşam. Adımın mənası kimi könül oxşayan, ürəkləri sevindirən olmuşam. Öz dünyamı-bənzəri olmayan dünyamı heç nəyə dəyişmərəm. Həyatda bir sərkərdə rolunu oynayaraq daima mübarizədə olmuşam. Əldə etdiyim hər bir nailiyyətimdə etmədiklərimi aramışam.

Uşaq olarkən atam deyərdi ki, heyif, bu gərək oğlan olaydı. Baxmayaraq ki, biz iki bacının ailəyə gətirdiyi sevinc üç qardaşın gətirdiyi sevincdən qat-qat üstün olub. Ümumuyyətlə nəslimizdə qız uşaqlarını oğlanlardan çox istəyiblər. Bu bəlkə də qız övladlarının sayının azlığından irəli gəlib.

XIX əsrin sonu XX əsrin əvvəllərində qurub yaradan Azərbaycan milyonçusu, xeyriyyəçi, məşhur neft kralı Ağa Musa Nağıyevin nəslindənəm.

Mənalı bir ömür yaşayaraq, yüksək əxlaqi keyfiyyətlərilə həyatda özünə əbədi iz qoymuş neft milyonçusu Ağa Musa Nağıyev Bakının 11 milyonçularından birincisi olub.

Zaman-zaman bu sahədə çoxşaxəli fəaliyyətimi qiymətləndirərək məni sevənlər mənə hünərli qadın, cəsarətli insan, fəxri bibi, Nağıyevlər nəslinin aslanı, qayğıkeş ana, zəhmətkeş insan, cəfakeş övlad və cəfakeş nəvə titullarını bəxş ediblər.

Deyirlər ki, xeyriyyəçilik əməllərimlə artıq cənnəti qazanmışam. Xalq üçün yaşanan bir ömrün davamçısı

olaraq məsuliyyət və qətiyyət hissini gündəmə gətirə bildiyimə görə sevildim.

Bu dünyaya hər kəsin gəlişi eyni olsa da ömür yolu, həyat kredosu fərqli olur. Qarşıya qoyulan ali məqsədə çatmaq hər kəsə nəsib olmur. Halal zəhməti və zəngin mənəviyyatı ilə xalqı üçün qurub-yaratmaq eşqi bitib-tükənməyən, qaraçuxam saydığım babam, Ağa Musa Nağıyev guman yerimdir.

Məni tanıyanlar zərif duyğulu olduğumu vurğulayıb, XXI əsrin rəmzi kimi parlayıb, bu günə Ağamusa işığı saçan bir xanıma bənzədirlər.

Həyatın çətinlikləri çox vaxt məni sınağa çəksə də, bu sınaqlardan hər zaman qalib çıxmağı bacarmışam.

Düşünürəm ki, bu əzablı yolda qazandıqlarımı sadaladıqca, dünyanın xoşbəxtiyəm, deməyə haqqım çatır.

Uzun illər baba və atamın etdiklərini aşkarlayıb, gündəmə gətirməkdə göstərdiyim səyi bu gün də davam etdirirəm.

Məlum səbəbdən Azərbaycandan kənarda doğulduğuma baxmayaraq, milli ənənələri, azərbaycançılıq meyillərini daxili dünyamda yaşadıb, Ağa Musa Nağıyevin qoyduğu amala, onun həyat yolunun davamçısı olmağa çalışıram.

Yaşım artdıqca sevinirəm. Çünki mən 78 ilin hər gününü yaşayıb, nə isə etmişəm. Yazmışam, yaratmışam, gəzib dünyanı dolanmışam. Çətinliklər məni qorxutmayıb. Mənim həyatım da bir tamaşa olub.

Əgər ömür vəfa etsə, axarıncı kitabımı “Hər tamaşa isə, bir ömürdür” adlandıraram.

Yeni kitabımla sizləri sevundirəcəyimə qədər!



**Ağa Musa Nağıyev Hacı Nağı oğlu**



**Ümmə Səlmə Kərbəlayi Cəfərqulu qızı**
**Ağa Musanın həyat yoldaşı**



**Ümmül Banu Nağıyeva - Əsədullayeva**
**Ağa Musa Nağıyevin qızı**



**İsmayıl bəy Nağıyev**
**Ağa Musa Nağıyevin oğlu**



**Xədicə xanım Əsədullayeva – Nağıyeva (1874-1944)**
**Şəmsi Əsədullayevin qızı**



**Ağa Əli Nağıyev**
**Ağa Musanın qardaşı**



**Ağa Musanın oğulluğa götürdüyü Fərəc**
**1903-1973**



**Rauf, Ağa Əli, Solmaz –Fərəcin övladları**



**Banin fransız yazıçısı, milyonçu Ağa Musa Nağıyevin nəvəsi**

**Portret: Nihad Əliyevindir**



**A.M.Nağıyevin məzarı 1938-dən 1998-dək**



**A.M.Nağıyevin nəvələri Solmaz, Dilarə, Rauf bu məzarın önündə (1992-ci ildə)**



**Ağa Musanın nəşinin 4-cü dəfə köçürülməsi**
**23 iyul 1998-ci il**



**Kəfənə tutulması**
**(eynəkli Rauf nəvəsidir)**



**Yeni məzara qoyulması**



**25 Dekabr 1998-də**
**A.M.Nağıyevin 4-cü məzarının açılışı**




**Dursun xanımın məzarı, Xədicə xanım və Murad Nağıyevlərin "Daş kitabələri"**




**Yelizaveta Nağıyeva – Tumanovanın qəbri - Yasamal qəbiristanlığında. Baş daşındakı yazı - ikinci həyat yoldaşı**

## Andrey Levanoviç Tumanov ilə







**A.M.Nağıyevin məzarı önündə Toru Nişivaki**




**Mən və bacım Solmaz xanım Şəmsi Əsədullayevin məzarı önündə (2002)**



**Bacım Solmaz ilə**
**1952-ci il**



**Atam - Fərəc Nağıyev**



**Qardaşım Çingiz Nağıyev 1938-1993**



**Nəcəf və Hökümə Muxtarovlar (qaynatam və qaynanam)**



**Həyat yoldaşım, Samirin 1 yaşı**

# AMBASSADOR FOR PEACE

Universal Peace Federation

Interreligious and International Federation for World Peace

The Universal Peace Federation and the Interreligious and International Federation for World Peace acknowledge as Ambassadors for Peace those individuals whose lives exemplify the ideal of living for the sake of others, and who dedicate themselves to practices which promote universal moral values, strong family life, interreligious cooperation, international harmony, renewal of the United Nations, a responsible public media, and the establishment of a culture of peace. Transcending racial, national and religious barriers, the Ambassadors for Peace contribute to the fulfillment of the hope of all ages, a unified world of peace wherein the spiritual and material dimensions of life are harmonized.

The Universal Peace Federation and the Interreligious and International Federation for World Peace are proud to hereby recognize as an Ambassador for Peace,

**AGA MUSA NAGIYEV**

*Rev. Dr. Sun Myung Moon, Founder*

*Dr. Hak Ja Han Moon, Co-Founder*

# AMBASSADOR FOR PEACE

Universal Peace Federation

Interreligious and International Federation for World Peace

The Universal Peace Federation and the Interreligious and International Federation for World Peace acknowledge as Ambassadors for Peace those individuals whose lives exemplify the ideal of living for the sake of others, and who dedicate themselves to practices which promote universal moral values, strong family life, interreligious cooperation, international harmony, renewal of the United Nations, a responsible public media, and the establishment of a culture of peace. Transcending racial, national and religious barriers, the Ambassadors for Peace contribute to the fulfillment of the hope of all ages, a unified world of peace wherein the spiritual and material dimensions of life are harmonized.

The Universal Peace Federation and the Interreligious and International Federation for World Peace are proud to hereby recognize as an Ambassador for Peace,

**DILYARA NAGIYEVA**

Rev. Dr. Sun Myung Moon, Founder

Dr. Hak Ja Han Moon, Co-Founder

для актовъ, оплачиваемыхъ сборомъ низшаго оклада, на сумму не свыше 2000 рублей.

Для актовъ, оплачиваемыхъ сборомъ высшаго оклада, на сумму не свыше 200 рублей, и для актовъ, оплачиваемыхъ сборомъ низшаго оклада, на сумму не свыше 1000 рублей.

ОДИНЪ РУБЛЬ.

ПЕРЕВОДЪ СЪ ПЕРСИДСКАГО.

СВИДѢТЕЛЬСТВО.

Изъ Центральной Консисторіи Бехаистовъ въ АККѢ это свидѣтельство дается женѣ Ага-Мусы, НАГІЕВОЙ Лизѣ Ханум дочери Григорія, въ томъ, что между нею и вышесказаннымъ Ага-Мусою – да будетъ надъ обоими СВѢТЪ БЕХА-УЛЫ – по Бехаистскому закону 28 Марта 1907 года законный бракъ соверше и этотъ законный бракъ ГАДЖИ ГУЛАМЪ ГУСЕИНЪ КАЛЕНДАРЪ въ Баку, при свидѣтеляхъ Кербалаѣ – Ага Киши Алiевѣ и Мешеди Баба Самедовѣ и Мирзѣ – Али Акперъ Мамедхановѣ, совершилъ.

По этому это свидѣтельство съ моею подписью и печатью удостовѣряю. Хаифа 7 томуза 1919 года. Абдулъ Беха Абасъ. / М. П./.

Настоящая подпись и печать есть подпись и печать Его Высокопреосвященства Абаса Эффенди Бехаи.

Это есть подпись и печать Его Высокопреосвященства Абаса Эффенди. Вицеконсулъ Персидской Имперіи въ Хайфѣ /подпись/ / М. П./.

Переводъ сей учинилъ и за вѣрность ручаюсь, при чемъ удостовѣряю, что текстъ документа составленъ на Персидскомъ языкѣ; подпись Абаса Эффенди учинена по Арабски, въ приложенной именной печати вырезана надпись „АБАСЪ"; слѣдующее удостовѣреніе подписи Абаса Эфенди, сдѣланное Персидскимъ Вице-Консуломъ, учинена на Англійскомъ языкѣ; подпись лично Вице-консула на Персидскомъ въ приложенной печати вырезано на французскомъ и Персидскомъ языкахъ: „ПЕРСИДСКОЕ ИМПЕРАТОР-

Ağa Musa Nağıyev ilə Yelizaveta Qriqoryevnanın kəbini


Переводъ

133

Азербайджанская Республика
ПРАВЛЕНІЕ
БАКИНСКАГО КАЗІЯ
„3" декабря 1919 г.
Вх. № 3321
въ г. Баку.

Свидетельство.

1919 года 30 ноября дано сие свидетельство о томъ, что Ага Муса Нагіевъ, значущейся прихожаниномъ мечети „Гаджи Касумъ Бека" умеръ въ 1919 году 4 марта и похороненъ по обряду мусульманъ на новомъ мусульманскомъ кладбищ[е], и смерть его записана въ метрики 1919 года за № 18. Приходской Муллы мечети „Касумъ Бека" молла Рухулла Гаджи Абдулла оглы. (М.П.)

Бакинский Казий: А. Г. Гадизадэ

Секретарь

Ağa Musa Nağıyevin vəfatının tarixi haqqında sənəd


BAKI MİLYONÇUSU
AĞA MUSA
NAĞIYEV
1849 - 04.III.1919



Büstünün açılışı 14.01.2916





Binəqədi İH-nin müavini Vüsar İsmayılova diplomun verilməsi



A.M.Nağıyevin məzarı önündə Millət vəkili Dilarə Cəbrayılova



**Oğlum Samir, gəlinim Gülnarə**



Milyonçu Aydın Qurbanovun həyat yoldaşı İrina xanım və oğlu Səməd Qurbanov ilə görüşümüz (Solmaz və Dilarə) 2003-cü il



Fürüzə xanım mənim yubileyimdə



“Pirhəsən”də H.Z.Tağıyevin məzarı önündə
Soldan: Tamilla Aşurbəyova, Səfiyə Tağıyeva, Dilarə, Mahcamal, Nailə Vəlixanlı, Solmaz və Səfiyə xanımın oğlu Tofiq



Cənab prezident İlham Əliyev ilə 2004-cü ildə görüşüm



Həmin ili XDMX-nın rəisi general Vaqif Axundov ilə görüşüm





Qızım Könül ilə “Humay” mükafatı aldığım gün



**İqtisad Universitetində portretlərin asılması mərasimi, rektor Şəmsəddin Hacıyev və mən**



**Diaspora ilə İş Komitəsində portretin asılma mərasimi**



**"Yük" filminin sponsoru Mirzə Fərəcov həyat yoldaşı Xoşqədəm xanım ilə**



**2000-ci ildə Züleyxa Əsədullayeva ilə görüşüm**



Məşhəd ziyarətində (2013-cü il)





“Nurlu əməllərin işığında” kitabının təqdimatı zamanı BMT yanında Ümumdünya Sülh Federasiyasının Azərbaycandakı nümayəndəliyinin Sədri - Rəhim Hüseynovun çıxışı



“Nurlu əməllərin işığında” kitabının təqdimatı Yazıçılar Birliyində (2015)



Övladlarım: Yeganə, Samir və Könül
Ofelya xanım fəxri qonağım



Övladlarım və qardaşım Raufun qızı Zəhra



Övladlarıma Əsilzadələr Məclisinin şəhadətnaməsinin verilməsi



2016-cı il yubileyimdə övladlarım: Samir, Yeganə, Gülnarə, Könül və rəfiqəm Bahar xanımla birlikdə



Mənəvi övladım Tural



Qardaşım Raufun övladları: Samirə, Zəhra, Nigar, Hicran və rəfiqəm Elmira xanım



Çingizin qızı Arzu ailəsi ilə - Vüqar həyat yoldaşı, övladları Samirə, İlham və Eldar



Oğlum Samir, nəvəsi Cəmil və qudaları Niyazi-Arzu



Solmaz xanımın övladları Elşən və Rövşən, oğlum Samir ilə



Əmim qızı Ofelya Nağıyeva – İsmayılova

Soldan Bahar xanım RQC-nin sədri



Yazıçılar Birliyində kitabımın təqdimatı
Solda Asif Rüstəmli – elmi redaktorum və Elnarə Xəlilova müğənni



Oğlumun həkimi cərrah-uzman Əli Zırh
“Ağamusa Zirvəsi” diplomunun təqdimatı



Millət vəkili Aytən Mustafayeva




Heydər Əliyev Fondunun Vitse-prezidenti Leyla Əliyeva ilə 2016-cı ildə görüşüm

# AĞA MUSA NAĞIYEVİN TİKDİRDİYİ 98 BİNADAN BƏZİLƏRİ




Socarın binası



Ağa Musa Nağıyev adına xəstəxana



Bayıl qəsəbəsində 15saylı poliklinika



Həmin binada soba


OMD - Uşaq və Pediatriya İnstitutunun daxili görünüşü



İndiki “Lukoyl”ın əvvəlki görünüşü



Keçmiş Avropa mehmanxanası - “Lukoyl”





İsmailiyyə sarayı


Mərkəzi Zabitlər evi


Mərkəzi Zabitlər evinin daxili görünüşü



1918-ci ildə tikdirdiyi binanın üzərində emblemi əks olunub



Məmməd Əmin Rəsulzadə 6
Keçmiş Qastronomun binası



Qaraşəhərdə indiki N.Əliyev küçəsi 10 saylı yaşayış binası



Rəsul Rza küçəsi 84, yaşayış evi





Abşeron Mədə Bağırsaq sanatoriyasında hər iki villasının görüntüsü – taxta və şüşəbəndlərdən, parket döşəmə ilə



Sinaqoq üçün tikdirdiyi kilsənin görüntüsü



Kənarlarındakı daşlar 12 İmam eşqinə düzülmüş, 8 guşəli şüşələr müsəlman dini əhəmiyyətini daşıyır



Şəmsi Bədəlbəyli 24 – sökülmüş binası



Keçmiş yaşayış binası, hazırda “ÜNS” teatrı